Akademik
HÜSEYN MUSTAFA oğlu ƏHMƏDOV

SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

XXX CİLİDDƏ

II CİLD

Bakı-ADPU-2026

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Akademik
Hüseyn Mustafa oğlu Əhmədov

SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

Otuz ciliddə

II cild

Bakı-ADPU-2026

Hümeyir Hüseyn oğlu Əhmədovun ümumi rəhbərliyi ilə hazırlanmışdır.

Tərtib edənlər: *BPA-nın həqiqi üzvü,*
p.e.n. ***Fərrux Abbas oğlu***

p.e.n. ***Hümeyir Hüseyn oğlu***

p.e.n. ***Müslüm Hətəm oğlu***

Elmi redaktor: *prof.* ***Əjdər Ağayev***

Akademik Hüseyn Əhmədov. Seçilmiş pedaqoji əsərləri. 30 ciliddə. II cild. Bakı: ADPU. 2026, 500 s. ***(təkrar elektron nəşr)***

Akademik Hüseyn Əhmədovun "Seçilmiş pedaqoji əsərləri"nin oxuculara təqdim edilən ikinci cildinə daxil edilən məqalələrdə Azərbaycan, rus və Avropanın qabaqcıl pedaqoqlarının pedaqoji ideyalarından bəhs edilir. Müəllifin müxtəlif illərdə nəşr etdirdiyi məqalələrin bir çoxu bu gün öz əhəmiyyətini saxlayır.

Kitab təhsil işçiləri, müəllimlər, ali məktəb tələbələri, magistr və aspirantlar üçün faydalıdır.

Kitabdan geniş oxucu kütləsi də istifadə edə bilər.

ISBN 978-9952-615-35-7

© Əhmədov

Elmi redaktordan

Azərbaycanda məktəb və pedaqoji fikrin inkişafı tarixinin ardıcıl öyrənilməsi sahəsində bir neçə tədqiqatçı alimin xidmətləri artıq elm tarixində təsdiqlənmişdir. Onlar öz tədqiqatları ilə sırf pedaqogika tarixçisi kimi klassik mövqe qazanmış, pedaqogika tarixinin, o cümlədən Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin bir elm, tədris fənni sahəsi olaraq formalaşmasına dəyərli yönüm vermişlər. Bu sahədə professor Əhməd Seyidovun, akademik Mehdi Mehdizadənin, professor Mərdan Muradxanovun elmi xidmətləri və kadr hazırlığı sahəsindəki fəaliyyətləri olduqca önəmlidir.

Artıq 50 ildir ki, Hüseyn Mustafa oğlu Əhmədov Azərbaycanda məktəb təhsili və pedaqoji fikrin inkişaf tarixinin araşdırılması ilə inamla məşğul olaraq, bu sahədə elmi məktəbin yaradıcılarından birinə çevrilmişdir. O, qiymətli tədqiqatları ilə elmi zənginləşdirdikcə, özü də püxtələşmiş, şöhrətlənmiş, pedaqoji elmlər doktoru, professor, akademik kimi yaxın xarici ölkələrdə də Azərbaycan elminin təmsilçisinə çevrilmişdir.

Hüseyn Əhmədov Bakı, Tiflis, İrəvan, Həştərxan, Kazan, Baxçasaray, Moskva, Sankt-Peterburq və digər şəhərlərdəki arxivlərdə aylarla işləyərək Azərbaycanda təhsil nəzəriyyəsi və təcrübəsinə aid materialları diqqətlə öyrənmiş, XIX əsr Azərbaycan məktəbinin monumental mənzərəsini yaratmışdır. O, görkəmli mütəfəkkir-maarifçilər ilk növbədə N.Tusi, A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, R.Əfəndiyev, F.Köçərli, N.Nərimanov, S.M.Qənizadə, Ə.Seyidov və bir çox digər pedaqoji fikir nümayəndələri haqqında, eləcə də, pedaqogika tarixi problemləri barəsində sanballı tədqiqi nəticələrdən irəli gələn fikirlər söyləmişdir.

Akademik H.Əhmədov elmi etika normalarını tələbkarlıqla gözləyən alimdir. O, elmi ixtisaslaşdırmaya, ixtisas sahibinin mükəmməlləşməsinə üstünlük verdiyi kimi, alimdən öz ixtisas sahəsini diletantların zəbtindən qorumağı da alimin borcu kimi nəzərə alır.

Özünün elmi məktəbi ilə tanınan akademikin əsərləri, ayrı-ayrı kitab və tədris vəsaitlərini nəzərə almasaq, əsasən müxtəlif ölkələrdə nəşr olunan elmi jurnal və toplularda çap edilmişdir. Bu əsərlərin, heç olmasa, bu əsərlərdən seçmələrin küll halında bir kitabda toplanaraq nəşr edilməsi, müəllif haqqı olmaqdan əlavə,

elmi sərvətin qorunması, istifadə imkanının artırılması baxımından da qiymətlidir.

Akademik H.M.Əhmədovun beş cildlik əsərlərinin 2-ci cildinə əsasən, alimin Azərbaycan, rus və Avropa pedaqoji fikrinin görkəmli nümayəndələrindən olan şəxsiyyətlərin baxışlarını təhlil edən məqalələri toplanmışdır.

Müxtəlif illərdə, bir-birindən xeyli aralı zaman kəsiyində qələmə alınan bu məqalələrdə eyni ruh-vətəndaş alimin milli-vətənpərvərlik ruhu, dəyişməyən elmi kredosu hiss olunur. Hər bir məqalədə araşdırma nəticəsi, mə'lumatvericilik, öyrədicilik hakimdir. Alimin məqalələrinin bir çoxu sırf tədqiqi araşdırmaların nəticəsidirsə, bə'zisi isə tarixi günlər və yubileylərlə əlaqədar olaraq təbliği xarakter daşıyır.

Kitabla tanış olan oxucular müəllifin mövzu dairəsinin geniş və əhatəli olduğunu görəcəglər. Onlar, eyni zamanda, ötən əsrin 50-ci illərinin sonu, 60-cı illərdə və sonralar yazılmış məqalələrdə keçmiş sovet ideologiyası izlərinə, partiyalılıq mövqeyinə rast gələcəklər. Bu təbiidir. Çünki həmin məqalələrin yazıldığı dövrün tələbi elə idi. Biz məqalələrin üslubuna və pedaqoji istiqamətinə müdaxilə etmədən, elmi dəqiqliklərə, elmi mənzərənin lazımınca alına bilməsinə çalışmışıq. Çalışmışıq ki, dövrün fikir övladı öz «şikəstliyi» ilə də görünsün, əlbəttə, hansı məqalədə bunlar varsa, digər tərəfdən, alimin irsinin tədqiqi zamanı bu çalarlar, şablon və ya şablondan qaçmalar təhlil olunaraq reallığı ilə üzə çıxarılsın.

Məqalələrin xronologiyası, problematikası da alimin elmi-tədqiqi fikir inkişafını anlamağa imkan verir.

Qeyd edim ki, bu kitab H.Əhmədovun əsərlərinin bir qismini təşkil edir. Alimin yaradıcılığını, elmi irsini bütöv olaraq öyrənmək istəyənlər gərək digər beş cildlə də tanış olsunlar.

Onu da bildirmək istərdim ki, bu kitab yalnız təhsil alanlar və öyrədənlər, tədqiqatçılar üçün deyil, Azərbaycan xalqının elmi-mədəni irsi ilə maraqlanan hər kəs üçün qiymətlidir, yararlıdır.

Kitabı oxuyub, faydalanacaq dəyərli oxuculara irəlicədən minnətdarlıq edir, Yaradan Sizə yar olsun, – deyirik.

Prof. Əjdər AĞAYEV
8.08.2001.
Bakı şəhəri

N.Nərimanovun pedaqoji fəaliyyəti haqqında (Həştərxan dövrü)

N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin Həştərxan dövrü xüsusi əhəmiyyətə malikdir. N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin Həştərxan dövrünü iki mərhələyə ayırmaq olar.

Birinci dövr (1909–1913) N.Nərimanovun inqilabi iş üstündə Həştərxana sürgün edildiyi illəri əhatə edir. 1909-cu il mart ayının 1-də çar jandarmları tərəfindən Tiflisdə həbsə alınmış N.Nərimanov 7 ay Metex qalasında (9-cu kamerada) saxlanıldıqdan sonra 2 il müddətinə Həştərxana sürgün olunmuşdu.

N.Nərimanov Həştərxana gəldiyi gündən e'tibarən özünün inqilabi-ictimai və pedaqoji fəaliyyətini daha da genişləndirmişdir.

N.Nərimanovun Həştərxandakı pedaqoji fəaliyyəti ilk növbədə xalq universiteti ilə əlaqədardır. O, həmin dövrdə Həştərxanda Həştərxan xalq universiteti cəmiyyəti işində fəal iştirak etmişdir.

1905-ci ilin birinci rus inqilabından sonrakı irtica illərində Rusiyanın ictimai mühitində xalq universitetləri kütlə içərisində mədəni-maarif işi ilə məşğul olan bir cəmiyyət idi. Rusiyanın digər yerlərində olduğu kimi Həştərxanda da xalq universiteti cəmiyyətinin məqsədi Həştərxan şəhəri və onun quberniyasında xalq üçün elmi-maarif müəssisələri tə'sis etməkdən və xalq kütlələrinin maariflənməsinə kömək göstərməkdən ibarət idi.

Xalq universitetinin nizamnaməsində xalq maarifinə və mədəniyyətinə dair məsələlər mərkəzi yeri tuturdu. Xalq universiteti nəinki Rusiyada, həm də xarici ölkələrdə maarif işinin vəziyyətini öyrənir və yayırdı. Maarif və mədəniyyətə dair kitab nəşr etmək, kitabxana-qiraətxana, kitab mağazası açmaq işində də Həştərxan xalq universitetinin böyük rolu olmuşdur.

N.Nərimanovun Həştərxanda fəal iştirak etdiyi cəmiyyətlərdən biri də Həştərxan müsəlmanlarını əhatə edən «Şurayi-islam» adlanan cəmiyyət idi. «Şurayi-islam» cəmiyyəti 17 oktyabr 1905-ci il manifesti əsasında tə'sis edilmişdi. Həmin cəmiyyət vasitəsilə N.Nərimanov xalq arasında maarifin yayılması, xalqın savadlanması üçün gərgin mübarizə aparmışdır.

«Şurayi-islam» cəmiyyətinin məqsədi, yerli tatarlar arasında kütləvi işlər aparmaqdan, kitabxana, qiraətxana, mühazirə, söhbət, ədəbi gecə, məktəblər təşkil etməkdən və pedaqoji xarakterli jurnallar buraxmaqdan ibarət idi.

Həştərxan xalq universitetinin «Şurayi-islam» cəmiyyətinin üzvü olan N.Nərimanov hər iki cəmiyyət vasitəsilə xalq maarifi və mədəniyyətinin inkişafı üçün ciddi-cəhdlə çalışırdı. N.Nərimanov Həştərxanda tatarlar üçün kitabxana, qiraətxana açır, şəhərin qabaqcıl ziyalılarını toplayır və bunların vasitəsilə xalq arasında maarif və mədəniyyəti yayırdı.

N.Nərimanov haqqındakı xatirəsində Həştərxanın qocaman sakinlərindən olan N.Y.Şabanov yazır: «N.Nərimanovun fəal iştirakı ilə Həştərxanın fəhlə rayonu olan Sarevdə (bu rayon 1931-ci ildən N.Nərimanov rayonu adlanır –H.Ə.) ictimai kitabxana-qiraətxana təşkil edilmişdi. N.Nərimanov həmin kitabxana-qiraətxanada tez-tez mühazirələr oxuyur və böyük tərbiyəvi işlər aparırdı».

N.Nərimanovun Həştərxandakı əsas xidmətlərindən biri də xalqın ictimai tərbiyəsində mühüm rol oynayan tatar dram teatrının təşkilidir.

N.Nərimanovun Həştərxana sürgün edilməsi yerli tatar dram dərnəyinin möhkəmlənməsinə səbəb olmuşdur. Bakıda, Gəncədə teatr sahəsində geniş fəaliyyət göstərən və böyük təcrübəyə malik olan N.Nərimanov Həştərxanda da qüvvətli bir dram dərnəyi yaratmış və özü də bu dərnəyə rejissorluq etmişdir. Həmin dərnəyin kollektivi N.B.Vəzirovun «Bəxtsiz cavan» və N.Nərimanovun «Nadir şah» əsərlərini tamaşaya qoymuşdur. Tamaşadan yığılan pul isə N.Nərimanovun rəhbərliyi ilə yoxsul tatarların mədəni-maarif işlərinə sərf edilmişdir.

Həştərxan zəhmətkeşlərinin böyük hörmətini qazanan Nərimanov sürgündə olmasına baxmayaraq 1912-ci ildə şəhər dumasına üzv seçilmişdi. N.Nərimanov duma iclaslarında zəhmətkeşlərin mədəni-maarif və səhiyyə vəziyyətinin yaxşılaşdırılması üçün çox təşəbbüs göstərmişdir. Onun iştirak etdiyi iclasların birində Həştərxan şəhəri üzrə 1913-cü ilin büdcəsi müzakirə edilirdi. Yoxsul tatarların uşaqlarını mühafizə etmək üçün uşaq evi açmaq məsələsi qaldırılmış və bu məqsədlə üç yüz manat pul buraxılması qərara alınmışdı. 1912-ci ildə də bu məsələ dumanın müzakirəsinə

verilmişdir. Lakin şəhər idarəsi və maliyyə komissiyası yoxsul tatarların bu tələbini rədd etmişdir. N.Nərimanovun dumada iştirak etməsi bu məsələnin həllinə müsbət tə'sir göstərmişdir.

Ümumiyyətlə, N.Nərimanov duma iclaslarında məktəblə əlaqədar olan məsələlərin həlli, o cümlədən tədris vəsaiti, məktəb avadanlığının yaxşılaşdırılması və s. üçün fəal çalışmışdır.

N.Nərimanov xalqın tərəqqisində mətbuatı əsas vasitələrdən biri hesab etmişdir. Həştərxanda olduğu müddətdə, o, «Burxani-tərəqqi» (tatar dilində) və «Astraxanskiy kray» (rus dilində) adlı qəzetlərin redaksiyalarında əməkdaşlıq etmiş, həmin qəzetlərdə bir sıra elmi, pedaqoji və siyasi məqalələrini nəşr etdirməyə müvəffəq olmuşdur.

N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin Həştərxan dövrünün ikinci hissəsi 1917-ci ildən sonrakı illərə təsadüf edir.

N.Nərimanov 1918-ci ildə Bakıda şəhər təsərrüfatı komissarı vəzifəsində çalışırdı. 1918-ci ilin yayında o, ağır xəstələnmiş və müalicə üçün Həştərxana göndərilmişdir. Buna görə də 26 komissarın başına gələn fəlakətdən təsadüfi olaraq xilas olmuşdur. Sağaldıqdan sonra Nərimanov partiyanın tapşırığı ilə Həştərxanda qalmış və 1919-cu ilin iyul ayına qədər orada işləmişdir.

Nisbətən az vaxt əhatə etməsinə baxmayaraq bu dövr N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin ən məhsuldar illəridir. N.Nərimanov bu dövrdə Həştərxanda məşhur maarifçi-pedaqoq, peşəkar inqilabçı, görkəmli partiya və dövlət xadimi kimi daha da məşhurlaşmış və mətinləşmişdir.

N.Nərimanov Həştərxanda 1918-ci ilin sentyabr ayından 1919-cu ilin fevral ayına qədər müsəlman işləri üzrə ölkə Hərbi-Siyasi Komissarlığının səhiyyə şö'bəsi müdiri vəzifəsində işləmişdir.

N.Nərimanov səhiyyə şö'bəsinin rəhbəri olmaqla bərabər, həm də bir həkim kimi yoxsul məktəbli uşaqların müalicəsinə xüsusi fikir vermişdir. 1918-ci il noyabr ayının 3-də Həştərxan ölkə müsəlmanları maarif şö'bəsinin Həştərxan şəhəri və onun qəza maarif şö'bə müdirlərinə yazdığı məktubunda deyilir: «…xəstələnən kasıb uşaqların valideynlərinə e'lan olunsun ki, onlar həkim yardımı üçün səhər saat 9-dan 11-ə qədər Kanavada Yaqudinin evində (N.Nərimanov yaşadığı evdir – H.Ə.) və saat 1-dən 2-yə qədər

müsəlman hərbi xəstəxanasında həkim N.Nərimanova tə'cili müraciət etsinlər».

N.Nərimanov bu müddətdə həm də «Kommunizm», «Bizim həftəmiz» və s. mövzularda mühazirələr oxumuş, əhali arasında mədəni-kütləvi işlər aparmışdır.

1919-cu il fevral ayının əvvəllərində Həştərxan quberniya icraiyyə komitəsinin qərarı ilə N.Nərimanov Quberniya xalq maarif şö'bəsinin müdiri tə'yin olunmuş və bu vəzifədə həmin ilin iyul ayının 2-nə qədər yorulmadan çalışmışdır.

Onun xalq maarifi sahəsində fəaliyyətə başladığı dövr Həştərxanın ən ağır və çətin illərindən biri idi. Həmin dövrdə bir tərəfdən Həştərxanda əhali içərisində, o cümlədən şagirdlər arasında yayılan tif və başqa yoluxucu xəstəliklər, digər tərəfdən də şəhərin yaxınlıqlarında atılan top səsləri, Denikinin hücumları məktəbdə tə'lim-tərbiyə işini xeyli çətinləşdirmişdi.

Həmin dövrdə xalq maarifi işindəki çətinliklərdən biri də yeni tipli məktəblərin təşkili idi. Bu məsələ çox mürəkkəb və çətin idi. Köhnə məktəblərdən fərqli olaraq gənc nəsli yeni həyata hazırlayan, onları elmlərin əsasları ilə silahlandıran və onlarda nəcib əxlaqi sifətləri tərbiyələndirməyə qadir olan yeni tipli məktəblərin yaradılması bir vəzifə kimi qarşıda dururdu.

Yeni təşkil olunmuş məktəblərin vəzifəsi, savadsızlığa qarşı mübarizə aparmaq, xalqı cəhalət yuxusundan oyatmaq, keçmişin əzbərçilik məktəbini elmlərin şüurlu mənimsənilməsi məktəbinə, keçmişdə kazarmanı andıran məktəbləri uşaqlar üçün işıqlı məktəblərə çevirməkdən, əmək məktəblərini yeni şəraitə uyğun qurmaqdan ibarət idi. Şübhəsiz ki, bu məsələlərin həyata keçirilməsində mərkəzi yeri müəllimlər tutmalı idi. Müəllimlər isə çatışmırdı. Köhnə Rusiyadan qalan müəllimlərin bir qismi orduya səfərbər edilmişdi, bir qismi isə yeni sovet məktəbləri üçün tam hazırlıqlı deyildi.

Bu məqsədlə də ilk günlər Həştərxan quberniya xalq maarif şö'bəsi yanında «Pedaqoji şura» adlanan bir şö'bə yaradılmışdır. Həmin şö'bənin məqsədi, müəllimləri pedaqoji biliklə silahlandırmaqdan, müəllim kadrları hazırlayan qısamüddətli pedaqoji kursların yaradılmasına rəhbərlik etməkdən ibarət idi.

N.Nərimanovun sədrliyi ilə keçirilən quberniya xalq maarif şö'bəsi kollegiyasının bir sıra iclaslarında Həştərxan şəhərində qısamüddətli pedaqoji kursların təşkili haqqında məsələ müzakirə olunmuş və kursların açılması haqqında müvafiq qərar qəbul olunmuşdur.

N.Nərimanov rəhbərlik etdiyi QXMŞ qısa müddətdə yüzlərlə müəllim kadrları yetişdirmişdir.

N.Nərimanov müəllimlər kursuna siyasi cəhətdən tam hazırlıqlı, yüksək ixtisaslı və təcrübəli mühazirəçilər cəlb etmişdir.

Beləliklə, Nərimanov bu dövrdə bir sıra çətinliklərə baxmayaraq qısamüddətli: ikiaylıq, üçaylıq, birillik pedaqoji kursların açılmasını təşkil etmiş və burada hazırlanan müəllim kadrları vasitəsilə quberniya daxilində xalq maarifi işinin yenidən bərpa edilməsinə çalışmışdır. N.Nərimanov özü də hifz-səhiyyə, bədən tərbiyəsinin əhəmiyyəti və s. mövzularda mühazirələr oxumuşdur. Qısa müddətli pedaqoji kurslarla yanaşı sonralar, müəllim kadrları hazırlamaq məqsədilə Həştərxanda müəllimləri təkmilləşdirmə institutu və pedaqoji institut təşkil edilmişdir.

Bu dövrdə xalq maarifi sahəsində N.Nərimanovun ən mühüm xidmətlərindən biri də kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında olan dekretin düzgün tətbiq edilməsi işindəki fəaliyyətindən ibarətdir. Həmin dekretin yalnız Həştərxanda deyil, bütün milli ucqarlarda həyata keçirilməsində N.Nərimanovun xüsusi rolu olmuşdur. O, «Cari moment və siyasi vəziyyət haqqında», «Milli məsələ və Sovetlər», «Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına dair» və s. mövzularda çıxış edərək bu dekretin əhəmiyyətini dəfələrlə izah etmişdir.

N.Nərimanovun bu mühazirələri yeni hökumətin ilk dekretlərindən biri olan kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında olan dekretin düzgün tətbiqinə böyük kömək etmişdir.

Q.V.Çiçerin RK (b) PMK-ya göndərdiyi məktubunda N.Nərimanovun həmin çıxışını xatırlayaraq yazmışdı:

«Vaxtı ilə Nərimanov yoldaş məhz bu məsələ üzrə şərqdəki təbliğatçılara çox qiymətli göstərişlər verirdi. Onun, kilsənin və dövlətin bir-birindən ayrılması barədə mollalara müraciətlə söylədiyi nitqi müsəlman camaatına ehtiyatla yanaşmağın nümunəsidir».

V.İ.Lenin bu cümlənin altından xətt çəkmişdi. Bu hal Leninin Şərqə aid məsələlərdə, müsəlman Şərqinin ayrı-ayrı məsələlərində N.Nərimanovun fikri ilə razılaşdığını və onu yüksək qiymətləndirdiyini göstərir.

O dövrdə xalqda dinə qarşı böyük inam vardı. Lakin yerlərdəki bə'zi işçilər, xüsusilə müsəlman aləminin qayda-qanunları ilə tanış olmayan rəhbər işçilər bu dekretdən danışdıqda məsələnin kökünü faktlar əsasında izah etmək əvəzinə, «allah yoxdur, Qur'anı yandırmaq lazımdır» – deyir və beləliklə də dinə inananların hissiyyatına toxunur, onları təhqir edirdilər. Bu isə dinə inananların e'tirazlarına səbəb olurdu. Bundan da əks təbliğatçılar asanlıqla istifadə edirdilər.

Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına dair dekretin şərhində bir sıra təhriflərə yol verilirdi. Məhz buna görə də 1918-ci il dekabrın 28-də N.Nərimanov Həştərxan kommunistlərinin və müsəlmanlardan olan məs'ul işçilərin yığıncağında çıxış edərək bu məsələnin mahiyyətini bir daha izah etmiş və onlara dekret haqqında düzgün istiqamət vermişdir.

N.Nərimanovun bu mövzuda etdiyi bir sıra çıxışlar xalq arasında kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasına dair dekretin düzgün başa düşülməsinə və yerli tatar, müsəlman, qırğız, kalmık uşaqlarının məktəbə cəlb edilməsinə böyük kömək göstərmişdir.

Həştərxan şəhər və onun qəzalarındakı I dərəcəli məktəblərin tə'limatçısı X.Mövludov 1919-cu il mart ayının 26-da Həştərxan şəhərində və onun qəzalarında olan tatar müsəlman məktəblərinin vəziyyəti haqqında quberniya xalq maarif şö'bəsinə təqdim etdiyi hesabatda yazmışdır:

«…6) Kilsənin dövlətdən və məktəbdən ayrılması. Dinin məktəbdən ayrılması maarif şö'bəsi üçün ən çətin məsələ idi. Çünki əhali məktəbin simasında uşağı allah və din ilə tanış edən bir müəssisəni görürdü.

Odur ki, dinin məktəbdən ayrılması haqqındakı əmr əhali tərəfindən yaxşı qarşılanmadı. Bu dekretin e'lan olunması ilə məktəb həyatı nəzərə çarpacaq dərəcədə zəifləyirdi: elə hallar olurdu ki, məktəbdə cəmisi bir neçə uşaq qalırdı.

Lakin xoşbəxtlikdən şö'bə öz vaxtında tədbirlər gördü. Maarif şö'bəsinin gördüyü tədbirlər içərisində bu məsələyə dair yerlərdə oxunan mühazirələrin və aparılan təşviqatın xüsusi əhəmiyyəti oldu. Nərimanov özünün mühazirələri ilə ən qiymətli bir iş görmüş oldu…

Beləliklə, bu arzuolunmaz hadisə aradan qaldırıldı və məktəb həyatı öz adi yoluna düşdü»[1].

Xalq məktəblərinin təşkili məsələləri ilə əlaqədar olaraq N.Nərimanov dəfələrlə quberniyanın ən ucqar yerlərinə getmişdir. Həştərxanın qocaman müəllimlərinin xatirələrində N.Nərimanovun Həştərxan aullarına getməsinə dair maraqlı epizodlar vardır.

N.Nərimanovun Həştərxandakı fəaliyyəti dövründə diqqəti cəlb edən məsələlərdən biri də uşaq yurdsuzluğuna qarşı mübarizə idi. Mə'lumdur ki, vətəndaş müharibəsinin ağır illərində cəbhədə həlak olanların uşaqları yurdsuz və baxımsız qalmışdı. Uşaqlara böyük qayğı göstərən hökumət uşaq yurdsuzluğunu aradan qaldırmaq üçün bir sıra ciddi tədbirlər görürdü. Həmin tədbirlərdən biri də uşaq koloniyaları təşkil etməkdən ibarət idi.

N.Nərimanov Həştərxan quberniyasında uşaq koloniyalarının təşkilinə müsbət tə'sir göstərmişdir. Onun xüsusi göstərişi ilə 1919-cu ildə Həştərxan şəhərində 692 uşağı əhatə edən 2 koloniya və 800 uşağı əhatə edən 2 kommuna yaradılmışdır. Bundan başqa, N.Nərimanovun təşəbbüsü ilə Həştərxan zəhmətkeşlərinin yurdsuz qalmış uşaqları üçün Saratov şəhərində də uşaq koloniyası təşkil edilmişdir.

N.Nərimanov bu illərdə Həştərxanda işləməsinə baxmayaraq Azərbaycan, ümumiyyətlə Zaqafqaziya ilə də əlaqə saxlayır, oradakı inqilabi, ictimai və pedaqoji işlərdə fəal iştirak edirdi.

Həştərxan şəhərinin zəhmətkeşləri Nərimanovun vəfatından sonra onun adını əbədiləşdirərək həmin şəhərin bir rayonuna, bir fəhlə qəsəbəsinə, iki küçəsinə, bir balıqtutma stansiyasına və vilayətin bir sıra kolxozlarına N.Nərimanovun adını vermişlər.

«Azərbaycan məktəbi» jurnalı 1959-cu il, №5, s.6–11.

[1] Həştərxan vilayət dövlət arxivi, f. 1362, s. 1, iş 627, v. 2.

N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin ilk dövrü (1871 – 1890)

N.Nərimanovun adı tarixə oyanmış Şərqin görkəmli xadimi, Şərqdə azadlıq ideyalarının carçısı kimi daxil olmuşdur.

N.Nərimanov XIX əsrin axırı və XX əsrin əvvəllərində yaşayıb-yaradan görkəmli pedaqoq, dramaturq, nasir, publisist və ictimaiyyətçi, partiya və dövlət xadimi olmuşdur.

Azərbaycan xalqının böyük oğlu N.Nərimanov özünün çoxcəhətli fəaliyyəti ilə Zaqafqaziya xalqlarının azadlığı uğrunda aparılan mübarizə tarixində mühüm yer tutur. O, özünün bütün həyatını zəhmətkeşlərin azadlığı və səadəti, xalqların birliyi və qardaşcasına dostluğu, ömrünün sonunadək sadiq olduğu nəzəriyyənin təntənəsi uğrunda mübarizəyə, zəhmətkeş xalqların feodalizm və kapitalizm zülmündən azad olunması işinə sərf etmişdir.

N.Nərimanov özünün müəllimlik fəaliyyətində zəhmətkeş balalarına tə'lim və tərbiyə vermiş, onun yazdığı dərsliklər uzun müddət məktəblərimizdə tədris edilmişdir.

N.Nərimanov yalnız praktik pedaqoq olmamış, o, eyni zamanda pedaqogika, psixologiya və Azərbaycan dili metodikasının bir sıra nəzəri məsələləri ilə də məşğul olmuş və dəyərli fikirlər söyləmişdir.

Nərimanov müəllimlik fəaliyyətilə insanların mədəni yüksəlişinə çalışmışdır. O, eyni zamanda özünün ədəbi fəaliyyəti ilə nadanlığa, avamlığa, kapitalizm quruluşuna qarşı mübarizə aparmışdır. Nərimanovun bədii əsərləri, Zaqafqaziya, Volqaboyu xalqları arasında böyük şöhrət qazanmışdır. Onun «Nadir şah» əsəri hətta İran səhnəsində də tamaşaya qoyulmuşdur.

N.Nərimanovun ictimai fəaliyyəti xüsusilə genişdir. Onun zəhmətkeşlər qarşısındakı bir çox alovlu çıxışları, rus çarizminə qarşı güclü təbliğatı xalqın qüvvələrini inqilabi mübarizəyə səfərbər etmişdir. Nərimanov ictimaiyyətin köməyilə Azərbaycanda ilk milli kitabxana-qiraətxananın əsasını qoymuşdur. Onun kitabxanası Zaqafqaziyada böyük şöhrət qazanmışdır. Həmin kitabxananın sabiq oxucuları onu indi də böyük hörmətlə yad edirlər.

N.Nərimanov Bakıda Xeyriyyə cəmiyyətlərinin işində fəal iştirak etdiyi kimi, Həştərxanda da Həştərxan xalq universitetinin, Həştərxan müsəlmanlarını əhatə edən və xalq arasında mədəni-maarif işi yayan «Şurayi-islam» cəmiyyətinin fəal üzvlərindən olmuş və bu cəmiyyətlərin işlərində yaxından iştirak etmişdir.

N.Nərimanovun fəaliyyətinin bütün sahələri içərisində onun inqilabi fəaliyyəti daha geniş və daha böyükdür.

Hələ keçən əsrin 90-cı illərində Tiflis mahalının Qızıl Hacılı kəndində müəllimlik edən Nərimanov məhz bu illərdən, bəlkə də hələ bir neçə il əvvəl, yə'ni hələ Zaqafqaziya Müəllimlər Seminariyasında oxuyarkən mövcud quruluşa qarşı tənqidi münasibət bəsləmişdir.

Bakının ictimai mühiti Nərimanovun bir inqilabçı kimi yetişməsində xüsusi rol oynamışdır. Qəhrəman Bakı proletariatının inqilabi mübarizəsi Nərimanovu bir inqilabçı kimi yetişdirmişdir. Məhz bunun nəticəsidir ki, birinci rus inqilabı dövründə Odessada tələbə olan Nərimanov tələbələrin inqilabi çıxışlarına rəhbərlik etmişdir.

Öz fəaliyyətini sadə xalq müəllimliyindən başlayıb böyük dövlət xadimi vəzifəsinə qədər yüksələn Nərimanov Azərbaycanda böyük bir nəsil tərbiyə edib yetişdirmişdir.

«Hümmət» təşkilatının işində Nərimanov xüsusi xidmət göstərmişdir. Azərbaycanda İnqilab komitəsinin və Azərbaycan Xalq Komissarları Sovetinin ilk sədri olan Nərimanov Şərqin qapısında çiçəklənən Azərbaycanın iqtisadi və mədəni inkişafında xüsusi xidmət göstərmiş və zəhmətkeş kütlələrin böyük hüsn-rəğbətini qazanmışdır.

N.Nərimanovun fəaliyyəti yalnız Azərbaycan ilə məhdud olmamışdır. O daha geniş fəaliyyət göstərmiş, Zaqafqaziyanın və digər Şərq xalqlarının inqilabi mübarizəsi işində var qüvvəsi ilə çalışmışdır.

N.Nərimanovun Türkiyə zəhmətkeşlərinə müraciət və məktubları Türkiyə zəhmətkeşləri arasında geniş yayılmış və onları türk despotizminə qarşı mübarizəyə ruhlandırmışdır. N.Nərimanovun həyatı İran «Mücahid» təşkilatının tarixi ilə sıx surətdə bağlıdır. Bu partiyanın nizamnaməsi N.Nərimanov tərəfindən yazılmış, məhz bu partiya ilə əlaqə saxlaması üstündə o, həbsə alınaraq Qafqazdan

xaricə – Həştərxana sürgünə göndərilmişdir. İstər sürgün illərində, istərsə də sonrakı dövrdə Nərimanov Həştərxanda çox işlər görmüşdür. Həştərxanda bolşevik partiyasının müsəlman bölməsinin yaradılmasında Nərimanovun böyük rolu olmuşdur.

N.Nərimanov Həştərxanda tatar, qırğız və s. kimi kiçik millətlərdən böyük bir maarifçilər dəstəsi yaratmışdır. Həştərxanda xalq maarifinin yenidən qurulması işində Nərimanovun xidmətləri daha çoxdur. 1919-cu ildə Həştərxan quberniya xalq maarif şö'bəsinin müdiri olan Nərimanovun rəhbərliyi altında məktəb şəbəkələri genişləndirilmiş, yeni tipli məktəblər yaradılmış, yüzlərlə yeni müəllim kadrları yetişdirilmişdir. Nərimanov ömrünün son illərində Ümumittifaq miqyasında fəaliyyət göstərmişdir.

N.Nərimanovun bilavasitə iştirakı ilə 1919-cu ildə Sovet hökuməti ilə Əfqanıstan arasında saziş imzalanmışdır. Bu saziş Sovet hökumətinin xarici ölkələrlə bağladığı ilk müqavilənamədir.

O, 1922-ci ildə Sovet nümayəndə hey'əti tərkibində Genuya konfransında iştirak etmişdir.

Nərimanov Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının işində yaxından iştirak etmiş və Zaqafqaziya İttifaqlar Sovetinin, sonra isə SSRİ MİK-nin ilk sədrlərindən biri vəzifəsində çalışmışdır.

Nərimanovun xatirəsini əziz tutan Azərbaycan xalqı Azərb. DTİ-yə, Bakının böyük bir prospektinə, bir sıra tibb müəssisələrinə, kolxozlara, rayon və qəsəbələrə onun adını vermişdir. Azərbaycan Dövlət nəşriyyatı və Azərbaycan Uşaqgəncnəşr tərəfindən N.Nərimanovun əsərləri, ayrı-ayrı povestləri çoxlu tirajla çap olunmuşdur. Respublikanın elmi işçiləri tərəfindən onun ədəbi, pedaqoji irsi dərindən öyrənilir, inqilabi fəaliyyəti, fəlsəfi və tibbi görüşləri üzərində elmi-tədqiqat işləri aparılır, onun haqqında böyük həcmli monoqrafiyalar yazılır.

Zaqafqaziyanın digər respublikalarında da N.Nərimanov böyük hörmətlə yad edilir, onun əsərləri digər xalqların dillərinə tərcümə edilir.

Həştərxan şəhərinin zəhmətkeşləri Nərimanovun adını əziz tutaraq onun xatirəsini əbədiləşdirmək üçün şəhərin bir rayonuna, iki küçəsinə, bir balıq ovlayan stansiyasına, vilayətin bir sıra kolxoz

və qəsəbələrinə onun adını vermişlər. Orta Asiya respublikalarında da bir sıra yerlər N.Nərimanovun adı ilə adlandırılmışdır.

Görkəmli partiya və maarif xadimi olan Nəriman Kərbəlayı Nəcəf oğlu Nərimanov 1871-ci il aprel ayının 14-də Tiflis şəhərində anadan olmuşdur[1]. Onların ailəsinin tərkibi: atası Kərbəlayı Nəcəf, anası Həlimə xanım, qardaşları Salman, Rizvan, iki bacısı; Mərziyə və Səkinədən ibarət olmuşdur. Onların ailəsi adicə kasıb azərbaycanlı ailəsi olmuşdur. Nərimanın uşaqlıq və gənclik illəri Tiflisdə anasının tə'siri altında keçmişdir. Çox xeyirxah və rəhmli bir qadın olan Həlimə xanım kasıb olmasına baxmayaraq daima yoxsulların qeydinə qalmış, onlara öz yardım əlini uzatmış və bir sıra xeyirli məsləhətlər vermişdir. Anasının bu xüsusiyyətləri kiçik Nərimanın tərbiyəsinə də öz müsbət tə'sirini göstərmişdir. Məhz bunun nəticəsidir ki, Nərimanın bütün həyatında xeyirxahlıq, doğruçuluq və s. kimi xüsusiyyətlər öz əksini tapmışdır.

Hələ kiçik yaşlarından müəllimliyə xüsusi maraq göstərən Nəriman 1885–1886-cı dərs ilində[2] böyük çətinliklərə baxmayaraq Zaqafqaziya Müəllimlər Seminariyasına (Qori) daxil olur[3].

Seminariyada təhsil müddəti beş ildən ibarət olub, iki il hazırlıq kursu, üç il isə əsas kurs hesab olunurdu. Seminariyanın

---

[1] N.Nərimanovun anadan olması tarixi müxtəlif sənədlərdə müxtəlif illərə aid edilir. Bə'zi sənədlərdə Nərimanovun 1868, bə'zi sənədlərdə 1870, bə'zi sənədlərdə 1871 və bə'zi sənədlərdə isə 1872-ci ildə anadan olduğu göstərilir (H.Ə.).

[2] Prof.M.Rəfili, «Görkəmli inqilabçı və yazıçı N.Nərimanov» adlı əsərində (Bakı, 1956-cı il, rus dilində) yazır ki, Nərimanov seminariyaya 1881-ci ildə 12 yaşında ikən daxil olmuşdur (səh. 4); H.Şahgəldiyevin «Görkəmli partiya və dövlət xadimi» adlı məqaləsində («Təbliğatçı» jurnalı, 1956, № 5) Nərimanovun seminariyaya 1882-ci ildə daxil olduğu qeyd olunur. Zaqafqaziya Müəllimlər Seminariyasının bir sıra arxiv sənədlərində, xüsusilə Nərimanovun attestat vərəqəsində isə onun seminariyaya 1885-ci ildə daxil olduğu qeyd edilmişdir (H.Ə.).

[3] Zaqafqaziya Müəllimlər Seminariyasının (1879 – 1918) tatar (azərbaycanlı) şö'bəsi mə'zunlarının Zaqafqaziyada yaşayan müsəlmanların xalq maarifinin inkişafında, yeni məktəblərin açılmasında və xalq kütlələrinin savadlanmasında çox böyük rolu olmuşdur. Həmin seminariya Zaqafqaziya müsəlmanları üçün yüzlərlə müəllim hazırlamışdır. İnqilabdan əvvəlki Azərbaycanda xalq arasında maarif və mədəniyyəti yayan məşhur maarif xadimləri və müəllimlərdən S.Vəlibəyov, R.Əfəndiyev, T.Bayraməlibəyov, M.Mahmudbəyov, F.Köçərli, C.Məmmədquluzadə, N.Nərimanov, Ə.İsmayılov, S.S.Axundov, B.Bədəlbəyov, S.Acalov, F.Ağayev, Ə.Hüseynov, N.Şahsuvarov, A.Əmirov, Ü.Hacıbəyov, Z.Hacıbəyov, M.Maqomayev və başqaları həmin məktəbin yetirmələri olmuşlar (H.Ə.).

Gürcüstan xalq maarifi muzeyində saxlanılan arxiv sənədlərində Nərimanovun tələbəlik illərinə aid çoxlu və maraqlı sənədlər vardır. Onun tələbəlik həyatı sərt pansion şəraitində keçmişdir. Bütün bunlara baxmayaraq Nəriman ciddi sə'ylə çalışır və hələ tələbə ikən pedaqoji elmlərə böyük maraq göstərir, psixologiyanı öyrənib, Azərbaycan və rus ədəbiyyatı ilə dərindən məşğul olur, xüsusilə M.F.Axundov, A.S.Puşkin, N.V.Qoqol, M.Y.Lermontov, F.M.Dostoyevski, L.N.Tolstoy və başqalarının əsərlərini sevə-sevə oxuyurdu. Klassik Azərbaycan və rus ədəbiyyatının görkəmli nümayəndələrinin həyatı və yaradıcılığı ilə tanış olması onda hələ gənc ikən rus mədəniyyətinə böyük həvəs və məhəbbət oyatmışdı. Məhz bunun nəticəsidir ki, o, hələ seminariyada oxuyarkən Qoqolun «Müfəttiş» əsərini Azərbaycan dilinə tərcümə etmiş, həmin əsəri tələbə yoldaşları ilə birlikdə səhnəyə qoymuş və özü Qorodniçi rolunda çıxış etmişdir.

XIX əsrin axırlarında ölkənin siyasi və ictimai vəziyyəti N.Nərimanovun gələcəkdə görkəmli maarifçi, eyni zamanda böyük siyasi-ictimai, dövlət və partiya xadimi kimi yetişməsinə böyük tə'sir etmişdir. Bir tərəfdən Zaqafqaziyada və xüsusilə onun ən böyük mərkəzlərindən biri olan Tiflisdə kapitalizm münasibətlərinin inkişafı, fəhlə və kəndlilərin ağır müstəmləkə zülmünün artması, bununla yanaşı olaraq fəhlə sinfinin inkişafı, inqilabi dərnəklərin yaradılması və s., digər tərəfdən isə xalqın çarizm üsul-idarəsindən narazı olması və çar II Aleksandra edilən sui-qəsd kiçik yaşlı Nərimanın gələcək dünyagörüşünün formalaşmasına böyük tə'sir etmişdir. Həmçinin seminariyada oxuyan tələbələrin siyasi iş üstündə məktəbdən qovulması da Nərimanın mövcud quruluşa qarşı tənqidi yanaşmasına əsas verirdi.

Azərbaycan xalqının feodal-patriarxal vəziyyətdə yaşaması, ölkədə hökm sürən savadsızlıq, nadanlıq möhkəm kök salmış din və mövhumat onu düşündürür və xalqın gələcəyi haqqında fikirləşməyə vadar edirdi. Bütün bunların nəticəsidir ki, Nəriman hələ Qori seminariyasında tələbə ikən Azərbaycan xalqının yaşayış tərzinə, məişəti və maarifinə həsr etdiyi «Nadanlıq» adlı ilk dram əsəri üzərində düşünmüş və onun birinci hissəsini yazmışdır.

N.Nərimanov 1890-cı ildə Zaqafqaziya Müəllimlər Seminariyasını müvəffəqiyyətlə bitirir. O, təhsilini davam etdirmək

istəyir, lakin, atasının ölümü onu bu işdən çəkindirir. Nərimanov bu münasibətlə sonralar yazmışdır: «Bu vəziyyət mənə güclü tə'sir etdi və mən təhsilimi davam etdirmək xəyalı ilə yaşadım. Atamın ölümündən sonra dolanmaq üçün heç bir şəraiti olmayan ailəmiz haqqında düşünməyə başladım».

Nərimanov Qori seminariyasını bitirdikdən sonra bütün varlığı ilə xalq maarifi işinə girişir. O, özünün bütün həyatını azərbaycanlı uşaqlarına ana dilində dərs verməyə və beləliklə də onları işıqlı gələcəyə hazırlamağa həsr edir. Nərimanovun ilk pedaqoji fəaliyyəti keçmiş Tiflis quberniyası yaxınlığında olan Borçalı mahalındakı Qızıl-Hacılı kənd məktəbindən başlayır. Gənc müəllim Nəriman burada az vaxt içərisində böyük hörmət qazanır. Nərimanov Qızıl-Hacılıda həssas qəlbli bir yazıçı kimi də özünü göstərmişdir. Qeyd etmək lazımdır ki, Qızıl-Hacılı kəndinin ictimai mühiti, xalqın ağır yaşayışı, geriliyi, nadanlığın hökm sürməsi gənc müəllimi düşündürürdü. Gürcüstan, Azərbaycan və Ermənistan kəndlərinin timsalı olan Qızıl-Hacılı kəndinin geriliyi, əhalinin elmə və məktəbə laqeyd münasibəti Nərimanovun hələ seminariyada ikən başladığı «Nadanlıq» əsəri üçün bolluca material verir. Azərbaycan xalqının məişətini dərindən öyrənən Nərimanov müəllimlik etməklə yanaşı olaraq «Nadanlıq»[1] əsərini də yazıb qurtarır.

Müəllif əsərin ilk nəşrinin müqəddiməsində yazmışdır: «Məzkur əsəri yazmağıma səbəb Qafqaz müsəlmanlarının əksəriyyətinin bimə'rifət və nadanlığı oldu… Ümidvaram ki, mənim bu kəmtərik qələmimin meyvəsi müsəlmanların zindəganlığına bir qədər nə'fi gətirir».

Göstərmək lazımdır ki, o zaman Zaqafqaziya xalqları çox ağır vəziyyətdə idi. M.İbrahimovun dediyi kimi, burada sinfi zülm daha dəhşətli şəkildə meydana çıxırdı, xalqın canına daraşmış tüfeylilərin sayı və növü olduqca çox idi, bəylər, xanlar, burjuaziya, xalq kütlələrinin qanını soran hakim təbəqələr cəhaləti, dini xurafat və mövhumatı yayırdılar. Belə bir dövrdə mübarizə meydanına atılan Nərimanov Azərbaycanı, onun tarixini, maarif və mədəniyyətini

[1] Əsər ilk dəfə 1894-cü ildə Bakıda çap olmuş və 1895-ci ildə tamaşaya qoyulmuşdur (H.Ə.).

çox gözəl bilirdi. O, xalqın zəngin mə'nəviyyatı ilə tanış idi, onu pak və odlu bir ürəklə sevirdi. Bütün buna görə Nərimanov xalqın dərdlərini də dərindən duyurdu. O, xalqın əl-qoluna sarılan zəncirlərdən, qüvvələrini sarsıdan yaralardan və çibanlardan xəbərdar idi. Nərimanov görürdü ki, M.F.Axundovun ilk zərbə endirdiyi bu paslı zəncirlər qırılmamışdır, yaraların közü qoparılmışsa da, özləri sağalmamışdır, ilk zərbə almış, lakin ölməmiş tüfeylilər əks hücuma keçirlər, işıq ucu görünən hər şeyi bağlamaq istəyirlər, onlar xalqı soymaq və əbədi itaətdə saxlamaq üçün mövhumatı, cəhaləti, nadanlığı yayırlar. Xalqın yaradıcılıq qüvvəsinə inanan Nərimanov cəhalətə, nadanlığa qarşı mübarizəyə başlayır və azadlığın, səadətin yollarını göstərməyə çalışır. Nərimanovun ilk əsəri olan «Nadanlığ»ın tarixi mə'nası da məhz budur.

Əsərdə başqa cəhətlə yanaşı olaraq əsasən xalqın maarifə yiyələnməsi məsələsi irəli sürülür. Əsərdə mərkəzi ideya məktəb, əsas surət isə müəllimdir. Əsərdə təsvir edilən bu kəndin adamları olan Qurbanəli, Ağakişi, Niyazəli, Hacı Abdulla və başqaları uşaqlarını məktəbə qoymurlar. Kəndin ağsaqqalı hesab olunan Hacı Abdulla müəllim Məhəmmədağaya deyir: «Ay Məhəmmədağa! Boş yerə başını niyə ağrıdırsan! Bizim adam oxumağa uşaq verməz. Hər kəsin özünə görə bir dərdi var. Birinin uşağı qaramal otarır, o birininki qoyuna gedir, biri yer əkir: Uşaqlarını da sənə versinlər, bəs işləri necə olsun? Ondan məsəva, doğrusunu demək: rusca oxuyan düz yoldan çıxır»[1].

Hacı Abdulla kimi geridə qalmış, avam adamlara belə gəlir ki, uşağın oxumağı onu, «düz yoldan çıxarır». Ona görə də o, böyük oğlu Öməri oxutduğu üçün bərk peşmandır. Çünki Hacının fikrincə oxumaq Öməri qeyrətsiz etmişdir. O, nə yol kəsməyi, nə kəbinli arvad qaçırmağı və nə də adam öldürməyi bacarır.

Dövrün çürük adət və təsəvvürləri Hacı abdullaların gözünü o qədər kor etmişdir ki, onlar aşkar şeyləri də görmürlər. Onlar görmürlər ki, Ömərin göstərişilə elmi əsaslarla becərilən yerlər daha artıq məhsul verir. Müəllim Məhəmmədağa Öməri müdafiə etməyə çalışaraq deyir: «İş o deyil ki, əlinə kotan alsın. Onun köməkliyi bu

[1] N.Nərimanov, Əsərləri, Bakı, 1958, s. 19.

olubdur ki, yerinizi necə ki, lazımdır şumlayıb, təzə çıxan kotan alıbdır, əsl budur və bunların hamısını oxumaqla tapıbdır. Yeri elmə müvafiq şumlamaq və nə tövr kotanla əksən, taxıl yaxşı çıxar. Bunların hamısı kitablarda yazılıbdır. Hərgah Ömər oxumasaydı, belə şeyləri bilə bilərdimi?»[1].

Lakin Hacı abdullalar bunu anlamaqdan uzaq olduğu üçün müəllimin sə'yləri nəticə vermir. Onlar müəllimi də, savadlı, qanacaqlı və tərbiyəli Öməri də lağa qoyurlar. N.Nərimanov göstərir ki, həyat hər kəsə öz payını verir, öz əkdiyini biçdirir. Doğrudan da belə olur. Hacı Abdullanın qeyrətli və bacarıqlı saydığı kiçik oğlu Vəlinin dələduzluğu bütün ailəni bədbəxt edir.

Cinayətkar tərbiyə nəticəsində bütün insaniyyətini itirmiş Vəli öz qardaşı Öməri güllə ilə vurub öldürür, Ömər ölərkən deyir: «Məni… nadanlıq… avamlıq… bimə'rifətlik güllələdi… Ah, nadanlıq»[2].

O dövrdə nadanlıq o dərəcəyə çatmışdır ki, qardaş öz doğma qardaşına güllə atırdı. Bu ondan irəli gəlirdi ki, Hacı Abdulla kimi adamlar məktəbə xor baxır, öz uşaqlarının təhsili və tərbiyəsi ilə maraqlanmırdılar. Ona görə də məktəbyaşlı uşaqları məktəbə qoymurdular. Məhəmməd Ağa müəllim öz vəziyyətindən şikayətlənərək deyir: «Günlərim qəribə qəmgin keçir. İki aydır ki, gəlmişəm, bu vaxta qədər ancaq iki şagird gəlibdir. Bunlarla mən nə edəcəyəm. Güclə deyil ki, müəllimi bu ölkədə özlərinə düşmən hesab edirlər»[3].

Kəndin mütəxəssis adamlarından Qurbanəli buna cavab olaraq deyir ki, «Yenə yaxşı ki, o var. Əvvəlki mollanın (uçitelin) heç iki şagirdi də yox idi. İndi uşaqlar atalarının çöl işlərindədirlər. Yarım aydan sonra çöl işlərini qurtarar və soyuq düşər, onda şagirdlərin çoxalar. Sən qarı gözlə. Elə ki, qar yağdı, gündən-günə şagirdlər çoxalacaq, çünki o vaxt işləri olmayıb və evdə qalıb şuluqluq etməsinlər deyibən, sənin yanına göndərəcəklər. Elə ki, yenə yaz açıldı, hamısı yenə kənd işlərinə gedəcəklər. Xülasə, başını nə ağrıdım, bu şkolda ildə üç ay qışı oxuyurlar»[4].

---

[1] N.Nərimanov, Əsərləri, Bakı, 1958, s. 19.
[2] Yenə orada, s. 57.
[3] Yenə orada, s. 15 –16.
[4] Yenə orada.

Vəziyyəti belə görən müəllim Məhəmməd Ağa koxanı məktəbə çağırtdırıb heç olmasa onun vasitəsilə camaata tə'sir etmək və uşaqları məktəbə cəlb etmək fikrinə düşürsə, bu da heç bir nəticə vermir. Onlar oxumağın, elmin əhəmiyyətini anlamırlar. Onların halına acıyan müəllim öz-özünə deyir: «İnsan ki, oxumağa və elmə düşmən ola onun gələcəyi nə olmalı idi?»[1].

Kənddə fikrini heç kəsə anlada bilməyən Məhəmməd Ağa ruhdan düşmür və «yoldan azmış bu adamları düz yola gətirməyə» çalışır. Lakin bunlar heç bir nəticə vermir. Avamlığın, nadanlığın hökm sürdüyü bir kənddə yaşayan və heç bir köməyi olmayan müəllim Məhəmmədağa oxumağın, məktəbin əhəmiyyətindən nə qədər danışırsa da tə'sirsiz qalır və nəticədə avamlıq özünü göstərir. Qaçaqlıq və quldurluqla məşğul olan Vəli rus dilində təhsil almış Öməri güllə ilə vurub öldürür.

Nərimanovun «Nadanlıq» əsərində yaratdığı Məhəmmədağa obrazı XIX əsrin axırlarında nadanlığın, savadsızlığın hökm sürdüyü Azərbaycan kəndlərində maarif işinin yayılmasına çalışan bir müəllim obrazıdır.

Nərimanov Qızıl-Hacılı kəndində yalnız bir müəllim və yazıçı kimi qalmamışdır. O, eyni zamanda ictimai işlərlə də məşğul olmuşdur. Qızıl-Hacılı kəndinin qocaman sakinlərinin Nərimanov haqqındakı xatirələrində onun kənddə siyasi işlərlə məşğul olması göstərilir. Qızıl-Hacılı kəndinin qocaman sakinlərindən olan B.P.Nəsibov özünün xatirələrində yazır ki, «N.Nərimanov bizim kənddə müəllim işlərkən ətrafına bir dəstə adam toplayaraq gizli işlə məşğul olurdu. O, bir dəfə öz yoldaşları ilə bərabər kəndin kənarında iclas aparan zaman bunu görmüş və kəndin ağalarına xəbər vermişdilər. Ona görə də kəndin mülkədarlarından Hacı ağa, Məşədiqulubəy, Mehdi ağa, Əsgər ağa və başqaları Nərimanı izləmiş və onu tə'qib etməyə başlamışlar». Həmin kəndin sakini Ə.M.Kərimov ilə M.H.Çobanov qeyd edirlər ki, «bir dəfə yerli ağaların silahlı adamları gecə ikən Nərimanovun yaşadığı binanın (Nərimanov məktəbin binasında yaşayırdı – H.Ə.) qapısını pusmuş və onu öldürmək istəmişlər. Lakin, Nərimanovun və atasının yaxın dostu olan M.R.Kərimov bu işdən xəbər tutmuş və Nərimanovun

[1] N.Nərimanov, Əsərləri, Bakı, 1958, s. 21–22.

həyatını xilas etmişdir. Kərimov Nərimanovu gecə məşhur Qoçeur yolu ilə Tiflisə gətirmişdi. Nərimanovun həyatına qəsd etmək istəyən ağalar onu öldürmək, qubernatordan mükafat almaq istəyirdilər».

Həmin hadisəni Qızıl-Hacılı kəndinə gələn zaman Nərimanov özü də xatırlatmışdı. 1925-ci ildə Nərimanovun Qızıl-Hacılı kəndinə gəlməsi münasibətilə böyük mitinq olmuşdur. Həmin mitinqdə çıxış edən Nərimanov demişdir ki, «o vaxt (1890-cı illər nəzərdə tutulur – H.Ə.) yerli ağalar məni öldürmək istəyirdilər, mənim həyatımı Məşədi Rzaqulu xilas etdi».

Keçən əsrin 90-cı illərində Nərimanovun ictimai işlərdə fəal iştirak etməsini bir sıra arxiv sənədləri də təsdiq etmişdir. Məsələn, N.Nərimanovun özü tərəfindən yazılmış və hal-hazırda Həştərxan vilayət dövlət arxivində saxlanılan bir sənəddə «Partiyaya nə vaxt daxil olmusunuz?» sualına cavabında «artıq 25 ildir»[1] sözləri yazılmışdır (Həmin sənəd 1918-ci ilə aiddir – H.Ə.). Həmin sənəddən belə mə'lum olur ki, Nərimanov hələ keçən əsrin 90-cı illərindən ədəbi və ictimai meydanda çalışırmış[2].

Nərimanov özünün köhnə bolşevik-inqilabçı olduğundan, çoxdan bəri ədəbi-ictimai və siyasi fəaliyyətə başladığından danışaraq 1918-ci ilin martında «Hümmət» qəzetində çap olunmuş məqalələrinin birində yazmışdır: «Mən bugünkü və dünənki bolşevik deyiləm, mən bütün füqəranın birləşməsini indi tələb etmirəm, mən çoxdan bunun tərəfdarıyam. Mən Qafqaz millətlərinin birliyini tələb edənlərdənəm. Mən iyirmi beş ildir ictimai ədəbi və siyasi meydanda işləyirəm».

N.Nərimanov 1919-cu ildə Həştərxandan yazdığı «Zaqafqaziya Komissariatının sosialist üzvlərinə açıq məktub» adlı məqaləsində də bu məsələdən danışaraq yazmışdır: «Budur, iyirmi beş ildir ki, var qüvvəmlə ictimai, ədəbi və siyasi meydanda çalışıram, fikrim və arzum bir-birindən ayrı salınmış millətlərin və bütün bəşəriyyətin birləşməsidir».

Bütün bunlar bir daha sübut edir ki, Nərimanov hələ keçən əsrin 90-cı illərində, xüsusilə Qızıl-Hacılı kəndində müəllimlik

[1] Həştərxan vilayət dövlət arxivi, f. 386, s. 1, iş 40, v. 103.

[2] Rəsmi partiya sənədlərində isə N.Nərimanovun 1905-ci ildən RSDFP-nin üzvü olduğu göstərilir – H.Ə.

edərkən ictimai və siyasi işlərlə də məşğul olurdu. Qismən də bunun nəticəsidir ki, Qızıl-Hacılı kəndinin ağaları və bəyləri tərəfindən tə'qib olunan iyirmi yaşlı gənc Nəriman Gürcüstanı tərk edərək Bakıya gəlməyə məcbur olmuşdur. Nərimanovun Qızıl-Hacılı kəndində yalnız bircə il fəaliyyət göstərməsi də onun orada işləməsinə şəraitin olmamasını göstərir. Onu da qeyd etmək lazımdır ki, Zaqafqaziya Müəllimlər Seminariyasında oxuyarkən Nərimanovun inqilabi işlərdə iştirakına dair hələlik əlimizdə kifayət qədər material yoxdursa da, seminariyada oxuyan tələbələrin inqilabi işlə məşğul olmalarına və buna görə də məktəbdən xaric edilmələrinə dair bir çox sənədlər vardır. Bütün bunlara əsasən Nərimanovun hələ seminariyada oxuyarkən və həmçinin Qızıl-Hacılı kəndində müəllimlik edərkən ictimai işlərdə fəal iştirak etdiyini qeyd etmək olar.

N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin Qızıl-Hacılı dövrü – onun həyat və fəaliyyətinin çiçəkləndiyi dövrüdür. O, bu dövrdə Qızıl-Hacılı zəhmətkeşlərinin maarif və mədəniyyətinin yüksəlişi üçün xeyli işlər görmüşdür. Onun ilk savad öyrətdiyi uşaqlar sonralar zəhmətkeşlər arasında maarif və mədəniyyətin yayılmasında fəal iştirak etmişlər.

Nərimanov özünün coşğun fəaliyyəti, kənd əhalisinə olan diqqəti və qayğısı sayəsində zəhmətkeşlərin dərin hörmətini qazanmışdır. Bütün bunların nəticəsidir ki, vaxtilə onun dərs dediyi məktəbə Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Nərimanovun adı verilmişdir.

Nərimanov həyatının sonrakı dövründə də Qızıl-Hacılı kəndi ilə əlaqə saxlamışdır. Ədəbi, ictimai və siyasi fəaliyyətinin 30 illik yubileyi münasibətilə Qızıl-Hacılı kənd sakinlərinin ümumi iclasından aldığı təbrik teleqramının cavabında Nərimanov yazmışdır: «Mənim ədəbi fəaliyyətimin 30 illiyi münasibətilə Qızıl-Hacılıların ümumi iclasının təbriki haqqında Sizin teleqramınızı aldım. Sizdən xahiş edirəm ki, mənim səmimi salamımı hörmət bəslədiyim kənd ictimaiyyətinə yetirəsiniz. Sizin teleqram mənə qüvvəm çatdıqca bəşəriyyətin geri qalan hissəsinə kömək etmək fikrinin ilk dəfə olaraq yarandığı bir guşəni xəyalən xatırlamağa vadar etdi.

SSRİ MİK sədri: N.Nərimanov».

N.Nərimanov MİK sədri vəzifəsində işləyərkən Qızıl-Hacılı kəndinə gəlmişdir. Bu münasibətlə yerli əhali ilə bərabər Sarvan, Candar, Bala muğanlı, Kolayır, Həllavar və başqa ətraf kənd zəhmətkeşlərinin böyük yığıncağı olmuşdur. Həmin yığıncaqda Nərimanov böyük nitq söyləmişdir. Lakin, çox təəssüf ki, həmin nitqin məzmunu yazılı surətdə saxlanılmamışdır. Həmin iclasda iştirak edənlər onun nitqini indi də xatırlayırlar. Həmin iclasın iştirakçısı olan H.İ.Mursaqulov özünün xatirələrində yazır ki, «Nərimanov bu nitqində elm, maarif, mədəniyyət və məişət məsələlərindən geniş danışdı. O, xüsusən xalqın maariflənməsi, yeni məktəblər açılması və uşaqların məktəbə cəlb olunması məsələlərindən geniş bəhs etdi. Nərimanov dinə münasibət məsələlərinə toxundu və göstərdi ki, biz kommunistlər heç kəsin dini hisslərinə toxunmuruq, lakin, xalqın zehninin dini fikirlərlə doldurulmasına da dözə bilmərik».

Nərimanov orada olarkən Qızıl-Hacılı məktəbinin işlərilə də maraqlanmış və məktəbin təcrübə sahəsi üçün yer ayrılmasına dair göstəriş vermişdir.

Mursaqulovun xatirələrində deyilir ki, yenicə yaradılmış pioner təşkilatının işi Nərimanovu daha çox maraqlandırdı. O, Tiflisə qayıtdıqdan sonra Gürcüstan Maarif Komissarlığı vasitəsilə məktəbin pionerlərinə geyim forması və s. ləvazimat göndərmişdir.

Nərimanovun xatirəsini əziz tutan Qızıl-Hacılı kənd zəhmətkeşləri onun xatirəsini əbədiləşdirərək həmin kənddəki kolxoza Nərimanovun adını vermişlər.

V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Elmi əsərləri» (pedaqoji-psixoloji elmlər seriyası) 1961-ci il. XVIII cild, s.163–171.

Nəriman Nərimanovun həyatı və mədəni-maarifçilik fəaliyyətinin Həştərxan dövrü

1908-ci ildə Odessa şəhərində Novorossiyski universitetinin tibb fakültəsini bitirib Bakıya qayıdan N.Nərimanov bir müddət şəhər xəstəxanasında həkimlik etməyə başlayır.

Hələ Odessada tələbə ikən Stolıpin irticasının qara illərinə baxmayaraq, marksizm-leninizm nəzəriyyəsi ilə tanış olan və onu dərindən mənimsəyən N.Nərimanov Bakıya qayıtdıqdan sonra daha geniş ictimai-siyasi fəaliyyətə başlayır. O, həkimliklə yanaşı, həm də xalqın inqilabi şüurunun artmasına və maariflənməsinə çalışır. Lakin bu vaxt onun fəaliyyəti Bakının qara qüvvələri tərəfindən nəzarət altına alınır. Buna görə də Bakıda işləməsi üçün şərait olmadığından Nərimanov 1909-cu ilin fevral ayında Tiflis şəhərinə gedir. O, Tiflisdə həkimlik etməklə bərabər, ictimai və siyasi işlərdə də fəal iştirak edir.

1909-cu ilin mart ayında Tiflisdə «hökumət əleyhinə çevrilmiş» cinayətkar xarakterli inqilabi sənədlər üstündə və xalq arasında inqilabi ideyalar yaydığına, mövcud üsul-idarənin əleyhinə təbliğat apardığına görə çar xəfiyyələri onu həbsə alır. Axtarış zamanı ondan İranın «Mücahid» partiyasının inqilab komitəsinin məktubu, respublikanın mütləqiyyətdən üstünlüyü haqda referatın hələ 1905-ci ildə Odessada tələbə ikən öz əli ilə Azərbaycan dilində yazdığı konspekti və digər sənədlər tapılır.

N.Nərimanovun həbs edilməsi Azərbaycanın tərəqqipərvər ziyalılarını qəzəbləndirir. Görkəmli şair Əli Nəzmi «Qorxuram» adlı satirik şe'rində – «Hanı o xalqın oğlu Nəriman Nərimanov» – deyərək öz kəskin e'tirazını bildirir.

Tiflisdə həbsə alınmış N.Nərimanov yeddi ay məşhur Metex qalasında (9-cu kamerada) saxlandıqdan sonra 2 il müddətinə Qafqazdan xaricə -– Həştərxana sürgün edilir.

N.Nərimanovun Həştərxana sürgün edilməsi onun Lenin nəzəriyyəsi ilə daha da yaxından tanış olmasına şərait yaradır. N.Nərimanov Həştərxana gəldiyi gündən e'tibarən özünün inqilabi-ictimai, pedaqoji və mədəni-maarifçilik fəaliyyətini daha da

genişləndirir, Həştərxanda sürgündə olan digər inqilabçılarla əlaqəyə girir və çar üsul-idarəsinə qarşı mübarizəni davam etdirir.

N.Nərimanov Həştərxanda olarkən oradakı bir sıra xeyriyyə cəmiyyətləri ilə sıx əlaqə saxlamış və burada fəal iştirak etmişdir. Onun fəal iştirak etdiyi cəmiyyətlərdən biri Həştərxan xalq universiteti cəmiyyətidir.

Həştərxan vilayət dövlət arxivində saxlanılan xalq universiteti cəmiyyəti üzvlərinin siyahısında N.Nərimanovun da adı vardır. Üzvlərin əlifba sırası ilə yazılmış siyahısında N.Nərimanovun adı 232-ci nömrədədir. Yeri gəlmişkən onu qeyd etmək lazımdır ki, bir sıra mənbələrdə N.Nərimanovun Həştərxan xalq universitetindəki fəaliyyəti, xüsusilə onun yaradılmasındakı rolu düzgün izah edilmir və tarixi faktlar təhrif olunur. Məs: İ.Brozdinin «N.Nərimanovun mədəni-ictimai işi» adlı məqaləsində (Bax: «Novıy vostok» jurnalı, № 1 (7), 1925-ci il) M.Qazıyevin «N.Nərimanov» adlı, professor M.Rəfilinin «Görkəmli inqilabçı və yazıçı» (rus dilində) adlı əsərlərində, Ə.Qarabağlı ilə Ə.Məmmədovun «Nəriman Nərimanovun pedaqoji fəaliyyətinə dair» (bax: «Azərbaycan məktəbi», jurnalı № 5, 1957-ci il) adlı məqaləsində və digər mənbələrdə N.Nərimanov ilə S.Şaumyan Həştərxan xalq universitetinin yaradıcısı kimi qeyd olunmuşdur. Bu münasibətlə İ.Brozdin yazmışdır: «…o, (N.Nərimanov – H.Ə.) xalq universiteti yaradıcılarından biridir… Həştərxan xalq universitetinin ən çalışqan rəhbəri və sədri olan Nəriman Nərimanovun adı xalq universitetinin qocaman xadimlərinin xatirindədir… onun köməkçisi isə S.Şaumyan idi»[1].

Ə.Qarabağlı ilə Ə.Məmmədov yazırlar ki, N.Nərimanov Həştərxanda «Xalq universitetinin açılmasına müvəffəq olur və bu universitetin direktor müavini vəzifəsində fəaliyyət göstərir.» (s. 27).

Prof.C.Xəndan «Alovlu mübariz, inqilabçı yazıçı, böyük maarifçi» adlı məqaləsində («Azərbaycan müəllimi» qəzeti, № 151 (851), 11 aprel 1957-ci il) yazmışdır: «N.Nərimanov xalq universiteti təşkil edir».

Bütün bu faktlar arxiv sənədlərilə uyğun gəlmir. Belə ki, Həştərxan vilayət dövlət arxivində saxlanılan bir sıra sənədlərdə,

[1] İ.Brozdin, «N.Nərimanovun mədəni-ictimai işi», «Novıy Vostok», 1925, № 1 (7) s. 9.

xüsusilə xalq universitetinin nizamnaməsində[1] Həştərxan xalq universitetinin 1906-cı ildə yarandığı göstərilir. Bu vaxt isə mə'lum olduğu üzrə N.Nərimanov Həştərxanda olmamışdır. Eyni zamanda həmin sənədin sonunda xalq universitetini tə'sis edən şəxslərin adları da vardır ki, N.Nərimanovun adı orada yoxdur və ola da bilməzdi.

N.Nərimanov Həştərxanda olarkən xalq universiteti cəmiyyətinə daxil olmuş və onun işində fəal iştirak etmişdir.

1905-ci ilin birinci rus inqilabından sonrakı irtica illərində Rusiya ictimai mühiti içərisində xalq universitetləri kütlə içərisində mədəni-maarif işi aparan çox gözəl bir cəmiyyət idi. Rusiyanın digər yerlərində olduğu kimi, Həştərxan xalq universiteti cəmiyyətinin məqsəd və vəzifəsi də Həştərxan şəhəri və quberniyasında xalq üçün elmi-maarif müəssisələri tə'sis etməkdən, xalq kütlələrinin maariflənməsinə kömək etməkdən ibarət idi. Xalq universitetinin nizamnaməsində deyilir: «Həştərxan universiteti öz vəzifələrini həyata keçirmək üçün müvafiq nizamnaməyə əsasən sistematik olaraq təhsil və ixtisas kursları, daimi və səyyar mühazirələr, ekskursiyalar təşkil edir, evlərdə müstəqil oxuyanlara kömək edir; əhalinin boş vaxtını səmərəli keçirməyə və fiziki inkişafına kömək edən xalq universiteti evləri, elmi-təhsil muzeyləri, sərgilər, laboratoriyalar, rəsədxanalar və digər elmi-yardımçı müəssisələr tə'sis edir; kitabxana-qiraətxana, kitab anbarı və mağazaları, buna bənzər müəssisələr açır, broşyura, kitab, xəritə və s. elmi maarifçilik məsələləri və özünün dövri orqanı olan mətbuat və s. nəşr edir; Rusiyada və xaricdə maarifin vəziyyəti və maarif müəssisələrinin fəaliyyəti haqda mə'lumatlar toplayır; müraciət edən ayrı-ayrı şəxslərə və müəssisələrə özünün fəaliyyəti dairəsində köməklik edir»[2].

Göründüyü kimi, xalq universitetinin nizamnaməsində mərkəzi yeri xalq maarifinə və mədəniyyətinə dair məsələlər tutur. Xalq universiteti nəinki təkcə Rusiyada, həm də xarici ölkələrdə maarif işinin qoyuluşu vəziyyətini öyrənir və onun yaxşı cəhətlərini yayırdı.

[1] Bax: Həştərxan vilayət dövlət arxivi, «Устав Астраханского общества народных университетов», инвентар № 23627, в. 3.

[2] Bax: Həştərxan vilayət dövlət arxivi «Устав Астраханского общества народных университетов, инвентар № 23627, в. №3.

Həştərxan xalq universiteti həmçinin maarif məsələlərinə dair kitab, broşyura və s. nəşr etmək, kitabxana, qiraətxana, kitab mağazası açmaq işində də böyük rol oynamışdır. Ümumiyyətlə, Həştərxan xalq universiteti 1905-ci ilin birinci rus inqilabından sonrakı irtica illərində Rusiya ictimai mühiti içərisində xalq arasında mədəni maarif işi aparan bir cəmiyyət idi.

Həştərxanda N.Nərimanovun fəal iştirak etdiyi cəmiyyətlərdən biri də Həştərxan müsəlmanlarını əhatə edən «Şurayi-İslam» adlanan cəmiyyətdir.

«Şurayi-islam» cəmiyyəti 17 oktyabr 1905-ci il manifesti əsasında tə'sis edilmişdi. 1905-ci il burjua demokratik inqilabından sonra Həştərxan tatar burjuaziyası və ziyalıları iki qrupa bölünmüş və hər qrup özünəməxsus cəmiyyət yaratmışdı. Bu cəmiyyətlərdən biri ruhaniləri və fanatik burjuaziyanı əhatə edən «Cəmiyyət – islamiyyə» idi. O biri isə 1905-ci il inqilabının nəticələri ilə kifayətlənməyən ziyalıları əhatə edən «Şurayi-islam» cəmiyyəti idi. Bu cəmiyyətlər hər ikisi ayrı olsalar da, marksizm-leninizm nöqteyi-nəzərindən son məqsəddə birləşirdilər. Lakin o dövrün şəraitini, dini görüşlərin güclü olmasını və müsəlman əhalisinin vəziyyətini nəzərə alaraq bu cəmiyyətləri bir-birindən fərqləndirmək və onlardan istifadə etmək lazım idi. Digər tərəfdən də belə bir şəraitdə işləmək üçün siyasət və dərin əql lazım idi. N.Nərimanov bunlardan məharətlə istifadə edir və «Şurayi-islam» cəmiyyəti ətrafına toplanan gəncləri çarizm üsul-idarəsi əleyhinə qaldırır. Beləliklə də Həştərxan müsəlmanları ziyalılarının şüurlu hissəsini mütləqiyyətə qarşı mübarizəyə hazırlayır və müsəlman gənclərinin hərəkatı inqilabi-siyasi xarakter alır.

«Şurayi-islam» cəmiyyətinin üzvü olan N.Nərimanov bu cəmiyyət vasitəsilə xalq arasında maarif və mədəniyyətin tərəqqisinə, kütlələrin savadlanmasına çalışır.

«Şurayi-islam» cəmiyyətinin məqsədi xalq arasında mədəni-kütləvi işlər aparmaqdan, «kitabxana-qiraətxana» mühazirə, söhbət, ədəbi gecə, tətbiqi elmlər kursu, məktəblər təşkil etmək və pedaqoji xarakterli jurnallar nəşr etdirməkdən ibarət idi»[1].

[1] Устав Общества Астраханских мусульман (меджлис Шурайи-ислам) Həştərxan vilayət dövlət arxivi, inventar № 188 – 15, s. 1.

Beləliklə, Həştərxan xalq universiteti və «Şurayi-islam» cəmiyyətinin üzvü olan N.Nərimanov hər iki cəmiyyət vasitəsilə, xalqın maarifləmməsi və xalq mədəniyyətinin inkişafı uğrunda ciddi-cəhdlə çalışırdı. Hələ Bakıda olarkən kitabxana, qiraətxana yaratmaq sahəsində böyük təcrübəsi olan N.Nərimanov Həştərxanda da bu sahədə xeyli iş görmüşdü. O, tatarlar üçün kitabxana-qiraətxana açır, şəhərin qabaqcıl ziyalılarını oraya toplayır və bunların vasitəsilə xalq arasında maarif və mədəniyyəti yayırdı.

Həştərxanın qocaman sakinlərindən olan N.Y.Şabanov N.Nərimanov haqqında olan xatirəsində yazır:

«N.Nərimanovun fəal iştirakı ilə Həştərxanın fəhlə rayonu olan Sarevdə (bu rayon 1931-ci ildən N.Nərimanovun adı ilə adlanır), ictimai kitabxana təşkil edilmişdir. N.Nərimanov bu kitabxana-qiraətxanada tez-tez mühazirələr oxuyur və böyük tərbiyəvi iş aparırdı».

N.Nərimanov Həştərxanda olarkən tatar dram teatr dərnəyinin yaradılmasına da böyük fikir vermiş və onun təşkilatçısı olmuşdur.

Tatar teatrının görkəmli xadimi, RSFSR-in Əməkdar artisti, yazıçı Zeyni Sultanov Həştərxan tatar dram teatrının yubileyi münasibətilə yazdığı məqaləsində N.Nərimanova ayrıca bölmə həsr etmiş və tatar dram teatr dərnəyinin yaradılmasında onun xidmətlərini xüsusi olaraq qeyd etmişdir.

Tatar teatrının 50 illiyi və Moskvada keçirilən tatar incəsənət dekadası ilə əlaqədar olaraq Həştərxan teatrının yaradılmasına həsr edilmiş başqa bir kitabda da N.Nərimanovun Həştərxana gəldiyi gündən yerli tatar teatrının yaradılmasında fəal iştirak etdiyi göstərilir. Orada deyilir:

«1909-cu ildə Azərbaycan xalqının məşhur dramaturqu, doktor Nəriman Nərimanovun Həştərxana gəlməsilə teatrın işi xüsusi ilə canlandı. O, tatar teatrının işində çox fəal iştirak etməyə başladı».

N.Nərimanovun Həştərxana sürgün edilməsindən istifadə edən molla və fanatik ruhlu adamlar teatrın təşkilatçılarından material (danos) yazmağa başladılar.

Bu materiallarda göstərilirdi ki, onlar çar hökuməti üçün çox təhlükəlidirlər, hətta Muxtar molla onların Sibirə, katorqaya göndərilməsini tələb edirdi.

Bütün bu çətinliklərə baxmayaraq Həştərxan tatar teatrı, müxtəlif cəmiyyət, məktəb və s. təşkilatların adı altında öz fəaliyyətini davam etdirmişdir»[1].

K.Qubaydullin N.Nərimanovun həyat və fəaliyyətinin Həştərxan dövründən danışarkən onun mədəni-kütləvi işlərdəki xidmətlərini qeyd edərək yazmışdır: «N.Nərimanovun mədəni işlərə aid xidmətlərindən biri də Həştərxan gənclərini səhnə ətrafına toplamasıdır. Onun təbliğatı nəticəsində ilk dəfə olaraq Həştərxanda müsəlman dram dərnəyi yaradılmış və Həştərxanın mövcud olduğu gündən bəri ilk dəfə olaraq Həştərxanda müsəlman dilində teatr tamaşası göstərilmişdi. Beləliklə, Həştərxanda müsəlman teatrı bünövrəsinin qoyulması bütünlüklə Nərimanova məxsusdur.

Bunu da qeyd etmək maraqlıdır ki, Nərimanov o vaxt həkim olmasına baxmayaraq dərnəkdə özü rejissorluq etmiş və tamaşalarda iştirak etmişdir»[2].

N.Nərimanovun Həştərxandakı fəaliyyətində nəzəri cəlb edən məsələlərdən biri də onun şəhər dumasına üzv seçilməsi haqqında olan sənədlərdir.

Həştərxan vilayət dövlət arxivində saxlanılan sənədlərdə və Həştərxan şəhərinin qocaman sakinlərinin N.Nərimanova dair xatirələrində bu cəhət çox qabarıq şəkildə nəzəri cəlb edir. N.Y.Şabanovun xatirəsində deyilir: «1912-ci ildə Həştərxan müsəlmanları şəhər dumasına üzv seçilmək üçün N.Nərimanovun namizədliyini irəli sürmüşdür. Mövcud seçki qanununa görə şəhər dumasına üzv seçilən şəxs mülki hüquqa malik olmalı idi. Sürgün edilmiş N.Nərimanov isə bu hüquqa malik deyildi. Ona görə də kələk işlətməyə məcbur olduq. Belə ki, mənim evimi hüquqi yol ilə N.Nərimanovun adına yazdırdıq. Beləliklə də N.Nərimanovun dumaya üzv seçilməsinə şərait yarandı».

[1] Ş.Raxmankulov, «Z.Sultanov», Tatarkitabnəşr, Kazan, 1957, s.9–10 (rusca).

[2] К.Губайдуллин «Тов. Нариманов в Астрахани» Bax: «Ъурнал Известия Астраханского губкома РКП (б)» № 2, 1925, с. 3.

N.Nərimanov şəhər dumasında fəal iştirak etmiş və dumada şəhər səhiyyə işləri üzrə şəhər rəisinin müavini (indiki şəhər sovetinin səhiyyə şö'bəsi) seçilmişdi.

Daxili işlər Nazirliyi nəzdində olan Həştərxan şəhər milis idarəsinin dövlət dumasına seçkilərə dair Həştərxan şəhərindəki 2-ci şö'bənin pristavına göndərdiyi 30 sentyabr 1912-ci il 13874 №-li məktubunda 16 sentyabr 1912-ci ildə dövlət dumasına keçirilən seçkilər üzrə Həştərxan quberniyasının fabrik-zavod müəssisələrindən və dəmiryol e'malatxanalarından seçilənlərin siyahısında N.Nərimanovun da adı vardır (sıra № 47)[1].

N.Nərimanovun şəhər duması tərkibinə seçilməsi «Həştərxan həkimləri cəmiyyətinin xəbərləri» adlı jurnalda da qeyd edilmişdir. Orada deyilir:

«1913-cü ilin yanvarında keçirilən seçkilərə əsasən seçilmiş yeni şəhər duması üzvləri hey'ətinə aşağıdakı həkimlər daxil olmuşlar… N.Nərimanov»[2].

N.Nərimanovun Həştərxan şəhər dumasına üzv seçilməsinə dair olan başqa bir arxiv materialı da çox xarakterikdir. Bu sənəd 1913-cü il oktyabr ayının 12-də Həştərxandan «Pravda» qəzetinin redaksiyasına göndərilmiş müxbir məktubundan ibarətdir. Məktubun müəllifi Həştərxanda sürgündə olan leninçilərdəndir. Bu məktubda N.Nərimanovun fəhlə demokratiyası zümrəsi tərəfindən şəhər dumasına müvəffəqiyyətlə üzv seçilməsi qeyd olunmuşdur[3].

Məqalənin üzərində mürəkkəb ilə «V.İliçə (Leninə) göndərmənizi xahiş edirik» sözləri yazılmışdır[4].

Qeyd etmək lazımdır ki, bolşeviklər partiyası o zaman Stolıpin irticasının qara illərində mütəşəkkil surətdə geri çəkilmək və hər cür imkanlardan istifadə etmək taktikası yeridir, dövlət dumasından inqilabi hərəkatın yüksəlişi üçün bir tribuna kimi istifadə edirdilər.

Bolşevik deputatlar dumadan istifadə edərək gizli işi leqal fəaliyyət ilə əvəz edir və bundan bacarıqla istifadə edirdilər.

---

[1] Həştərxan vilayət dövlət arxivi, f. 480, s. 1, iş 2103, v. 19 və 47.

[2] «Известия общества Астраханских врачей» йанвар, феврал, 1913, с. 108.

[3] Корреспонденсия из Астрахани в редакцию газеты «Правда» от 21октября,1912 г.

[4] Yenə orada.

N.Nərimanov duma iclasında zəhmətkeşlərin mədəni-maarif və səhiyyə işinin yaxşılaşdırılması üçün daimi çalışmışdır. Onun iştirak etdiyi iclasların birində Həştərxan şəhəri üzrə 1913-cü ilin büdcəsi müzakirə olarkən yoxsul tatarların uşaqları üçün priyut açmaq məsələsi qaldırılmış və müzakirə olunmuşdur.

Duma üzvlərinin müzakirəsindən sonra yoxsul tatarların uşaqlarını mühafizə etmək üçün 300 manat pul buraxılması qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, bu məsələ 1912-ci ildə də dumanın müzakirəsinə verilmişdir. Lakin şəhər idarəsi və maliyyə komissiyası yoxsul tatarların bu tələbini ödəməmişdir. N.Nərimanovun dumaya üzv seçilməsi məsələnin həllinə müsbət tə'sir etmişdir.

Ümumiyyətlə N.Nərimanovun iştirak etdiyi duma iclaslarında məktəb məsələləri, tədris vəsaiti, məktəb avadanlığı və s. məsələlər müzakirə olunmuş və müvafiq qərar qəbul olunmuşdur.

N.Nərimanovun Həştərxan vilayətində nəzəri cəlb edən xidmətlərindən biri də onun həkimlik fəaliyyətidir. O, bu illərdə «Xolera», «Çexotka», «Qadın məsələsi» və s. mövzularda bir sıra əsərlər yazmışdır.

N.Nərimanov bir həkim kimi Həştərxan zəhmətkeşləri arasında böyük şöhrət qazanmışdır.

N.Nərimanov Həştərxanda olduğu zaman «İdel», «Burhani-tərəqqi» (tatar dilində) və «Astraxanskiy kray» adlı (rus dilində) qəzetlərdə əməkdaşlıq etmiş və onların nəşr edilməsində fəal iştirak etmişdir. Hətta «İdel» qəzetinin Həştərxan qubernatoru Sokolovski tərəfindən bağlanmasına baxmayaraq N.Nərimanov həmin qəzeti mətbəə işçiləri ilə «Azad xalıq» (Azad xalq) adı altında bir müddət qeyri-leqal şəkildə nəşr etdirmişdir. İnqilabdan sonra isə müsəlman komissariatı tərəfindən nəşr edilən «Голос трудового мусулманства» (rus dilində), «Tartış» (mübarizə) (tatar dilində) və «Hümmət» (fars dilində) qəzetlərində əməkdaşlıq etmiş və onlara rəhbərlik etmişdir. N.Nərimanov bu qəzetlərdə dərc etdirdiyi bir sıra məqalələrində böyük ictimai və siyasi əhəmiyyəti olan məsələlər qaldırmışdır.

Həştərxanda sürgündə olmasına baxmayaraq Bakıda baş verən hadisələri daim izləyən N.Nərimanov həmin qəzetlərin səhifələrində dərc etdirdiyi məqalələrinin bə'zisini məhz Bakı

hadisələrinə həsr etmişdir. 1909-cu ildə «Астраханский край» qəzetində «Özünüzü ləkələdiniz bəsdir, yetər!» adlı məqaləsi məhz bu növ məqalələrdəndir. N.Nərimanov bu məqaləsində Tağıyev, Behbudov hadisəsində Bakı qəzetlərinin liberallığını, onların ikiüzlülüyünü açıb göstərməklə bir sıra ictimai və siyasi məsələlərə də toxunur, böyük əhəmiyyət kəsb edən maarif məsələləri qaldırırdı.

N.Nərimanov dövrünün ən məşhur milyoneri olan H.Z.Tağıyevin şəxsiyyətinə pərəstiş edənləri, onun qarşısında diz çökərək ədaləti tapdalayanları kəskin tənqid atəşinə tutur və onları ifşa edirdi. Belə ki, bir sıra müəlliflər, məs: Rəhimbəy Məlikov kimiləri mətbuatda hay-küy salaraq 1906-cı ildə Qafqaz müsəlman müəllimlərinin birinci qurultayında H.Z.Tağıyevin N.Nərimanovun əleyhinə olan hərəkətlərini «Gurultulu bir çıxış» adlandırır, məsələnin mahiyyətini isə gizlədirdilər.

N.Nərimanov həmin məqaləsində bu məsələnin mahiyyətini izah edir. Məsələnin mahiyyəti bundan ibarətdir ki, 1906-cı ildə Qafqaz müsəlman müəllimlərinin Bakıda keçirilən qurultayı orta məktəblərdə Azərbaycan və rus dilinin tədrisi üsulu məsələsində N.Nərimanovun təklifini qəbul etdikdə H.Z.Tağıyev Nərimanovun təklifinin quruluşu ilə razı olmamış və onun əleyhinə getmişdi. N.Nərimanov bu haqda belə yazır: «15 il ən dəyərli cavan yaşlarımı el uğrunda, maarif üçün işlətdikdən sonra güclü bir Hacı mənim şərəfimə toxunmuşdur. Xırda-cəfəng ailə qovqası üstündə deyil, bütün bir xalqın tərbiyə və maarif məsələsi üstündə Hacıya bərəks olduğum üçün məni təhqir etmişdir. Mən kasıb tələbə ilə (N.Nərimanov o vaxt Odessa universitetində oxuyurdu – H.Ə.) milyonçu Hacı arasındakı bu mübarizə – məslək mübarizəsi idi»[1].

N.Nərimanov ilə Tağıyev arasında gedən bu münaqişənin ictimai mə'nası var idi və gələcək nəsil üçün də böyük tərbiyəvi əhəmiyyətə malik idi. Belə ki, Tağıyev və bu kimi milyonçuların fikrincə kasıbların özlərinə məxsus fikir və düşüncələri olmağa haqları yoxdur. Onlar qızıl gücü ilə kasıbların ən qiymətli, ən dəyərli sayılan fikrini, düşüncəsini, məsləkini belə satın almaq istəyirdilər. Lakin Nərimanov cəsarətlə çıxış edərək öz mənliyini, öz şərəfini qorumuş və H.Z.Tağıyevin pulundan kütlə qarşısında imtina etmişdi.

[1] N.Nərimanov, Məqalə və məktubları, Bakı, 1925, s. 65.

N.Nərimanov həmin məqaləsində millət adından çıxış edən, özünü millətin qabaqcıl nümayəndəsi hesab edən, lakin millət üçün heç bir iş görməyən, əksinə, onun inkişafına mane olan, bir ovuc milyonçulara yaltaqlıq edən bir qrup ziyalı dəstəsinin iyrənc hərəkətlərini qeyd edir və göstərir ki, «bunlar kimi adamların Zaqafqaziyada bizim ictimai işlərə rəhbər olmaqları, həqiqətən bizim üçün eybdir. Bu adamların ruhu fəqir, məsləki isə boşdur. Ona görə də heç bir zaman xalqın qeydinə qala bilməzlər, xalqa vəkil ola bilməzlər. Çünki cəmiyyət işlərində möhkəm mübarizə etmək iqtidarı onlarda yoxdur. Onların peşəsi xüsusi ailə məsələlərinə ictimai don geyindirmək, camaat arasında tirəçilik salmaqdır. Millətləri bir-birinin üstünə saldırmaqdan ibarətdir[1].

Həştərxanda sürgündə olan N.Nərimanov Bakıda çıxan mütərəqqi qəzet və jurnallar ilə əlaqə saxlayır və burada öz məqalələrini dərc etdirirdi. O, xüsusilə 1911-ci ildən Bakıda çıxan «Məktəb» adlı jurnalda uşaqlar üçün bir sıra məqalələr yazmışdır. O, «Əziz balalar» adlı məqaləsində uşaqlara faydalı məsləhətlər verirdi. Gənclərə müraciət edərək deyirdi ki, uşaqlar gərək elmə yiyələnsinlər, dosta, yoldaşa sədaqətli olsunlar, öz vətənlərini sevsinlər.

Beləliklə, N.Nərimanov Həştərxanda 2 il əvəzinə 5 il qalır. O, ömrünün ən məhsuldar dövrünün 5 ilini sürgündə olmasına baxmayaraq, vaxtını boş keçirməmişdir. Orada da bir sıra ictimai və siyasi işlərin fəal iştirakçısı olmuş, səmərəli işlər görmüş, bütün qüvvəsilə xalqın mənafeyinə çalışmış, siyasi inqilabi və ictimai işlərdə fəal iştirak etmişdir.

Bütün bunlara görədir ki, N.Nərimanov Həştərxan şəhəri zəhmətkeşlərinin hüsn-rəğbətini qazanmışdır. O, 1913-cü ildə çar hökumətinin rəsmi icazəsilə Bakıya yola düşərkən Həştərxan şəhərinin zəhmətkeşləri ona təşəkkür əlaməti olaraq üzərində «Əziz həkimimiz, fədakar ictimai xadimimiz Nəriman Nərimanova minnətdarlıq əlaməti olaraq. Həştərxan şəhəri müsəlmanları, 14 iyul 1913-cü il.»[2] sözləri yazılmış qiymətli hədiyyə təqdim etmişlər.

[1] N.Nərimanov, Məqalə və məktubları, Bakı, 1925, s. 66.

[2] Həmin hədiyyə hal-hazırda Azərb. SSR EA Azərbaycan tarixi muzeyində saxlanılır – H.Ə.

Qeyd: Bu xırda narazılığa baxmayaraq N.Nərimanov H.Z.Tağıyevə hörmət və ehtiram bəsləmiş, onun tərcümeyi-halını yazmış, sovet totalitar sisteminin təzyiqindən onu qoruyub saxlaya bilmişdir. Hacının mühacirət həyatı yaşamamasının səbəbkarı məhz N.Nərimanov olmuşdur – red.

V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun «Elmi əsərləri» (pedaqoji-psixoloji elmlər seriyası) 1962-ci il, XXI cild, s. 48–54.

R.Əfəndiyevin pedaqoji fikirləri

Rəşidbəy Əfəndiyev XIX əsrin sonu və XX əsrin birinci yarısında Azərbaycanda xalq maarifi və pedaqoji fikrin inkişafı tarixində mühüm yer tutan, özünün əməli pedaqoji fəaliyyəti ilə pedaqogika elminin və maarifinin inkişafı üçün mühüm xidmətlər göstərən görkəmli müəllim və pedaqoqlardan biridir.

R.Əfəndiyev 1863-cü ildə Nuxada (indiki Şəki) anadan olmuşdur. Nuxada Cümə məscidi yanındakı mollaxanaların birində ilk təhsil alan Rəşidbəy, həmçinin, buradakı şəhər rus məktəbində də oxumuşdur.

Rəşidbəy təhsilini davam etdirmək üçün hərbi məktəbə daxil olmağa hazırlaşır. Lakin 1878-ci ildə M.F.Axundovla görüşü onu bu məqsəddən çəkindirir. Rəşidbəy sonralar öz təcrümeyi-halında bu münasibətlə yazırdı: «M.F.Axundov mənə hərbi məktəbə girməyi məsləhət görmədi. Ancaq dedi ki, qardaş oğlu, gələn il Qoridə yalnız müsəlmanlardan ötrü tatarski otdelenie (azərbaycanlı şö'bəsi –H.Ə.) açılır. O məktəb sənə çox münasibdir. Oraya mən səni indidən kandidat yazdırıram»[1].

1879-cu ildə A.O.Çernyayevski (1840–1897) Qori Müəllimlər Seminariyasının azərbaycanlı şö'bəsinə tələbə toplarkən İrəvan, Naxçıvan, Şuşa, Şamaxı, Qazax və s. şəhərlərlə yanaşı, Nuxaya da gəlir və Rəşidbəyi Qoriyə aparır. Həmin il Rəşidbəy Qori Müəllimlər Seminariyasına daxil olur. 1882-ci ildə oranı bitirib Qutqaşendə açılan ikisinifli ibtidai xalq məktəbinə müdir və müəllim tə'yin olunur. 8 il Qutqaşendə müəllimlik etməklə yanaşı, Qafqaz arxeoloji cəmiyyətində əməkdaşlıq etmiş və özünün «Nour gölü», «Qutqaşen kəndi haqda bir neçə mə'lumat», «Nuxa qəzasında xalq səhiyyəsi» və s. adlı məqalələrini «Sbornik materialov po opisanie mestnostey i plemen Kavkaza» məcmuəsində nəşr etdirmişdir. Rəşidbəy 1892-ci ildə Tiflisə köçür. Orada müəllimlik etməklə bərabər, həm də, Zaqafqaziya müsəlmanlarının ruhani idarəsində katib müavini vəzifəsində çalışır. O, eyni zamanda

[1] Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu, R.Əfəndiyevin arxivi Q–2.

Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunda oxuyur və 1900-cü ildə oranı bitirir.

Rəşidbəyin həyatı və fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də onun 1900-cü ildən 1916-cı ilə qədər Qori Müəllimlər Seminariyasında müəllimlik etməsidir. O, bu dövrdə seminariyanın müəllim və şagird kollektivi arasında yüksək hörmət və nüfuz qazanmışdır. Məhz buna görədir ki, Qafqaz Maarif dairəsi direktoru onu 1911-ci ildə fərqlənmə medalı ilə təltif etmişdir.

Rəşidbəy sonralar İrəvan quberniyasında müsəlman məktəblərinin müfəttişi işləmiş, Naxçıvanda, Kuban vilayətinin tatarlar yaşayan Tiberda rayonunda və Qaraçay vilayətində qısamüddətli müəllimlər kursu təşkil etmiş və 1918–1919-cu illərdə Bakıda müəllimlər seminariyasının direktoru vəzifəsində işləmişdir.

Rəşidbəy həyatının son dövrünü doğma Nuxa şəhərində keçirmiş və orada fəaliyyət göstərmişdir. O, 1920-ci ildə Nuxada darülmüəllim (kişi seminariyası) və darülmə'lumat (qadın seminariyası) təşkil edir və zəhmətkeş balalarından, xüsusilə qızlardan yüzlərcə gənc müəllim kadrları hazırlayır.

1925-ci ildə Nuxa ictimaiyyəti R.Əfəndiyevin pedaqoji və ədəbi fəaliyyətinin 43 illik yubileyini keçirmişdir. Həmin il Rəşidbəyə ömürlük dövlət təqaüdü tə'yin edilmişdir. Lakin o, pedaqoji fəaliyyətindən ayrıla bilməmiş və 1933-cü ilə qədər Nuxa pedaqoji məktəbində rus dili müəllimi işləmişdir.

R.Əfəndiyev 1942-ci il avqustun 31-də Nuxada 79 yaşında vəfat etmişdir. Hal-hazırda Nuxada R.Əfəndiyevin adına küçə salınmış və onun yaşadığı ev ölkəşünaslıq muzeyinə çevrilmişdir.

R.Əfəndiyevin 60 illik fəaliyyəti rəngarəng və çoxcəhətlidir. Lakin hər şeydən əvvəl o, müəllimdir, pedaqoqdur.

R.Əfəndiyevin pedaqoji görüşlərində dövrünün tə'lim-tərbiyə sisteminin bir sıra məsələlərinə aid maraqlı və əhəmiyyətli cəhətlər vardır.

R.Əfəndiyev elmi və pedaqoji fəaliyyətə hələ Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi ikən başlamışdır. O, seminariyanın I kursunda oxuyarkən özünün müəllimi A.O.Çernyayevski ilə birlikdə azərbaycanlı şö'bəsinin tətbiqat məktəbi (nümunə – baza məktəbi – H.Ə.) üçün proqram tərtib etmişdir.

Seminariyanın III kursunda həndəsə və cəbrdən həll etdiyi məsələlərdən ibarət «Həndəsə ilə hesab məsələləri məcmuəsi» kitabını yazmış, həndəsə kitabını rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. Həmin əsərlər Moskvada təşkil olunmuş Ümumrusiya sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət sərgisinə göndərilmiş və Zaqafqaziya Müəllimlər Seminariyası bu kitablar üçün sərgi komitəsi tərəfindən 1882-ci ildə ikinci dərəcəli diplom və gümüş medalla mükafatlandırılmışdır. Bütün bunlarla bərabər R.Əfəndiyev seminariyada oxuyarkən A.O.Çernyayevskinin «Vətən dili» adlı əlifba dərsliyinin tərtibində də fəal iştirak etmişdir.

R.Əfəndiyev bu münasibətlə yazmışdır: «Dərsə şiru edilən zaman bir vaxt başa düşdülər ki, türk dilində əlifba kitabı qətiyyən yoxdur və olmamışdır. Beynəva Çernyayevski böyük tələbələri kabinəsinə toplayıb bir komissiya intixab etdi. O cümlədən mən də o komissiyada iştirak edirdim. Həftəlik proqram tərtib edib gündəlik dərslərə material hazır edirdik və hər dərs üçün müfəssəl konspekt yazılırdı. 4 ədəd naçalni şkolalarda (üsuli sövti üzrə) dərslər keçirilirdi. Erməni, gürcü və rus dillərində zvukovoy metod üzrə basılmış kitablar mövcud idi. Lakin yalnız türk dili üçün təzədən kitab qoşulmaq və nəşr edilməyə böyük ehtiyac görünürdü. Çünki tatarski otdeleniyanı bitirib müəllim çıxan cavanlar üçün kəndlərdə pişəzvəxt türk məktəbi açılırdı. Onlar kəndə gedəndə öz məktəbini seminariski obraztsovaya şkolaya bənzədib təzə qoşulmuş kitab ilə də dərslərini aparacaq idi. Bu cəhətə görə Çernyayevski əlində toplanmış dərs materiallarından intixab edib bir kitab şəklinə saldı və mənim xəttimlə daş basmada 1883-cü sənədə «Vətən dili» adında o kitabı basdırdı»[1]. Sövti üsul əsasında yazılan bu əlifba kitabı o zamanlar üçün çox böyük pedaqoji bir hadisə idi. Bu kitab əsrlərdən bəri davam edən höccələmə (əbcət-çərəkə) üsullarına qarşı ilk qüvvətli bir hücum və zərbə idi.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə aid bir sıra mənbələrdə sövti üsul ilə ilk əlifba kitabının 1844-cü ildə Lazar Budaqov, sonralar isə İsmayıl bəy Kasprinski tərəfindən (onun «Xaceyə Səlyan» və «Müəl-

[1] Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu, R.Əfəndiyevin tərcümeyihalından.

limlərə tələmat kitabları» nəzərdə tutulur – H.Ə.) yazıldığı söylənilir. Bə'zi sənədlərdə isə 1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləyən məşhur yazıçı, mütəfəkkir və pedaqoq M.F.Axundov tərəfindən Azərbaycan dilinə aid dərs kitabı tərtib edildiyi söylənilir. Çox təəssüf ki, bu dərslik hələ tapılmamışdır. Bütün bunlarla bərabər sözün tam mə'nasında yeni milli dərs kitablarımızın ilk yaradıcılarından biri Rəşidbəy Əfəndiyevdir.

Rəşidbəy hələ seminariyada oxuyarkən böyük rus pedaqoqu K.D.Uşinskinin pedaqoji görüşlərinin tə'siri altında yeni Azərbaycan məktəbini yaratmağı qarşısına məqsəd qoymuşdur. Buna görə də o, seminariyada oxuyarkən ana dilində gələcək Azərbaycan məktəbləri üçün mükəmməl bir ədəbiyyat yaratmaq haqqında düşünürdü. Rəşidbəy yaradıcılığı xalq məktəblərində şagirdlərə ana dilini öyrətməyi əsas götürürdü. Buna görə də o, seminariyanı bitirib kənddə müəllimlik edən vaxt Çernyayevskinin «Vətən dili» dərsliyinin bütün müsbət və mənfi cəhətlərini təcrübədən keçirə bilmişdi. O, müəyyən etmişdi ki, uşaqlara ana dilində savad öyrətmək üçün bu kitabın bir sıra qüsurları var. Bu nöqsanlar uşaqlara qısa müddətdə ana dilində mükəmməl savad öyrətmək üçün çətinlik törədirdi. Rəşidbəy müəyyən etmişdir ki, Çernyayevski ərəb əlifbasını, onun bütün mürəkkəb xüsusiyyətlərini dərindən öyrənə bilmədiyindən, «Vətən dili» kitabının tərtibində bə'zi səhvlərə yol vermişdi. Mollalar Çernyayevskiyə öyrətmişdilər ki, ərəb əlifbasındakı hərflərin hər birinin dörd şəkli var: biri – başda yazılan, biri – ortada yazılan, biri – başqa hərflə bağlı, biri də – müstəqil olandır.

A.O.Çernyayevski də ərəb əlifbasında 32 hərfin hər birinin dörd şəkli olduğunu nəzərə alıb, kitabında 32X4=128 ədəd dərs düzəltmişdi. Ona görə Çernyayevskinin «Vətən dili» kitabı ilə dərs aparan müəllim məcbur idi ki, yalnız əlifbanı öyrətmək üçün şagirdləri rabitəsiz cümlələr üzərində (məsələn: – Həsən sac asır, Kərim saz çalır, Leyli yuxa yayır və s.) azı altı ay məşğul etsin.

R.Əfəndiyev bütün bu nöqsanları aradan qaldırmaq və savad tə'limini altı ay müddətində deyil, bir ayda başa çatdırmaq işinə kömək etmək üçün özünün beşillik pedaqoji təcrübəsinə və böyük rus pedaqoqu K.D.Uşinskinin pedaqoji görüşlərinə əsaslanaraq 1887-ci ildə «Uşaq bağçası» adlı əlifba kitabını yazmışdır. Kitab ilk dəfə 1898-ci ildə İstanbulda çap edilmişdir.

R.Əfəndiyevin «Uşaq bağçası» kitabının Çernyayevskinin «Vətən dili» kitabından bir sıra fərqi və üstünlüyü vardır. Bu fərq ondan ibarət idi ki, Çernyayevskinin «Vətən dili» kitabı vasitəsilə ərəb əlifbasını şagirdə 6 aydan az vaxtda öyrətmək mümkün olmadığı halda, R.Əfəndiyevin «Uşaq bağçası» kitabı vasitəsilə bu əlifbanı bir ay müddətində öyrətmək, şagirdlərə yazı vərdişləri aşılamaq mümkün idi. Buna görə də Rəşidbəy kitabın titul səhifəsində belə yazmışdır: «Savadsız adam bir ayda oxuyar və yazar».

R.Əfəndiyevin «Uşaq bağçası» kitabında əvvəlcə ərəb əlifbasından Azərbaycan dilinə tamamilə yaramayan və ərəb məxrəcilə ifadə olunan 8 ərəb hərfini ataraq 24-nü saxlamışdır. O, «Uşaq bağçası» kitabında 24 hərfin hər birinə aid bir dərs nümunəsi verməklə kitaba 24 mətn daxil etmişdir.

Rəşidbəy bu haqda özünün tərcümeyi-halında yazmışdır: «Mən, Qur'an oxutmaqla bərabər, ərəb və fars dillərindəki mövhumata aid lüğət əzbərləməyə uşaqları məcbur edən əski ərəb məktəbini tə'məlindən yıxıb, türk qövmü (Azərbaycan xalqı – H.Ə.) üçün ana dilində əsaslı bir dərsxana meydana gətirə bildim»[1].

Uşaqlara qısa müddətdə mükəmməl savad öyrədən bu kitabın meydana çıxması tərəqqipərvər adamları nə qədər sevindirmişdirsə də, zəhmətkeşləri cəhalət zəncirində saxlamaq istəyən ruhaniləri və onların himayəçilərini bir o qədər mə'yus etmişdir. İrticaçılar bu kitabın məktəbdə oxunmasına qarşı açıq mübarizə aparırdılar.

Rəşidbəy Əfəndiyev «Uşaq bağçası»nı tərtib edərkən uşaqların yaş və bilik səviyyəsini nəzərə alaraq, kitaba heyvanların həyatına dair tülkü, çaqqal nağılları, uşaqları maraqlandıran kiçik mənzumə və hekayələr də daxil etmişdir. Ona görə də irticaçılar həmin kitabı əvvəlcə «Tülkü, çaqqal nağılı» adlandırmışdılar.

Rəşidbəy Əfəndiyev bu hücumları öz tərcümeyi-halında belə təsvir etmişdir: «Nuxada cümə məscidinin imamı Hacı Mahmudun tapşırığı ilə bir nəfər köhnə dindar Hacı İbrahim səs-küylə məktəbə girib, şagirdlərin əllərində və çantalarında olan «Uşaq bağçası» dərsliyini alıb, bir-bir məscidin həyətinə tullayır və üzünü toplaşan camaata tutub: «bizə belə tülkü, çaqqal nağılı lazım deyildir; bizə

[1] Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu, R.Əfəndiyevin arxivi Q–2.

qur'an, bizə namaz surəsi lazımdır», – deyə xalqı həyəcanlandırmağa çalışırdı»[1].

Bütün bunlara baxmayaraq öz uşaqlarının tez bir zamanda savadlanıb elm öyrənməsini istəyən valideynlər isə Hacı İbrahim kimi cahillərə demişdir ki, «bu kitab bir mö'cüzdür. Çünki köhnə məktəblər 8 ildə qur'anı çıxıb balalarımızın əlinə sonra qələm və yazı üçün məşq verirdilər. Kitabın bir nöqsanı varsa, yalnız başda bismillahın olmamasıdır»[2].

Rəşidbəy avam və mövhumatçı xalqın kitaba rəğbətini və məktəbə məhəbbətini daha da artırmaq üçün «Uşaq bağçası»nın sonrakı çapında bir sıra təshih və əlavələr etmişdir.

R.Əfəndiyevin «Uşaq bağçası» kitabı Azərbaycan di-lində təhsil verən bütün dövlət və xüsusi tədris məktəblərində istifadə etmək üçün Qafqaz tə'lim okruqu tərəfindən bəyənilmişdir. «Uşaq bağçası» dörd dəfə (cəmi 90.000 nüsxə) nəşr edilmişdir. «Uşaq bağçası» kitabı təkcə Zaqafqaziya məktəblərində deyil, Şimali Qafqaz və Orta Asiyadakı müsəlman məktəblərinin inkişafında da mühüm rol oynamışdır.

R.Əfəndiyevin ikinci məşhur dərsliyi «Bəsirət-ül-Ətfal» kitabıdır. Rəşidbəy Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsinə müəllim tə'yin olunarkən, Azərbaycan şö'bəsinin tələbələri üçün Azərbaycan dilində mükəmməl bir ədəbiyyat kitabı yox idi. Buna görə də o, hələ Tiflisdə işləyərkən tərtib etdiyi ədəbi-qiraət kitabını 1901-ci ildə 2 min nüsxə tirajla «Bəsirət-ül-Ətfal» adı ilə Bakıda nəşr etdirmiş və seminariyada bir dərslik kimi istifadə etmişdir. Bu barədə o, öz tərcümeyi-halında yazmışdır: «Tiflisdə ikən düzüb-qoşduğum «Bəsirət-ül-Ətfal», müntəxəbatını əgər Bakıda tələsik surətdə basdırmasaydım, Qori seminariyasındakı türk lisanı dərsləri üçün məndən müqəddəm əldə bir kitabları yox idi. Mənə də türk dili dərsləri həvalə olunduğu üçün 1902-ci sənədə, mən də öz kitabımdan dərs verməyə başladım»[3].

«Uşaq bağçası»nda olduğu kimi, müəllif bu kitabda da şagirdlərdə savad tə'limi, oxu texnikasını inkişaf etdirməklə yanaşı,

---

[1]. Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu, R.Əfəndiyevin arxivi Q–2.
[2]. Yenə orada.
[3] .Yenə orada

həm də onların tərbiyə edilməsinə, əxlaqına tə'sir etməyə də xüsusi fikir vermişdir.

Bu cəhətə böyük əhəmiyyət verən müəllif əsərin titul səhifəsində yazmışdır:

«Müsəlman millətinin tərbiyə əxlaqına və mə'lumat nafiyəsinə xidmət edici təzə kitabdır».

«Bəsirət-ül-Ətfal» kitabı üç hissədən ibarətdir. Birinci hissədə hər biri bir dərsdən ibarət olan kiçik hekayələrdir ki, bunların da bə'zisi nəzm, bə'zisi isə nəsr ilə verilmişdir.

Müəllif, müqəddimədə oxunacaq mətnlərə aid göstəriş vermişdir ki, bu da müəllimlərə metodiki vəsait kimi çox faydalıdır.

Kitabın ikinci hissəsində ədəbiyyat və tərbiyə məsələlərinə həsr edilmiş mətnlər vardır ki, müəllifin fikrincə müəllim bu mətnlər vasitəsilə «şagirdlərin qəlbinə, kəmalincə nəsihət etdirəcəkdir».

Üçüncü hissədə «müsəlman dininin əqidəsinə münasib və əhkam ilahiyənin fəzilətinə dair» bir sıra mətnlər verilmişdir.

«Uşaq bağçası» kitabında olduğu kimi, «Bəsirət-ül-Ətfal» kitabında da müəllif rus və Azərbaycan klassiklərinin bə'zi əsərlərinin tərcüməsini vermişdir.

Azərbaycan klassik şairlərindən M.Füzuli və S.Ə.Şirvanidən bir sıra parçalar verməklə yanaşı, böyük rus şairlərindən İ.A.Krılovun «Ayna və meymun», «Kəndli və ilan», «Qurd və pişik», A.S.Puşkinin «Kaftar», «Torçu və balıq», «Hal anəsi», «Bağçasaray fantanı» və s. hekayə və şe'rlərini tərcümə edərək kitaba daxil etmişdir.

Prof.M.Rəfili «İ.A.Krılov və Azərbaycan ədəbiyyatı» adlı kitabında; R.Əfəndiyevin böyük rus yazıçılarından böyük bacarıqla etdiyi bu tərcümələrə yüksək qiymət vermişdir[1].

R.Əfəndiyev «Bəsirət-ül-Ətfal» kitabına yuxarıda göstərdiyimiz rus klassiklərinin bə'zi əsərlərinin tərcümələri ilə bərabər, özünün məişətimizdə olan nöqsanları göstərən, xeyirxahlıq, yoldaşlıq və əxlaqi sifətlər aşılayan şe'r, hekayə və rəvayətlərini də daxil etmişdir. Bu şe'r, hekayə və rəvayətlərdə vətənin təbiətini sevmək, xalqın məişətini bilmək, məktəbə getmək, elm öyrənmək və s. məsələlər ön planda qoyulmuşdur.

[1] Bax: M.Rəfili, N.A.Krılov və Azərbaycan ədəbiyyatı, Bakı, 1944, s. 30.

R.Əfəndiyevin «Bəsirət-ül-Ətfal» kitabında kənd təsərrüfatı, təbiət və coğrafiyaya aid bir sıra mə'lumatlar da verilmişdir. Kitabın sonunda Azərbaycan dilinin imla qaydaları, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığa aid bir sıra mə'lumatlar da vardır. Kitabın son hissəsindəki məsələlər içərisində Rəşidbəyin ərəb əlifbasının Azərbaycan dilinin imla qaydalarına uyğun gəlməməsi haqqında tənqidi qeydləri də nəzəri cəlb edir. «Bəsirət-ül-Ətfal» əsərinin ən yaxşı cəhətlərindən biri də uşaqlara məktub, ərizə və başqa əməli yazılar öyrətmək üçün nümunələr verilməsidir.

«Uşaq bağçası» kimi, bu dərslik də Azərbaycan məktəblərinin inkişafında, tədris və tərbiyə keyfiyyətinin yaxşılaşmasında mühüm rol oynamışdır. Prof.M.Rəfilinin fikrincə «Bəsirət-ül-Ətfal» kitabı XX əsrin əvvəllərində məktəblərdə istifadə edilən ən yaxşı vəsaitlərdən biri olmuşdur[1].

Təkcə onu qeyd etmək kifayətdir ki, «Bəsirət-ül-Ətfal» kitabı 1901-ci ildən 1912-ci ilə kimi 42.000 tirajla 4 dəfə çap olunmuşdur. Kitabı hər dəfə çapa hazırlayan zaman müəllif əlavə materiallarla onu zənginləşdirmiş və bir daha təkmilləşdirmişdir. Ona görə də kitabın 1901-ci ildəki ilk nəşri 128 səhifə olduğu halda axırıncı nəşri 226 səhifəyə qaldırılmışdı. Birinci çapda oxu materiallarına 90 səhifə yer verildiyi halda, axırıncı çapda bu həcm 156 səhifəyə çatdırılmışdır. Həmçinin imla qaydaları, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığa aid materiallara kitabın birinci nəşrində 38 səhifə verilmişdirsə, kitabın sonuncu nəşrində bu həcm 70 səhifəyə qaldırılmışdır. Kitabın birinci və son çapının forması arasında da fərqlər vardır. Belə ki, kitabın birinci nəşri ərəb əlifbasının kobud şrifti ilə çap edilmişdirsə, sonrakı nəşrləri nisbətən sadə və gözəl şriftlərlə çap olunmuşdur. Bu məqsədlə R.Əfəndiyev 1902-ci ildə İstambuldan Tiflisə ilk dəfə ərəb əlifbasının sadə şriftini gətirmişdir. Bu, Azərbaycan nəşriyyatının inkişafında Rəşidbəyin mühüm xidmətlərindən biridir. Həmin hadisəni xatırlayan Rəşidbəy özünün tərcümeyi-halında yazmışdır:

«Rusiya tipoqrafiyalarında ərəb şrifti çox kobud, çox nahamar, kələz qurbağaları andıran hürüfatdır. Bu cəhətə görə, əsərimi gözəl hürüfat ilə basdırmaq arzusu ilə İstambula getdim və orada

[1] Bax: M.Rəfili, N.A.Krılov və Azərbaycan ədəbiyyatı, Bakı, 1944, s. 31.

çox məşəqqətlərə düçar ola-ola əvvəllər «Uşaq bağçası»nı və sonra «Bəsirət-ül-Ətfal»ı müfəssəl olaraq basdırdım. İstambul məşəqqətlərinə təhəmmül etməmək üçün İstambul şriftinin mislini Qafqaza köçürtmək təşəbbüsündə bulundum. İstambuldan xarici vilayətə şrift keçirmək o zaman əşəddi surətdə qadağan olunmağını bilib, gizlin surətdə mətbəələrdən zəruri hərfləri ələ keçirtdik və özümüzlə Tiflisə gətirdik»[1].

R.Əfəndiyevin «Uşaq bağçası» və «Bəsirət-ül-Ətfal» adlı dərsliklərində və bir sıra pedaqoji və metodiki əsərlərində K.D.Uşinskinin qüvvətli tə'siri özünü göstərmişdir. R.Əfəndiyev bu dərslikləri tərtib edərkən K.D.Uşinskinin pedaqoji ideyalarından məharətlə istifadə etmişdir.

R.Əfəndiyevin ədəbi yaradıcılığı M.F.Axundovun tə'siri altında inkişaf etdiyi kimi, pedaqoji fikirləri də K.D.Uşinskinin mütərəqqi ideyalarının tə'siri altında inkişaf etmişdir.

R.Əfəndiyev yazmışdır: «Pedaqojini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb xalqa maarif və bilik verməyir, köhnə məktəb dağıdılmalıdır. Bu isə yalnız K.D.Uşinskinin yeni üsulla olan dərs kitabı kimi, öz məktəbimiz üçün ana dilində dərs kitabını tərtib etməklə mümkündür»[2].

R.Əfəndiyev yazır ki, məhz bu məqsədlə də «Uşaq bağçası» kitabını qiymətli bir əsərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur və məhbub əlifba kitabçasını özümə rəhbər etdim»[3].

K.D.Uşinskinin R.Əfəndiyevə müsbət tə'siri «Uşaq bağçası» kitabında əlifbadan sonrakı hissədə özünü daha qabarıq göstərir. Bu hissədə uşağı əhatə edən mühit, əşya, məntiqi hadisələrin, şeylərin bir-birini tamamlaması çox böyük məharətlə verilmiş və yerli materiallardan ustalıqla istifadə edilmişdir.

Kitabın tərtibində L.N.Tolstoy, V.P.Vaxterov, N.A.Korf və başqa rus pedaqoqlarının da tə'siri hiss edilir, lakin K.D.Uşinskinin tə'siri və onu təqlid etmək kitabın əsasını təşkil edir. Bunu R.Əfəndiyevin öz tərcümeyi-halında göstərdiyi aşağıdakı sözlər bir daha təsdiq edir.

[1] Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu. R.Əfəndiyevin arxivi, Q–2.
[2] Yenə orada
[3] Yenə orada.

R.Əfəndiyev yazmışdır: «Mən, o zaman məktəblər tarixinə göz gəzdirdim gördüm ki, rus milləti vaxtı ilə serkovno slovyanski (kilsə-slavyan – H.Ə.) yazıdan əl götürüb ana dilində təzə «Rodnoe slovo Uşinskoqo I ç.» kitabı ilə məktəblərini milliləşdirmişlər… «Mən də təqlidən balalarımızı ərəb və fars dillərindəki mövhumata və lüğət əzbərləməyə məcbur və məşğul edən əski ərəb məktəbini tə'məlindən yıxıb türk qövmü üçün ana dilində əsaslı bir dərsxana meydana gətirə bildim»[1].

Mə'lum olduğu kimi, Uşinskinin pedaqoji sisteminin əsasında xəlqilik və buradan nəş'ət edən ibtidai məktəbdə ana dili tədrisi durur.

R.Əfəndiyev də Uşinskinin ardınca gedərək ibtidai məktəbdə tə'limin ana dilində aparılması ideyasını irəli sürmüş və bunu həm nəzəri, həm də əməli olaraq həyata keçirmişdir.

R.Əfəndiyev təhsilin ana dilində aparılmasının əhəmiyyətindən danışaraq 1909-cu ildə «Tərəqqi» qəzetinin 39-cu nömrəsində çap edilmiş «Dərs verməyin təbii üsulu» adlı məqaləsində yazmışdır: «Əcnəbi dilinə aşna olmaq məsələsi (Rəşidbəy burada ərəb və fars dillərini nəzərdə tutur – H.Ə.) bilik və qanacaq kəsb etmək demək deyildir. Lisanın özü elmləri öyrənmək üçün bir alətdir. Bəs ana südü ilə uşağın vücuduna sirişt olmuş ana dili uşağın cəmi ömrü üçün malik olduğu kəskin bir aləti nitqdir, bu alət dura-dura təzədən uşağın zehni və nitqinə başqa bir əcnəbi lisanı yerləşdirib sonra iş bu əcnəbi alətin vasitəsilə elm və mə'rifət kəsb etdirmək fəqərəsi misdən qızıl qayırmaq fikrinə düşən kimyagərlərin əbəs gücənməyi deməkdir[2].

Rəşidbəyin fikrini inkişaf etdirərək uşağa öz ana dilində deyil, başqa bir dildə tə'lim verməyə qarşı bir sıra fikirlər söylənmişdir.

R.Əfəndiyev yazmışdır: «Məktəblərimizdə türk balalarına ərəb-fars oxutmaq adəti nə böyük xətalar vücuda gətiribdir…, əcnəbi lisanlar tamam bizi batırdı, elmdən, fəzldən, mədəniyyətdən geri saldı… ərəb və fars dili hər şeyimizi, dərrakəmizi bir dərəcədə

[1] Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu, R.Əfəndiyevin arxivi Q–2.
[2] «Tərəqqi» qəzeti, 1909-cu il, №39.

məhv edibdir ki, hafizəmizdə heç bir mətləb mühafizə olunmur, unudulub gedir»[1].

Azərbaycanda hökm sürən hərf-heca üsulunun əleyhinə gedən Rəşidbəy savad tə'limində səs təhlil-tərkib üsulunu qızğın müdafiə etmiş və dərindən əsaslandırmışdır.

Hələ 1893-cü ildə yazdığı «İbtidai savad tə'liminə aid müsəlmanların rə'yi» adlı məqaləsində ana dili tə'limində səs üsulunun üstünlüyünü göstərmiş və bunu özünün əməli təcrübəsində həyata keçirmişdir. «Yeni səs üsulu ilə uşaqlara savad öyrətmək üçün müəllimlərə rəhbərlik» adlı əsərində Azərbaycan dilinin tədrisində ərəb əlifbasının çətinliyini və mürəkkəbliyini nəzərə alaraq, yeni üsul – səs üsulu ilə uşağın savad tə'liminə aid dərslərə çox yaxşı nümunələr vermişdir. Rəşidbəy əyanilik, sistematiklik, ardıcıllıq və asandan çətinə keçməyi tə'limin əsas prinsipləri hesab etmişdir. Biliklərin möhkəmlənməsini tə'lim prinsipi hesab edən Rəşidbəy biliyi təkrar və çalışmalar vasitəsilə möhkəmləndirməyi zəruri hesab etmişdir. O, eyni zamanda tə'limdə şüurluluq və müvafiqlik prinsiplərinə də böyük əhəmiyyət vermişdir.

O, müəllimlərə məsləhət görürdü ki, tə'limdə müvəffəqiyyət qazanmaq üçün mə'lumdan məchula, yaxından uzağa, konkretdən mücərrədə, sadədən mürəkkəbə doğru getsinlər.

R.Əfəndiyev uşaqların yaş xüsusiyyətindən asılı olaraq müxtəlif tə'lim üsullarının tətbiq edilməsinə aid də fikirlər söyləmişdir.

K.D.Uşinskinin xeyirli tə'siri R.Əfəndiyevin «Müəllimlər üçün üsuli-cədid üzrə ən əvvəl dərs şüur etmənin qəvaididir» kitabçasında da (1901) özünü göstərmişdir.

Bütün bunlarla bərabər Rəşidbəy Uşinskinin pedaqoji fikirlərindən istifadə edərkən onu heç də kor-koranə təqlid etməmiş, əksinə, Uşinskidən Azərbaycan xalqının həyat və məişətinə daha çox uyğun olan şeyləri götürmüş və onları yerli şəraitə görə tətbiq etmişdir.

Beləliklə, R.Əfəndiyev Azərbaycanda K.D.Uşinskinin ardıcılı və onun ideyasını əməli surətdə həyata keçirən ilk görkəmli pedaqoq və maarif xadimlərindən biri olmuşdur.

[1] «Tərəqqi» qəzeti, 1909-cu il, №39.

Rəşidbəyin pedaqoji fikirləri içərisində tə'limin ana dilində aparılması ilə yanaşı, elmin əhəmiyyəti, qadın təhsili, tərbiyənin məqsədi, vətənpərvərlik və əmək tərbiyəsi, həmçinin ailə tərbiyəsinə aid bir sıra fikirləri vardır.

Rəşidbəy elmin qüdrətinə inanmış, onu tükənməz bir xəzinə hesab etmişdir. Özünün «Elm tükənməz xəzinədir» adlı məqaləsində göstərmişdir ki, «elm bir xəzinədir ki, onun üçün nə qıfıllı bir sandıq və nə də gözətçi lazım deyildir»[1]. Rəşidbəyin fikrincə «ələlxüsus bizim əsrimizdə elmin qədr və qiyməti hər şeydən alidir. Çünki əvvələn elm bu halda puldan və paradan zəngin, topdan və tüfəngdən ötgün, xəncərdən və qılıncdan kəskindir»[2].

Rəşidbəy göstərir ki, hər şey sərf və xərc olunduqca tükənir və əksilir. Amma elm sərf olunduqca artır və təkmilləşir.

Rəşidbəy alimi yanan şama bənzətmiş və göstərmişdir ki, bir şamın vasitəsilə neçə başqa-başqa şamlar yandırmaq mümkün olduğu kimi, bir alim vasitəsilə də çoxlu təhsilli adamlar yetişdirmək olar. Lakin «elm nuru ilə şam nurunun fərqi budur ki, şamın nuru yanıb qurtarana qədər baqidir, amma elmin şö'ləsi əbədidir və dünya durduqca o da var»[3].

Rəşidbəyin fikrincə elmin böyük bir fəziləti də budur ki, nə kiçiyə, nə böyüyə, nə nəcibə və nə də bədəsil adama fərq qoymur. Bu adamların hansı birinin elmə həvəsi və marağı olarsa, o, elmə nail olacaqdır.

R.Əfəndiyevin «Fəqir Cəfərin alim olması», «Çoban və kitab», «Çeşmək», «Uşaq və çeşmək», «Məktəb», «Yaxşı şagird» və s. kimi bir sıra hekayələrində savadlı olmaq, elm öyrənməyin əhəmiyyətindən danışılır. O, gəncləri uşaqlıq dövründən ta qocalana qədər elm öyrənməyə çağırır və göstərir ki, uşaqlıqda kəsb olunmuş elm daşa nəqş olunmuş kimidir»[4].

Rəşidbəyin fikrincə elmli olmaq üçün təkcə məktəbə getmək kifayət deyildir. Məktəbdə yaxşı oxumaq, kitabı sevmək və verilən dərsləri müntəzəm və mükəmməl hazırlamaq və müəllimə diqqətlə

[1] R.Əfəndiyev, «Bəsirət-ül-Ətfal», Bakı, 1912, s. 106.
[2] Yenə orada. s.106.
[3] Yenə orada, s. 107.
[4] Yenə orada. s. 107.

qulaq asmaq, məktəb yoldaşları ilə səmimi olmaq, müəllimə ehtiram etmək və s. lazımdır.

R.Əfəndiyev təhsil və elm öyrənmək məsələsində qadınların kişilərlə bərabər hüquqa malik olmasını qızğın müdafiə etmişdir. Bu məsələ onun pedaqoji görüşləri içərisində mühüm yerlərdən birini tutur. Onun qadın azadlığı və qadın təhsilinə aid fikirləri 1914-cü ildə nəşr etdirdiyi «Arvad məsələsi» adlı məşhur kitabında və bir sıra məqalə, şe'r və hekayələrində öz əksini tapmışdır.

R.Əfəndiyev dövründəki qadın əsarətini görmüş, qadını əsarətdə saxlayanlara, onların elm oxumasına mane olanlara qarşı barışmaz mübarizə aparmış və qadınların cəhalətdə qalmasını böyük «uçurum» və «fəlakət» hesab etmişdir. Qadın azadlığı və təhsili məsələsində M.F.Axundov ideyasını davam etdirən Rəşidbəy bu məsələni ictimaiyyət qarşısında qoyur. Lakin qadın hüquqsuzluğu məsələsinin həqiqi ictimai köklərini açа bilmir. O, Azərbaycan xalqının geridə qalması səbəblərini yalnız qadın savadsızlığı və cəmiyyətə ruhanilərin rəhbərlik etməsi ilə izah edir.

Rəşidbəy qadınların elm öyrənməsinin əhəmiyyətini gənc nəslin tərbiyəsi ilə əlaqələndirir və göstərir ki, qadınların savaddan, elmdən məhrum olması onların övladlarının inkişafına daha mənfi tə'sir göstərir.

Rəşidbəyin fikrincə ümumiyyətlə, hər hansı bir xalqın mədəni cəhətdən tərəqqi etməsi və xoşbəxtliyi nisbətən qadınların savadlı olmasından asılıdır. O, yazmışdır: «Təcrübə ilə isbata yetişmişdir ki, hər millətin, hər bir tayfanın səadəti və xoşbəxtliyi arvadların dərəcəyi-elmiyyəsindən asılıdır»[1].

R.Əfəndiyev qadın azadlığı və qadın təhsili məsələsini onların çadranı atmaları ilə əlaqələndirir. O, göstərir ki, bütün yer üzündə yaşayan arvadların hamısı üzlərini örtürsə, onda bizim arvadların da üzlərini örtmələri vacibdir. Çadra məsələsində Rəşidbəy kişilərin müdaxiləsinin əleyhinə çıxaraq yazmışdır: «Üz arvadlarındır, açmaq və örtmək haqqı dəxi arvadlara məxsusdur»[2].

Rəşidbəyin fikrincə ana təbii tərbiyəçidir. O, göstərir ki, uşağı bəsləyən, onun qayğısını çəkən, onu tərbiyə edən, elmi-hali

[1] R.Əfəndiyev, «Arvad məsələsi», Tiflis, 1914, s. 3.
[2] Yenə orada.

öyrədən, halal və haramı ayırd edən anadır. O, qadınlara bəzəyə-düzəyə, zərə-ziynətə uymamağı tövsiyə edir. Onun fikrincə qadının ən böyük bəzəyi onun ailəsi və düzgün tərbiyə etdiyi uşaqlar olmalıdır. R.Əfəndiyev «Ana kimdir» şe'rində kişilərə müraciət edərək deyir ki, sizi doğub yedirdib, içirdən, hər cür bəlalardan qoruyan qayğınıza qalan anadır. O, yazmışdır:

«Kim sizi hifz edir bəlalardan,
Əl çəkib qövmi əqrabalardan,
Qaçmayıb cövrüdən-cəfalardan?
Qara günlü, yazıq, cavan ananız.
Cani-candan yanan ananız».

Rəşidbəy qadınların hüquqsuzluğunun səbəblərini yalançı ruhanilərdə görür və qadınları öz düşmənlərinə qarşı mübarizəyə çağırırdı. O, qadınlara başa salırdı ki, sizin Nüşabə və Şirin kimi, şahlarla vuruşan, öz haqqını və namusunu qəhrəmanlıqla müdafiə edən çox ağıllı əcdadınız olmuşdur. Siz də onlar kimi azad və qəhrəmancasına mübarizə aparıb haqq və hüququnuzu müdafiə edin.

R.Əfəndiyevin bu fikirləri inqilabdan əvvəl Azərbaycanda qadın azadlığı və qadın təhsili uğrunda mübarizə işində çox böyük rol oynamış və hal-hazırda da öz əhəmiyyətini itirməmişdir…

R.Əfəndiyevin pedaqoji fikirləri içərisində diqqəti cəlb edən məsələlərdən biri də tərbiyənin məqsədidir. Rəşidbəy tərbiyənin tə'rifini belə müəyyən etmişdir: «Tərbiyə – insanı bəsləyib onun bədəninə, ruhinə və əxlaqına yavaş-yavaş qüvvət kəsb etdirməyə deyilir»[1]. R.Əfəndiyev tərbiyə deyəndə üç cəhəti: fiziki, əqli və əxlaqi tərbiyəni nəzərdə tuturdu. O, yazmışdır: «hər kəs bədəncə, ruhca və əxlaqca üç qisim tərbiyəyə möhtacdır… Bu üç qisim tərbiyədən məhrum olan şəxs həqiqətdə adam cərgəsindən sayılmaz»[2].

Göründüyü kimi, Rəşidbəy bu üç cəhətin içərisində bədən tərbiyəsini birinci yerdə qoymuş və bədən tərbiyəsi vasitəsilə insan

[1] R.Əfəndiyev, «Arvad məsələsi», Tiflis, 1914, s. 11.
[2] Yenə orada.

bədənində mövcud olan əzələlərin lazımınca inkişaf etdirilməsinə xüsusi əhəmiyyət vermişdir. Hərtərəfli inkişaf etmiş insan şəxsiyyəti məsələsinə əqli tərbiyəni ikinci yerdə qoyan Rəşidbəy bunun vasitəsilə insanın zehnini, onun şüurunu, dərrakəsini, fikrini, xəyal və hafizəsini inkişaf etdirməyi lazım bilmişdir.

R.Əfəndiyevin fikrincə əxlaq tərbiyəsi insanda «insaf, mürvət, rəhm, səbr, vəfa, dəyanət» və s. kimi keyfiyyətləri tərbiyə etməyə xidmət etməlidir.

Rəşidbəy əxlaq tərbiyəsinin aşağıdakı sifətlərini müəyyən etmişdir: Doğruluq və sadiqlik, insaf və mürvət, həya və ədəb, əmanət və dəyanət, hümmət və şəfqət, elm və mə'rifət, əfkar və aqibət[1].

R.Əfəndiyevin müəyyən etdiyi əxlaqi sifətlər natamam olsa da, öz dövründə zəhmətkeşlərin mənafeyinə xidmət etmişdir.

Yeri gəlmişkən onu da qeyd edək ki, Rəşidbəy estetik tərbiyəni hərtərəfli inkişaf etmiş insan şəxsiyyəti məfhumuna daxil etməmişdir. Lakin onun dərsliklərində, əməli pedaqoji fəaliyyətində, bədii tərbiyəyə geniş yer verilmişdir.

R.Əfəndiyev insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin roluna böyük yer vermiş və beləliklə də insanların tərbiyəli və ya tərbiyəsiz böyüməsinin fitri, anadangəlmə olmasını rədd etmişdir. O, göstərir ki, insanın əxlaqi keyfiyyətləri sonralar tərbiyə sayəsində formalaşır. «Tərbiyə xüsusunda» adlı məqaləsində göstərir ki, «insanların mə'nəviyyatı anadan doğma, fitri deyildir, sonradan tərbiyə sayəsində kəsb olunur»[2].

O, tərbiyənin böyük qüdrətinə inanır və göstərir ki, tərbiyə vasitəsilə hətta vəhşi heyvanların və bitkilərin xasiyyətini belə dəyişdirmək olar. R.Əfəndiyevin şəxsiyyətinin təşəkkülündə tərbiyənin həlledici roluna aid fikirləri Qərbi Avropanın bir sıra klassik pedaqoqlarının fikirləri ilə səslənmişdir.

R.Əfəndiyevin pedaqoji fikirləri içərisində vətənpərvərlik tərbiyəsinə aid də bir sıra maraqlı fikirlər vardır. O, hər kəsi öz vətəninə bağlı hesab etmiş və vətənə bağlı olmağı hikmətin böyük sirri adlandırmışdır.

[1] R.Əfəndiyev, «Bəsirət-ül-Ətfal», Bakı, 1912, s. 224.
[2] R.Əfəndiyev, «Arvad məsələsi», Tiflis, 1914, s. 11.

Rəşidbəy göstərir ki, vətənin havası insana can, suyu isə bədənə taqət verir. Onun fikrincə vətən viranə olsa da, xalq misalında deyildiyi kimi, yenə də cənnətdir. Vətən qəlbə qüvvət, adama cür'ət verir. Vətəni heç bir şeylə müqayisə və əvəz etmək olmaz. Dünyada insan üçün ən gözəl şey vətəndir. Vətənin acı şeyləri belə insan üçün xoşdur. Əgər başqa bir yer cənnət olsa da ora adam üçün qürbətdir.

R.Əfəndiyevin vətənpərvərlik fikirləri onun «Vətən məhəbbəti» şe'rində çox gözəl göstərilmişdir: Orada deyilir:

«Məhəbbət eləmək, hər yurd üçün bir sirri hikmətdir,
Vətən viranə də olsa, məsəldir: məhz cənnətdir.
Vətən qüvvət verir qəlbə, vətən qüvvət verir şəxsə,
Vətən rahat verir ruha, vətən bir başqa hikmətdir.
Nə bədbəxt kimsədir ol kəs, vətən mülkünü tərk eylər.
Gedər qürbət yerə, bunun hali səfalətdir»[1].

Beləliklə, R.Əfəndiyev vətəni sevməyi və ondan qüvvət almağı tövsiyə etmişdir.

R.Əfəndiyevin əmək tərbiyəsinə aid də zəngin fikirləri vardır. Xüsusilə «Uşaq bağçası» və «Bəsirət-ül-Ətfal» kitablarında əməyi sevmək, sənət və əkinçiliyi öyrənməyə aid çoxlu mətnlər, hekayə və şe'rlər vardır. Bu cəhətdən onun «Bəxt və iqbal» adlı hekayəsi xarakterikdir. R.Əfəndiyevin fikrincə insanın xoşbəxtliyi onun bəxt və taleyindən deyil, çəkdiyi zəhmətdən asılıdır. O, yazır ki, bir dəfə birisi bəxt axtarmaq və xoşbəxt olmaq üçün bütün dünyanı dolanır. Lakin istədiyinə nail olmur. O, dövlətlinin qapısına gedir, onu içəri buraxmırlar. Çox axtardıqdan sonra ona deyirlər: «Əzizim, get zəhmət qapısına, axtardığını orada taparsan». Zəhmət qapısına gedərkən onu dərhal qəbul edib, baş tərəfdə yer göstərirlər. Beləliklə həmin adam az müddət ərzində öz zəhmətilə dövlət də əldə edir, xalqın məhəbbət və hörmətini də qazanır.

R.Əfəndiyev çox haqlı olaraq göstərir ki, zəhməti və sənəti sevməyən bir adam xoşbəxt ola bilməz. Onun «İki danə xış dəmiri», «Pul kisəsi», «Çəkməçi», «Turi», «Dünya görmüş kəndçi» və s. kimi

[1] R.Əfəndiyev, «Bəsirət-ül-Ətfal», Bakı, 1912, s. 40.

hekayələrində də əməyin və sənətin əhəmiyyətindən danışılır. Uşaqlarda sənaye və kənd təsərrüfatı əməyinə, xüsusilə əkinçilik, bağ və bostançılıq, maldarlıq və s. sənətlərə həvəs və maraq oyadılır. Yeri gəlmişkən onu da qeyd edək ki, Rəşidbəyin özü bu sənətlərin əksəriyyətini çox gözəl bilirdi. Bir sıra şe'rlərində heç bir zəhmətlə məşğul olmayan və xalqın hesabına yaşayanları Rəşidbəy müftəxor adlandıraraq kəskin tənqid etmiş, adamları fədakar əməyə çağırmışdır.

R.Əfəndiyevin ailə tərbiyəsinə aid də fikirləri vardır. Onun 1904-cü ildə nəşr etdirdiyi «Qan ocağı» adlı əsəri bu cəhətdən daha xarakterikdir. Rəşidbəyin özünün yazdığı kimi, bu əsər xalqın mə'nəvi tərbiyəsinə həsr edilmişdir. Burada ailədə baş verən oğurluq, yalan danışmaq, qadın hüququnun tapdalanması və s. kimi o zamanlar ailədə özünü göstərən cəhətlər Rəşidbəy tərəfindən kəskin tənqid edilmişdir.

Komediyanı tərbiyə vasitəsi, ədəbsizliyin aynası hesab edən Rəşidbəy yazmışdır: «Bu günə qədər millətimiz arasında mövcud olan ədəbsizliyi belə bir ayna vasitəsilə meydana qoyub komediya yazmaqda məqsədimiz xalqa ədəb öyrətməkdir»[1].

R.Əfəndiyev həyatdan, xüsusilə Nuxa mühitindən götürdüyü baqqal Musa kimi tərbiyəsiz valideynlərin əməllərini bədii şəkildə tənqid etməklə, xalqı bu işlərdən çəkindirmək istəmişdir.

R.Əfəndiyev dövrünün ailə tərbiyəsindəki bə'zi yaramaz hərəkətləri görür və buna ürəkdən acıyırdı. O, xalqa müraciət edərək yazmışdır: «Ey müsəlman qardaşlarım, bizim eybimizi gördükdə bizə ağlamaq lazımdır»[2].

R.Əfəndiyevin «Qan ocağı» əsəri Zaqafqaziya və Orta Asiya səhnələrində dəfələrlə tamaşaya qoyulmuşdur.

R.Əfəndiyevin pedaqoji fəaliyyətində müəyyən ziddiyyət və məhdudiyyətlər də olmuşdur. O, din xadimlərini tənqid və ifşa etsə də ateist olmamış, dinə inanmışdır, bə'zi tərbiyəvi fikirlərini şəriətlə əlaqələndirmişdir.

R.Əfəndiyev Azərbaycanın pedaqoji fikir tarixində mühüm yer tutur. O, özünün əməli pedaqoji fəaliyyətilə minlərlə müəllim

[1] R.Əfəndiyev, «Qan ocağı», Tiflis, 1904, s. 30.
[2] Yenə orada, s. 31.

kadrları tərbiyə edib yetişdirməklə bərabər, nəzəri fikirləri ilə də Azərbaycanda pedaqoji fikri zənginləşdirmişdir. Onun qabaqcıl rus pedaqoqlarını təbliğ etməsi, Azərbaycanda maarif və pedaqoji fikrin inkişafına böyük kömək etmişdir.

V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi Əsərlərinin pedaqoji-psixoloji elmlər seriyası 1963-cü il, XXV cild, s.54–66.

Unudulmaz müəllim

Müasir Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, milli operamızın banisi, iste'dadlı bəstəkar Ü.Hacıbəyov həm də gözəl bir müəllim-pedaqoq kimi Azərbaycanın pedaqoji fikir tarixində mühüm yer tutur.

Ü.Hacıbəyov, hər şeydən əvvəl, praktik pedaqoq idi. 1899-cu ildə Şuşada rus-tatar məktəbini bitirən Üzeyir müəllimliyə hazırlaşmaq fikrinə düşmüş və bu məqsədlə də 1899-cu ildə Qori şəhərinə gedərək Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsinə daxil olmuşdur.

Gənc Üzeyir seminariyada oxuyarkən qabaqcıl rus mədəniyyəti ilə, mütərəqqi rus pedaqoji əfkarı ilə yaxından tanış olmuş, pedaqoji elmlərlə maraqlanmışdır.

1904-cü ildə seminariyanı bitirərək Şuşanın yaxınlığında olan Hadrut məktəbində ilk pedaqoji fəaliyyətə başlayan Ü.Hacıbəyov az bir müddət içərisində bütün əhalinin hörmətini qazanmışdır. Lakin kiçik kənd məktəbində geniş fəaliyyət göstərməsi üçün lazımi şərait olmadığından o, 1905-ci ildə Bakı şəhərinə gəlmiş və fəhlə rayonlarından biri olan Bibiheybətdə müəllimlik etməyə başlamışdır. Bu vaxt Bakı şəhəri Zaqafqaziyada və eləcə də Rusiyada ən mühüm sənaye mərkəzlərindən biri idi.

Neft sənayesinin inkişafı proletariatın yaranmasına, bununla əlaqədar olaraq sinfi ziddiyyətlərin kəskinləşməsinə, inqilabi fikirlərin kök salıb yayılmasına şərait yaradırdı. Burada mütərəqqi rus mədəniyyəti ilə silahlanan və milli mədəniyyət ən'ənələrinə istinad edən ziyalılar ilə burjua-mülkədar ziyalıları arasında mübarizə get-gedə kəskinləşirdi. Xalq maarifi sahəsində gedən mübarizə, əsasən tədris ocaqlarına münasibət məsələsində özünü daha çox göstərirdi. Qabaqcıl ziyalılar gənc nəslin müasir elmləri tə'lim edən yeni üsullu məktəblərdə oxumasına çalışdıqları halda, mühafizəkar ziyalılar uşaqları mollaxanalarda, mədrəsələrdə təhsil almağa sövq edirdilər.

Bakıda xalq maarifi sahəsində fəaliyyət göstərənlərin əksəriyyəti Qori seminariyasının mə'zunları idi. Onlar M.F.Axundovun açdığı yeni yol ilə gedərək qabaqcıl mədəniyyəti yayırdılar. Onlar çox yaxşı dərk edirdilər ki, beş-on ziyalı ilə iş görmək olmaz. Qarşıda duran böyük siyasi-ictimai vəzifələrin öhdəsindən gəlmək üçün həm də geniş xalq kütləsini savadlandırmaq lazım idi. Buna görədir ki, qabaqcıl ziyalılar: demokratik fikirli müəllimlər, yazıçılar, maarif xadimləri yetişməkdə olan nəslin tə'lim və tərbiyəsinə böyük əhəmiyyət verirdilər. Onlar müəllimlik etməklə yanaşı, xalqın mədəni tərəqqisinə kömək edən bədii əsərlər yaradır, jurnal və qəzetlər nəşr edir, dərsliklər tərtib edir, teatr tamaşaları verir, mətbuat səhifələrində xalq maarifinin bu və ya digər sahələrinə aid faydalı fikirlər söyləyir, bir sözlə, tə'lim və tərbiyə işilə əlaqədar olan bir neçə sahəni öz əməli fəaliyyətlərində birləşdirirdilər.

Bu dövrdə Bakıda müəllimlik edən Üzeyir təkcə praktik pedaqoq kimi qalmamış, bütün coşqun ehtirası ilə bu mübarizəyə qoşulmuşdur. O, Bakıda nəşr olunan bir sıra qəzet və jurnallarla əməkdaşlıq edir, «İrşad», «Həyat», «İqbal», «Yeni iqbal», «Kaspi», «Tərəqqi» və s. qəzetlərdə müxtəlif imzalarla dərc etdirdiyi məqalə və felyetonlarında xalq maarifi və məktəblə əlaqədar olan bir sıra mühüm məsələlərin həllinə çalışırdı.

Gənc müəllim öz məqalələrində təkcə uşaqlara təhsil vermək, onların gözlərini açmaqla kifayətlənmir, mədəni tərəqqiyə manc olan, xalqı hər vasitə ilə cəhalətdə saxlamağa çalışan mövhumatçılarla, mürtəce qüvvələrlə mətbuat səhifələrində ciddi mübarizə aparırdı. O, xalqı maarifdən çəkindirən cəhalətpərəstləri kəskin tənqid edir, onların iç üzünü açıb göstərirdi. O, «İrşad» və

«Tərəqqi» qəzetlərində dərc etdirdiyi məqalələrində mövcud cəmiyyətin eybəcərliyini, xalq maarifi və məktəblə əlaqədar olan məsələləri, burjua mühitinin, burjua əxlaqının çürüklüyünü kəskin tənqid etmiş, dövrün ən mühüm məsələlərinə toxunmuşdur.

Xalq maarifinin unudulmaz xadimi, iste'dadlı müəllim Üzeyir Hacıbəyov öz fəaliyyətinin ilk illərindən əsil mübariz və qabaqcıl bir insan kimi bütün biliyini, iste'dadını və coşqun ehtirasını xalqın səadətinə, azadlıq əldə etməsinə həsr etmişdir.

1920-ci ildən sonra Üzeyirin pedaqoji fəaliyyətinin yeni dövrü başlandı. O, bu zaman bütün bacarıq və qüvvəsini səfərbərliyə alaraq yeni musiqişünas kadrları tərbiyə etməyə girişdi. 20-ci illərdə Ü.Hacıbəyov Azərbaycan SSR Xalq Maarif Komissarlığında incəsənət şö'bəsinin musiqi bölməsinə müdir tə'yin olunur. İlk Azərbaycan musiqi məktəbinin əsasını qoyan Üzeyir bəy 3 ildən sonra musiqi texnikumuna çevrilmiş bu tədris müəssisəsinə şəxsən rəhbərlik edir. 1925-ci ildə Azərbaycanda konservatoriya yaranır. Ü.Hacıbəyov əvvəl onun rektor müavini, sonra da rektoru vəzifəsinə tə'yin edilir. Eyni zamanda konservatoriyada musiqi nəzəriyyəsindən və Bakı darülmüəllimində musiqi tədrisi üsulundan dərs deyir, musiqi sahəsində elmi pedaqoji əsərlər yazır, Azərbaycan musiqi mədəniyyəti üçün yeni olan bir sıra dərslərin (xor və xalq çalğı alətlərində not ilə çalmaq) proqram və tədris üsulunu işləyir, Azərbaycan qızlarını musiqi təhsilinə cəlb edir. Onun rəhbərliyi ilə Azərbaycanda birinci simfonik orkestr təşkil edilir.

Azərbaycan musiqisi sahəsindəki dərin elmi-nəzəri əsərləri Üzeyiri Azərbaycanın böyük alimləri sırasında xalqa tanıtdı. Ona əvvəlcə professor adı, 1945-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü adı verildi.

Azərbaycan musiqisinin inkişafı sahəsindəki xidmətlərinə görə 1935-ci ildə ona Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi, 1937-ci ildə isə Azərbaycan SSR-in Xalq artisti adı verilmişdir. 1938-ci ildə Moskvada Azərbaycan incəsənəti Ongünlüyü zamanı Ü.Hacıbəyov Lenin ordeni ilə təltif edilmiş və həmin ildə SSRİ Xalq artisti adına layiq görülmüşdür.

1940-cı ildə «Koroğlu» operasına və 1946-cı ildə «Arşın mal alan» filminə görə Ü.Hacıbəyova Dövlət mükafatı laureatı adı verilmişdir.

İste'dadlı müəllim, mühərrir, bəstəkar, görkəmli musiqişünas və nəzəriyyəçi olan Ü.Hacıbəyov həm də görkəmli dövlət xadimi idi.

Ü.Hacıbəyov yaradıcılığının çiçəkləndiyi bir dövrdə – 1948-ci il noyabr ayının 23-də Bakı şəhərində vəfat etmişdir.

Onun xatirəsi əbədiləşdirilmiş, Dövlət Konservatoriyasına, Azərbaycan Dövlət simfonik orkestrinə, respublikanın bir çox kolxozlarına böyük müəllim və bəstəkar Ü.Hacıbəyovun adı verilmişdir.

Azərbaycan SSR Nazirlər sovetinin qərarına əsasən Azərbaycan Elmlər Akademiyasının me'marlıq və İncəsənət İnstitutu böyük bəstəkarın əsərlərinin 10 cildlik akademik nəşrinə başlamışdır[1].

Üzeyir Hacıbəyov dövrünün mütərəqqi pedaqoji fikir nümayəndələrindən biri olmuşdur. Onun əsər və məqalələrində köhnə məktəb tənqid edilmiş, ana dili, çarizmin ruslaşdırma siyasəti, tə'lim üsulları, əxlaq tərbiyəsi və s. ilə əlaqədar bir sıra dəyərli fikirlər söylənmişdir.

Hər şeydən əvvəl, Ü.Hacıbəyov çar Rusiyasının maarif sahəsində milli ucqarlarda yeritdiyi siyasəti kəskin tənqid etmişdir. O, 1906-cı ildə «İrşad» qəzetində dərc etdirdiyi məqalələrindən birində çar hökumətinin ruslaşdırma siyasətindən bəhs edərək yazırdı:

«Məktəb açıb öz uşaqlarımızı öz ana dilimizdə tədris və tə'lim etmək bizim arzularımızın ən ümdəsidir. Bu arzunun hüsula gəlməsi üçün biz var qüvvəmiz ilə çalışmalıyıq, zira nəşri maarif və tə'yini mədəniyyət üçün yeganə vəsaitimiz bir bu təriqətdir. Bu da mə'lumdur: çünki indiyə qədər mövcud olan və indi də vücudunu saxlamaq üçün axırıncı dəfə əl və ayaq çalan nühus tərz idarənin yaratdığı şkolalar misyoner ocağı olub hər kəsin nifrətinə səbəb olur və mədəniyyət yolunda o xidməti edir ki, hamını elm və maarifdən bacardıqca uzaqlaşdırır, zira bunların məqsədi xəlqi maarifləndirmək deyil, bəlkə ruslaşdırıb axırda da bədbəxt etməkdir»[2].

Rus çarizminin yerli dillərə, bu dillərin məktəbdə tədrisinə e'tinasız münasibətini çox açıq və çılpaqlığı ilə tənqid edən Üzeyir

[1] Qeyd: 10 cildlik artıq nəşr olunmuşdur. – Red.
[2] «İrşad» qəzeti, №240, 1906

1909-cu ildə «Tərəqqi» qəzetinin 23-cü nömrəsində dərc etdirdiyi «Milli məktəblərdə rus dili tədrisi» adlı başqa bir məqaləsində göstərirdi ki, 1905-ci ilə qədər çar hökuməti müsəlmanlar arasında maarifi inkişaf etdirməyi özünə vəzifə hesab etmirdi. Hökumət «bu yolda bə'zi iqdamatda bulunurdusa da, bu nəşri maarif üçün deyil, «Nəşri-rusizm» üçün idi»[1].

Bunu da qeyd etmək lazımdır ki, Ü.Hacıbəyov ana dilində məktəblərin açılmasını tələb edərkən, azərbaycanlı uşaqların rus dilini öyrənmələri zərurətini də xüsusilə vurğulayırdı. Məsələn, o, 1906-cı ildə çap etdirdiyi «Məktəb məsələsi» adlı məqaləsində qeyd edirdi ki, indiki şəraitdə ana dilində məktəb yaratmaq ən çətin və ən vacib məsələlərdən biridir, lakin buna baxmayaraq, təkcə ana dilində məktəb yaratmaqla işi bitmiş hesab edə bilmərik. Biz uşaqlarımıza rus dilini də mükəmməl öyrətməliyik. Çünki təkcə ana dilini bilmək kifayət deyil. Biz rus dilini öyrənmədən irəli gedə bilmərik».

1905-ci il inqilabına çox böyük ümidlər bəsləyən, inqilabdan olduqca çox şeylər gözləyən Ü.Hacıbəyov ağır irtica illərində heç də ruhdan düşmür. O, irtica illərində də xalqı dözümlü olmağa, mübarizəni davam etdirməyə çağırıb yazırdı ki, insan gərək dünyada sərbəst yaşamağa qədəm qoyduqda məişətin tikanlı yollarından qorxmasın, mübarizə meydanında bağrı yarılmasın, mübarizəyə girişməyə məcbur olduqda həyatın birinci zərbəsi altında tələf olmasın[2].

İnkişafa, tərəqqiyə və gələcəyə hədsiz inam və ümidi olan Üzeyir xalqı da xoşbəxt olmağa, xoşbəxt gələcəyə inandırmağa və tərəqqi uğrunda mübarizəyə çağıraraq, hələ 1910-cu ildə çap etdirdiyi məqalədə yazırdı:

«Ümidsiz olmaq yaxşı deyildir. İyirminci əsrdə bütün aləmə cari olmağa başlamışıq, mədəniyyət selinin qabağını heç bir məmaniətlə durdurmaq mümkün olmayacaqdır. Bu əsrin muradı dünya üzünün kəsafətini təmizləməkdir. Yavuqdur o zaman ki, həman sel bizim yerlərə dəxi hücum edib üzərimizdə olan və bizi nəfəs almağa qoymayan kəsif daşları, qayaları yerindən oynadıb zail edər. O daşların altında yatmış olan qurdları yuyar, yerimizə,

[1] «Tərəqqi» qəzeti, №23, 1909.
[2] «Həqiqət», №23, 1910.

torpağımıza can verər, o halda bizim yerlərdə də güllər və çiçəklər bitib buraları çəmənzarə döndərər…»[1].

Bununla belə o, ana dilində məktəb açmağın çox vacibliyindən bəhs etməklə, onu həm də çox «müşkül və çətin bir məsələ» hesab edirdi. O, fikrini bununla əsaslandırırdı ki, əgər Qafqaz da Finlandiya kimi imtiyazlı və yarımmüstəqil bir ölkə olsa idi, ana dilində açılmış məktəblərdən arzu olunan nəticəni gözləmək olardı, yə'ni ana dilimiz öz yerində olub, lazımi imtiyazlara sahib olardı. Doğrudan da o vaxt ucqarlarda ana dilinin heç bir imtiyazı yox idi. Bu da xalqın əsas hissəsinin ana dilində təhsil almasına mane olurdu. Ona görə də ana dilində təhsili geniş-ləndirmək üçün Üzeyir məktəblərimizi maddi cəhətcə tə'min etməyi lazım bilirdi.

Ü.Hacıbəyov yaxşı bir müəllim olmaqla, həm də gözəl bir rus dili metodisti idi. O, Azərbaycan məktəblərində rus dili tədrisi metodikasına dair bir sıra məqalələr də yazaraq bə'zi orijinal fikirlər irəli sürmüşdür. Ü.Hacıbəyovun müəllimin rus dili tədrisi metodikasına dair irəli sürdüyü orijinal məsələlərdən biri onun «təbii üsul» adlandırdığı üsul olmuşdur. Ü.Hacıbəyov bu məsələ ilə əlaqədar yazdığı məqalələrində «təbii üsul»u «tərcümə üsulu» ilə yanaşı qoyaraq birinci üsulun ikinciyə nisbətən xeyli üstün cəhətlərə malik olduğunu gətirdiyi bir sıra dəlillərlə isbat edirdi.

Hələ o zaman Üzeyir Hacıbəyovun rus dili tədrisinə dair irəli sürdüyü «təbii üsul» müəllimlər arasında mübahisələrə səbəb olmuşdur.

Ü.Hacıbəyova görə «təbii üsulun» «tərcümə üsulu»ndan üstün cəhətləri ondadır ki, «təbii üsul»da əsas yeri əyanilik tutur. Yə'ni mətndəki sözlərin və cümlələrin mə'nasını başa salmaq üçün, onların ana dilindəki tərcüməsindən deyil, bilavasitə əşyaların göstərilməsindən, hadisələrin nümayiş etdirilməsindən – şəkil, sxem və sairədən istifadə edilir. Deməli, «təbii üsul»la öyrədilərkən ikinci dilin sözləri ilə onların mə'naları arasında vasitəsiz əlaqə yaranmış olur ki, bu da diqqətin ikiləşməməsinə və birbaşa öyrənilən söz və ya ifadənin üzərində cəmləşməsinə, dərsin əyani, canlı və maraqlı keçməsinə səbəb olur.

[1] «Həqiqət» 1910, fevral, № 15.

Bunu da qeyd etmək lazımdır ki, Üzeyir müəllim «təbii üsul»u bir tədris metodu kimi irəli sürürkən heç də ikinci dilin öyrədilməsi zamanı «tərcümə üsulu»ndan istifadə edilməsini inkar etmir, əksinə, yeri gəldikcə ondan da istifadə edilməsini lazım hesab edirdi.

Üzeyir bəy ikinci dilin tədrisində, çox böyük didaktik əhəmiyyəti olan üç prinsipin əldə rəhbər tutulmasını tövsiyə edirdi:

1. Uşağın aşina olduğu şeylərdən biganə olduğu şeylərə keçməli.

2. Uşaq gözü ilə dərk elədiyi şeylərdən başlayıb xəyal ilə dərk olunan şeylərə keçməli.

3. Sadə və bir neçə əczalı şeylərdən başlayıb, mürəkkəb və çox əczalı şeylərə keçməli.

Bununla Üzeyir bəy tə'limdə mə'lumdan namə'luma, canlı seyr etmədən mücərrədə keçməyə riayət edilməsini irəli sürürdü.

Ü.Hacıbəyov məktəb, maarif və dil tədrisinə dair yalnız məqalələr yazmaqla kifayətlənməmiş, həm də irihəcmli əsərlər də yazıb nəşr etdirmişdir. Onun 1907-ci ildə Bakıda çap etdirdiyi «Türki-rusi və rusi-türki lüğəti» adlı kitabı buna parlaq bir misaldır.

Bu əsər lüğət tərtibi tarixində irəliyə doğru atılan böyük addımlardan biri idi. Üzeyir bəy sözləri və istilahları sinfi mübarizə nöqteyi-nəzərindən şərh etməyə və onların mahiyyətini açmağa cəhd etməklə də xalqın oyanması işinə kömək etməyə çalışmışdır. Məsələn, lüğətdə «intibahnamə» sözünə belə izah verilir: «Xalqı oyatmaq, gözünü açmaq üçün yazılı vərəqlərlə intişar edilən xitab».

Bu misal aydın göstərir ki, Üzeyir Hacıbəyov hətta yaradıcılığı sahəsində belə öz fəaliyyətini xalqın azadlığı, onun səadəti məsələləri ilə mümkün qədər əlaqələndirməyə çalışmışdır.

Ü.Hacıbəyov yaradıcılığında nəzəri cəlb edən cəhətlərdən biri onun «Hesab məsələləri» adlı dərslik tərtib edib nəşr etdirməsidir. 1907-ci ildə 22 yaşlı Üzeyirin dərslik tərtib etmək kimi mühüm pedaqoji işə girişməsi onun fəaliyyətində diqqətəlayiq hadisədir.

Əsərin giriş hissəsində Üzeyir dərsliyin meydana gəlmə məqsədindən bəhs edərək yazır: «Ana dilində hesab məsələlərinə dair bir kitabçanın lüzumunu pedaqoqlarımızdan hər biri iqrar edir zənnində olub bu kitabçanı meydana çıxarmağa sə'y etdim».

Müəllif həmin kitabı tərtib edərkən rus müəlliflərinin əsərlərindən istifadə etmişdir. Bu haqda müəllif özü belə yazır: «Bunun tərtibində rus mənbələrindən ümumiyyətlə istifadə edib cənab Komarovun hesab məsələləri kitabını özüm üçün ümdə rəhbər itxaz etdim». Lakin müəllif yeri gəldikcə öz təcrübəsinə də istinad etmiş, «icad etdiyi xüsusi qaydaların tətbiqini» də lazım bilmişdir. Müəllif didaktik prinsiplərə möhkəm riayət edərək öz dərsliyini düzgün pedaqoji tələblər əsasında qurmağa müvəffəq olmuşdur. Müəllif birrəqəmli ədədlərə dair məsələləri bir neçə tipə bölmüş və beləliklə də, özünün dediyi kimi, «əvvəla şagirdlər və sonra müəllim üçün anlamaq və anlatmaq işini asanlaşdırmışdır». Müəllifin ən ümdə məqsədi «şagirdlərimizi məsələ həllində müzakirə və mübahisəyə adət etdirməkdən» ibarət olmuşdur. Müəllifin pedaqoji ideyası şagirdlərin çox vaxt hesab məsələlərini həll edərkən dəlil və sübutlar gətirməyə acizlik çəkməsini aradan qaldırmaqdan ibarət idi.

Dərsliyin tərtibində diqqəti cəlb edən cəhətlərdən biri də məsələlərin məzmununun əsasən öz məişətimizdən, məktəblərin, fəhlə və kəndlilərin, ümumiyyətlə, zəhmətkeşlərin həyatından götürülməsidir.

Ü.Hacıbəyovun məqalələrində müəllim və onun hazırlığı məsələsi də mühüm yer tutur.

Ü.Hacıbəyov müəllimləri həqiqi mə'nada xalq üçün çalışanlar hesab edirdi. O yazırdı ki: «millət, millət deyənlərimizin içində, doğrudan da, millət xeyri üçün iş (söz yox ha!) görməyə iqdam edənlər birinci dəfə müəllimlərimiz olublar»[1].

O, müəllimlik vəzifəsini çox çətin və məs'uliyyətli hesab edir və deyirdi ki, «hər adam onun öhdəsindən gələ bilməz və hər adama müəllim deyib uşaqları ona tapşırmaq böyük xətadır»[2]. Müəllimlik işini təkcə dərs deməklə məhdudlaşdıranların əleyhinə olaraq, «…tə'limdən başqa, uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir» – deyən Üzeyir müəllimdən geniş tərbiyəvi iş aparmağı tələb edirdi. O, uşaqların gələcəyinə böyük ümid bəsləyərək yazırdı: «Aşkardır ki, millətimizin gələcəyini tə'min edən bizim övlad və əhfadimiz (nəvə-nəticəmiz – **Red.**) olacaqdır. Ona binaən indidən lazımdır ki, onların

[1] «İrşad» qəzeti, №193, 1906.
[2] «Tərəqqi» qəzeti, № 182, 1909.

tərbiyələri o nəhv ilə (o cür – **Red.**) icra olunsun ki, axırda millət və milliyyət hissi müqəddəslər ilə məktəbdən çıxıb millətə xidmət etməyi özlərinə borc bilsinlər»[1].

Üzeyir Hacıbəyov Qafqaz müsəlman müəllimlərinin birinci qurultayının açıldığı gün – 1906-cı il avqustun 15-də «İrşad» qəzetində dərc etdirdiyi «Müəllimlər ictimainə dair» adlı məşhur məqaləsində bu cəhəti xüsusilə qeyd edirdi. O, qurultay iştirakçılarını təkcə məktəbdə deyil, həm də geniş xalq kütləsi arasında böyük tərbiyəvi iş aparmağa çağırırdı. Həmin məqalədə oxuyuruq:

«Cəmaətimizin başına gələn bəla və müsibətlərin hamısı cəhalət girdabından ibarətdir. Bu bəla və müsibətlərin törəməsi isə elmsizliyin ucundandır».

O, xalqı bu dərdlərdən qurtarmaq üçün yalnız müəllimlərə ümid bağlayırdı. Çünki xalqla bilavasitə yaxından əlaqədə olan ancaq müəllimlərdir. Bir də «millətimizin müəllimdən başqa hansı ünsürü vardır ki, daim camaat içində olub onlar ilə bilavasitə əlaqədar olsunlar?».

O, xüsusilə kənd müəllimlərinin üzərinə böyük vəzifələr qoyurdu. Çünki kənddə, həm də müsəlman kəndində, müəllimdən başqa ziyalı yox idi. O qeyd edirdi ki, kənddə müəllimlərin camaat arasında apardıqları işi xalq görür və qiymətləndirir. «Kənd camaatı görsə ki, içərilərində olan müəllimlər dərd göstərən və dərman bilənlərdir, şübhəsizdir ki, o, müəllimlərə məhəbbət və e'tibar ilə baxıb kamal mə'rifətlə övladlarını onların təht, tərbiyə və tə'liminə verərlər». Ü.Hacıbəyov bu məsələdə Bakı müəllimlərinin ictimai fəaliyyətini xüsusilə qiymətləndirir və göstərirdi ki, «Bütün Qafqaz müəllimlərinin içində yalnız bir Bakı müəllimləri doğrudan da öz vəzifələrini fəxr ilə ifa etmişlər».

Ü.Hacıbəyovun məqalələrində çar hökumətinin müəllimlərə pis münasibəti kəskin tənqid olunur.

Üzeyir Hacıbəyovun məqalələrində müəllim kadrlarının hazırlığı, Qori Seminariyasının Azərbaycan şəhərlərindən birinə köçürülməsi məsələlərinə aid də maraqlı fikirlər vardır. Bu fikirlər N.Nərimanovun, F.Köçərlinin fikirləri ilə səslənir.

[1] «İrşad» qəzeti, № 192, 1906.

Ü.Hacıbəyov uşaqların ailə tərbiyəsinə böyük əhəmiyyət verirdi. Üzeyirə görə ailə hər cəhətdən sağlam olduqda uşağa müsbət tə'sir göstərər. Onun fikrincə ailə uşağın zehninin zənginləşməsinə, onun dərin biliklər almasına kömək etməli, ətraf mühitə onda maraq oyatmaq üçün təbiət hadisələrinə aid kitablar oxunmasını təşkil etməlidir.

Üzeyir Hacıbəyovun yaradıcılığında qadın azadlığı, qadın təhsili tərənnüm edilir, qadına feodal-burjua münasibəti, qadının cəmiyyətdə və ailədə hüquqsuz vəziyyəti kəskin tənqid edilir.

Mə'lum olduğu kimi, inqilaba qədərki Azərbaycan qadınlarının vəziyyəti dözülməz idi. Onlar tə'qib və təhqir olunurdular. Qadınlar insani hüquqlardan məhrum edilmişdilər. Müsəlman qanunları qadına kişi ilə bərabər hüquq vermirdi. Dövrün qabaqcıl ziyalıları – müəllim və ədibləri qadının kölə vəziyyətinə ciddi e'tiraz edirdilər. Qadın azadlığı, qadın təhsili, çarşab məsələsi, qadının ictimai həyatda iştirak etməsi kimi məsələlər ətrafında gedən mübarizə və mübahisə birinci rus inqilabı zamanı və sonrakı illərdə daha geniş şəkil alırdı. Bu mübahisədə iştirak edənlər qadınların kölə və hüquqsuz vəziyyətdə saxlanılmasını müdafiə edirdilər. Onların əksinə olaraq qabaqcıl ziyalılar qadın azadlığını tələb edirdilər. Bu məsələ dövri mətbuatda geniş mübahisələrə səbəb olmuşdu. Yazıçı Yusifbəy Vəzirovun «Arvadlarımızın halı», «Qanlı göz yaşları», «Ana və analıq», «Çarşab», N.Nərimanovun «Pir», R.Əfəndiyevin «Arvad məsələsi» əsərləri, qadın azadlığı məsələlərinə aid Y.Vəzirovun suallarına N.Nərimanovun cavabı və s. məhz bu dövrün məhsuludur.

Qadın azadlığı məsələsində inqilabi demokratik cəbhədən çıxış edən Ü.Hacıbəyov məsələnin bir vacib cəhətinin həllində görkəmli rol oynadı. O, xalq mə'nəviyyatı və şüurunun böyük bir sahəsində – musiqi yaradıcılığı sahəsində demokratik ideyaların ifadəçisi kimi çıxış etdi. Bununla da o, böyük bir tarixi vəzifəni öz öhdəsinə götürdü. Üzeyir özünün musiqi əsərlərində qadın hüquqsuzluğunu, avamlığı, cəhaləti ifşa etmiş, istehzalı gülüşləri ilə ona zərbə endirmişdir. O, tərəqqipərvər müasirləri ilə birlikdə islam qanunlarına, şəriətə qarşı çıxaraq qadın azadlığını müdafiə etmişdir. Onun «Ər və arvad» musiqili komediyasında «qıllı qabana» oxşayan Kəblə Qubadlar, Mərcanbəylər ifşa edilir. Pul gücü ilə qadın sevgisini satın

almağa sə'y edən bu nadanlar özləri gülünc vəziyyətə düşür, xalq onlara istehza ilə gülür. Ü.Hacıbəyov belə adamları həyat səhnəsindən süpürgəylə süpürüb atmaq ideyasını təbliğ edir.

«Ər və arvad» musiqili komediyasının bir növ ardı olan «O olmasın, bu olsun» musiqili komediyasının da əsas məqsədi – qadın azadlığı, azad məhəbbət və sevgidir. Müəllif istər «Məşədi İbad»da, istərsə də son musiqili komediyası olan «Arşın mal alan»da yaratdığı səhnə tipləri ilə mövcud mühitin hər bir xırda künc-bucağına əl atmış, onun eybəcərliklərini göstərmiş, qadın azadlığını, azad məhəbbəti və sevgini müdafiə etmişdir. Onun Gülnazı ilə Sərvərinin sevgisi azad və sadə sevginin, məhəbbətin gözəl nümunəsidir. Ü.Hacıbəyovun əsərləri Azərbaycanda qadına burjua-feodal münasibətlərinə qarşı mübarizədə böyük rol oynamışdır.

Ü.Hacıbəyovun məqalələri kimi, musiqili əsərləri də tərbiyə məsələləri ilə doludur. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, öz sələfi M.F.Axudov, müasiri N.Nərimanov kimi Ü.Hacıbəyov da teatr tamaşalarının əxlaqi-bədii, tərbiyəvi cəhətinə çox böyük əhəmiyyət verirdi. O deyirdi ki, tamaşaya qoyulan hər bir əsər həyatımızın həm əxlaqi tərəfini, həm də xalqın estetik hisslərini tərbiyə etməlidir. Hər bir səhnə əsərində yüksək məfkurə ilə yüksək bədiilik bir-birini tamamlamalıdır. «Millət balalarının tə'lim və tərbiyəsinə cəhd etmək»lə xalqa xidmət etmək, «yaddan çıxmış, ləhv və ləəb aləti olmuş musiqimizi diriltmək» kimi nəcib və xeyirxah işlər Ü.Hacıbəyovun ədəbi-pedaqoji fəaliyyətinin məziyyətini təşkil edir.

Onun əsərlərinin başlıca qayəsi feodal-burjua cəmiyyətinin eybəcərliklərini göstərmək, əxlaqi və siyasi çürüklüyü, mə'nəvi pozğunluğu, rüşvətxorluğu və satqınlığı, nadanlığı, avamlığı, geriliyi və cəhaləti musiqi dili ilə ifşa etməkdən ibarətdir: onun komediyaları tərbiyəvi tə'sir cəhətcə Azərbaycan musiqi incəsənətinin zirvəsini təşkil edir.

Üzeyir Hacıbəyov sənət əsərlərini tərbiyəvi cəhətcə bir-biri ilə müqayisə etmək, onlardan hansınasa üstünlük vermək fikrində deyildi. Əksinə, o, teatrın hər bir növünün özünəməxsus tərbiyəvi əhəmiyyətini göstərirdi. O deyirdi: «…mən, yalnız tək musiqi səhnə tamaşalarının tərafdarı deyiləm. İctimai tərbiyə üçün həm faciə, həm drama, həm komediya, həm opera, həm də operetta lazımdır.

M.F.Axundovun komediyalarından «Sərgüzəşti-vəziri-xani-Lənkəran», «Dərviş Məstəli şah», «Hacı Qara» və bizim məşhur dramaturqumuz Ə.Haqverdiyevin «Dağılan tifaq» draması ilə demək olar ki, mən inkişaf etmişəm».

Beləliklə, Ü.Hacıbəyov ədəbi janrların hər birinə böyük əhəmiyyət vermiş, bədii əsərlərin müəlliflərindən məfkurə, əxlaq və yüksək bədiilik tələb etmişdir. O yazırdı: «Məfkurəyə, əxlaqa malik olan və bədii üsulla yaradılan hər hansı bir səhnə əsəri – istər bədii, musiqi, istər şairanə əsər – faydalıdır.

Bu keyfiyyətlərə – qoy opera, drama, operetta, komediya olsun – cavab verməyən əsər isə faydasızdır». Üzeyir öz əsərlərinə də bu mövqedən yanaşmışdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan dramaturgiyasının qiymətli incilərindən olan «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan» öz əhəmiyyətini bu günə qədər saxlamış və yarım əsrdir ki, maraqla dinlənilir, zəhmətkeşlərin mə'nəvi tərbiyəsinə xidmət edir. Ü.Hacıbəyovun xəlqilik əsasında yazdığı, ideya-siyasi məfkurəcə dolğun məzmunlu musiqi əsərləri uşaq və gənclərimizin bədii və əxlaqi tərbiyəsinə böyük xidmət göstərmiş və göstərməkdədir. Onun bir çox musiqi əsərləri bu gün məktəblərimizdə daha vüqarla səslənir və uşaqlarda vətənpərvərlik hissinin aşılanmasına böyük kömək edir.

Tə'lim və tərbiyənin müxtəlif cəhətlərinə aid Ü.Hacıbəyovun irəli sürdüyü fikirlər öz dövründə Azərbaycanda xalq maarifinin, pedaqogika elminin inkişafına böyük tə'sir etmiş və onların bir çoxu bu günə qədər öz təravətini saxlamışdır.

Üzeyir Hacıbəyovun pedaqoji fikirləri Azərbaycan pedaqoji elmi xəzinəsinin qiymətli incilərindəndir. O, dəyərli pedaqoji mülahizələri ilə xalqımızın pedaqoji fikir tarixində özünəməxsus şərəfli yer tutur.

«Azərbaycan məktəbi» jurnalı №12, 1965, s.39–46. Məqalə C.Ələsgərovla birlikdə yazılıb.

Hüseyn Əhmədov

N.Nərimanov əmək tərbiyəsi haqqında (Anadan olmasının 95 illiyi münasibəti ilə)

«İnsanın ruhunu ucaldan bir çox şey varsa,
onun ən birincisi zəhmətdir!»
(N.Nərimanov).

Azərbaycanda xalq maarifi və pedaqoji fikir tarixinin bütöv bir dövrü Nəriman Nərimanovun adı ilə bağlıdır. N.Nərimanov məşhur inqilabçı, partiya və dövlət xadimi, iste'dadlı dramaturq, tanınmış publisist və ictimaiyyətçi olmaqla bərabər, həm də görkəmli maarif xadimidir. O, uzun müddət müəllimlik edərək zəhmətkeş balalarına tə'lim və tərbiyə vermiş, pedaqogika, pedaqogika tarixi, psixologiya, Azərbaycan dili və onun metodikası məsələlərinə aid bir sıra mühüm fikirlər söyləmişdir.

N.Nərimanov pedaqogikanın ayrı-ayrı məsələlərinə dair orijinal fikirləri ilə demokratik maarifçilik mövqeyindən marksist baxışlara qədər yüksəlmiş, Azərbaycanda tə'lim-tərbiyə haqqında Marks-Lenin tə'limini yaradıcı surətdə inkişaf etdirmiş və təcrübi olaraq həyata keçirmişdir.

N.Nərimanovun pedaqoji fikirləri arasında mərkəzi yerlərdən birini gənc nəslin əmək tərbiyəsi məsələsi tutur. Onun məqalələrində və bədii əsərlərində əmək tərbiyəsinə aid bir çox qiymətli fikirlər vardır.

N.Nərimanovun fikrincə, əmək insanları bir-birinə yaxınlaşdırır, səadətə çıxarır və kommunizmə aparır. İnsanlara lazım olan tərəqqinin doğru yolu, həqiqi məhəbbətin doğru qapısı əməkdir. «Bütün bəşəriyyətin xilası kapitalın məhvində və əməyin təntənəsindədir»[1].

Nərimanov əməyin tərbiyəvi əhəmiyyətindən danışarkən göstərirdi ki, əmək insanda dostluq, doğruçuluq, səmimilik, təvazökarlıq, sadəlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasında ən mühüm amildir. İnsan əmək prosesində yüksəlir.

[1] N.Nərimanov, Məqalə və məktubları, Bakı, 1925, səh. 61 – 62.

N.Nərimanov əmək adamlarını yüksək qiymətləndirərək yazırdı: «Qabarlı əldə olan hünər, qeyrət ağ perçatkalı əldə ola bilməz»[1].

Sovet məktəbinin ilk günlərindən başlayaraq N.Nərimanov zəhmətkeşlərin kommunist tərbiyəsinin tərkib hissəsi olan əmək tərbiyəsi məsələlərinə xüsusi fikir vermiş və bu işi sosializm quruculuğunun ayrılmaz hissəsi hesab etmişdir.

N.Nərimanov əmək tərbiyəsi qarşısında çox mühüm vəzifə – gəncləri həyata, əməyə hazırlamaq vəzifəsi qoyurdu. O, hələ 1918-ci ildə Həştərxandakı məşhur nitqlərindən birində demişdir: «Sovet hökuməti tərbiyənin əsasını zəhmətdə, siyasi vicdanda, bərabərlikdə, qardaşlıqda görür».

N.Nərimanov yeni insan tərbiyəsinə böyük əhəmiyyət verirdi. Yeni insanın mühüm keyfiyyətlərindən biri əməyə yaradıcı münasibətdir. N.Nərimanov göstərirdi ki, yeni insan yeni dünya – zəhmət dünyası quracaq: elə əmək qarşısında səcdə edəcək, əməklə sevinəcək, əməklə yüksələcək, əməklə fəxr edəcək və adamlara əməyinə görə qiymət verəcəkdir.

N.Nərimanovun əsər və məqalələrində «işləməyən dişləməz» şüarı geniş təbliğ edilir. Onun «Türküstandakı siyasətimiz» adlı məqaləsində deyilir: «Türküstan üçün və ətrafdakı dövlətlər üçün bizim işimizdə ən qüvvətli şüar ilə gedirik»[2].

Görkəmli pedaqoq əməksevərliyi həm də yüksək vətənpərvərlik kimi qiymətləndirirdi. Onun fikrincə, hər kəs əməkdə iştirak edirsə, ona tapşırılmış sahədə müvəffəqiyyətlə işləyirsə, o, bu zaman xalqın faydasına, Vətənin rifahına çalışmış olur. N.Nərimanov «Şərq üçün nicat yolu» adlı məqaləsində yazırdı:

«…Vətənin qədrini o kimsə bilir ki, Vətən ilə onun ruhani (mə'nəvi – H.Ə.) rabitəsi olsun, Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün. Ona binaən, lazımdır Şərqdə bu şüarı buraxmaq: hər kəs xüsusi özü üçün yox, ancaq Vətən, məmləkət üçün işləyirsə, onun haqqı var seçsin və seçilsin. Bu, şura üsul-idarəsinin əsasıdır: hər bir fərd əqlini, qüvvəsini məmləkətin hər cəhətdən tərəqqi tapmasına

[1] «Kommunist» qəzeti, 1920, № 176.
[2] «Жизнь национальностей» jurnalı, 1920, №3.

sərf etməlidir; yə'ni, hər bir adam hamı üçün, hamı bir adam üçün işləməlidir»[1].

N.Nərimanov əməyi yalnız əxlaqi keyfiyyət kimi deyil, eyni zamanda ictimai bir kateqoriya kimi qiymətləndirirdi. O, əməyi nəinki cəmiyyətin tərəqqisi, həm də insanların xoşbəxtliyi üçün mühüm şərt hesab edirdi.

N.Nərimanov «Oğlum Nəcəfə» adlı bir şe'rində yazırdı:

«Zəhmətdir insanı insan edən, oğul.
Zəhmətdir onu heyvandan seçən, oğul.
Budur bütün tərəqqinin əsası,
Zəhmətdir əqlə yol verən, oğul».

Əmək insanın qabiliyyətini, iste'dad və bacarığını inkişaf etdirir və yaşamaq uğrunda mübarizəyə ruhlandırır. Təsadüfi deyildir ki, N.Nərimanov özünün dərsliklərində uşaqlarda əməyə məhəbbət tərbiyə etmək üçün tərbiyəvi xarakterli mətnlərə geniş yer vermişdir. Nümunə üçün aşağıdakı mətni nəzərdən keçirək.

«Bir parça dəmirdən iki kotan qayrılmışdı. Onların birisini dəmirçi kəndçiyə satdı. Amma o birisi dükanda qaldı. Bir müddət keçəndən sonra… bu kotanlar görüşdülər. Kəndçidə olan kotan gümüş tək parıldayırdı, amma dükanda qalan paslanmışdı. Paslanmış kotan o birisinə dedi: «Ay qardaş, biz hər ikimiz bir parça dəmirdən qayrılmışıq. Səbəb nədir ki, sən gümüştək parıldayırsan?». Yoldaşı cavab verdi: «Səbəb odur ki, mən bir il zəhmət çəkib əkin üçün yer sürmüşəm, amma sən bekar dükanda yatıbsan».

Belə mətnlər əmək və onun əhəmiyyəti haqqında uşaqlarda aydın təsəvvür yaradırdı.

N.Nərimanov gənc nəslin əmək tərbiyəsi işində əmək məktəblərinin roluna yüksək qiymət verirdi. O, Azərbaycan maarif xadimlərinin II qurultayındakı nitqində demişdir:

«Zəhmət məktəbi bir məktəbdir ki, bütün məmləkətdə yaşayanların fikrini təcrübədən keçirir. Bir məktəbdir ki, bütün ölkəyə və bizə doğrudan da əsaslı və qüvvətli elm verir. Həmin bu məktəb bizə öz xalqımızı, nə olduğumuzu bildirir. Daha artıq

[1] «Kommunist» qəzeti, 1922, №10.

söylərəm: zəhmət nə olduğunu bizə bildirən zəhmətdir. Bu da, bizim həyatımız və bütün fikrimizdir. Çünki biz bütün yer üzərində ancaq zəhmət padşahlığının bərqərar və bərdavam olmasına çalışırıq»[1].

Gənc nəslin əmək tərbiyəsinə xüsusi əhəmiyyət verən N.Nərimanov bu işi müəllimlərin birinci vəzifəsi hesab etmişdir. O, 1924-cü ildə «Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktub»unda müəllimlərə müraciətlə deyirdi ki, «Sizin tərbiyənizdə olan azərbaycanlı balaları gərək zəhmətsevən olsunlar. Yə'ni başqasının yox, öz zəhmətlərinin qüvvəti ilə ehtiyaclarını rəfedici olsunlar. Çünki «İnsanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birinci zəhmətidir»[2].

N.Nərimanovun şəxsi həyatı əməksevərliyin gözəl nümunəsidir. Görkəmli partiya və dövlət xadimi Ə.H.Qarayevin dediyi kimi, «ilk azərbaycanlı inqilabçılarından biri olan N.Nərimanov çarizm və onun üsul-idarəsilə tam 30 il ardıcıl mübarizə aparmışdır»[3].

Görkəmli pedaqoqun əmək tərbiyəsinə aid fikirləri Azərbaycan məktəblərində şagirdlərin əməyə yaradıcı münasibət tərbiyəsində mühüm rol oynamışdır. N.Nərimanovun pedaqoji fikirləri bu gün üçün də öz əhəmiyyətini saxlayır, müəllimlərimizi yeni-yeni müvəffəqiyyətlərə ruhlandırır.

«Məktəbdə istehsalat təlimi» jurnalı 1965-ci il, №2, s. 3–5.

Sənədlər danışır

Gənc Üzeyirin təhsil illərinə, onun dünyagörüşünün formalaşmasına aid müəyyən mə'lumat əldə etmək üçün çox əhəmiyyətli olan bə'zi sənədlərə nəzər salaq.

1899–1900-cü tədris ilində birinci hazırlıq sinfində oxuyarkən sinif mürəbbisi K. Qarakanidzenin ona yazdığı xasiyyətnamədə oxuyuruq: «O, iste'dadlıdır. Yoldaşlarına nisbətən daha səmimidir.

[1] «Kommunist» qəzeti, 1921, № 180.
[2] Ali Pedaqoji İnstitutun salnaməsi, Bakı, 1924, s. 39.
[3] «Бакински рабочи» qəzeti, 1925, № 63.

Şəkil çəkməyi və kitab oxumağı sevir. Könüllü olaraq tatar (azəri – H.Ə.) dilindən ruscaya və əksinə məqalələr tərcümə etməyə çalışır. Təbiəti məzəli və şuxdur. Bütün il ərzində əxlaqı 5-dir».

Çox maraqlıdır ki, hazırlıq kursunun ikinci ilində sinif mürəbbisi S. Ter-Arutyunov həmin xasiyyətnaməni olduğu kimi saxlamış və «xasiyyətnamə dəyişilməmiş qalır» sözlərini yazmaqla kifayətlənmişdir. Lakin illər keçdikcə Üzeyir də inkişaf etmiş, dəyişmişdir. Bu dəyişiklik ona 1901–1902-ci tədris ilində sinif mürəbbisi V. Polevskinin yazdığı xasiyyətnamədə özünü açıq göstərir. V. Polevski yazırdı: «Deyilənlərə bunu əlavə eləmək olar ki, Ü. Hacıbəyovda tatar kitablarını tərcümə etməyə həvəs daha da artmış və əsərləri təqlid etmək dərəcəsinə qədər inkişaf etmişdir. Sinifdə «tatar şairi» adı ilə məşhurdur. Bu tərcümələr və yazı-pozuları onun elmi məşğələlərdəki müvəffəqiyyətinə zərər yetirir…(sinif mürəbbisi xasiyyətnamənin kənarında bunu «arzuolunmaz» hal kimi qeyd etmişdir –red.). Hacıbəyovun şuxluğu ciddiliklə əvəz edilmişdir. O, şənlikdən daha çox tutqun təbiətlidir. Bə'zən «qaşqabaqlı və dinməzdir».

Ü. Hacıbəyovun «şuxluğunun tutqunluqla əvəz edilməsi» səbəbsiz deyildi. Buna səbəb seminariyanın daxili qayda-qanunları, rus çarizminin milli ucqarlarda yürütdüyü siyasəti idi.

Seminariyanı bitirərkən sinif mürəbbisi Miropiyev tərəfindən ona belə bir xasiyyətnamə verilmişdi: «Üzeyir Hacıbəyovdan bacarıqlı müəllim… və ə'la musiqiçi çıxacaqdır».

Seminariyanın müəllimləri və sinif mürəbbiləri öz fikirlərində yanılmamışdılar.

«Azərbaycan gəncləri»
qəzeti, 19 iyul 1965-ci il.

Tarixi qurultay

(Azərbaycan müəllimlərinin birinci qurultayının 80 illiyi münasibəti ilə)

Məlum olduğu kimi, 1905-ci il inqilabı dövründə proletar hərəkatının gücündən və qüdrətindən qorxuya düşən çar hökuməti bir sıra güzəştə getməyə məcbur oldu. 1905-ci il 17 oktyabr manifestində göstərilən güzəştlər bunlardan idi.

17 oktyabr manifesti xalqa «vətəndaşlıq azadlığının sarsılmaz əsasları, şəxsiyyətin toxunulmazlığı, vicdan azadlığı» və s. ilə bərabər «söz, yığıncaqlar və idtifaqlar azadlığı» da vəd etmişdi. Bu dövrdə çar Rusiyasında yaşayan digər xalqlar kimi, Azərbaycan xalqı da hüquqsuz və geri qalmış millətlərdən idi. Məktəblərin azlığı və müvafiq dərsliklərin olmaması, tədris üsullarının yarıtmazlığı, müəllimlərin hüquqsuzluğu və s. kimi məsələlər Azərbaycanın qabaqcıl ziyalılarını düşündürürdü.

Ona görə də dövrün ziyalı dəstəsinin qabaqcıl nümayəndələrindən olan H.Zərdabi, N.Nərimanov və başqaları yuxarıdakı «azadlıqlar»dan istifadə edərək xalq müəllimlərini düşündürən bir sıra məsələlərin həll edilməsinə çalışırdılar.

1905–1907-ci illərdə azərbaycanlı xalq müəllimlərinin çar hökumətinə verdikləri kollektiv ərizədə təlimin ana dilində aparılması, azərbaycanlı uşaqlar üçün ümumi icbari pulsuz ibtidai təhsil, azərbaycanlı müəllimlərin hüququnun başqa millətlərdən olan müəllimlərin hüququ ilə bərabərləşdirilməsi, azərbaycanlı müəllimlər hazırlamaq üçün xüsusi müəllimlər seminariyası açması və s. tələb olunurdu.

Bu tələblərin həyata keçirilməsində «Nicat» cəmiyyətinin və cəmiyyətin sədr müavini N.Nərimanovun xüsusi rolu olmuşur. Göstərilən məsələləri həll etmək üçün 1906-cı ildə «Nicat» cəmiyyəti tərəfindən müəllimlərin I qurultayı çağırıldı.

Azərbaycan müəllimlərinin birinci qurultayına hazırlıq aparmaq üçün xüsusi komissiya təşkil edilmişdi. Komissiyanın tərkibinə N.Nərimanov (sədr), H.Zərdabi, Ə.Cəfərzadə, F.Ağayev (üzvlər) və Y.Əfəndiyev (katib) daxil idilər. Komissiya qurultaya böyük hazırlıq işləri aparmışdı. Komissiyanın üzvləri ayrı-ayrı

şəhərlərə gedərək qurultayın çağırılması və keçirilməsi ilə əlaqədar olan məsələləri müəyyənləşdirir, yerli mətbuat vasitəsilə qurultayın məqsəd və vəzifəsinə aid məqalələrlə çıxış edirdilər.

Qurultayı hazırlayan və onun keçirilməsinə rəhbərlik edən müəllimlərin və maarif xadimlərinin xüsusilə bu qurultayın təşəbbüskarları olan N.Nərimanovun, H.Zərdabinin, F.Ağayevin, S.S.Axundovun, A.Şaiqin, Ü.Hacıbəyovun, Ə.Hüseynovun və bir çox digər tərəqqipərvər ziyalıların apardığı hazırlıq işlərini və xidmətlərini, qısa da olsa, göstərmək lazımdır. Bu cəhətdən N.Nərimanovun «Müəllimlər ictimainə dair», «Müsəlman müəllimləri yığıncağı münasibəti ilə bir neçə söz», «Mühüm bir məsələ», «Bu gün» və s. məqalələri diqqəti xüsusilə cəlb edir.

N.Nərimanov həmin məqalələrində müəllimlər qarşısında böyük və məsul bir vəzifə qoyurdu. O, Azərbaycan müəllimlərini xalq yolunda, zəhmətkeş balalarının təlim və tərbiyəsi yolunda ciddi-cəhdlə çalışmağa çağırırdı. N.Nərimanov müəllimlərdən uşağı sevməyi, ona böyük qayğı göstərməyi, pedaqoji işdə yaradıcı olmağı, daim yeni-yeni təlim-tərbiyə üsulları axtarmağı tələb edirdi. O deyirdi ki, müəllim yaradıcı olmalıdır. Vəzifə xatirinə deyil, vicdan qarşısında məsuliyyətlə işləmək lazımdır.

Nərimanov yazmışdır: «Hər uşağın özünə görə bir qeyri-xasiyyəti, təbiəti olmağa binaən hamıya bir qayda və bir qanun ilə dərs vermək, hamıya bir dil ilə bəyan etmək olmaz, hamını bir ölçü ilə ölçmək olmaz. Uşaqların bir parası zehinli, zəkavətli, bir parası zehinsiz, fəhimsiz, bir parasının qüvveyi-hafizəsi qüvvətli, bir parasınınkı naqis. Bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mülahizə edər və hər kəsin öz biliyinə, qazancına görə hərəkət edər, hər kəsin eybinə görə çarə arasa, əlbəttə, təlim və tərbiyə düz yol ilə gedib tərəqqi əla dərəcəyə çatar».

Nərimanov müəllimlər qurultayı ərəfəsində xalq müəllimlərinə müraciətlə deyirdi: «…Vətənin xoşbəxtliyi onun cavanlarının yaxşı tərbiyəsinə bağlıdır… Yaxşı tərbiyə isə insanın əqlini və əxlaqını gözəl, pak şeylər əxz etməyə öyrətməkdən, ürəyini və vicdanını pisliklərdən çəkindirməkdən ibarətdir. Gəncləri o meyllərə yönəltmək lazımdır ki, o, onlara tərəqqi versin. İnsanı tənəzzülə salan hər şeydən onları çəkindirmək lazımdır. Əqlin gücü ilə insan

pis əməli yaxşıdan seçər, deməli insanın əqlini yaxşılığa doğru yönəltmək lazımdır».

Nərimanov məktəb proqramlarının pedaqogikadan, elm və tərbiyədən başı çıxmayan İlminski kimiləri tərəfindən tərtib edilməsini, dərslərin rus dilində aparılmasını, tədris kitablarının rus dilində olmasını, şəriət müəllimlərinin nağıl danışmasını ciddi tənqid edir və göstərirdi ki, «bu məsələlərin hamısını müəllimlər ictimai nəzərdən keçirib, ana dilində proqram, dərsliklər tərtib edəcək və beləliklə bizim milli müəllimlər də digər tayfaların müəllimləri kimi camaata yol göstərə biləcək, millətin dərdinə əlac arayacaqlar» («Həyat» qəzeti, 8 avqust 1906-cı il, №175).

Komissiyanın üzvlərindən F.Ağayev Gəncə şəhərinə gedərək müəllimlər arasında geniş iş aparmışdır. Onun Gəncədən H.Zərdabiyə göndərdiyi bir məktubda qurultayın məqsədi, tərkibi və işinə, müzakirə ediləcək məsələlərə aid maraqlı məlumatlar verilirdi.

Qurultaya hazırlıq komissiyası digər şəhərlərlə yanaşı, qonşu xalqların, o cümlədən Rusiyada yaşayan müsəlman xalqlarının məktəblərindəki təlim-tərbiyə işlərini, onların təcrübəsini öyrənmək üçün bir sıra yerlərə, o cümlədən Krım müsəlman müəllimləri qurultayına nümayəndə göndərmişdi.

Beləliklə, qurultay ərəfəsində böyük hazırlıq işləri aparılmış, qurultayın məqsədini xalqa düzgün başa salmaq, müəllimlərin xalqa xidmətini yaxşılaşdırmağın yollarını göstərmək, müəllimlər arasında birlik yaratmaq, təlim-tərbiyədəki nöqsanları rəf etmək, yeni tədris proqramları tərtib etmək, ana dilində yeni dərsliklər yaratmaq, yeni tədris üsulları müəyyən etmək, müəllim kadrları hazırlığını nəzərdən keçirmək və s. kimi mühüm məsələlər mətbuatda əvvəlcədən geniş müzakirə edilmiş, fikir mübadiləsi keçirilmişdi. N.Nərimanovun sədrliyi ilə işləyən qurultaya hazırlıq komissiyası hələ may ayından başlayaraq qurultaya qədər 11 dəfə iclas keçirmiş və burada bir sıra vacib məsələlər üzrə geniş hazırlıq tədbirləri görmüşdü. Qurultayın proqramını və gündəliyini də komissiya hazırlamışdı.

Qurultay 1906-cı il avqust ayının 15-də Bakı şəhərində çağılırmışdır. Qurultayın çağırılmasını və onun gündəliyini xəbər verən bir məlumatda deyilir:

«Qafqaz müsəlman müəllimləri məclisinin məramnaməsi» (proqramı)

1. Qafqaz müsəlman müəllimləri məclisi (syezd) bu il Bakıda avqust ayının 15-dən başlanıb axırına qədər davam edəcəkdir.
2. Məclisə dəvət olunur: Qafqaz qitəsindən cəmi şəhər və kənd müsəlman müəllimləri (elmi-ilahi müəllimləri dəxi buraya daxildir), həmçinin o şəxslər ki, təlim və tərbiyəyə məhəbbətləri vardır, onlar dəxi məclisə dəvət olunurlar.

II hissə
Məclisin şüğlu (işi)

1. Hal-hazırda bulunan proqramları nəzərdən keçirib təqazayi-zəmanəyə görə təzədən proqram tərtib etmək;
2. təzə tərtib olunan proqrama müvafiq kitablar təyin və təlif (tərtib – H.Ə.) etmək;
3. oxumaq və yazmaq üsulunu asanlaşdırmaq üçün ümumi bir üsuli-tədris və təlim əxz etmək;
4. kənd müəllimlərinin əhvali-məişət və güzəranlarına dair məsələlərə baxmaq;
5. darülmüəlliminin proqramını müzakirə edib hal və zamanın təqazasına görə dəyişilməsini tələb etmək;
6. üzvlər tərəfindən təqdim olunan məsələləri həll etmək.

İxtar (qeyd –H.Ə.) – … Fəqir və biciz müəllimlərə yol xərcindən, mümkün qədər kömək olunacaqdır («Dəbistan» jurnalı, 1906, №8, səh.12).

Qurultay şəhər ikisinifli müsəlman məktəbinin binasında keçirilmişdir. Qurultayda Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstandan 60 nümayəndə iştirak etmişdir. Bunlardan 30 nəfəri Bakı şəhərindən, 20 nəfəri digər yerlərdən, 10 nəfəri isə maariflə maraqlanan şəxslər idi. Başqa yerlərdən gələnlərin çoxu elmi-ilahi və şəriət müəllimləri idi (bax: «İrşad» qəzeti, 1906, №197).

Bakı müəllimləri qurultay nümayəndələrinin yarısını təşkil etməsinə baxmayaraq, o dövrdə Bakı şəhərindəki müəllimlərin

sayını və qurultayın Bakıda keçirilməsini, həmçinin qurultayı çağırmaq təşəbbüsünü məhz Bakı müəllimləri tərəfindən nəzərə alsaq, bunu kifayət hesab etmək olmaz.

«İrşad» qəzeti yazırdı: «Təəccüblü burasıdır ki, Bakı quberniyasının Salyan, Dərbənd, Göyçay kimi mərkəzlərindən dəmiryolu ilə 3 saatlıq yolu zəhmət çəkib gələn olmayıb. Lakin Araz nəhrinin kənarından olan və adı heç bir dəftərdə yazılmayan Əlizadə kəndinin müəllimi təxminən 6 günlük yolu piyada gəlib özünü qurultaya çatdırdı» («İrşad» qəzeti, 1906, №197).

Qurultayda müəllimlərdən başqa, təlim-tərbiyə ilə maraqlananlar və yerli mətbuat nümayəndələri də iştirak etmişlər. Qurultay Bakının I rus-tatar məktəbinin şəriət müəllimi Molla Ruhulla Axund Məmmədzadənin nitqi ilə açılmışdır. O, qısaca olaraq islamın elmə olan münasibətindən danışmış və qurultayı təbrik etmişdir. Sonra H.Zərdabi, N.Nərimanov və başqaları nitq söyləmişlər. Qurultaya hazırlıq komissiyası qurultayın hazırlığı və məqsədi haqqında geniş məruzə etmişdir. Qurultayın sədrliyinə H.Zərdabi, onun müavinliyinə isə N.Nərimanov, ona köməkçi sifəti ilə S.Acalov, katibliyinə isə F.Ağayev seçilmişdi. Qurultayın gündə iki iclası olmuşdur.

Qurultay avqustun 15-dən 28-nə qədər 13 gün davam etmişdir. Ayrı-ayrı təşkilatlar, cəmiyyətlər və şəxslər, o cümlədən Tiflisdən Zaqafqaziya Şeyxül-İslamı və müftisi, Qoridən Zaqafqaziya Müəllimlər Seminariyası azəri şöbəsinin inspektoru S.M.Qənizadə, Şuşa şəhərindən Ə.Ağayev və doktor Mehmandarov, Pyatiqorskidən məşhur müsəlman yazıçısı Talıbov, Ağdamdan M.Behbudov, Zaqatala mahalının Qax kəndindən müəllim H.Sultanov, Qazaxdan Nəsib Qiyasbəyov, Kazan müəllimlərindən Zaburov, Şərifov, Hənifəyev və erməni müəllimləri ittifaqının mərkəzi idarəsi teleqram göndərərək qurultayı təbrik etmişlər. Bu dövrdə Ermənistanda qurultaya toplanan erməni müəllimlərindən də təbrik teleqramı gəlmişdi. Teleqramda ittifaq bağlamağa, ermənilərlə müsəlmanlar arasındakı düşmənçiliyi aradan qaldırmağa çağırılırdı.

Azərbaycan müəllimlərinin qurultayı tərəfindən ayrılan komissiya erməni müəllimlərinin qurultayına aşağıdakı məzmunda cavab teleqramı göndərmişdi: «Biz çoxdan bəri hər iki qonşu xalqlar arasında sülh istəyirik və çox sevinclə əlimizi Sizə doğru

uzadıb sizin qara camaata təsir etmək çağırışınıza qoşuluruq və müsəlmanlar ilə ermənilər arasında möhkəm sülhün xeyrini xalqa anlatmağı özümüzə vəzifə götürürük» («Kaspi» qəzeti, 7 sentyabr 1906-cı il, №192).

O zaman Zaqafqaziyanın bütün tərəqqipərvər ziyalıları, qabaqcıl maarif xadimləri, ədib və şairlər müəllimlər qurultayının böyük ictimai əhəmiyyəti haqqında mətbuat səhifələrində ruh yüksəkliyi ilə çıxış edirdilər.

N.Nərimanov qurultayın açıldığı gün – avqustun 15-də «Həyat» qəzetində dərc etdirdiyi «Bu gün» adlı məqaləsində qurutayı təbrik edərək yazırdı ki, «Bu gün Qafqazda cəmi müsəlman balalarının dərdlərinə dava aranmağa başlanacaqdır. Bu gün insanın lisani-madərzadi, ana dili nə olmağı məlum olacaqdır» («Həyat» qəzeti, «181, 15 avqust).

Qurultayda əlifbanın islahı, imla, proqram və dərsliklər tərtibi, yeni mütərəqqi tədris üsulları axtarmaq, tədrisin ana dilində aparılması, müəllim hazırlığı və s. məsələlər müzakirə olunurdu.

Müəllimlər qurultayında kənd və şəhər ibtidai məktəbləri üçün ilahiyyat, ana dili və hesab üzrə proqramlar tərtib etmək üçün 3 komissiya təşkil edilmişdi. Bu komissiyaların tərtib etdikləri proqram layihələri geniş müzakirə olunmuş və qəbul edilmişdi. Ana dili proqramını dövrün görkəmli pedaqoqları olan R.Əfəndiyev, F.Köçərli, Ə.Cəfərzadə, H.Ağayev, M.Axundov, Axundzadə, H.Əliyev, Əbdürrəhmanbəyov, A.Talıbzadə, Şeyxzadə və Mahmudbəyovdan ibarət olan komissiya hazırlamışdı. Bundan başqa, edadiyyət (ibtidai) məktəblərinin 6–7-ci sinifləri üçün də elmi-ilahi və ana dili proqramı qəbul olunmuş, qız məktəbləri, şəhər və kənd məktəbləri haqqında məsələ müzakirə olunmuşdur.

Qurultayda geniş müzakirəyə səbəb olan məsələlərdən biri «kənd məktəb müəllimlərinin maddi və mənəvi ehtiyacı» idi.

Müzakirə zamanı kənd müəllimlərinin olduqca az maaş alması, onlara verilən məvacibin müəllimlərin ehtiyacının yarısını belə ödəmədiyi qeyd edildi. O zaman kənd müəllimlərinin maaşı vaxtlı-vaxtında dövlət xəzinəsindən deyil, əvvəllər «adı var, özü yox» idarədən (zemsi idarəsindən), sonralar isə camaatdan toplanan puldan verilirdi.

Mövcud qaydaya görə kəndlilər öhdələrinə aldığı məktəb xərcini aparıb xəzinəyə verdikdən sonra həmin kəndin müəllimi o puldan məvacib ala bilərdi. Dövlət xəzinəsində isə qayda belə idi ki, kəndlərdən daxil olan məktəb xərcləri bir yerə toplanır və pulu hansı kənd məktəbinin hesabına daxil edilməsindən asılı olmayaraq birinci gələn müəllim onu ala bilərdi. Çox vaxt belə olurdu ki, bir kənddən yığılmış pul, həmin kəndin müəlliminə qismət olmurdu. Başqa bir kəndin müəllimi alırdı.

Belə bir vəziyyət isə onunla nəticələnirdi ki, «aylarla donluqsuz qalan biçarə müəllim xəzinə qapısında qaraul çəkib fürsəti fövtə etməyib bir kənddən xəzinəyə pul çatan kimi əlüstü özünə bir gün ağlayırdı» («İrşad» qəzeti, 1906-cı il, №199).

Kəndlərin xəzinə yerindən çox uzaqda olması da kənd müəllimlərinin vəziyyətini ağırlaşdırırdı. O zaman Azərbaycanın elə kəndi var idi ki, kənd ilə xəzinə arası 180 verst idi. Bu yolu gedib-gəlmək həm çox vaxt, həm də xərc tələb edirdi. Müəllim aldığı 30 manat məvacibin bir hissəsini yol üçün sərf etməli olurdu.

Nəhayət, kənd müəllimlərinin ağır mənzil şəraitində yaşadığı da qurultayda göstərildi. Bir çox kənd müəllimi yararsız mənzillərdə yaşayırdı ki, bunun da nəticəsində onlar ağır xəstəliklərə tutulurdular.

Qurultayda kənd müəllimlərinin vəziyyətindən danışılarkən onların ana dilindən kəmsavad, ruhanilərlə din və məzhəb məsələləri üzrə lüzumsuz mübahisələrə girişməsi (I və II məsələ müəllimlərlə camaat arasında böyük bir sədd, bir uçurum yaradırdı ki, qurultay bu səddin aradan qaldırılmasını lazım bilmişdi), müəllimlərin siyasi məsələlərdən çox vaxt bixəbər olması, müəllimlərə fayda verəcək elmi-pedaqoji-metodik ədəbiyyatın yoxluğu, məktəb kitabxanalarında ana dilində və başqa dillərdə (xüsusilə Şərq dillərində) mövcud olan kitab və qəzetlərin tapılmadığı, kənd müəlliminin səhiyyə ehtiyaclarının ödənilmədiyi qeyd olunmuşdur.

Azərbaycan müəllimlərinin birinci qurultayında kənd müəllimlərinin acınacaqlı vəziyyətinin belə geniş müzakirəsi, onların maddi və mənəvi ehtiyaclarının müəyyən edilməsi o dövrdə hadisə idi.

Qurultay Rusiya çarizminin ana dilini nüfuzdan salması məsələsini də müzakirə edərək müəyyən etdi ki, «bəzi yüzbaşılar camaatı aldadıb cəbr və zor ilə onlara məktəblər açdırırlar. Lakin bu məktəblərə azərbaycanlı əvəzinə rus müəllimi təyin edirlər. Camaat isə bundan hürküb məktəblərə şagird verməkdən sərf-nəzər edirlər». Buna görə də məktəblərin çoxu şagirdsiz qalırdı. Lakin müsəlman müəllimlərinin idarə etdiyi məktəblər həmişə az da olsa şagirdlərdən xali qalmırdı.

O zaman bu təbii bir hal idi. Digər millətlər kimi müsəlmanlar da özlərinə həmcins, həmməzhəb və həmməslək müsəlman müəllimlərinə şövq və həvəslə rəğbət göstərirdilər.

Bütün bunları nəzərdən keçirən qurultay xalq maarifi məsələlərinin bütün daxili və xarici ixtiyarının hökumətdən alınıb camaatın öhdəsinə verilməsini (muxtariyyat – H.Ə.) tələb etmişdir.

Qurultayda müzakirə olunan məsələlərdən biri də müəllim kadrları hazırlığı idi. Bu məsələ bütün ziyalıların qabaqcıl dəstəsini düşündürürdü. Məşhur maarifçi F.Köçərlinin Zaqafqaziya müəllimlər seminariyası haqqında qurultaya etdiyi məruzədə deyilirdi ki, bu seminariyanın 1874-cü ildə açılmasına baxmayaraq burada azərbaycanlı şöbəsi ancaq 1879-cu ildə yaradılmışdır. Bu seminariya Zaqafqaziyada olan azərbaycanlı məktəblərin tələbini ödəmir. Ona görə də Zaqafqaziya müəllimlər seminariyanın Azərbaycan şöbəsini Azərbaycan şəhərlərindən birinə köçürmək təklif edilirdi. Lakin qurultayın bu sahədəki bütün cəhdi nəticəsiz qaldı.

Nəriman Nərimanov müəllim sözünü geniş mənada başa düşür, müəllimin geniş xalq kütlələri arasındakı ictimai fəaliyyətinə çox yüksək qiymət verir, xalqın ictimai və mədəni məişətinin tərəqqisi üçün fəaliyyət göstərməyən müəllimləri «çinovnik» adlandırırdı. O, qeyd edirdi ki, müəllim «Universitet nişanı ilə» deyil, əməli fəaliyyəti ilə özünü göstərməli və fərqlənməlidir.

N.Nərimanov xalqın içərisindən çıxan, xalqa xidmət göstərən, zamanın mütərəqqi tələblərinə uyğun hərəkət edən yeni tipli müəllimləri «ağzı» köpüklənə-köpüklənə danışan burjua ziyalılarına qarşı qoyurdu.

Qurultayda müzakirə olunan məsələlərdən biri də Qori seminariyasında oxuyan azərbaycanlı tələbələrin ana dilini

mükəmməl bilməməsi idi. Bu məsələ ətrafında müzakirələrdə aşağıdakı cəhətlər xüsusilə göstərilmişdi:

1. Tədris planında ana dilinə az yer verilməsi.
2. Məktəbə qəbul edilənlərin ana dili üzrə savad dərəcəsinin aşağı olması.
3. Ruslar ilə bir sinifdə oxuyan azərbaycanlılara ana dilinin keçilməməsi.
4. İstər məktəb işçilərinin və istərsə də nazirliyin Azərbaycan dilinə əhəmiyyət verməməsi.

Qurultay tədris üsulları məsələsini müzakirə edərkən o zamanlar «rus-tatar» məktəblərində rus dilinin tədrisində tətbiq edilən lal üsul üzərində geniş dayanmış, bu kobud üsulun ləğv olunmasını bir səslə qərara almışdır. Qurultayın avqustun 21-dəki iclasında Qafqaz canişininə bu haqda teleqram göndərmək və həmin üsul üzrə tərtib edilmiş kitabın məktəblərdən götürülməsi üçün göstəriş verməsini ondan xahiş etmək qərara alınmışdı.

N.Nərimanov teleqramın mətnindəki «xahiş» sözünə etiraz edərək deyirdi ki, «biz bu vaxta qədər çox xahiş etmişik, lakin faydası olmamışdır. Biz bundan sonra tələb etməliyik». Qurultay Nərimanovun təklifinə tərəfdar çıxdı və onu yekdilliklə qəbul etdi.

Ertəsi gün iclasa gələn məşhur milyoner H.Z.Tağıyev Nərimanova qarşı böyük bir təkəbbür və hədə ilə çıxış edərək demişdi:

«Dünənki qərarınızdan görünən budur ki, qurultayı Nərimanov kimi heç bir şeydən başı çıxmayan bir adam idarə etmişdir.

Bilirsinizmi, Nərimanov kimdir? Onun cibində bir qəpiyi yoxdur. Mənim puluma oxuyur. (Nərimanov Odessada Tağıyevin təqaüdü ilə oxuyurdu – H.Ə.). İndi gəlib burada inqilabı danışıb, sizi də ağıldan-başdan çıxarmaq istəyir. Xahiş edirəm dünənki qərarınızı dəyişin. Çünki hökumət yanında bütün millətimizə ayıb gətirən işdir» (bax: N.Nərimanov, məqalə və məktubları, Bakı, 1925, s.18).

Tağıyevin bu çıxışını kinli bir sükutla qarşılayan qurultayın nümayəndələri ürək döyüntüsü ilə Nərimanovun cavabını gözləyirdilər. Sükutu pozan Nərimanov tribunaya qalxaraq alovlu çıxış etmiş və demişdir: «Yoldaşlar! Cənab Tağıyevdən oxumaq üçün pul alanların biri də mən idim. Ancaq mən bilmirdim ki,

cənab Tağıyev kasıb tələbələrə oxumaq pulu verməklə onların danışıq ixtiyarını əlindən alır… Bütün qurultay qarşısında, çox şadlıqla mən cənab Tağıyevin mənə etdiyi yardımı rədd edirəm, bəlkə bununla zəmanəmizin zalımlarından xilas olaq və bəlkə gələcək nəsil də özlərini murdar qızıla qul etməsinlər» (bax: N.Nərimanov. Məqalə və məktubları, Bakı, 1925, s.19).

Qurultayın iştirakçıları Nərimanovun sözlərini gurultulu alqışlarla qarşıladılar.

N.Nərimanovun çıxışı o zaman inkişaf etməkdə olan Azərbaycan ziyalılarının Tağıyev kimi milyonerlərə və çar hökumətinin üsul-idarəsinə qarşı çevrilmiş etiraz və inqilabi sözləri idi. Bir neçə il sonra N.Nərimanov bu məsələyə qayıdaraq yazmışdı: Mən kasıb tələbə ilə milyonçu Hacı arasındakı bu mübarizə – məslək mübarizəsi idi».

Yeri gəlmişkən onu da qeyd edək ki, N.Nərimanovun «Məqalə və məktubları»nda səhv olaraq Qafqaz müsəlman müəllimlərinin birinci qurultayında milli muxtariyyat məsələsinin müzakirə edilməsi və Nərimanov ilə Tağıyevin arasında münaqişənin bu məsələ üstündə baş verməsi qeyd edilir. Halbuki qurultayın proqramından, qurultay iştirakçılarından olan S.A.Acalov ilə A.Şaiqin xatirələrindən və digər sənədlərdən göründüyü kimi, milli muxtariyyat məsələsi qurultayın müzakirəsinə verilməmiş və Nərimanov ilə Tağıyevin arasında baş verən münaqişə də bu məsələ üstündə olmamışdır.

Münaqişə «lal üsulun» ləğv edilməsi üstündə baş vermişdir.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, «Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri»ndə deyildiyi kimi, qurultayın gedişində bolşeviklərin və xüsusilə N.Nərimanovun müəllimlər arasında və ümumiyyətlə Azərbaycan ziyalıları arasında nüfuzu xeyli artdı. Qurultayın iştirakçıları N.Nərimanovun mövqeyini bəyəndilər və onun tərtib etdiyi qətnaməni qəbul etdilər.

Azərbaycan müəllimlərinin birinci qurultayının işi sonralar Azərbaycanın mütərəqqi fikirli görkəmli maarif xadimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Onun qüsurlarını və kəm-kəsirlərini nəzərə almasaq, F.Köçərlinin yazdığı kimi, «bu qurultay demək olar ki, gələcək qurultay və ittifaqımız üçün bir imtahan idi, gələcək ali fikirlərimizin və müqəddəs niyyətlərimizin əmələ gəlməsi

və nəticə verməsi üçün bir imtahan idi. Azərbaycan müəllimlərinin birinci qurultayı müəllimlərimizin bir sıra yaxşı cəhətlərini, prinsipiallığını göstərdi. Xalq maarifi sahəsindəki «naxoşluqları» və onların səbəblərini aşkar etdi, bu «naxoşluqlara çarələr axtarmaq şövq və həvəs göstərdi» (F.Köçərli. Müəllimlər ictimainə dair «İrşad» qəzeti, 1906, №202).

Qurultayın müzakirə etdiyi məsələlərin mərkəzində təlim-tərbiyə məsələlərinin həlli, qüsurların islahı, proqram tərtibi dururdu. Bu məsələlərin müzakirəsində qurultay nümayəndələri çox diqqətli və ehtiyatlı olmaqla vaxtının çoxunu da bu məsələlərə sərf etmişlər.

Qurultay nümayəndələrinin tutduğu yol bir daha göstərirdi ki, bizim müəllimlərimiz, maarif xadimlərimiz, tərbiyə verənlərimiz işıq və nicat yolu göstərənlərimiz bir növ ayılmaqda, xalqa maarifi, uşaqlarımızın təlim və tərbiyəsi uğrunda, vətənimizin tərəqqisi uğrunda var qüvvələrini sərf etməyə, imkan daxilində mümkün olan hər bir əlverişli şəraitdən istifadə etməyə çalışırdılar.

Beləliklə, Azərbaycan müəllimlərinin 1906-cı ildə olmuş birinci qurultayı Azərbaycan mədəniyyəti tarixinə, Azərbaycan pedaqoji tarixinə Azərbaycan müəllimlərinin ilk qurultayı kimi daxil olmuşdur. Lakin yeri gəlmişkən qeyd etmək lazımdır ki, nədənsə, sonralar Azərbaycan müəllimlərinin Sovet hakimiyyəti illərində olmuş qurultayları sıra etibarı ilə əvvəlki qurultayların davamı hesab edilməmiş, 1925-ci ildə olmuş qurultay, yenidən Azərbaycan müəllimlərinin birinci qurultayı adlandırılmışdır.

Bizim fikrimizcə partiya, həmkarlar təşkilatları və digər ictimai təşkilatların qurultayları kimi, Azərbaycan müəllimləri qurultaylarının sayı da əvvəlki qurultaylardan başlanmalıdır. Keçmiş mədəni irsimizə münasibət məsələlərinə aid marksizm-leninizm təlimi də bunu tələb edir.

«Azərbaycan məktəbi»
jurnalı, 1966, №8, s. 56–62.

«Həyat» qəzetində tə'lim-tərbiyə məsələləri

Birinci rus inqilabı illərində Bakıda yerli burjuaziya tərəfindən nəşr edilən və əsas e'tibarilə mürtəce fikirləri təbliğ edən «Həyat» qəzetinin burjua-millətçi istiqamətinə baxmayaraq, orada tərəqqipərvər, inqilabi məzmunda əsər və məqalələr də çap olunmuşdur.

Bu nöqteyi-nəzərdən «Həyat» qəzeti obyektiv surətdə pedaqoji fikrin, tə'lim və tərbiyə işinin inkişafına müəyyən dərəcədə müsbət tə'sir etmişdir.

«Həyat» qəzetinin səhifələrində H.Zərdabi, N.Nərimanov, M.Ə.Sabir, Ə.Haqverdiyev, A.Səhhət, Ü.Hacıbəyov və başqaları kimi demokratik və inqilabçı publisistlərin bir çox məqalələri dərc edilmişdir.

Dövrün xüsusiyyəti və bolşevik mətbuatının azlığı üzündən müxtəlif istiqamətli qəzetlərdə, o cümlədən «Həyat» qəzeti kimi burjua mətbuatı səhifələrində çıxış edən N.Nərimanov göhnə dünyanın tə'lim-tərbiyə sistemini açıb-tökməyi böyük vətənpərvərlik işi hesab edir və öz qələm yoldaşlarını da nöqsanlara qarşı amansız olmağa çağırırdı.

Bu məqalələrdə dövrün tə'lim və tərbiyə sistemi, xalq maarifi və məktəb məsələləri, pedaqogika və pedaqogika tarixinə aid bir sıra fikirlər söylənmişdir.

Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Azərbaycanda mövcud xalq maarifi və məktəblərin vəziyyəti.

Qəzetdəki bir sıra məsələlərdə Azərbaycanda xalqın savadsızlığı, maarif sahəsində digər millətlərə nisbətən geridə qalması göstərilir, varlılar məktəb açmağa təhrik edilir.

2.Ana dili, onun tədrisi və tərbiyəvi əhəmiyyəti.

Ana dili məsələsi qəzetdə çıxış edən demokratik və inqilabçı müəllimlərin fikrinin mərkəzində dururdu. Onlar çarizmin ruslaşdırma siyasətini kəskin tənqid edir, ana dilinin böyük rolunu və əhəmiyyətini ürək çırpıntısı ilə göstərir, tə'limin ana dilində aparılmasını tələb edirdilər.

N.Nərimanovun məqalələrində ana dili siyasi bir məsələ, milli məsələnin bir hissəsi kimi irəli sürülürdü.

3. «Həyat» qəzetindəki, məqalələrdə tərbiyənin məqsədi və roluna aid mütərəqqi fikirlər çoxdur. Bu məqalələrdə insanlar həyatda yaxşılıq etməyə çağırılır, tərbiyə işində valideynlərin, ümumiyyətlə böyüklərin rolu qiymətləndirilir, uşağa verilən tərbiyənin tamlığı tələb olunur, tərbiyənin tarixi və sinfi kateqoriya olması göstərilir.

4. «Həyat» qəzetində dərc edilən bir çox məqalələrdə vətənpərvərlik, xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi təbliğ edilir. Fərdin mənafeyi, Vətənin mənafeyi ilə, xalqın mənafeyi ilə birləşdirilir. «Hər kəs bu vaxtda bacarıb Vətəninə, millətinə gömək etməsə, o şəxs millətə, Vətənə xain hesab olunacaqdır» – fikri təbliğ edilir. («Həyat» qəzeti, № 144, 1906).

N.Nərimanovun «müsəlman-erməni kasıb fəqirlərinə bir neçə söz», «Cavabınız nə olacaqdır», «Quzqunlar cəmdək üstə», «Yol verin millət gəlir», «Güc birlikdədir» və s. kimi onlarla məqaləsi xalqlar dostluğunu təbliğ edirdi. Birinci rus inqilabı illərində Azərbaycan burjuaziyasının, millətçi burjua ziyalılarının sinfi mübarizə, xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi haqqında marksizm-leninizm nəzəriyyəsinə qarşı çıxaraq zəhmətkeşlərin sinfi şüurunu millətçiliklə zəhərlədikləri, müsəlman xalqlarının nicat yolunu birləşib panislamizmə xidmət etməkdə gördükləri bir zamanda RSDFP-nin milli məsələyə dair proqramında çıxış edən N.Nərimanov onların millətçi və əksinqilabçı məqsədlərini ardıcıl olaraq ifşa edirdi.

O, xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi haqqında Marks-Engels tə'limini təbliğ etməklə, onu burjua qəzeti səhifələrində belə hər cür təhriflərdən müdafiə etməyə çalışırdı.

5. «Həyat» qəzetindəki məqalələrdə müəllim, onun hazırlığı, Qori seminariyasının Azərbaycan şəhərlərindən birinə göçürülməsi məsələləri geniş müzakirə edilmiş, Azərbaycan müəllimlərinin 1906-cı ildəki birinci qurultayı ilə əlaqədar bir çox yazılar dərc edilmişdir. Həmin məqalələrdə xalqın xeyrinə çalışan müəllimlərin işi qiymətləndirilir. «Ancaq aldıqları məvacibə görə işləyib, boş vaxtlarını şəxsi mənfəətlərinə sərf edən» müəllimlərin işi pislənir. Xalqın içərisindən çıxan, xalqa xidmət edən, zamanın mütərəqqi tələblərinə uyğun hərəkət edən yeni müəllimlər «ağzı göpüklənə-göpüklənə danışan», günlərini eyş-işrətdə geçirən burjua ziyalılarına qarşı qo-

yulur». «Hər bir millət üçün tərəqqi qapısı məktəbdir və hər bir məktəbin tərəqqi tapması milli müəllimlərlə bağlıdır», «müəllim universitet nişanı ilə deyil, əməli fəaliyyəti ilə fərqlənməlidir» fikri təbliğ edilir.

6. «Həyat» qəzetində pedaqogika, pedaqogika tarixinə, pedaqogika klassiklərinə (xüsusilə Pestalotsi və Russoya) aid bir çox məqalələr var ki, bu məqalələrdə onların fəaliyyəti təhlil edilir, onların mütərəqqi fikirlərindən istifadə edilməsi təbliğ edilir.

7. «Həyat» qəzetinin səhifələrində irəli sürülən bir sıra mütərəqqi fikirlər birinci rus inqilabı illərində Azərbaycanda tə'lim-tərbiyə işlərinin yaxşılaşmasına gömək etmişdir. Bunlardan bir çoxu bu günə qədər öz əhəmiyyətini saxlamışdır.

«V.İ.Lenin adına APİ-nin 1965-ci il Elmi-Tədqiqat işlərinin yekunlarına həsr edilmiş XXI elmi-hesabat konfransının materialları». Bakı, APİ – 1966, s.8–10.

S.Qənizadənin pedaqoji fikirləri

Azərbaycan pedaqoji fikrinin görkəmli nümayəndəsi, Azərbaycanda ilk «rus-müsəlman» məktəblərinin tə'məlini qoyan Sultanməcid Qənizadə 1866-cı ilin aprel ayında Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxı şəhərində anadan olmuşdur.

Hələ uşaq ikən yazıb oxumağı atasından öyrənən S.Qənizadə ilk təhsilini məhəllə məktəbində almış, sonra isə dövrünün məşhur şair və müəllimi S.Ə.Şirvaninin «Üsuli-cədid» məktəbində və Şamaxıdakı rus məktəbində oxumuş, oranı bitirmişdir. Əvvəldən pedaqoji işə meyl göstərən Sultanməcid Şamaxıdakı pedaqoji kurslara davam edərək məhəlli və ibtidai məktəb müəllimi adını almışdır. Təhsilini davam etdirmək üçün S.Qənizadə 1883-cü ildə Tiflisə gedərək o zaman Zaqafqaziyada yeganə ali pedaqoji məktəb

sayılan Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur. Tiflis Müəllimlər İnstitutunda təhsil alması S.Qənizadənin dünyabaxışının formalaşmasına və onun gələcək maarifçilik fəaliyyətinə çox böyük müsbət tə'sir göstərmişdir. 1887-ci ildə oranı müvəffəqiyyətlə bitirən S.Qənizadə həmin ildə Bakıya gəlmiş, özünün məslək yoldaşı Həbibbəy Mahmudbəyovla bərabər ilk yeni tipli «rus-müsəlman» ibtidai məktəbi açaraq 1905-ci ilə qədər burada çalışmışdır.

S.Qənizadə müəllimlik etməklə, həm də ədəbi fəaliyyətə başlamışdır. O, 1894-cü ildə uşaqlar üçün xalq nağılları əsasında «Tülkü və Çaq-çaqbəy» adlı mənzum hekayə, 1898-ci ildə «Məktubati-Şeydabəy Şirvani» ümumi başlığı altında nəşr etdirdiyi məşhur «Müəllimlər iftixarı» və 1900-cü ildə «Gəlinlər həmayili» adlı əsərlərini yazmışdır.

Dövrünün qabaqcıl maarifçisi və ədəbiyyat tənqidçisi F.Köçərli 1912-ci ildə yazmışdı: «Məktubati-Şeydabəy» sərlövhəsi ilə yazdığı «Müəllimlər iftixarı» və «Gəlinlər həmayili» adlı kitabçalar S.Qənizadənin iqtidarlı bir ədib olduğunu bildirir. Bu əsərlərin hər birisində təzə fikirlər, vüs'ətli xəyallar, dərin mə'nalar, nazik işarələr, gözəl əqidələr var ki, hər kəsə onları oxumağı tövsiyə edirik».

XX əsrin əvvəllərində S.Qənizadənin ədəbi-pedaqoji fəaliyyəti daha da genişləndi. Bu dövrdə onun həyatı və pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri Zaqafqaziya Müəllimlər Seminariyasındakı müfəttişlik fəaliyyətidir. S.Qənizadənin müfəttiş tə'yin edilməsini alqışlayan N.Nərimanov 1906-cı ildə «Həyat» qəzetində dərc etdirdiyi «Mühüm bir məsələ» adlı məşhur məqaləsində yazırdı: «Yüz illərlə ixtiyarlarını itirmiş, indi zor ilə hərəkət edən millətlərə yavaş-yavaş ixtiyar verilir, hər millətin ana dili uşaqlar üçün vacib olub məktəblərdə oxunur». Azərbaycan dili Müəllimlər Seminariyasında da məcburi fənlərdən hesab edilir, hətta «seminariyanın müsəlman şö'bəsinə məşhur, qeyrətli, hümmətli mühərrirlərimizdən Sultanməcid Qənizadə inspektor tə'yin edildi»[1].

[1] «Həyat» qəzeti, 18 iyun 1906, № 131.

N.Nərimanov S.Qənizadənin seminariyaya müfəttiş tə'yin edilməsini «dövlət tərəfindən görülməyən, gözlənilməyən bir hərəkət» adlandırmışdır.

S.Qənizadə 1908-ci ildə Qori seminariyasından Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin ikinci rayonu müfəttişi vəzifəsinə köçürülmüş və 1917-ci ilə kimi bu vəzifədə çalışmışdır.

Sovet hakimiyyəti illərində S.Qənizadə respublikanın Xalq Maarif Komissarlığında və bir sıra elmi-pedaqoji idarə və müəssisələrdə çalışmış, bütün qüvvə və bacarığı ilə xalq maarifinin inkişafına kömək göstərmişdir.

S.Qənizadə 1937-ci ildə vəfat etmişdir.

S.Qənizadənin pedaqoji yaradıcılığında pedaqoji məsələlər mərkəzi yer tutur. O, Azərbaycan məktəb və pedaqoji fikir tarixinə ilk «rus-müsəlman» məktəblərinin banisi, görkəmli müəllim, qabaqcıl maarif xadimi, təcrübəli pedaqoq və metodist, eyni zamanda pedaqogika nəzəriyyəçisi kimi daxil olmuşdur.

Onun pedaqoji fəaliyyətində və fikirlərində mərkəzi yeri maarif və məktəbin təbliği, elm və təhsilin əhəmiyyəti məsələləri tutur. Özünün sənət yoldaşları olan H.Mahmudbəyov, F.Köçərli, N.Nərimanov, M.T.Sidqi, Ə.Cəfərzadə və onlarla başqaları kimi, Azərbaycan xalqının elm və mədəniyyət yolunda tərəqqi etməsinə sədaqətlə çalışmışdır. O, hər şeydən əvvəl, feodal patriarxal adətlərin düşməni, yeni məktəbin, maarif və mədəniyyətin carçısı olmuşdur.

S.Qənizadə Azərbaycan xalqının məktəb, maarif və mədəniyyət cəhətincə digər qabaqcıl millətlərdən, qonşu xalqlardan geri qalmasına, «Qeyrilər cümləsində millətimiz dala qalıb yazıq olduğuna»[1] (S.Qənizadə, Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 1965, səh. 35) ürəkdən acımış, bunun səbəblərini aşkara çıxarmağa və yollar axtarmağa çalışmışdır. O deyirdi ki, «Bəni-növi-bəşərə məxsus hər qisim həvas və əxlaq var isə, hamısı bizim millətdə parlaq mövcuddur… Himmət, qeyrət, dəyanət, əmanət, səxavət, şücaət və s.

[1] Sultanməcid Qənizadə. Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 1965, s. 35

kimi yaxşı işlər bizim millətimizdə də vardır»[1]. Bəs nə üçün biz cəhalət içərisində qalmışıq?

S.Qənizadə bu sualların cavabını, həmçinin millətin mə'ruz qaldığı digər ictimai bəlaların kökünü elmsizlikdə, savadsızlıqda görürdü. S.Qənizadə bu fikirdə idi ki, xalqı zülmətdən, qaranlıqdan, cəhalətdən xilas etmək üçün işıq lazımdır. «İşıq gələndə zülmət öz-özündən məhv olar və onunla belə, hər şey öz rəngində görünər». Ounun fikrincə, xalqın cəhalətdən qurtarması üçün lazım olan işıq – məktəbdir. Belə ki: «…tərəqqiyi-səlimin əvvəlimci pilləsi məktəbxana astanasından başlanır». Hər bir tərəqqinin «binası məktəbxana üstündə bərqərar olsa gərəkdir».

Beləliklə, dövrün bir sıra ictimai problemlərini, millətin mə'ruz qaldığı bütün ictimai bəlaların kökünü elmsizlikdə görən S.Qənizadə elmi, məktəbi bütün tərəqqinin əsası hesab edirdi. O, «Müəllimlər iftixarı» əsərində ürək döyüntüsü ilə yazırdı: «Bizlər üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şö'ləsindən yansa gərəkdir. Cəhalət mülkünə əgər bir məhtab doğacaq isə, yenə məktəb divarından tülu edəcəkdir…».

Maarif və məktəbi xalqın ümumi tərəqqisində mühüm amil hesab edən S.Qənizadə xalqın oyanacağına, bütün şəhər və kəndlərdə yeni-yeni məktəblər açılacağına, millət balalarının məktəbə cəlb ediləcəyinə və xalqın əxlaqi tərbiyəsində özünü göstərən qüsurların aradan qalxacağına böyük inam bəsləyərək yazırdı: «Amma bir vaxt olar ki, maarif məş'əlinin işığı aləmi basar; ölkələrdə, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə, obalarda məktəblər bina olunar, qiraət-xanalar açılar, əsil qayda-qanun tiryəki insanların təbiətinə yerləşib vicdanlarına sirayət edər…».

Məhz buna görədir ki, o, Azərbaycanda meydana gələn yeni məktəbləri və məktəbdarları alqışlamış, ona sevinmişdi.

Həbibbəy Mahmudbəyovla bərabər S.Qənizadənin ilk «rus-müsəlman» məktəbini təşkil etməsi XIX əsrdə Azərbaycanın məktəb tarixində mühüm hadisə idi.

N.Nərimanov sonralar bu haqda yazırdı: «İki cavan, kasıb müəllim. Bakıya gəlib borc-xərclə bir məktəb binası qoydu. Camaatın nəinki fikrindən belə bir məktəb keçmirdi, hətta

[1] Yenə orada, s.23–24.

əksəriyyəti buna zidd əqidədə ikən iki cavan zəmanənin təqazasını pak gözəl anlayıb cür'ətlə meydana gəldilər. Onlar Nuh vaxtından qalmış qanun tədrisilə hərəkət edən məktəblərin müqabilində «üsuli-cədid» məktəbi çıxartdılar»[1].

Bu məktəblərin üstünlüyü orasında idi ki, burada tə'lim əsasən ana dilində aparılır, ana dili əsaslı surətdə öyrədilirdi. Dərslər üsuli-cədid ilə tədris edilirdi. Həm də o vaxta qədər məktəb açanlar, məktəb rəhbərləri, həmçinin o məktəblərdə oxuyanların əksəriyyəti digər millətlərdən olduğu halda, «rus-müsəlman» məktəbinin həm baniləri, həm də oxuyanlar azərbaycanlılar idilər.

Orasını da qeyd etmək lazımdır ki, bu məktəblərin nə rus məktəbinə, nə də mollaxanalara oxşamaması köhnə fikirli mollaların onlara qarşı hücum etməsinə səbəb olmuşdu. Bu məktəblərin meydana gəlməsi «Köhnə məktəblə yeni məktəb arasında müharibənin başlanmasına səbəb oldu» (N.Nərimanov). Hər tərəfdən onların üzərinə mollalar və onların sirdaşları olan digər «müqəddəslər» tərəfindən «təkfir çomaqları yaymağa başlamış», «onlar kafirdir, müsəlman balalarını da kafir edəcəklər» sözləri ən rəvac bir bazar tapmışdı» (H.Vəzirov, «Bakıdakı rus-müsəlmani» məktəblərinin 25 illik yubileyi, Bakı, Nicat maarif cəmiyyətinin nəşri, 1914, səh. 11). Lakin hər iki gənc müəllim təcrübəsizliyinə baxmayaraq, böyük iste'dadları və qabiliyyətləri, pedaqoji işə olan meyl və məhəbbətləri nəticəsində heç bir şeydən çəkinməmiş, ruhdan düşməmiş, meydana çıxan çətinlikləri tədricən aradan qaldırmağa və get-gedə müvəffəqiyyətlər qazanmağa nail olmuşlar.

«Rus-müsəlman» məktəbinin müvəffəqiyyət qazanmasının səbəbini buradakı tə'lim-tərbiyə işinin məzmununda və üsullarında görən Nərimanov yazırdı ki, bu iki cavan müəllim təhsil etdikləri pedaqogika elminə ümid bağlayıb, qeyrətlərini, sə'ylərini günü-gündən artırıb, balalarımıza yeni üsulla tə'lim-tərbiyə verib, onların əqlini inkişaf etdirdikləri halda, köhnə məktəbdar müəllimlər ata-baba qaydası ilə uşaqların əqidələrinə seyqəl vermək əvəzinə onların zehinlərini kor etməyə çalışırdılar.

N.Nərimanov yazır ki, ilk vaxtlar camaat yeni məktəbin üstünlüyünü hələ görə bilmirdi. «Lakin çox çəkmədən camaat üsuli-

[1] «Həyat» qəzeti, 1906-cı il, № 171

cədidlə hərəkət edən məktəbin gücünü görüb bir fikrə getdi. Gördü ki, iki-üç il köhnə qayda ilə oxuyan uşaq axırda öz adını da dürüst yaza bilmir. Üsuli-cədid qaydası ilə oxuyan uşaqlar isə iki ayın ərzində ana dilində və yarım ilin ərzində rus dilində yazıb oxuyurlar».

Ona görə də xalq yeni məktəblərə rəğbət bəsləməyə, uşaqlarını yeni məktəbə göndərməyə, bu məktəblərin qapısını tanımağa başladılar… Camaatın rəğbətini görən hər iki cavan daha ziyada sə'ylərini artırırdılar və «rus-müsəlman» məktəbləri günü-gündən tərəqqi etməyə başladı.

Məhz bunun nəticəsidir ki, əvvəlcə cəmi 10–15 şagirdlə dərsə başlayan bu məktəbdə çox keçmədən şagirdlərin sayı 50-yə çatmış, əhalinin rəğbətini qazanmışdı.

F.Köçərli 1912-ci ildə yazmışdı: «Bu vaxtlarda Qafqazda maarif müdiri olan Yanovski Qənizadə ilə Mahmudbəyovun təzə qayda ilə açılmış məktəblərini ziyarət edib, həm şagirdlərin oxumasından və həm də cavan müəllimlərin sə'y və hümmətindən artıq dərəcədə razı qalmışdır və bu məktəbi hər yerdə vəsf etmişdir».

Bunun bir səbəbi də o idi ki, sərf edilən zəhmət yavaş-yavaş öz bəhrəsini verməyə başlayırdı. Belə ki, buranı bitirənlər asanlıqla real və digər məktəblərə daxil olurdular. Halbuki o vaxt Bakı müsəlman uşaqlarından real məktəblərə daxil olanlar tək-tək idi. Məktəbdə tə'limin yüksək keyfiyyəti, məktəbin nümunəvi nizam-intizamı, səliqəlilik tezliklə əhalinin nəzər-diqqətini cəlb etmiş və əhali özü bu məktəblərin genişləndirilməsini tələb etmişdi. 1891-ci ildə Bakı camaatından 150 nəfəri şəhər dumasına ərizə verərək bu məktəblərin sayının artırılmasını və dövlət xərcinə keçirilməsini tələb etdi. Şəhər duması camaatın tələbi əsasında 1891-ci ildə dövlət xərcinə «rus-müsəlman» məktəbi əsasında iki yeni məktəb açmağı qərara aldı.

Bakı «rus-müsəlman» məktəblərinin sayı ildən-ilə artmış, tədrisin müddətində və keyfiyyətində də mühüm dəyişikliklər edilmişdi. Bu məktəblərin müəllim kadrları da artmışdı. 1887-ci ildə cəmi iki müəllimlə fəaliyyətə başlayan həmin məktəblərdə 1914-cü ildə 70 müəllim fəaliyyət göstərirdi ki, bunlardan da 15 nəfəri qadın idi.

Xarakterikdir ki, yeni tipli tədris ocağı olan bu məktəblərin şöhrəti Bakıdan çox-çox uzaqlara yayılmış, az bir müddət içərisində Azərbaycanın bir sıra rayon və şəhərlərində (məsələn Naxçıvan,

Salyan, Şuşa, Şamaxı və başqa yerlərdə), sonralar isə İrəvanda, Orta Asiyada, Stavropolda, Teymurxanşurada da həmin tipdə məktəblər meydana gəldi. S.Qənizadə 1893-cü ildə Səmərqəndə gedərək 40 gün orada qalıb səs üsulu ilə dərs verilən məktəb açmışdı.

S.Qənizadənin mühüm xidmətlərindən biri də bundan ibarət idi ki, o, dərsliklər yaratmaq kimi məs'ul bir işə girişmiş və bu sahədə də xeyli iş görmüşdür. O, özü əvvəlcə oxu mətnləri tərtib edərək, dəftərçələrdə uşaqlara yazdırmış və sonralar həmin mətnləri toplayıb, 1890-cı ildə «İstilahi-Azərbaycani» kitabı şəklində nəşr etdirdi. Bunun ardınca «Lüğəti-rusi və türki», «Rus dilinin dilmancı» kimi məşhur əsərləri meydana gəldi. Bu əsərlər sonralar dəfələrlə nəşr edilmiş və Azərbaycan balalarının bütöv bir nəsli bunlardan dərs almışdır. Onun tərtib etdiyi «mütəhərrik əlifba» (ibtidai məktəbdə oxuyanlara üsuli-cədid üzrə savad öyrətmək üçün əyani vəsait), azərbaycanlıların rus dilini asan öyrənməsinə kömək məqsədi ilə sövti üsul ilə yazılmış «Müxtəsər rus əlifbası», «Lüğəti-türki və rusi», fars dilinin öyrədilməsinə kömək etmək məqsədi ilə «Rus-müsəlman» məktəbinin Azərbaycan dili müəllimi Ə.Cəfərzadə ilə birlikdə tərtib etdiyi «Kəlidi-ədəbiyyat» adlı kitablardan uzun müddət istifadə edilmişdir.

S.Qənizadə rus və Azərbaycan dillərinin qarşılıqlı surətdə öyrənilməsi işinə xüsusi əhəmiyyət verirdi. Onun dərslikləri də buna xidmət edirdi. Onun «Azərbaycan dilində yazıb oxumaq və sərf-nəhvi öyrənmək üçün rusca yazılmış dəstavuz» hesab etdiyi «İstilahi-Azərbaycan» Qafqazda yaşayan azərilərin rus və azəri dillərini təcrübi öyrənməsinə kömək edən ən yaxşı dərslik idi. Məhz onun nəticəsidir ki, bu dərslik 1890-cı ildən 1922-ci ilə qədər 6 dəfə nəşr edilmiş və hər dəfə müəllif onun üzərində yenidən işləmiş, müvafiq dəyişikliklər edərək sadə mətnlər, sxemlər, izah və lüğətlər daxil etməklə dilin təcrübi öyrənilməsini yaxşılaşdırmağa çalışmışdır.

Onun dərslikləri sadədən mürəkkəbə, yaxından uzağa prinsipi əsasında tərtib edilmişdir.

Bu dərsliklərin məziyyətlərindən biri budur ki, cümlə təhlili və qrammatik qaydaların öyrədilməsi üçün verilən mətnlər, şagirdlərin əxlaqi tərbiyəsi nöqteyi-nəzərindən yaxşı seçilmişdir.

S.Qənizadə təkcə dərsliklər tərtib etməklə kifayətlənməmiş, həm də şagirdlər üçün sinifdənkənar oxu kitabları tərtib etmiş və öz dostlarını da bu işə cəlb etmişdir.

Təzəcə açılmış yeni tipli məktəbdə şagirdlərin yaş səviyyəsinə uyğun, sağlam məfkurəli oxu kitabları yox idi. S.Qənizadə belə bir vəziyyətin qarşısını almaq, şagirdləri sağlam məfkurəli ədəbiyyatla qidalandırmaq, onları birinci növbədə, mütərəqqi rus mədəniyyəti ilə tanış etmək məqsədi ilə «Nübar», «Cani-mə'rifət», «Çıraq», N.Nərimanovla birlikdə «Sovqat» adlı uşaq qəzet və jurnalları nəşr etməyə təşəbbüs göstərmişdir. Lakin S.Qənizadənin bu nəcib sə'yi çar senzurasına xoş gəlməmiş, onun bu təşəbbüsləri rədd edilmişdi.

S.Qənizadə öz dövrünün şairlərinə müraciət edərək onları millət balalarının tərbiyəsinə, əxlaqına və təhsilinə kömək edən əsərlər, xüsusilə hekayələr yazmağa çağırırdı. Bə'zi şairlər onun təklifini rəğbətlə qarşılamış, tərbiyə işinə yarayan, sağlam əxlaqın yaranmasına yaxından kömək edən əsərlər yaratmışlar. Məsələn, Qarabağın qəzəl-qəsidə şairlərindən biri olan Növrəs S.Qənizadənin «Təzə məsləkdə iş görməyi və sərfi-himmət etməyi» (F.Köçərli) məsləhət görməsi nəticəsində uşaqlar üçün «Pəndi-ətfal» adlı əsərini yazmışdı. Növrəs kitabın müqəddiməsində S.Qənizadəyə təşəkkür etmiş və əsərin yaranmasına onun səbəbkar olduğunu göstərmişdir.

Qənizadə Azərbaycan xalq nağıllarının elm və tərbiyəvi tə'sirinə xüsusi əhəmiyyət verirdi. O, tə'lim və tədris işlərində xalq nağıllarının faydasını dərindən dərk etmiş və özünün dediyi kimi, «bir neçəsinin dildən qələmə düşməsinə» sə'y göstərmişir.

S.Qənizadənin pedaqoji fikirlərində əxlaq, onun tarixi kateqoriya olması, zəhmətkeşlərin mütərəqqi əxlaqi keyfiyyətlərə malik olması göstərilir. Onun fikrincə, dünya malına, dövlətə malik olmaqdansa, yüksək əxlaqi keyfiyyətlərə malik olmaq, mə'rifət sahibi olmaq daha faydalıdır. Dünyada dövlət təkcə mala, mülkə, çoxlu qızıla malik olmağa deyilmir, insanın əsil dövləti onun əxlaqi keyfiyyətləri, səxavəti, dəyanətidir və bu dövlət tükənməzdir.

Onun fikrincə, maddi aləmdəki sərvətlər təsadüfi və müvəqqətidir, insanın mə'nəviyyatı isə əsil dövlətdir, çünki tükənməzdir, əbədidir. Çoxlu var-dövlət yığmaqla başqalarından fərqlənməyə çalışmaq sonradan qoyma «xal»a bənzəyir ki, bu,

sün'idir və dərinin üstündə olduğundan onun kökü yoxdur. Ona görə də tez zail olur. Gözəl vücudlar isə xalsız da gözəldir. Çirkin cəsədlər nə qədər bəzənsə, yenə də çirkindir. Mə'rifət varlısı malsız da dövlətlidir. Amma mal dövlətlisi mə'rifətsiz yoxsuldur.

S.Qənizadənin pedaqoji fikirlərində, ümumi şəkildə olsa da əxlaqi tərbiyənin üsul və vasitələri öz əksini tapmışdır. O, xalqın, o cümlədən gənclərin əxlaqi tərbiyəsinə tə'sir edən amillər içərisində bədii ədəbiyyatın rolunu xüsusilə qiymətləndirir, bədii əsərlər vasitəsilə oxucunun əxlaqına, tərbiyəsinə tə'sir etməyi mühüm vasitə hesab edirdi. S.Qənizadə öz bədii əsərlərinə də bu nöqteyi-nəzərdən yanaşmış və bunlar vasitəsilə oxucunun şüuruna nüfuz etməyə, ona nəcib insani hisslər aşılamağa çalışmışdır.

Yazıçılığı həkimliklə müqayisə edən S.Qənizadə göstərirdi ki, təbib öz millətinin və ümumiyyətlə insanların mə'ruz qaldığı xəstəlikləri müalicə etdiyi kimi, yazıçılar da millətin mə'nəvi müalicəsi üçün çalışmalı, millətin inkişafına kömək edən bədii əsərlər yaratmalıdırlar.

S.Qənizadə maarifçi dostu M.T.Sidqiyə yazdığı bir məktubda da bu məsələyə toxunur və oxucunun əxlaqına, tərbiyəsinə müsbət tə'sir göstərən həyati əsərlər yazmağı lazım bilirdi. Bu cəhətdən o, Sidqinin əsərlərinə yüksək qiymət verir və deyirdi ki, «Sidqinin əsərlərinin hamısı sidqi-ürəkdəndir, onları əzbərləmək lazımdır».

S.Qənizadə dövrünün digər maarifpərvərləri kimi, gənclərin əxlaqi tərbiyəsində teatrın tərbiyəvi tə'sir rolunu da qiymətləndirirdi. O, teatrı böyük tərbiyə məktəbi adlandırır və yazırdı ki: «Teatrın tərbiyəsi məktəblərdə oxunan dərslərdən ziyadədir. Teatr elə bir müalicəxanadır ki, orada əxlaq illətlərinin əlacı əyani olaraq göstərilir».

S.Qənizadənin fikirlərində bədii əsər və teatrla bərabər, həmçinin mətbuatın, xüsusilə qəzetin böyük tərbiyəvi rolu öz əksini tapmışdır. O, qəzeti «ümumi və mühüm iş» adlandırır, qəzet nəşr edənləri müdafiə edir, nəşrə başlayan hər bir yeni qəzeti alqışlayır, xalqın maariflənməsi və ümumi mədəni tərəqqisi yolunda irəliyə atılmış bir addım hesab edirdi. 1905-ci ildə «Həyat» qəzetinin nəşrə başlaması münasibəti ilə onun göndərdiyi təbrik məktubu bu cəhətdən xarakterikdir. Həmin təbrikdə S.Qənizadə xüsusilə

yazırdı: «Mühərrir əfəndim! …Məktəblə qəzet hər ikisi… bir mətləb üçün tə'sis olub», vahid məqsəd daşıyırlar. Ona görə də hər ikisinin fəaliyyətində mə'rifət murad olduqda, biz müəllimlər başqalarından artıq təşəkkürdə olub, qəzetin həmişə fəaliyyətdə olmasını arzu edirik. Biz müəllimlər qəzetə işıq mənbəyi kimi baxırıq. Müəllimlər məktəb qapısının xadimləri olduqlarından zaviyə xadimləri hər bir çıraq və qəndilə valeh olan kimi bizlər də yeni-yeni qəzetlərin meydana gəlib, fəaliyyət göstərməsini arzulayırıq»[1].

S.Qənizadənin fikrincə, şəxsiyyətin təşəkkülündə özünütərbiyənin də böyük rolu vardır. O deyirdi ki, hər bir insanın əxlaqi saflığı daim özünütərbiyə etməkdən, öz qüsurlarını ləğv etməyə çalışmaqdan asılıdır.

S.Qənizadənin pedaqoji fikirlərində mərkəzi yerlərdən birini müəllim məsələsi tutur. Bu fikirlər onun bir sıra bədii əsərlərində, xüsusilə «Müəllimlər iftixarı»nda öz əksini tapmışdır.

Onun fikrincə, «millətin cəhalətindən həzər edən müəllim öz balasına nifrin edən ata kimidir». O deyirdi ki, «müəllimin evi məktəbxanadır, dövləti isə kiçik şagirdləridir, müxəlləfatı qara-qura məktəb mizləridir, müəllimin sazı, nəğməsi məktəb şagirdlərinin səsası, istirahəti isə dəftərlər təshihidir. Müəllimin qazancı millətinin məhəbbəti və e'timadıdır». O, özü də müəllim olduğu üçün fəxr etmişdir. Onun qəhrəmanı Şeydabəy özünü dünyanın ən xoşbəxt adamı hesab edir. Çünki ona «müəllimlik sənəti, məktəbdarlıq peşəsi müyəssər olmuşdur». Şeydabəy nə qədər fikirləşirsə, dünyada bundan yüksək şərəfi xəyalına gətirə bilmir.

S.Qənizadə tərbiyə işinin müvəffəqiyyətlə aparılmasında müəllimin bacarığını, iste'dadını yüksək qiymətləndirirdi. O deyirdi ki, «hünərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilərsə, yaxşı müəllim kəctab millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər».

S.Qənizadə bu gün parta arxasında oturan körpə uşaqların arasında sabahın yaradıcılarını görür və onların düzgün tərbiyə olunmasını tələb edirdi. Onun fikrincə, müəllimin nəsihəti, tərbiyəsi hər cür bahalı şeylərdən, məsələn, qızıl həmayilindən və mirvarid kəlübənddən qiymətlidir. Çünki onlar sinə və gərdən zinəti ikən, bu, ruh və can nicati üçündür.

[1] «Həyat» qəzeti, 1905, №4

Azərbaycanda mütərəqqi pedaqoji ideyalardan qidalanan və onu davam etdirən S.Qənizadənin pedaqoji irsi çox zəngindir. Onun əsərləri Azərbaycanda pedaqoji fikrin inkişafında müəyyən rol oynamış, onun tə'sis etdiyi ilk «rus-müsəlman» məktəbi əsasında yaradılan məktəblərdə minlərlə azərbaycanlı balaları tə'lim-tərbiyə almış, onun dərslikləri, lüğətləri, bədii əsərləri və tərcümələri azərbaycanlı balalarının və zəhmətkeşlərin zehni və mə'nəvi tərəqqisinə xeyli kömək etmişdir.

«Azərbaycan məktəbi» jurnalı
1966-cı il, №4, s.61–67.

Böyük pedaqoq, unudulmaz müəllim

«Əziz oğlum Nəcəf! Əgər mən yaşasam, səni elə böyütməyə çalışacağam ki, sən bəşəriyyət üçün faydalı adam olasan; əgər mənə əcəl aman verməsə, səndən təvəqqe edirəm, mənim insanlara göstərdiyim kiçik xidmət qədər bir xidmət göstər… Ümid edirəm ki, sən öz işində mənim əməllərimi daha dolğun edəcəksən»

(N.Nərimanov).

N.Nərimanovun adı tarixə oyanmış Şərqin gör-kəmli xadimi, Şərqdə azadlıq ideyalarının carçısı kimi daxil olmuşdur.

N.Nərimanov XIX əsrin axırı və XX əsrin birinci rübündə yaşayıbyaradan görkəmli pedaqoq, dramaturq, nasir, publisist, həkim, fəal ictimaiyyətçi olmaqla görkəmli partiya və dövlət xadimi səviyyəsinə qədər yüksəlmişdir.

Azərbaycan xalqının böyük oğlu N.Nərimanov özünün çoxcəhətli fəaliyyəti ilə Zaqafqaziya xalqlarının azadlığı uğrunda aparılan mübarizə tarixində mühüm yer tutur. O, özünün bütün həyatını zəhmətkeşlərin azadlığı, səadəti, xalqların birliyi və qardaşcasına dostluğu uğ-runda mübarizəyə, zəhmətkeş xalqların istismardan, hər cür – ictimai, siyasi, iqtisadi, milli, mədəni zülmdən azad olması işinə sərf etmişdir.

N.Nərimanovun çoxcəhətli fəaliyyətində müəllim-lik işi ayrıca yer tutur. 1890-cı ildə Borçalı qəzasının Qızıl-Hacılı kəndində

sadə xalq müəllimi kimi işləməyə başlayan Nərimanov sonradan pedaqoji fəaliyyətini Bakı-da davam etdirmişdir.

1891–1902-ci illərdə Bakıda müəllimlik edən N.Nə-rimanov digər qabaqcıl ziyalılarla bərabər bir sıra ictimai və pedaqoji məsələlərin həllində fəal iştirak et-mişdir. O, Azərbaycan ziyalılarının qabaqcıl dəstəsi ilə birlikdə 1894-ci ildə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoymuşdur.

Xalq arasında «Nərimanov qiraətxanası» adlanan bu kitab-xana az müddət ərzində şəhər zəhmətkeşləri və zi-yalılarının böyük rəğbətini qazanır, mədəni-maarif işi-ni yayırdı. Çox keçmədən bu qiraətxana-kitabxana təkcə Bakıda deyil, bütün Zaqafqaziyada bir elm və mədəniyyət mərkəzi kimi məşhurlaşmışdır. Onun təşkilatçısı N.Nərimanovun adına xaricdən və Rusiyanın bir sıra şəhərlə-rindən təbriklər, məktublar gəlirdi. Zəqafqaziyanın müxtəlif yerlərindən buraya adamlar gələrək iş qaydasını öyrənir, mütaliə edirdilər.

N.Nərimanovun Azərbaycan xalqının savadlanması, mədəni tərəqqisi uğrunda göstərdiyi bu təqdirəlayiq iş Zaqafqaziyanın məşhur maarifçi və yazıçılarının diqqətini cəlb etmişdi, həmin dövrün yazıçısı V.Papazyan 1896-cı ildə Tiflisdə erməni dilində nəşr olunan «Murc» («Çəkic») adlı jurnalın 6-cı nömrəsində dərc etdirdiyi «Qafqaz türklərinin (azərbaycanlıların – H.Ə.) ədəbiyyatı haqqında bir-iki söz» adlı məqaləsində Nərimanovun Bakıda təşkil etdiyi kitabxana-qiraətxana haqqında müfəssəl mə'lumat vermişdir. V.Papazyan kitabxana-qiraətxana vasitəsilə xalqın maarifə, mədəniy-yətə cəlb olunması işini təqdirəlayiq hesab edərək onu yüksək qiymətləndirmiş-dir.

Xalqın oyanmasında və maariflənməsində mətbuatın böyük rolunu dərk edən Nərimanov sonralar özü Bakıda ana dilində qəzet nəşr etməyə təşəbbüs etmişdir. Ana dilində qəzet və jurnal nəşr etməyi dövrün ən mühüm vəzifələrindən biri hesab edən Nərimanov 1896-cı ildə görkəmli müəllim və ədib S.M.Qənizadə ilə birlikdə «Sovqat» adlı uşaq jurnalı nəşr etmək istəmişdir. Lakin bu məsələ baş tutmamışdır. Nərimanov 1899-cu ildə «Təzə xəbərlər» adlı həftəlik qəzet nəşr etmək fikrinə düşmüş və bunun üçün nəşriyyat işləri baş idarəsinə və Qafqaz senzur komitəsinə müraciət etmişdir. Lakin müxtəlif səbəbləri bəhanə gətirən Qafqaz senzur komitəsi Nərimanovun müra-ciətini rədd etmişdir.

N.Nərimanov pedaqoji biliklərin geniş yayılma-sına olan böyük ehtiyacı nəzərə alaraq, 1901-ci ildə «Mək-təb» adlı xüsusi pedaqoji jurnal nəşr etmək üçün yenidən Qafqaz senzur komitəsinə müraciət etmişdir. Lakin Qafqaz senzur komitəsinin jurnalı nəşr etməyə icazə verməməsi üzündən Nərimanov bu arzusuna da nail ola bilmədi. Ruhdan düşməyən Nərimanov zəhmətkeş balalarına tə'lim-tərbiyə verməklə bərabər, Bakıda rusca çıxan «Kaspi» qəzetinə, Bağçasaray şəhərində «Tərcüman» qəzetinə Hindistanın Kəlküttə şəhərində farsca nəşr olunan liberal «Həblül-mətin» jurnalına müxtəlif məsələlərə aid məqalələr göndərir, Hindistan, Türkiyə, İran, Bolqarıstan, Misir naşirləri və qəzet idarələri ilə əlaqə saxlayırdı[1]. O, eyni zamanda tərcümə ilə də məşğul olur, qabaqcıl rus, elm və ədəbiyyatını azərbaycanlılar arasında yayırdı.

Beləliklə, N.Nərimanov Bakıya gəldiyi ilk günlər-dən xalq maarifi sahəsində böyük sə'y və həvəslə çalışmış, qızğın pedaqoji, ədəbi və ictimai fəaliyyət göstərmişdir. O, bir-birinin ardınca «Şamdan bəy» (1894), «Bahadır və Sona» (1896), «Nadir şah» (1899) və s. kimi məşhur əsərlə-rini yazıb nəşr etdirmişdir.

N.Nərimanov bu illərdə bədii əsərlərlə yanaşı bir sıra dərsliklər də tərtib etmişdir. Onun 1899-cu ildə nəşr etdirdiyi «Türk – Azərbaycan dilinin müxtəsər sərf-nəhvi», «Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça», «Müsəlmanlar üçün müəllimsiz rus di-lini öyrənməkdən ötrü asan kitabça» adlı əsərləri diqqəti cəlb edir. Bu kitablardan, xüsusilə «Türk – Azərbaycan di-linin müxtəsər sərf-nəhvi»ndən uzun müddət Azərbaycan məktəblərində istifadə edilmişdir.

N.Nərimanov 1906-cı ildə Azərbaycan müəllimləri-nin birinci qurultayının çağırılmasında fəal iştirak etmiş və onun müzakirə etdiyi məsələlərin həllinə düzgün istiqamət vermişdir.

N.Nərimanov yalnız praktik pedaqoq olmamış, pe-daqogika, pedaqogika tarixi, psixologiya, Azərbaycan dili və onun tədrisi metodikasının bir sıra nəzəri məsələləri ilə də məşğul olmuş və çox qiymətli irs qoymuşdur.

İctimai fikrin inkişafı tarixində olduğu kimi, Azərbaycan pedaqoji fikir tarixində də Nərimanovun ba-xışları özünəməxsus yer

[1] Bax: «N.Nərimanov. Məqalə və məktubları». Bakı, 1925.

tutur. Nərimanovun tərbiyəyə aid baxışlarının mühüm bir xüsusiyyəti bundan ibarətdir ki, o, tərbiyə məsələlərini dövrün digər ictimai məsələlərin-dən təcrid edilmiş şəkildə deyil, həmin məsələlərlə vəh-dətdə götürür və digər ictimai məsələlərin həllində tər-biyəni başlıca şərtlərdən biri hesab edirdi. Xüsusilə də yaradıcılığının ilk dövrlərində, Nərimanov xalqın mə'-nəvi-əxlaqi kamilliyini cəmiyyətin inkişafı üçün mühüm amil hesab edirdi.

Nərimanovun tərbiyəyə aid fikirləri içərisində mərkəzi yerlərdən birini tərbiyənin məqsədi məsələsi tutur. Nərimanova görə, tərbiyənin məqsədi öz vətənini, xalqını sevən, mərd, mübariz, xeyirxah, insanlığa xidmət edən, mə'nəvi cəhətcə saf, fiziki cəhətcə sağlam, elmi biliklərlə silahlanmış yüksək şüurlu adamlar yetişdirməkdən ibarətdir.

Nərimanovun pedaqoji fəaliyyətə başladığı dövrdə gənc nəslin tə'lim və tərbiyəsi ağır vəziyyətdə idi. Uşaq və gənclərin tə'lim və tərbiyəsinə lazımi fikir verilmir, fanatizm, nadanlıq hökm sürürdü. Öz dövrünün tərbiyə sis-teminə yaxından bələd olan N.Nərimanov xalqın tərəqqi et-məsi üçün dövrün tərbiyə sisteminə qarşı kəskin mübarizə aparmışdır. Bu mübarizə onun «Nadanlıq» adlı ilk dram əsərindən başlayaraq bütün sonrakı əsərlərində, dərslik və məqalələrində öz əksini tapmışdır.

«Nadanlıq» əsərində təsvir edilən Hacı Abdulla böyük oğlu Ömərdən bərk narazıdır. Çünki o, nə yol kəsməyi, nə kəbinli arvad qaçırmağı və nə də adam öldürməyi baca-rır. Onun kiçik oğlu Vəli isə Ömərin əksinədir. Hacı Abdulla kimilərinin tərbiyə işinə belə münasibət bəsləməsi özünün faciəli nəticəsini verir. Pozucu tərbiyə alması nəticəsində insani sifətini itirmiş Vəli öz qardaşı Öməri güllə ilə vurur. Çünki Ömər silah götürüb onun de-diyi adamların qabağını kəsməmişdir. Ömər ölərkən de-yir: «Məni nadanlıq, avamlıq, bimə'rifətlik güllələdi. Bunlar hamısı… adamı heyvan edərmiş! Ah nadanlıq!».

Nərimanovun pedaqoji fikirlərində təhsil ilə tər-biyənin vəhdəti, təhsilin tərbiyəyə müsbət tə'siri həyati faktlarla göstərilmişdir. «Nadanlıq»da təsvir edilən Ömər oxumuş, təhsil almışdır. Ona görə də o, nəinki çir-kin işlərlə məşğul olmur, həm də qardaşı Vəlinin dələ-duzluğuna qarşı ciddi e'tiraz edir. Doğrudur, onun e'tiraz-ları nəticəsiz qalır, avamlıq, nadanlıq öz işini görür,

hətta onu «düz yoldan çıxmış» hesab edirlər. Lakin Ömə-rin timsalında oxumağın, təhsilin uşağın mə'nəvi aləmi-nə, onun tərbiyəsinə müsbət tə'siri həyati faktlarla sübut olunur.

Nərimanovun tərbiyəyə aid fikirlərində köhnəlik ilə yeniliyin mübarizəsi geniş yer tutur. Nərimanov möv-cud cəmiyyətdə bir-birinə zidd iki tərbiyə – iki əxlaq gö-rürdü. Onun fikrincə əxlaqi sifətlər şəraitdən, mühitdən, təhsil və tərbiyədən asılı olaraq formalaşır. Ziyalı Ömər ilə quldur Vəlinin əxlaqi sifətləri onların yaşa-dığı mühitin, aldıqları təhsil və tərbiyənin nəticəsi idi.

Nərimanovun əsərlərində, xüsusilə «Şamdan bəy»də saf məhəbbət və tərbiyə ilə pul qarşılaşdırılır. O, pul ki, kapitalizm cəmiyyətində hər şeyə qalib gəlir, hər şey onunla ölçülür, adamların mə'nəviyyatı onunla müəyyən edi-lirdi. Pul düşkünü olan Hacı İbrahim ağıllı və tərbiyə-li Yusifi böyük məhəbbətlə sevən qızı Xədicəni boşboğaz, fırıldaqçı, lakin özünü pullu kimi qələmə verən Şamdan bəyə ərə vermək istəyir. Xədicənin dayısı Niyaz bəy Hacı İbrahimə deyəndə ki, «Hacı əmi, belə şey eyləmə, eyib şey-dir. Xalqı üstünüzə güldürməyin və görün bir oxuyub tərbi-yəsi vardırmı?» Hacı İbrahim cavab verir ki, «Ay sağ olmuş, mənim nəyimə lazım-dır, bilim oxuyub, ya yox. Pulu ki, var, hər şeydən yaxşıdır…».

İnsan şəxsiyyətinin olduqca alçaldılmasını, pula, vara, dövlətə satılmasını, illərlə bəslənən məhəbbətin pulla puç edilməsini Nərimanov köhnə cəmiyyətin çirkin sifətləri kimi açıb göstərmiş və onu kəskin tənqid et-mişdir.

Nərimanovun əsərlərində insan şəxsiyyətinin for-malaşmasında tərbiyənin rolu xüsusilə qiymətləndirilir. Pedaqoji fəaliyyətinin hələ ilk dövründə tərbiyənin roluna yüksək qiymət verməsi onun dünyabaxışındakı demokratik maarifçilikdən irəli gəlirdi. O, şəxsiyyətin təşəkkülündə elmin, təhsilin rolunu göstərməklə, tərbiyənin rolunu daha üstün tuturdu. Heç də təsadüfi deyildir ki, o, 90-cı illərdə «elm insana ancaq bilmədiyi şeyləri tə'lim verir, adam olmağa isə tərbiyə gərəkdir» – fikrini geniş təbliğ edirdi. Bu fikir onun pedaqoji baxışlarının əsasında dururdu.

Dövrünün böyük maarifpərvəri olan Nərimanov cəmiyyətin islahı üçün məktəb, maarif və mədəniyyətin rolunu qeyd edir, lakin tərbiyənin rolunu ayrıca qiymətləndirirdi. Bu, həm də ondan irəli gəlirdi ki, o zaman başdan-başa savadsız olan

Azərbaycanda maarif, məktəb ilə yanaşı tər-biyə məsələləri daha artıq əhəmiyyət kəsb edirdi və hər bir demokratik maarifçi mümkün qədər kütlənin gözünü açmağa çalışırdı.

Nərimanovun tərbiyənin roluna verdiyi qiymətdə nəzəri cəlb edən cəhətlərdən biri də şəxsiyyətin təşəkkülün-də tərbiyə, mühit və irsiyyət məsələsidir. Nərimanov irsiyyət nəzəriyyəsinin əleyhinə olaraq cəmiyyətdə birinin anadangəlmə xan, bəy, digərinin qul olması fikrini mövcud quru-luşun və bu quruluşda verilən tərbiyənin nəticəsi kimi izah edirdi. O yazırdı: «Heç kim anadan olanda padşah, xan, bəy, qul yaranmayıbdır. İnsana məxsus sağlam beyin və beyində insanı heyvandan ayıran xüsusi nöqtələr anadan olanda hamıda birdir. Bütün beyin və ayrı-ayrı nöqtələrin müəyyən bir yolda qüvvət tapması sonrakı tərbiyəyə bağlı-dır»[1].

Nərimanov insan şəxsiyyətinin təşəkkülündə tərbiyə ilə bərabər, mövcud quruluşun, ictimai mühitin də rolu-nu göstərirdi. O deyirdi ki, cəmiyyətdə birinin müvafiq tərbiyə alması, elm oxuması, bu və ya başqa bir sənət qazan-ması, digərinin isə bunlardan məhrum olması mövcud ic-timai mühitin nəticəsidir. «Nə üçün bu insanlardan biri pulun gücü ilə elm, fənn oxusun, sənət öyrənsin, digəri bun-lardan məhrum olsun? Nə üçün şəhərlərdəki gimnaziyalarda sərmayədarların və mülkədarların uşaqları oxuyub doktor, vəkil, injiner olsunlar, fəhlə və kəndlilərin uşaqları nadanlıq dəryasında boğulub qalsınlar?»[2].

İnsan şəxsiyyətinin təşəkkülündə tərbiyənin rolunu yüksək qiymətləndirən Nərimanov maarifin demokratikləşdirilməsi, insanların ümumi, bərabər inkişafına mane olan mövcud quruluşun inqilabi yolla dəyişdirilməsi ideyasını təbliğ edirdi. O deyirdi ki: «oğurluq, quldurluq, qan tökmək insan və millət balalarını ayaqyalın, başıaçıq sərgərdan çöllərə salıb elmdən, fəndən məhrum qoymaq, bütün insanların və millətlərin aralarına ziddiyyət salıb, bir-biri ilə vuruşdurmaq, bunların əxlaqını pozub, heyvan dərəcə-sinə gətirmək…»; bütün bunlar mövcud cəmiyyətin, mühitin və bu mühitdə verilən tərbiyənin nəti-cəsidir.

[1] «Hümmət» qəzeti, 1918-ci il, № 28.
[2] «Hümmət» qəzeti, 1918-ci il, № 28.

Nərimanovun fikrincə, yaşlıların gözəl mə'nəvi sifətlərə malik olması cəmiyyətin inkişafına, saflığına xidmət etdiyi kimi, uşaqların düzgün tərbiyəsinə də tə'sir edir. O, uşaqların tərbiyəsi işində böyüklərin, ilk növbədə isə valideynlərin məs'uliyyətini xüsusi qeyd edir və göstərirdi ki, «Bu gün dünyaya gəlib gedən sonradan dünyaya gələn üçün bir yol gərəkdir göstərsin»[1].

Nərimanov «Gəncədə teatr barəsində bir neçə söz» adlı mə'ruzəsində deyirdi ki, «Heç ata-analar istərlərmi uşaqları bədbəxt olsunlar? Heç kəs istəməz ki, oğlu qaza-matda illərlə çürüsün. Amma nə fayda bunların hamısını görürük və gözlərimizdən qan – yaşlar tökülür. Bəs lazım gəlmirmi bu dərdin dərmanını tapaq?! Nə vaxtadək qoca ata və analarımız sudlara düşəcək? Günah kimdədir? Bəyəm günah qazamatda çürüyən uşaqlarımızdadır? Xeyr. Günah özümüzdədir. Vaxtında lazım olan tərbiyəni verməyib öz əli-mizlə uşaqlarımızı oda yandırırıq. Bəs bunu bilə-bilə nə üçün uşaqlarımıza elə pərvəriş verməyirik ki, nadan-lığın əlindən xilas olalar?».

Nərimanov ailə tərbiyəsindəki qüsurları qeyd etməklə kifayətlənmir. O, bunun yollarını da göstərir, uşaqlara düzgün tərbiyə vermək üçün ilk növbədə valideynlərin özlərinin tərbiyəli olmasını tələb edirdi. «Halbuki özümüzdə lazım olan tərbiyə yoxdur», – deyən Nərimanov göstərirdi ki, «İnsan gərəkdir mümkün olan qədər zindəganlığını doğruluqda keçirə». Çünki «yalan və əyriliyin axırı yoxdur. Həmişə bu işlər aşkar olur və insanı bəd-nam edir». Məişətdə özünü göstərən yalançılıq, oğurluq, quldurluq, adam öldürmək və s. kimi pis hərəkətləri tənqid edən Nərimanov bu əməllərin baş verməsini uşaqların ailə tərbiyəsi ilə, valideynlərin uşaq tərbiyəsinə məs'uliy-yətsiz yanaşması ilə izah edirdi.

Tərbiyəni daha geniş mə'nada başa düşən Nərimanov yalnız uşaq və gənclərin deyil, bütün xalqın tərbiyəsi, tərəqqisi, ictimai tərbiyənin inkişafı uğrunda mübarizə apardığından xalqın tərbiyəsinə tə'sir edən amilləri də göstərmişdir. O, xalqın tərbiyəsinə tə'sir edən vasitələr içərisində ilk növbədə bədii ədəbiyyatın tərbiyəvi tə'sir qüvvəsinə üstünlük vermiş və bunun vasitəsilə xalqın tərbiyəsinə, ümumi inkişafına çalışmışdır.

[1] «Həyat» qəzeti, 14 iyul 1906-cı il.

Onun «Nadanlıq», «Şamdan bəy», «Nadir şah», «Ba-hadır və Sona», «Pir» kimi bədii əsərləri tərbiyəvi fi-kirlərlə zəngindir.

N.Nərimanovun ədəbi əsərlərinin hamısında ən böyük məqsəd xalqın cəhalətdən azad olması, elmə, maarifə yiyələnməsi məsələsidir. Nərimanovun əsərlərində Azərbaycan xalqının XIX əsrin sonlarındakı vəziyyəti ilə əlaqədar olaraq müxtəlif ictimai təbəqələrin əhvaliruhiyyəsi, əxlaqı, həyat anlayışları və fəlsəfəsi əks olunmuşdur. M.F.Axundovun irsini davam etdirən Nərimanov bədii ədəbiyyat vasitəsilə bir tərəfdən dövrünün tərbiyə siste-mini kəskin tənqid edir, digər tərəfdən də bu tərbiyə sistemindəki yaramazlıqları aradan qaldırmağın yollarını göstərməyə çalışırdı. Nərimanov «Nadanlıq» əsərinin ilk nəşrinə yazdığı müqəddimədə deyirdi: «Məzkur əsəri yazmağa səbəb Qafqaz müsəlmanlarının əksəriyyətinin bimə'rifət və nadanlığı oldu… Ümidvaram ki, mənim bu kəmtərik qələmimin meyvəsi müsəlmanların zindəganlığına bir qədər nəf'i gətirər»[1].

Nərimanovun ilk pedaqoji fikirlərində tərbiyənin qüdrətli vasitələrindən biri və ən başlıcası kimi məktəbin roluna böyük əhəmiyyət verilirdi. Nərimanovun fikrincə, məktəb xalqın, o cüm-lədən gənclərin tərbiyəsi, tərəqqisi üçün mühüm vasitədir. Onun «Məktəb, məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edər», – deməsi heç də təsadüfi deyildir. Nərimanov məktəbin timsalında xalqın mə'nəvi tərəqqisini görürdü.

Dövrünün tərbiyə sistemini çox gözəl bilən və onu düzəltmək üçün çalışan Nərimanov özünün müasirləri H.Zərdabi, M.Ə.Sabir, C.Məmmədquluzadə və başqaları kimi gənc nəslin tərbiyəsində xalq hikmətlərindən, atalar sözlərindən, zərb-məsəllərdən – xalq pedaqogikasından geniş, həm də bacarıqla istifadə etmişdir.

Nərimanovun pedaqoji fikirləri içərisində tərbi-yənin ümumi məsələləri ilə bərabər əxlaq və əxlaqi tərbiyəsi də mühüm yer tutur. Nərimanovun əxlaq məsələlərinə dair fikirləri xalqın ictimai tərəqqisi və azadlığı uğrunda-kı mübarizəsi ilə əlaqədardır. O, xalqın, o cümlədən gənc-lərin əxlaqi tərbiyəsi məsələsini siyasi mübarizənin tərkib hissəsi hesab edirdi. Nərimanovun əsər və məqalələrində əxlaq

[1] N.Nərimanov. «Nadanlıq», Bakı, 1894, s. 1.

normalarının sinfi xarakter daşıması göstəri-lir. «Həyat» qəzetində dərc edilən məqalələrdən birində o deyirdi ki, hər bir sinfin özünəməxsus fikri, əqidəsi, dolanacağı, başqa sözlə desək, normaları vardır. Zəmanənin dəyişməsi ilə əlaqədar olaraq əxlaqi normalar da dəyişir və inkişaf edir. «İki il bundan müqəddəm «təbii» olan şeylər, hərəkətlər, halətlər indi adətən dişqarı hesab olunur».

Nərimanovun fikrincə, əxlaq anadangəlmə olmadığı kimi, əxlaqi normalar da daimi deyildir. Əxlaqi normalar zəmanədən, «dolanacaqdan» asılı olaraq dəyişir və in-kişaf edir. Zəmanə – mühit əxlaqi sifətlərin yaranmasın-da əsas olduğu kimi, bu sifətlər də öz növbəsində zəmanənin tərəqqisində böyük rol oynayır. Nərimanov ilk zamanlar «zəmanə-mühit» dedikdə, heç də cəmiyyətin maddi həyat şəra-itini deyil, mövcud cəmiyyətdəki qayda-qanunları, tə'lim-tərbiyə sistemini nəzərdə tuturdu.

Nərimanov sonrakı əsərlərində bu məsələni daha da inkişaf etdirmiş və əxlaqın mənbəyi məsələsinin elmi-materialist şərhini vermişdir. O, «Elmi kommunizmi an-lamağın yolları» adlı əsərinin (1923) «Əxlaq» bölməsində yazmışdır: «Biz materialist olmaqla bilirik ki, fikri-mizin, şüurumuzun dəyişməsinə səbəb varlıqdır. Biz həm də bilirik ki, bir-birinə zidd olan və bir-biri ilə mübarizə aparan iki sinfin idealı eyni ola bilməz. Hər bir sinfin öz etikası vardır.

Nərimanovun pedaqoji fikirlərində mərkəzi yer-lərdən birini də müəllim, onun şəxsiyyəti, müəllim kadr-larının hazırlığı məsələləri tutur. Özünün bir sıra mü-tərəqqi müasirləri kimi Nərimanov da məktəblərdə tə'lim-tərbiyə işlərinin müvəffəqiyyətlə həyata keçirilməsində müəllimin roluna aid bir sıra maraqlı fikirlər söy-ləmişdir.

Nərimanov xalq arasında savadın yayılmasında, xalqın ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymət-ləndirirdi. O, müəllim sözünü geniş mə'nada başa düşür, müəllimin geniş xalq kütlələri arasında apardığı işə, onun ictimai fəaliyyətinə böyük əhəmiyyət verirdi. Nərima-novun fikrincə, müəllim təkcə dərs verməklə kifayətlənmə-məli, ictimai-mədəni işlərdə fəal iştirak etməlidir. Çox haqlı olaraq göstərirdi ki, müəllim «Universitet ni-şanı» ilə deyil, əməli-pedaqoji fəaliyyəti ilə özünü gös-tərməli və fərqlənməlidir.

Nərimanov müəllimin şəxsi hazırlığına böyük əhə-miyyət verir və onun pedaqogika tarixi və psixologiyanı yaxşı bilməsi, öz fəaliyyətində ona istinad etməsini vacib bilirdi. O, şagirdlərin fərdi xüsusiyyətlərinə istinad etməyi tə'lim və tərbiyə işində müvəffə-qiyyətin rəhni hesab edir və göstərirdi ki, «…hər uşağın özünə görə bir qeyri-xasiyyəti, təbiəti olmağa binaən hamıya bir qayda və qanun ilə dərs vermək, hamıya bir dildə bəyan etmək olmaz. Hamını bir ölçü ilə ölçmək olmaz. Uşaqların bir parası zehinli, zəkavətli, bir parası zehinsiz, fəhimsiz, bir parasının qüvveyi hafizəsi qüvvətli, bir parasınınkı naqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mühafizə edər, hər kəsin öz biliyinə, qanacağına görə hərəkət edərsə, hər kəsin eybinə görə çarə ararsa, əlbəttə, tə'lim və tərbiyə düz yol ilə gedib, tərəqqi ə'la dərəcəsinə çatar»[1].

Nərimanovun müəllimə aid fikirləri içərisində diqqəti cəlb edən cəhətlərdən biri də müəllim kadrları hazırlanması məsələsidir.

Mə'lum olduğu kimi, 1920-ci ilə qədər Azərbaycanda müəllim kadrları hazırlayan xüsusi məktəb yox idi. Bütün Zaqafqaziya üzrə müəllim kadrları hazırlayan yalnız bir məktəb var idi ki, bu da 1879-cu ildə açılmış Qori Müəl-limlər Seminariyasının Azərbaycan şö'bəsi idi. Həmin şö'bə Zaqafqaziya üçün müəllim kadrları hazırlanmasında xüsusi rol oynamasına baxmayaraq xalqın daim artan tələ-batını ödəmirdi.

Qori seminariyası Azərbaycan şö'bəsinin Azərbay-can şəhərlərindən birinə köçürülməsini məqsədəmüvafiq hesab edən Nərimanov çox düzgün və əməli əhəmiyyəti olan təkliflər irəli sürürdü. O yazırdı ki, Qori darülmüəlli-mi Bakıda, Gəncədə və ya başqa bir Azərbaycan şəhərində olsa dövlət xərcinə oxuyan altmış nəfərdən savayı, alt-mış nəfər azərbaycanlı uşağı və daha ziyada öz evlərində olarkən seminariyada elm təhsil etməyə imkanı olacaqdır. Yə'ni gündüzlər dövlət xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub, axşamlar öz evlərinə gedərlər.

Nərimanov göstərirdi ki, seminariyanın Azərbaycan şəhər-lərindən birinə köçürülməsi çoxlu müəllim kadrı hazırlanması işinə

[1] «Həyat» qəzeti, 9 avqust, 1906-cı il.

kömək etməklə bərabər, qeyri mə-sələlərdə də müsəlmanlara böyük mənfəəti olar, xalqın ümu-mi mədəni tərəqqisinə də tə'sir edər.

Sovet hakimiyyəti illərində də Nərimanov müəllim kadrları hazırlanması məsələlərinə xüsusi əhəmiyyət verirdi. 1919-cu ildə Həştərxan quberniya xalq maarif şö'bəsinin müdiri vəzifəsində işlər-kən mövcud şəraiti nəzərə alan Nərimanov qısamüddətli pedaqoji kurslar vasitəsilə yüzlərlə müəllim hazırlanmasını təşkil etmişdir.

Müəllimlər hazırlanması işində Nərimanovun xü-susi xidmətləri vardır. Azərbaycan məktəblərini ali təh-silli müəllimlərlə tə'min etmək üçün tə'sis edilən ilk ali pedaqoji institutun yaradılmasında N.Nərimanovun böyük rolu olmuşdur.

Azərbaycanın yüksək ixtisaslı maarif işçiləri ilə, vahid əmək məktəblərini yeni müəllim kadrları ilə tə'min etmək məqsədi ilə ilk Ali Pedaqoji İnstitut təşkil edildi. Azərbaycan SSR Xalq Komissarlar Sovetinin sədri N.Nərimanovun imzası ilə verilən 26 avqust 1921-ci il tarixli xüsusi dekretdə deyilirdi: «Bu ilin sentyabr ayının 1-dən e'tibarən Bakı şəhərində ikinci dərəcəli məktəblər üçün dövlət dilində (türk – Azərbaycan) müəllimlər hazırlayan ilk Azərbaycan Birinci Dövlət Pedaqoji kişi institutu tə'sis edilsin. Həmin dekret e'lan olunduqdan dərhal sonra institutun təşkilinə başlanılsın». 1921-ci ildə bünövrəsi qoyulan bu institut yaradıldığı vaxtdan indiyədək ölkəmizə minlərlə ali təhsilli müəllim kadrı vermişdir.

Nərimanov müəllim kadrları hazırlığı işinə xü-susi diqqət verməklə yanaşı, müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr də qoymuşdur. Bu vəzifələrdən bi-rincisi əmək məsələsidir. Nərimanov belə hesab edirdi ki, müəllimlərdən tərbiyə almış olan gənclər ilk növbədə əməksevər olmalıdırlar. 1924-cü ildə (indiki APU – red.) APİ-nin ilk mə'zunlarının buraxılışı münasibəti ilə göndərdiyi «Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktub»unda bu məsələni ön plana çəkərək Nərimanov yaz-mışdır:

«Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır və məs'uliy-yətli bir vəzifədirsə bunu da düşünməlisiniz: insanın ru-hunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəh-mətdir». Ona görə də «Sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmət sevən olsunlar.

Yə'ni başqasının yox, öz zəhmətinin qüvvəti ilə ehtiyaclarını rə'fedici ol-sunlar[1].

Nərimanov göstərirdi ki, gənc nəsildə zəhməti sev-mək, ona məhəbbət hissləri aşılamaq üçün təbiəti sevdir-mək, təbiətin əlamətləri ilə onları maraqlandırmaq la-zımdır.

Nərimanovun müəllimlər qarşısında qoyduğu vəzi-fələrdən biri də ləyaqətli, cəsur, cür'ətli və dəyanətli, doğruçul və vicdanlı adamlar yetişdirməkdən ibarətdir. Həmin məktubunda bu məsələyə xüsusi əhəmiyyət verən Nəri-manov yazmışdır:

«Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cür'ətli və dəyanətli olsunlar.

Yə'ni bir parça çörəkdən ötrü ikiüzlülük etməsinlər. Filankəsin xoşuna gəlmək üçün «qatığa qara» deməsin-lər»[2].

Nərimanov müəllimlərə müraciətlə deyirdi: «Aman-dır yoldaşlar! Buna yaxşı fikir verin, mənsəbdən ötrü ya-lan söyləyən, gündə vicdanını satan ikiüzlü adamlar bizim gələcək kommunaya üzv ola bilməzlər». Şagirdlərin düzlük və doğruçuluq tərbiyəsində müəllimin şəxsi nümunəsinə bö-yük üstünlük verən Nərimanov göstərirdi ki, «uşaqlarla daima əlaqədar olan hərəkətinizdə, sözünüzdə artıq dərəcə-də ehtiyatlı olmalısınız, çünki uşaq gördüyünü tez götü-rər».

Nərimanov deyirdi: «Azərbaycan Şərq üçün bir mək-təbdir. Yə'ni Şərq hazırkı halında qalarsa biz ona hər cə-hətdən müəllim olacağıq».

Azərbaycan xalq maarifinin inkişafında N.Nəri-manov böyük rol oynamışdır.

«Azərbaycan məktəbi» jurnalı 1970-ci il, №12, s.13–19.

[1] «Ali Pedaqoji İnstitutun salnaməsi», Bakı, 20 may 1924-cü il, səh. 39
[2] Yenə orada.

Böyük pedaqoqun ilk ardıcılı

XIX əsr Azərbaycanında məktəb təhsili tarixi mövzusu üzərində tədqiqat apararkən Qafqaz məktəblərində təhsilin vəziyyətinə dair Qafqaz Tədris Dairəsi popeçitelinin 1883-cü ilə aid hesabatında müəllimlərin tərtib etdiyi dərsliklərlə və yazdıqları əsərlərlə əlaqədar aşağıdakı qeyd nəzərimi cəlb etdi: «İrəvan gimnaziyasının tatar (Azərbaycan – H.Ə.) dili müəllimi Mirzə Elxanovun «Tatar dili dərsliyi» Uşinskinin «Vətən dili» kitabı nümunəsində tərtib edilmişdir. Kitab nəşrə hazırlanır». Həmin qeydlərin daxil olduğu hesabat QTD popeçitelinin aylıq orqanı olan «Sərəncamlar» adlı məcmuənin 1884-cü ildəki 10-cu nömrəsində dərc edilmişdir.

Təsadüfi tapıntı hesab etdiyimiz bu sətirlər bizi Tbilisi şəhərindəki Gürcüstan SSR MDTA-na, Yerevan şəhərindəki Ermənistan MDTA-na aparıb çıxartdı və hər dəfə yeni sənədlər əldə etdik. Bir-birini tamamlayan arxiv sənədləri və dövri mətbuatdakı yazıların əhəmiyyəti təkcə onda deyildir ki, onlar M.Elxanovun pedaqoji fəaliyyətini və yuxarıda göstərilən dərsliyinin sonrakı taleyini müəyyənləşdirməyə əsas verir; bu sənədlər həm də böyük mütəfəkkir K.D.Uşinskinin pedaqoji ideyalarının Zaqafqaziyada, o cümlədən Azərbaycanda yayılması tarixini, onun ilk ardıcıllarını üzə çıxarmağa və onlar haqqında fikir söyləməyə əsas verir.

K.D.Uşinskinin pedaqoji ideyaları Azərbaycan məktəb təcrübəsi və pedaqoji fikrinə, hər şeydən əvvəl, onun məşhur dərslikləri ilə tə'sir etmişdir. Mə'lum olduğu kimi, XIX əsrin 30 – 40-cı illərindən başlayaraq Azərbaycanda əvvəllər qəza, sonralar şəhər məktəbləri, ibtidai xalq məktəbləri adı ilə meydana gələn tədris ocaqlarında rus dili K.D.Uşinskinin «Vətən dili» və «Uşaq aləmi» kitabları əsasında tədris edilirdi.

Azərbaycan MDTA-da saxlanılan sənədlər K.D.Uşinskinin hər iki dərsliyindən istifadə edilməsini, məktəb kitabxanalarında bu kitabların nüsxələrinin saxlandığını, müəllimlərin referat xarakterli yazılarında Uşinskinin fikirlərinə istinad edildiyini göstərir. Uşinski dərsliklərinin Azərbaycan məktəbi üçün əhəmiyyəti təkcə rus dilinin səmərəli öyrənilməsi ilə bitmir, bu kitablar həm də Azərbaycan dilinin öyrədilməsini asanlaşdırmaq üçün yeni üsullu dərsliklər tərtib edilməsi üçün əsas örnək olmuşdur.

Mə'lumdur ki, o vaxtlar təhsilin rus dilində verildiyi dövlət məktəblərində digər fənlərlə bərabər Azərbaycan dilinin də tədrisi Zaqafqaziya məktəblərinin 1829-cu il Nizamnaməsi ilə qanunlaşdırılmışdı. Azərbaycan məktəb tarixində ana dili məhz bu Nizamnamə sayəsində tədris planında rəsmən müstəqil bir fənn kimi öz yerini tutmuşdu. Azərbaycan dili təkcə Azərbaycan ərazisindəki dövlət məktəblərində deyil, həmçinin İrəvan, Tiflis, Qori və Şimali Qafqazdakı bir sıra məktəblərində də tədris edilən fənlərdən idi.

Keçən əsrin 70–80-ci illərindən başlayaraq Azərbaycan dilinin tədrisi və praktik oxu üçün tərtib olunan dərsliklər, demək olar ki, əsasən Uşinskinin yuxarıda adları qeyd olunan dərsliklərinin nümunəsində yazılmışdır. Dövlət məktəblərində çalışan sadə xalq müəllimləri Uşinskinin dərslik tərtib etmək prinsipini mənimsəmiş, onun məziyyətlərini yüksək qiymətləndirmiş və azərbaycanlı balaları üçün də belə dərsliklər tərtib etməyə başlamışlar.

Çoxlu arxiv materialı və rəsmi sənədin təhlili göstərir ki, bu sahədə A.O.Çernyayevski və R.Əfəndiyevdən əvvəl ilk addım atmaq məhz Mirzə Ələkbər Elxanova nəsib olmuşdur. Azərbaycanlı müəllimlər arasında Uşinskinin ardınca gedərək onun «Vətən dili» kitabı əsasında eyni adda dərslik M.Ə.Elxanov tərəfindən tərtib edilmişdir.

M.Ə.Elxanov kimdir? O, Uşinskinin ideyalarını necə mənimsəmişdir? Əvvələn onu qeyd edək ki, ölkəmizin Moskva, Leninqrad, Tbilisi və Yerevan şəhərlərindəki dövlət arxivlərində, elmi müəssisələrdə saxlanan sənədlərdə Elxanovun həyatı və pedaqoji fəaliyyətinə aid xeyli mə'lumat vardır. Həmin sənədlərdən mə'lum olur ki, M.Ə.Elxanov 1828-ci ildə İrəvan şəhəri yaxınlığındakı Uluxanlı kəndində anadan olmuş, İrəvan şəhərində baş məscid nəzdindəki ruhani məktəbini bitirib, sonralar rus dilini öyrənmiş, 1856-cı ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili müəllimi adını almışdır. M.Ə.Elxanov XIX əsrin ortalarında Tiflisdə (Azərbaycanda və Ermənistanda gimnaziya olmadığından və Tiflis Zaqafqaziyanın inzibati mərkəzi olduğundan o, bu hüquqa malik idi) imtahan yolu ilə rəsmi müəllimlik hüququ alan ilk azərbaycanlılardandır.

M.Ə.Elxanov 1856-cı ildən ömrünün sonunadək (30 ilə qədər) İrəvandakı dövlət məktəblərində (əvvəlcə qəza məktəbində,

sonra progimnaziya və kimnaziyada) Azərbaycan dilindən dərs demişdir (öləndən sonra onun yerinə gələcəyin görkəmli pedaqoqu və maarifçisi Firudinbəy Köçərli tə'yin edilmişdir).

M.Ə.Elxanovun pedaqoji fəaliyyətində diqqəti cəlb edən əsas cəhət mütərəqqi rus pedaqoji fikrini, o cümlədən K.D.Uşinskinin ideyalarını mənimsəməsi və öz əməli pedaqoji fəaliyyətində ona istinad etməsidir. Uşinskinin mə'lum prinsiplərinə istinad edən və ondan yaradıcı surətdə istifadə edən M.Ə.Elxanov 1880-ci ildə «Azərbaycan dili əlifbası» adlı dərslik yazmışdır.

Arxiv sənədlərindən mə'lum olur ki, həmin dərsliyin əlyazması İrəvan gimnaziyasının inspektoru tərəfindən 1880-ci il noyabrın 28-də 455 nömrəli rəsmi məktubla Qafqaz Tədris Dairəsinin popeçitelinə göndərilmişdir. Həmin məktubda deyilir: «İrəvan gimnaziyasının tatar dili müəllimi M.Ə.Elxanov K.D.Uşinskinin «Vətən dili» dərsliyi nümunəsində tərtib etdiyi və tatar əlifbası ilə yazılmış «Tatar dili» dərsliyini mənə təqdim edərək onu Siz cənablara təqdim etməyi və əgər bu kitab bəyənilərsə, QTD tabeliyində olan və tatar dili öyrədilən məktəblərdə ondan istifadə edilməsinə sərəncam vermənizi xahiş etdi»[1].

Göstərilən dərsliyin əlyazması rə'y üçün QTD-nin popeçiteli K.Yanovski tərəfindən 1880-ci il dekabrın 10-da Qori şəhərində yenicə təşkil edilmiş ZMS azərbaycanlı şö'bəsinin inspektoru A.O.Çernyayevskiyə göndərildi. Arxiv sənədlərindən bu da mə'lum olur ki, A.O.Çernyayevski həmin dərsliyin əlyazması ilə tanış olmuş və ona 12 səhifədən ibarət geniş rə'y yazmışdır. Bu rə'ydən mə'lum olur ki, M.Ə.Elxanovun 130 mətndən ibarət olan dərsliyi sadədən mürəkkəbə prinsipi əsasında tərtib edilmişdir. Buraya, əsasən, qiraət üçün oxu mətnləri, o cümlədən xristian aylarının adları, həmçinin astronomik hadisələrə, məsələn, Aya, Günəşə, ulduzlara aid mə'lumat verən materiallar, müəllim, valideyn, insanın anatomik və fizioloji quruluşundan bəhs edən mövzular seçilərək daxil edilmişdi. A.O.Çernyayevski həmin dərsliyin müsbət cəhətləri ilə bərabər tənqidi fikirlərini də söyləmişdir.

Ermənistan və Gürcüstan dövlət arxivlərində saxlanılan bir sıra sənədlər Uşinskinin prinsipləri əsasında yazılmış bu ilk

[1] Gürc. SSR MDTA, f. 422, s. 1, iş №15150, v. 57.

Azərbaycan dili dərsliyinin sonrakı taleyi haqqında da fikir söyləməyə əsas verir. Arxiv sənədlərindən mə'lum olur ki, həmin dərslik müəllif tərəfindən yenidən işlənmiş və İrəvan gimnaziyası direktorunun 1882-ci il 25 iyul tarixli məktubu ilə Peterburqa – Rusiya Xalq Maarif Nazirliyinə göndərilmiş və əgər bəyənilərsə nəşr olunmasına və QTD tabeliyində olan məktəblərdə istifadə edilməsinə icazə verilməsi xahiş edilmişdir.

Leninqrad şəhərindəki MDTA-da saxlanılan sənədləri diqqətlə nəzərdən keçirmək sayəsində, nəhayət, müəyyən etmək mümkün oldu ki, həmin kitab 1883-cü il may ayının 2-də RXMN-nin elmi şurasında müzakirə edilmişdir. Peterburq Universiteti Şərq fakültəsinin dosenti V.Smirnov həmin kitaba yazılı rə'y vermişdir[1]. Göstərilən rə'ydən və digər sənədlərdən bu da mə'lum olur ki, həmin dərslik iki hissədən ibarətdir. 48 səhifədən ibarət olan birinci hissə metodik rəhbərlik xarakteri daşıyır. Müəllif K.D.Uşinski kimi öz dərsliyinə «Rəhbərlik» tərtib etmişdir. Orada ucqarlarda yaşayan kiçik millətlərin pedaqoji ədəbiyyatının kasıblığı, azərbaycanlı uşaqlarının ərəb əlifbasını öyrənməsi sahəsində nəzərə çarpan çətinliklər, Azərbaycan dilində müəyyən elmi-pedaqoji qaydada yazılmış əlifba və oxu kitablarının və müvafiq metodik rəhbərliyin olmaması qeyd olunur. Bütün bu səbəblərdən də, «…hər bir tatar (azərbaycanlı – H.Ə.) müəllimi bu dili ya özünəməxsus üsul ilə tədris edir, yaxud, daha doğrusu, bu dilin tədrisində heç bir üsuldan istifadə edilmir və bu dilin öyrədilməsi sahəsindəki müvəffəqiyyətsizlik də müəyyən mə'nada bununla əlaqədardır».

Doğrudan da, o vaxtlar Azərbaycan dilinin tədrisi üçün elmi-pedaqoji prinsiplər əsasında tərtib edilmiş dərslik və metodik rəhbərlik yox idi. Dosent V.Smirnovun rə'yində deyildiyi kimi, Budaqovun «Türk-tatar əlifbası» (Tiflis, 1844), Azərbaycan dilinə yaxın olan Krım tatarlarının dilində 1873-cü ildə Odessada nəşr olunan «Rus-tatar əlifbası», Vahabovun, Sainovun və Nasırovun Kazan şəhərində nəşr etdirdikləri metodik rəhbərlik Azərbaycan dilinin tədrisi tələblərini öyrədə bilmirdi. Bütün bu cəhətlər M.Ə.Elxanovun həmin dərsliyi yaratmasına səbəb olmuşdur.

[1] SSRİ MDTA (L), f. 734, s. 3, iş № 46, v. 803–809.

M.Ə.Elxanovun dərsliyinin 49-cu səhifəsindən başlanan ikinci hissəsi, K.D.Uşinskinin «Vətən dili»ndə olduğu kimi, oxu üçün seçilmiş materialdan ibarət idi. Bu hissənin tərtibində iki cəhət özünü göstərir. M.Ə.Elxanov, bir tərəfdən, Azərbaycan və Şərqin mütərəqqi məktəb təcrübəsi ən'ənələrini, digər tərəfdən isə Uşinskinin «Vətən dili»nin quruluşunu əsas götürmüşdür. Uşinski dərsliyinin tə'siri, hər şeydən əvvəl, onunla izah olunur ki, onun kimi Elxanov da dərsliyə daxil etdiyi mətnlərin mövzusunu xalqın məişətindən, həyatından almışdır; fərq orasındadır ki, Uşinskinin dərsliyindəki mövzular, mətnlər rus xalqlarının məişətindən, Elxanovun kitabındakı mövzular isə Azərbaycan xalqının həyatından götürülmüşdür. K.D.Uşinskinin dərsliyində olduğu kimi, Elxanovun kitabında da şagirdlərin təfəkkürünü inkişaf etdirmək, müəllimin şifahi müsahibə aparması üçün mətndə işlədilən sözlər müxtəlif növlərə, qruplara bölünmüşdür. «Vətən dili»ndə olduğu kimi, burada da böyük tərbiyəvi xarakterə malik olan atalar sözü, zərb-məsəllər çox diqqətlə seçilərək mətnlərdə işlədilmişdir. Dosent V.Smirnov öz rə'yində dərsliyin bu cəhətini ayrıca qiymətləndirmişdir. Həmin kitabın mə'ziyyətlərini, həmçinin o vaxtlar azərbaycanlı uşaqların qiraəti üçün müvafiq dərsliklərin olmamasını, mövcud vəsaitlərin şagirdlərə mə'lum olmayan ərəb və fars sözləri ilə dolğunluğunu, onların savad tə'limi üçün yaramadığını nəzərə alan resenzent onun nəşr olunmasını faydalı hesab etmişdir.

İrəvan quberniyası xalq məktəblər direktorunun növbəti məktubundan mə'lum olur ki, M.Ə.Elxanov həmin dərsliyi nəşr etmək üçün, özündə əlavə nüsxəsi olmadığından, QTD popeçiteli vasitəsilə RXMN-nə müraciət edərək əlyazmasının ona qaytarılmasını xahiş etmişdir.

Təəssüf ki, M.Ə.Elxanovun vəfatı bu xeyirxah işin sona çatdırılmasına imkan verməmişdir. «Sərəncamlar»ın növbəti nömrəsində M.Ə.Elxanovun 1885-ci il martın 31-də vəfat etdiyi xəbər verildi. Lakin S.Ə.Şirvaninin «Rəbiül-ətfal» adlı dərsliyi kimi, M.Ə.Elxanovun dərsliyinin də nəşr edilməməsinə baxmayaraq onlar nəticəsiz qalmamışdır. Əlyazması şəklində qalan hər iki kitab səs üsulu ilə yeni dərsliyin yaradılması zərurətini, yeni dərsliklər tərtib edərkən Azərbaycan məktəbinin mütərəqqi ən'ənəsi ilə bərabər

mütərəqqi rus pedaqogikasından və məktəbindən, xüsusilə, Uşinskinin təcrübəsindən istifadə etməyin zərurətini bir daha təsdiq etdi.

K.D.Uşinskinin yubileyini qeyd etdiyimiz gündə əlamətdar bir hadisə olaraq diqqəti cəlb edən budur ki, yeni arxiv sənədlərinin və digər ilk mənbələrin göstərdiyi kimi, ən əvvəl M.Ə.Elxanov Uşinskidən tə'sirlənib «Vətən dili» kitabını yazmışdır. Məhz bundan sonra A.O.Çernyayevski yeni «Vətən dili» kitabını tərtib edərkən özündən əvvəlki hər iki dərsliyin materiallarından istifadə etmişdir[1].

«Azərbaycan məktəbi» jurnalı
1974-cü il, №2, s.45–48.

«Əkinçi»də xalq maarifi və məktəb məsələləri

XIX əsrdə Azərbaycanda xalq maarifi, məktəb və pedaqoji ideyaların inkişafı tarixinin ən parlaq səhifələrindən birini «Əkinçi» qəzeti tutur. Milli mətbuatımızın, o cümlədən pedaqoji mətbuatın başlanğıcı olan «Əkinçi» mövhumat və orta əsr geriliyinin hökm sürdüyü, xalqın cəhalət və zülmət içərisində boğulduğu bir dövrdə maarif məş'əlini yandırmış, dünyəvi məktəb uğrunda ardıcıl mübarizə aparmış, mütərəqqi pedaqoji fikirlər yaymış, ən başlıcası isə ana dili tə'limi ideyasını geniş təbliğ etmişdir.

«Əkinçi» qəzetinin naşiri və redaktoru, unudulmaz maarifçi, «Azərbaycan ziyalılarının müəllimi və mə'nəvi atası» adlandırılan Həsənbəy Zərdabinin tarixi xidmətlərindən biri budur ki, o, «Əkinçi» qəzeti ilə M.F.Axundovdan sonra ana dili tə'limi və dünyəvi məktəb ideyasını inkişaf etdirərək yeni yüksəkliyə qaldırmışdır. H.Zərdabi eyni zamanda M.F.Axundovdan fərqli olaraq savad tə'limi ideyasını geniş yaymış, uşaqların ümumi təhsilini, ana dilində dünyəvi məktəblər yaratmaq ideyasını dövrün tələblərinə müvafiq olaraq elmi dəlillərlə əsaslandırmışdır.

[1] F.Köçərli. Azərbaycan ədəbiyyatı tarixi materialları, II hissə, Bakı, 1926, s. 40; Azərbaycan ədəbiyyatı tarixi, 2-ci cild, Bakı, 1960, s.293–239; A.Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən, Bakı, 1966, s. 122 və s.

«Əkinçi» tə'limin ana dilində aparılması məsələsində mühafizəkar mövqe tutanları vaxtında, həm də kəskin tənqid və ifşa edirdi. «Bizim öz elmimiz bizə bəsdir və əgər hər kəs o elmləri (yə'ni dünyəvi elmləri – H.Ə.) öyrənmək istəsə, getsin xarici dillərdə öyrənsin, dəxi elm kitablarını gətirib öz dilimizə tərcümə etdirib çap etmək nə lazım?» deyənləri «Əkinçi» öz xalqının zəkasına inanmayan, xarici tə'sirlərə uyan meşşan, kütbeyin adlandırır, bələlərinin nifrətə layiq olduqlarını göstərirdi.

Həsənbəy Zərdabi ana dili məktəbləri ilə bərabər, dünyəvi təhsil uğrunda da mübarizə aparırdı. Moskvada təhsil alarkən, ola bilsin ki, o, 60-cı illərdə Rusiyada klassik və real təhsil tərəfdarları arasında gedən mübarizədən xəbərdar idi. Lakin onun «Əkinçi» qəzetində «elmi-əbdan» və ya «elmi-ədyan» haqqında qaldırdığı məsələ Azərbaycan xalqının həyatından irəli gəlirdi və Rusiyada gedən mübarizənin, Azərbaycanda özünəməxsus in'ikası idi.

Dünyəvi və dini elmlər haqqında mübahisə qəzetin 1875-ci il 10-cu nömrəsində Heydərinin dərc edilmiş məqaləsi ilə başlandı. Bu məqalə tərəqqipərvər müxbirlər ilə qaragüruhçular arasında qızğın mübahisəyə səbəb oldu. Qabaqcıl ziyalıların fikrini təmsil edən «Əkinçi» dünyəvi elmlərə üstünlük verirdi.

H.Zərdabi başda olmaqla «Əkinçi» qəzeti və onun mütərəqqi müxbirləri M.F.Axundovun ideyalarını inkişaf etdirərək öz məqalələrində «elmi-əbdan»ı «elmi-ədyan»dan, dünyəvi elmlərin öyrədilməsini ilahiyyatçılıqdan ayırmağı tələb edir, məktəblərdə dünyəvi elmlərin tədrisinin təbliğinə çalışırdı. Zərdabi yazırdı: «…Elmi-əbdan hədisi 1293 ildir ki, xalqın ipini əllərində saxlayan şəxslərə (din xadimlərinə – H.Ə.) mə'lumdur. Amma onlar bə'zi səbəblərə binaən buçağacan nə ki, o hədisi xalqa bəyan etməyiblər, amma özləri də onun dalınca olmayıb, müsəlman millətini sərgərdan qoyublar».

Azərbaycanda dünyəvi elmlərə maraq göstərilməməsinin bir səbəbi də bu idi ki, ta qədimdən bəri dünyəvi elmlərlə ruhani elmlərin tədrisinə fərq qoyulmayıb, «Hər ikisinin bir məktəbxanada, bir ustaddan, bir qayda ilə» öyrənmələri idi. Həm də ruhanilər hakim təbəqə olduqlarından dini elmlərin tədrisinə daha çox fikir verilirdi. Bu məktəblərdə ümdə mətləb elmi-ədyan

oxutmaq idi. Dünyəvi elmlər isə kölgədə qalır, Zərdabinin dediyi kimi, ya heç oxudulmur, ya oxudulursa da ona elə sə'y edilmirdi.

Məktəblərdə dünyəvi elmlərin oxudulmasını vacib hesab edən Zərdabi göstərirdi ki, «…bu qayda qədim zəmanə qaydasıdır və zəmanə dəyişildiyinə gərək o qayda da dəyişilsin». İndi hər bir sənətin sənətkarı olduğu kimi, elmlərin də hamısını bir ustaddan, bir məktəbxanada öyrənmək olmaz. Həm də hər iki elm bir məktəbdə bir ustaddan öyrənildikdə oxuyanlar hər ikisindən avara olurlar.

«Əkinçi»nin açdığı mübahisələrdə H.Zərdabi ilə yanaşı N.Vəzirov, Əhsənül-Qəvaid, Ələkbər Heydəri, Zaqafqaziya Şeyxül-İslamı axund Əhməd Hüseynzadə, Məhbus Dərbəndi və başqaları yaxından iştirak edirdilər. «Əkinçi»nin dağıstanlı müxbiri Ə.Heydəri gənclərin mükəmməl şəkildə elmlərin əsaslarına yiyələnmələrini zəruri məsələ kimi irəli sürürdü. O, köhnə tə'lim-tərbiyə üsullarını pisləyir, məktəb və mədrəsələrdəki tə'limin yaramazlığını, orada tədris edilən dini fənlərin puçluğunu açıb göstərirdi.

«Əkinçi»nin prinsipial müxbirlərindən olan Əhsənül-Qəvaid maarifçi olmaq e'tibarı ilə idrakın gücünə möhkəm inanır, hətta onun vasitəsilə insanların azad, dinc, qayğısız yaşayacaqlarına bel bağlayırdı. O, yazırdı: «İnsanı da tifliyyətdə gərək atası və böyüyü hərfətə və tərbiyətə (tə'lim-tərbiyəyə – H.Ə.) qoysun ki, dəmir soyuyandan sonra çəkic ona kar etməz».

Axund Əhməd Hüseynzadə isə bu məsələyə tipik ruhani mövqeyindən yanaşırdı. O yazırdı ki, elmin iki qisim olması insanın iki cür ehtiyacı olduğundan irəli gəlir: cismani və ruhani ehtiyaclar. Hər iki elm insan üçün vacibdir.

Zərdabi «Əkinçi»nin səhifələrində Şeyxül-İslamın məqaləsini dərc etməklə məsələnin mahiyyətini, ruhanilərin bu məsələyə münasibətini aydınlaşdırmaq istəyirdi. «Elmi-əbdan»a münasibətində Şeyxül-İslamın mövqeyini tənqid edən Zərdabi yazırdı: «Cənab Şeyxül-İslamın bu nömrədə çap olunan məktubunu oxuyana mə'lum olur ki, bizim peyğəmbərimiz öz ümmətini irəli salmaqdan ötrü onlara hökm edibdir ki, hər bir elmi təhsil etsinlər. Bəs biz müsəlmanlar millətlər arasında rusvay və zəlil olub dünya işlərinə məhəl qoymadığımıza səbəb ayrı şeylərdir»[1]. H.Zərdabi

[1] «Əkinçi» qəzeti, 1876-cı il, №12.

ruhanilərin ruslardan elm öyrənmək məsələsindəki mürtəce mövqeyinə, rus məktəbində oxuyanları kafir adlandırmalarına qarşı kəskin çıxış edirdi.

«Əkinçi» qəzetinin xalq maarifi və məktəb uğrunda mübarizəsindən bəhs edərkən M.F.Axundovun «Əkinçi»də dərc edilmiş bir məqaləsini nəzərdən keçirmək çox maraqlıdır. Qəzetin 1877-ci ildəki 2-ci nömrəsində dərc edilən həmin məqalədə deyilirdi: «Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy! Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmərətını zikr edib, bizə hey təklif edirsən elm öyrənin, elm öyrənin!… Çox yaxşı, sözün bamәna və nəsihətin müfid və xeyirxahlığın sabit. İndi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək, hansı dildə öyrənək?».

M.F.Axundovun məktubunda göstərilən üç mühüm məsələ o dövrdə xalq maarifi və ana dili məktəbinin təşkili qarşısında duran çox mühüm pedaqoji problemlər idi. Bu problemlərdən birincisində – kütləvi xalq məktəblərinin olmamasına işarə edən M.F.Axundov yazırdı: «Əgər şəhərlərdə öyrənək, şəhərlərdə məktəbxanalar yoxdur. Əgər külli – şəhər xalqı padşahlıq məktəbxanalarda oxusunlar, yer tapılmaz. Deyəcəksən ki, özümüz şəhərlərdə məktəbxanalar bina edək. Çox yaxşı. Hansı istiaətlə».

İkinci mühüm problem xalq müəllimlərinin olmaması idi. Bu vacib cəhəti göstərən M.F.Axundov deyirdi: «Bərfərz ki, etdik, müəllimləri haradan alaq? Türki, farsi və ərəb dillərində bilən müəllimlər yoxdur və bu dillərdə elm kitabları yoxdur. Bəs necə edək?».

Üçüncü problem hansı dildə oxumaq məsələsi idi. Bu məsələ demək olar ki, bütün Azərbaycan maarifçilərini düşündürən və xalq maarifinin inkişafını ləngidən, həmçinin, öz həllini gözləyən mürəkkəb və çətin məsələ idi. Belə ki, o zamanlar ana dili gözdən düşmüş bir dil idi. Dövlət məktəblərində tə'lim rus dilində, məscid məktəblərində isə ərəb və fars dillərində aparılırdı. Bu məsələyə işarə edən M.F.Axundov yazırdı: «Deyəcəksən ki, rus dilində oxuyun, öyrənin. Çox yaxşı, şəhərlərdə məktəbxanalar açdıq, rus dilində elm öyrənməyə başladıq. Aya, ünas və kənd əhlimiz necə etsinlər? Kəndlərdə də məktəbxanalar açaq və müəllim gətirək ya yox? Əgər deyirsən açın, insaf elə, hansı istiqamət ilə və hansı qüdrət ilə?».

Həqiqətən, o zamanlar dövlət tərəfindən yalnız şəhərlərdə məktəblər açılmışdır, kəndlərdə isə düzgün təşkil edilmiş məktəblər hələlik yox idi. Təkcə şəhər əhalisinin təhsili qayğısına qalmaqla əsas məqsədə – bütün xalq kütlələrini savadlandırmağın qeyri-mümkün olmasına işarə edən M.F.Axundov yazırdı: «Əgər deyirsən ki, kənd əhli qalsın, ancaq şəhər xalqı elm öyrənsin, onda sənin muradın əmələ gəlməz. Bir gül ilə bahar olmaz. Şəhər xalqı kənd əhlinə nisbət qətrədir dəryaya nisbət».

M.F.Axundov həmin məqaləsində ümumi təhsil ideyasını irəli sürürdü. O yazırdı ki, ana dilində məktəb açmaq üçün hər şeydən əvvəl üç şey: vəsait, birlik və əlifba lazımdır. Bunsuz xalq maarifini inkişaf etdirməyi M.F.Axundov mümkün hesab etmirdi.

M.F.Axundovun həmin məqaləsi «qışın çilləsində olan çovğun kimi onu diqqət ilə oxuyanın bədəninə qorxu lərzəsi salırdı». Lakin bununla belə həyata daha optimist münasibət bəsləyən Həsənbəy M.F.Axundovun göstərdiyi çətinlikləri aradan qaldırmağın yollarını düşünür, xalqın dərdinə çarə axtarır, konkret yol göstərməyə cəhd edirdi.

«Əkinçi» qəzetinin səhifələrində M.F.Axundovun qaldırdığı ana dili məktəbi məsələsinin müzakirəsində «Əkinçi»nin fəal müxbirlərindən olan N.Vəzirov, Məmmədtağı Əlizadə Şirvani yaxından iştirak edir, dəyərli fikirlər söyləyirdilər.

Ümumiyyətlə, «Əkinçi»nin bütün materiallarında, xüsusən, baş məqalələrində maarifçilik ideyası əsas xətt kimi keçib gedir.

«Azərbaycan məktəbi» jurnalı 1975-ci il №7, s.63 – 65.

N.Nərimanovun bir məqaləsi haqqında

Nəriman Nərimanovun elmi-ədəbi, tibbi-pedaqoji irsində onun publisistikası da böyük yer tutur. N.Nərimanovun publisist məqalələri əsasən Bakı və Həştərxan dövri mətbuatında Azərbaycan və rus dillərində çap olunmuşdur.

N.Nərimanov 1909-cü ildən 1913-ci ilədək Həştərxanda sürgündə olarkən yazdığı məqalələr onun yaradıcılığında xüsusi yer tutur. Bu illərdə o, Azərbaycan və tatar dillərində çıxan «Burhani tərəqqi», «Prikaspiyski kray», «Astraxanski vestik», «Astraxanski listok» və s. qəzetlərlə əməkdaşlıq etmişdir.1911-ci ildə Həştərxan şəhərində keçirilən həkimlərin ikinci qəza qurultayında iştirak etmişdir. Onun buradakı çıxışı Həştərxan həkimlər cəmiyyətinin «İzvestiya» jurnalında dərc olunmuşdur.

Ümumiyyətlə, N.Nərimanovun publisistikası, xüsusilə Həştərxan dövrü, müxtəlif sahələrdə çalışan mütəxəssislərin diqqətini cəlb etmiş və əsasən Nərimanşünasların tədqiqat işlərində öz əksini tapmışdır.

Lakin son illərdə dərindən aparılan tədqiqatlar göstərir ki, N.Nərimanovun indiyədək tədqiqatçılara və oxuculara mə'lum olmayan məqalələri də vardır. Belə namə'lum məqalələrdən birini biz tapmışıq.

Nərimanovun sürgündə olduğu dövrdə Həştərxanda nəşr olunan qəzet və jurnalların komplektlərini nəzərdən keçirərkən 1911–1914-cü illərdə nəşr olunan aylıq «Novıy jurnal rasionalnoqo vospitaniya» jurnalının 1912-ci il 5-ci nömrəsində «Doktor Nəriman-bəy Nərimanov» imzası ilə «Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir?» adlı bir məqaləyə rast gəldik. Bu jurnalın naşiri və redaktoru A.A.Dernova-Yarmolenko familiyalı bir qadın olmuşdur. Onun şəxsiyyəti hələlik bizə mə'lum deyildir.

N.Nərimanovun yaradıcılığının öyrənilməsində həmin məqalənin əhmiyyətini nəzərə alaraq onun rus dilindən tərcümə olunmuş tam mətninin dərcini faydalı hesab edirik.

Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir?

Ümumiyyətlə, canlıların və xüsusilə insanın orqanizmi başlanmış həyatı davam etdirməyə qabildir. Bunu ayrı-ayrı orqanların fiziologiyasından, onların bə'zilərinin axırıncı məhsulundan və bu orqanlar arasındakı ağıllı ahəngdarlıqdan da görmək olar.

Məsələn, ürəyin fəaliyyətinə diqqət yetirək; o, işləmək üçün bir dəfə təkan almış və işləyir; o, təkcə işləmir, həm də şəraitə, həm özündə, həm də digər orqanlarda baş verən patoloji dəyişikliklərə uyğunlaşmağı bacarır.

Belə fərz edək ki, orqanizmin müəyyən bir sahəsi nəyə görəsə adi vaxtlarda olandan daha artıq miqdarda qan tələb edir, ürək isə, məsələn, normal şəraitdə dəqiqədə 75 dəfə vurur. Belə bir iş şəraitində yuxarıda göstərdiyimiz sahə qan çatışmamazlığından zərər çəkə bilər. Bu olmasın deyə ürək müəyyən vaxtda müəyyən sahəyə lazımi miqdarda qan çıtdırmaq məqsədi ilə daha tez-tez sıxılmağa başlayır.

Bütün bunlar insanın iradəsindən asılı olmayaraq edilir.

Daha bir misal göstərək: böyrəklər sidik hazırlayır; orqanizmdən ayrılan sidik orqanizm üçün zərərli olan məhsulları çıxarır. Əgər böyrəklərdən birinin funksiyası azalmış və ya böyrəklərdən biri çıxarılmışdırsa, o zaman sağlam böyrək, orqanizm müntəzəm olaraq zəhərlənməsin deyə, bütün işi öz üzərinə götürür. Belə güclü iş şəraitində o iki dəfə böyüyür.

Əgər faqotsitoz haqqında Meçnikovun nəzəriyyəsini də, orqanizmin özünümüdafiəsinə misal kimi, buraya əlavə etsək, bizim yuxarıda söylədiyimizi təsdiq etmək üçün kifayət edər. Həmin fikir isə belədir: Orqanizm həqiqətən bir dəfə başlanmış həyatı təkcə davam etdirməyə deyil, həm də özünü orqanizm üçün zərərli olan ünsürlərdən mühafizə etməyə qabildir.

Əgər bu belədirsə, onda biz yalnız orqanizmə köməyə gəlməli, təbii inkişafına mane olmadan onu kənar zərərli ünsürlərdən qorumalıyıq. Orqanizm üçün kənar zərərli ünsürlərdən danışarkən, biz burada elə mikroorqanizmləri göstərməklə kifayətlənirik ki, onlar insan orqanizminə düşən kimi, sür'ətlə çoxalmaq üçün orada əlverişli şərait tapırlar. Onlar çoxaldıqca zəhər buraxır və bu zəhərlə orqanizmi bu və ya digər formada zəhərləyirlər.

Bütün yoluxucu xəstəliklər: yatalaq, vəba, taun, vərəm və i.a. Buna misal ola bilər.

Lakin biz burada onlardan danışmaq istəmirik. Bizim məqsədimiz sizi xarici şəraitlə tanış etməkdir ki, həmin şərait bu və ya digər yolla orqanizmin təbii inkişafına maneçilik törədir, beləliklə də xəstəliyin əmələ gəlməsi üçün əlverişli şərait yaradır.

Xəstəliklərə həssas olmaq nə deməkdir?

Yuxarıda biz demişdik ki, hər bir orqan ayrılıqda və bir-biri ilə əlaqədə, fasiləsiz olaraq işləyərək, təkcə orqanizmi saxlamağa çalışmır, həm də onu zərərli ünsürlərdən mühafizə edir.

İki subyekti götürək: onlardan biri tez-tez, həm də bəs deyincə spirtli içki – araq içir, digəri heç içmir. Alkoqol proplazmatik zəhərdir; o, suyu sıradan çıxarır, zülalı laxtalandıraraq, ümumiyyətlə selikli qişaya və xususilə də mə'dənin selikli qişasına məhvedici tə'sir göstərir. Əgər bu belədirsə, siz heç də təəccüb etməyin ki, tez-tez alkoqol qəbul edən adam mə'də katarından daim əziyyət çəkəcək, daha doğrusu, daim spirtin tə'siri altında olan selikli qişa yeməyi həzm etmək üçün lazım olan mə'də şirəsini vaxtında ayırmaq qabiliyyətini itirəcəkdir. Bir sıra batsillalara, xüsusilə vəba batsillasına öldürücü tə'sir göstərən duz turşusu da mə'də şirəsinin tərkibində olur.

Doğrudan da vəba batsillaları yemək və ya su ilə sağlam mə'dəyə düşdükdə duz turşusunun tə'siri ilə buradaca məhv olub gedir.

Lakin mə'dənin selikli qişası müəyyən vaxtda müəyyən qədər duz turşusu ayıra bilməsə, vəba batsillaları bütöv şəkildə və heç bir zərər çəkmədən mə'dədən bağırsağa düşəcəkdir. Bağırsağın şirəsində onlar sür'ətlə çoxalmaq və beləliklə də orqanizmi zəhərləmək üçün əlverişli şərait tapacaqlar. Buna görə də təəccüblü deyildir ki, vəba epidemiyası zamanı birinci subyekt heç vaxt spirtli içki qəbul etməyən ikinci subyektdən daha tez xəstəliyə tutulur.

Biz bunu, daha doğrusu, birinci subyektin vəbaya tutulmasını xəstəliyə meyllilik adlandırırıq. Başqa sözlə desək, mə'lum orqan bu və ya digər formada orqanizm üçün təhlükəli olan momenti duymaq qabiliyyətindən məhrum edilmişdir.

Deməli, bu orqanı qorumuq və ya düşmənlə mübarizəyə hazırlamaq lazımdır. Mə'də ilə əlaqədar gətirdiyimiz yuxarıdakı misaldan göründüyü kimi, orqanların iş qabiliyyətini saxlamaq məqsədi ilə onları bu və digər dərəcədə mühafizə edə bilərik.

Elə orqanlar vardır ki, onların inkişafı və ya normadan kənara çıxması bizim özümüzdən asılıdır.

Məktəb yaşında döş qəfəsinin inkişaf etdirilməsi ilə əlaqədar olaraq bizim ciyərlərimiz məhz belə orqanlardandır. Biz ona görə

məktəbyaşlı deyirik ki, məhz bu yaşda uşaqların döş qəfəsi bu və ya digər dəyişikliyə uğrayır.

Döş qəfəsi nədir?

Döş qəfəsi öz formasına görə konusa yaxınlaşır. Divarı döşdən və qabırğa qığırdaqlarından, arxa divar onurğa sütunu və qabırğa hissələrindən, böyürdən isə sonuncudan ibarətdir.

Döş qəfəsinin formasının dəyişilməsinə dair sonrakı söhbətimizi daha aydın başa düşmək üçün döş qutusundakı sümüklərin anatomiyasına və onların bir-biri ilə əlaqəsinə burada qısaca da olsa toxunmaq lazımdır.

Fəqərədən başlayaq. Fəqərə sütunu dörd əyridən ibarətdir. 1) ön çıxıntı ilə birlikdə 7-ci boyun fəqərəsinin yaratdığı boyun; 2) 12 döş fəqərəsinin əmələ gətirdiyi döş; 3) 5 bel fəqərəsi ilə əmələ gəlmiş bel; nəhayət, 4) irəliyə doğru əyilmiş birləşmiş dörd sümükdən ibarət uc əyriləri.

Burada ona diqqət yetirmək lazımdır ki, boyun və bel əyriləri anadangəlmə deyildir. Birinci uşaq boynunu tutmağı öyrəndikdə, ikinci isə o yeriməyi öyrənəndə əmələ gəlir. Döş və sarğı əyriləri anadangəlmədir.

Biz burada bu fəqərələrin xüsusiyyətləri və onların birləşmələrinin tə'siri üzərində ətraflı dayanmayacayıq, yalnız onu deyəcəyik ki, bu onurğalar bir-birinin üzərində yerləşir. Onların hər ikisinin üzərinə toxunan qığırdaq vardır. Qabırğaların başı söykənən iki fəqərənin yanlarında da belə oynaq səth vardır. 12 cüt qabırğadan 7 cütü yuxarıda yerləşir və əsil qabırğa adlanır. Bu əsil qabırğaların ucları bilavasitə döş sümüyünə söykənir, 5 cüt yalançı qabırğa isə öz aralarında qığırdaqla və sonra isə döşlə birləşir, 11 və 12-ci qabırğalar əzələlər arasında sərbəst dayanır. Qabaq tərəfdə üç hissədən ibarət döş sümüyü yerləşir. Onlar bir-biri ilə lif şəklində qığırdaqlı toxumalarla birləşir. Fəqərə və qabırğaların hərəkəti haqqında bir neçə söz. Məsələn, boyun fəqərələri bel fəqərələrinə nisbətən hərəkətlidir və s. Ümumiyyətlə, fəqərə sütunu 28 dərəcəyədək dönə bilir.

Fəqərələrin digər hərəkətləri yırğalanma və əyilmə zamanı baş verir. Qabırğaların hərəkəti bir-birinə qarşılıqlı surətdə perpendikulyar olan üç oxun yanında baş verir: 1) uzununa üfiqi – bu zaman qabırğanın yan hissəsi qalxır, bunun nəticəsində bütün qabırğaların qalxması ilə döş qəfəsinin həcmi eninə genişlənir; 2)

eninə olan oxun yanında qabırğanın qabaq qurtaracağı qalxır, bunun sayəsində qəfəsin qabaq-arxa həcmi genişlənir; 3) eninə şaquli oxun yanında – qabırğanın qabaq qurtaracağı irəli çıxır ki, bunun sayəsində də döş qəfəsinin həcmi eninə genişlənir.

Ümumiyyətlə belə hərəkətlər zamanı döş qabırğaları yuxarı qalxır və irəli çıxır, çünki üst qabırğalar aşağı qabırğalara (əsil qabırğalara) nisbətən gödəkdir. Böyük radius isə böyük qövs cızır.

Döşün aşağı hissəsi yuxarı hissəyə nisbətən daha çox irəli çıxır.

Beləliklə, bütün bu hərəkətlər nəticəsində döş qəfəsinin tutumu ya böyüyəcək, ya da azalacaqdır.

Yuxarıda biz qabırğaların fəqərə sütunu ilə əlaqəsindən bəhs edərkən göstərdik ki, qabırğaların başı fəqərələrə birləşmişdir. Yuxarıda deyilənlərdən o da mə'lumdur ki, fəqərələr bu və ya digər tərəfə hərəkət edirlər. Əgər bu belədirsə, başları həmin fəqərələrə möhkəm birləşmiş qabırğalar da əyilmə, yırğalanma, fırlanma zamanı bu və digər vəziyyəti qəbul edəcəkdir. Başqa sözlə desək, fəqərələrin bu və ya digər forma alması bütövlükdə qabırğaların forma almasına tə'sir göstərəcəkdir. Buradan da aydın olur ki, fəqərə sütununun əyilməsi, qabırğaların da əyilməsinə səbəb olur.

Fəqərənin əyilməsindən danışarkən, biz burada «məktəb skolyozu» haqqında bir neçə misal gətirməklə kifayətlənəcəyik.

Təsəvvür edək ki, oğlan yazı zamanı aşağıdakı vəziyyəti almışdır: o, budunun orta hissəsi ilə skamyanın qırağında əyləşmişdir, sol çiyin aşağı, sağ çiyni isə yuxarı dayanmışdır: sağ dirsək stolun üzərində çox uzağa uzadılmışdır, baş çəpinə sağ tərəfə əyilmişdir. Beləliklə də, sağ çiyin oynağı elə bir tərpənməz nöqtəni xatırladır ki, bədənin demək olar ki, bütün yuxarı hissəsi ondan asılıdır, əzələlərin hərəkəti ilə fəqərənin döş hissəsi sağa, çiyninə doğru dartılır. Buna görə də sümük əmələ gəlməsi ləngidikdə və ya zəif getdikdə zərif bədən quruluşuna malik olan qızlarda və yaxud da zəif orqanizmli, ya da raxitli uşaqlarda yazı zamanı bədən pis vəziyyətdə dayandıqda sol tərəfə tə'sir edən təzyiq sümük əmələ gəlməsini atrofilləşdirir və ya ləngidir.

Buna müvafiq olaraq bədənin vəziyyətinin qeyri-düzgün olması sayəsində sümüklərin kifayət qədər inkişaf etməməsi nəticəsində skolyoz inkişaf edir.

Skolyoz – fəqərənin bir tərəfə əyilməsi – çox zaman 6–14 məktəb yaşlarından baş verir. Eulenbergə görə 1000 skolyoz halından 877-si məhz məktəb yaşlarında baş vermişdir.

Fəqərənin bu cür əyilməsi ağ ciyərlərin inkişafına tə'sir göstərirmi? Ağ ciyər yerləşmiş yuxarıda təsvir etdiyimiz döş qəfəsini təsəvvürə gətirək. Əgər ağ ciyərin daxili pərdəsi hər tərəfdən ağ ciyərin səthini örtürsə, onun xarici pərdəsi bilavasitə qabırğaya söykənir. Əgər bu belədirsə, fəqərənin əyilməsi, qabırğanın əyilməsinə səbəb olmaqla eyni zamanda ümumiyyətlə döş qəfəsinin əyilməsinə səbəb olur, bu isə istər-istəməz ağ ciyərlərin inkişafına mənfi tə'sir göstərir.

Doğrudan da nəfəsalma zamanı döş qəfəsi özünün elastikliyi (qabırğa qığırdaqlarının və bağlamalarının elastikliyi) sayəsində ciyərlərin genişlənməsindən asılı olaraq genişlənməyə çalışacaqdır. Əgər döş qəfəsi əyilmiş və onun müəyyən bir hissəsi elastikliyini itirmişdirsə, onda ağ ciyərlərin bu əyriyə uyğun gələn hissəsi nəfəsalma zamanı tam şəkildə genişlənməyəcəkdir. Bu vəziyyətdə ağ ciyərlərin həmin hissəsi kifayət miqdarda oksigen qəbul etmək imkanından məhrum olacaqdır. Bundan başqa, ağ ciyərlərin bir hissəsi qaz mübadiləsində zəif iştirak etdiyinə görə həm də pis qidalanacaqdır.

Elə bunun özü, ümumiyyətlə ağ ciyər xəstəlikləri və xüsusilə vərəm xəstəliyi üçün əlverişli şərait yaradacaqdır.

Bir tərəfdən hazırkı ağır ictimai və iqtisadi şəraitdə və digər tərəfdən vərəmin dəhşətli surətdə yayılması onu deməyə əsas verir ki, hamımız bu xəstəliyə mə'ruz qalmışıq.

Doğrudan da, Kox batsillalarından özünü qorumaq çox çətindir! İndiyədək bizə ancaq biri mə'lumdur: ağ ciyər vərəmi (irsi olmayan) nəfəsalma zamanı tozla vərəm çöpcüklərini qəbul etmək nəticəsində əmələ gəlir. Əgər bu belədirsə, kim zəmanət verə bilər ki, o bu gözəgörünməz çöpcükləri qəbul etmir. Əlbəttə, heç kim! Lakin bəs nə üçün hamı vərəmə tutulmur?

Bu suala cavab vermək üçün biz, hər şeydən əvvəl, ona patoloji-anatomik cəhətdən nəzər yetirək: məsələn, insan qarın yatalağından ölür. Patoloji-anatomik açıb-baxma (meyiti yarmaq yolu ilə) zamanı, daha doğrusu ağ ciyərləri tədqiq edərkən vərəm qabarcıqlarını da tapırıq.

Sağlığında isə bu adamda vərəmin heç bir nişanəsi olmamışdır. Yuxarıda dediyimiz qabarcıqlar heç şübhəsiz ki, vərəm çöpcüklərinin məhsuludur. Lakin bu adam vərəmdən deyil, başqa xəstəlikdən ölmüşdür.

Beləliklə də, biz əgər aşağıdakıları desək heç də səhv etmərik: vərəm çöpcüklərindən heç kəs zəmanətli deyildir, yə'ni heç kim deyə bilməz ki, onun ağ ciyərlərində bu çöpcükdən yoxdur. Əgər bu çöpcüklər bə'zilərinə öldürücü zərbə endirir, başqalarına isə tə'sir göstərmirsə, bu onun nəticəsidir ki, bə'zi adamlarda bu çöpcüklər inkişaf etmək, artmaq üçün əlverişli şərait tapır, başqalarında isə nəinki artmır, hətta xüsusi şərait nəticəsində məhv olur, özlərindən sonra zəif bir iz qoyurlar.

Bu xüsusi şərait nədir? Bu, məhz canlı hüceyrənin, bu halda isə ağ ciyərlərin və bütün orqanizmin canlı hüceyrələrinin mühafizə qabiliyyətidir.

İndi yəqin aydındır ki, döş qəfəsinin qeyri-düzgün inkişafı, onun əyilməsi, bu səbəblərdən asılı olaraq ağ ciyərlərin zəifləməsi, bütün bunlar ümumiyyətlə ağ ciyər xəstəlikləri və xüsusilə vərəmin inkişafı üçün əlverişli şərait yaradır. Bu bəlanı neçə dəf etmək olar? Əgər biz biliriksə ki, böyüməkdə olan uşağın döş qəfəsi bu və ya digər şərait nəticəsində öz formasını dəyişir və beləliklə də ağ ciyərlərin normal inkişafına mane olur, bu sonuncu isə ağ ciyərlərin müdafiə qabiliyyətini zəiflədir, onda təkcə məktəb partalarına deyil, həm də yazı zamanı düzgün oturmağa, uzun müddət hərəkətsiz halda bir yerdə əyləşməyə, ümumiyyətlə, uşaq və yeniyetməlik dövründə dərindən və düzgün tənəffüsə mane olan hər şeyə fikir vermək lazımdır.

Sonra açıq havada keçirilən fiziki təmrinlər vasitəsi ilə döş qəfəsinin inkişafına kömək göstərməklə həm də ağ ciyərlərin iş qabiliyyətinin artmasına, onların zərərli ünsürlərlə mübarizəsinə kömək etmək olar.

Doktor Nəriman-bəy Nərimanov.

«Azərbaycan məktəbi» jurnalı
1976-cı il, №5, s.51–55..

Pedaqoji irsimizin güzgüsü

… Respublikanın görkəmli maarif işçilərinin, alimlərin, o cümlədən M.Ələkbərovun, akademik M.Mehdizadənin, professor M.Muradxanovun, B.B.Komarovskinin, Mirzə Məmmədovun və başqalarının Azərbaycanda məktəb, mədəniyyət, xalq maarifi və təhsilin coşqun inkişafına dair silsilə məqalələri «Azərbaycan məktəbi» jurnalında çap olunmuşdur.

… Jurnal Azərbaycanda xalq maarifi, məktəb və mədəniyyətin inkişafına dair silsilə yazılar çap etmişdir.

Azərbaycanın çoxəsrlik pedaqoji fikir tarixində qabaqcıl dünya və rus klassik pedaqoqlarının ideyaları və məktəb təhsili tarixi ilə azərbaycanlı oxucuların ilk tanışlığı «Azərbaycan məktəbi» jurnalının xidmətlərindəndir.

Doğrudur, inqilabdan əvvəlki dövri mətbuatda Y.A.Komenski, J.J.Russo, İ.H.Pestalotsi, K.D.Uşinski kimi pedaqogika elminin korifeyləri haqqında kiçik məqalələrə, yazılara rast gəlirik. Lakin onların və bir çox başqa pedaqoqların pedaqoji irsi sistemli şəkildə, ardıcıl olaraq məhz bu jurnalın səhifələrində öz əksini tapmışdır. «Azərbaycan məktəbi» jurnalı mütərəqqi rus pedaqoji fikrinin təbliğinə ayrıca əhəmiyyət vermiş və pedaqoq-alimlərin bu problemə aid onlarca məqaləsini çap etmişdir. Azərbaycan pedaqoqlarının ağsaqqalı sayılan respublikanın əməkdar elm xadimi, professor Ə.Y.Seyidovun bu sahədəki xidmətləri unudulmazdır. Belinskinin, Gertsenin, Çernışevskinin, Dobrolyubovun pedaqoji görüşlərinə, rus pedaqogikasının bir sıra görkəmli nümayəndələrinin, o cümlədən İ.N.Ulyanov, N.E.Piroqov, D.İ.Pisaryev, Lesqaft, L.N.Tolstoy, İ.D.Mendeleyev və başqalarının həyatına və pedaqoji fəaliyyətinə, zəngin pedaqoji irsinə aid məqalələr Azərbaycan müəllimlər ordusunun pedaqoji hazırlığında böyük rol oynamışdır. Hələ Azərbaycan dilində pedaqogika tarixi dərsliyi yaranmamışdan çox-çox əvvəl həmin məqalələr pedaqoji institut tələbələri, aspirant və müəllimlər üçün yeganə vəsait olmuşdur.

Dünya və rus mütərəqqi pedaqoji fikrinin, SSRİ xalqlarının görkəmli pedaqoqlarının ideyalarının jurnal səhifələrində təbliğində professorlardan M.Muradxanov, M.Mehdizadə, A.Abbaszadə, B.B.Komarovski, Ə.G.Zəkizadə, Əmir Tağıyev, dosentlərdən M.Məhərrəmov, Ə.Qarabağlı, Ə.Tağıyev, pedaqoji elmlər doktoru Ə.Həşimov və başqalarının məqalələri az rol oynamamışdır. Azərbaycanda pedaqoji fikrin, ana dilində yeni üsullu dərsliklərin nəşrində, müəllim kadrlarının hazırlanmasında rus pedaqoqu, rus pedaqogikasının atası hesab edilən K.D.Uşinskinin qüdrətli pedaqoji irsinin böyük tə'siri mə'lumdur. «Azərbaycan məktəbi» jurnalı K.D.Uşinskinin irsinə həmişə böyük hörmətlə yanaşmış, müntəzəm olaraq onun pedaqoji fikirlərini təbliğ etmişdir.

Jurnalda Uşinskinin psixoloji fikirləri də öz əksini tapmışdır. «Azərbaycan məktəbi» jurnalında N.K.Krupskayanın, novator pedaqoq A.S.Makarenkonun, Lunaçarskinin, tanınmış pedaqoq Şatskinin, Suxomlinskinin, görkəmli dövlət xadimi M.İ.Kalininin tə'lim-tərbiyəvi fikirlərinə dair xeyli məqalə dərc edilmişdir.

Sovet məktəbinin təşkilatçısı və qurucularından biri olan N.K.Krupskayanın pedaqogika elminin yaranması və inkişafındakı rolunu, onun didaktik görüşlərini, məktəbin həyatla əlaqəsinə dair pedaqoji irsini, politexnik tə'limə, şəxsiyyət və kollektiv məsələlərinə dair dəyərli fikirlərini oxuculara çatdırmaq işində jurnal mühüm rol oynamışdır. N.K.Krupskayanın pedaqoji irsinin Azərbaycanda yayılmasına aid ayrıca məqalələr də çap edilmişdir.

Pedaqoji elmin bir sıra vacib problemlərinin həlli, xüsusilə yeni insanın tərbiyə edilib yetişdirilməsi, şəxsiyyət və kollektiv, yenidən tərbiyə və s. kimi məsələlər A.S.Makarenkonun pedaqoji irsi ilə də çox bağlıdır. Pedaqoji fikir tarixinə yenilikçi pedaqoq kimi daxil olan A.S.Makarenkonun pedaqoji irsi ilə Azərbaycan oxucuları ilk dəfə məhz «Azərbaycan məktəbi» jurnalının səhifələrində tanış olmuşlar. Jurnalın səhifələrində A.S.Makarenkoya aid yazılara hələ Böyük Vətən müharibəsindən əvvəlki nömrələrdə rast gəlirik. 40-cı illərdən bu günə qədər jurnalda böyük sovet pedaqoqunun tükənməz və qiymətli pedaqoji ideyalarına aid onlarca məqalə dərc edilmiş və bu məqalələr Azərbaycan müəllimlərini pedaqogikanın bir çox mühüm nəzəri məsələləri ilə silahlandırmış,

məktəb təcrübəsinə yaxından gömək etmiş, gənclərin tərbiyəsinə böyük fayda vermişdir.

A.S.Makarenkonun pedaqoji irsinə maraq sonralar daha da artdı və bu irsdən Azərbaycan məktəblərində istifadə etməyin səmərəli yollarını göstərən məqalə və əsərlər meydana gəldi. Bu sahədə ilk müvəffəqiyyətli addım professor M.Muradxanova aiddir.

Yarıməsrlik yubileyini qeyd etdiyimiz doğma «Azərbaycan məktəbi» jurnalının digər bir mühüm xidmətini qeyd etmək lazımdır. Bu da jurnalın Azərbaycan məktəb və pedaqoji fikir tarixinin müxtəlif problemlərinə aid vaxtaşırı məqalələr dərc etməsidir. Mübaliğəsiz demək lazımdır ki, azərbaycanlı oxucular Azərbaycan məktəbinin və Azərbaycan pedaqoji fikrinin inkişafı tarixi ilə ilk dəfə məhz bu jurnal vasitəsilə tanış olmuşlar Xalqımızın zəngin mədəniyyət tarixinin ayrılmaz hissəsi olan məktəb və pedaqoji fikrin bir sıra aktual problemlərinə həsr edilmiş məqalələri biz «Azərbaycan məktəbi» jurnalının səhifələrində oxumuşuq. Jurnal keçmiş mədəni irsimizə, məktəbin inkişaf yollarına dərin hörmətlə yanaşmış və bununla da oxucuların bir daha hörmətini qazanmışdır.

Xalqımızın mədəni irsinə aid dərc edilmiş məqalələri əsasən üç qrupa bölmək olar: 1) inqilabdan əvvəlki Azərbaycan məktəblərinin tarixinə həsr edilmiş məqalələr; 2) elmi-pedaqoji fikrin görkəmli nümayəndələrinin ideyalarını işıqlandıran məqalələr; 3) sovet məktəbinin tarixini, onun inkişaf yolunu və böyük müvəffəqiyyətlərini əks etdirən məqalələr.

Jurnalın keçmiş nömrələrini vərəqləyərkən orta əsrlərdə Azərbaycanda məktəb təhsilinin ümumi səciyyəsini göstərən məqalələrə, Azərbaycanda meydana gələn dünyəvi təhsil müəssisələrinə, onların quruluşuna, bu məktəblərin tarixi roluna, rus–Azərbaycan pedaqoji əlaqələrinə, Zaqafqaziya xalqlarının pedaqoji əlaqələrinə, Azərbaycanda müəllim kadrları hazırlığının bir çox cəhətlərinə aid xeyli dəyərli məqalələrin dərc edildiyi aşkar olur.

Bu da təkzibedilməz bir həqiqətdir ki, Azərbaycan xalq pedaqogikasından başlamış, böyük Nizamidən tutmuş xalq şairimiz S.Vurğunadək yüzlərlə mütəfəkkirin, pedaqoqun, maarifçinin, məktəbdarın, müəllimin, metodistin, neçə-neçə zəka sahibinin həyatı və pedaqoji fəaliyyəti, pedaqoji ideyaları və fikirləri ilk dəfə «Azərbaycan məktəbi» jurnalının səhifələrində xalqa çatdırılmışdır.

Oxucu pedaqoji fikir tariximizin nadir incilərini təşkil edən A.Bakıxanovun, M.Ş.Vazehin, M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin, A.O.Çernyayevskinin, C.Məmmədquluzadənin, F.Köçərlinin, R.Əfəndiyevin, N.Nərimano-vun, S.M.Qənizadənin, H.Mahmudbəyovun, M.T.Sidqinin, S.S.Axundovun, M.Ə.Sabirin, A.Şaiqin, Ü.Hacıbəyovun və bir çox başqalarının tə'lim-tərbiyəyə aid fikirləri, xalq maarifinin tərəqqisi uğrunda apardıqları fədakar mübarizələri ilə bu jurnal vasitəsilə tanış olmuşdur.

Azərbaycanın pedaqogika tarixçilərindən Ə.Y.Seyidovun, Ə.Həşimovun, Əmir Tağıyevin, Əyyub Tağıyevin, İ.Mollayevin, D.Mustafayevanın, H.Rəfibəylinin, həmçinin jurnalın fəal müxbirlərindən olan metodist-jurnalist M.Aslanovun, ədəbiyyatşünaslardan Ə.Bağırovun, M.Sultanovun, X.Məmmədovun, metodist-professor A.Abdullayevin, həmçinin bu sətirlərin müəllifinin qələminin məhsulu olan bir çox məqalə məhz Azərbaycan maarifinin, pedaqoqlarının irsinin yayılmasına həsr edilmişdir.

«Azərbaycan məktəbi» jurnalı mədəni irsimizin ayrılmaz hissəsi olan mətbuat tarixinə, o cümlədən pedaqoji mətbuata, ayrı-ayrı qəzet və jurnallarda tə'lim-tərbiyə məsələlərinin oxuculara çatdırılmasına da biganə qalmamışdır. Jurnal «Əkinçi»dən tutmuş «Kəşkül», «Yeni fikir», «Rəhbər», «Məktəb», «Dəbistan», «Molla Nəsrəddin» kimi qəzet və jurnalların pedaqoji ideyaları necə yaymasına ayrıca məqalələr həsr etməklə çox faydalı iş görmüşdür. Jurnal Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrinin, uşaq təşkilatlarının tarixi ilə də oxucuları tanış etmişdir. «Azərbaycan məktəbi» jurnalında sovet məktəblərinin inkişaf tarixini, onun dinamikasını göstərən məqalələrin, orta və ali məktəb təhsili sahəsində əldə etdiyimiz tarixi nailiyyətlərin oxuculara çatdırılması jurnalın, onun redaksiya hey'ətinin başlıca vəzifəsi olmuşdur. Professor M.Mehdizadənin Azərbaycanda xalq maarifi və məktəbin inkişaf yoluna həsr edilmiş silsilə məqalələri bu cəhətdən təqdirəlayiqdir. Beləliklə, Azərbaycanda xalq maarifinə, məktəb və pedaqoji fikrin inkişaf tarixinin müxtəlif məsələlərinə dair dərc edilmiş ayrı-ayrı məqalələr təkcə həmin məsələlər haqqında oxuculara konkret məlumat verməklə qalmamış, nəticə e'tibarı ilə Azərbaycanda, məktəb və pedaqoji fikrin bitkin tarixini yaratmağa

da əlverişli zəmin hazırlamışdır. Bu, jurnalın mühüm xidmətlərindən sayılmalıdır.

«Azərbaycan məktəbi» jurnalı respublikada pedaqoq–alimlər dəstəsinin yetişməsinə də böyük kömək etmişdir. Bu gün Azərbaycanda pedaqogika tarixi, pedaqogika, psixologiya və digər ayrı-ayrı fənlərin tədrisi metodikası sahəsində fəaliyyət göstərən böyük bir alim dəstəsi məhz «Azərbaycan məktəbi» jurnalından qidalanmışdır.

«Azərbaycan məktəbi» jurnalı
1976-cı il №10, s. 20–24.

Pedaqoji irsimizi dərindən öyrənək

Çox qədim və zəngin olan Azərbaycan məktəbi və pedaqoji fikrin tədqiqi yalnız Böyük Oktyabrın nailiyyətidir. Yalnız Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra bu sahədə ilk addımlar atılmış və illər keçdikcə görkəmli tədqiqatçı-alimlər yetişmiş, sanballı tədqiqat əsərləri meydana gəlmişdir.

Sovet hakimiyyəti illərində Azərbaycanda məktəb və pedaqoji fikir tarixi problemi əsasən iki istiqamətdə işlənmişdir. Bir qrup alimlər pedaqoji fikrin öyrənilməsi, digərləri isə məktəb tarixinin tədqiqi ilə məşğul olmuşlar. Azərbaycanda pedaqoji fikir tarixi tədqiqinin pioneri olan mərhum professor Ə. Seyidovun bu sahədəki gərkin əməyi ayrıca qeyd edilməlidir. Professor Ə.Seyidov M. Füzulidən başlamış, XIX əsrin ən görkəmli simalarından olan A.Bakıxanov, M.Ş. Vazeh, M.F.Axundov, S.Ə. Şirvani və H. Zərdabinin, XX əsrin görkəmli nümayəndələrindən C. Məmmədquluzadə, M.Ə.Sabir, F. Köçərli və başqalarının pedaqoji fikirlərini tədqiq etmişdir. Onun «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən» adlı monoqrafiyası və silsilə məqalələri müəllimlərin və ali pedaqoji məktəb tələbələrinin stolüstü kitabıdır.

40-cı illərdən başlayaraq alimlərimizin ilkin dəstəsi yetişməyə başlayır. Onlardan M. Mehdizadə, M.Muradxanov, Əmir Tağıyev, Ə. İsgəndərzadə, N. Asatur, S.Xəlilov, D. Mustafazadə, Z. Axundov, V. Mustafazadə və Ə.Həsənovun ardınca Əyyub Tağıyev, A. Rzayev,

Ə. Həşimov, F. Seyidov, Ə. Məmmədov, Ə. Qədimbəyova, P. Salch, Ə.Yaqubi, İ. Mollayev, H. Rəfibəyli, Ə. Cəlilov, Ə. Ağayev, A. Tağıyev və başqaları Azərbaycanda məktəb və pedaqoji fikrin bir çox aktual məsələləri üzərində tədqiqat aparmış və dəyərli əsərlər yazmışlar.

Lakin təkzibedilməz həqiqətdir ki, Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin öyrənilməsi, gənc nəslə çatdırılması, onun faydalı cəhətlərindən istifadə edilməsi ictimai-pedaqoji həyatımızın böyük sür'ətlə artan tələblərindən hələ də geri qalır. Digər elm sahələrinin inkişafı ilə müqayisə etsək, respublikamızda məktəb və pedaqoji fikir tarixinin tədqiqinin ləng getdiyini görərik.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi sahəsindəki nöqsanlar və qarşıda duran vəzifələr bunlardır.

Bu vaxta qədər aparılan tədqiqatlar əsasən dissertasiyalar ilə bağlı olduğundan, Azərbaycanda istər məktəb, istərsə də pedaqoji fikir tarixinin sistemli surətdə öyrənilməsi əsas qüsur olaraq qalır.

Bu sahədə fəaliyyət göstərən tədqiqatçılarımızın xüsusi məktəb yaratmaq əvəzinə, tez-tez bir mövzudan digər mövzuya keçmələri də tədqiqat işlərinin səmərəsini azaldır. Mə'lumdur ki, alim öz tədqiqat obyektini uzun müddət üçün müəyyən edərsə, onun tədqiqatı səmərəli, elmi nəticələri düzgün, faydası isə çox olar.

İndiyədək tədqiqatlarda pedaqoji fikirlə məktəb tarixinin arasında müəyyən bir sədd qoyulmuşdur. Belə ki, bir pedaqoqun tə'lim-tərbiyəyə aid fikirlərini, pedaqoji baxışlarını işləyən tədqiqatçı həmin fikirləri o dövrün məktəbi, tə'lim-tərbiyə məsələləri ilə əlaqəli deyil, təcrid edilmiş şəkildə öyrənmişdir.Bu da pedaqoji fikirlə məktəb təcrübəsinin vəhdətdə öyrənilməsinə xidmət etməmişdir.

Məktəb və pedaqoji fikir sahəsində aparılan tədqiqat işlərini nizama salan və tənzim edən elmi mərkəzin olmaması da yaxşı hal deyil. Bu səbəbdən də bə'zən tədqiq edilən mövzular ya təkrar edilir, yaxud tədqiqat üçün lüzumsuz mövzular verilir.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin öyrənilməsinə nəzər salsaq bir çox mövzuların deyil, bütöv dövrlərin xali qaldığını görərik. Məktəblərimizin tarixinə diqqət yetirsək ta qədim zamanlardan başlamış Böyük Oktyabr sosialist inqilabına qədərki dövrdə Azərbaycanda məktəb necə olmuş, necə inkişaf etmişdir? Qədim Midiyanın, Albaniyanın, orta əsrlərdə Nizaminin, Füzulinin,

Vaqifin dövründəki məktəblər necə idi? Orta əsrlərdəki Azərbaycan məktəblərinin tədris planını, proqramını, quruluşunu, tipini tə'lim və tərbiyə üsullarını öyrənməyin vaxtı çatmamışdırmı?

Həmçinin sonrakı əsrlərdə, xüsusilə, əsrimizin ilk on illiyinə Azərbaycanda fəaliyyət göstərən yeni tipli məktəblər, cümə günü məktəbləri, sənət və peşə məktəbləri tədqiqini gözləyir.

Tədqiq olunmamış, lakin tədqiqə böyük ehtiyac hiss edilən vacib məsələlərdən biri də Azərbaycan mətbuatında tə'lim-tərbiyə məsələsidir. Mərhum P.Salehin tədqiqatı («Məktəb» və «Dəbistan» jurnalı) nəzərə alınmazsa, «Əkinçi»dən başlamış inqilaba qədər və inqilabdan sonrakı pedaqoji mətbuat pedaqoqlarımız tərəfindən hələlik öyrənilməmişdir. Halbuki dövri mətbuatda tə'lim-tərbiyə məsələlərinə aid qiymətli və zəngin fikirlər vardır. Xüsusilə, bolşevik mətbuatını dərindən öyrənmək, Azərbaycan bolşeviklərinin xalq maarifi və məktəb uğrundakı mübarizəsini aşkar etmək, Azərbaycanda marksist pedaqoji fikrin meydana gəlməsi, yayılması və inkişaf yollarını araşdırmağın vaxtı çoxdan çatmışdır.

Bu günə qədər qələmə alınmamış, lakin tədqiqi zəruri olan məsələlərdən biri də Azərbaycanda sovet pedaqoji fikrinin inkişafıdır. Oktyabrın qələbəsindən keçən 60 il ərzində Azərbaycanda yaranmış və milli zəmin üzərində inkişaf etmiş pedaqoji fikrimizin, ümumi orta təhsilin və ali məktəbin tədqiqi respublika və İttifaq əhəmiyyətindən başqa, beynəlxalq əhəmiyyət də kəsb edir.

Respublikada məktəb və pedaqoji fikir tarixinin öyrənilməsini həyatın tələb etdiyi səviyyəyə qaldırmaq üçün bir sıra ciddi təşkilati məsələlər üzərində də düşünmək lazımdır. Bu işlə bilavasitə məşğul olan elmi-tədqiqat institutu və ya şö'bənin olması çox vacibdir.

Bu vaxta qədər bu mühüm problem ilə respublika Maarif Nazirliyinin tabeliyində olan ETPEİ və ali məktəblərin ümumi pedaqogika kafedraları məşğul olurdu. Lakin son vaxtlar ETPEİ-də bu işlə məşğul olan şö'bə bağlanmış, pedaqoji institutların pedaqogika kafedralarının əməkdaşları isə əsasən tədris işi ilə (pedaqogika nəzəriyyəsi, məktəb həyatının daha aktual məsələləri və s.) məşğul olduğundan, kafedra üzvlərinin çox az hissəsi Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tədqiqilə məşğuldurlar.

Ölkəmizdə bu sahənin tədqiqilə SSRİ PEA-nın müvafiq elmi-tədqiqat institutu məşğul olur. Son vaxtlar SSRİ xalqlarının çoxcildli

məktəb və pedaqoji fikir tarixinə dair əsərlər nəşr edilib. Lakin bu institut əsasən rus pedaqoji irsini tədqiq edir. Akademiyanın bə'zi elmi işçiləri son vaxtlar Avropa ölkələrində, ABŞ-da və digər xarici ölkələrdə məktəb, tə'lim-tərbiyə məsələlərini öyrənirlər. Milli respublikaların pedaqoji irsinin tədqiqilə yerli tədqiqat idarələri məşğuldur.

Fikrimizcə, Azərbaycan SSR Elmlər Akademiyası nəzdində ayrıca bir bölmə — məktəb və pedaqoji fikir tarixi bölməsi yaradılması barədə düşünmək yaxşı olardı. Bu şö'bə Azərbaycan mülki tarixinin və mədəniyyət tarixinin ayrılmaz bir hissəsi olan maarif və məktəb tarixini tədqiq etməkdə böyük iş görər. Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tədqiqi məsələsi SSRİ PEA-nı da düşündürməlidir.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədris edilməsi məsələsi üzərində ayrıca dayanmaq istərdik.

Fikrimizcə, pedaqoji institut və universitet tələbələrinə Avropa və Rusiya məktəb və pedaqoji fikir tarixilə yanaşı, həm də Azərbaycan məktəb və pedaqoji fikir tarixinin öyrədilməsi çox vacibdir. V.İ. Lenin adına APİ-nin ümumi pedaqogika kafedrasının təşəbbüsü ilə bu sahədə ilkin addım atılmış, proqram hazırlanaraq çap edilmişdir. Hal-hazırda həmin proqram üzrə tədris vəsaiti hazırlanır.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin ixtisas kursu şəklində tədrisi gələcək müəllimləri öz peşəsinə hazırlamaqda mühüm rol oynayır.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi və öyrənilməsi sahəsindəki çox mühüm qüsurlardan və tədqiqatçılar üçün çətinlik törədən məsələlərdən biri də nəşriyyatla əlaqədardır. Bu işlə nə «Azərnəşr», nə də «Maarif» nəşriyyatı məşğul olur. Ali məktəblərin nəşriyyat imkanı isə çox zəifdir.

Bir cəhəti ayrıca qeyd etmək istərdik ki, bu da Azərbaycan klassik pedaqoqlarının, maarifçilərin seçilmiş pedaqoji əsərlərinin hələlik çap edilməməsindən ibarətdir. Mə'lumdur ki, rus və Avropa pedaqoqlarının demək olar ki, əksəriyyətinin seçilmiş pedaqoji əsərləri rus dilində nəşr edilmişdir. Məsələn, Y.A. Komenskinin, K.D. Uşinskinin, N.A. Dobrolyubovun seçilmiş pedaqoji əsərləri Azərbaycan dilində də çap olunmuşdur. Şübhəsiz bu çox faydalıdır

və bu iş gələcəkdə də davam etdirilməlidir. Lakin narahatlıq doğuran cəhət odur ki, bu vaxta qədər M.T. Sidqi müstəsna olmaqla Azərbaycanın görkəmli pedaqoqlarından heç birinin seçilmiş pedaqoji əsərləri oxuculara çatdırılmamışdır.

Azərbaycan pedaqoji elminin inkişafında pedaqoji tənqidin rolu böyükdür. Çox təəssüf ki, bu sahədə tənqid donmuş şəkildədir. Nəşr edilən məqalələr, əsər və monoqrafiyalar, dərslik və tədris vəsaitləri, dissertasiyalar, onların dəyəri, qüsuru haqda mətbuatda geniş, obyektiv tənqidə, yeni təhlilə rast gəlmirik.

Xalq maarifi, məktəb və pedaqoji fikrin inkişaf yolunu marksizm-leninizm tə'limi əsasında dərindən və əsaslı surətdə işləmək, onun müsbət cəhətlərindən kommunizm quruculuğunda istifadə etmək günün vacib məsələlərindən biridir.

«Azərbaycan müəllimi»
qəzeti 1 aprel 1978-ci il.

Görkəmli maarifçi

A.O.Çernyayevskinin anadan olmasının 140 illiyi münasibətilə

A.O.Çernyayevski Azərbaycanda məktəb və pedaqoji fikir tarixinə həm də görkəmli maarifçi kimi daxil olmuşdur. Unudulmaz pedaqoq, maarifçi, metodist, yorulmaz beynəlmiləlçi, rus və Azərbaycan xalqları arasında dostluğun carçısı A.O.Çernyayevski XIX əsr Azərbaycan maarifçiləri arasında şərəfli yer tutur.

XIX əsrin 60–70-ci illərində və sonralar ictimai-iqtisadi və mədəni tərəqqi əsasında Azərbaycanda qabaqcıl rus ictimai və pedaqoji fikrinin tə'siri nəticəsində maarifçilik hərəkatı genişlənir, məktəb tə'liminin orta əsr sisteminə qarşı mübarizəsi kəskinləşir, uşaqların ana dilində təhsil ideyası güclənirdi. Doğrudur, bu mübarizə ciddi siyasi xarakter daşımır, əsasən maarifçilik istiqamətində gedirdi. Həmin dövrün qabaqcıl, maarifpərvər adamları feodalizmin ayrı-ayrı təzahürləri əleyhinə mübarizə aparırdılar. Bununla belə, keçən əsrin, 80-ci illərində ana dili tə'limi, dünyəvi təhsil, yeni üsullu dərslik, qabaqcıl Rusiya və Avropa nümunəsində

yeni müəllim kadrları hazırlığı mühüm pedaqoji problem kimi Azərbaycan maarifçilərinin diqqət mərkəzində idi.

Azərbaycan maarifçiləri, o cümlədən A.O.Çernyayevski xalq kütlələrini maarifləndirməyi ən zəruri vəzifə hesab edirdilər. Öz müasirləri kimi A.O.Çernyayevski də maarifi kütlələrin qəflət yuxusundan ayılması, feodal qaydalarından və cəhalət buxovlarından azad olması üçün əsas vasitə hesab edirdi. Onun rəsmi dövlət qulluğunda olarkən 1866-cı ildə Mərəzədə ilk kənd məktəbini təşkil etməyə ciddi sə'y göstərməsi, müəllimlik vəzifəsini təmənnasız olaraq öhdəsinə götürməsi, Tiflisdən və Rusiyanın iri şəhərlərindən qəzet, jurnal, tədris vəsaiti gətirməsi xalq arasında maarifi, ibtidai təhsili yaymaq məqsədilə əlaqədar idi.

A.O.Çernyayevskinin Zaqafqaziya Tədris Müəssisələri İdarəsi baş inspektoru Y.M.Neverevə 1867-ci il 29 sentyabr tarixli müraciətində oxuyuruq: «Poçt idarəsində qulluq edərək maarifin əhəmiyyətini dərk etdim və Şamaxı qəzasının Mərəzə kəndində kənd məktəbi açdım»[1]. İlk uğurlu addımdan ruhlanan, xalq arasında maarifi yaymağı qarşısında ümdə məqsəd qoyan A.O.Çernyayevski xidmət etdiyi dövlət qulluğundan çıxaraq öz fəaliyyətini həmişəlik pedaqoji işə həsr edir. Onun Qori seminariyasının Azərbaycan şö'bəsindəki səmərəli pedaqoji fəaliyyəti də azarbaycanlılar arasında xalq maarifini, dünyəvi təhsili yaymağa xidmət etməyin gözəl nümunəsi olmuşdur. O, təkcə praktik pedaqoji fəaliyyət göstərməmiş, eyni zamanda mətbuat səhifələrində dərc etdirdiyi məqalələrində xalq maarifinin görkəmli carçısı kimi çıxış etmişdir. Həmçinin «Müsəlman ruhaniliyi və xalq məktəbləri» adlı məşhur məqaləsində xalq arasında təhsilin zəif yayılmasında ruhaniləri, xüsusilə Zaqafqaziya ruhani idarəsini və onun rəhbərlərini tənqid edirdi. O, belə bir fakt gətirirdi ki, 1848–1949-cu illərdə Tiflisdə əsası qoyulan iki müsəlman məktəbini 30 il ərzində cəmi 37 nəfər bitirmişdir. Mövcud ruhani məktəbləri də (məktəb və mədrəsələr) A.O.Çernyayevskini qətiyyən tə'min etmirdi . O bu məktəblərin nuh əyyamından qalmış qayda-qanunla idarə olunmasını, ana dilinin tədrisində səs üsulunun tətbiq edilməsini, uşaqların mə'nəvi və fiziki

[1] Gürcüstan SSR MDA, f. 423. s. 1, iş № 380, v. 1.

inkişafına hərtərəfli tə'sir edən tə'limin tərbiyəedici xarakterinin bu məktəblərə hələ nüfuz etməməsini ciddi qüsur hesab edirdi.

Böyük maarifçinin Azərbaycan xalq maarifi və məktəb təhsilinin vəziyyətinə həsr edilmiş məqalələri içrisində onun ölümündən sonra dərc edilmiş bir yazısı diqqəti xüsusilə cəlb edir. «Qafqaz müsəlmanları xalq təhsilinin yekunları» adlanan bu irihəcmli məqalə «Qafqaz» qəzetinin 1895-ci il 25 yanvar tarixli nömrəsində dərc edilmişdir. Redaksiyanın qeydindən mə'lum olur ki, məqalə onun ölümündən sonra kağızları arasından tapılmışdır. Müəllif bu məqaləsində bütün Qafqazda yaşayan müsəlman əhalisinin ümumi sayının dövlət məktəblərində, eləcə də milli məktəblərdə oxuyan müsəlman tələbələrin (həm oğlan, həm də qızların) ümumi sayına nisbətini müəyyən edir və bu nəticəni digər xalqların təhsil səviyyəsi ilə müqayisə edərək maraqlı nəticələr çıxarır. Məqalədən görünür ki, 1893-cü il yanvarın 1-nə olan mə'lumata görə Qafqaz Tədris Dairəsi tabeliyində olan məktəblərdə xeyli müsəlman uşaqları oxuyurdu. O, zamanlar təkcə orta təhsil məktəblərində oxuyan müsəlman uşaqların sayı 438 nəfər (o cümlədən 9 qız) idi. Bunu o dövr üçün böyük rəqəm hesab etmək olar. Bundan başqa, 578 nəfər şəhər məktəblərində, sənət və digər məktəblərdə təhsil alırdı. Müsəlman uşqaların xeyli hissəsi isə xalq məktəbləri adlanan kənd məktəblərində, xüsusi məktəblərdə və başqa təhsil müəssisələrində təhsilə cəlb edilmişdi ki, onların ümumi sayı 2.336 nəfər idi. Bütün tipdən olan dövlət məktəblərində oxuyan müsəlman uşaqların ümumi sayı 3.372 nəfər idi. Bu o demək idi ki, əhalinin hər 861 nəfərindən biri dövlət məktəbində təhsil alırdı. Dövlət məktəblərilə birlikdə, milli məktəblərdə oxuyanların ümumi sayını da nəzərə alsaq, bu rəqəm 27.252-yə çatır və əhalinin hər 106 nəfərinə 1 şagird düşürdü. Doğurudur, bu rəqəmlər o dövr üçün nə qədər əhəmiyyətli olsa da, yenə də görkəmli maarifçini tə'min etmirdi. O yazırdı: «Əlbət ki, belə nisbəti qənaətbəxş hesab etmək olmaz. Həm də ona görə ki, hər halda hər iki cinsdən olan məktəbyaşlı uşaqların böyük çoxluğu – 388.000 nəfəri məktəbdən kənarda qalır». Bütün məktəbyaşlı uşaqları məktəbə cəlb etmək üçün o, hər birində 60 nəfər olmaqla 6.500 məktəb açmağın lazım olduğunu qeyd edirdi. Unudulmaz maarifçi həmin məqaləsində Zaqafqaziya müsəlmanları arasında Avropa təhsilinin daha

müvəffəqiyyətlə yayılmasına maneçilik törədən səbəblərdən başqa yerdə, yə'ni gələcək yazılarında bəhs edəcəyini söyləyir. Redaksiyanın qeydində isə oxuyuruq: «Vaxtsız ölüm mərhuma həmin səbəblərdən bəhs etməyə imkan verməmişdi».

Bununla belə, unudulmaz maarifçi elə həmin məqaləsinin sonundaca Zaqafqaziya müsəlmanlarının xalq maarifini, onların təhsilə olan münasibətini Rusiya imperiyasına daxil olan digər xalqların təhsil səviyyəsi ilə müqayisə edir, Zaqafqaziya müsəlmanlarına üstünlük verirdi. Məqalədə deyilir: «Buradaca əlavə edək ki, onlar Rusiya imperiyası daxilində sakin olan bütün müsəlman xalqlarından irəlidədirlər».

Böyük pedaqoq və maarifçi azərbaycanlılar arasında dünyəvi təhsilin yayılmasının, Azərbaycan xalqının tərəqqi etməsinin tərəfdarı idi. O, xalq arasında dünyəvi təhsilin yayılmasında Zaqafqaziya Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinin mə'zunlarına ümid bağlayırdı. Həqiqətən də şö'bənin ilk mə'zunlarının fəal iştirakı və köməyi ilə Azərbaycan kəndlərində dünyəvi təhsil verən kənd məktəblərinin əsası qoyuldu. A.O.Çernyayevski yazırdı: «Həmin şö'bənin ilk mə'zunları ilə müsəlman kəndlərində düzgün təşkil edilmiş xalq məktəbləri açılmağa başlandı, …kənd əhalisi içərisində xalq maarifi də ancaq bu vaxtdan yayılmağa başladı»[1].

A.O.Çernyayevski xalqın təhsilində, maarifin yayılmasında müəllimə böyük əhəmiyyət verirdi. Xalq müəllimi və onun hazırlığına aid böyük rus pedaqoqu K.D.Uşinskinin mə'lum müddəalarını rəhbər tutan və onları Zaqafqaziyada təbliğ edən A.O.Çernyayevski deyirdi: «İbtidai xalq məktəblərinin canı müəllimdir. Tədris işinin müvəffəqiyyəti ondan asılıdır. O, kənd əhalisinin qaranlıqda qalan kütləsi içərisində maarifin pioneridir». Bu cəhətdən o yenə də Azərbaycan şö'bəsinin mə'zunlarının rolunu ayrıca qeyd edirdi: «Həqiqətən demək lazımdır ki, tatar (Azərbaycan – H.Ə) şö'bəsinin mə'zunlarının çoxu, olduqca çoxu avam xalq kütləsi içərisinə təhsil işığı gətirmiş və gətirir». Həqiqətən də Zaqafqaziya Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinin mə'zunları xalq maarifinin, təhsilin yayılmasında müstəsna rol oynadılar.

[1] «Qafqaz» qəzeti, 1893, № 242.

Təkcə bir faktı qeyd edək ki, Azərbaycan şö'bəsində 1879-cu ildən 1893-cü ilədək, yə'ni A.O.Çernyayevskinin müdir olduğu 14 il ərzində buranı xalq müəllimi hüququ ilə 67 nəfər bitirmişdir ki, onların da 53 nəfəri bilavasitə xalq məktəblərində fəaliyyət göstərirdi. Müəllim kadrları hazırlığı kəndlərdə xalq məktəblərinin təşkili və inkişafında, xalq maarifinin yayılmasında xeyli dönüş yaratdı. Təkcə 1883-cü ilin sentyabr-noyabr aylarında yalnız Gəncə quberniyasında 9 kənd məktəbi açıldı. Bu, o dövr üçün böyük hadisə idi.

Kənd məktəblərinin müəllimləri təkcə tədris işi ilə kifayətlənmirdilər. İctimai şüur, dövrün tələbi onların qarşısında daha mühüm və ciddi məsələlər qoyurdu. Onlar müəllimlik etməklə bərabər bir tərəfdən dərsliklər yazır, digər tərəfdən isə xalq arasında maarifi yayır, xalqın mə'nəvi tərəqqisinə kömək edən qəzet və jurnal nəşr edir, mətbuat səhifələrində xalq maarifinin bu və ya digər sahələrinə aid faydalı fikir söyləyir, bir sözlə tə'lim, tərbiyə və xalq maarifi ilə əlaqədar olan bir neçə sahəni öz fəaliyyətlərində birləşdirirdilər.

A.O.Çernyayevskinin maarifçilik görüşləri əsasən məktəb təhsili məsələləri, ana dili tə'limi ilə bağlı olmuşdur. O, mətbuat səhifələrində məktəb təhsili ilə əlaqədar yazıları daim izləyir, mübahisə və müzakirələrdə fəal iştirak edirdi. Məsələn, Zəngəzur qəzasının kəndlərindən birində açılan məktəbdə müxtəlif millətlərdən olan şagirdlərin öz dillərində təhsil almasını, öz xalqının adət və ən'ənəsi əsasında tərbiyə edilməsini çətin hesab edənlərə ciddi e'tirazını bildirən A.O.Çernyayevski «Yerli xalq məktəbləri məsələsinə dair»[1] adlı məqaləsində müxtəlif millətlərdən olan şagirdlərin bir məktəbdə təhsil almasını xalqlar arasında dostluğun mühüm vasitələrindən hesab etməklə bərabər, ibtidai təhsilin ana dilində aparılması ideyasını müdafiə edirdi. O yazırdı: «Zəmanəmizdə elementar məktəbdə tə'limin hansı dildə aparılması məsələsində heç kəs mübahisəyə girişmir. Tə'limin ana dilindən başlanması və aparılması aksiomadır». Çernyayevski bütün millətlərin ana dilində təhsil hüququnun müdafiəçisi kimi çıxış edir və şagirdlərin milli tərkibi müxtəlif olan xalq məktəblərində təhsilin birinci ilində şagirdlərin ana dilində savada yiyələnməsini hökmən

[1] «Qafqaz» qəzeti, 1882, № 308.

zəruri hesab edirdi. O, həmçinin hər bir müəllimin milli tərkibi müxtəlif olan xalq məktəblərində işləməsi yollarını da izah edir, məktəb tə'liminin tərbiyəedici cəhətinə xüsusi əhəmiyyət verərək deyirdi: «Məktəbin yalnız tə'lim verməsini deyil, həm də tərbiyə etməsini artıq heç kəs inkar etmir; bütün məktəb tə'limi tərbiyələndirici olmalıdır». Doğrudur, o, tərbiyənin əsasında dini-əxlaqi ideyaları görürdü. Bununla belə, hər bir fənnin və hər bir dərsin mümkün imkanlarından istifadə edərək hər addımda, hər vasitə ilə uşaqlarda xeyirxahlıq, insanpərvərlik keyfiyyətlərini tərbiyə etməyi başlıca məqsəd hesab edirdi. Ona görə də o, normal xalq məktəblərinin, təkcə onun rəsmi adı ilə deyil, təhsilin və tərbiyənin məzmunu ilə fərqlənməsini istəyirdi.

Öz maarifçi müasirləri kimi, A.O.Çernyayevski də, insanın və bütün cəmiyyətin maddi rifahını, həyat şəraitini, xoş güzəranını, onun əqli inkişaf və təhsil dərəcəsindən asılı hesab edirdi. O, «Zaqafqaziya ölkəsində xalq məktəbləri haqqında bir neçə söz» adlı məqaləsində yazırdı: «Hər hansı bir vilayətdə əhali kütləsi nə qədər təhsilli olarsa, elmin, xüsusilə də təbiət elmlərinin nəticələrinə nə qədər yaxından bələd olarsa, o həm maddi, həm də zehni cəhətdən bir o qədər zəngin olar»[1]. Xalqın maddi həyat şəraitini yaxşılaşdırmaq, ölkənin sərvətini çoxaltmaq, bununla bərabər həm də dövlətin qüdrətini artırmaq üçün o, əsrlər boyu təbiətin sirlərini öyrənən elmi biliklərin nəticələrini xalq kütlələrinə çatdırmağı zəruri hesab edirdi. Bu mə'nada o, kənd təsərrüfatını ölkənin maddi vəziyyətinin, onun sənayesi, incəsənəti və sənətkarlığının əsası hesab edir, kənd təsərrüfatının səmərəli təşkili üçün isə onunla məşğul olanları təbii elmlərin nəticələri ilə tanış etməyi təklif edirdi. O, bu məqsədə yalnız xalq müəllimləri hazırlamaq və pedaqogikanın bütün tələblərinə cavab verən xalq məktəbləri təşkil etməklə çatmağın mümkün olduğuna inanırdı. A.O.Çernyayevski Şamaxı qəzasında sakin olan rus kəndlərinin nümunəsində əhalinin tə'lim-tərbiyə işinin aşağı səviyyədə olduğunu göstərirdi. Müəllim kadrlarına olan ehtiyacı ayrıca qeyd edir, müəllim hazırlayan xüsusi məktəblərin yaradılmasını dövrün mühüm tələbi hesab edirdi.

[1] «Qafqaz» qəzeti, 1867, № 28, s. 157.

O, Şamaxı qəzasının kilsə məktəblərində tə'lim – tərbiyə işinin sxolastik xarakterini, uşağı mə'nəvi və fiziki cəhətdən şikəst etməsini, bu məktəblərdə hökm sürən fiziki cəzanı, müəllimliklə məşğul olanların pedaqoji tələbləri bilməməsi və riayət etməməsini ciddi tənqid edirdi.

A.O.Çernyayevski özü şagirdlərə kənd təsərrüfatına, əhalinin həyat tərzində, məişətində istifadə edilən peşələrə aid bilik verməyin nümunəsini göstərirdi. O, Gürcüstanın Tionet-Duşet ibtidai məktəbinə müdirlik etdiyi zaman (1869–1876) orada xüsusi peşə şö'bəsi təşkil etmişdi. Bu faydalı işi özünün illik hesabatında ayrıca qeyd edən Qafqaz Təhsil Dairəsinin popeçiteli yazırdı: «Tionet-Duşet ibtidai məktəbinin müdiri Çernyayevskinin ciddi sə'yi nəticəsində peşə sinifləri kifayət qədər lazımi alətlərlə tə'min edilmiş və peşə məşğələləri tamamilə yaxşı vəziyyətdədir».

A.O.Çernyayevski Qori Seminariyasında xalq maarifini, məktəb təhsilini kənd təsərrüfatı, məişətə aid peşə və biliklərlə əlaqələndirirdi. Seminariyada meteoroloji stansiyanın yaradılması, arıçılıq, bağçılıq, bostançılıq işlərinin və cildçilik peşəsinin öyrədilməsi A.O.Çernyayevskinin adı ilə bağlı olmuşdur. Məhz bunun nəticəsidir ki, onun yetirmələri – Azərbaycanda xalq maarifi və dünyəvi təhsilin böyük carçıları – işlədikləri məktəblərdə şagirdlərə kənd təsərrüfatına aid biliklər verməyə ciddi diqqət yetirirdilər. Məsələn, Qori Müəllimlər Seminariyası Azərbaycan şö'bəsinin ilk mə'zunlarından biri, A.O.Çernyayevski tərəfindən Nuxadan Qoriyə aparılmış, gələcəyin məşhur maarifçisi Rəşidbəy Əfəndiyev (1863–1942) 1882-ci ildə Qutqaşendə açdığı kənd məktəbində ilk dəfə olaraq ipəkçilik və bostançılığın əsasını qoymuşdur. Azərbaycanın digər kəndlərində də seminariya mə'zunları təkcə müəllim kimi maarifi, dünyəvi biliyi yaymaqla kifayətlənmir, həm də xalqın ümumi mədəni geriliyinin aradan qaldırılmasına çalışır, əhali arasında kənd təəsrrüfatına aid bilikləri yayırdı. Sənədlərdən birində oxuyuruq: «Qax kəndində… müəllimin şagirdlərlə təşkil etdiyi bostan nəticəsində kəndlilər də tərəvəz yetişdirməyi öyrəndilər və hal-hazırda Zaqatalaya arabalarla kələm və kartof aparılır»[1]. Göyçayda Mahmudbəy Mahmudbəyov,

[1] «Qafqaz» qəzeti, 1876, № 122.

Kürdəmirdə Əsədulla Muradxanov (prof.Mərdan Muradxanovun atası), Lənkəranda Teymurbəy Bayraməlibəyov şagirdlərə kənd təsərrüfatına aid biliklər vermək işində xüsusilə fərqlənirdilər.

A.O.Çernyayevskinin böyüklüyü və üstünlüyü həm də orasında idi ki, o xalq arasında maarifin yayılmasında təkbaşına hərəkət etməmiş, kənd əhalisi arasında xalq maarifini inkişaf etdirənlərin böyük bir dəstəsini hazırlamışdır. Bu dəstənin önündə F.Köçərli, R.Əfəndiyev, M.Mahmudbəyov, S.Vəlibəyov, C.Məmmədquluzadə və onlarca başqaları gedirdi.

A.O.Çernyayevski Azərbaycan maarifinin böyük dostu idi. Onun tərbiyə etdiyi gənc müəllimlər bu böyük maarifçinin şəxsində özlərinin böyük hamisini, ustadını görür, hər zaman, hər yerdə ona müraciət edir, ondan məsləhət və kömək alırdılar. F.Köçərli yazırdı: «Öz işini ürəkdən sevən gənc müəllimləri bə'zən belə şübhələr narahat edirdi: onlara tapşırılmış işi kifayət qədər yaxşı və düzgün aparırlarmı?» Bu şübhələri aradan qaldırmaq üçün onlar əsasən mərhum Çernyayevskiyə müraciət edirdilər. O isə özünün müdrik göstərişləri və faydalı məsləhətləri ilə bu şübhələri aradan qaldırar, xalq müəllimlərinin qarşısında duran çətin vəzifələri asanlaşdırar və onlarda öz işlərinin müqəddəsliyinə inamı möhkəmləndirərdi»[1].

«Azərbaycan məktəbi» jurnalı 1981-ci il, №2, s.32–37.

«Əlifba» dərsliyi məsələsinə dair bə'zi qeydlər

İnstitutumuzun «Gənc müəllim» qəzeti tələbə gənclərin diqqətini elmi-pedaqoji məsələlərlə bərabər maraqlı əhvalatlara, fakt və hadisələrə də cəlb edir, bə'zən yeri gəldikcə «Bilirsinizmi?» rubrikası altında yazılar dərc edir… Belə yazılar maraqla oxunur, tələbələrin pedaqoji bilik dairəsini genişləndirir, dünyagörüşünün formalaşmasına kömək edir.

[1] «Kaspi» qəzeti, 1914, № 282.

Lakin bə'zən, redaksiyadan və maraqlı əhvalat toplayanlardan asılı olmayaraq elmi əsası olmayan mə'lumatlar da qəzet səhifələrində özünə yer tapır.

Elmi əsası olmayan belə mə'lumatlardan biri budur: «İlk ana dili dərsliyimiz olan «Əlifba kitabı» 1868-ci ildə Tbilisidə çap olunmuşdur. Onun müəllifi M.F.Axundov olmuşdur» Tamamilə yanlış olan bu mə'lumat barəsində həqiqəti oxuculara çatdırmağı vacib hesab edirik.

M.F.Axundov fəaliyyəti və elmi-pedaqoji, ədəbi və mədəni irsi ilə çoxları məşğul olmuş, yüzlərlə əsər və məqalə çap edilmişdir. Onun arxivi də başqalarına nisbətən, çox səliqəli və bütöv saxlanmışdır. Özünün zəngin irsinin gələcək nəsillərə çatması qayğısına hamıdan əvvəl özü qalmış, bütün yazılarının üzünü səliqə ilə köçürüb (və ya köçürtdürüb) saxlamışdır.

Bütün ilkin və mö'təbər mənbələrdə M.F.Axundovun əsrlərdən biri Azərbaycanda da işlədilən islam əlifbası- ərəb əlifbasında islahat aparmaq, onu dəyişdirmək, onun qüsurlarını açıb göstərmək, Azərbaycan xalqının tərəqqisi üçün məktəb tədrisi işi üçün bu əlifbanın yaramadığını göstərməsindən bəhs edir.

M.F.Axundov vəfatından bir az əvvəl öz tərcümeyi -halını da qələmə almışdır. Orada deyilir: «1857- ci il tarixi-məsihhiyyədə islam əlifbasının təğyiri babında bir kitabça fars dilində yazmışam. Məzkur əlifbanın təğyiri vacib və mühüm əmrlərdən olmağını xeyli mətin dəlillər vasitəsilə sübuta yetirmişəm». Sonra M.F.Axundov 1863-cü ildə bu məqsədlə İstanbula getməsindən, orada arzusuna çatmadığından, «Tiflisə qayıdandan sonra əlifbamızın qüsuru və təğyiri barəsində təzədən yenə bir kitabça yazıb Tehrana göndərməsindən», «Osmanlı dövlətinin sədri- Ə'zəmi olan Əli paşaya ƏLİFBA məsələsinə dair bir kitabça yazıb Tiflisdən göndərməsindən» bəhs edir (Kursivlər bizimdir –H.Ə.). M.F.Axundov əlyazmalarının layihələrinin hər birini bir kitabça adlandırmışdır. Bunlar çap olunmuş kitab deyil.

M.F.Axundovun arxivində saxlanılan bu «kitabçalarda» çoxlu sənədlərdə, məktublarında o, ərəb əlifbasının nöqsanlarından, ərəb olmayan xalqlar üçün həmin əlifbanın əlverişli olmadığından, yeni əlifba üçün hazırladığı müxtəlif layihələrdən, geniş xalq

kütlələrinin tezliklə və asanlıqla savadlanması üçün yeni əlifbanın tətbiq edilməsi zəruriliyindən və sairədən bəhs edir.

Bunlar yeni məsələlər deyil, oxuculara və tədqiqatçılara çoxdan mə'lumdur. Azərbaycan ədəbiyyatı tarixinin ən mö'təbər və ilkin tədqiqatçılarından olan F.Köçərli, Axundovşünas alimlərdən F.Qasımzadə, H.Məmmədzadə, M.F.Axundovun pedaqoji fikirlərini uzun müddət tədqiq edən professor Ə.Seyidov və Axundovun irsi ilə dərindən məşğul olan digər alimlər M.F.Axundovun fəaliyyətində «Əlifba» dərsliyi yazmasından və nəşr etdirməsindən deyil, məhz yeni əlifba uğrunda gərgin mübarizəsindən bəhs etmiş və onu yüksək qiymətləndirmişdir.

Lakin bə'zi tədqiqatçılar, ilk növbədə institutumuzun dosenti, pedaqoji elmlər namizədə Ə.Yəqubi M.F.Axundovun yeni əlifba yaratmaq sahəsindəki fəaliyyətini – «Ərəbcə, farsca və türkcədən ibarən olan islam dillərinin yazısı üçün yeni əlifba» adlı əlyazmasını «Əlifba» dərsliyi problemi ilə qarışdırmış və bir neçə məqalə ilə mət-buatda çıxış etmişdir. Onun məqalələrindən istifadə edən maraqlı əhvalat toplayıcıları isə yuxarıda göstərilən yanlış mə'lumatı müxtəlif qəzet səhifələrində, o cümlədən «Azərbaycan gəncləri» qəzetində (1977-ci il 1 sentyabr), 1969-cu ilin təqvimində (12 iyul) o cümlədən institutumuzun «Gənc müəllim» qəzetində çap etdirmişlər.

Bu mə'lumatların heç bir əsası yoxdur. Mirzə Fətəli Axundov ilk ana dili dərsliyimiz olan «Əlifba» dərsliyinin müəllifi deyil və «Əlifba» adlı dərslik yazıb çap etdirməmişdir.

Dosent Ə.Yəqubinin «Əlifba» dərsliyi adlandırdığı «Yeni əlifba» layihəsinin əsası – Azərbaycan SSR EA Respublika əlyazmaları fondunun arxivində saxlanılır (bax: həmin arxiv 2, Q–8 108). Fars dilində olub, cilidlənmiş dəftərdə katib tərəfindən üzü köçürülmüş və əlyazması şəklində olan bu layihə Azərbaycan dilinə tərcümə edilərək 1962-ci ildə M.F.Axundovun əsərlərinin 3-cü cildinə daxil edilmişdir.

«Gənc müəllim» qəzeti
4 iyun 1981-ci il.

Məmmədəli Səfiyev ilk rus dili müəllimidir

Filologiya elmləri namizədi dosent Ə.Bağırovun «Azərbaycan müəllimi» qəzetində (23 may 1980) «Axtarışlar, tapıntılar» rubrikası ilə dərc olunmuş «Məmmədəli Səfiyev kimdir?» adlı məqaləsi ədəbi və pedaqoji ictimaiyyətin marağına səbəb olmuş, tədqiqatçıların diqqətini cəlb etmişdir.

Lakin məqalə müəllifinin özünün e'tiraf etdiyi kimi M.Səfiyevin şəxsiyyəti haqqında mə'lumatı az olduğundan onun həyat və ya yaradıcılığını tam əks etdirə bilməmiş, əsərlərinə və bə'zi sənədlərə əsasən onun yazıçılıq fəaliyyətini nisbətən geniş təhlil etmişdir. Məmmədəli Səfiyev haqqında daha nələri demək olar? Arxiv sənədlərində bu suala bə'zi cavablar tapmaq mümkündür. Biz XIX əsrdə Azərbaycanda məktəb təhsil tarixini tədqiq edərkən ölkəmizin müxtəlif şəhərlərindəki dövlət arxivlərində saxlanılan sənədlərdə M.Səfiyevin adına da rast gəlmişik. Həmin sənədlərdə M.Səfiyevin pedaqoji fəaliyyəti haqqında xeyli maraqlı mə'lumat vardır.

M.Səfiyevin fəaliyyəti ilk növbədə Lənkəran müsəlman məktəbinin təşkili ilə bağlıdır.

Mə'lumat üçün qeyd edək ki, XIX əsr Azərbaycan məktəb tarixinə «Müsəlman məktəbləri» adı ilə daxil olan təhsil ocaqları özlərinin spesifik xüsusiyyətlərinə görə ayrıca yer tutur. Bu növ məktəblər həm xəzinə hesabına dövlət tərəfindən açılan məktəblərdən, həm də ən'ənəvi məktəb və mədrəsələrdən fərqlənirdilər.

«Müsəlman məktəbi»nin təşkilinə dair ilk təşəbbüs görkəmli yazıçı və maarifçimiz A.Bakıxanova aiddir. Mə'lum olduğu kimi o, 1832-ci ildə Bakı şəhərində azərbaycanlı uşaqları üçün dünyəvi təhsil məktəbi açmağın müfəssəl bir layihəsini tərtib edərək Qafqazın baş hakiminə təqdim etmişdi. Mayor Abbasqulu ağa Bakıxanovun 1832-ci il fevralın 20-də tərtib etdiyi müsəlman məktəbinin tə'sis edilməsi layihəsi o zamanlar e'tinasız qarşılandı. Onun «layihəsi» arxivə atıldı. Lakin onun ideyaları sonralar eyni adlı məktəblərin meydana gəlməsinə tə'sir göstərdi.

Keçən əsrin ortalarında Qafqazda hökmranlıq edən çar mə'murları özləri belə məktəb açmağın zəruriyyətini dərk etdilər. Bu işdə Qafqaz canişini knyaz M.S.Vorontsovun xeyli rolu oldu. O,

müsəlmanların məişətinə, maarifinə və məktəb təhsilinə rus tə'siri daxil etmək məqsədilə Zaqafqaziyanın bir sıra iri şəhərlərində «Müsəlman məktəbi» adlanan tədris ocaqlarının təşkilinə təcrübi gömək etdi. Bu məktəblərin təşkilində məqsəd bir tərəfdən rus dilini də bilən ruhanilər hazırlamaq və beləliklə, gənclərin ruhani təhsil alması üçün Şərq ölkələrinə getməsinin qarşısını almaqdan, digər tərəfdən isə mütləqiyyətə sadiq aşağı dərəcəli dövlət qulluqçuları, o cümlədən qəza məktəbləri üçün Azərbaycan dili müəllimləri hazırlamaqdan ibarət idi. Özünün xüsusi nizamnaməsi olan ilk müsəlman məktəbi 1847-ci ildə Tiflisdə açıldı. Məktəbin tədris planına Azərbaycan, fars, ərəb və rus dilləri, coğrafiya, tarix, hesab, hüsnxət daxil idi. Sonuncular rus dilində tədris olunurdu.

Qısa müddət ərzində belə məktəblər Azərbaycanda da təşkil edildi. Məsələn, 1849-cu il aprelin 10-da Gəncədə, aprelin 23-də Şuşada, mayın 2-də Şamaxıda,mayın 18-də Bakıda,1850-ci ildə isə Nuxada, Lənkəranda və Salyanda da belə məktəblər meydana gəldi. Qeyd etmək lazımdır ki, yerli əhalinin qabaqcıl dəstəsi bu məktəblərin təşkilini rəğbətlə qarşılayır, məktəbin nə'finə ianə toplamaqda, bina kirayə etməkdə fəallıq göstərirdi.

Arxiv sənədlərində Şamaxı müsəlman məktəbinin təşkilində məşhur yazıçı, polkovnik İsmayıl bəy Qutqaşınlı, kapitan Şirəli bəy və b. yaxından iştirak etmələrinə aid maraqlı yazılar saxlanılmaqdadır.

Müsəlman məktəbinin təşkili işinə Lənkəran və Salyan camaatı böyük sə'y göstərmişdir. Bu işdə Mir Əlibəy Talışxanovla Mirzə Məmmədəli Səfiyevin xüsusi xidməti olmuşdur. Onların hər ikisi məktəb üçün ləvazimat əldə etmişdir. Lənkəranda və Salyanda da müsəlman kursu adlanan Azərbaycan, fars və ərəb dillərini yerli ziyalılar Lənkəranda Molla Ələkbər Zahidov, Salyanda isə Mirzə Həşim Haqverdiyev pulsuz tədris etməyi öhdələrinə götürmüşlər. Bu işdə Məmmədəli Səfiyev daha çox fərqlənmişdi. O rus dilini və rus dilində tədris edilən digər fənləri pulsuz tədris etməyi öhdəsinə götürmüş və bu işdə xeyli müvəffəqiyyət əldə etmiş, istər yerli əhalinin, istərsə də inzibati idarələrin hörmət və rəğbətini qazanmışdır. Məhz bunun nəticəsi idi ki, Lənkəran müsəlman məktəbi şakirdlərin çoxluğuna görə yalnız Şamaxı məktəbindən geri qalır, Tiflis, Gəncə, Nuxa, Bakı, Salyan, Dərbənd, Teymurxan Şura müsəlman

məktəblərindən irəlidə gedirdi. Məktəb təzə təşkil edilən zaman(15 yanvar 1850) bura 32 şagird cəlb edilmişdirsə, sonralar şagirdlərin sayı 72 nəfərə çatmışdır.Bu rəqəm o dövr üçün böyük hadisə idi.

Təkcə bir faktı qeyd edək ki,1850-ci illərdə bütün Lənkəran qəzasında əsrlərdən bəri davam edən ən'ənəvi məktəblərin cəmi sayı 6 idi ki, burada oxuyanların ümumi sayı 165 nəfər idi. Orta hesabla hər məktəbə 27 şagird düşürdü. Yenicə açılan Lənkəran müsəlman məktəbində təhsilə cəlb edilən şagirdlərin sayı həmin məktəblərə nisbətən 3 dəfə çox idi.

Rus dilini və digər fənləri məccani tədris etdiyinə və məktəbin müvəffəqiyyətinə sə'y göstərdiyinə görə M.Səfiyevə (həmçinin M.Ə.Talışxanova)canişinliyin təşəkkürü e'lan edilmiş, onlar qızıl saatla mükafatlandırılmışlar.

M.Səfiyev mövcud müsəlman məktəblərinin «rus kursu» (buraya rus dili, hesab, tarix, coğrafiya, hüsnxət və s. də daxil idi.)müəllimləri içərisində azərbaycanlılardan olan yeganə rus dili müəllimi idi ki, o vaxtlar müəllim hazırlayan xüsusi məktəblərin olmadığını, eləcə də rus dilini bilən və tədris etməyi bacaran yerli ziyalıların azlığını da nəzərə alsaq M.Səfiyev dövrünün qabaqcıl ziyalısı, rus dilini və onun tədrisini yaxşı bilən bir müəllim kimi diqqəti cəlb edir.

Məmmədəli Səfiyevin adı başqa tədqiqat əsərlərində də çəkilir. Məsələn, görkəmli ədəbiyyatşünas İ.Andronikov özünün 1958-ci ildə Tbilisidə rus dilində nəşr etdirdiyi «Lermantov 1837-ci ildə Gürcüstanda»adlı əsərində M.Səfiyevin adını çəkir və onun haqqında bəhs edir.

Tarix elmləri namizədi, XIX əsrdə Azərbaycanda məktəb tarixinə dair bir sıra irihəcmli məqalələrin müəllifi olan N.Tahirzadə 1962-ci ildə «Azərbaycan tarixi muzeyinin əsərləri»ndə (V cild) dərc etdirdiyi bir məqaləsində M.Səfiyevin pedaqoji fəaliyyətindən danışaraq, onun xidmətlərini qiymətləndirir. Doğrudur, N.Tahirzadə M.Səfiyevin adına ilk dəfə 1855-ci ilə aid sənədlərdə rast gəldiyini söyləyir. Əslində əlimizdə olan arxiv sənədlərində M.Səfiyevin adını ilk dəfə 1849-cu ilə aid sənədlərdə oxuyuruq.

Yeri gəlmişkən qeyd edək ki, çar mə'murları o vaxtlar Azərbaycanın hər diyarı ilə maraqlanır, xalqın iqtisadi,mədəni-məişət həyatını, ədəbiyyatını, adət və ən'ənələrini öyrənirdilər. Akademik

Dornun Tiflisdən tez-tez Lənkərana gəlməsi, burada yerli ziyalılarla(o cümlədən Qasirlə)tanış olması ,onlardan talış dili və nəğmələri haqda mə'lumat topladığı mə'lumdur.

Zaqafqaziya müsəlman məktəblərinin rəisi N.V.Xanıkovun tapşırığı ilə 1855-ci ildə Lənkəran müsəlman məktəbinin Şərq dilləri müəllimi molla Ələkbər Zahidov tərəfindən yerli ləhcəyə aid xeyli söz, Şərq xalqlarına məxsus bir sıra nağıl və hekayələr toplandığını, fars dilindən tərcümələr etdiyini təsdiq edən sənədlər əlimizdədir. Daha sonra yerli ziyalılar tərəfindən hazırlanmış talış dilinin qrammatikasına aid bir kitabçanın əlyazması hazırda Jdanov adına Leninqrad Dövlət Universitetinin əsaslı kitabxanasında saxlanılır.

Bütün bunlar onu göstərir ki, o zamanlar Zaqafqaziyanı, o cümlədən Azərbaycanı hərtərəfli öyrənmək, onu mətbuat səhifələrinə çıxarmaq həm də hökumət idarələri üçün lazım idi.Rus mətbuatında Şərq həyatından alınmış hekayələrin çap edilməsi də bununla bağlıdır. Yerli materialları qələmə almaq işində isə müəllimlər daha çox fərqlənirlər.M.Səfiyev də bu mə'nada eşitdiyi əhvalat və nağılları, hadisələri yazıya göçürmuşdür. Onun qələmə aldığı, həm də 1853–1855-ci illərdə «Zakavkazskiy vestnik» qazetində dərc etdirdiyi bir sıra hekayələrinin də foto surəti əlimizdədir.

Mirzə Məmmədəli Səfiyev imzası ilə «Lənkərandan məktublar» rubrikası adı altında ilk hekayə qazetin 1853-cü il tarixli 10-cu nömrəsində dərc olunmuşdur. Bu hekayə «Xurafat» adlanır. Sonralar bir birinin ardınca onun «Müdrik şahzadə qız», «Qazının alim oğru ilə görüşməsi» (Ə.Bağırovun məqaləsində hekayənin adında «…alim oğru» əvəzinə «alim oğlu» getmişdir). «Lənkəranda müsəlman toyu», «Şah Hüseyn», «Lənkəranda müsəlman şiələrin bayramı», «Felyeton» rubrikası altında «Sucael-din baba», «Səxavətli məchul şəxs» (vəzir nağılı) «Zəvvar qadının tövbəsi» (Şərq nağılı). «Baba-Səməd məclisi» və b. hekayələri çap edilmişdir. Bu əsərlər bədii nəsrin ilk nümunələri kimi qiymətli olmaqla bərabər, tərbiyəvi cəhətdən də maraqlıdır. Öz hekayələrində A.S.Puşkini və C.Molyeri xatırlaması M.Səfiyevin rus və Qərb ədəbiyyatı ilə də yaxından tanış olduğunu göstərir.

Yeri gəlmişkən Ə.Bağırovun məqaləsində irəli sürülən bir müddəa ilə əlaqədar fikrimizi demək istərdik. M.Səfiyevin

hekayələrində, bə'zən Azərbaycan, fars və ərəb sözlərinə, cümlələrə də rast gəlirik.

Bu sözlər (cümlələr) məsələn «Allah oğrunun boynun sındırsın» – rus hərfləri ilə verilmişdir. Dosent Ə.Bağırovun fikrincə, müəllif bu sözləri (cümlələri) hekayədə obrazın dililə olduğu kimi verməkdə bir xeyirxah məqsəd də izləyirdi: «rus mətbuatında rus hərfləri ilə yığılan Azərbaycan söz və cümlələri ilə ağıllı müasirlərinə ərəb əlifbasını daha asan əlifba ilə əvəz etmək ideyası aşılayırdı». Bu fikir ilə razılaşmaq olmaz. Çünki o vaxtın mətbuatına nəzər salsaq Azərbaycan dilində sözlər, cümlələr, adlar, zərb-məsəllər, atalar sözləri bir çox halda olduğu kimi, ya rus, ya da ərəb hərfləri ilə yığılırdı. Xarici dillərdən olan sözün həmin xalqın dili və əlifbası ilə verilməsi o dövr mətbuatı üçün xarakterik idi. Bundan başqa, ərəb əlifbasını daha asan əlifba ilə əvəz etmək ideyası üçün o zamanlar hələ zəmin yox idi.

XIX əsrin bir sıra yazıçıları kimi Mirzə Məmmədəli Səfiyev də yazıçılığa müəllimlikdən başlamış, pedaqoji prosesi ədəbi yaradıcılıqla uzlaşdırmış, hər iki fəaliyyət dairəsi ilə xalqının mə'nəvi inkşafına, gənclərin tərbiyəsinin yaxşılaşmasına çalışmışdır. Belə şəxslərin həyat və yaradıcılığının kompleks şəkildə öyrənilməsi və gənc nəslə çatdırılması qayğısına qalmaq lazımdır.

«Azərbaycan müəllimi»
qəzeti 10 iyun 1981-ci il.

Görkəmli pedaqoq, maarifçi və metodist

(A.O.Çernyayevskinin anadan olmasının 140 illiyi münasibətilə)

Azərbaycanda xalq maarifinin məşhur əsgəri, ustad müəllim, görkəmli pedaqoq, yorulmaz beynəlmiləlçi, rus və Azərbaycan xalqları arasında dostluğun alovlu carçısı A.O.Çernyayevskinin anadan olmasının 140 illiyinin bayram edilməsinə aid Azərbaycan KP MK-nın qərarı respublikamızda xalq maarifinə, xalq

müəllimlərinə, pedaqoji fikrimizin unudulmaz nümayəndələrinə böyük ehtiramıdır.

Azərbaycan KP MK-nın qərarında deyildiyi kimi A.O.Çernyayevski Azərbaycanda və ümumən Zaqafqaziyada pedaqoji fikrin inkişafı tarixində görkəmli yer tutur.

A.O.Çernyayevskinin pedaqoji fəaliyyəti keçən əsrin ikinci yarısına təsadüf edir. 1840-cı ildə Şamaxıda anadan olan A.O.Çernyayevski ilk təhsilini də Şamaxı qəza məktəbində almış və oranı müvəffəqiyyətlə bitirdikdən sonra dövlət qulluğuna – Mərəzə kəndində stansiya gözətçisi vəzifəsinə tə'yin edilmişdir. Lakin A.O.Çernyayevskini şöhrətləndirən onun işlədiyi stansiya gözətçiliyi vəzifəsi deyil, Mərəzə kənd məktəbi olmuşdur. O zamanlar elə bir dövr idi ki, Rusiyada başlanan ictimai-pedaqoji hərəkat, təhkimçilik hüququnun ləğvi ilə əlaqədar olaraq xalq maarifi və məktəb təhsili sahəsində aparılan islahatlar Azərbaycana da nüfuz edir və burada da, xüsusilə kəndlərdə dünyəvi təhsil verən xalq məktəbləri təşəkkül tapırdı. Belə məktəblərdən biri də 1866-cı ildə Mərəzə kəndində təşkil edilir. Həmin məktəbdə müəllimlik vəzifəsini Çernyayevski öhdəsinə götürür.

Heç bir pedaqoji təhsili və təcrübəsi olmayan A.O.Çernyayevski məktəbdə uşaqların tə'lim-tərbiyə işini elə yüksək səviyyədə qura bilmişdi ki, həmin məktəbin müvəffəqiyyəti elə ilk günlərdən bütün Zaqafqaziyaya yayılmış, bu haqda «Qafqaz» qəzetində yazılar dərc edilmiş, Qafqaz Tə'lim Dairəsinin müdiri şəxsən məktəbə gələrək onun işi ilə tanış olmuş və Qafqaz canişininə özünün 1867-ci ilə aid hesabatında bu barədə ayrıca mə'lumat verməyi lazım bilmişdir.

Mərəzə kənd məktəbi hansı cəhətləri ilə fərqlənirdi? Hər şeydən əvvəl, A.O.Çernyayevskinin pedaqoji işə həvəsi, təmənnasız və ürəkdən çalışması ilə, Mərəzə məktəbinin şöhrətlənməsi orada təhsilin pulsuz və kütləvi olması ilə, onun müəllimi Çernyayevskinin xalq kütləsinə yaxınlığı ilə bağlı idi. Dövlət məktəblərindən fərqli olaraq burada kəndlilərin uşaqları oxuyurdu Məktəbdə fiziki cəza yox idi. Dünyəvi fənlər tədris edilirdi. Tə'limdə əsas yeri mexaniki əzbərləmə deyil, şüurlu mənimsəmə tuturdu.

A.O.Çernyayevski valideynlərin köməyilə qısa müddət ərzində məktəb üçün xüsusi bina tikdirmiş, məktəbdə kitabxana

təşkil etmiş, müvafiq kitablar əldə etmişdi. Şagirdlərin sayı da getgedə artırdı. 1867-ci ildə burada artıq 81 şagird var idi. Çox maraqlıdır ki, o vaxt mövcud olan digər kənd məktəblərində oğlanlarla qızlar ayrı-ayrılıqda təhsil aldıqları halda, Mərəzə məktəbində onlar birlikdə oxuyurdular.

A.O.Çernyayevski xalq maarifinə həqiqətən təmənnasız xidmət üçün doğulmuşdur. Mərəzə məktəbi ilə bağlı aşağıdakı epizod bu cəhətdən çox xarakterikdir. Qafaz Tə'lim Dairəsinin müdiri Y.Neverov Mərəzə məktəbinin təşkilində və burada tədrisin yüksək səviyyədə qurulmasında A.O.Çernyayevskinin xidmətlərini qeyd etməyi və onu mükafatlandırmağı Qafqaz canişinindən xahiş edəcəyini söylədikdə, o, buna ciddi e'tiraz edir və xahiş edir ki, müdir bu fikirdən daşınsın. Çünki əgər onun dərs dediyi uşaqların valideynləri eşitsələr ki, o, öz zəhməti üçün hökumətdən mükafat alır, o vaxt valideynlər yanında öz nüfuzunu və e'tibarını itirər. İlk addımının uğurlu olması A.O.Çernyayevskini daha da ruhlandırır və o, həyatını büsbütün pedaqoji peşəyə həsr etməyi qərara alır. Onun pedaqoji fəaliyyətinin Şamaxı qəza məktəbi ilə bağlı olan dövrü başlanır. O, 1867-ci il dekabrın 4-də Şamaxı qəza məktəbinin hazırlıq sinfinə müəllim tə'yin olunur. 1868-ci ildə 2 aylığa Tiflisə gələn A.O.Çernyayevski burada pedaqoji təcrübə keçir və həmin il noyabrın 24-də Tiflis gimnaziyasına imtahan verərək ibtidai məktəb müəllimi adı alır.

Şamaxıda iki il müəllimlik edən A.O.Çernyayevski 1869-cu il yanvarın 5-də Gürcüstanın Tionet-Duşet ikisinifli ibtidai məktəbinə müəllim və müdir vəzifəsinə tə'yin olunur və təxminən 7 il orada çalışır. Qafqaz Tə'lim Dairəsinin illik hesabatlarında Çernyayevskinin buradakı səmərəli pedaqoji fəaliyyətinə aid maraqlı yazılar vardır.

A.O.Çernyayevski 1876-cı ildə bir müddət Bakıda Nikolayevski məktəbinin müdiri, Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblər direktorunun köməkçisi, az sonra isə Kuban vilayətində yenə də həmin vəzifədə çalışır. Harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq A.O.Çernyayevskinin ümdə məqsədi xalq kütlələri arasında maarifi yaymaq, kasıb uşaqlarını məktəbə cəlb etmək, həqiqi xalq məktəblərinin şəbəkəsini genişləndirmək, tə'limdə yeni, mütərəqqi üsullar tətbiq etmək idi.

Onun pedaqoji fəaliyyətinin son dövrü Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsi ilə bağlı olmuşdur.

Məhz A.O.Çernyayevskinin bu dövründən daha çox yazılmış, seminariya və onun Azərbaycan şö'bəsi, şö'bənin məşhurlaşmış mə'zunları ilə əlaqədar onun xidmətləri dönə-dönə və haqlı olaraq qeyd edilmişdir. Həqiqətən də, həmin şö'bənin təşkilində, onun tərəqqisində, Azərbaycanda əsl xalq müəllimlərinin hazırlanmasında, xalq maarifi və məktəb təhsili ilə bağlı olan bir çox pedaqoji və metodiki məsələlərin elmi əsaslarla və düzgün həllində A.O.Çernyayevsinin xidmətləri unudulmazdır.

Mə'lum olduğu kimi, keçən əsrin 60-cı illərinin ictimai-pedaqoji hərəkatı nəticəsində çar hökuməti 1873-cü il 22 noyabr tarixli qanunu ilə hər bir quberniya və ya vilayətdə xəzinə hesabına üçə qədər normal kənd məktəbi açmağa icazə vermişdir. Xalq maarifi və məktəb təhsili sahəsində çarizmin mürtəce siyasətinə baxmayaraq, şəhərlərdə olduğu kimi, kəndlərdə də əhali rus dilinə, rus dilində dünyəvi təhsilə böyük ehtiyac hiss edirdi. Ayrı-ayrı kənd qəzalarının əhalisi hökumət mə'murlarına müraciət edərək xalq məktəbləri açılmasını xahiş edirdilər. Lakin bu cəhdlər bir çox hallarda, həm də müəllim kadrlarının yoxluğu üzündən nəticəsiz qalırdı. O vaxtlar təkcə Azərbaycanda deyil, ümumiyyətlə Zaqafqaziyada müəllim kadrları hazırlayan məktəb yox idi.

Keçən əsrin 70-ci illərindən başlayaraq Zaqafqaziyada da kənd məktəbləri üçün müəllim kadrları hazırlayan xüsusi məktəblər– müəllim seminariyaları meydana gəldi, Zaqafqaziya və Qafqazda ilk müəllimlər seminariyası 1871-ci ildə Kubanda, 1876-cı ildə isə Qori şəhərində açıldı. Sonuncu bütün Zaqafqaziya üzrə təşkil edildiyindən Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) adlanırdı. Seminariya əvvələr üç şö'bədən: rus, gürcü, və erməni şö'bəsindən ibarət idi və buraya provoslav dininə mənsub olanların uşaqları qəbul olunurdu. Lakin sonralar hökumət 1873-cü il qanunu və ölkədə başlanan ictimai-siyasi hərəkatın güclü tə'siri nəticəsində ümumi qaydalardan kənara çıxaraq bir sıra seminariyalarda, o cümlədən Qori seminariyasında müsəlman uşaqlarının da təhsil almasına icazə verməyə məcbur oldu. Zaqafqaziya və Qafqazın müsəlman üçün müəllim kadrları hazırlığı zəruriyyəti 1879-cu ildə ZMS nəzdində

xüsusi şö'bə–Azərbaycan şö'bəsinin təşkili ilə nəticələndi. Bu şö'bənin təşkili Azərbaycanın məktəb tarixində mühüm hadisə idi.

Təşkil edildiyi gündən – 1879-cu il sentyabrın 23-dən həmin şö'bənin müdiri vəzifəsinə A.O.Çernyayevski tə'yin edildi. Böyük pedaqoq burada 15 ildən artıq bir müddətdə çox məhsuldar işləmiş və özündən sonra tükənməz bir irs qoymuşdur. O, hər şeydən əvvəl, şö'bə ilk təşkil olunan zaman Azərbaycanın kənd və şəhərlərini gəzərək seminariya üçün tələbə toplamışdır. İlk dəfə seminariyaya qəbul olunan 32 nəfər tələbədən 24 nəfəri məhz Çernyayevski tərəfindən yerlərdə seçilərək də'vət olunanlar idilər. Onların arasında gələcəyin məşhur pedaqoqları olan S.Vəlibəyrv, F.Köçərli, R.Əfəndiyev, Ə.Süleymanov, H.Nərimanbəyov, S.Zöhrabbəyov, Z.Aslanov və b. var idi.

Azərbaycan şö'bəsinin təşkilinə, onun tərəqqisinə A.O.Çernyayevski həqiqətən çox zəhmət çəkmişdir. F.Köçərlinin tə'birincə desək, İ.H.Pestalotsi kimi A.O.Çernyayevski də daim öz tələbələri arasında olar, onlara faydalı məsləhətlər verərdi. Onun şəxsi hərəkəti, davranışı yetirmələrinə gözəl nümunə idi. Azərbaycan şö'bəsində diqqəti cəlb edən yaxşı hər nə var idisə, bütün bunların ilkin başlanğıcı A.O.Çernyayevski ilə bağlı idi.

A.O.Çernyayevskinin bilavasitə tə'siri altında bu tədris müəssisəsində Azərbaycanın müəllim kadrlarının ilk və böyük bir dəstəsi yetişmişdir.

Həmçinin F.Köçərli, M.Mahmudbəyov, T.Bayraməlibəyov, S.Vəlibəyov, S.S.Axundov, C.Məmmədquluzadə, N.Nərimanov və bir çox görkəmli dövlət və ictimai xadimlər, yazıçılar onun şagirdləri olmuşlar.

A.O.Çernyayevskinin fəaliyyətində diqqəti cəlb edən bir sıra digər başlıca cəhətlər də vardır ki, bunlar o dövr məktəb təhsilinin canını, qanını təşkil edirdi.

A.O.Çernyayevski böyük pedaqoq K.D.Uşinskinin pedaqoji ideyalarının Azərbaycanda ilk ardıcıllarından və təbliğatçılarından biri olmuşdur. Sələfinin xəlqilik ideyalarına, «Vətən dili» dərsliyinin tərtibi prinsiplərinə istinad edərək A.O.Çrenyayevski azərbaycanlılar üçün ilk dəfə olaraq eyni adlı dərslik nəşr etmişdir.

«Vətən dili» adlı dərslik tərtib etmək və nəşr etdirmək A.O.Çernyayevskiyə nəsib olmuşdu. Onun 1882-ci ildə nəşr

etdirdiyi «Vətən dili» dərsliyi Şərqdə ilk dəfə səs metodu əsasında tərtib olunmuşdur. «Vətən dili» Azərbaycan məktəblərində uzun müddət əsas dərs vəsaiti olmuşdur. Sonralar dəfələrlə nəşr edilən bu dərslik istər höccələmə, istərsə də hərf-heca üsuluna ilk qüvvətli zərbə idi. Bu dərsliyin meydana gəlməsi Azərbaycan məktəb tarixində mühüm hadisə idi. Özünün quruluşu, tərtibi prinsipləri, dilinin sadəliyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu e'tibarilə «Vətən dili» dərsliyi K.D.Uşinskinin eyni adlı dərsliyinə uyğun olmaqla bərabər, həm də orijinal idi. Azərbaycan ziyalılarının inqilabdan əvvəlki nəslinin böyük bir dəstəsi bu dərslik üzrə savada yiyələnmişlər.

«Vətən dili» (birinci hissə) kitabının müvəffəqiyyəti onun ikinci hissəsinin tərtibinə də əlverişli zəmin hazırladı. A.O.Çernyayevski öz yetirməsi, artıq seminariyanın Azərbacan şö'bəsi yanında ibtidai məktəb müəllimi olan S.A.Vəlibəyovla bərabər «Vətən dili» kitabının ikinci hissəsini də tərtib etdi. Əsər 1888-ci ildə nəşr olundu. Bu dərsliklər sahəsində «azərbaycanlılarda da pedaqoji iş elmi zəmində aparılmağa başlamışdır».

A.O.Çernyayevski həm də rus dilinin tədrisi sahəsində səmərəli fəaliyyət göstərmişdir. A.O.Çernyayevski ilk «Rus dili» dərsliyinin tərtibçisidir. Eyni zamanda tərbiyə və tə'lim metodikası məsələlərinə dair çoxlu məqalənin müəllifidir.

A.O.Çernyayevskinin qələmindən bir sıra dəyərli məqalələr çıxmışdır. Onun «Qafqaz» qəzetində dərc etdirdiyi «Zaqafqaziya ölkəsində xalq məktəblərinə dair bir neçə söz», «Nümunəvi birsinifli kənd məktəbi Moskva politexnik muzeyində», «Yerli xalq məktəbləri məsələsinə dair», Şeyxül-islam və müsəlman məktəbləri» və s. adlı silsilə məqalələrində məktəb təhsili ilə əlaqədar bir sıra problem məsələlər qaldırılır. Onun pedaqoji ideyalarının bir çoxu zamanın sınağından çıxmışdır və milli məktəb üçün öz aktuallığını indi də saxlayır.

A.O.Çernyayevskinin zəngin pedaqoji irsi XIX əsr Azərbaycan məktəb və pedaqoji fikir tarixinin qiymətli incilərindən olmaqla Azərbaycan-rus pedaqoji əlaqələr tarixinin qızıl səhifələrini təşkil edir.

Azərbaycanın görkəmli maarifçisi F.Köçərli 1914-cü ildə öz müəlliminin vəfatının 20-ci ildönümü münasibətilə «Kaspi»

qəzetində dərc etdirdiyi məqaləsində ürək çırpıntısı ilə yazırdı: «A.O.Çernyayevskinin sabiq tələbələrinin və Azərbaycan şö'bəsinin bütün digər yetirmələrinin, hal-hazırkı müəllimlərin vəzifəsi onun xatirəsini əbədiləşdirmək qayğısına qalmaqdır» F.Köçərli daha sonra göstərirdi ki, bizim fikrimizcə, bu böyük ustadın xatirəsini əbədiləşdirmək üçün ən yaxşı heykəl Zaqafqaziyanın müsəlman əyalətlərindəki ibtidai məktəblərdən birinə onun adının verilməsi olardı. O, məqaləsini bu sözlərlə bitirir: «Biz bunun üçün onun doğulduğu, boya-başa çatdığı, tə'lim və tərbiyə aldığı və ilk pedaqoji fəaliyyətə başladığı Şamaxı şəhərini ən əlverişli yer hesab edirik». Böyük pedaqoq yanılmamışdı. Onun və müasirlərinin arzusu bizim zəmanəmizdə həyata keçirilmişdir. A.O.Çernyayevskinin təşkil etdiyi və ilk pedaqoji fəaaliyyətə başladığı Mərəzə kənd məktəbinə onun adı verilmişdir. Azərbaycan KP MK-nın qərarı ilə görkəmli pedaqoq və maarifçi A.O.Çernyayevskinin anadan olmasının 140 illiyi respublikamızda geniş qeyd edilmiş, Bakıda və Şamaxıda onun həyat və fəaliyyətinə həsr olunan elmi sessiyalar keçirilmişdir.

Öz şüurlu həyatını xalq maarifinə, təhsilə həsr edənləri qədirbilən xalqımız heç zaman unutmur.

«Tarix, ictimaiyyət və coğrafiya tədrisi» məcmuəsi 1982-ci il, №1, s.43–47.

Sovet Azərbaycanının ilk pedaqoqu

(Azərbaycan SSR-in əməkdar elm xadimi, professor Ə. Y. Seyidovun anadan olmasının 90 illiyi münasibəti ilə)

Azərbaycan pedaqoqlarının ağsaqqalı olan professor Ə.Y. Seyidovun adı Azərbaycanda sovet məktəbi və pedaqoji fikir tarixinə ilk sovet pedaqoq – alimi, Azərbaycan sovet müəllimlərinin müəllimi, ölkəmizdə və Zaqafqaziyada pedaqoji fikir tədqiqatı sahəsinin pioneri kimi daxil olmuşdur.

Azərbaycan sovet pedaqoqlarının ilk və şərəfli nəslinə mənsub olan Əhməd Yusif oğlu Seyidov 1892-ci ilin baharının ilk ayında martın 31-də keçmiş Qazax qəzasının Aslanbəyli kəndində (indiki Qazax rayonu, Əlibayramlı kəndi) anadan olmuşdur. Rus dilinə, mütərəqqi rus elminə və mədəniyyətinə meyl və maraq onu Yuxarı Salahlı kəndində fəaliyyət göstərən, təhsilin rus dilində verildiyi məktəbə gətirib çıxardı. İnqilabdan əvvəlki Azərbaycan mədəniyyətinin bir çox görkəmli nümayəndələrinin təhsil aldığı bu məktəbi bitirən Əhməd Seyidov müəllimlik peşəsini seçmiş və Qori şəhərinə gedərək oradakı Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şö'bəsinə daxil olmuşdur.

Ə.Y. Seyidov Azərbaycana Firidunbəy Köçərli, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və başqaları kimi bir çox tarixi şəxsiyyətlər verən Qori seminariyasının sonbeşiyinə, buranı bitirən azərbaycanlı müəllimlərin son nəslinə mənsubdur. Öz həmməslək dostları kimi Seyidov da pedaqoji fəaliyyətə kənd məktəbindən başlamışdır. Oğlanlarla bərabər müsəlman qızlarının da dünyəvi təhsilə cəlb edilməsini məktəb təhsilinin tərkib hissəsi hesab edən Əhməd müəllim Böyük Oktyabr sosialist inqilabı ərəfəsində, 1917-ci ilin sentyabrında doğma kəndində ilk qız məktəbinin əsasını qoymuşdur. Bu, onun çox mühüm xidmətlərindən biridir.

Ə.Seyidov Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra Azərbaycan kəndlərində yeni sovet məktəblərinin təşkilinin, yaşlı əhali arasında savadsızlığın ləğv edilməsi uğrunda aparılan gərgin mübarizənin daim ön cərgəsində olmuşdur. O, 1920–1930-cu illərdə Qazax qəza xalq maarif şö'bəsində inspektor, Aslanbəyli, Musagöy və Kosalar kənd məktəblərində direktor, Lənkəran qəza xalq maarif şö'bəsinin müdiri, Azərbaycan SSR Xalq Maarif Komissarlığında dəmiryolu məktəblərində çalışmışdır. Ə.Seyidov dərsliklər tərtibi sahəsində də səmərəli fəaliyyət göstərmişdir. O hələ 1929–1930-cu illərdə tanınmış müəllim və yazıçı H.K.Sanılı ilə birlikdə birinci sinif şagirdləri üçün «Əlifba» dərsliyi (Türk əlifbası, Birinci il) tərtib edib nəşr etdirmişdir.

1930-cu ildə qiyabi təhsil yolu ilə V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetini (1927–1930-cu illərdə V.İ.Lenin adına APİ Dövlət Universiteti ilə birləşdirildiyindən universitet

V.İ.Leninin adını daşıyırdı) bitirən Ə.Y.Seyidov ömrünün son 45 ilini respublikada müəllim kadrları hazırlayan Azərbaycan Dövlət Pedaqoji İnstitutu ilə bağlamışdır. V.İ.Lenin adına APİ-də uzun müddət və səmərəli elmi və pedaqoji fəaliyyət göstərən Ə.Seyidov burada əvvəlcə assistent, dosent, fakültə dekanı, elmi işlər üzrə direktor müavini, sonralar isə institutun direktoru, kafedra müdiri və professoru vəzifələrində çalışmış və özündən sonra unudulmaz iz qoymuşdur.

Professor Seyidov özünün praktik pedaqoji fəaliyyətində yüksək ixtisaslı müəllim kadrları hazırlığında yaxından iştirak etmişdir. Onun vaxtı ilə dərs dediyi tələbələrin böyük bir dəstəsi bu gün təkcə respublikamızda deyil, qardaş Ermənistan və Gürcüstan SSR məktəblərində də gənc nəslin kommunist tə'limi və tərbiyəsi işində müvəffəqiyyətlə çalışır.

Professor Ə.Y. Seyidov pedaqoji elmlər sahəsində ilk Azərbaycan sovet alimidir. 1930-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnsititunda təhsil alan ilk azərbaycanlı aspirantlar cərgəsinə daxil olan Seyidov 1939-cu ildə namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır. Onun böyük həvəslə tədqiq etdiyi «Azərbaycan maarifçisi A.Bakıxanovun pedaqoji görüşləri» adlı əsəri 1940-cı ildə SSRİ EA-nın Azərbaycan filialı tərəfindən keçirilən Azərbaycan alimlərinin müsabiqəsində mükafata layiq görülmüşdür.

Professor Seyidovun elmi-pedaqoji fəaliyyətində xalqımızın zəngin pedaqoji ideyalar tarixini araşdırmaq ayrıca əhəmiyyət kəsb edir. O, 1940-cı illərdən e'tibarən XIX əsrin bir sıra görkəmli pedaqoji fikir nümayəndələrinin, o cümlədən M.Ş. Vazehin, M.F. Axundovun, S.Ə.Şirvani və H.Zərdabinin pedaqoji görüşlərini böyük səbirlə tədqiq etmiş və XIX əsrdə Azərbaycanın pedaqoji fikrini sistemə salmışdır. O, bu tədqiqatların nəticələri əsasında 1949-cu ildə Moskvada, sovet pedaqoji elmlərinin mərkəzi olan RSFSR PEA-da doktorluq dissertasiyası müdafiə edərək təkcə Azərbaycanda deyil, həmçinin Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru alimlik dərəcəsi elmi adı almışdır.

Professor Seyidovun «XIX əsrdə Azərbaycanda pedaqoji fikrin görkəmli nümayəndələri» adlanan həmin tədqiqat işi məhşur

sovet pedaqoji tarixçiləri olan akademiklərdən Y.N. Medınski ilə N.A. Konstantinov tərəfindən yüksək qiymətləndirilmişdir.

Ə.Y.Seyidov Azərbaycanda məktəb və pedaqoji fikir tariximizin tədqiqi sahəsində tam bir məktəb yaratmışdır. XII əsrin böyük mütəfəkkiri N.Gəncəvidən tutmuş əsrimizin əvvəllərinə, M.Ə.Sabir, F.Köçərli və bir çox məşhur pedaqoqlarının – maarifçilərinin pedaqoji fəaliyyətləri və görüşlərinin çoxminli müəllimlərə – oxuculara çatdırılması hər kəsdən əvvəl Ə.Seyidovun unudulmaz xidmətlərindəndir.

Ə.Y.Seyidovun fəaliyyəti təkcə Azərbaycan pedaqoqlarının pedaqoji ideyalarının tədqiqi ilə məhdudlaşmamışdır. Eyni zamanda dünya və mütərəqqi rus pedaqoqlarının pedaqoji ideyalarını tədqiq etmək, azərbaycanlı oxuculara çatdırmaq sahəsində böyük işlər görmüşdür. Onun fəaliyyətində tərbiyə haqqında Marks və Engels tə'limini, kommunist tə'limi və tərbiyəsi haqqında V.İ.Lenin nəzəriyyəsini tədqiq etmək ayrıca yer tutur. O, Marks, Engels və Leninin gənclərin əmək, əxlaq, fiziki və estetik tərbiyəsinə və politexnik təhsilinə aid fikirlərini böyük məharətlə təbliğ etməyi, oxuculara çatdırmağı böyük vətəndaşlıq borcu hesab edirdi.

Ə.Y.Seyidov rus pedaqoji tarixinin ən görkəmli nümayəndələrinin, o cümlədən rus inqilabçı-demokratları olan Belinski, Gertsen, Çernışevski və Dobrolyubovun rus pedaqogikasının atası olan K.D.Uşinskinin, həmçinin Tolstoy, Lesqaft, Piroqov, Ulyanov və başqalarının pedaqoji ideyalarını azərbaycanlı oxuculara çatdırmışdır. Onun tədqiqatları və təbliğ etdiyi mövzular arasında ilk sovet marksist pedaqoqu olan N.K.Krupskaya ilə novator pedaqoq A.S.Makarenkonun pedaqoji fəaliyyətlərinə və fikirlərinə aid yazdığı məqalələr xüsusi yer tutur. Bu məqalələr müəllim və tələbələri tə'lim və tərbiyə haqqında sovet pedaqoji nəzəriyyələri ilə silahlandırmışdır.

Ə.Seyidov pedaqogikanın tarixi ilə bərabər nəzəriyyəsi ilə də məşğul olmuş, tərbiyənin sinfi mahiyyəti, gənc nəslin əmək və əxlaq tərbiyəsi, ailə tərbiyəsi, müəllim və onun hazırlığı problemlərinə aid irili-xırdalı 100-dən artıq əsər və məqalə həsr etmişdir.

Professor ali məktəb pedaqogikası sahəsini də unutmamış tələbələrin pedaqoji təcrübəsi, tələbələrin müstəqil işi, mühazirənin metodikasına aid dəyərli fikirlər söyləmişdir.

Professor Ə.Seyidov respublika ali pedaqoji institutları üçün ana dilində yazılmış ilk «Pedaqogika tarixi» dərsliyinin müəllifi olmuşdur. Onun 1959–1960-cı illərdə V.İ.Lenin adına APİ-nin nəşriyyatı tərəfindən nəşr edilmiş 3 cilddən ibarət «Pedaqogika tarixi» (I və II cildlər dosent Ə.S.Tağıyevlə birlikdə) və 1968-ci ildə respublika «Maarif» nəşriyyatının çap etdiyi irihəcmli «Pedaqogika tarixi» 20–25 ildir ki, tələbələrin əsas tədris vəsaitidir.

Əhməd Seyidovun fəaliyyətində elmi-pedaqoji kadrlar hazırlığı ayrıca yer tutur. Xalqımızın bu ağsaqqal alim-pedaqoqunun bilavasitə rəhbərliyi altında təxminən 60–70 elmlər namizədi hazırlanmışdır. Bu gün respublikamızın bütün ali pedaqoji institutlarında səmərəli fəaliyyət göstərən pedaqoq – alimlərin demək olar ki, böyük əksəriyyəti məhz bu görkəmli el xadiminin rəhbərliyi altında yetişmişdir. O, həm də elmlər doktorlarının hazırlanmasında yaxından və fəal iştirak etmişdir. Bu gün respublikamızda fəaliyyət göstərən elmlər doktorlarının ya elmi məsləhətçisi, ya rəsmi opponenti və ya xeyirxahı məhz professor Seyidov olmuşdur. O, təkcə respublikamız üçün deyil, həm də qardaş Gürcüstan, Şimali Qafqaz, Orta Asiya respublikaları üçün də yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlamağa böyük zəhmət sərf etmişdir.

Seyidov Moskvada nəşr edilən 4 cildlik «Pedaqoji ensiklopediya», 2 cildlik «Pedaqoji lüğət», «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi» adlı çoxcildli, monumental əsərlərin əsas müəlliflərindən olmuşdur.

Kommunist Partiyası və Sovet dövləti Seyidovun xidmətlərini yüksək qiymətləndirmişdir. 1943-cü ildən kommunist alim «Qırmızı Əmək Bayrağı» ordeni və medallarla təltif edilmiş, 4 dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Hey'ətinin Fəxri fərmanı ilə mükafatlandırılmışdır. 1965-ci ildə ona respublikanın Əməkdar elm xadimi fəxri adı verilmişdir. Azərbaycanın sovet pedaqoq alimləri içərisində ilk dəfə bu ada məhz professor Ə.Seyidov layiq görülmüşdür.

Əhməd Seyidov fitridən pedaqoq idi. O, böyük tərbiyəçi idi. Onun bütün danışığı, hadisələrə münasibəti məsələyə yanaşma və

qiymət vermək tərzi tərbiyəvi xarakterdə idi. Ən başlıcası bu idi ki, o müsahibi ilə söhbətlərində çoxlu zərb-məsəllərdən, atalar sözlərindən, hikmətli ifadələrdən yerində və məharətlə istifadə edirdi. Onun aspirantı olan bizlər elmi rəhbərimizin bu sahədəki bacarığına, onun hafizəsinin möhkəmliyinə, Qori seminariyasında oxuyarkən əzbərlədiyi şe'r parçalarını sonralar söyləməsinə valeh olardıq. Onun tərbiyə prosesində istifadə etdiyi ən qüvvətli vasitə xalq pedaqogikasına istinad edən xalq məsəlləri idi.

Professor Ə.Seyidov 1977-ci il oktyabrın 1-də vəfat etmiş və doğma Əlibayramlı kənd qəbiristanlığında dəfn edilmişdir.

Qazax rayonunun partiya və sovet təşkilatları xalqımızın unudulmaz pedaqoq aliminin xatirəsini əbədiləşdirərək Qazax rayon mərkəzindəki küçələrdən birini professor Ə.Seyidovun adı ilə adlandırmışdır.

Ümidvarıq ki, gənclərə nümunə olan xalqımızın bu ağsaqqal alim-pedaqoqunun zəngin yaradıcılıq yolu gələcəkdə daha ətraflı öyrəniləcəkdir.

«Azərbaycan müəllimi»
qəzeti 31 mart 1982-ci il.

Mirzə Fətəli Axundov
ana dili məktəbi uğrunda mübarizədə

Azərbaycan mədəniyyətinin ən böyük nümayəndəsi, materialist filosof, görkəmli ictimai xadim və pedaqoq olan M.F.Axundov özünün zəngin ədəbi, publisist və fəlsəfi fikirlərində və praktik pedaqoji fəaliyyətində ana dili məktəbi uğrunda ardıcıl mübarizə aparmış və unudulmaz irs qoymuşdur.

Mə'lum olduğu kimi, bir neçə əsr ərzində Azərbaycanda hökmranlıq edən yadelli işğalçılar uşaq və gənclərin ana dilində tə'liminə e'tinasız qalırdılar. Azərbaycan dili, assimilyasiya edilir, Şərq ölkələrində olduğu kimi, burada da ərəb və fars dilləri məktəb və mədrəsələrdə əsas tədris dili hesab olunur, ədəbi və bədii əsərlər əsasən bu dillərdə yazılırdı.

Bütün bunlara baxmayaraq Azərbaycan xalqı öz ana dilini mühafizə edib saxladı. XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalı tə'limin ana dilində aparılması ideyasını aktuallaşdırdı. O vaxtlar Azərbaycan dili təkcə Zaqafqaziyada deyil, bütün Yaxın Şərqdə böyük rol oynayırdı. «Fransız dili ilə Avropanı dolanmaq mümkün olduğu kimi» bu dillə də «Asiyanı başdan-başa dolanmaq olardı» (A.A.Bestujev-Marlinski).

Zaqafqaziyada olan səyyahlar, alim və yazıçılar. Azərbaycan mədəniyyətinə və dilinə böyük ehtiram bəsləyir, onu öyrənməyə çalışırdılar. Məşhur rus yazıçısı A.S.Qriboyedovun, rus şairi A.S.Puşkinin A.A.Bakıxanovla yaxınlığı və ona böyük hörmət bəsləmələri. M.Y.Lermontovun Azərbaycan dilini və folklorunu öyrənməsi, yazıçı və dekabrist A.A.Bestujev–Marlinskinin M.F.Axundovla dostluğu və Azərbaycan dilini öyrənməyə başlaması, onu yüksək qiymətləndirməsi Azərbaycan və rus xalqları arasında mədəni, ədəbi və pedaqoji əlaqələrin qızıl səhifələrini təşkil etməklə bərabər, bu dilin məktəblərdə tədris edilməsinə xeyli kömək etdi. Bu vaxta qədər əhali arasında yalnız danışıq dili olan Azərbaycan dili artıq müstəqil bir fənn kimi Azərbaycan şəhərləri ilə bərabər Qafqazın Tiflis, İrəvan, Dərbənd, Kutaisi, Stavropol, Qori kimi iri şəhərlərdə yenicə açılmış dövlət məktəblərinin tədris planına daxil edildi. Digər millətlərdən, ilk növbədə isə ruslardan ibarət olan şagirdlərin Azərbaycan dilini öyrənməsinə xüsusi fikir verilirdi. Əlbəttə, Azərbaycan dilinə belə əhəmiyyət verilməsi həm də çarizmin məxfi məqsədindən, müstəmləkəçilik siyasətindən irəli gəlirdi. Bununla belə, həmin hadisə müəyyən dərəcədə rus və Azərbaycan xalqları arasında qarşılıqlı əlaqənin möhkəmlənməsinə xidmət edirdi. O zamanlar Azərbaycan dilinin tədrisi nə qədər zəruri və həyati əhəmiyyət kəsb edirdisə, bir o qədər də çətin idi. Bu çətinliklərin başlıca səbəblərindən biri müəllim kadrları ilə, digəri isə yeni üsullu dərsliklərin olmaması ilə bağlı idi. Unudulmaz yazıçı və materialist filosof M.F.Axundov Azərbaycan dilinin tədrisi sahəsində qarşıda duran hər iki mühüm problemin həllində praktik fəaliyyət göstərmişdir. Dövrünün tanınmış ziyalılarından olan M.F.Axundov pedaqoji fəaliyyətə xüsusi əhəmiyyət vermişdir. Hazırda təşkilinin 150 illiyi geniş qeyd edilən Nuxa (Şəki) qəza məktəbinin ilk şagirdlərindən olan M.F.Axundov burada öyrəndiyi rus dili

sayəsində Tiflisdəki canişinlik dəftərxanasında Şərq dilləri mütərcimi vəzifəsində işləmişdir. Dövlət məktəblərində çalışan azərbaycanlılardan ilk ana dili müəllimlərinin şərəfli dəstəsinə mənsub olan M.F.Axundov Tiflis qəza məktəbində (1834–1840) Azərbaycan dilindən dərs demişdir. Bu dövrdən başlayaraq M.F.Axundov tə'lim-tərbiyənin, xüsusilə ana dili tə'liminin bir sıra vacib məsələləri ilə də yaxından tanış olmuş və onların həllinə çalışmışdır. Zaqafqaziyanın inzibati və elmi mərkəzi olan Tiflisdə fəaliyyət göstərən M.F.Axundov, burada yaşayan və yaradan müxtəlif millətlərin qabaqcıl nümayəndələri ilə yaxınlığı və dostluğu sayəsində dövrünün görkəmli pedaqoqu və maarifpərvəri kimi də məşhurlaşdı.

M.F.Axundov təkcə dərs deməklə kifayətlənmir, həm də ana dili tədrisi qarşısında duran digər mühüm problemlərin həllində yaxından iştirak edir, Azərbaycan dilinin tədrisini yaxşılaşdırmaq üçün əlindən gələni əsirgəmirdi.

M.F.Axundovun pedaqoji fəaliyyətində diqqəti cəlb edən çox mühüm məsələlərdən biri ana dili dərsliyi ilə bağlıdır. O zamanlar Azərbaycan dilinin tədrisi üçün nə müvafiq dərslik, nə də çap olunmuş oxu kitabları var idi. Bunun əsas səbəbi Azərbaycanın Rusiya tərəfindən işğalına qədər ya İran şahlarının, ya da Türkiyə sultanlarının hakimiyyəti altında olması idi. M.F.Axundov yazırdı: «İran şahları hakim olduqları zamanda tatarların (azərbaycanlıların – H.Ə.) yazı işləri fars dilində, türklər hakim olduqları zamanda isə Zaqafqaziyada yaşayan tatarların (azərbaycanlıların – H.Ə.) dilindən kökündən fərqli olan türk dilində aparılırdı»[1]. Bütün bunların nəticəsi idi ki, şagirdlər xalis Azərbaycan dilində ədəbiyyatdan, demək olar ki, məhrum idilər. M.F.Axundovun yazdığı kimi, əgər bu dildə bə'zi əsərlər vardırsa da, onlar ya başqa dillərdən tərcümə edilmiş, ya da fars, türk və ya ərəb sözləri ilə dolu anlaşılmaz bir dildə yazılmışdı. Bu əsərlər, daha doğrusu, bu tərcümələr əsasında Azərbaycan dilinin ruhunu anlamaq və bu dili xalqın işlətdiyi vəziyyətdə məktəbdə tədris etmək mümkün deyildi.

Beləliklə, bütün Zaqafqaziyada ilk dövlət məktəblərinin meydana gəlməsi ilə dərsliklər sahəsində acınacaqlı vəziyyət özünü

[1] Bax: M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 69

açıq şəkildə göstərirdi. Sonralar, 1853-cü ildə bu məsələdən bəhs edən M.F.Axundov yazırdı: «…hər yerdə qəza məktəbləri açıldığı zaman hökumət başqa fənlərlə bərabər həmin məktəblərdə tatar (Azərbaycan – H.Ə.) dilinin öyrənilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı»[1]. Bu çətinlikləri aradan qaldırmağa ilk təşəbbüs edənlərdən biri də məhz M.F.Axundov olmuşdur. O, yuxarıda göstərilən məktəbdə – Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləyərkən 1839-cu ildə öz həmvətəndaşları üçün yeni üsullu bir dərs kitabı tərtib etməyə başlamışdır. X.Abovyanın bu barədəki yeganə qeydi oxucuya mə'lumdur[2]. Bu dərsliklə əlaqədar aparılan əlavə axtarışlar, həmçinin mövcud mö'təbər tədqiqatlar belə bir qənaətə gəlməyə əsas verir ki, M.F.Axundov Tiflis qəza məktəbinin Azərbaycan dili müəllimi vəzifəsindən azad edilməsi ilə əlaqədar olaraq göstərilən dərsliyi yazıb axıra çatdırmamışdır[3]. Onun başladığı bu xeyirxah işi davam etdirmək M.F.Axundovun yerinə müəllim tə'yin edilmiş M.Ş.Vazehə nəsib oldu.

M.F.Axundov praktik pedaqoji işdən azad olsa da, göstərilən məsələlərin, o cümlədən dərsliklərin hazırlanmasına kömək edir, tərtib edilən dərsliklərə rəsmi rə'y verir, ana dili tə'liminin vacib məsələlərini nəzərdən qaçırmırdı.

M.F.Axundovun 1839-cu ildə Tiflisdə çap edilmiş dərsliklərin – Zaqafqaziya məktəblər direktoru vəzifəsini ifa edən saray müşaviri N.Dementyev tərəfindən yazılan əlifba və oxu kitablarının hazırlanmasında yaxından iştirak etdiyini söyləmək olar. N.Dementyevin e'tiraf etdiyinə görə onun hazırladığı oxu kitabına daxil edilən mətnlərin əksəriyyəti «onun müşahidəsi altında bu dili bilənlər vasitəsilə Azərbaycan dilinə tərcümə edilmişdir». Yaxud «burada tatar (Azərbaycan – H.Ə.) dilini bilən məşhur şəxslərin köməyi ilə bütün material toplanmış və ölçülüb biçilmişdir»[4].

---

[1] Bax: M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 70.

[2] Bax: X.Abovyan. Əsərləri, 5-ci cild, Ermənistan SSR EA-nın nəşri, 1950, s. 44 (ermənicə).

[3] Bu barədə ətraflı mə'lumat almaq üçün bax: Ə.Ə.Səidzadə. «Mirzə Şəfi Sadıq oğlu Vazeh», Bakı, Azərnəşr, 1969, s. 64, rusca; H.Əhmədov, «Əlifba» dərsliyi məsələsinə dair bə'zi qeydlər», «Gənc müəllim» qəzeti, V.İ.Lenin adına APİ-nin nəşri, 4 iyun 1981-ci il.

[4] LMDTA, f. 733, s. 82, iş № 42, v. 18 arx.

Fikrimizcə, o zamanlar, məhz 1839-cu ildə Tiflisdə yaşayan və pedaqoji fəaliyyət göstərən «Azərbaycan dilini bilən məşhur şəxs» ilk növbədə M.F.Axundova işarədir və Mirəz Fətəlidən qeyri heç kim deyildir. Başqa bir yerdə, oxu kitabının müqəddiməsində N.Dementyev yazır: «Zaqafqaziya məktəblərində Şərq dillərindən dərs deyən müəllimlərin arzusunu nəzərə alaraq kitabdakı mətnləri Avropa qaydası ilə soldan – sağa deyil, yerli müsəlmanların adət etdikləri Şərq qaydası ilə sağdan-sola düzdük»[1]. Dərslik müəllifinin bu e'tirafı da fikrimizi təsdiq edir. Belə ki, həmin dərsliklər hazırlanan və nəşr edilən zaman Zaqafqaziya məktəblərində Şərq dillərindən dərs deyən görkəmli müəllimlərdən biri də M.F.Axundov idi.

Yuxarıda qeyd etdiyimiz kimi, M.F.Axundov digər müəlliflər tərəfindən hazırlanmış Azərbaycan dili dərslikləri və dərs vəsaitlərinin müzakirəsində fəal iştirak edir, rəsmi rə'yçi kimi çıxış edirdi. Rəsmi arxiv sənədlərində Tiflis gimnaziyasının Azərbaycan dili müəllimi Hacı Yusif Şahnazarov – Şapurovun Azərbaycan, ərəb, fars və türk dillərində tərtib etdiyi vəsaitlərin 1845-ci ildə Tiflis gimnaziyasında müzakirəsində gimnaziyanın Azərbaycan və fars dilləri müəllimləri İ.Qriqoryev, Tiflis qəza məktəbinin Azərbaycan dili müəllimi M.Ş.Vazeh ilə bərabər canişin dəftərxanasının Şərq dilləri mütərcimi praporşik M.F.Axundovun da fəal iştirak etməsi və müzakirə olunan tədris vəsaitləri barədə rə'y söyləməsi göstərilir.

M.F.Axundov H.Y.Şahnazarov – Şapurovun «Nümunəvi yazı qaydaları» adlı vəsaitinə rəsmi rə'y vermişdir[2].

M.F.Axundov dövlət qulluğu ilə yanaşı məktəblərdə Azərbaycan dilinin tədrisi ilə daim maraqlanır və bu dilin öyrənilməsi sahəsindəki çətinlikləri aradan qaldırmağın yollarını axtarırdı. O, 1853-cü il mayın 4-də Qafqaz Tə'lim Dairəsinin hamisi, Qafqaz ölkəsi baş idarə şurasının üzvü baron A.P.Nikolaiyə (A.P.Nikolai M.F.Axundovun əsərlərinin 3-cü cildində səhvən Nikolay kimi getmişdir, səh. 69) təqdim etdiyi mə'ruzəsində yazırdı: «Mənə mə'lum olduğuna görə bu çətinliklər hələ də aradan qaldı-

[1] Bax: N.Dementyev. Mübtədilərə oxumaqdan ötrü cəm olunmuş… nəql və hekayətdir, Tiflis. Arzanovlar mətbəəsi, 1839-cu il.

[2] Gürcüstan SSR MDA, f.4. s. 5, iş № 25, v. 22 və arxası.

rılmamışdır və bu dil hələ indiyə qədər, demək olar ki, ancaq təcrübi qayda ilə öyrənilir»[1].

M.F.Axundov Azərbaycan dili tədrisindəki çətinlikləri aradan qaldırmaq üçün özünün bədii əsərlərindən məktəblərdə bir tədris vəsaiti kimi istifadə edilməsini məsləhət bilirdi. Bu əsərlər Azərbaycan dilində yeganə orijinal əsərlər olmaqla bərabər, həmin dili öyrənmək arzusunda olan şagirdlər üçün faydalı vəsait idi. M.F.Axundov yazırdı: «Ancaq onların vasitəsilə tatar (Azərbaycan – H.Ə.) dilinin ruhunu, xüsusiyyətini, cümlələrin, ifadələrin quruluşunu, fe'llərin və sözlərin müxtəlif hallara düşməsini və sairəni öyrənmək olar[2].

M.F.Axundovun ana dilinin tədrisi və tə'limin ana dilində aparılması, ana dili məktəbi uğrundakı mübarizəsi get-gedə inkişaf edir və yeni-yeni məsələlərin həllini həyati tələb kimi qarşıya qoyurdu. Bu cəhətdən onun «Əkinçi» qəzetində dərc edilən məqalələri xarakterikdir.

H.Zərdabi və onun «Əkinçi» qəzetinin toxunduğu ana dili məktəbi, dünyəvi elmlərin öyrədilməsi və s. məsələlər Axundovun nəzərindən qaçmırdı. Əksinə, o, qəzetdəki hər bir yazını, ideyanı izləyir və ona öz münasibətini bildirirdi. Qəzetin 1877-ci il 2-ci nömrəsində çap edilən məşhur məqaləsində Axundov yazırdı: «Bizim əzizimiz və gözümüzün işığı Həsən bəy! Sən hər qəzetində biz müsəlman tayfasına elmin fəzilətini və səmərətını zikr edib, bizə hey təklif edirsən elm öyrənün, elm öyrənün!.. Çox yaxşı, sözün bamə'na və nəsihətin mufid və xeyirxahlığın sabit. İndi biz hazırıq ki, sənin nəsihətini əmələ gətirək. Bizə de görək, elmi harada öyrənək və kimdən öyrənək?»[3].

M.F.Axundovun ciddi mə'na kəsb edən həmin məktubunda qaldırılan üç başlıca məsələ: 1) kütləvi xalq məktəblərinin olmaması; 2) xalq müəllimlərinin yoxluğu; 3) ana dilində dərs kitablarının yoxluğu o dövrdə ana dili məktəbləri təşkili qarşısında duran çox mühüm və həll edilməsi zəruri olan vacib ictimai və pedaqoji problemlərdən idi. Bu problemlərdən birincisinə – kütləvi xalq məktəblərinin olmamasına işarə edən M.F.Axundov yazırdı: «Əgər

[1] M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 70.
[2] Yenə orada, s. 71.
[3] M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 407.

şəhərlərdə öyrənək, şəhərlərdə məktəbxanalar yoxdur. Əgər küllişəhər xalqı padşahlıq məktəbxanalarda oxusalar, yer tapılmaz. Deyəcəksən ki, özümüz şəhərlərdə məktəbxanalar bina edək. Çox yaxşı. Hansı istitaətlə»?[1].

İkinci mühüm məsələyə – xalq müəllimlərinin olmaması məsələsinə işarə edən Axundov göstərirdi ki, tutaq ki, məktəblər açdıq. Bəs müəllimləri haradan alaq!?

Üçüncü mühüm cəhət hansı dildə oxumaq məsələsi idi. Bu məsələ, yeni təhsilin əsasən digər dillərdə aparılması məktəb təhsilinin inkişafına, xalqın əqli tərəqqisinə manc olan bir iş idi və ona görə də, demək olar ki, Azərbaycan maarifpərvərlərini düşündürürdü. Belə ki, o zamanlar dövlət məktəblərində tə'lim rus dilində, ən'ənəvi məktəb və mədrəsələrdə isə ərəb və fars dillərində aparılırdı. Bütün bunları ciddi nəzərə alan M.F.Axundov Həsənbəyə müraciətlə və ürək yanğısı ilə yazırdı: «Deyəcəksən ki, rus dilində oxuyun, öyrənin! Çox yaxşı, şəhərlərdə məktəbxanalar açdıq, rus dilində elm öyrənməyə başladıq. Aya, ünas və kənd əhlimiz necə etsinlər? Kəndlərdə də məktəbxanalar açaq və müəllim gətirək, ya yox? Əgər deyirsən açın, insaf elə hansı istitaət ilə və hansı qüdrət ilə»?[2].

Həqiqətən də XIX əsrin 70-ci illərində, həm də yuxarı təbəqənin uşaqları üçün bə'zi məktəblər açılmışdısa da, kəndlərdə düzgün təşkil edilmiş xalq məktəbləri hələlik yox idi. Aydın məsələdir ki, təkcə şəhər əhalisinin təhsili qayğısına qalmaqla da əsas məqsədə çatmaq mümkün deyildi. «Əgər deyirsən ki, kənd əhli qalsın, ancaq şəhər xalqı elm öyrənsin, onda sənin muradın əmələ gəlməz» – deyən M.F.Axundov «bir gül ilə bahar olmaz» zərb-məsəlini yada salır və sözünə davam edərək deyirdi ki, «şəhər xalqı kənd əhlinə nisbət qətrədir dəryaya nisbət».

Müasirlərindən fərqli olaraq M.F.Axundov ümumtəhsil ideyasını irəli sürürdü. O, əhalinin bütün təbəqələrinin, istər şəhərli olsun, ya kəndli, istər qadın olsun, ya kişi fərqi yoxdur. Hamının təhsilini, həm də ana dilində dünyəvi təhsilini lazım bilir və bu ideyanı qızğın müdafiə edirdi…

[1] M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 407.
[2] Yenə orada.

Keçən əsrin 70-ci illərində, dövlətin ümumxalq təhsilinə e'tinasız qaldığı bir dövrdə, M.F.Axundovun təbirincə desək, ana dilində məktəb açıb elm öyrətməyə «istitaət gərək, ittifaq gərək, vəsilə gərək» idi. İstitaət deyərkən Axundov maliyyə vəsaitini nəzərdə tuturdu. Mə'lum olduğu kimi, feodal patriarxal bir ölkə kimi Azərbaycanın gəliri xarici kapitalistlərin cibinə, çar hökumətinin xəzinəsinə axırdı. İttifaqın olmamasına səbəb əhalinin yarısının şiə, yarısının isə sünnilərə bölünməsi idi. Vəsilə adı altında Axundov ana dilini nəzərdə tuturdu. Ana dilində dünyəvi təhsil məktəblərinin yoxluğu nəticəsində əhalinin geniş təbəqəsi öz doğma dilində yazıb-oxumağı bacarmırdı.

M.F.Axundovun göstərilən məktubu H.Zərdabinin ifadəsi ilə desək, «qışın çilləsində olan çovğun kimi onu diqqət ilə oxuyanın bədəninə qorxu lərzəsi salırdı».

M.F.Axundov bu sahədəki çətinliklərin aradan qaldırılması yollarını da düşünür, xalqın dərdinə çarə axtarır, o zamankı tarixi şəraitdə konkret çıxış yolu göstərməyə cəhd edirdi.

M.F.Axundovun ana dili məktəbi uğrunda mübarizəsi, bütövlükdə tə'lim və tərbiyə məsələlərinə dair fikirləri onun ictimai siyasi fikirlərindən nəş'ət edirdi. O çox yaxşı başa düşürdü ki, beş-on məktəb açmaqla iş bitmir. Buna görə də ölkənin başdan-başa savadlanması ideyasını müdafiə və təbliğ edirdi. Bununla bərabər o, mövcud şəraitdə bu işi müşkül hesab edir və həmin məsələdən çıxış edirdi.

O zamanlar təhsilin ana dilində aparılmaması, tədris edilən fənlərin əsasən dini mahiyyət daşıması, tədris vəsaitinin olmaması və üstəlik ərəb əlifbasının çətinliyi Azərbaycan məktəblərinin şikəst cəhətlərindən idi. Sünni və şiə təriqətinin saldığı ayrı-seçkiliyi, çarizmin xalqı mədəni sərvətdən kənarda saxlamaq, kiçik xalqların ana dilini sıxışdırmaq siyasətini də buna əlavə etsək, ana dili məktəbləri uğrunda aparılan mübarizənin çətinliyi və mürəkkəbliyi bir daha aşkar olar.

M.F.Axundov Azərbaycan xalqının böyük vətənpərvər oğlu idi. O, xalqını dərin məhəbbətlə sevir, həmvətənlərini savadsızlıq bəlasından xilas etməyə çalışırdı. O, xalqın ümumi mədəniyyətinin, o cümlədən ana dilinin inkişafında, xalq kütlələrinin savadlanması işində ərəb əlifbasının böyük əngəl olduğunu görmüş və tam 20 il bu

əlifbanın dəyişdirilməsi uğrunda ardıcıl və inadlı mübarizə aparmışdır. Məktublarından birində oxuyuruq: «Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqlarımızın azadlığı, rifahı və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün və islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətin bərpa edilməsi üçün ədalət rəvac verməkdir.

Bu yolda atacağımız birinci addım köhnə islam əlifbasını dəyişdirməkdir»[1].

M.F.Axundov xalqın ümumi və iqtisadi geriliyinin əsas səbəbini ərəb əlifbasında görürdü. 1869-cu ildə yazdığı Kəmalüddövlə və Cəmalüddövlə məktublarına əlavədə o deyirdi: «Ərəblər bizim minillik səltənətimizi yıxdılar, şan və şövkətimizi bərbad etdilər ki, bu günə qədər abad etmək mümkün olmayıbdır. Üstəlik onlar bizim boynumuza elə bir yazı da bağladılar ki, onun sayəsində ümumə müyəssər olan savadı əldə etmək bizim üçün işlərin ən çətini olmuşdur»[2].

«Kəmalüddövlə məktubları» müəllifinin təlaş və arzusu xalqı əsrlərlə cəhalətdə saxlayan bu «mərdud və murdar yazının əlindən xilas etmək və cəhalət qaranlığından mə'rifət işıqlığına çıxarmaq» idi.

M.F.Axundov başladığı işin gec-tez nəticə verəcəyinə əmin idi. O deyirdi ki, mən sizi əmin edirəm ki, əlifba məsələsi nəhayət baş tutacaqdır. Əgər bu gün olmasa, sabah, sabah olmasa da birisi gün baş tutacaqdır!

M.F.Axundovun yeni əlifba uğrunda apardığı mübarizə onun ana dili tə'limi, ana dili məktəbi, tə'limin ana dilində aparılması ideyası ilə üzvi surətdə bağlı olub, inqilabi-demokratik görüşlərinə əsaslanır və xəlqiliyindən irəli gəlirdi…

«Azərbaycan məktəbi»
jurnalı 1983, №1, s.43–48.

[1] M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 340–341.
[2] M.F.Axundov. Əsərləri, 2-ci cild, Bakı, 1951, s. 120.

Pedaqogika tarixi kursunun tədrisi səviyyəsini yüksəldək

«Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»ndə müəllimlərin və xalq maarifi işçilərinin qarşısında mühüm vəzifələr qoyulmuşdur. Həmin sənəddə deyilir ki, bu vəzifələrin müvəffəqiyyətli həlli möhkəm əqidəli, elmi-pedaqoji biliklərlə silahlanmış müəllimlər ordusundan çox asılıdır. Çünki xalq müəllimi gənc şəxsiyyətin mə'nəvi aləminin me'marı, cəmiyyətin e'tibar etdiyi şəxsdir. Cəmiyyət ən əziz, ən qiymətli sərvətini – uşaqları, öz ümidini, gələcəyini müəllimə e'tibar edir. Buna görə də yetkin müəllim elə hərtərəfli hazırlanmalıdır ki, o, indiki əsrin axırlarının və gələn əsrin əvvəllərinin əzəmətli vəzifələrini yerinə yetirə bilən ölkəmizin tarixi müqəddəratı, cəmiyyətin hərtərəfli tərəqqisi, onun uğurlu irəliləyişi üçün məs'uliyyət hissi daşıyan adamlar tərbiyə edib yetişdirə bilsin.

Müəllim kadrlarının hazırlığı keyfiyyətini yüksəltmək üçün ali pedaqoji məktəblərdə tə'lim və tərbiyənin mövcud imkanlarından bacarıqla istifadə olunmalıdır.

Təcrübə göstərir ki, bu işdə pedaqogika tarixi kursu xüsusi əhəmiyyət kəsb edir. Belə ki, pedaqogika tarixi, bir tərəfdən, müəllimlik peşəsinə hazırlaşan bugünkü tələbəni keçmişin zəngin pedaqoji irsi ilə, mütərəqqi pedaqoqların tə'lim-tərbiyəyə dair zəngin fikirləri ilə tanış edir, digər tərəfdən isə tələbənin pedaqoji bilik dairəsini genişləndirir, onun pedaqoji dünyagörüşünün formalaşmasına və müəllimlik peşəsinə daha dərindən yiyələnməsinə kömək göstərir.

Respublikamızın ali pedaqoji məktəblərində pedaqogika tarixi kursunun tədrisi sahəsində müsbət təcrübə toplanmışdır. Əvvəla, onu qeyd etmək lazımdır ki, V.İ.Lenin adına APİ-nin pedaqogika tarixi mütəxəssisləri tərəfindən ilk dəfə olaraq 50-ci illərdə üç cilddən ibarət «Pedaqogika tarixi» adlı tədris vəsaiti hazırlanıb nəşr edilmiş, 60-cı illərdə professor Ə.Seyidov tərəfindən dərsliyin yeni nəşri çapdan buraxılmışdır. Bundan başqa, pedaqogika tarixi kursunun tədrisini daha da yaxşılaşdırmaq üçün proqramın bütün materialını əhatə edən əyani vəsait (mühazirə və seminar məşğələlərinə aid), sxemlər, metodik göstərişlər və işçi

proqramından ibarət tədris-metodik vəsait kompleksi hazırlanmış və çap edilmişdir. Bu gün gələcək müəllimlər pedaqogika tarixinin aktual problemləri üzrə kurs, yoxlama və diplom işləri yazır, tələbə elmi cəmiyyətinin konfranslarında mə'ruzələrlə çıxış edir, respublika və Ümumittifaq olimpiadalarında müvəffəqiyyətlə iştirak edirlər.

Mə'lum olduğu kimi, SSRİ Maarif Nazirliyi tərəfindən təsdiq olunmuş pedaqogika tarixi kursunun proqramında (Bakı, 1984) milli respublikaların məktəb və pedaqoji fikir tarixinə aid verilən materiallar epizodik xarakter daşıyır. Məsələn, proqramda Azərbaycan pedaqoqlarından yalnız ikisinin – M.F.Axundov və R.Əfəndiyevin adı çəkilir. Bu isə çox azdır və tələbələrə xalqımızın qədim və zəngin məktəb və pedaqoji fikir tarixi haqqında ətraflı mə'lumat almağa imkan vermir.

Bütün bunları nəzərə alan pedaqogika tarixçilərimiz müttəfiq respublikalar arasında ilk dəfə olaraq Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin sistemli kursunun proqramını işləyib hazırlamış və onu 1977-ci ildə Azərbaycan, 1978-ci ildə isə rus dilində nəşr etdirmişlər. Artıq on ilə yaxındır ki, həmin proqram üzrə xüsusi kurs və seminarlar müvəffəqiyyətlə keçilir. Fərəhləndirici haldır ki, institutumuzun bu sahədəki təcrübəsi SSRİ Maarif Nazirliyinin pedaqoji elmlər üzrə elmi-metodik şurasında müzakirə edilərək bəyənilmiş və yayılması məsləhət bilinmişdir. Hazırda respublikada pedaqogika tarixi müəllimləri «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» adlı kitabı nəşrə hazırlamışlar. Güman edirik ki, bu yaxınlarda çapdan çıxacaq həmin tədris vəsaiti gələcək müəllim kadrlarının hazırlanmasında xüsusi rol oynayacaqdır.

Marksizm-leninizm klassiklərinin politexnik təhsil, əmək tərbiyəsi və peşə hazırlığı, tə'limin məhsuldar əməklə birləşdirilməsi haqqında fikirləri, habelə görkəmli sovet pedaqoqları N.K.Krupskaya, P.P.Blonski, S.T.Şatski və A.S.Makarenkonun əmək tə'limi, tərbiyəsi və peşəyönümü haqqında əsərləri ilə tələbələri tanış etmək də pedaqogika tarixi kursunun vacib məsələlərindəndir. «İnkişaf etmiş sosializm cəmiyyətində və tədriclə kommunizmə keçid dövründə sovet məktəbinin və pedaqogikasının inkişafı (1958-ci ildən hazırkı vaxta kimi)» mövzusunu keçərkən tələbələr Sov. İKP XXIII–XXVI qurultaylarında, Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin məktəb haqqında qərarlarında, 1958-ci və 1973-cü illərdə

xalq maarifi və məktəbin inkişafı ilə əlaqədar verilən qanunlarda, habelə «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»ndə peşəyönümü probleminin zəruri məsələ kimi qarşıya qoyulduğunu öyrənirlər.

Bu baxımdan «Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən» adlı xüsusi kursun imkanları daha genişdir. Belə ki, həmin kurs məktəb və pedaqoji fikir tariximizdə şagirdlərin əmək tərbiyəsi və peşə hazırlığı məsələsinin mövqeyi, müasir məktəb təcrübəsində onlardan istifadənin metod və vasitələrinin tələbələrə çatdırılmasında qiymətli mənbə hesab edilə bilər. Xüsusi kursda tələbələr Nizami Gəncəvinin pedaqoji fikirlərindən başlamış XX əsr Azərbaycan pedaqoqlarına kimi, orta əsrlərdə Azərbaycanda məktəb tarixindən başlamış müasir məktəblərimizə kimi əmək və peşə hazırlığı üzrə olan təcrübə ilə tanış olurlar. Kursun tədrisi zamanı tələbələr öyrənirlər ki, hələ XIX əsrdə Azərbaycanda fəaliyyət göstərən məktəblərdə şagirdlərin peşə təhsilinə xüsusi diqqət yetirilmişdir. Keçən əsrin 30-cu illərindən başlayaraq meydana gələn və get-gedə genişlənən dünyəvi təhsil məktəbləri şagirdlərin az-çox biliklərə yiyələnməsi ilə yanaşı peşə hazırlığı üçün də əlverişli şərait yaratdı. 1880-ci illərdən e'tibarən həmin məktəblərdə əhalinin məişəti və əsas məşğuliyyəti ilə bağlı olan bağçılıq, arıçılıq, ipəkçilik və digər kənd təsərrüfatı peşələri öyrədilirdi. Maraqlıdır ki, əhaliyə kömək etmək və ona yeni üsulları öyrətmək məqsədi ilə 1886-cı ildə Şamaxı qəzasının ipəkçilik mərkəzi olan Kürdəmir kənd məktəbində və Göyçay xalq məktəbində ipəkçilik şö'bələri təşkil edilmişdi[1]. Bu şö'bənin məqsədi təkcə burada oxuyan şagirdlərdən ipəkçilər hazırlamaqla məhdudlaşmayıb, həm də müxtəlif yollarla kənd təsərrüfatının bu faydalı sahəsindən daha çox məhsul götürmək işində əhaliyə kömək etmək idi. Hər iki məktəbdə ipəkçilik şö'bəsi üçün müvafiq şərait yaradılmış və torpaq sahəsi ayrılmışdı. Həmin ipəkçilik şö'bələrinin şöhrəti bütün quberniyaya yayılmışdı.

Naxçıvan qəzasındakı Cəhri, Şaxtaxtı, Baş Noraşen və İmanşallı, Zaqatala dairəsinin Qax kənd məktəblərində də kənd təsərrüfatı və sənət şö'bələri fəaliyyət göstərirdi[2].

[1] Bax: LMDTA, f. k-na, f.s. iş № 6, vərəq 64, arxası.
[2] Bax: LMDTA. f. 1263, s. 2, iş № 5384, vərəq 15, arxası.

Yeri gəldikcə tələbələrə mə'lumat vermək lazımdır ki, XIX əsrin sonuncu rübündə Göyçayda M.Mahmudbəyov və Kalaşov, Kürdəmirdə Ə.Muradxanov, Qutqaşendə R.Əfəndiyev, Lənkəranda T.Bayraməlibəyov və başqaları şagirdlərə kənd təsərrüfatına, xüsusilə ipəkçiliyə aid bilik vermək işində böyük əmək sərf etmişlər. T.Bayraməlibəyovun «Bakı quberniyasındakı müsəlman kəndlərində ipəkçiliyin vəziyyətinə dair»[1] adlı məqaləsi elmi əhəmiyyətə malik idi.

İnqilabdan əvvəlki məktəblərdə şagirdlərə bağçılıq, bostançılıq, ipəkçilik, arıçılıq, dülgərlik, xarratlıq, cildçilik və s. kimi peşələrin öyrədildiyi də qeyd olunmalıdır. Bununla yanaşı, xüsusi kursun tədrisi zamanı «R.Əfəndiyevin pedaqoji fəaliyyəti və pedaqoji fikirləri» mövzusu üzrə referatlar hazırlanarkən gələcək müəllimin R.Əfəndiyevin şagirdlərin əmək tərbiyəsi və peşə hazırlığı sahəsindəki ideyalarını və bu ideyaların təcrübi şəkildə həyata keçirilməsi yollarını öyrənməsi faydalıdır. Yaxud, «N.Nərimanovun pedaqoji fikirləri» mövzusunun tədrisində onun əmək tərbiyəsi və peşə hazırlığı haqqındakı fikirlərinə geniş yer verilməlidir.

Pedaqogika tarixinin tədrisi ilə əlaqədar öz həllini gözləyən bə'zi problemlər də vardır. Məsələn, mövcud «Pedaqogika tarixi» kursunun nə proqramı, nə də dərsliyi müasir tələblərə cavab vermir. Bu kurs üzrə dərslik və tədris vəsaiti kifayət qədər deyildir. Azərbaycan dilində olan dərsliyin yenidən işlənməsinə və nəşrinə böyük ehtiyac duyulur. Bundan başqa, pedaqogika tarixi kursunu bir semestr ərzində tədris edib tələbələrə çatdırmaq mümkün deyildir. Ona görə də bu kursun 2 semestr (V və VI semestrlər) ərzində öyrədilməsi məqsədəuyğun olardı.

Pedaqogika tarixinin və eləcə də «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» kursunun tədrisində ekran vasitələrindən istifadə edilməsini genişləndirmək zəruridir. Lakin, təəssüf ki, bu sahədə mövcud tədris filmləri çox azdır. Pedaqogika tarixçilərimiz belə filmlərin yaradılmasına yaxından kömək göstərməlidirlər.

Pedaqogika tarixi kursunun səmərəli tədrisi və bu yolla gələcək müəllimlərin hazırlanması həmin elm sahəsinin tədqiqi ilə sıx bağlıdır. Ölkəmizin hər yerində olduğu kimi, respublikamızda da

[1] Bax: Sirkulyar… KUO, 1891, №10, s. 576-582.

bu sahədə Sovet hakimiyyəti illərində əsaslı elmi-tədqiqat işləri aparılmış, dəyərli əsərlər yazılıb nəşr olunmuşdur. Təxmini hesablamalara görə, 1918–1977-ci illərdə ölkəmizdə pedaqogika tarixinə aid 9500 əsər nəşr olunmuş və 800-dən artıq dissertasiya müdafiə edilmişdir. Bu işdə Azərbaycanın pedaqogika tarixçilərinin də xidməti az deyildir. Təkcə onu qeyd etmək kifayətdir ki, pedaqogika tarixindən müdafiə edilən dissertasiyaların sayına görə Azərbaycan bu gün müttəfiq respublikalar arasında üçüncü yeri tutur.

Son illərdə SSRİ PEA-nın «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər» adlı çoxcildlik əsərinin, müntəxəbatların, dördcildlik pedaqoji ensiklopediyanın hazırlanmasında respublikamızın pedaqogika tarixçiləri də yaxından iştirak etmişlər.

Lakin məktəb və pedaqogika tariximizə dair hələ də bə'zi problemlər öz həllini gözləyir. Tələbələr üçün müntəxəbat, biblioqrafik lüğətlər hazırlamaq tə'xirəsalınmaz vəzifələrdəndir.

Təcrübə göstərir ki, tələbələrin pedaqogika tarixi məsələlərinin tədqiqinə cəlb edilməsi bu kursun tədrisinin səmərəsini artırır. Tələbələri müxtəlif tarixi mövzularda kurs və diplom işləri üzərində işlətmək, elmi işə daha çox səriştəsi olanları seçib institutu qurtardıqdan sonra pedaqogika tarixi üzrə aspiranturaya cəlb etmək yaxşı nəticə verir.

Çoxillik təcrübəmiz göstərir ki, müəllim kadrlarının hazırlığında pedaqogika tarixi kursunun yüksək səviyyədə tədrisi böyük əhəmiyyətə malikdir. Pedaqogika tarixçilərimiz bu kursun tədrisini və tədqiqini «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»ndə irəli sürülmüş tələblərə uyğun daha da təkmilləşdirməyə, onu müəllim kadrları hazırlığında mühüm amilə çevirməyə çalışmalıdırlar.

«Azərbaycan məktəbi» jurnalı 1985-ci il, №6, s.20–23.

Ü. Hacıbəyov müəllim və onun hazırlığı haqqında

Müasir Azərbaycan professional musiqisinin banisi, dünya musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, unudulmaz bəstəkarımız Üzeyir Hacıbəyovun adı tarixə böyük musiqi nəzəriyyəçisi, görkəmli alim, yazıçı, publisist, tarixçi və dirijor, həm də tanınmış müəllim-pedaqoq kimi daxil olmuşdur.

XX əsrin birinci yarısında Azərbaycan xalqının zəngin məktəb və pedaqoji fikir tarixinin bir sıra problem məsələləri Ü.Hacıbəyovun fəaliyyəti ilə sıx bağlıdır. Hər şeydən əvvəl, praktik pedaqoq olan Üzeyir bəy dövrünün vacib pedaqoji problemləri, o cümlədən müəllim və onun hazırlığı məsələləri ilə yaxından məşğul olmuş və bu sahədə zəngin irs qoymuşdur.

Pedaqoji problemlərlə bağlı həmin fikirlər onda hələ Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil alarkən yaranmışdır. Heç də təsadüfi deyildir ki, onun tələbəlik illərini müşahidə edən sinif mürəbbiləri hələ o vaxt Üzeyirin gələcəkdə görkəmli musiqiçi və iste'dadlı müəllim olacağı qənaətinə gəlmişdilər. Tbilisi şəhərindəki Maarif Muzeyində saxlanılan ZMS-in arxiv sənədlərində Üzeyir Hacıbəyovun 1422 nömrəli şəxsi işində 1904-cü ildə ona verilmiş xasiyyətnamədə yazılmışdır: «Üzeyir Hacıbəyovdan talantlı müəllim, ə'la musiqiçi çıxacaqdır» (v. 6).

Tarix Qori Seminariyası müəllimlərinin uzaqgörənliyini sübut etdi. İstər ilk dəfə 1904-cü ildə pedaqoji fəaliyyətə başladığı Hadrut kənd məktəbində, istərsə də 1905-ci ildən işlədiyi Bibi-Heybət məktəbində çalışarkən Üzeyir bəy müəllimliyin gözəl nümunəsini göstərmişdir. O, praktik pedaqoq olmaqla yanaşı dövrünün sosial-pedaqoji problemlərinə aid nəzəri fikirlər də söyləmişdir.

20-ci illərdə Azərbaycanda musiqi məktəblərinin təşkilində, musiqi texnikumunun və Azərbaycan Dövlət Konservatoriyasının yaradılmasında, bu məktəblər üçün yüksək ixtisaslı kadrlar hazırlanmasında Üzeyir bəyin böyük xidmətləri olmuşdur.

Ü.Hacıbəyovun elmi-pedaqoji, nəzəri irsinin ayrılmaz tərkib hissəsini təşkil edən müəllim, onun şəxsi keyfiyyətləri və hazırlığına aid fikir və mülahizələri öz dövrünün ictimai-siyasi və iqtisadi həyat tərzindən nəş'ət edir və onun yaxşılaşmasına xidmət göstərirdi.

Ü.Hacıbəyovun müəllim və onun hazırlığına aid fikirləri xüsusilə 1905–1907-ci illərin birinci rus inqilabı dövründə və sonrakı illərdə nəşr etdirdiyi silsilə məqalələrində öz əksini daha geniş tapmışdır.

Həmin dövrdə mütərəqqi rus və dünya mədəniyyətinin nailiyyətləri ilə yaxından tanış olan qabaqcıl ziyalılar, ilk növbədə müəllimlər, xalq maarifi, məktəb, dünyəvi təhsil, ana dili ilə yanaşı, rus dilinin də tədrisini yaxşılaşdırmaq, tədris üsullarını yeniləşdirmək, dövrün tələbinə cavab verəcək müəllim kadrları hazırlamaq və s. kimi mühüm pedaqoji problemlər qaldırır, mətbuat səhifələrində fikir mübadiləsi edir, xalqın mə'nəvi həyatında dönüş yaratmağa çalışır və mühafizəkarlara, köhnəpərəstlərə qarşı fəal mübarizə aparırdılar.

Bu mübarizənin ön cərgəsində gedən Üzeyir bəy əməkdaşlıq etdiyi «İrşad», «Həyat», «İqbal», «Yeni iqbal», «Kaspi», «Tərəqqi» və s. kimi qəzetlərin səhifələrində müxtəlif imzalarla nəşr etdirdiyi silsilə məqalə və felyetonlarında xalq maarifi sahəsində çarizmin mürtəce siyasətini ifşa edir, ana dilində məktəb açmağı, balalarımıza dünyəvi təhsil və tərbiyə verməyi bir vəzifə kimi müəllimlərin qarşısına qoyurdu. O, 1906-cı ildə «İrşad» qəzetinin 240-cı nömrəsində dərc etdirdiyi «Məktəb məsələsi» adlı məşhur məqaləsində yazırdı: «Məktəb açıb bütün elmləri, öz ana dilimizdə tədris və tə'lim etmək, indi bizim əməllərimizin ən ümdəsidir. Bu arzunun hüsulə gəlməsi üçün biz var qüvvəmiz ilə çalışmalıyıq».

N.Nərimanov, S.M.Qənizadə, F.Köçərli, R.Əfəndiyev və b. kimi Ü.Hacıbəyov da xalqın savadlanmasında, onun mədəni tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirirdi. O, müəllimləri həqiqi mə'nada xalq üçün çalışanlar, xalqın xeyirxahı, xalqın gözünü açanlar hesab edirdi: «millət, millət deyənlərimizin içində, doğrudan da millət xeyri üçün iş (söz yox, ha!) görməyə iqdam edənlər birinci dəfə müəllimlərimiz olublar»[1].

Görkəmli maarifçi və ədəbiyyatşünas alim Firudin bəy Köçərli kimi Üzeyir Hacıbəyov da müəllimliyi özünə peşə seçib, ömrünün sonunadək bu peşəyə sadiq qalanları, «müəllimliyin ağır işlərini, müqəddəs vəzifə və təkliflərini əmələ gətirməkdə sabit – qədəm duran»ları (F.Köçərli) yüksək qiymətləndirirdi. Bu sənətin

[1] «İrşad» qəzeti, 1906-cı il, № 193.

ağırlıqlarına dözməyib, başqa yüngül işə, yaxud da camaatın avam hissəsinin nəzərində daha hörmətli sayılan vəzifələrə, məsələn, polis idarəsində xidmətə gedənlər kəskin tənqid edilirdi.

Unudulmaz bəstəkar 1909-cu ildə «Tərəqqi» qəzetinin 182-ci nömrəsində dərc etdirdiyi «Xəbərdarlıq» adlı məqaləsində müəllimlik vəzifəsini çox çətin və məs'uliyyətli hesab edir və deyirdi ki, «hər adam onun öhdəsindən gələ bilməz və hər adama müəllim deyib uşağı ona tapşırmaq böyük xətadır».

Müəllimin işini təkcə dərs deməklə məhdudlaşdıranların əleyhinə çıxaraq «…Tə'limdən başqa, uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir», – deyən Üzeyir bəy müəllimdən geniş tərbiyəvi iş aparmağı tələb edirdi. O yazırdı. «Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar».

O zamanlar «Hünərli ustad xam dəmirdən səbr ilə misri qılınc düzəldə bilirsə, yaxşı müəllim də gəctab millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər» ideyasının tə'siri altında öz xalqının tərəq-qisinə çalışan hər bir ziyalı mümkün qədər xalqı maarifləndirməyi, yeni məktəblər açmağı vətəndaşlıq borcu hesab edir, öz qələm dostlarını da bu yolda mübarizəyə qoşulmağa səsləyirdi.

Xalqın başına gələn fəlakətlərin hamısının ümdə səbəbini əhalinin əksəriyyətinin «elmsiz və tərbiyəsizliyində» görən Üzeyir bəy öz müəllimi F.Köçərlinin 1908–1909-cu illərdə «Tərəqqi» qəzetində dərc etdirdiyi «Məişətimizə dair» adlı məşhur silsilə məqalələrində irəli sürülən fikirləri (hər şey əql ilə, hünər, qeyrət və birlik ilə, sə'y və cəhd ilə, elm və mə'rifət nuru ilə əldə edilir; cəhalət və nadanlığın həqiqi müalicəsi elm və tərbiyədir; hal-hazırda hər şeydən artıq ehtiyacımız elm və ədəbdir, mə'rifət və kəlamdır ki, bunları təhsil etməmiş məişətimizi qayda və nizama salmayacağıq və s.) qızğın müdafiə edirdi. Bu fikirlərə rövnəq verən Ü.Hacıbəyov 1909-cu ildə bir-birinin ardınca həmin qəzetdə dərc etdirdiyi «Xəbərdarlıq» adlı məqalələrində uşaqların tə'limi ilə bərabər onların tərbiyəsi ilə də ciddi məşğul olmağa ayrıca mə'na verirdi. «Doğrudan da uşaq tərbiyəsi çətin bir əmrdir», – deyən Üzeyir bəy müəllimləri tərbiyə nəzəriyyəsindən, tərbiyə işi ilə məşğul olan və ömürlərini uşaq tərbiyəsinə sərf etmiş böyük pedaqoqların tərbiyə haqqındakı mülahizələrindən layiqincə xəbərdar olmağa çağırırdı. O, müəllimlik sənətini özü üçün əzablı iş hesab edənlərə məsləhət görürdü ki, bu

peşədən uzaqlaşsınlar və gənc nəslin tərbiyəsi üçün cavabdehlikdən kənar olsunlar. Ü.Hacıbəyov göstərirdi ki, müəllimin qəlbində tərbiyə və tə'limə heç bir şövq və həvəs yoxdursa; heç bu işə girişməsin, öz güzəranlığını keçirmək üçün gedib başqa bir peşə ilə məşğul olsun.

O, məqalələrindən birində yazırdı: «Aşkardır ki, millətimizin gələcəyini tə'min edən bizim övladlarımız və əhfadimiz (nəvə-nəticələrimiz – H. Ə.) olacaqdır. Ona binaən indidən lazımdır ki, onların tərbiyələri o nəhv ilə (yə'ni o yol ilə – H. Ə.) icra olunsun ki, axırda millət və milliyyət hissi-müqəddəslər ilə məktəbdən çıxıb millətə xidmət etməyi özlərinə borc bilsinlər»[1].

Ü.Hacıbəyov xalqın xoşbəxtliyini maarif toxumu səpən xalq məktəblərində, elmdə, təhsildə görürdü. Öz mütərəqqi müasirləri olan demokratik fikirli maarifçilər kimi, o da 1905–1907-ci illər inqilabı dövründə belə bir fikirdə idi ki, hər bir xalqın maddi yoxsulluğu, iqtisadi düşkünlüyü onun zehni yoxsulluğunun, mə'nəvi düşkünlüyünün nəticəsidir. Qafqaz müsəlman-müəllimlərinin birinci qurultayının açıldığı gün – 1906-cı il avqust ayının 15-də «İrşad» qəzetində dərc etdirdiyi «Müəllimlər ictimainə dair» adlı məqaləsində bu cəhəti ayrıca qeyd edərək yazırdı: «Camaatımızın başına gələn bəla və müsibətlərin hamısı cəhalət girdabından ibarətdir. Bu bəla və müsibətlərin törəməsi isə elmsizliyin ucundandır». Maarifçilik mövqeyindən Ü.Hacıbəyov xalqı bu dərdlərdən qurtarmaq üçün yalnız müəllimlərə ümid bağlayırdı. Çünki xalqla bilavasitə əlaqədə olanlar əsasən müəllimlər idilər: «millətimizin müəllimdən başqa hansı ünsürü vardır ki, daima camaat içində olub onlar ilə bilavasitə əlaqədar olsun?»

O, xüsusən kənd əhalisinin iqtisadi, ictimai və mədəni ehtiyacının ödənilməsində kənd müəllimlərinə böyük ümid bəsləyirdi. Obrazlı şəkildə deyirdi ki, balaca uşaqlar müəllimlərinin bilavasitə ağızdan söylədiyi sözlərə möhtac olduğu kimi, bu uşaqların valideynləri də müəllimlərin onlara dair söyləyəcəyi sözlərə möhtacdırlar. Bu sözləri isə mətbuatı daim izləyən, həm də mətbuatda fəal çıxış edənlər söyləyə bilərlər. «Müəllimlərimiz və mətbuat» adlı məqaləsində Ü.Hacıbəyov yazırdı: «Mə'lumdur ki,

[1] «İrşad» qəzeti, 1906-cı il, № 192.

kəndlərimizin qismi ə'zəmi (böyük hissəsi – H.Ə.) cəhalət guşəsinin timsalıdır. Bu qaranlıq yerdə bir işıq varsa, o da kənd müəllimidir. Hər bir kəndin hər bir cürə ehtiyacı kənd müəlliminə gözəlcə aydındır»[1].

Ü.Hacıbəyov həm də göstərirdi ki, Azərbaycan kəndlərində müəllimdən başqa ziyalı olmadığı bir dövrdə kənddə müəllimlərin istər məktəbdə, istərsə də camaat arasında apardıqları işi xalq görür və yüksək qiymətləndirir. «Kənd camaatı» görsə ki, içərilərində olan müəllimlər dərd göstərən və dərman bilənlərdir, şübhəsizdir ki, o müəllimlərə məhəbbət və e'tibar ilə baxıb kamal mə'rifətlə övladlarını onların təht-tərbiyə və tə'liminə verərdilər[2].

Ü.Hacıbəyov mövcud dövlət məktəblərində və milli məktəblərdə təhsilin məzmununu, orada oxuyan şagirdlərin sayını, əhalinin məktəbə münasibətini təhlil edərək məktəblərdə, xüsusilə kənd məktəblərində ana dili ilə yanaşı rus dilinin də tədrisini çox vacib bilir, təhsilin məzmununa peşə istiqaməti verməyi təklif edirdi. Kənd məktəblərində «bağçılıq, bostançılıq, arı saxlamaq, barama becərmək, dülgərlik, əkin əkmək sənətlərini tədris etməyi» tələb edən Üzeyir bəy yazırdı ki, «elm və maarifin fəzilətini (faydasını – H.Ə.) kənd əhlinə nəsihət ilə qandırmaq çətindir, ona göz ilə göstərmək lazımdır. Kəndli bir o qədər zəhmət və məşəqqətlə becərdiyi baramanın, taxılın, arının, bağ və bostanın məktəbdə öyrənilən təzə üsul sayəsində iki-üç qat artıq məhsul verdiyini gözü ilə gördükdə məktəbi özü üçün bir mənbəi-nəcat (çıxış yolu – H.Ə.) bilməzmi və «elmi-cədidə haramdır» sözünə baxarmı?»[3].

Ü.Hacıbəyovun məqalələrində çarizmin milli ucqarlarda müəllimlərə laqeyd münasibəti satira atəşinə tutulur və kəskin tənqid olunur. Ölkənin digər yerlərində olduğu kimi, o vaxtlar Bakı şəhər məktəblərinin müəllimləri də az əmək haqqı alırdılar (ayda 75 man.). Onlar daim ehtiyac içərisində idilər. Bakı şəhər dumasında isə əmək haqqının artırılması məsələsi ilbəil müzakirə olunurdusa da nəticəsiz qalırdı. Ü.Hacıbəyovun «Tərəqqi» qəzetində (1909-cu il, № 76) dərc edilmiş «Boşboğazlar» sərlövhəli səhnəciyi də məhz bu məsələyə həsr olunmuşdur. O, şəhər idarəsinin «müəllimlərə 75 manat pul

[1] «Həqiqət» qəzeti, 1910-cu il, № 97.
[2] «Həqiqət» qəzeti, 1910-cu il, № 97.
[3] «Tərəqqi» qəzeti, 1909-cu il, № 182.

boldur» deyən qərarını lağa qoyur və dərs vaxtı öz borcları haqqında düşünən bir müəllimin dərsini bədii şəkildə təsvir edir. Həmin müəllim dərs zamanı sinifdə fikrən öz borclarını hesablayır, alacağı əmək haqqı ilə öz borclarını ödəyə bilməyəcəyini fikirləşir. Bu səbəbdən də dərsin gedişini, şagirdlərin cavabını dinləyə bilmir.

Ü.Hacıbəyovun pedaqoji irsində müəllim və onun mə'nəvi keyfiyyətləri ilə yanaşı müəllim kadrları hazırlığı da mühüm yer tutur. Bu problem Azərbaycan məktəb və pedaqoji fikir tarixində bir çox pedaqoqların, ictimai və pedaqoji fikrin görkəmli nümayəndələrinin daim diqqət mərkəzində olmuşdur. XIX əsrin ortalarında mətbuat səhifələrində geniş müzakirə obyektinə çevrilən bu məsələ 1905–1907-ci illərin birinci rus inqilabı dövründə daha da aktuallıq kəsb etmişdi. Ü.Hacıbəyovun bu barədəki fikirləri də əsasən həmin dövrə təsadüf edir. O zamanlar xalq müəllimlərinin mərkəzi hökumətə göndərdikləri kollektiv ərizə və müraciətlərdə ümumi icbari təhsil, tə'limin ana dilində aparılması, azərbaycanlı müəllimlərin hüquqlarının digər millətlərdən olan müəllimlərin hüququ ilə bərabərləşdirilməsi, azərbaycanlılardan müəllim kadrları hazırlamaq üçün Azərbaycan şəhərlərindən birində ayrıca müəllimlər seminariyası açılması və s. tələb edilirdi. Bu məsələlərlə əlaqədar istər mərkəzi, istərsə də yerli mətbuat səhifələrində də fikir mübadiləsi aparılırdı. Müzakirələrdə fəal iştirak edən N.Nərimanov, F.Köçərli, F.Ağazadə, S.S.Axundov və başqaları Qori seminariyasının müsəlman şö'bəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsini təklif edirdilər.

N.Nərimanov «Mühüm bir məsələ» («Qori seminariyası nərədə olmalı») adlı məqaləsində yazırdı: «Açıq deməli, Qori darülmüəllimi Bakıda, ya Gəncədə və ya qeyri-müsəlman şəhərində olsa, padşahlıq xərcinə oxuyan altmış nəfərdən savayı, altmış nəfər müsəlman uşağı da daha ziyada öz evlərində olarkən seminariyada elmi-təhsil etməyə mümkünləri olacaqdır, yə'ni gündüzlər padşahlıq xərcinə oxuyan uşaqlar ilə bərabər dərs oxuyub, axşamlar öz evlərinə gedərlər»[1].

Ü.Hacıbəyov da eyni mövqedən çıxış edir və Qori seminariyasının müsəlman şö'bəsinin Azərbaycanın şəhərlərindən

[1] «Həyat» qəzeti, 18 iyun 1906-cı il, № 131.

birinə köçürülməsi məsələsinə aid maraqlı fikirlər söyləyirdi. O, çarizmin ruslaşdırma siyasəti nəticəsində «maarif işinə əyri baxmağa məcbur edilmiş əhalini» elm və təhsilə alışdırmaq, onları dövlət məktəblərinə – dünyəvi təhsilə yaxınlaşdırmaq üçün «müəllim seçkisinə böyük diqqət» yetirməyi lazım bilirdi. O, çox gözəl anlayırdı ki, əhalinin dövlət məktəblərində rus dilinə, dünyəvi təhsilə meyl və marağı, həm də orada çalışan müəllimlərin şəxsiyyətindən, bilik və bacarığından asılıdır.

O, müəllim kadrları hazırlayan Qori və İrəvan müəllimlər seminariyasının tarixi rolunu göstərir, xüsusilə Qori seminariyası mə'zunlarının «müəllimlik sənətini yaxşı bildiklərini» ayrıca qeyd edirdi. Bununla bərabər, N.Nərimanov və F.Köçərli kimi Ü.Hacıbəyov da bu seminariyaları Azərbaycan şəhərlərindən birinə köçürməyi təklif və müdafiə edirdi. Onun 1909-cu ildə «Tərəqqi» qəzetinin 187-ci nömrəsində dərc etdirdiyi «Xəbərdarlıq» adlı məqaləsində oxuyuruq: «Lakin bu seminariyaların müsəlman mərkəzlərinə yaxın olmaması buradan çıxan müəllimlərin əvvəl dəfələrlə camaata biganə görünmələrinə səbəb verir. Çox danışırdılar ki, Qoridəki seminariyanın müsəlman şö'bəsi Bakıya və ya Tiflisə, yaxud Şamaxıya köçürüləcəkdir. Lakin bu danışıqdan hələ ki, bir şey çıxmadı, görünür ki, bu məsələnin də dalına düşən olmayıbdır».

Fikrinə davam edən Üzeyir bəy yazırdı: «Əgər haman seminariyanın şö'bəsi heç olmasa Tiflisə də gətirilərsə və orda türk dili (Azərbaycan dili – H.Ə.) dərslərinin proqramı tövsü edilsə, söz yoxdur ki, müəllim sarıdan böyük arxayınlıq olar».

Unudulmaz müəllim, iste'dadlı pedaqoq və maarifçi Ü.Hacıbəyovun müəllim şəxsiyyəti ilə bağlı olan fikirləri bu gün də dəyərini itirməmişdir.

Dahi bəstəkarımız Ü.Hacıbəyovun müəllimlik peşəsi ilə bağlı fikirləri və bütövlükdə zəngin pedaqoji irsi Azərbaycan məktəb və pedaqoji fikir tarixinin şanlı səhifələrini, qiymətli incilərini təşkil edir.

«Azərbaycan məktəbi» jurnalı
1985-ci il, №10, s.55–60.

Elmi-pedaqoji əlaqələrimiz

Son illər institutun bütün kafedraları kimi, ümumi pedaqogika kafedrası üçün də böyük nailiyyətlər dövrü olmuşdur.

Kafedranın bütün əməkdaşları xalq maarifi sahəsində qarşıya qoyulan əzəmətli vəzifələri layiqincə yerinə yetirmək uğrunda əzmlə çalışmış və bir sıra diqqəti cəlb edən nailiyyətlər əldə etmişlər. Hər şeydən əvvəl pedaqoji elmlər üzrə tələbələrin bilik səviyyəsi əsaslı şəkildə yüksəlmiş, tələbələrin pedaqoji peşəyə yiyələnmələri işi yaxşılaşmışdır.

Göstərilən dövrdə sovet məktəbinin həyatında mühüm tarixi əhəmiyyəti olan hadisə baş vermiş – məktəb islahatı aparılmışdır. Kafedranın bütün üzvləri məktəb islahatı lahiyəsinin müzakirəsində, onun təbliğində və həyata keçirilməsində böyük fəallıq göstərmişlər. İnstitutun bütün pedaqoji və psixoloji kafedralarını əhatə edən elmi-metodoloji seminar məşğələlərində məktəb islahatı ilə bağlı problem məsələlərin müzakirəsi, tələbələr, orta məktəb müəllimləri və valideynlər qarşısında oxunmuş çoxlu mə'ruzə və mühazirələr, söhbətlər, Neftçala rayonundakı Aşağı Surra kənd məktəbində 1984–1985-ci dərs ili ərzində fəaliyyət göstərən valideynlər lektoriyası, kafedra üzvlərinin dərc etdirdikləri silsilə məqalələr dediklərimizə sübutdur.

Zəmanəmizdə pedaqoji elmlərin sistemi, onun əhatə dairəsi xeyli genişlənmiş, istehsalatın tərbiyəvi tə'sir gücü artmış, istehsalat pedaqogikası peşə pedaqogikası kimi yeni sahələr yaranmışdır. Bu gün əhalinin kütləvi ümumi pedaqoji təhsili həyati əhəmiyyət kəsb edir. Bir cəhəti də qeyd edim ki, məktəb islahatının irəli sürdüyü çoxşaxəli və çoxsahəli problemlərin müvəffəqiyyətlə yerinə yetirilməsi həlledici dərəcədə müəllimdən, onun ideya inamından, professional ustalığından, erudisiyasından və mədəniyyətindən asılıdır.

Bu günün, sabahın və gələcəyin müəlliminin pedaqoji-psixoloji bilik dairəsi çox-çox geniş olmalıdır. Fikrimizcə bu gün müəllim hazırlığında üç başlıca istiqamətə: müəllimin ictimai-siyasi hazırlığı: elmi-nəzəri hazırlığı; pedaqoji-peşə hazırlığına ayrıca fikir verilməlidir.

Üçüncü istiqamət ilə bağlı onu deyə bilərəm ki, elə bu dərs ilindən, yə'ni 1985–1986-cı dərs ilindən pedaqoji institutların yeniləşmiş tədris planlarına tələbələrin pedaqoji peşə hazırlığı ilə bağlı bir sıra yeni fənlər daxil edilib (məsələn, tərbiyə işinin metodikası, orta texniki peşə məktəblərində tərbiyə işinin xüsusiyyətləri: müxtəlif adda, o cümlədən şagird istehsalat briqadaları, əmək tərbiyəsi, peşəyönümü, şagird kollektivinin təşkili və tərbiyəsi, günüuzadılmış qrupla bağlı xüsusi kurs və xüsusi seminarlar). Ən'ənəvi pedaqogika və pedaqogika tarixi kurslarının, həmçinin müəllimlik ixtisasına giriş kursunun tədrisində də xeyli dəyişiklik edilib, tələbələrin arasıkəsilməz pedaqoji təcrübəsi, o cümlədən yay pioner təcrübəsi xeyli gücləndirilmişdir. Ümumiyyətlə, pedaqoji institutların 20 il bundan əvvəlki tədris planlarında pedaqoji-psixoloji elmlər üzrə tədris edilən fənlərin cəmi sayı 4 idisə, bu gün pedaqoji-psixoloji xarakterli normativ fənlərin sayı 25-ə çatdırılıbdır ki, bu da pedaqoji-psixoloji biliklərin müəllim kadrları hazırlığındakı rolunun artması, onun əsas baza fənninə çevrilməsi deməkdir.

Son vaxtlar «Partiynaya jizn», «Polit prosveşeniya» kimi partiya orqanlarında açılmış yeni rubrikalar, psixoloji-pedaqoji yazılara geniş yer verilməsi fikrimizə sübutdur.

Kaferdramız son illərdə yaddaqalan və ölkənin pedaqoq alimlərinin nəzər diqqətini cəlb edən elmi-praktik konfranslar keçirmişdir. 1984-cü ildə institutumuzda keçirilən pedaqoji tarixçilərinin mahiyyət e'tibarı ilə ümumittifaq xarakteri daşıyan konfransı, tələbələrin pedaqoji təcrübəsinin təkmilləşdirilməsinə həsr edilmiş Moskva – Leninqrad şəhərlərinin və müttəfiq respublikaların nümayəndələrinin də iştirak etdiyi konfranslar, respublika «Bilik» cəmiyyəti ilə birlikdə məktəb islahatı ilə bağlı Zaqatala və Xaçmaz rayonlarında keçirdiyimiz zona müşavirə-seminarları bu qəbildəndir.

Konfranslararası dövrdə kafedra üzvlərindən bir neçəsinin Moskva, Vilnüs, Sverdlovsk, Poltava və b. şəhərlərdə keçirilən Ümumittifaq konfranslarında fəal iştirakı, mə'ruzələrlə çıxış etməsi, SSRİ PEA-nın və Ümumittifaq «Bilik» cəmiyyətinin fəxri fərmanlarına layiq görülmələri elmi-pedaqoji əlaqələrimizin genişlənməsini göstərir.

A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda Azərbaycan məktəb və pedaqoji fikir tarixinə dair xüsusi kurs keçirilməsi, Moskvada nəşrə hazırlanan «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər» adlı çoxcildliyin I və IV cildlərində iştirakımız da qurultaylara hazırlıq dövrünün məhsulu olub, pedaqoji əlaqələrimizin möhkəmliyindən xəbər verir. Bu əlaqələri gələcəkdə daha da zənginləşdirməyə çalışacağıq.

«Gənc müəllim» qəzeti
5 noyabr 1985-ci il.

Pedaqogika elminin görkəmli tədqiqatçısı

Azərbaycan məktəbi və pedaqoji fikir tarixinə ilk pedaqoq alim, ölkəmizdə və Zaqafqaziyada pedaqoji fikir tarixinin tədqiq edilməsinin ilk pionerlərindən biri kimi daxil olan Ə. Seyidov respublika pedaqoqlarının ağsaqqalı, tanınmış elm xadimi səviyyəsinə qədər yüksəlmişdir. Professor Ə.Seyidovun pedaqoji fəaliyyəti çox zəngin və rəngarəngdir.

Əhməd Seyidov Qori Müəllimlər Seminariyasının yetirmələrindəndir. Mə'lum olduğu kimi, Qori şəhərində fəaliyyət göstərən və Zaqafqaziya Müəllimlər Seminariyası adlanan bu unudulmaz tədris müəssisəsinin Azərbaycan bölməsi mövcud olduğu təxminən 40 il ərzində (1879–1918) Azərbaycan məktəbləri üçün 250-yə qədər müəllim hazırlamışdır. Azərbaycan ədəbiyyatının unudulmaz tədqiqatçısı, görkəmli maarifçi F.Köçərli, pedaqogika nəzəriyyəçisi R.Əfəndiyev, məşhur pedaqoq ilk ana dili dərsliklərinin müəlliflərindən biri M.Mahmudbəyov, «Vətən dili»nin müəlliflərindən biri S.Vəlibəyov və başqaları da seminariyada təhsil almışlar. Ə Seyidov seminariyanı 1917-ci ildə bitirmişdir.

Zaqafqaziya Məllimlər Seminariyası digər seminaristlər kimi Ə.Seyidovun da bütün şüurlu həyatında böyük bir iz qoymuşdur. Professorla birlikdə işlədiyimiz 25 il ərzində biz daim bu seminariya, oradakı tədris-tərbiyə işinin mütərəqqi cəhətlərinə, qayğıkeş müəllimlərin, ilk növbədə F.Köçərlinin müəllim kadrlarının

hazırlığına göstərdiyi qayğıya aid söhbətlərə tövsiyələrə maraqla qulaq asardıq.

Hələ seminariyada oxuyarkən mütərəqqi rus və dünya pedaqoji ideyalarından, qabaqcıl məktəb təcrübəsindən faydalanan, xüsusilə də K.D.Uşinskinin və onun Zaqafqaziyada tanınmış ardıcıllarından olub, bir müddət seminariyaya rəhbərlik edən D.D.Semyonovun xeyirxah fikirlərindən bəhrələnən Əhməd Seyidov öz həyatını müəllimliyə, gənc nəslin tə'lim və tərbiyəsinə həsr etməyi qərara almışdı.

Əhməd Seyidovun pedaqoji fəaliyyətə başlaması bəşər tarixində yeni dövr açan Böyük Oktyabr sosialist inqilabı ilə bir dövrə təsadüf etmişdir. O, 1917-ci ilin sentyabrında doğma Aslanbəyli (indiki Qazax rayonunun Əli Bayramlı kəndi) kəndində qız məktəbinin əsasını qoyur. Bu, demək olar ki, o kəndlərdə dünəyəvi təhsil verən ilk qız məktəbi idi. Yeri gəlmişkən deyək ki, onun doğma kəndindəki məktəb bu gün Əhməd Seyidovun adını daşıyır. Ə.Seyidovun doğulduğu, boya-başa çatdığı zəhmətkeş balaları üçün ilk dəfə rəsmi məktəb açaraq onlara tə'lim-tərbiyə verməyi qarşısına qoyan maarif fədaisi üçün böyük şərəfdir, el ağsaqqalına xalq ehtiramıdır.

20-ci illərdə Azərbaycanda bir çoxları kimi Əhməd müəllim də yeni məktəblərin təşkilinin, yaşlı əhali arasında savadsızlığın ləğv edilməsi uğrunda aparılan gərgin mübarizənin ön cərgəsində olmuşdur. 1920–30-cu illərdə Qazax qəza xalq maarif şö'bəsində inspektor, Aslanbəyli, Musagöy, Kosalar kənd məktəblərində direktor, Lənkəran xalq qəza maarif şö'bəsinin müdiri, Azərbaycan SSR Xalq Maarif Komissarlığında dəmiryolu məktəbləri üzrə inspektor vəzifələrində çalışmışdır. Respublikanın kənd yerlərində məktəb təhsilinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirlərinə dair Ə.Seyidovun bu gün arxivlərdə saxlanılan sənədlər onun çox səmərəli fəaliyyətindən xəbər verir.

Ə.Seyidovun elmi-pedaqoji fəaliyyətində istər ibtidai, istərsə də ali məktəb üçün dərslik yazıb nəşr etdirməsi xüsusi əhəmiyyətə malikdir. O hələ 1929–1930-cu illərdə dövrünün tanınmış müəllim və yazıçısı Hacı Kərim Sanılı ilə birlikdə birinci sinif şagirdləri üçün «Əlifba» kitabını nəşr etdirmişdir. Müəlliflər zəngin Azərbaycan məktəb və pedaqoji ideyalarından, qabaqcıl rus pedaqoqlarının

təcrübəsindən faydalanaraq həmin dərsliyi sadədən mürəkkəbə prinsipi üzrə tərtib etməklə, kitabın tə'lim əhəmiyyəti ilə yanaşı onun tərbiyəedici xarakterinə ayrıca diqqət yetirmişlər.

1930-ci ildə qiyabi təhsil yolu V.İ. Lenin adına Azərbaycan Dövlət Universitetini (1927–1930-cu illərdə V.İ. Lenin adına APİ ilə birləşdirilən Universitet V.İ. Leninin adını daşıyırdı –H.Ə.) bitirən Ə.Seyidov ömrünün son yarım əsrə qədərki bir dövrünü respublikanın baş pedaqoji institutu ilə bağlamışdır.

V.İ. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda uzun müddət (45 il) səmərəli elmi-pedaqoji fəaliyyət göstərən Ə.Seyidov burada əvvəlcə assistent, dosent, fakültə dekanı, elmi işlər üzrə direktor müavini, sonralar isə institutun direktoru, ümumi pedaqogika kafedrasının müdiri və professoru vəzifələrində çalışmış və özündən sonra unudulmaz iz qoymuşdur. Professor Ə.Seyidov yüksək ixtisaslı müəllim kadrları hazırlığında yaxından iştirak edirdi. Onun vaxtilə dərs dediyi tələbələrin böyük bir dəstəsi bu gün təkcə respublikamızın deyil, qardaş Ermənistan və Gürcüstan SSR-in məktəblərində də gənc nəslin tə'lim və tərbiyəsi işində müvəffəqiyyətlə çalışır. Sov.İKP XXVII qurultayının qarşıya qoyduğu tarixi vəzifələrin yerinə yetirilməsində əzmkarlıq göstərir.

Professor Ə.Seyidovun elmi-pedaqoji fəaliyyəti zəngin və məhsuldar olmuşdur. 30-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda təhsil alan ilk azərbaycanlı aspirantlar cərgəsinə daxil olan Seyidov 1939-cu ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Onun böyük həvəslə tədqiq etdiyi «Azərbaycan maarifçisi A.Bakıxanovun pedaqoji görüşləri» adlı əsəri 1940-cı ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filalı tərəfindən keçirilən elmi müsabiqədə mükafata layiq görülmüşdür.

Ümumiyyətlə professor Ə.Seyidovun xalqımızın qədim və zəngin pedaqoji fikir tarixini araşdırması xüsusi əhəmiyyətə malikdir. Müasirlərinin, ölkənin tanınmış alimlərinin onun haqqında dedikləri aşağıdakı sözlər də fikrimizi təsdiq edir. SSRİ PEA-nın həqiqi üzvü, akademik Y.N.Medınski: «Ə.Seyidov Azərbaycan pedaqoji fikir tarixinin pioneridir». Həmin akademiyanın həqiqi

üzvü, akademik N.K. Qonçarov: «Siz Azərbaycan sovet pedaqoji fikir tarixi elminin akademiki, canlı ensiklopediyasınız».

Professor Ə.Seyidov 40-cı illərdən e'tibarən XIX əsr Azərbaycanının bir sıra görkəmli pedaqoji fikir nümayəndələrinin, o cümlədən professor Mirzə Kazım bəyin, M.Ş.Vazehin, M.F.Axundovun, S.Ə.Şirvaninin və H.Zərdabinin qiymətli pedaqoji ideyalarını böyük səbirlə tədqiq etmiş, XIX əsrdə Azərbaycan pedaqoji fikir tarixini ümumiləşdirmiş və sistemə salmışdır. Məhz bu tədqiqatın nəticələri əsasında o, 1949-cu ildə Moskvada sovet pe1daqoji elmlərinin baş qərargahında RSFSR PEA-da doktorluq dissertasiyası müdafiə edərək təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru alimlik dərəcəsini almışdır.

Ə.Seyidovun «XIX əsrdə Azərbaycanda pedaqoji fikrin görkəmli nümayəndələri» adlanan həmin tədqiqat işi tanınmış pedaqogika tədqiqatçıları tərəfindən yüksək qiymətləndirilmişdir. Müasirlərinin dediyinə görə Ə.Seyidovun bu tədqiqatı – klassik pedaqoqlarımızın dağınıq pedaqoji ideyalarını bir-bir üzə çıxarmaq-qum səhralarında səpələnmiş lə'l – cavahir dənələrini bir-bir axtarıb tapmağa, ipə-sapa düzməyə bərabər idi. Bu sözlərdə böyük hikmət və həqiqət vardır.

Ə.Seyidovun elmi-pedaqoji fəaliyyətinin son dövrü də məhsuldar olmuşdur. O, bir tərəfdən orta əsrlərin, digər tərəfdən isə XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikir tarixindəki boşluqları tamamlamağa sə'y göstərmişdir. XII əsr Azərbaycanının və bütün Şərqin ən böyük mütəfəkkiri və tərbiyə nəzəriyyəçisi N.Gəncəvi, M.Füzuli, F.Köçərli, M.Ə.Sabir C.Məmmədquluzadə və başqalarının tə'lim-tərbiyə haqqındakı fikirlərini tədqiq edib çoxminli müəllimlər ordusuna, geniş oxucu kütləsinə çatdırmaq məhz ilk növbədə, professor Ə.Seyidovun xidməti sayəsində mümkün olmuşdur. Onun bu sahədəki xidmətlərini ayrıca qiymətləndirən Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, professor Ə. Dəmirçizadə yazmışdır: «Ə.Seyidovun şəksiz xidməti XIX əsr Azərbaycan mədəniyyəti nümayəndələrinin irsini marksizm-leninizm metodologiyası əsasında tədqiq etməsidir. Bununla da onların pedaqoji görüşlərini sistemə salmış, hər şeydən əvvəl, pedaqogika elmini zənginləşdirmişdir»…

Professor Ə.Seyidovun elmi-tədqiqat fəaliyyətinin çox vacib bir qolunu dünya klassik pedaqogikasının görkəmli nümayəndələrindən Y.A.Komenski, C.Lokk, J.J.Russo, İ.H.Pestalotsi, İ.Herbart, rus inqilabçı demokratları: V.Q. Belinski, A.İ. Gertsen, N.Q.Çernışevski və N.A.Dobrolyubovun, rus pedaqogika elminin banisi K.D.Uşinskinin həmçinin L.N. Tolstoy, P.F. Lesqaft, N.İ.Piroqov, İ.N.Ulyanov və başqalarının pedaqoji görüşlərini işləmək təşkil edir. Demək yerinə düşər ki, azərbaycanlı oxucular, o cümlədən ali pedaqoji məktəb tələbələri və müəllimləri, aspirant və dissertantlar göstərilən şəxsiyyətlərin pedaqoji ideyaları ilə ilk dəfə məhz Ə.Seyidovun bu tədqiqatları sayəsində tanış olmuşlar.

İlk sovet marksist pedaqoqlarından biri olan N.K.Krupskayanın, novator pedaqoq A.S.Makarenkonun pedaqoji fəaliyyəti və görüşlərini azərbaycanlı oxuculara çatdırmaq da Ə.Seyidovun xidmətlərindəndir.

Professor Ə.Seyidovun çox mühüm keyfiyyətlərindən biri bu və ya digər məsələyə, bu və ya digər dövrdə yaşamış pedaqoqun fəaliyyətinə və ideyalarına qiymət verərkən marksist-leninçi metodologiyaya sadiq qalması idi. Biz bu sahədə bir çox mübahisələrdə, müzakirələrdə onun dəfələrlə şahidi olmuşuq. Bu onu müasirlərindən fərqləndirən ən başlıca cəhət idi.

Professor Ə.Seyidov təkcə pedaqogika tarixi ilə məşğul olmamış, eyni zamanda pedaqogikanın nəzəriyyəsi sahəsində tədqiqat aparmışdır. O, tərbiyənin sinfi mahiyyəti, gənclərin kommunist tə'lim və tərbiyəsi məsələləri, müəllim və onun hazırlığı problemlərinə dair irili-xırdalı 100-dən artıq əsər və məqalə nəşr etdirmişdir.

Onun 1946-cı ildə yazdığı «Kitab üzərində necə işləməli» adlı kitabçasına diqqət yetirək. Orta məktəb şagirdləri və ali məktəb tələbələri üçün nəzərdə tutulmuş bu kitabda əqli əməyin təşkili, müstəqil işin planlaşdırılması və təşkili, kitab üzərində iş, ilk mənbələr, dərslik və digər əsərlər üzərində işlərkən şagirdin (tələbənin) edəcəyi qeyd növləri, mühazirə və mə'ruzəni dinləmə qabiliyyəti ətraflı şərh olunur. Şagirdin (tələbənin) imtahana və mə'ruzəyə hazırlaşarkən müxtəlif mənbələrdən istifadə etmək metodları təhlil edilir. Mütaliə zamanı başlıca məsələləri ayırd etməyi bacarmağa dair V.İ.Leninin kitab üzərində işləmək təcrübəsi göstərilir.

Kitabda psixoloji xüsusiyyət, o cümlədən təfəkkür, hafizənin iştirakı şərh olunur, əqli təhsil ilə fiziki əməyin əlaqələndirilməsinə dair tövsiyələr verilir. Kitabda bu gün üçün də faydalı cəhətlər çoxdur.

Professor Ə.Seyidov respublika ali pedaqoji institutları üçün ana dilində yazılmış ilk pedaqogika tarixi dərsliyinin müəllif olmuşdur. Onun 1959–1960-cı illərdə nəşr etdirdiyi üçcildlik (1 və 2 cildlər dosent Ə.S.Tağıyevlə birlikdə yazılmışdır) və 1968-ci ildə «Maarif» nəşriyyatının çap etdiyi irihəcmli «Pedaqogika tarixi» 20 ildir ki, tələbələrin əsas dərs vəsaitidir. Pedaqoji İnstitut və Dövlət Universitetinin minlərlə tələbəsi pedaqogika tarixi üzrə biliklərə məhz bu kitablar vasitəsilə yiyələnirlər.

Ə.Seyidovun 1958-ci ildə Azərnəşr tərəfindən buraxılmış «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən», həmçinin bu günlərdə «Maarif» nəşriyyatı tərəfindən nəfis şəkildə çap ediliş «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən» adlı monoqrafiyaları oxucuların stolüstü kitablarındandır. Professorun yetirmələrindən biri pedaqoji elmlər namizədi A.Eminov tərəfindən tərtib edilən və çapa hazırlanan monoqrafiya onun son tədqiqatlarını əhatə edir. Ə.Seyidovun bu kitabının nəşri Anri Barbüsün «İnsan ancaq ölümündən sonra yaşayır» fikrinə bir daha həyat verir. A. Eminovun kitaba yazdığı «Görkəmli pedaqoq, yorulmaz müəllim» adlı ön söz təkcə onun deyil, Seyidovun bütün yetirmələrinin ürək sözləridir. Həqiqətən də Ə.Seyidovun elmi-pedaqoji irsi və fəaliyyəti bugünkü və gələcək nəsil üçün layiqli örnəkdir. Onun keçdiyi şərəfli yol xalqımızın mədəniyyət tarixinin ən parlaq səhifələrindən birini təşkil edir.

Deyirlər ki, müəllim öz şagirdlərinin, tələbələrinin həyatında yaşayır. Bu gün təkcə Azərbaycanda deyil, həmçinin qardaş Zaqafqaziya və Orta Asiya respublikalarında, Şimali Qafqazda çalışan pedaqoqların böyük bir dəstəsi profesor Ə.Seyidovun yetirmələridir. Bu gün respublikamızın bütün ali pedaqoji institutlarında çalışan pedaqoqlar ordusunun böyük bir hissəsi məhz onun rəhbərliyi altında yetişmişdir. Ə.Seyidov təkcə elmlər namizədlərinin deyil, elmlər doktorlarının hazırlanmasında da fəal iştirak etmişdir.

Professorun elmi fəaliyyəti respublika çərçivəsindən uzaqlara çıxmış, onun əsərləri Ümumittifaq oxucusuna tanış olmuşdur.

Azərbaycanın məşhur maarifçi pedaqoqlarının mütərəqqi ideyaları ilə onları ilk dəfə Ə.Seyidovun əsərləri tanış etmişdir. Onun dördcildlik «Pedaqoji ensiklopediya», ikicildlik «Pedaqoji lüğət», «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər» monumental kitablarda nəşr olunmuş məqalələri dediklərimizə sübutdur.

Ölkəmizdə elmi-pedaqoji fikrin baş orqanı olan «Sovetskaya pedaqogika» jurnalında professor Ə.Seyidovun dərc etdirdiyi materiallar M.Füzulinin, M.F.Axundovun, H.Zərdabinin, F.Köçərlinin pedaqoji görüşləri haqqında silsilə məqalələr rus oxucularının rəğbətini qazanmışdır.

Bunu da qeyd etmək yerinə düşər ki, Ə.Seyidov həqiqətən, Azərbaycanda məktəb və pedaqoji fikir tariximizin tədqiqi sahəsində bütöv bir məktəb yaratmışdır. Bu gün yetirmələrinin böyük bir dəstəsi onun açdığı ilk cığırları daha da genişləndirir, onun ideyalarını inkişaf etdirirlər.

Professor Ə.Seyidovun yetirdiyi alimlər tərəfindən müttəfiq respublikalar arasında ilk dəfə Azərbaycanda hazırlanan, tətbiq edilən və SSRİ Maarif Nazirliyinin EMŞ-sı tərəfindən bəyənilən və yayılması qərara alınan «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» üzrə sistemli xüsusi kurs ağsaqqalımızın arzularını həyata keçirmək sahəsində irəliyə doğru atılmış bir addımdır.

Partiya və hökumətimiz professor Əhməd Seyidovun xidmətlərini yüksək qiymətləndirmişdir. O, «Qırmızı Əmək Bayrağı» ordeni və medallarla, dörd dəfə Azərbaycan SSRİ Ali Soveti Rəyasət Hey'ətinin fəxri fərmanı ilə təltif edilmişdir. 1955-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. Azərbaycan pedaqoqları arasında bu fəxri ada ilk dəfə məhz Ə.Seyidov layiq görülmüşdür.

Ə.Seyidov görkəmli müəllim idi. O, sözün həqiqi mə'nasında böyük tərbiyəçi, yorulmaz tədqiqatçı idi.

«Azərbaycan məktəbi» jurnalı
1988-ci il, №1, s.58–62.

Təvazökar alim

Həyatda elə insanlar var ki, onların şəxsi ləyaqətlərindən, nəcib sifətlərindən danışmaqla doymaq olmur. Belə adamlarla tanışlıq qəlbə sevinc gətirir. Çünki sən onun timsalında ağıllı bir yoldaşla, ürəklərə nüfuz edə bilən sadə, təvazökar və səmimi bir insanla ülfət bağlamış olursan. Bilirsən ki, sevincinə, kədərinə şərik olan qayğıkeş bir dostun var. Yaşının 50 ili bu yaxınlarda tamam olan Mərdan Əsədulla oğlu Muradxanov məhz belə yoldaşlardandır.

Bu nəcib insanın fəaliyyəti geniş və hərtərəflidir. Onun keçirdiyi illərin çoxu elm, maarif və mədəniyyət uğrunda namusla xidmət etməyin gözəl nümunəsidir.

Salyanda müəllim ailəsində doğulan M. Muradxanov ailəsinin tə'siri nəticəsində pedaqoji sahəyə, balaların tərbiyəsi ilə məşğul olmağa xüsusi meyl göstərir və bu sahə üzrə həm orta, həm də ali pedaqoji təhsil alır, gücünü həm psixologiya, həm də pedaqogika sahəsində sınamağa başlayır.

Mərdan Muradxanov otuz yaşında ikən Gertsen adına Leninqrad Pedaqoji institutunun aspiranturasını da bitirdi. Sonra o, Bakıya qayıdıb bir sıra ali məktəblərdə – Azərbaycan Dövlət Bədən tərbiyəsi institutunda, ADPİ-də, ETPİ-də işlədi, namizədlik dissertasiyasını müdafiəyə hazırlamağı da unutmadı. O, «Nizaminin pedaqoji görüşləri» mövzusunda dissertasiya müdafiə etdi. Muradxanov 1946-cı ildən 1952-ci ilə qədər Azərbaycan ETPİ-də direktor müavini və direktor işləmiş, 1952-ci ildən 1956-cı ilə qədər isə V.İ.Lenin adına ADPİ-nin pedaqogika kafedrasına rəhbərlik etmişdir. Hazırda da bu kafedranın dosentidir.

Mərdan müəllimin fəaliyyətində elmi-tədqiqat işi xüsusi qeydə layiqdir. O hələ tələbə ikən dərsliklər tərtib edib bu günə qədər respublikanın müxtəlif qəzet və jurnallarında yüzlərlə elmi-pedaqoji və metodik məqaləsi dərc olunmuşdur. 1930-cu illərin «Müəllim qəzeti» və «Müəllimə köməkə» jurnalından başlayaraq böyük Sovet Ensiklopediyasınadək müxtəlif qəzet, jurnal, məcmuə və elmi əsərlərin səhifələrində müxtəlif mövzularda çıxış edən Muradxanov özünün orijinal fikirləri ilə Azərbaycanda pedaqoji elmin inkişafı,

maarif və mədəniyyətin yüksəlişi üçün əlindən gələni əsirgəməmişdir.

M.Muradxanov respublika maarif ordusunun stolüstü kitabından olan 20-dək pedaqoji əsərin müəllifdir. Onun əsərlərinin mövzusu da müxtəlifdir. Mərdan müəllim bir tərəfdən Azərbaycanın klassik pedaqoqlarını tədqiq etmiş, digər tərəfdən də rus və dünyanın ən məşhur pedaqoqlarının bir sıra mühüm əsərlərini Azərbaycan dilinə tərcümə etmiş və onlara izahat yazmışdır. Azərbaycanın dahi şairi Nizaminin pedaqoji görüşlərini tədqiq edib, ictimaiyyətə çatdırmaq, böyük çex pedaqoqu Komenskini, ingilis filosofu Lokku, klassik rus pedaqoqu K.D.Uşinskini, məşhur sovet pedaqoqu A.S.Makarenkonu Azərbaycan dilində oxuculara təqdim etmək Mərdan müəllimin göstərdiyi xidmətin parlaq nümunələrindəndir. Təkcə Makarenkoya aid o, üç böyük kitabın və ona qədər irihəcmli məqalənin müəllifidir. Muradxanov yalnız respublika daxilində deyil, ümumittifaq miqyasında da bu böyük pedaqoqun tanınmış tədqiqatçılarından sayılır. O, Makarenkonun pedaqoji irsini ətraflı tədqiq və təhlil etməklə yanaşı, bundan Azərbaycan şəraitində istifadə etməyin bir sıra orijinal yollarını da göstərmişdir Mərdan müəllim özünün pedaqoji fəaliyyətində də Anton Semyonoviçin pedaqoji irsindən geniş istifadə edir. Məhz buna görədir ki, iş yoldaşlarından və tələbələrindən çoxu onu «Azərbaycanın Makarenkosu» adlandırır.

Muradxanov yoldaş pedaqogikanın müasir məsələlərinə də xüsusi fikir verir.

O, sovet məktəblərində tə'lim və tərbiyə məsələlərinə aid bir sıra elmi-əsər və məqalələr yazmışdır. «Orta məktəblərdə politexnik tə'lim», «Ailə və məktəb», «Ailədə uşaqların əmək tərbiyəsi», «İntizam tərbiyəsi», «Kommunist əxlaqı haqqında», «Məktəbin rejimi» və digər aktual məsələlər onun tez-tez toxunduğu tədqiqat mövzularıdır.

Muradxanovun digər müəlliflərlə bərabər ali pedaqoji məktəb tələbələri üçün yazdığı «Pedaqogika» dərsliyinin bu yaxınlarda çapdan çıxmış birinci cildi maarif işçiləri tərəfindən yüksək qiymətləndirilmişdir. Mərdan müəllimin redaktorluğu ilə həmin dərsliyin ikinci cildi də çapa hazırlanır.

Muradxanov Azərbaycanda pedaqogika və psixologiya terminləri lüğətlərinin hazırlanmasında fəal iştirak etmiş və Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən nəşr olunan həmin lüğətin redaktoru olmuşdur. Ümumiyyətlə, Muradxanov tərəfindən hazırlanan kitab və məqalələrin həcmi 170 çap vərəqindən artıqdır.

Mərdan müəllim həmçinin elmi kadrların hazırlanmasında da fəal iştirak edir. Hazırda ali məktəblərdə pedaqoji elm sahəsində çalışan elmlər namizədlərinin bə'ziləri məhz onun yetirmələridir.

Mərdan müəllim 20 ildən artıqdır, respublikanın ali məktəblərində dərs deyir. Yalnız Azərbaycanda deyil, Gürcüstan və Ermənistan məktəblərinin də çoxunda Muradxanovun yetişdirdiyi müəllimlər işləyirlər.

Muradxanov müəllimlərin və elmi işçilərin respublika və Zaqafqaziya üzrə keçirilən bir sıra elmi konfranslarında iştirak etmiş, öz mə'ruzə və çıxışları ilə maarif işçilərinin, respublika zəhmətkeşlərinin hüsn-rəğbətini qazanmışdır. Bütün bu xidmətlərinə görə Mərdan müəllim «Qabaqcıl maarif xadimi» nişanı və Maarif, Ali Məktəb və Elmi İdarə İşçiləri Həmkarlar İttifaqının Respublika Mərkəzi komitəsinini fəxri fərmanı ilə təltif edilmişdir.

Təvazökar alim, həqiqi elm adamı və ən nəcib keyfiyyətləri özündə əks etdirən qayğıkeş Mərdan müəllimə yaradıcılıq yollarında yeni müvəffəqiyyətlər arzulayırıq.

«Azərbaycan müəllimi» qəzeti, 9 iyul 1959-cu il. Məqalə prof.Y.Talıbovla birgə yazılmışdır,

Tanınmış Azərbaycan maarifçisi
Səidrza Əlizadə (1887 – 1945)

Görkəmli maarifçi, iste'dadlı ədib, tərcüməçi, teatr sənətinin görkəmli xadimi, maarif qəhrəmanı S.Əlizadə 15 fevral 1887-ci ildə Səmərqənd şəhərində kasıb azərbaycanlı ailəsində anadan olmuşdur.

S.Əlizadə misilsiz yaradıcılıq qabiliyyəti ilə seçilsə də, onun uşaqlıq və gənclik yelkəninə ağır günlər düşdü. O, köhnə üsullu məktəbdə oxuyub, lazımi dərəcədə bilik aldı. Dərsdən boş

vaxtlarında atasının toxumçuluq dükanında işləyirdi, S.Əlizadə zamanın tanınmış müəllimlərindən tə'lim alıb, dünya elmlərini və din tə'limini dərindən öyrənirdi. Xüsusən rus, özbək, fars, tacik, tatar, ərəb, erməni, yəhudi, fransız, ingilis, kürd dillərini öyrənmək ona çoxlu şöhrət gətirdi.

S.Əlizadə 1902-ci ildən tərəqqipərvər, maarifçi və xeyirxah insan kimi tanınmış azərbaycanlı Şeyx Əbülqasım Əlgəncəvinin Səmərqənddəki yeni üsullu məktəbində müəllimlik edib. O, bu illərdən maarifçilik fəaliyyətinə başlayır və öz qələminin gücünü sınamaq üçün «Səmərqənd» qəzetində müxtəlif məqalələrlə çıxış edir. Bununla qənaətlənməyən S.Əlizadə yeni üsullu məktəblər üçün dərslik və proqramlar yazmağa başlayır. «Qələm əhlinə də'vət» (Nido ba əhli kalam») əsərində Səmərqəndin yeni üsullu məktəbində keçirilən ümumi coğrafiya, qısa tarix kursu, riyaziyyat, həndəsə, ərəb dili qrammatikası, təbiət fənləri haqqında mə'lumat verir.

S.Əlizadə 1906-cı ildə «Elmi hesab» dərsliyini yazdı. Sonra isə o, V.Rəhmaninov ilə birlikdə bir riyaziyyat dərsliyi – «Hasilat» çap edir. Sonrakı illər ərzində o, T.Kazımzadə və İ.Muinovlarla birlikdə yeni üsullu pulsuz məktəblər təşkil edib kasıb uşaqlarını oxutdurur. Onun yetirmələrindən biri fərdi təqaüdçü F.A.Aqilov öz hörmətli müəlliminin bu dövrdəki fəaliyyətini belə səciyyələndirir.». Əlizadə kasıb balaları üçün təşkil edib oxutdurduğu tələbələr arasında mən həm varidim. Özünün onsuz da az olan maaşına, bizim müəllim bizlər üçün tez-tez qələm, kitab-dəftər, çox hallarda paltar və ayaqqabı da alırdı.»

S.Əlizadə 1905–1907-ci illər ərzində gündüzlər ağır maarif işindən sonra, gecələr Lemurov və Sliyanovların mətbəələrində hərf yığıcısı işləyirdi. Mətbəədə işləyərkən «Molla Nəsrəddin» jurnalında maraqlı materiallarla çıxış edirdi. Bununla bərabər özünün aforizm kimi səslənən fikrini «Müəllim və mühərrir millətin iki qoludur» – fikrinə öz əməli işilə cavab verirdi.

S.Əlizadə Azərbaycanda, Krımda, Səmərqənddə, Daşkənddə, Buxarada və xarici ölkələrdə çap edilən inqilabi «Molla Müşfiqi», «Molla Nəsrəddin» və s. jurnallar, «Zəfəran», «Hüriyyət», «Səmərqənd», «Ovozi tacik», «Ruskaya okraina» və s. qəzetlərdə maarif məsələlərinə aid publisistik məqalələr yazardı. Onun

«Məktəblər və mədrəsələrdə islahatlar zəruridir» məqaləsi bu baxımdan xüsusilə maraqlıdır.

S.Əlizadənin tərcüməçi kimi də fəaliyyəti diqqətəlayiqdir. O, A.V.Ankofun «Həndəsə» (1927), S.Kisilyovun 2 hissədən ibarət «Cəbr» (1935) dərsliklərini, Sinver Entonin «yüz faiz» (1934), A.S.Puşkinin «Kapitan qızı» (1936), «Dubrovski» (1937), L.N.Tolstoyun «Dirilmə» (1937), F.Qladkovun «Sement» (1938), N.A.Ostrovskinin «Polad necə bərkidi» (1938), M.Şoloxovun «Oyanmış torpaq» (1938), A.Qədirinin «Ötən günlər» (1936) əsərlərini və s. tacik dilinə məharətlə tərcümə etmişdir.

S.Əlizadə ilə birlikdə işləyən həmyerlimiz Rəhim Həşim onun fəaliyyətini yüksək qiymətləndirərək yazmışdı: «Tacikistan dövlət nəşriyyatı təşkil olan illərdən çoxlu bədii əsərlər Əlizadə tərəfindən tacik dilinə tərcümə olunurdu…» («Şərqi Surx») jurnalı, 1962, №4).

S.Əlizadə 1917-ci ildə özbək məktəbləri üçün ilk «Əlifba» kitabını nəşr edib məktəblərə pulsuz paylayır. Müəllif bu əlifbanı hərf-səs üsulunda yazıb əvvəlcə hərfləri verir və onlara uyğun mətnlər əlavə edir. Bu birinci özbək əlifbası haqqında söz açanda onu iki əsas yönümdən – pedaqoji əsər və ədəbi əsər kimi təhlil etmək olar.

Dərsliyin «Müəllif müqəddiməsində «Əlifba»nı tərtib etmək üsulları izah olunur. Müəllif xüsusən birinci sinif şagirdlərinin psixoloji xüsusiyyətlərini və səviyyəsini nəzərə alıb «Əlifba»nı qısa, sadə və tez mənimsənilən dillə yazdığını qeyd edir.

«Əlifba»da 3 şe'r və 24 hekayə verilmişdir. Hekayələri məzmun və mahiyyətinə görə üç hissəyə ayırmaq olar.

1.Folklor, Şərq və Özbək klassik ədəbiyyatından istifadə şərti ilə yazılmış olan hekayələr, «Loğmanı həkim», «Hikmətli dilənçi», «Məğrur qaz», «Oğru», «Acgözlük», «Alverçinin hiyləsi», «Başqasının məktubunu oxuma», «Savadlılıq və savadsızlıq».

2.Rus klassik ədəbiyyatından tərcümə olunmuş hekayələr («Acgöz it», «Canavar və durna», «Canavar və çobanlar», «Hiyləgər qarğa»).

3.Müəllifin özünün yazıb-yaratdığı hekayələr («Allahtala», «Dayı və bacıoğlu», «Murad və Tursun», «Ev heyvanları», «Şərif və

anası», «İtçi və dostu», «Ağaclar», «Sular», «Ev quşları», «Məktublar», «Molla Nəsrəddinin yorğanı»).

«Əlifba» dərsliyində tədris materialları maraqlı sərlövhələrlə («Elmi hesabda dörd əməl var»: cəm, tək, zərb, təqsim; «Yaman adamdan hamı qaçır», «Dilənçiyə əzab vermək yaxşı deyil», «Aşın halal olsa çıxarıb küçədə ye», «Axşamın söhbətindən qaç» və s.) təqdim olunur. Bə'zi nümunələrlə tanış olaq.

Əlifba dərsliyindən ibrətli hekayələr

Dayı və bacıoğlu

Bir gün Şərif öz bacıoğlusuna dedi:

«Əhməd, əgər allahın yerini mənə desən, sənə bir alma verərəm».

Əhməd cavab verdi: «Dayı, əgər siz Allahın olmadığı yeri mənə göstərsəniz, öz çəkkumu sizə bağışlaram» (səh.67).

Murad və Tursun

Murad ilə Tursun bağda qoyun otarırdılar. Tursun Murada dedi: «Əgər qoyunlarından birini mənə versən, mənim qoyunlarım sənինkindən üç dəfə artıq olar».

Murad ona cavab verdi: «Sənin qoyunların mənimkindən çoxdur. Birini mənə ver ki, ikimizinki həm bərabər olsun» (səh.68).

Acgözlük

Bir bala yolda bağırıb ağlar idi. «Nə üçün ağlayırsan?» soruşdu ondan bir yolçu. Bala: «Bir abbası pulumu itirdim.

Yolçu: «Ağlama, al, sənə bir abbası».

Uşaq pulu alıb yenə də ağladı. Yolçu: «İndi nə üçün ağlayırsan?!

Uşaq: «Əgər bir abbası pulumu itirməsəydim indi pulum iki abbası olardı» (səh.78).

Molla Nəsrəddinin yorğanı

Bir gecə molla evdə yatmış idi.
Üstünə təzə yorğanını salmış idi.
Qəflətən oldu küçədə haray.
Böyük cəngəl, zövqüsüz bir dava
Elə ki bu davanı molla eşitdi.
Başına yorğanı atıb küçəyə getdi.
Gördükü küçədə zor tamaşadı.
Bir qədər adam savaşmaqdadı.
Molla onları ayırmaqçı oldu.
Yorğanını arada alıb qaçdılar.
Molla heyran oldu bu əhvaldan.
Gəldi evinə ayrılıb maldan
Soruşdu arvadı: – Ay molla
Nə üçün küçədə oldu tamaşa?
Dedi molla: – arvad hamma
Yorğanın üstündə imiş hiylə.
Gecəki yorğanı məndən aldılar
Hamısı birdən qaçıb getdilər.

Hikmətli sözlərindən

Gün altında çıraq nur verməz.
Mətləbə yetişməkçün hər bəlaya dözmək lazımdır.
Lağlağın axarı – davanın başı.
Alimin fəsadi – aləmin fəsadı.
Dinə inam təsbihdə deyil.
Güman adamı imandan ayırar.
Sülh müharibəsiz olmaz.
Ömrünü əbəs keçirmə.
Haqq üçün sabit ol!
Haqlı söz tə'sirsiz qalmaz.
Ölüm haqdır, ölüm miras.

Hər işdə qayda-qanun lazımdır.
Hər kimin məzhəbi özünə əzizdir.
Sən himmət göstərsən, Allah qüvvət verər.
Müəllim və mühərrir millətin iki qoludur.
Elmsiz heç bir millət inkişaf etməz.

Bə'ziləri təbərrük deyib, təsərrüfat[1] edir.
Əvvəl ehtiyat, sonra təvəkkül.
Faydasız işdən zərər gəlir.
Hər ittihaqın bir ixtilafı olur.

S.Əlizadə görkəmli yazıçı, şair və publisistlərdən S.Ayni, Qulam Əli Kazımzadə, Dekdaş, Zehni, Muxtari və başqaları ilə yaxından əməkdaşlıq edirdi.

S.Əlizadə öz yaradıcılığında dil məsələsinə xüsusi diqqət yetirmiş və dilin təmizliyinə aid bir neçə məqalələr yazmışdır. Böyük maarifçi «Hər millət öz dili ilə fəxr edir» adlı məqaləsində yazırdı: Zəmanəmizdəki iki mühüm məsələlərdən biri də dil məsələsidir. Ayıq millətlər bunun əhəmiyyətini birinci məsələlərdən artıq hesab edirlər. Çünki dillərini gündən-günə təmizləyib, dillərinin içərisinə girən özgə sözləri onun tərkibindən çıxarıb islah edirlər. Həmişə öz dillərindən xəbərdardırlar. Hər kim yeri gələndə bir xarici söz yerinə ikiyə üç kəlmə sözlərindən qoşub axırına yetirirlər. Bu səbəbə görə də onların ədəbiyyat və millətləri gündən-günə tərəqqi etməkdədirlər. Həqiqətən hər hansı bir millət ki, öz dilini özgə lüğətlərdən təmiz saxlasa, öz millətini mühafizə etsə din və adətini əldən verməz. Lakin biz türkistanlılar isə qəflət və cəhalətimizin çoxluğundan, bu mühüm məsələdən həm xəbərsizik. Öz dilimizdə türkcə ya ərəbcə sözlər olduğu halda, yenə də həvəs üçün rus və yaxud fransız sözlərini araya qoşub istifadə edirik. İki türküstanlı bir-biri ilə danışanda həvəslə rus lüğətini (sözlərini) ortaya gətirib baxmaq xüsusən eyib olmalıdır. Başqa huşyar və tərbiyəli millətlər bu işi ar və böyük eyib hesablayırlar. Başqalarını bir tərəfə qoyaq. Bu türkistanımızla hansı bir rus, yaxud hansı bir erməni öz dilini qoyub, bir-biri ilə

[1] Təsərrüfat-ərəbcə–sahiblik etmək, yiyələnmək deməkdir.

danışırlar. Əmma biz danışdığımız vaxtda heç olmasa bir cümlədə bir kəlmə rus sözü işlədilir. Məsələn: mənə bir az (pomoqat) edin, onu bu qədər (iştiraf) etdilər, filan adamın dükanı (peçat) edildi, filankəsin bacına (arest) qoydular. Mən borcumu (sofsem) qurtardım, bu yer çox (çisto) –imiş, getdik (qulot) eləyək, filankəs (persiyan) ya ki (sart)-dır?… Axı bu sözlərin hamısı müsəlmancasına tərcümə olunur.

Məsələn: pomoqat – kömək eləmək,
iştiraf – cərimə,
peçat – möhür,
arest – həbs,
sofsem – tamam, yaxud bütün,
çisto – təmiz,
persiyan – iranlı,
sart – türküstanlı, yaxud özbək.

S.Əlizadə fikrini davam etdirərək göstərir ki, bunları yazmaqda məqsədimiz günahlandırmaq, yaxud oxumamaq və yaxud öyrənməmək deyil. Bəli!… heç bir ağıllı, huşlu adam rusca oxuyub danışmaq lazım deyil, deyə bilməz. Lakin öz dilini qoyub öz həmyerlisi, həmməzhəbi ilə rusca, fransızca və başqa dillə danışsa eyibdir, ardır, başqa sözlə desək gülməlidir.

Əgər ki, dilimizin qədir-qiymətini mühafizə eləməsək, ona xarici lüğət və sözləri qoşsaq yaxın bir zamanda dil və millətimizi itirəcəyik. Millətimizi itirsək məzhəbimiz öz-özünə yox olacaq. Onda bizim üçün dilimizi xarici sözlərdən mühafizə eləmək ən birinci mühüm məsələdir.

S.Əlizadə rus əhalisinə özbək və tacik dillərini öyrətmək üçün kurslar təşgil etmişdir. S.Əlizadə qədim Səmərqənd sakinlərini Azərbaycan incəsənəti ilə tanış etmiş, Ü.Hacıbəyovun «Arşın mal alan», «O, olmasın bu olsun» operettalarını, özbək dilində bir neçə pyesi səhnəyə qoymuşdur.

S.Əlizadə 1924-cü ildən e'tibarən «Zərəfşan» nəşriyyatının vəzifəsində işləsə də maarif məsələləri ilə yaxından maraqlanırdı. Öz məqalələrində məktəblərdə yeni tə'lim üsullarının tətbiqinə

xüsusi diqqət yetirirdi. S.Əlizadə bu fikirləri həyata keçirmək məqsədilə yeni tə'lim proqramları üçün lazımi dərsliklər yazmağa, bir sıra dərslikləri isə ruscadan tacik dilinə tərcümə etməyə başlayır. O, qısa vaxt içində tacik məktəbləri üçün «Əlifba», «Tacik yayı» (1927) oxu kitabını, iki hissədən ibarət «Tacik dili morfologiyası və sintaksisi» – dərsliyini (1926–1927), «Coğrafiyadan rusca-tacikcə terminlər lüğəti»ni (1934) yaratdı. S.Ayni və başqaları ilə birlikdə ikicildli ilk «Rus-tacik mükəmməl lüğətini» (1933–1934) nəşr etdirdi.

S.Əlizadə 1933–37-ci illərdə Özbək Dövlət Universitetində tacik, fars və ərəb dillərində dərs demişdir.

Tanınmış maarifçi bir çox məqalələrini müxtəlif təxəllüslərlə dərc edirdi. Hal-hazırki vaxta qədər onun 15-dən artıq təxəllüsü («Bəhlul divana», «Toziyana», «Zəmbur», «Sitəmdidə», «Rəncbər», «Kornər», «Molla Cünbül», «M.Çərəndqəy», «S.A.Səmərqəndi», «Bağışlamalı», «Nöhlər», «Müşti», «Caib», «Şapalaq», «S», «S.A») mə'lumdur. Bunlardan başqa S.Əlizadə, S.Əliyev və S.Əli təxəllüsləri ilə də çıxış edirdi.

S.Əlizadə özünün pedaqoji fəaliyyətində Abduləziz Fani, D.Cüzi, Rifat İstambuli, Abdulla Şaiq, S.Ə.Şirvani, S.Axundov, K.Uşinski, A.O.Çernyayevski kimi görkəmli alim və maarifçilərin əsərlərindən geniş istifadə etmişdir.

Hazırki dövrdə S.Əlizadənin geniş məzmunlu və zəngin irsini öyrənmək mə'nəvi tərəqqimiz üçün vacibdir.

Təkcə onu qeyd etmək kifayətdir ki, onun beş yüzə yaxın elmi əsəri, dərslikləri, lüğətləri, məqalələri, tərcümələri, şe'rləri Özbəkistanın və hətta bə'zi xarici ölkələrin kitabxanalarında saxlanılır[1]. Bizim fikrimizcə S.Əlizadənin misilsiz maarifpərvər

[1]S.Əlizadə 20-ci illərdə özünün əsərini əlyazması şəklində əfqan alimi və şairi Mirməhəmməd Gülmoniyaya (təxəllüsü Şerxon) xaricdə çap eləmək üçün vermişdir. Bu əsərlərdən üçü 1926–1927-ci illərdə Lahor şəhərində onun farsca tərcüməsində çap olunmuşdur. Qalan 7 əsərin taleyi isə naməlumdur. Bundan başqa S.Əlizadənin «Dinin vacibliyi» (Səmərqənd, 1915) əsəri Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda saxlanılır. S.Əlizadənin «Qələm əhlinə də'vət» (Nido ba əhli kalam, Səmərqənd, 1904) əsəri isə nəvəsi F.Q.Əlizadənin şəxsi arxivindədir.

fəaliyyətini öyrənmək üçün ciddi axtarışlar aparmaq son dərəcə vacibdir.

S.Əlizadə 1937-ci ildə stalinizmin qurbanı olub, səkkiz il xüsusi rejimli kameralarda əzab çəkib, 1945-ci ilin 25 dekabrında Vladimir şəhərindəki siyasi məhbuslar həbsxanasında vəfat edib, cəsədi Səmərqənd şəhərindəki «Pəncob» qəbiristanlığına gətirilib və orada dəfn edilib. Qəbri üstündə misdən abidə (büst) qoyulmuşdur. Onun yaşadığı evin darvazasının sağ tərəfində Azərbaycan xalqı adından mərmər lövhə qoyulmuşdur. Həmin bu ev yerləşən küçə və Səmərqənd şəhərindəki 14 №-li orta məktəb S.Əlizadənin adını daşıyır. Pedaqoji Universitet Xəbərləri. Pedaqoji-psixoloji elmlər seriyası 1995, №1, s.3–13. Məqalə Ə.Nəvai adına Səmərqənd Universitetinin müəllimi S.Q.Ociyevlə birlikdə yazılmışdır.

N.Nərimanov müəllim haqqında

N.Nərimanovun pedaqoji fikirlərində müəllim, onun şəxsiyyəti, müəllim kadrlarının hazırlanması məsələləri mühüm yer tutur. O, xalq arasında savadın yayılmasında, xalqın ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirirdi. Nərimanov müəllim sözünü geniş mə'nada başa düşür, müəllimin xalq kütlələri arasında apardığı işə, onun ictimai fəaliyyətinə böyük əhəmiyyət verirdi.

N.Nərimanov dövrün mütərəqqi, yenilikçi müəllimlərinin işlərini təqdirəlayiq hesab edirdi. O bunların yeni tipli «rus-müsəlman» məktəbləri açıb gənc nəsli yeni ruhda tərbiyə etmələrini, xalqın ümumi tərəqqisi uğrunda mübarizə aparmalarını, ümumiyyətlə o dövrdə maarif, məktəb, tə'lim və tərbiyə sahəsində nəzərə çarpan tərəqqini və onun səbəbkarlarının fəaliyyətini geniş təhlil edərək, belə müəllimlərin işinə yüksək qiymət verirdi. Nərimanov yazırdı ki, cavan müəllimlər «rus-müsəlman» məktəblərində müvafiq qayda ilə iş aparıb tərəqqi yolu arayırlar.

N.Nərimanovun fikrincə, hər bir millətin mədəni tərəqqisi məktəblə, məktəbin tərəqqi tapması isə müəllimlərlə bağlıdır. N.Nərimanovun fikrincə müəllim təkcə dərs verməklə kifayətlənməməli, ictimai-mədəni işlərdə fəal iştirak etməlidir. Onun

məqalələrində xalqın savadlanması və ümumi tərəqqisi üçün kütləvi kitabxana – qiraətxana açan, teatrın böyüklər üçün məktəb olmasını anlayıb bu işə artıq diqqət yetirən və bu məqsədlə yeni-yeni əsərlər yazan, qeyri dillərdən tərcümələr edən müəllimlərin işi təqdirəlayiq hesab edilir.

N.Nərimanovun fikrincə, müəllim olmaq böyük səadətdir, lakin bu səadət xalq tərəfindən rəğbətlə qarşılandıqda, müdafiə edildikdə və qiymətləndirildikdə daha xeyirli olur.

N.Nərimanov müəllimdən tələb edirdi ki, o pedaqogikanı, tə'lim və tərbiyənin prinsip və üsullarını yaxşı bilsin. N.Nərimanov şagirdlərin fərdi xüsusiyyətlərinə istinad etməyi tə'lim və tərbiyə işində müvəffəqiyyətin rəhni hesab edirdi. O, göstərirdi ki, müəllim tə'lim və tərbiyə işində şagirdlərin fərdi xüsusiyyətlərini bir an belə nəzərdən qaçırmamalıdır.

N.Nərimanov pedaqogika və psixologiyanın nəzəri məsələləri ilə bərabər, pedaqogika tarixini də bilməyə, klassik pedaqoqların, keçmişin zəngin pedaqoji irsini öyrənməyə və ondan faydalanmağa ayrıca əhəmiyyət verirdi. O, böyük və fədakar pedaqoqların, müəllimlərin həyat və fəaliyyətindən gətirdiyi ibrətli misallarla göstərirdi ki, xalqını, zəhmət adamlarını, yoxsulları və məzlumları sevən müəllimlər onların xoşbəxtliyi və tərəqqisi üçün hər cür cəfalar və məşəqqətlərə dözməyə razı olmuşlar. Onlar yalnız sözlə deyil, əməli işləri ilə də xalqa xeyirxah olduqlarını sübut etmişlər.

N.Nərimanov müəllimləri ömrünü xalq yolunda, zəhmətkeş balalarının tə'lim və tərbiyəsi uğrunda fəaliyyətə çağırmışdı. O, müəllimlərdən uşağı sevməyi, ona böyük qayğı göstərməyi, pedaqoji işdə yaradıcı olmağı daim yeni-yeni tə'lim-tərbiyə üsulları axtarmağı tələb edirdi. Bunun üçün isə uşaqları və müəllimlik sənətini sevməyi lazım bilirdi. Nərimanovun fikrincə, müəllim yalnız uşaqların müəllimi deyil, həm də özünün müəllimidir.

N.Nərimanova görə müəllimlik sənətinə hazırlaşan hər bir kəs klassik pedaqogikanın Y.A.Komenski (1592–1670), J.J.Russo (1712–1778), İ.H.Pestalotsi (1746–1827), K.D.Uşinski (1824–1870) kimi görkəmli nümayəndələrinin pedaqoji görüşlərini öyrənməli, onların fəaliyyətində və baxışlarında xeyirli cəhətləri götürməlidir. Bu cəhətdən Nərimanovun Pestalotsi haqqında yazdığı

məqalələr çox xarakterikdir. «Bir müəllim müəllimliyə hazırlaşarkən ola bilərmi ki, Henrix Pestalotsinin adını eşitməsin? Ola bilərmi ki, bunun uşaqlara olan məhəbbətini bilməsin? Tə'lim və tədrisə dair nəsihətlərini oxumasın?» – deyən Nərimanov göstərirdi ki, pedaqogika, o cümlədən, didaktika Pestalotsidən sonra tərəqqi etmiş və gələcəkdə də edəcəkdir. Lakin Pestalotsinin fikirləri yenə də öz qiymətini saxlayacaqdır. Nərimanova görə Pestalotsinin böyüklüyü orasındadır ki, o, yalnız nəzəriyyəçi deyil, eyni zamanda öz fikirlərini təcrübi olaraq həyata keçirən bir pedaqoqdur.

N.Nərimanov Pestalotsini bir də ona görə yüksək qiymətləndirirdi ki, Pestalotsi tə'lim və tərbiyə işlərində uşaqlara şəfqət və məhəbbəti hər şeydən üstün tuturdu.

«Pedaqoji tədqiqatlar» elmi əsərlər məcmuəsi 1996-cı il №1, səh.3–5.

80 yaş nədir ki…..

Həqiqətən də elə adamlar var ki, illər keçdikcə qocalmır, sanki onlara zamanın gücü çatmır. Anadan olmasının 80, elmi-pedaqoji fəaliyyətinin 60 illiyi tamam olan Əliş Həsənov belələrindəndir. Ömrünü-gününü gənc nəslin tə'lim-tərbiyəsinə həsr edən bu qocaman alim adi kənd müəllimliyindən pedaqoji elmlər üzrə alimlik dərəcəsi almağa qədər yüksəlmişdir. Dosent Əliş Həsənovun həyat yollarına nəzər saldıqda onun pedaqoji işə nə qədər ürəkdən, hərarətlə məftun olduğunu aydın görürük. Hələ gənclik illərində o, kənd ibtidai məktəbində müəllim, 7 illik məktəbdə direktor, maarif şö'bəsində müdir vəzifəsində işləmişdir.

1932-ci ildə V.İ. Lenin adına APİ-ni müvəffəqiyyətlə bitirən Əliş müəllimdə pedaqoji elmə həvəs və maraq daha da artmış, bir müddət Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda işləmiş, 1939-cu ildə Leninqraddakı Gertsen adına Pedaqoji İnstitutun aspiranturasında təhsil almış, sonra Bakıya qayıtmışdır.

Əliş müəllim uzun müddət respublika Qiyabi Pedaqoji İnstitutunda kafedra müdiri işləmişdir. O, əmək fəaliyyətinin bir anında belə sevimli müəllimlik sənətindən ayrı düşməmiş və qəlbinin bütün ehtirası ilə ona bağlı olmuşdur. O, həmişə olduğu kimi, yenə

böyük fərəh hissi ilə qeyd edir ki, harada işləsəm ömrümün ən təravətli illərini keçirdiyim və qoynunda ali təhsil aldığım V.İ. Lenin adına Pedaqoji İnstitutla bağlı olmuşam.

Əliş Həsənov 1965-ci ildən institutda pedaqogika tarixini tədris edir. Özünəməxsus yaradıcılıq yolu keçən, az, lakin mə'nalı, aktual mövzuda yazan Əliş Həsənov 10-dan çox kitabçanın, 50-dən yuxarı irihəcmli jurnal və qəzet məqaləsinin müəllifidir. Onun yazmış olduğu «Valideynlər uşaq oyunlarına aid nələri bilməlidirlər», «Uşaqların boş vaxtını necə təşkil etməli», «K.D. Uşinski savad tə'limi haqqında», «İbtidai məktəbdə mədəni adət və vərdişlər», «Vətən müharibəsi dövründə şagirdlərin ictmai-faydalı işləri» və s. əsərləri gənc nəslin tə'lim-tərbiyəsində mühüm əhəmiyyət kəsb edir. Alimin son illər A.O. Çernyayevskinin və M.Ə. Sabirin tə'lim-tərbiyə üzrə fikirlərinə aid yazdığı əsərlər öz orijinallığı və məzmunu ilə diqqəti cəlb edir.

Əliş Həsənov müəllimlik peşəsini xarakterizə edərkən qeyd etdi ki, müəllim sənətinin mühüm sirri onun uşaq qəlbinə yol tapmasında və kiçik ürəklərdə yaşayan böyük arzuları ciddi həssaslıqla duymasında, bilik və bacarığını şagirdlərə vermə qabiliyyətində, şagirdlərin arzu və istəkləri ilə yaşaya bilməsində ifadə olunur. Müəllim daim nikbin olmalı, özünü ələalma qabiliyyətinə yiyələnməli, hər bir şagirdin xarakter əlamətlərini, xüsusən dərslərə hazırlığının səviyyəsini, intizamını, arzu və istəklərini gözlərindən duymalı, hər kəsə öz fərdi əlamətinə görə yanaşmağı bacarmalıdır.

Bu qocaman müəllim uzun yaşamağın sirlərindən danışarkən qeyd etdi ki, əslinə baxsan 80 il nədir ki… Bir də göz açıb görürsən ki, neçə-neçə on illər geridə qalıbdır. Qocalıq qəddimə, gözlərimin nuruna tə'sir etsə də işləmək ehtirasıma, yazıb-yaratmaq sahəsində ürəyimdə yanan atəşə tə'sir edə bilmir.

Belə mühüm keyfiyyətləri özündə birləşdirən Əliş müəllim həmişə kafedranın gənc müəllimlərinə məsləhət verir, lakin təvazökarlığı sevən bu alim heç vaxt özünü öyrədən kimi göstərmir, fikir mübadiləsi zamanı mütləq onlardan bir şey öyrənməyə çalışır. O, adamlara qarşı münasibətdə öz qayğıkeşliyi və sadəliyi ilə həmişə fərqlənir. Əliş müəllim öz peşəsinə dərin məhəbbətlə yanaşır, başa düşür ki, bu günün tələbəsi sabahın müəllimidir. Buna görə də

qocaman müəllim ömrünün 60 ilini sabahın müəllimlərinin yetişdirilməsinə həsr etmişdir. Bu çətin və şərəfli işdə həmişəcavan və çevik görünən, öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirən Əliş müəllimə XX əsrin sonuna doğru belə mətanətlə addımlamağı arzulayırıq.

«Gənc müəllim» qəzeti 26 mart 1986, məqalə dos.S.Axundovla birlikdə yazılıb.

Qərbi Azərbaycan ziyalılarının ümumi Azərbaycan maarifi, elm və mədəniyyətinin inkişafında tarixi xidmətləri

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının taleyi belə gətirmişdir ki, son iki yüz il ərzində bu xalqın yaşadığı ərazi 3 yerə parçalanmışdır. 19-cu əsrin əvvələrində Rus İmperiyasının ərazisinin bir hissəsi – Şimali Azərbaycan Rusiyanın tərkibinə daxil edilmiş, əhalinin böyük əksəriyyətinin yaşadığı ərazi – Cənubi Azərbaycan İran dövlətinin tərkibində qalmış, uzun əsrlərdən bəri Oğuz tayfalarının yaşayış məskəni olan Qərbi Azərbaycan[1], sonralar İrəvan xanlığı və ətraf mahallar isə erməni vilayəti adlandırılmış, 1921-ci ildə isə bolşevik siyasəti nəticəsində yaradılmış Ermənistan SSR tabeliyinə verilmişdir.

Sovetlər hakimiyyəti illərində tədricən deformasiyaya uğrayan «Lenin milli siyasətinin» xalqlar dostluğu zorakı, çürük mahiyyətinə görə tədricən millətlər arasında münaqişəyə çevrildi və nəticə e'tibarilə Ermənistan Respublikası ərazisində yaşayan azərbaycanlılar zaman-zaman deportasiya edildilər, məcburi köçkünə, qaçqına və didərginə çevrildilər. Bu əvvəlki rus çarizminin, sonralar isə bolşevizmin Azərbaycan xalqına vurduğu ən böyük zərbələrdən biridir. Hələ keçən əsrin 30-cu illərindən başlayaraq əsrimizin 50-ci illərinə qədər yerli əhali – azərbaycanlılar didərgin salınmış, onların əzəli torpaqlarına isə Yaxın və Orta Şərq

[1] «Qərbi Azərbaycan» termini ilk dəfə olaraq 1992-ci ildə müəllif tərəfindən mətbuata gətirilmiş və sonralar dilimizin lüğət tərkibinə daxil olmuşdur. Bu gün bu ifadə mətbuatda öz layiqli yerini tutmuşdur – tərtibçilər.

ölkələrindən köçürülən ermənilər yerləşdirilmişdir (bax: cədvəl 1). Azərbaycanlılar bu «yazıq», didərgin ermənilərə «qaxdağanlar»[1] deyərdilər. Əsasən daşyonan, pinəçi, yamaqçı işləyən «qaxdağanlar» sonralar erməni millətçilərinin və xarici havadarlarının yaxından köməyi ilə yerli əhalinin – azərbaycanlıların özlərini Türkiyəyə, İrana, Azərbaycana, Şimali Qafqaza və Orta Asiyaya sıxışdırıb, didərgin etdilər. Vaxtilə əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edən Qərbi Azərbaycanda bu gün bir nəfər belə azərbaycanlının qalmaması tarixi fakt, təkzibedilməz həqiqətdir.

Bir cəhəti də qeyd edək ki, vaxt keçdikcə Qərbi Azərbaycanda – sonralar Ermənistan adlanan ərazidə yaşayan azərbaycanlıların sayı, maarifi, məktəbi, mədəni abidələri haqqında mə'lumat, nəinki yerli, hətta mərkəzi nəşrlərdə bir növ unuduldu. Məsələn, 1980-ci ildə Moskvada «Sovetskaya ensiklopediya» nəşriyyatında çap edilmiş irihəcmli «Sovetskiy ensiklopediçeskiy slovar»da, yaxud elə bu yaxınlarda, 1993-cü illərdə yenə də Moskvada «Bolşaya Rossiyskaya ensiklopediya»da Ermənistan ərazisində 1922–1923-cü tədris ilində yalnız 36 azərbaycanlı məktəbinin, 1500 şagird olması qeyd olunur. Sonrakı illərə aid isə heç bir mə'lumat verilmir.

Məşhur səyyah və etnoqraf İ. Şopenin hesablamalarına görə, keçən əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailə – 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qismi̇nin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. Belə ki, 1829-cu ilin mə'lumatına görə təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və yaxud 80 faizini azərbaycanlılar təşkil edirdi. Azərbaycanlılar 1807 ailə, 2379 nəfər Rus İmperiyasında birinci dəfə keçirilən əhalinin siyahıya alınmasına görə 1897-ci ildə Qərbi Azərbaycanda – İrəvan Quberniyasında 313178 nəfər azərbaycanlı yaşamışdır.

Vaxtilə əhalisi başlıca azərbaycanlılardan ibarət olan Qərbi Azərbaycan əyalətlərindən – Zəngibasar, Vedibasar, Zəngəzur, Göycə, Ağbaba, Dərəçiçək, Sisyan, Qafan, Qəmərli, Qaraqoyunlu, Qırxbulaq, Şərur, Sürməli, Seyidli, Sərdarabad, Abaran, Gərinbasar və s. rayonlarda bir nəfər belə azərbaycanlı qalmasa da, tarixin

[1] «Qaxdağan» erməni dilində köçkün, didərgin deməkdir –H.Ə.

yaddaşında həmin vilayətlərdə anadan olmuş, orta təhsilini o yerlərdə almış, uşaqlığını və gəncliyini o diyarlarda keçirmiş və oradan pərvazlanaraq Azərbaycan SSR-də, keçmiş İttifaqın bir çox iri şəhərlərində və Avropa ölkələrində ali təhsil alan gənclərin böyük bir dəstəsi ümumazərbaycan mədəniyyətinin tərəqqisində unudulmaz xidmətlər göstərmişlər.

Heç şübhəsiz ki, hər bir xalqın içərisindən çıxan ziyalıların istiqamət götürməsi və formalaşması o xalqın soykükü ilə, ümumi mədəni səviyyəsi ilə, xalq maarifi və ilk növbədə məktəb təhsilinin səviyyəsi ilə müəyyən edilir.

XIX əsrin əvvəllərində Qərbi Azərbaycanın bə'zi mahallarında əhalinin milli tərkibi

Cədvəl №1

Yaşayış yerləri	Müsəlmanlar	Ermənilər			Cəmi əhali
		Yerlilər	İrandan köçürülənlər	Türkiyədən köçürülənlər	
İrəvan şəhəri	7,331	2.369	1.715	48	11.463
Qırxbulaq	383	1.396	1.043	231	3.053
Zəngibasar	5.418	603	2.360		8.376
Gərnibasar	4.176	145	5.359		9.680
Vedibasar	3.449	15	1.069		4.533
Şərur	6.510		757		8.267
Sürməli	4.832	5.892	1.450	1342	13.525
Dərəkənd	3.267	5			3.272
Saatlı	1.04				1.004
Talın	420	416		1144	1.980
Sərdarabad	1.83	3.214	306	21	5.423
Seyidli və Axsaxlı	704	2			1.782
Gümrübasar	2,592	5.290	2.897	1.16	0.955
Abaran		58	2.8	6857	8.933
Dərəçiçək	1.300	502	3.565	3268	8.655
Göyçə (bir hissəsi)	2.607	90		8.567	14.254
CƏMİ	43.276	19.997	20.549	21.594	105.155
			Köçürülən ermənilərin cəmi: 42.143		

Lakin çox təəssüf hissi ilə qeyd etməliyik ki, Sovetlər hakimiyyəti illərində ermənilər Azərbaycan SSR ərazisində yaşayan azərbaycanlıların məktəb təhsili tarixinin tədqiqinə, demək olar ki, biganə qalmışlar. Pedaqoji elmlər namizədi Əli Adıgözəlovun «Zəngəzur qəzasında (Gorus, Qafan, Sisyan rayonları) yaşayan Azərbaycan məktəblərinin tarixi» adlı namizədlik dissertasiyası bu sahədə müstəsnalıq təşkil edir.

Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların maarif və mədəniyyəti, o cümlədən məktəb tarixini ermənilərin tədqiq etməsi səbəbi onunla izah olunur ki, onlar azərbaycanlıları, ümumiyyətlə, yad hesab etmiş, hətta azərbaycanlıların yaşayış yerlərinin, kənd və şəhərlərin adlarını dəyişdirib o yerləri ermənileşdirmək, «türksüz Ermənistan» yaratmaq siyasəti yeritmişlər.

Azərbaycan tədqiqatçılarının biganəliyini isə onunla izah etmək olar ki, o yerlərdə yaşayıb-yaradanları bir növ özümüzünkü hesab etməmişik və bununla da ümumi Azərbaycan elminin və mədəniyyətinin vacib bir hissəsinə ögey münasibət bəsləmişik. Başqa sözlə desək, erməni olmadıqlarına görə onlar «Erməni xalqının tarixindən», Azərbaycanda yaşamadıqlarına görə «Azərbaycan xalqının tarixi»ndən kənarda qalmışlar.

Halbuki arxiv sənədləri göstərir ki, hələ XIX əsrdə cəmi Qafqazda azərbaycanlılar Qərbi Azərbaycanda daha sıx yaşamışlar.Zəngin maddi və mə'nəvi sərvətləri, folklor ədəbiyyatı, aşıq sənəti, kütləvi məktəb şəbəkəsi, incəsənəti, me'marlıq abidələrinin orijinallığı ilə fərqlənmişlər.

Bir vacib cəhət də budur ki, Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar əsil ədəbi dilimizi, adət və ən'ənələrimizi qoruyub saxlamaqda və daha da zənginləşdirməkdə fərqlənmişlər. Başqa millətlərlə nigah bağlamaq da onlar üçün yad olmuşdur.

Qərbi Azərbaycan ziyalılarından bəhs edərkən, hər şeydən əvvəl, o yerlərdə yaşayan xalqın ümumi mədəni səviyyəsi, elm və mədəniyyəti, xalq maarifi və məktəb təhsilinin ümumi məzənnəsinə, ötəri olsa da, nəzər salmaq yerinə düşərdi.

Şimali və Cənubi Azərbaycan kimi, Qərbi Azərbaycanda da xalq maarifi və məktəb təhsili özünəməxsus inkişaf yolu keçmişdir.

Keçən əsrin 80-ci illərinə aid natamam mə'lumata görə Dağıstan vilayəti ilə birlikdə cəmi Zaqafqaziyada fəaliyyət göstərən

1557 ruhani məktəblərində 18604 şagird oxuyurdu. Şagirdlərin çox hissəsi İrəvan və Gəncə quberniyaları ilə yanaşı, Dağıstan vilayətinin payına düşürdü.

Başqa bir mə'lumata görə, cəmi Qafqazda yaşayan 1073515 nəfər azərbaycanlıların hər 58 nəfərinə 1 şagird düşürdü (yenə orada, s.347). Dövlət məktəblərində rus dilində oxuyan şagirdlərin sayı bura daxil deyil.

Qərbi Azərbaycan maarifi və məktəbi ümumi Azərbaycan maarifi və məktəbi ilə bir nəfəs almış, Zaqafqaziyada və Rusiyada baş verən pedaqoji yeniliklər mütərəqqi məktəb təcrübəsi və pedaqoji ideyalar bura da nüfuz etmişdir. İrəvan məktəbdarları bə'zi məsələlərdə hətta irəli gedirdi.

Əsrin sonlarına doğru, İrəvanda yeni-yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdi. «Rus–Azərbaycan» oğlan məktəbi, «Rus–Azərbaycan» qız məktəbləri əhalinin rəğbətini qazanmışdı. Məktəb müdiri Həşimbəy Nəriman-bəyov, İrəvan gimnaziyasının müəllimi İsmayıl bəy Şəfibəyov, İrəvan müəllimlər seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmməd Vəli Qəmərlinin, Axund Məmmədbağır Tağızadənin və b. bu sahədəki xidmətləri unudulmazdır.

İrəvanda yeni üsullu ana dili məktəbinin banisi olan Məşədi Molla İsmayıl Hacı Kazımovun qabaqcıl təcrübəsi Cənubi Azərbaycanda da yayılmışdır.

Keçən əsrin sonlarında təbrizli müəllim maarifçilər Mirzə Həsən Rüşdiyyə, Axund Mirzə Əli, Mirzə Kazım tə'limin yeni üsullarını öyrənmək üçün İrəvana gələrək qabaqcıl təcrübəni öyrənmiş və vətənlərinə qayıdaraq orada da yeni üsullu məktəblər açmış, hətta yazdıqları dərsliklərin adını da «Vətən dili» qoymuşlar.

Sövti üsulla Azərbaycan dilinin tədrisinin mükkəməl proqramı da İrəvan gimnaziyasında meydana gəlmişdir (müəllifi Firudinbəy Köçərlidir).

Qərbi Azərbaycan özünün me'marlıq, rəssamlıq məktəbləri ilə də fəxr edə bilər. İrəvan me'marları tərəfindən Təbrizdə, Heratda, Məşhəddə, Səmərqənddə, İrəvanda və Gəncədə ucaldılan məscidlər, mədrəsə binaları Azərbaycan me'marlıq sənətinin şah əsərləridir.

Qərbi Azərbaycanda ana dilində kitab nəşri, yerli müəlliflər tərəfindən qələmə alınan ədəbi-bədii əsərlər, digər dillərdən edilən

tərcümə əsərləri, ana dilimizdə nəşr edilən dövri mətbuat, bütün bunlar Qərbi azərbaycanlıların qədim və zəngin mədəniyyətindən və onun taleyindən xəbər verir.

Qərbi Azərbaycan mənşəli ziyalılar peşə, sənət və ya ixtisaslar üzrə həm çoxsaylı, həm də çoxşaxəlidir. Lakin elmi dərəcə və adı olanlardan bəhs edildiyindən, digər ziyalılar, o cümlədən müəllimlər, həkimlər, aqronomlar, baytar həkimləri, zootexniklər, mühəndis, hüquqşünaslar və s. buraya daxil edilmişdir.

Alimlərə gəldikdə isə bu qrup ziyalıların həm sayı, həm də fəaliyyət dərəcəsi xeyli geniş və çoxşaxəli olduğundan onların hamısının adını çəkmək və xidmətlərini qeyd etmək imkan xaricində olduğundan bə'zi ümumiləşmələr aparmalı olmuşuq.

Bir cəhəti də qeyd edək ki, Qərbi Azərbaycan mənşəli alimlər haqqında yığcam mə'lumat da hələlik yoxdur.

Fəlsəfə elmləri namizədi Sabir Əsədovun tərtib etdiyi və 1995-ci ildə Bakıda «Gənclik» nəşriyyatında çap edilmiş «Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası» bu sahədə hələlik yeganə mənbə kimi çox qiymətlidir və müəllifin gərgin əməyi təqdirəlayiqdir. İlkin araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, son iki yüz il ərzində bütün qırğınlara və məhrumiyyətlərə baxmayaraq Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar öz milli mə'nəviyyatını qoruyub saxlamış, elmini və mədəniyyətini inkişaf etdirərək yüksəklərə qaldırmışdır. Bu ərazidə tək-tək azərbaycanlı kəndi olmuşdur ki, onlardan elmin bu və ya digər sahəsini təmsil edən alim yetişməmiş olsun.

Bu gün Qərbi Azərbaycandan olan alimlər təkcə Azərbaycanda deyil, Moskvada, Sankt-Peterburqda, Kiyevdə, Odessada, Daşkənddə, Alma-Atada, Tbilisidə, Rostovda, Voronejdə, Xarkovda, həmçinin bir sıra digər xarici ölkələrdə fəaliyyət göstərirlər. İlkin araşdırmalara görə, son 50 il ərzində Qərbi Azərbaycanda 900-ə qədər azərbaycanlı alim yetişmişdir. Onlardan iki nəfəri Tibb Akademiyasının həqiqi üzvü, bir nəfəri SSRİ PEA-nın müxbir üzvü və Beynəlxalq PEA-nın həqqi üzvü, 10 nəfər Azərbaycan EA-nın akademiki, 9 nəfər akademiyanın müxbir üzvü 150 nəfərdən artıq elmlər doktoru, professor, 800 nəfərə yaxını elmlər namizədi, dosentdir. Fərəhli haldır ki, alimlər arasında qadınların sayı da xeyli çoxdur.

Qərbi Azərbaycan mənşəli alimlərin qabaqcıl dəstəsinə daxil olanlardan bə'zilərini xüsusi qeyd etmək lazımdır.

Topçubaşev Mustafabəy Ağabəy oğlu – akademik, tibb elmləri doktoru, professor, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, Bolqarıstan Xalq Respublikası EA-nın müxbir üzvü, Azərbaycan SSR əməkdar elm xadimi, Sosialist Əməyi qəhrəmanı, Dövlət mükafatı laureatı.

Azərbaycan EA-nın təşkilatçılarından biri olan Topçubaşev AEA-nın vitse-prezidenti olmuşdur. Məşhur cərrah olan Topçubaşev 5 hissəli «Xüsusi cərrahlıq», müxtəlif adlarda bir çox monoqrafiya və yüz elmi əsərin müəllifidir. Azərbaycan cərrahlıq elmi məktəbinin təşkilatçılarından biri olmuşdur.

Hüseynov Heydər Nəcəf oğlu – fəlsəfə elmləri doktoru, professor, ictimai və humanitar elmlər sahəsində Azərbaycan elminin təşkilatçılarından biri olmuşdur.

H. Hüseynovun adı ictimai fikir tariximizə Azərbaycan fəlsəfə tarixi məktəbinin yaradıcısı kimi daxil olmuşdur.

Azərbaycan EA-nın vitse-prezidenti olmuş, 1945–1950-ci illər H. Hüseynovun « XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixində» adlı əsəri Azərbaycan xalqının ictimai-fəlsəfi fikir tarixinin tədqiqini xeyli zənginləşdirmişdir.

Azərbaycan EA-nın ictimai elm ocaqlarından biri olan fəlsəfə və hüquq institutunun yaradılmasında və inkişafında H. Hüseynovun əvəzsiz xidmətləri olmuşdur.

Musabəyova Ümnisə Süleyman qızı – Azərbaycan SSR EA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, məşhur oftalmoloq, Azərbaycan Tibb Universitetində göz xəstəlikləri kafedrasının müdiri vəzifəsində işləyən Ümnisə xanım yüzlərlə adamın gözünə yenidən işıq vermişdir. Əslən Gorus şəhərindən olan Ümnisə xanım dəfələrlə xarici ölkələrdə keçirilmiş ümumdünya oftalmoloqlar konqresində Azərbaycan elmini təmsil etmiş, Azərbaycan oftalmoloq cəmiyyətinin sədri, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü və Sovet qadınları komitəsinin üzvü, SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Soveti deputatı kimi geniş ictimai fəaliyyət göstərmişdir. Göz xəstəliklərinə aid bir sıra elmi məqalələrin müəllifi olmuşdur.

Ü.S. Musabəyova Azərbaycanda oftalmologiya elmi yönümünün təşkilatçılarından biri olmuşdur.

Əliyev Həsən Əlirza oğlu – Azərbaycan EA-nın akademiki, Kənd təsərrüfatı elmləri doktoru, Azərbaycanın əməkdar elm xadimi, professor, Azərbaycan Dövlət mükafatı laureatı, akademik N.İ. Vavilov adına medalla təltif edilmişdir.

Azərbaycanda torpaqşünaslıq, coğrafiya sahəsində müstəsna xidmətləri olmuş Həsən müəllim, həm də elm təşkilatçısı kimi şöhrət qazanmışdır. Müxtəlif vaxtlarda Azərbaycan SSR EA-nın botanika, coğrafiya institutlarının direktoru, EA-nın akademik katibi olan Həsən Əliyev 600 elmi əsərin, o cümlədən 25 monoqrafiyanın müəllifidir. O, bütün həyatını Azərbaycan torpaqlarının öyrənilməsinə sərf etmişdir. Tarixə ətraf mühitin mühafizəsinin pioneri kimi daxil olan Həsən Əliyevin əsərləri, xüsusilə də «Həyacan təbili» geniş ictimaiyyətin hüsn-rəğbətini qazanmışdır. O təkcə bu əsəri ilə sağlığında ikən özünə ölməzlik qazandırmış, heykəl qoymuşdur.

50 nəfərdən çox elmlər doktoru və namizədi yetişdirən Həsən Əliyev özünün aqrobioloqlar məktəbini yaratmışdır. Azərbaycan SSR Təbiəti Mühafizə Cəmiyyətinin sədri, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti olan H.Əliyev bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq konqresdə Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir.

Zərifə Əziz qızı Əliyeva – Azərbaycanın tanınmış oftalmoloqu. Kimya, neft kimyası və elektronika istehsalı sahələrində çalışan işçilərin peşələri ilə əlaqədar göz xəstəliklərinin öyrənilməsi profilaktikası və müalicəsi üzrə apardığı tədqiqatlar respublikamızın hüdudlarından kənarda da geniş yayılmışdır. 150-dən artıq elmi əsərin, 4 monoqrafiya və 10-dan çox metodik tövsiyənin müəllifidir. Respublikanın ictimai, elmi-mədəni həyatında fəal iştirak edən ziyalı qadınlarımızdan biri olmuşdur.

Bağırzadə Faiq Məmməd oğlu – Azərbaycan SSR EA-nın həqiqi üzvü, geologiya-minerologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, bir müddət Bakı Dövlət Universitetinin rektoru olmuşdur. Məşhur alim, neftçi-geoloq və geokimyaçı alim Faiq müəllim Cənubi Xəzər hüdudlarında axtarış kəşfiyyat işlərinin istiqamətləri barədə konkret təkliflər vermiş, neft və qaz geologiyası elmini mühüm işlərlə zənginləşdirmiş, bir çox fundamental monoqrafiya, dərslik və xəritələrin redaktoru və müəllifi olmuşdur.

Azərbaycanda ali təhsilin görkəmli tədqiqatçılarından olan Faiq Bağırzadə onlarca elmlər doktoru və namizədi yetişdirmişdir. 100-dən artıq əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir.

Həsənov Hüseyn Heydər oğlu – akademik, biologiya elmləri doktoru. Azərbaycan SSR Əməkdar elm xadimi, insan və heyvan fiziologiyası, neyrofizika sahəsində tanınmış mütəxəssis olan H. Həsənov 330-a yaxın elmi əsərin, 5 monoqrafiyanın və dərs vəsaitlərinin müəllifidir. Fiziologiya institutunun derektoru olan H. Həsənov Azərbaycan fizioloqlar məktəbində neyrofiziologiya istiqamətli tədqiqatların yaradıcısıdır.

Budaqov Budaq Əbdüləli oğlu – akademik, coğrafiya elmləri doktoru, professor, Coğrafiya İnstitutunun direktoru. Budaq müəllim coğrafiya, geomorfologiya və landşaftşünaslıq sahəsində tanınmış mütəxəssisdir. 500-dən artıq elmi əsərin, o cümlədən 32 monoqrafiyanın müəllifi, M.N. Prijevalski adına qızıl medala layiq görülmüş Budaq müəllim özünün elmi istiqamətini yaratmışdır. Respublika ağsaqqallar şurasının sədri kimi geniş ictimai fəaliyyət göstərir.

Məmmədov Yəhya Cəfər oğlu – Azərbaycan EA-nın müxbir üzvü. Fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, 1971–1987-ci illərdə Bakı Dövlət Universitetində prorektor, 1987–1989-cu illərdə isə rektor işləyən prof. Y. Məmmədov respublika üçün yüksək ixtisaslı kadrlar hazırlanmasına ləyaqətlə rəhbərlik etmişdir.

Y. Məmmədovun elmi fəaliyyəti qeyri-xətti analiz və hesablama riyaziyyatına aiddir. 100-dən artıq elmi məqalənin, 8 monoqrafiyanın, Azərbaycan, türk, rus dillərində təqribi hesablama üsullarına dair ilk dərsliyin müəllifi olan prof. Y. Məmmədov Azərbaycan riyaziyyat elminin yeni bir sahəsinin tədqiqində xüsusi xidmətlər göstərmişdir.

Cəfərov Məmmədtağı İbrahim oğlu – Azərbaycan SSR EA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, torpaqşünaslıq və aqrogimya sahəsində tanınmış alimdir. Azərbaycanın aqrokimya məktəbinin yaradıcılarından biridir.

Azərbaycan dilçilik elminin inkişafında EA-nın müxbir üzvləri olan Budaqova Zərifə İsmayıl qızının, Qurbanov Afat Məmməd oğlunun və b. xidmətləri vardır.

Fizika-riyaziyyat elmlərinin inkişafında EA-nın müxbir üzvü Sabir Əbdülmanaf oğlu Hacıyevin, kənd təsərrüfatı elmlərinin inkişafında akademik Əhməd Məmmədcabbar oğlu Rəcəblinin, tibb elmləri sahəsində Tağı Hacı oğlu Paşayevin, geologiya-mineralogiya elmləri sahəsində AEA-nın həqiqi üzvü Əhmədov Həsən Əbdüləli oğlunun, pedaqoji elmlərin inkişafında və bu sahədə elmi-pedaqoji kadr hazırlığında SSRİ PEA-nın müxbir üzvü, Beynəlxalq Pedaqoji EA-nın həqiqi üzvü Hüseyn Mustafa oğlu Əhmədovun xidmətləri təqdirəlayiqdir.

Azərbaycan elminin qabaqcıl dəstəsinə daxil olan, Azərbaycan elminin bütün sahələrində çalışan və onu inkişaf etdirən, özlərinin elmi məktəblərini yaradan və elmin yeni istiqamətlərdə inkişafına yollar açan bu elm fədailərinin hər birinin elmi-pedaqoji və ictimai fəaliyyəti ayrı-ayrılıqda bir kitabın, monoqrafiyanın mövzusudur.

Onlarla elmlər doktorunun, yüzlərlə elmlər namizədinin Azərbaycan elminə gətirdiyi yenilikləri, verdikləri töhfələri də yuxarıda dediklərimizə əlavə etsək, Qərbi Azərbaycan mənşəli alimlərin xidmətləri bir daha aşkar olar.

Elmlər doktorları, professorların, elmlər namizədləri və dosentlərin qabaqcıl dəstəsinə daxil olan, sağlamlığımızın geşiyində dayanmış şəxsiyyətlərdən prof. Əziz Əliyev və onun övladları Tamerlan və Cəmil Əliyevlər, respublika səhiyyə naziri Əli İnsanov, neyrocərrah, prof. Hidayət İsayev, Zakir Qarayev, Milli Məclisin üzvü, t.e.d., prof. Eldar Abbasov, şair, həkim, alim Paşa Qəlbinur, fizika-riyaziyyat elmləri sahəsində Azərbaycan Təhsil naziri Misir Mərdanov, riyaziyyatçı-filosof Maarif Əkbərov, Telman Ramazanov, Barat Nuriyev, tarixçilərdən tanınmış şərqşünas-türkoloq, prof. Həmid Əliyev, islam dövrünün unudulmaz tədqiqatçısı Yusif Yusifov, Nəzər Paşayev, Mehdi İrəvanski, Vəli Əliyev, Süleyman Məmmədov, Əliəşrəf Bayramov. Məmməd Quliyev, politoloq Səfyar Musayev kitabşünas Abuzər Xələfov, filologiya sahəsində türk mifologiyası üzrə nadir tədqiqatçılardan biri olan Mirəli Seyidov folklorşünas Qara Namazov, Bağır Bağırov, dilçi Həsən Mirzəyev, Vilayət Əliyev, Firudin Cəlilov, filosoflardan H. Əfəndiyev, Qurban Bayramov, Maqsud Cəlilov, kimya-biologiya elmləri sahəsində N. Tusi adına ADPU-nun rektoru Bəhlul Ağayev, Abel Məhərrəmov, iqtisadçılardan Aqil Əliyev, H.Allahverdiyev,

Vahid Novruzov və onlarca başqalarının Azərbaycan elminin inkişafında xidmətləri yüksək qiymətə layiqdir. Qərbi Azərbaycan mənşəli ziyalılardan elə Vətən övladları da vardır ki, onların elmi xidmətləri təkcə Azərbaycanla məhdudlaşmır. Keçmiş SSRİ məkanında və dünyanın bir çox ölkələrində də yüksək qiymətləndirilir.

Dediklərimizi N.Nərimanov adına ATU-nun rektoru Əhliman Əmiraslanovun timsalında daha bariz görərik. XX əsrin 2000 görkəmli şəxsiyyətlərindən biri, SSRİ Dövlət mükafatı laureatı Amerika klinik onkologiya və travmatologiya-ortopediya assosiasiyasının üzvü, Avropa bərpa assosiasiyasının üzvü, Çexiya, Bolqarıstan, Macarıstan, Yunanıstan onkoloqlar cəmiyyətinin üzvü, 1997-ci il üzrə «İlin elm adamı», əməkdar elm xadimi, tibb elmləri doktoru, prof. Əhliman Tapdıq oğlu Əmiraslanovun göstərilən titulları Azərbaycan elminə dünya şöhrəti qazandırmışdır.

Prof. Ə.T. Əmiraslanov 200-dən artıq elmi əsərin, 10 monoqrafiya, 12 ixtira, 7 dərslik və dərs vəsaiti, 9 metodik göstərişin müəllifidir. Onun rəhbərliyi altında 31 nəfər elmlər doktoru və elmlər namizədi yetişdirilib. O, dünyanın bütün ölkələrində, o cümlədən ABŞ-da, Yaponiyada, Fransada, Avstraliyada, Yunanıstanda Sinqapurda, Bolqarıstanda, İranda, Rusiya Federasiyasında, MDB ölkələrində, bir sıra başqa ölkələrdə elmi mə'ruzələrlə çıxış edib və xarici mətbuatda çoxlu sayda məqalə çap etdirib.

1997-ci ilin oktyabr ayında prof. Ə.T. Əmiraslanov «Amerika klinik onkologiya cəmiyyətinin aktiv üzvü» fəxri adına layiq görülüb. Bundan əlavə, onun adı Böyük Britaniyanın Kembric şəhərində çıxan «XX əsrin görkəmli şəxsiyyəti» adlı Beynəlxalq topluya daxil edilib.

1998-ci ilin yanvar ayında gümüşdən hazırlanmış «XX əsrin 2000-ci görkəmli şəxsiyyəti» medalı və diplomu prof. Ə.T. Əmiraslanova təqdim edilib. 1998-ci ilin yanvarında «Avrasiya» qəzetinin keçirdiyi sorğuya əsasən prof. Ə.T. Əmiraslanov «İlin elm adamı» fəxri adına layiq görülüb.

Zəngəzur mahalında dünyaya göz açan, dünya şöhrətli neftçi alim, Neft daşlarının qurucularından biri, texnika elmləri doktoru Bəhman Hacıyev Azərbaycana başucalığı gətirmişdir.

Qərbi Azərbaycanda ziyalıların böyük bir dəstəsi – 119 nəfəri Azərbaycan SSR-in bu və ya digər adları ilə təltif olunmuşlar. Onlardan 19 nəfəri Azərbaycan SSR-in fəxri adları ilə, o cümlədən 6 nəfəri elm və mədəniyyət xadimi, 2 nəfər xalq artisti, 2 nəfər əməkdar artist, 2 nəfər əməkdar mühəndis, 5 nəfər isə əməkdar müəllimdir.

Ziyalılarımızın böyük bir qrupu, daha dəqiq desək, 100 nəfəri Ermənistan SSR-in müxtəlif fəxri adlarına layiq görülmüşlər. Onların içərisində bir nəfər əməkdar jurnalist, 7 nəfər əməkdar artist, 79 nəfər əməkdar müəllim və bir nəfər əməkdar aqronom vardır. Vaxtı ilə doğma şəhər və kəndlərində çalışan bu ziyalıların hər birinin qəlbi daima Azərbaycan elmi, mədəniyyət və incəsənəti ilə bir vurmuş, onun inkişafı yolunda əllərindən gələni etmiş və böyük bir irs qoymuşlar.

Bu gün Qərbi Azərbaycan həsrəti ilə yaşayan soydaşlarımızın qoyub gəldikləri mənzərələri öz fırçası ilə canlandıran tanınmış Cabbar Quliyev və neçə-neçə ziyalılarımız Azərbaycana başucalığı gətirməklə yanaşı onun iqtisadiyyatını, sənayesini, mədəniyyətini inkişaf etdirirlər.

«Azərbaycan» qəzeti 23 aprel 1998-ci il və «Deportasiya» məqalələr məcmuəsi. Bakı, APİ–1998, s.70–81.

Heydər Hüseynovun Azərbaycanda maarif, elm və mədəniyyətin inkişafında tarixi xidmətləri

1998-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşkilatçılarından və ilk həqiqi üzvlərindən biri, görkəmli alim və ictimai xadim Heydər Nəcəf oğlu Hüseynovun anadan olmasının 90 ili tamam olmuşdur.

Azərbaycan elminin inkişafında misilsiz xidmətlərini nəzərə alan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev cənabları xüsusi sərəncamla Heydər Hüseynovun 90 illiyi ilə əlaqədar lazımi tədbirlər hazırlayıb həyata keçirməyi Respublika Elmlər Akademiyasına və Təhsil Nazirliyinə tapşırmışdır. Prezidentin sərəncamında deyilir: «Müasir dövrdə ilk peşəkar filosofumuz olan

Heydər Hüseynov Azərbaycan xalqının ictimai-siyasi fikrinin əsas inkişaf mərhələlərini müəyyən etmiş, mədəni və ədəbi irsimizin fəlsəfi qaynaqlarını araşdırmışdır».

H.Hüseynovun adı ictimai fikir tariximizə Azərbaycan fəlsəfə tarixi məktəbi yaradıcısı kimi daxil olmuşdur. H.Hüseynov Azərbaycan ziyalılarının o nəslinə mənsubdur ki, onlar Qərbi Azərbaycanda Azəri türklərinin qədim yaşayış məskəni olan İrəvan şəhərində anadan olmuş, lakin zəmanənin təqazəsi üzündən Azərbaycana köçərək fəaliyyətlərini burada davam etdirmiş, ümumi Azərbaycan maarifi, elm və mədəniyyətinin inkişafında tarixi xidmətlər göstərmişlər.

Qərbi Azərbaycan mənşəli azərbaycan ziyalılarının bir çoxları kimi H.Hüseynovun da bir neçə mə'nada bəxti gətirməmişdir. 1908-ci ildə İrəvan şəhərində dünyaya göz açan H.Hüseynovun ailəsi əsrimizin əvvəllərində erməni millətçilərinin ilk təcavüzünə mə'ruz qaldı. Ailəsi ilə birlikdə Azərbaycana – Bakı şəhərinə köçməyə məcbur olan H.Hüseynov qaçqınlığın əzab və əziyyətlərinə mə'ruz qalsa da, tezliklə şəhərin ictimai-pedaqoji və sosial mühitinə alışdı.

Ziyalılarımızın qabaqcıl dəstəsinin bütöv bir nəsli – özünün sələfləri, müasirləri və xələfləri kimi H.Hüseynov da öz taleyini pedaqoji sahə ilə bağladı. O, 1927-ci ildə Bakı pedaqoji texnikumunu müvəffəqiyyətlə bitirdikdən sonra Maştağa kəndindəki 17 nömrəli məktəbdə pedaqoji fəaliyyətə başlamış, 1928–1931-ci illərdə Bakı şəhərindəki 59 nömrəli məktəbdə fəaliyyətini davam etdirmişdir.

H.Hüseynov 1931-ci ildə indiki N.Tusi adına ADPU-nu bitirdikdən sonra 1936-cı ilə qədər Sovet Ticarəti İnstitutunda assistent vəzifəsində işləmişdir.

Fəlsəfə elmləri doktoru, professor (1944), akademik (1945), SSRİ Dövlət Mükafatı laureatı (1949), Azərbaycan EA-nın vitse prezidenti, partiya tarixi institutunun direktoru və s. vəzifələrə qədər yüksələn H.Hüseynov yaşadığı 42 il ərzində nə az, nə də çox irili-xırdalı 248 əsər – qəzet və jurnal məqaləsi, kitab və kitabça çap etdirmişdir.

Xalqımızın ictimai fikir tarixinin ayrılmaz hissəsi olan pedaqoji fikir tarixi nöqteyi-nəzərindən H.Hü-seynovun tədqiqatlarının dəyəri orasındadır ki, o, tədqiq etdiyi şəxsiyyətlərin irsini ilk mənbələr əsasında izləmiş və dəyərləndirmişdir. Bu mə'nada onun

şah əsəri olan «XIX əsrdə Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» adlı tədqiqatı xüsusi əhəmiyyət kəsb edir. Həmin əsər öz müəllifinə hədsiz şöhrət, ehtiram və həm də fəlakət gətirmişdir. Dağıstanda və Şimali Qafqazda Şeyx Şamilin başçılığı ilə çarizmə qarşı 25 ildən çox davam edən azadlıq hərəkatını mütərəqqi, demokratik hərəkat hesab etdiyi üçün (əslində də belə idi) bədxahlar və rəsmi dairələr tərəfindən tənqidə, tə'qiblərə və repressiyaya mə'ruz qalmışdır. O, tutduğu bütün vəzifələrdən azad edilmiş, hətta Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlüyündən çıxarılmışdır. Onun əleyhinə keçirilən geniş miqyaslı kompaniya zamanı Azərbaycan elminin görkəmli əsərlərindən olan «XIX əsrdə Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» kitabına görə H.Hüseynova «pantürkist», «panislamist» damğası vurulmuşdur. Bu tə'qiblər H.Hüseynovun faciəli və müəmmalı ölümünə səbəb olmuşdur.

Bütün bunlara baxmayaraq, ədalət naminə demək lazımdır ki, H.Hüseynov təkcə «XIX əsrdə Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» adlı monumental əsəri ilə özünə ölməzlik qazandırmış və abidə ucaltmışdır. Yarım əsrdən artıq ziyalıların, xüsusilə ictimai və humanitar elm nümayəndələrinin stolüstü kitabı olan bu fundamental əsər gələcək əsrlərdə də öz təravətini saxlayacaqdır.

H.Hüseynovun elmi-pedaqoji və ictimai fəaliyyəti, dövrünün məşhur alimləri tərəfindən, o cümlədən akademik P.P.Vavilov, M.A.Dadaşzadə, F.Q.Köçərli, A.O.Mkovelski, Mehdi Hüseyn və başqaları tərəfindən yüksək qiymətləndirilmişdir. Onun əsərlərində pedaqoji problemlərə, o cümlədən elm, maarif və mədəniyyət, uşaq və gənclərin əxlaqi-mə'nəvi və vətənpərvərlik tərbiyəsi, ən başlıcası isə A.Bakıxanovdan tutmuş H.Zərdabiyə qədər XIX əsrin görəkəmli mütəfəkkirlərinin etik görüşləri, maarifçilik ideyaları ilk dəfə olaraq tədqiqata cəlb edilmiş və dəyərləndirilmişdir. Bu da təsadüfi deyildir. Mə'lumdur ki, göstərilən şəxsiyyətlər – A.Bakıxanov, M.F.Axundov, prof. Mirzə Kazımbəy, H.Zərdabi hər şeydən əvvəl praktik müəllim olmuş, Azərbaycan maarifçiliyinin əsasını qoymuşlar. Bu məsələlər filosofun «XIX əsrdə Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» adlı monumental əsəri ilə yanaşı, onun Azərbaycan və rus dillərində dövri mətbuatda çap etdirdiyi silsilə məqalələrində də öz əksini geniş tapmışdır.

Mə'lumdur ki, H.Hüseynovun fəaliyyəti başlıca olaraq elmi-tədqiqat idarələri ilə bağlı olmuşdu. O, Azərbaycanda fəlsəfə elminin tarixinin tədqiqi ilə məşğul olmuş və zəngin irs qoymuşdur. Onu da qeyd etmək lazımdır ki, fəaliyyətinin çiçəkləndiyi dövrdə o, fəlsəfə ilə yanaşı, digər elm sahələrinin, o cümlədən Azxərbaycan ədəbiyyatı tarixinin, Azərbaycan tarixinə dair sistemli nəşrlərin hazırlanmasında, azərbaycanca-rusca lüğətin, məktəb lüğətinin çap edilməsində, ensiklopediyanın yaradılmasında böyük xidmətlər göstərmişdir. Onun əsərləri humanitar elmlərin tədqiqi məsələlərinə geniş yol açmış, xüsusən Azərbaycanda pedaqoji fikir tarixinin yolunu işıqlandıran bir mayak olmuşdur.

«Azərbaycan xalqı hələ qədim zamanlardan elm və mədəniyyət aləminə görkəmli adamlar vermişdir», – deyən filosof alim məhz həmin adamlardan bir çoxunun, xüsusilə də XIX əsr ictimai fikir nümayəndələrinin ideyalarının tədqiqi zamanı çox uğurlu nəticələr əldə etmişdir.

H.Hüseynovun «Görkəmli Azərbaycan alimi A.Bakıxanov» (Bakı, 1949, 44 səh.) adlı kitabı pedaqoji fikir tariximizin tədqiqi sahəsində çox qiymətlidir. A.Bakıxanovun yaradıcılığına hərtərəfli yanaşan müəllif pedaqoji elmlər sahəsində də onun xidmətlərini xüsusi qiymətləndirmişdir. Həmin əsərdə oxuyuruq: «Elm və mədəniyyətimizin inkişaf tarixində A.Bakıxanovun müstəsna bir mövqeyi vardır. A.Bakıxanov mütərəqqi mədəniyyət və elmin nailiyyətlərini öyrənib tədqiq edərək, öz dövrünə görə elm və sənətin zirvəsinə yüksələn şəxsiyyətlərdəndir. A.Bakıxanov özünün tarix, fəlsəfə, məntiq, astronomiya, coğrafiya, eləcə də arxeoloji, pedaqoji, filoloji və elmin digər sahələrinə aid yaradıcılığı ilə insanı heyran edir». H.Hüseynovun tarixi xidmətləri burasındadır ki, A.Bakıxanova aid silsilə məqalələr çap etdirmişdir. Dediklərimizə misal olaraq aşağıdakı məqalələrin adını çəkmək yerinə düşərdi, «A.Bakıxanovun əxlaq nəzəriyyəsi»; «A.Bakıxanovun əxlaq nəzəriyyəsinə dair»; «Görkəmli Azərbaycan alimi və mütəfəkkiri Abbasqulu ağa Bakıxanov»; «Azerbaydjanskiy uçenıy – prosvetitel XIX veka Abas Kuli Aqa Bakıxanov» və s.

H.Hüseynovun əsərlərində A.Bakıxanovun «Gülüstani-İrəm», «Riyazül-Qüds», «Qanuni-Qüdsi», «Kəşfül-qəraib», «Ümumi coğrafiya», «Mişkatül-Ənvər», əxlaqi mə'nəvi poema olan «Kitabi-

Əskəriyyə», həmçinin bilavasitə gənclərin tərbiyəsinə həsr etdiyi 102 maddədən ibarət «Nəsihətnaməsinin» elmi-pedaqoji təhlili diqqəti cəlb edir.

H.Hüseynovun tədqiqatlarında XIX əsrin ortalarında Gəncədə və Tiflisdə müəllimlik edən M.Ş.Vazehin elmi-pedaqoji, ictimai-fəlsəfi və pedaqoji ideyaları, o dövrdə Azərbaycan ictimai və pedaqoji fikrinin görkəmli nümayəndəsi, rus şərqşünaslarının patriarxı hesab edilən professor M.Kazımbəyin Qazan və Peterburq universitetlərindəki pedaqoji fəaliyyətinin təhlili və qiymətləndirilməsi mühüm yer tutur.

Mə'lumdur ki, XIX əsr Azərbaycan ictimai fəlsəfə və pedaqoji fikir tarixində M.F.Axundovun xidmətləri xüsusilə təqdirəlayiqdir. 1936 – 40-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləyən M.F.Axundov əsrin ortalarında Azərbaycanda maarifçilik hərəkatının başında durmuş, özünün əsərlərində Azərbaycan pedaqoji fikri və maarifçilik hərəkatını daha yüksək zirvələrə qaldırmışdır. Bütün bunlar H.Hüseynov tədqiqatlarının mərkəzində durur.

Tarixə Azərbaycan ziyalılarının mə'nəvi atası kimi daxil olan H.Zərdabinin elmi-pedaqoji və ictimai fəaliyyətinin, «Əkinçi» qəzeti ilə bağlı problemlərin, o cümlədən «Əkinçi» qəzetində qaldırılan elm, təhsil, tə'lim və tərbiyə, bütövlükdə xalq maarifi ilə bağlı problemlərin tədqiqata cəlb edilməsi, ona elmi təhlil verilməsi və yüksək qiymətləndirilməsi H.Hüseynovun mühüm xidmətlərindəndir. Onun məqalələri içərisində Azərbaycanın görkəmli maarifçisi H.Zərdabiyə həsr etdiyi məqalələri bu gün də öz əhəmiyyətini itirməmişdir: «Həsən bəy Zərdabinin ictimai görüşləri haqqında»; «Həsən bəy Məlikov Zərdabi»; «Azərbaycanın görkəmli alimi» və s.

H.Hüseynov eyni zamanda, öz müasirləri olan görkəmli şəxsiyyətlər, o cümlədən S.Vurğun, M.İbrahimov və başqalarının ictimai və pedaqoji ideyalarını da nəzərdən qaçırmamış, bir sıra tədqiqat əsərlərini məhz öz müasirlərinin ictimai, sosial və pedaqoji ideyalarına həsr etmişdir. Bu mə'nada onun «Ədəbi qeydlər» adlı əsərində (1945, 126 səh.) qədim tarixə malik olan ədəbiyyatımızı xalqımızın ümumi mədəni və mə'nəvi imkanlarını əks etdirən bir güzgü hesab etmişdir. Mə'lumdur ki, nəsillərdən-nəsillərə keçən

ədəbi əsərlər gəncləri milli və ümumbəşəri ideyalar ruhunda tərbiyə edən əvəzedilməz bir mənbədir. H.Hüseynov həmin əsərində Nizamidən tutmuş M.F.Axundov, H.Zərdabi, M.Ə.Sabir, S.Vurğun, M.İbrahimov və başqalarının yaradıcılığında uşaq və gənclərin mə'nəvi tərbiyəsinin yüksək sənətkarlıqla qələmə alındığını elmi dəlillərlə əsaslandırmağa nail olmuşdur.

H.Hüseynov «Vətənpərvər şair S.Vurğun» adlı kitabçasında (Bakı, 1942, 62 səh.) onun vətənini, xalqını dərin məhəbbətlə sevən və əsərlərində dahiyanə sənətkarlıqla tərənnüm edilən vətənpərvərliyini, bəşəri ideyalarını, düşmənə kin və nifrətlə dolu poeziyasını yüksək qiymətləndirir.

S.Vurğunun «Azərbaycan» şe'rinin timsalında gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsini ön plana çəkən H.Hüseynov yazır: «Könül candan ayrılmadığı kimi insan da vətənsiz yaşaya bilməz. Vətənsiz yaşamaq şərəfsiz yaşamaqdır. Şərəfsiz yaşamaq isə ölümə bərabərdir».

H.Hüseynova görə S.Vurğun yaradıcılığının əsas mehvəri azad vətən ideyasıdır. Bu, filosof alimin vətənpərvər şairin yarıdıcılığına verdiyi böyük qiymətdir. O, alman faşizmini XX əsrin vəhşilikləri adlandırmışdır. Əgər mərhum filosof bu gün yaşasaydı, erməni daşnaklarının cinayətlərini yəqin ki, əsrin sonunun görünməmiş vəhşiliyi adlandırardı.

H.Hüseynovun elmi-pedaqoji irsində diqqəti cəlb edən gənclərin tə'limi, tərbiyəsi və təhsili ilə bağlı olan «Azərbaycan ziyalılarının şərəfli işi», «Azərbaycan alimləri – vətən müharibəsi günlərində», «Qəhrəmanlara eşq olsun», «23 ildə elmi fikrimizin inkişafı», «Azərbaycanın mədəniyyət sahəsində müvəffəqiyyətləri», «Elm və mədəniyyətimizin inkişafı tarixindən», «Azərbaycan xalqının yüksələn mədəniyyəti» adlı məqalələrindəki fikirlər bu gün də öz aktuallığını saxlayır. Sonuncu məqalədə XVII əsrdən başlayaraq XIX əsrin sonuna qədər Azərbaycan mədəniyyətinin keçdiyi inkişaf yolu çox aydın şəkildə işıqlandırılır; o cümlədən M.P.Vaqif, A.Bakıxanov, İ.C.Topçubaşov, M.F.Axundov, Q.B.Zakir, S.Ə.Şirvani, H.B.Zərdabi və başqalarının yaradıcılıqlarına da nəzər salınır.

Görkəmli filosof, dərin tədqiqatçı, alim, habelə tanınmış ictimai xadim H.Hüseynovun zəngin elmi-pedaqoji fəaliyyəti gənclər

üçün örnəkdir və onun ictimai-fəlsəfi irsi ilə bərabər pedaqoji ideyaları da ayrıca tədqiq olunmağa layiqdir.

Hazırda XX əsrdə xalqımızın tarixə bəxş etdiyi ən böyük şəxsiyyətlərdən olan H.Hüseynovun 90 illiyi ilə əlaqədar respublikada müəyyən tədbirlər planı hazırlanıb həyata keçirilir, o cümlədən elmi-nəzəri konfranslar təşkil edilir. Arzu edərdik ki, onun adını əbədiləşdirmək məqsədilə ilk dəfə pedaqoji fəaliyyətə başladığı Maştağa qəsəbəsindəki 17 nömrəli məktəbə də unudulmaz filosofumuzun adı verilsin. Bu onun xatirəsini əbədiləşdirən ən yaxşı tədbirlərdən biri olardı.

«Azərbaycan məktəbi» jurnalı
№6, 1998-ci il, s.70–81.

Uşaq və gənclərin böyük dostu, hamisi və qayğıkeşi

(Azərbaycan Respublikasının prezidenti möhtərəm Heydər Əliyev cənablarının anadan olmasının 75 illiyinə həsr olunur)

Belə oğulu analar
yüz ildə bir dəfə doğar.

10 may 1923-cü il Azərbaycan xalqının taleyinə qızıl hərflərlə yazılan ən şərəfli günlərdən biridir. Həmin gün Azərbaycan çağdaş tarixinin ən böyük şəxsiyyəti, bütün mə'nalı həyatını xalqa sədaqətlə xidmət etmiş, xalqımızın böyük oğlu və müdrik rəhbərinin, dünya miqyaslı fenomen siyasətçinin, müstəqil dövlətimizin me'marı və qurucusu, Azərbaycanımızın fəxri Heydər Əlirza oğlu Əliyevin ad günüdür.

Bu tarixi gün xalqımızın, dövlətimizin, Azərbaycanımızın bayramıdır.

Müstəqil və suveren Azərbaycanda 5 ildən artıqdır ki, H. Əliyevin apardığı müdrik daxili və xarici siyasət sayəsində demokratik dövlət quruculuğu dövrü başlanmış, ölkə daxilində iqtisadi islahatlar aparılmış, xalq maarifi və məktəb təhsili sahəsində bir sıra uğurlar qazanılmışdır. Milli təhsil, elm və mədəniyyətin inkişafına göstərilən qayğı hər gün hiss edilir. Bu qayğı sayəsində hamılıqla ümumi orta icbari təhsilə keçilməsi, iste'dadlı gənclərin təhsilinin davam etdirilməsində dövlət zəmanətinin verilməsi Konstitusiyada təsbit olunmuşdur.

Azərbaycanda milli təhsil sahəsində islahatların aparılması, təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin üstün inkişafına dövlət tə'minatının verilməsi, ölkədə yeniyetmə və gənclərin tə'lim-tərbiyəsi sahəsində həyata keçirilən tədbirləri Azərbaycanda çoxminli maarif ordusu və gəncləri yüksək qiymətləndirir.

Bütün həyatı və fəaliyyəti dövründə müxtəlif məclislərdə, qurultay, müşavirə, forum və digər yığıncaqlarda söylədiyi nitq və çıxışlarında daim gənclərə arxalanan, «hər xalqın, hər millətin

gələcəyi onun gənclərdir» – kəlamı gənclərə böyük inam və qayğının təzahürüdür.

Keçən əsrin sonu və əsrimizin I rübündə Azərbaycanda xalq maarifinin tərəqqisi, uşaq və gənclərin tə'limi, tərbiyəsi və təhsili xalqımızın unudulmaz oğlu N.Nərimanovun çoxsahəli fəaliyyəti ilə bağlıdırsa, XX əsrin son onillikləri Azərbaycanımızın fəxri, uşaq və gənclərimizin böyük dostu, hamisi və qayğıkeşi, dünya şöhrətli siyasətçi, respublikamızın prezidenti H.Əliyevin adı ilə bağlıdır. İstər 70–80-ci illərdə Azərbaycan xalqına rəhbərlik etdiyi dövrdə, istərsə də Moskvada yüksək vəzifədə işlərkən və Azərbaycan Respublikasına başçılıq etdiyi son illərdə H.Əliyev ölkənin iqtisadi-ictimai və siyasi həyatı ilə bərabər ölkədə bütövlükdə xalq maarifinin yeni istiqamətdə tərəqqisini daim diqqət mərkəzində saxlamış, dövrün tələblərinə uyğun olaraq respublikanın xalq təsərrüfatı üçün yüksək ixtisaslı kadrlar hazırlığına xüsusi qayğı göstərmişdir. «Xalqın mədəni səviyyəsinin yüksəldilməsində, yeni insanın formalaşmasında elm və təhsil mühüm rol oynayır» – deyən Heydər Əliyev elmi idarələrin, ümumtəhsil məktəblərinin, ali və orta ixtisas məktəblərinin, texniki peşə məktəblərinin işinin daha da yüksəldilməsi və keyfiyyətçə yaxşılaşdırılmasına xüsusi diqqət yetirmişdir. Hələ 70-ci illərin ortalarında H.Əliyevin bilavasitə qayğısı sayəsində elmi işçilərin hazırlanması keyfiyyəti nəzərə çarpacaq dərəcədə yaxşılaşmışdır. Təkcə 1971–1975-ci illərdə respublikada 198 elmlər doktoru və 1.781 elmlər namizədi hazırlanmış, elmi-tədqiqat institutları, ali məktəblər və digər idarələr kadrlarla möhkəmləndirilmişdir.

Milli kadrları «qızıl fondumuz» adlandıran H.Əliyev Azərbaycanda kadr hazırlığı işini kökündən dəyişmək üçün «Bilik yeganə me'yardır» tezisini irəli sürmüş və onun həyata keçirilməsinə şəxsən nəzarət etmişdir.

H.Əliyev cənablarının daim diqqət mərkəzində saxladığı ali və orta ixtisas məktəbləri ildən-ilə daha da inkişaf etdirilmişdir. 70-ci illərdə 4 yeni ali məktəb –Rus dili və Ədəbiyyatı İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvanda və Xankəndində pedaqoji institutların yaradılması H. Əliyev cənablarının ölkədə ali təhsilin inkişafına göstərdiyi qayğının parlaq təzahürüdür. Həmin illərdə 25 yeni fakültə, 62 yeni kafedra təşkil edilmiş, ali məktəblərimizdə 50-

dən çox yeni ixtisas üzrə mütəxəssislər hazırlanması tə'min edilmişdir.

Məhz 70-ci illərdə respublikanın çoşğun yüksəlişini nəzərə alan H. Əliyev xalq təsərrüfatının yüksək ixtisaslı kadrlara günü-gündən artan tələbatını ödəmək üçün yeni təhsil müəssisələrinin yaradılmasına, genişləndirilməsinə, tələbə qəbulunun artırılmasına xüsusi diqət vermişdir.

Məhz onun təşəbbüsünün nəticəsi idi ki, respublikamızda 1970-ci ildə 70 min tələbəni əhatə edən 13 ali məktəb fəaliyyət göstərdiyi halda 1980-ci ildə ali məktəblərin sayı 18-ə çatmış, tələbələrin miqdarı 105 mini keçmişdir.

Heydər Əliyev cənablarının fəaliyyətində bir mühüm və tarixi əhəmiyyət kəsb edən cəhət budur ki, məhz onun uzaqgörən siyasəti sayəsində 70-ci illərdə Moskvanın, Leninqradın və SSRİ-nin digər şəhərlərinin əsas ali məktəblərində yüksək ixtisaslı mütəxəssislər hazırlanmasına böyük fikir verilmiş, həmin ali məktəblərə müsabiqədənkənar qəbul yolu ilə 1300-dən çox tələbə göndərilmişdir. H.Əliyev 1979-cu ilin dekabrında Moskva şəhərində respublikamızdan təhsil alan aspirant və tələbələrlə görüşü zamanı demişdir: «Bu gün ölkənin 43 şəhərində Azərbaycan gənclərinin 3.300-dən çox nümayəndəsi təhsil alır». Bu o dövr üçün çox mühüm göstərici idi.

Keçmiş SSRİ-nin müxtəlif şəhərlərində 244 ixtisas üzrə təhsil alan minlərlə oğlan və qız bu gün «Heydər Əliyevin kadrları» kimi respublikanın xarici siyasətinin həyata keçirilməsində çoxcəhətli fəaliyyət göstərirlər.

Uşaq və gənclərin təhsili sahəsində təhsilin digər növləri, orta ümumtəhsil məktəbləri, texniki peşə məktəbləri həm kəmiyyət, həm də keyfiyyətcə inkişaf etdirilmişdir, hamlıqla orta təhsilə keçilməsi başa çatdırılmışdır. Bə'zi statistik rəqəmlərə müraciət etmək yerinə düşərdi.

Əgər 1970-ci ildə xalq təsərrüfatında ali və orta ixtisas təhsilli mütəxəssis 274 min nəfər idisə, bu rəqəm 1975-ci ildə 377 minə, 1980-ci ildə isə 499 minə çatmışdır. Bunların da böyük əksəriyyətini ali təhsilli mütəxəssislər təşkil edirdi (1970-ci ildə 129 min, 1980-ci ildə 259 min nəfər).

Əgər 1970/71-ci dərs ilində ümumtəhsil məktəblərində 1.438 min şagird təhsilə cəlb edilmişdirsə, onların sayı 1980/81-ci dərs

ilində 1.567 min nəfər olmuşdur. Orta ümumtəhsil, texniki peşə, ali və orta ixtisas məktəblərinin, həmçinin məktəbəqədər tərbiyə müəssisələrinin maddi-texniki bazası əsaslı şəkildə möhkəmləndirilmişdir. «Hər şey insan üçün, onun rifahı naminə» sözləri – Heydər Əliyev cənablarının fəaliyyətində iki mühüm cəhəti ayrıca qeyd etmək yerinə düşərdi. Onlardan biri 1979-cu il aprel ayının 17-dən 27-dək Bakıda keçirilən ümumittifaq elmi-praktik konfransın təşkili və keçirilməsi ilə bağlıdır. H.Əliyevin həmin konfransda «Fəal həyat mövqeyinin formalaşdırılması: mə'nəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda söylədiyi dərin məzmunlu mə'ruzə uzun müddət ümumittifaq oxucularının, ziyalıların, alimlərin xatirində silinməz iz buraxmış, elmi-nəzəri əhəmiyyəti, praktik istiqaməti, metodoloji əhəmiyyəti ilə fərqlənmişdir. H. Əliyev cənablarının mə'ruzəsi o qədər dərin məzmunlu olmuşdur ki, hətta o vaxtlar konfransda iştirak edən Moskvanın nümayəndəsi T.M. Tyajelnikov kimi hazırlıqlı, mə'sul və rəhbər işçi öz mə'ruzəsindən imtina etməli olmuşdur. H.Əliyev həmin mə'ruzəsində digər məsələlərlə yanaşı gənclərin mə'nəvi tərbiyəsinə ayrıca əhəmiyyət verərək demişdir: «Gənclərin tərbiyəsi mürəkkəb elmdir, yüksək məharət tələb edən bir sənətdir, gərgin, fədakar əməkdir» H. Əliyev göstərirdi ki, fəal mövqe bəşəriyyətin hazırladığı bütün mə'nəvi sərvətlər ilə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir.

İkinci mühüm cəhət 1984-cü ildə aparılmış ümumtəhsil və peşə məktəbinin islahatı ilə bağlıdır. Mə'lumdur ki, o vaxtlar H.Əliyev Moskvada dövlət rəhbərliyində məs'ul vəzifədə çalışırdı və məktəb islahatını hazırlayan komissiya – işçi qrupu onun bilavasitə rəhbərliyi altında iş aparırdı. Tanınmış alimlərin tərtib etdiyi layihənin H.Əliyev tərəfindən yenidən redaktə edilməsi o vaxtlar Moskvada böyük sensasiya doğurmuşdu. Mən şəxsən o vaxtlar SSRİ PEA-nın tanınmış alimlərinin H. Əliyev zəkasına heyran qaldığının dəfələrlə şahidi olmuşam. Məktəb islahatı ilə bağlı onun SSRİ Ali Sovetinin sessiyasındakı bütün dinləyicilərin böyük marağına səbəb olan tarixi mə'ruzəsi, dərin məntiqi, nitqinin səlistliyi və elmiliyi H. Əliyev fenomeninin yüksəkliyini bir daha göz önündə canlandırırdı.

Onu da qeyd etmək yerində düşərdi ki, mən şəxsən dəfələrlə H.Əliyevin çıxış etdiyi tədbirlərin iştirakçısı olmuşam. Onun

Azərbaycan Pedaqoji İnstitutunun (indiki N. Tusi adına ADPU) böyük akt zalında, indiki Şəhriyar adına klubda professor, müəllim hey'əti qarşısındakı çıxışları bizim üçün yol göstərən mayak olmuş, qüvvə və bacarığımızı səfərbər etmişdir. H.Əliyevin fəaliyyətində respublikamızın tarixi şəxsiyyətlərinin, müasir dövrümüzün tanınmış şair, yazıçı, elm və mədəniyyət xadimlərinin yubileylərinin geniş qeyd olunması, klassiklərimizə ucaldılan heykəllər onun mədəniyyətimizə göstərdiyi qayğının bir təzahürüdür.

Ölkənin daxili və xarici siyasətinin qlobal, prinsipial problemləri ilə gecə-gündüz şəxsən məşğul olmasına baxmayaraq H.Əliyev Respublikanın prezidenti kimi gənclərin təhsil, tə'lim-tərbiyə və məişət problemləri ilə daim maraqlanır, onun həllinə çalışır.

Bugünkü gənclərimizə böyük ümidlər bəsləyən H.Əliyev demişdir:

«Uşaqlar, gənclər xalqımızın, müstəqil Azərbaycan respublikasının parlaq gələcəyidir. İndi Azərbaycanda yaşayan uşaqlar ölkəmizi XXI əsrdə irəliyə aparacaqlar, Azərbaycanın müstəqilliyini qoruyub, inkişaf etdirəcəklər. Bugünkü gənc nəsil bir neçə vaxtdan sonra respublikamızın bir çox sahələrində xalqımızın, ölkəmizin, böyük-böyük vəzifələrini öz üzərinə götürəcək və müstəqil respublikamızı, dövlətimizi yaşadacaq, gələcəyə aparacaqdır. Ona görə də uşaqlara qayğı, diqqət hər bir Azərbaycan vətəndaşının müqqədəs borcudur».

Buna görə də gənclərin milli ruhda tərbiyə olunmasının, bir çox dillərə, dünya xalqlarının elminə, mədəniyyətinə yiyələnməsinin vacibliyi Heydər Əliyev cənablarının mə'ruzə və nitqlərində dəfələrlə qaldırılmışdır. Gənclərimizə Puşkini rus dilində, Şekspri ingilis dilində, Nizamini azərbaycan dilində oxumalarını arzulayan H.Əliyev bu tələbin həyata keçirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Bu tələbə uyğun olaraq hazırda respublikamızın ali və orta ixtisas təhsili məktəblərində dünyanın 30 ölkəsindən 2 mindən çox əcnəbi oxuyur. 38 xarici ölkədə isə 3 min nəfərədək azərbaycanlı ali və orta ixtisas peşə təhsili alır, xarici dilləri, kompyüter sisteminin və müasir texnikanın əsasını öyrənir.

H.Əliyevin Azərbaycan gənclərinin forumunda dediyi aşağıdakı sözlər hər bir məktəblinin həyat məramına, mübarizə idealına çevrilmişdir: «Gənclərimizin əsas vəzifəsi özünü müstəqil

Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, onun yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır». Ölkə prezidentinin bu çağırışı istər orta, istərsə də ali məktəblərdə tərbiyə işinin proqram sənədidir.

Dövlətimizin başçısı H.Əliyevin 1997-ci il 1 fevral tarixli sərəncamı ilə hər il fevralın 2-si Azərbaycan gəncləri günü kimi bayram edilir. Müdrik rəhbərimizin atalıq qayğası sayəsində gənclər bu əziz bayramı əməkdə, təhsildə, yaradıcılıqda böyük uğurlarla qarşılayırlar.

İste'dadlı gənclərə, onların yaradıcılıq potensialının inkişafına dövlət qayğısını tə'min etmək məqsədilə respublika prezidentinin 1996-cı il 22 iyun tarixli fərmanı xüsusi qabiliyyətə malik gənclərimizin həyatında mühüm rol oynayır. Azərbaycan rəhbəri H.Əliyevin diqqət və qayğısı sayəsində iste'dadlı gənclərin aşkar olunması, onların yaradıcılığının inkişaf etdirilməsi üçün respublikamızda keçirilən tədbirlər ən'ənəyə çevrilməkdədir.

1998-ci il fevralın 2-də Azərbaycan gəncləri gününün ilk ildönümü münasibətilə Bakı İdman Oyunları Sarayında keçirilən bədii idman bayramında iştirak edən ölkə prezidenti H.Əliyev demişdir: «Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın prezidenti sizin – gənclərimizin bütün hüquqlarının qorunmasının tə'minatçısı olub və bundan sonra da tə'minatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin yaxşı yaşaması, təhsil alması üçün, yaxşı əmək fəaliyyəti göstərməsi üçün bundan sonra da əlimizdən gələni edəcəyik. İnanın ki, Azərbaycanın xoşbəxt gələcəyi var və bu xoşbəxt gələcəyin də qurucuları sizlərsiniz. Mən bir daha deyirəm: Sizə güvənirəm, sizə arxalanıram və sizə güvənərək indiyə qədər cəsarətlə işləmişəm, bundan sonra da cəsarətlə çalışacağam».

Heydər Əliyevin müstəsna diqqət yetirdiyi sahələrdən biri də gənclərin hərbi-vətənpərvərlik tərbiyəsidir. H.Əliyevə görə, vətənpərvərlik böyük bir məfhmdur. Onun bir çox komponentləri vardır. Bu komponentlər sırasına Vətənə sadiq olmaq, milli dəyərləri, dilimizi yaxşı bilmək, mədəni irsi qiymətləndirmək və qoruyub saxlamaq, orduda xidmət etmək və sair daxildir. Milli Azərbaycan vətənpərvərliyi xalqda inam yaradılmasına, haqsızlığa, ədalətsizliyə qarşı barışmazlığa, düşmənə qarşı intiqam hissinin gücləndirilməsinə xidmət etməkdir.

Burada Heydər Əliyevin fikirləri ilə Atatürkün aşağıdakı fikirləri necə də həmahəngdir: «öz varlığını, öz mənliyini dərk etməyən millət başqa bir millətin ovudur».

Ona görə də böyük uzaqgörənliklə milli hərbi kadrların bir neçə istiqamətdə hazırlanması tələbini irəli sürmüşdür. Məhz onun təşəbbüsü, şəxsi qayğısı ilə 1980-ci ildə indiki N. Tusi adına APU-da Qafqazda birinci, keçmiş SSRİ-də 4-cü olan hərbi fakültə yaradıldı. Fakültənin ilk buraxılışında 150 nəfər mə'zuna hərbi rütbə verildi, ümumtəhsil orta məktəblərində hərbi rəhbər və güc nazirliklərində zabit kimi işə göndərildi. Həmin illərdə Azərbaycanın Mülki Aviasiyasında qeyri-azərbaycanlıların işlədiyini görən müdrik rəhbər təyyarəçi hazırlanması qayğısına qalmış, bu uyğunsuzluğun aradan qaldırılması üçün təşəbbüs göstərmişdir. Onun təşəbbüsü ilə yaradılan C.Naxçıvanski adına Hərbi məktəb Azərbaycanın ictimai, siyasi, hərbi həyatında böyük bir hadisə olmuşdur. Hər iki hərbi təhsil ocağının mə'zunları erməni işğalçıları ilə döyüşdə böyük vətənpərvərlik, qəhrəmanlıq, hərbi şücaət göstərmiş, şəhidlik, zirvəsinə yüksəlmiş, üstündə böyüdükləri qara torpağı öz qanları ilə suvarmış, onu müqəddəsləşdirmiş, vətənləşdirmişlər.

Möhtərəm prezidentimizin çıxışlarında dönə-dönə diqqət yetirdiyi məsələlərdən biri də dini dəyərlərimizə, mə'nəvi-əxlaqi sərvətlərimizə xüsusi önəm verməsidir. 1998-ci il aprelin 8-də Qurban bayramı münasibətilə Mir Mövsüm ağa ziyarətgahındakı çıxışında bu məsələlərlə dair baxışlarını açıqlayarkən o bir daha demişdir ki, İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mə'nəvi dəyərlərinin hamısı bizim milli sərvətimizdir. Bizim bütün milli və dini adət-ən'ənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa də'vət etməkdən ibarətdir.

Bizim Azərbaycanda Demokratik, hüquqi və dünyəvi dövlət qurmağımız dinimizdən, dini adət-ən'ənələrimizdən təcrid edilmiş dövlət quruculuğu deyil, milli mentalitetimiz və mə'nəviyyatımız üçün xas olan bu keyfiyyətləri qurduğumuz dövlətin təməlinə uyğunlaşdırmaqdır. H. Əliyev demişdir: «Bayramlarımızı ürəyimiz istədiyi kimi qeyd etməyimiz böyük xoşbəxtlikdir».

1997–98-ci dərs ilini Azərbaycan məktəbləri dövlət başçımız, dünya şöhrətli siyasətçi Heydər Əliyev cənablarının həyat və fəaliyyətinə həsr olunmuş ilk dərslə başlamışlar.

Böyüməkdə olan nəsli onun vətənə, xalqa xidməti nümunəsində tərbiyə etmək təhsil ocaqlarının başlıca vəzifəsidir.

Müasir nəsil Heydər Əliyev məktəbindən keçərək kamala dolur. Bu dərslər onun yorulmaz fəaliyyəti, çoxsahəli siyasi-sosial fəaliyyəti ilə bağlıdır: «Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» sözləri hər bir gənci Vətənin tərəqqisinə ruhlandırır.

Xalqın sevimlisinə çevrilən Heydər Əliyev bütün gənclərin, ilk növbədə isə daha çox körpələrin sevimli babasıdır. Körpə uşaqların öz sevimli babalarına həsr etdikləri bir şe'r parçasında deyilir:

Sinəm üstə kamanım var,
Şah pərdəsi Heydər baba.
Ordumuza inamım var
Sərkərdəsi Heydər baba.
Sarvanıdır haqq yolunun
Sipəridir el malının
Anam toxuyan xalının
Hər ilməsi Heydər baba.

H.Əliyev cənablarının qayğısı təkcə dövlət tədris müəssisələrilə məhdudlaşmır. O, eyni zamanda özəl təhsil ocaqlarına da qayğı göstərir. Onun bilavasitə xeyri-duası ilə təşkil edilən Azərbaycan Beynəlxalq Universiteti respublikamız üçün yüksək ixtisaslı kadrlar hazırlayır.

Azərbaycan Beynəlxalq Universitetində 12 fakültə, 15 ixtisas kafedrası fəaliyyət göstərir. Universitetdə 4802 tələbə (o cümlədən, əyani şö'bədə 4107, qiyabi şö'bədə 695) təhsil alır. Tələbələrin tə'lim və təhsili ilə 227 nəfər professor-müəllim hey'əti, o cümlədən 3 nəfər akademik və müxbir üzvü, 31 nəfər elmlər doktoru, professor, 92 nəfər elmlər namizədi, dosent və baş müəllim məşğul olur. Tələbə kontingentinin xeyli hissəsini qaçqın ailəsindən olanlar və Qarabağ əlilləri təşkil edir ki, onlara xüsusi qayğı göstərilir. Tədrisdə fərqlənən bir neçə tələbəyə «H.Ə.Əliyev adına» təqaüd verilir. Hüquq fakültəsinin bir neçə tələbəsi isə görkəmli hüquqşünas «Məhəmməd Xələfov adına» təqaüdə layiq bilinmişdir.

H. Əliyev cənablarının həyatı və fəaliyyətinə həsr edilmiş ictimai-kütləvi tədbirlər tələbələrimizin vətənə, dövlətimizə, xalqımıza və millətimizə sədaqət ruhunda tərbiyə edilməsi işinə xidmət edir.

Universitetin yeni yaranmasına baxmayaraq, qısa müddət ərzində zəngin kitabxana yaradılmış və tələbələrin istifadəsinə verilmişdir. Kitabxanada bütün fənlər üzrə dərslik və dərs vəsaitləri cəmləşdirilmişdir. Yüksək zövqlə tərtib edilmiş işıqlı oxu zalı tələbə gənclərimizin sevimli yerinə çevrilmişdir. Universitetdə H. Əliyev adına vətənpərvərlik guşəsi yaradılmışdır. Nəzəri cəlb edən cəhətlərdən biri də budur ki, müasir avadanlıqla təchiz edilmiş linqafon kabinəsi və kompyüter mərkəzi də tələbələrin istifadəsinə verilmişdir. Təqdirəlayiq haldır ki, xaricdən alınmış və bu günlərdə istifadəyə verilmiş mini-mətbəədə çap edilən dərslik, dərs vəsaitləri və proqramlar tədris prosesinin keyfiyyətinin yüksəlməsinə xidmət edəcəkdir. Mətbəədə, həmçinin, universitetin «Dövlət və hüquq», «Tarix və onun problemləri» adlı yeni jurnalları çap edilir ki, bunlar respublika elmi ictimaiyyətinin böyük marağına səbəb olmuşdur.

Universitetin rektoru prof. E.İ. Abdullayevin təşəbbüsü ilə «Azərbaycan beynəlxalq aləmdə» adlı ikicildlik kitabın nəfis şəkildə nəşri respublikada mühüm hadisə kimi qiymətləndirilmişdir. Bu kitablarda Azərbaycan respublikasının prezidenti H. Ə. Əliyev cənablarının xarici ölkələrdəki nitq və çıxışları toplanmışdır.

Azərbaycan Beynəlxalq Universiteti bir sıra xarici ölkələrin qabaqcıl universitetləri ilə əlaqələr yaratmışdır.

«Dövlət və hüquq» jurnalı
1998, №1, s. 8–13.

Doğruçuluq carçısı, həqiqət mücəssəməsi

…Bəli, 59 illik ömrünü belə başa vurdu bizim Allahverdi müəllim. Bu da, görünür Allah vergisi imiş Allahverdi müəllimə. Orası da var ki, Allah hər gəsə, adı Allahverdi qoyulanların hamısına bu səxavəti bəxş etmir.

Allahverdi müəllim keçmiş V.İ. Lenin adına APİ-nin professor-müəllim hey'ətinin ikinci nəslinə mənsubdur, – desəm güman edirəm ki, səhv etmirəm. Bu qocaman təhsil ocağının ən

layiqli və şərəfli illərini yaşamışdır Allahverdi müəllim. Mən də onu təxminən elə o vaxtlardan – 50-ci illərdən tanımışam və institutun bir neçə ağsaqqalı cərgəsində Allahverdi müəllimlə də təmasda olduğum, sözünə, söhbətinə valeh olduğum, nəsihətlərinə qulaq asdığım anları bu gün də xatırlayıram. Onun bir nəsihəti bu gün də mənim qulaqlarımdadır və bə'zən yeri düşəndə dadıma çatır.

Bizim kafedranın qarşısında, dəhlizdə, pəncərələrin qabağında nədənsə söhbət edirik. Söhbət əsnasında o mənə dedi: – «Oğlum, sən cavansan hələ, görürəm bə'zən özündən çıxırsan, haqsızlıqlara dözmürsən. Özünə yazığın gəlsin, hər nadanın yersiz sözünə reaksiya vermə». Onun bu sözləri bu gün də mənim köməyimə çatır.

Allahverdi müəllim institutun kimyaçılar dəstəsinin lideri idi. O, mərhum Əbdürrəhimov ilə bərabər respublikamız üçün yüzlərlə ləyaqətli kimya müəllimi yetişdirməkdə yaxından və fəal iştirak etmişdir. Ətrafdakılarla münasibətdə həmişə xeyirxah olmuşdur.

Mə'lumdur ki, 60–70-ci illərdə tələbə qəbulunda neqativ hallar baş alıb gedirdi. Bə'zən ləqayətli olanlar kənarda qalır, zırramalar instituta qəbul ola bilirdilər. Belə hallara qarşı barışmaz idi prof. A. Verdizadə.

Allahverdi Verdizadə özünün müasirləri: prof. F.Qasımzadə, Ə.Dəmirçizadə, M.Mehdizadə, A.Abbaszadə, Ə.Zəkizadə, Ə.Seyidov, M.Muradxanov, Kələntərli, Qara Bəhram, İ.İbrahimov və bir çox başqaları ilə birlikdə institutun orta sütunları idilər. Onlar tədris və elmi-tədqiqat işlərinə istiqamət verən əsas simalardan olub, öz fəaliyyətləri ilə başqalarına nümunə idilər. Onların hər biri klassik müəllim nümunəsi kimi maarif tariximizə əbədi daxil olmuşlar.

Prof. A.Verdizadə görəndə ki, bu işdən konflikt duyulur, onun qarşısını dərhal almağa çalışar və buna nail olardı. Bu da yadımdadır ki, 1964-cü ilin yayında qardaşım oğlu Vaqif – hal-hazırda kimya fakültəsində dosent vəzifəsində işləyən Vaqif Həsənov, – Qərbi Azərbaycandakı doğma kəndimizdə orta məktəbi Qızıl medalla bitirib, sənədlərini APİ-nin kimya fakültəsinə vermişdir. Mən ailəmlə birlikdə Kislovodskidə dincəlirdim. Vaqifin atasından teleqram gəldi ki, bəs sən gəlib Vaqifi tapşır-masan, onu imtahanda kəsəcəklər. Mən gəldim və Allahverdi müəllimə vəziyyəti danışdım. O, məni dinlədi və dedi: «Mən

bilirəm o gavurların içində qızıl medal almaq heç də asan deyil. Hər halda mən bu işi rəhbərliyə deyəcəyəm» Belə də etdi. Medallıdan imtahanı rektorun iştirakı ilə komissiya götürürmüş. Vaqifin cavablarına diqqətlə qulaq asan Allahverdi müəllim mərhum rektorun – Ş. Ağayevin də diqqətini Vaqifin cavablarına cəlb edir və qiymətlər müzakirə ediləndə: «Bu uşağın cavabları 5-dir», – deyir. Komissiya üzvlərindən kimsə «4» təklif edəndə, A. Verdizadə deyir: – Sün'i olaraq problem yaratmayın. Bu uşaq hara müraciət etsə, özünün ə'la qiymətini qoruyub saxlayacaq. Siz isə elə sentyabr ayındaca Hüseynə cavab verməli olacaqsınız. Onun haqlı tənqidinə mə'ruz qalacaqsınız. Özünüzü pis vəziyyətdə qoymayın və s. və i.a.

Nəticədə, Allahverdi müəllimin obyektivliyi qalib gəlir.

Professor A. Verdizadə təkcə Vaqif Həsənovun deyil, onlarla, yüzlərlə Vaqif kimilərin əlindən tutmuş, ona dayaq olmuş, özünün obyektivliyini gözləmiş, haqqı-ədaləti nahaqqa verməmiş, doğruluğun, düzlüyün qarantı olmuş, mənim xatirimdə həqiqət mücəssəməsi kimi qalmışdır.

Allah ona min rəhmət eləsin!

«Allahverdi Verdizadə müasirlərinin xatirələrində» Bakı, 2000, s. 37–38.

Tarixi pedaqoji problemlər

Deyirlər ki, tarix insanları tərbiyə edir, onların dünyagörüşünün formalaşmasına tə'sir göstərir. Tarixi faktlar və hadisələr keçmişimizi başa salır, bu günümüzü dərk etdirir, gələcəyə istiqamət verir. Pedaqoji elmlər sistemində pedaqogika tarixinin ayrıca yeri vardır. Zəmanəmizdə bu elmin həm tə'limi, həm də tərbiyəvi funksiyası daha da artmışdır. «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»ndə deyilir: «Pedaqoqların bir neçə nəslinin əməyi, sovet məktəbi və pedaqogika elmi sayəsində qazanılmış qiymətli nə varsa, zamanın sınağından çıxmış nə varsa hamısı qayğı ilə qorunmalı və onlardan fəal istifadə edilməlidir».

SSRİ PEA-nın rəyasət hey'əti məktəb və pedaqogika tarixi sahəsində tədqiqatların əlaqələndirilməsini gücləndirmək məqsədilə özünün II.IX.1985-ci il tarixli qərarı ilə akademiyanın rəyasət hey'əti yanında məktəb və pedaqogika tarixi problemi üzrə Elmi şura yaratmışdır. 26 nəfərdən ibarət olan həmin şuranın tərkibinə ölkənin tanınmış məktəb və pedaqoji fikir tarixçiləri daxil edilmişdir.

Problem şuranın başlıca məqsədi SSRİ xalqlarının pedaqoji fikir tarixi tədqiqatlarını daha da canlandırmaq, Sov.İKP-nin proqram sənədlərindən, məktəb islahatı tələblərindən irəli gələn vəzifələrin həyata keçirilməsini və aparılan tədqiqatların buna müvafiqliyini tə'min etmək, həmçinin daha aktual, daha vacib problemləri həll etmək üçün bütün pedaqoji tarixçilərin qüvvələrini birləşdirmək, aparılan elmi-tədqiqat problemlərini əlaqələndirmək, onların metodoloji və nəzəri səviyyəsini yüksəltməkdir.

Bununla bərabər Şuranın vəzifəsi həm də SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi üzrə tədqiqatların və onların nəşrinin uzun müddətli planlaşdırılmasını həyata keçirmək; tədqiqatların mövzularını əlaqələndirmək və aktual tarixi-pedaqoji problemlərin öyrənilməsinə dair tövsiyələr işləyib hazırlamaq; pedaqogika tarixi üzrə doktorluq dissertasiyalarının tematikasını müzakirə etmək; müntəzəm və planlı surətdə müşavirələr, simpoziumlar və seminarlar təşkil edərək pedaqogika tarixinin və tarixi pedaqoji tədqiqatların, metodoloji problemlərin aktual məsələlərini müzakirə etməkdir və s.

Göründüyü kimi, problem Şuranın təşkili mühüm elmi-təşkilati tədbir olub, tarixi-pedaqoji problemlər üzrə tədqiqatların gələcəkdə daha da təkmilləşdirilməsinə və intensivləşdirilməsinə, bu tədqiqatların perspektiv planlaşdırılmasına, müasir mərhələdə Sovet pedaqoji elminin və təcrübəsinin inkişafının vacib vəzifələrinin həlli üçün onların ideya-nəzəri səviyyəsinin yüksəldilməsinə yaxından köməklik göstərəcəkdir. Həmin vəzifələri həll etmək üçün elmi şuranın ildə iki dəfə sessiyası çağırılacaqdır. Bu günlərdə Moskvada şuranın ilk sessiyası keçirildi. Sessiyanı giriş sözü ilə SSRİ PEA-nın həqiqi üzvü, pedaqogikanın nəzəriyyəsi və tarixi şö'bəsinin akademik katibi Q.N. Filonov yoldaş açaraq müasir şəraitdə pedaqoji elmlərin, o cümlədən pedaqogika tarixinin artmaqda olan rolundan, bu

sahədə görülən işlərdən və qarşıda duran vəzifələrdən ətraflı danışdı. Son vaxtlar ölkənin pedaqoji tarixçiləri SSRİ xalqlarının 7 cilddən ibarət «Məktəb və pedaqoji fikir tarixi» adlı irihəcmli oçerklər seriyası hazırlamış, onlardan 4 cildi artıq çap olunmuş, 3 cild isə istehsalatdadır. «Pedaqoji antologiya» adlı silsilə əsərlərin çap olunmağa başlanması pedaqoji tarixi sahəsində irəliyə atılmış mühüm addımlardır. Milli respublikalarda da bu sahədə xeyli iş aparılmış və aparılmaqdadır. Ölkəmizdə pedaqoji tarixçilərin böyük bir kollektivi yaradılmışdır və onlar səmərəli fəaliyyət göstərirlər.

Q.N. Filonov yoldaş qeyd etdi ki, bütün bunlarla bərabər tədqiqat ehtiyatı hələ qurtarmayıb. Öz tədqiqini gözləyən neçə-neçə problemlər var.

Sessiyada əsas mə'ruzə ilə pedaqoji tarixi problemləri üzrə elmi şuranın sədri, SSRİ PEA-nın müxbir üzvü Z.İ. Ravkin çıxış etdi. Mə'ruzəçi qeyd etdi ki, Sov.İKP XXVII qurultayının proqram sənədləri baxımından tarix elmlərinin, o cümlədən pedaqoji tarixinin ideoloji, ideya-tərbiyəvi vəzifəsi bir daha artır. Pedaqoji tarixinin qarşısında duran başlıca vəzifələrdən biri pedaqoji kadrların ümummədəni inkişafına, mə'nəvi zənginləşməsinə xidməti daha da artırmaqdan, ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərinə uyğun olaraq bu işi daha da təkmilləşdirməkdən ibarətdir.

Mə'ruzəçi son 20–25 il ərzində Sovet pedaqoji tarixi tədqiqatlarının başlıca inkişaf tendensiyasının xarakteri üzərində dayandı, inqilaba qədərki dövrün və sovet pedaqoji tarixinin tədqiqi sahəsində əldə edilmiş nailiyyətləri – ümumiləşdirilmiş kompleks tədqiqatları təhlil etdi və göstərdi ki, ölkəmizdə, o cümlədən Ukrayna, Belorusiya, Gürcüstan, Azərbaycan, Özbəkistan və Tacikistan respublikalarında bu istiqamətdə böyük işlər görülmüş, ümumdünya tarixi-pedaqoji prosesdə SSRİ xalqlarının məktəb və pedaqoji fikrinin rolunu və yerini göstərmək üçün mühüm zəmin yaradılmışdır. SSRİ xalqlarının 7 cildlik «Məktəb və pedaqoji fikir tarixi» seriyasından hazırlanmış «Oçerklər» öz miqyası, məzmunu və tarixşünaslığı ilə böyük hadisədir, bu vaxta qədər belə kollektiv və ümumiləşdirici tədqiqat əsərləri olmamışdır.

Bu sahədə ikinci əsas cəhət pedaqoji tarixinin praktik əhəmiyyətinin son vaxtlar daha da gücləndirilməsidir. Tədqiqatların nəticəsini məktəb təcrübəsinə tətbiq etmək, pedaqoji institutlarda müxtəlif tarixi-pedaqoji problemlər üzrə xüsusi kurs və seminarların təşkili, kompleks metodik vəsaitlərin hazırlanması, ən başlıcası isə bu sahədə çalışan elmi-pedaqoji kadrların hazırlanmasına diqqətin artırılması dövrün tələbidir. Son zamanlar «İnkişaf etmiş sosializmdə məktəb və pedaqogika» adlı xüsusi kursun tətbiqi, «Marksist pedaqogika», «Pedaqogika tarixi və müasirlik», «Sosialist ölkələrində məktəb və pedaqogika» müttəfiq respublikalarda «Məktəb və pedaqoji fikir tarixi» üzrə seçmə kurs və seminarların keçilməsi də aparılan tədqiqatların nəticəsidir. Bu mə'nada respublikamızda aparılan işlər müsbət qiymətləndirildi. 1977-ci ildən tətbiq edilən «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» üzrə xüsusi kurs müttəfiq respublikalar arasında ilk və müvəffəqiyyətli addım kimi qiymətləndirildi.

Mə'ruzədə və çıxışlarda, ümumiyyətlə, iki gün davam edən müzakirələrdə sovet pedaqoji tarixçilərinin vəzifələri, pedaqogika tarixi elminin qarşısında duran problemlər də müəyyən edildi. Bu problemlər əsasən aşağıdakılardır: Tədqiqatların nəzəri-metodoloji səviyyəsini gələcəkdə yüksəltmək, dünyagörüşü istiqamətini və konseptual xarakterini gücləndirmək; əldə edilən biliklərin tam şəkildə birləşdirilməsini tə'min etməklə, tarixi-pedaqoji hadisələrə sistemli və tam yanaşmanı tə'min etmək və bununla da tarixi hadisələrin qanunauyğunluğunun nəinki regional, həm də dünyəvi əhəmiyyətini müəyyənləşdirmək; müqayisəli-tarixi tədqiqatlar həyata keçirmək; tədqiqatlarda bir tərəfdən məktəb ilə pedaqogikanın, digər tərəfdən isə ictimai və elmi-texniki tərəqqinin böyük tarixi qarşılıqlı əlaqəsini meydana çıxarmaq, tətbiq edilən üsulların təkmilləşdirilməsi və mənbələrin təhlili, onların dairəsinin genişləndirilməsi, yeni və az mə'lum olan sənədləri, öz mahiyyəti e'tibarı ilə əhəmiyyətli olan faktları tədqiqata daha çox cəlb etmək; nəhayət yaxın 10–15 il ərzində pedaqoji tarixçilərin diqqətini cəlb edəcək məsələlər içərisində aşağıdakılar qeyd edildi: metodoloji problemlər, vətənimizin və dünya tarixi-pedaqoji prosesinin nəzəri məsələləri və s. Bütün bunlar on ikinci beşillikdə pedaqogika tarixi üzrə yeni dərsliyi müvəffəqiyyətlə

işləyib başa çatdırmağa (mövcud dərslikdə SSRİ xalqlarının, – qeyri-rus xalqlarının, məktəb və pedaqoji fikir tarixinə çox cüz'i yer verilməsi, cəmi 16 səhifə ciddi e'tiraz doğurdu və dərsliyin yeni nəşrində bu uyğunsuzluğun aradan qaldırılması nəzərə alınmaqla) sonralar isə tarixi-pedaqoji elm sahəsində ilk dəfə olaraq marksist-leninçi çoxcildli ümumdünya məktəb və pedaqogika tarixini yaratmağa imkan verəcəkdir. On ikinci beşillikdə pedaqoji tarixçilərin qarşısında duran başlıca məs'ul problemlərdən biri ölkənin sosial-iqtisadi inkişafı şəraitində, sosializmin təkmilləşdirilməsi mərhələsində (1986–1990) ümumtəhsil və peşə məktəbi islahatının həyata keçirilməsi prosesini işıqlandırmaqdan ibarətdir.

Sosialist ölkələrinin pedaqoji tarixçilərinin qüvvələrini birləşdirmək sayəsində, yaxın 5–6 il ərzində «Sosialist məktəbi və pedaqogikası tarixi oçerkləri» adlı çox mühüm əsərin yaranması böyük beynəlxalq əhəmiyyət kəsb edəcəkdir.

Mə'ruzəçi «Pedaqogika» nəşriyyatının artıq nəşrə başladığı və ilk cildləri artıq çap olunmuş «SSRİ xalqlarının pedaqoji fikir antologiyası» üzərində ayrıca dayandı və qeyd etdi ki, bu seriyadan buraxılan və ölkənin pedaqoji tarixçilərinin çox fəal iştirak etdiyi həmin əsərlərin meydana gəlməsi pedaqogika tarixi üzrə tədqiqatların inkişafı sahəsində yeni stimul olacaqdır.

Yeri gəlmişkən qeyd etməyi lazım bilirik ki, respublikamızın pedaqoji tarixçiləri də Azərbaycan pedaqoji fikir antologiyasını çapa hazırlayırlar. Lakin e'tiraf edək ki, bu sahədə işlər ləng gedir. Qonşu respublikalarda bu iş artıq başa çatdırılıb, nəşriyyata təhvil verilmişdir. Bə'zi respublikalarda isə artıq çap edilmişdir. qüvvələri səfərbərliyə alaraq başlanmış işi yaxın vaxtlarda qurtarmağa çalışmalıyıq.

Ümumittifaq məclisində tədqiqat mövzularının xarakterindən də danışıldı. Belə bir fikir söylənildi ki, mövzunun aktuallığı mövcud vəziyyətlə, şəraitlə bağlıdır. Bu mə'nada şəxsləndirilmiş mövzular, yə'ni ayrı-ayrı şəxsiyyətlərin – pedaqoqların, maarifçilərin pedaqoji ideyalarının tədqiqat mövzusu olub-olmaması barəsində də söhbət getdi. Qeyd edildi ki, bu gün başlıca məsələ, tarixi-pedaqoji problemlərə üstünlük verməkdir. Ölkənin bir çox ali məktəbləri və elmi-tədqiqat idarələri artıq həmin problemlərin tədqiqi ilə məşğul

olurlar. Lakin ayrı-ayrı şəxsiyyətləri üzə çıxarmadan, xüsusilə milli respublikalarda tarixi-pedaqoji problemə keçmək çətindir. Fikrimizcə ayrı-ayrı şəxsiyyətlərin öyrənilməsi tarixi-pedaqoji problemlərin tədqiqi üçün bir açar rolunu oynayır.

Son vaxtlar pedaqogika tarixinin həm tədqiqi, həm də bu sahədə hazırlanan elmi-pedaqoji kadrlardan məqsədyönlü istifadə edilməsi sahəsində özünü göstərən qüsurlardan da bəhs edildi. Qeyd edildi ki, bə'zi əsərlərdə faktları təhlil edib ümumiləşdirmə əvəzinə təsvirçilik hökm sürür. Halbuki, başlıca cəhət ideyaları, fikirləri üzə çıxarmaq, ümumiləşdirmək, fakt və hadisələri qiymətləndirməkdən, metodoloji cəhətlərə üstünlük verməkdən ibarətdir.

SSRİ PEA ETUPİ-nin laboratoriya müdirlərindən M.N. Kolmakova, E.D. Dneprov və həmyerlimiz Q.İ.Səlimovanın əlavə mə'ruzələrində bir sıra vacib problemlər qaldırıldı, müttəfiq respublikalarla əlaqələrdən bəhs edildi.

Mə'ruzələr ətrafında çıxış edənlər, o cümlədən A.İ. Piskunov, V.M. Klarin, V.V. Qaqua, M.S. Qritsenko, M.N. Kuzmin «Pedaqogika» nəşriyyatının direktoru V.M.Klarin, A.Y. Ayzenberq, B.M. Bim-Bad, S.Q. Stepanov, bu sətirlərin müəllifi və başqaları tarixi-pedaqoji tədqiqatlar, nəşriyyat məsələləri, kadr hazırlığı ilə bağlı bir sıra problemlərə toxundular.

Problem Şuranın birinci sessiyası sessiyalararası dövr üçün Elmi şuranın bürosunu seçdi. Büronun tərkibinə Zaqafqaziya respublikalarından V.V.Qaqua və bu sətirlərin müəllifi də seçildi. Elmi Şurada müzakirə olunan məsələlər barəsində müvafiq tövsiyə qəbul olundu. Elmi şuranın birinci sessiyasının materialları «Sovetskaya pedaqogika» jurnalında dərc olunacaqdır.

«Azərbaycan müəllimi» qəzeti, 1986, 21 mart.

Pedaqoji irsimizi dərindən öyrənək

Sovet İttifaqı Kommunist Partiyası sovet xalqının tarixi keçmişini öyrənməyə daim böyük əhəmiyyət vermişdir. Sovet xalqı sosializm cəmiyyəti və mədəniyyəti yaradarkən bəşər cəmiyyəti tərəfindən yaradılan təcrübədən yan keçməmiş, əksinə keçmişin bütün qiymətli təcrübəsindən istifadə etmişdir. V.İ. Lenin öyrədirdi: «Biz kommunizmi yalnız köhnə cəmiyyətdən bizə qalan bilik, təşkilat və müəssisələr məcmusundan, insan qüvvəsi və vəsait ehtiyatından qura bilərik». Bu nöqteyi-nəzərdən bəşər cəmiyyətinin bütün dövrlərində maarif, məktəb, tə'lim və tərbiyənin məzmununu, üsul və vasitələrini, pedaqoji fikir sistemini öyrədən məktəb və pedaqoji fikir tarixinin tədqiqi və təbliği xüsusi əhəmiyyət kəsb edir.

Çox qədim və zəngin olan Azərbaycan məktəbi və pedaqoji fikrin tədqiqi yalnız Böyük Oktyabrın nailiyyətidir. Yalnız Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra bu sahədə ilk addımlar atılmış və illər keçdikcə görkəmli tədqiqatçı-alimlər yetişmiş, sanballı tədqiqat əsərləri meydana gəlmişdir.

Sovet hakimiyyəti illərində Azərbaycanda məktəb və pedaqoji fikir tarixi problemi əsasən iki istiqamətdə işlənmişdir. Bir qrup alimlər pedaqoji fikrin öyrənilməsi, digərləri isə məktəb tarixinin tədqiqi ilə məşğul olmuşlar. Azərbaycanda pedaqoji fikir tarixi tədqiqinin pioneri olan mərhum professor Ə.Seyidovun bu sahədəki gərgin əməyi ayrıca qeyd edilməlidir. Professor Ə.Seyidov M.Füzulidən başlamış, XIX əsrin ən görkəmli simalarından olan A.Bakıxanov, M.Ş. Vazeh, M.F.Axundov, S.Ə.Şirvani və H.Zərdabinin, XX əsrin görkəmli nümayəndələrindən C.Məmmədquluzadə, M.Ə. Sabir, F.Köçərli və başqalarının pedaqoji fikirlərini tədqiq etmişdir. Onun «Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən» adlı monoqrafiyası və silsilə məqalələri müəllimlərin və ali pedaqoji məktəb tələbələrinin stolüstü kitabıdır.

40-cı illərdən başlayaraq alimlərimizin ilkin dəstəsi yetişməyə başlayır. Onlardan M.Mehdizadə, M.Muradxanov, Əmir Tağıyev, Ə.İsgəndərzadə, N.Asatur, S.Xəlilov, D.Mustafazadə, Z.Axundova, V.Mustafazadə və Ə.Həsənovun ardınca Əyyub Tağıyev, A.Rzayev, Ə.Həşimov, F.Seyidov, Ə.Məmmədov,

Ə.Qədimbəyova, P.Saleh, Ə.Yaqubi, İ.Mollayev, H.Rəfibəyli, Ə.Cəlilov, Ə.Ağayev, A.Tağıyev və başqaları Azərbaycanda məktəb və pedaqoji fikrin bir çox aktual məsələləri üzərində uzun illər tədqiqat aparmış və dəyərli əsərlər yazmışlar.

Lakin təkzibedilməz həqiqətdir ki, Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin öyrənilməsi, gənc nəslə çatdırılması, onun faydalı cəhətlərindən istifadə edilməsi ictimai-pedaqoji həyatımızın böyük sür'ətlə artan tələblərindən hələ də geri qalır. Digər elm sahələrinin inkişafı ilə müqayisə etsək, respublikamızda məktəb və pedaqoji fikir tarixinin tədqiqinin ləng getdiyini görərik.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi sahəsindəki nöqsanlar və qarşıda duran vəzifələr bunlardır:

Bu vaxta qədər aparılan tədqiqatlar əsasən dissertasiyalar ilə bağlı olduğundan, Azərbaycanda istər məktəb, istərsə də pedaqoji fikir tarixinin sistemli surətdə öyrənilməsi əsas qüsur olaraq qalır.

Bu sahədə fəaliyyət göstərən tədqiqatçılarımızın xüsusi məktəb yaratmaq əvəzinə, tez-tez bir mövzudan digər mövzuya keçmələri də tədqiqat işlərinin səmərəsini azaldır. Mə'lumdur ki, alim öz tədqiqat obyektini uzun müddət üçün müəyyən edərsə, onun tədqiqatı səmərəli, elmi nəticələri düzgün, faydası isə çox olar.

İndiyədək tədqiqatçılarda pedaqoji fikirlə məktəb tarixinin arasında müəyyən bir sədd qoyulmuşdur. Belə ki, bir pedaqoqun tə'lim-tərbiyəyə aid fikirlərini, pedaqoji baxışlarını işləyən tədqiqatçı həmin fikirləri o dövrün məktəbi, tə'lim-tərbiyə məsələləri ilə əlaqəli deyil, təcrid edilmiş şəkildə öyrənmişdir. Bu da pedaqoji fikirlə məktəb təcrübəsinin vəhdətdə öyrənilməsinə xidmət etməmişdir.

Məktəb və pedaqoji fikir sahəsində aparılan tədqiqat işlərini nizama salan və tənzim edən elmi mərkəzin olmaması da yaxşı hal deyil. Bu səbəbdən də bə'zən tədqiq edilən mövzular ya təkrar edilir, yaxud tədqiqat üçün lüzumsuz mövzular verilir.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin öyrənilməsinə nəzər salsaq bir çox mövzuların deyil, bütöv dövrlərin xali qaldığını görərik. Məktəblərimizin tarixinə diqqət yetirsək ta qədim zamanlardan başlamış Böyük Oktyabr sosialist inqilabına qədərki dövrdə Azərbaycanda məktəb necə olmuş, necə inkişaf etmişdir? Qədim Midiyanın, Albaniyanın, orta əsrlərdə Nizaminin,

Füzulinin, Vaqifin dövründəki məktəblər necə idi? Orta əsrlərdəki Azərbaycan məktəblərinin tədris planını, quruluşunu, tipini, tə'lim və tərbiyə üsullarını öyrənməyin vaxtı çatmamışdırmı?

Həmçinin sonrakı əsrlərdə, xüsusilə, əsrimizin ilk on illiyində Azərbaycanda fəaliyyət göstərən yeni tipli məktəblər, qadın təhsili, xüsusi məktəblər, cümə günü məktəbləri, sənət və peşə məktəbləri tədqiqini gözləyir.

Tədqiq olunmamış, lakin tədqiqə böyük ehtiyac hiss edilən vacib məsələlərdən biri də Azərbaycan mətbuatında tə'lim-tərbiyə məsələsidir. Mərhum P.Salehin tədqiqatı («Məktəb» və «Dəbistan» jurnalları) nəzərə alınmazsa, «Əkinçi»dən başlamış inqilaba qədər və inqilabdan sonrakı pedaqoji mətbuat pedaqoqlarımız tərəfindən hələlik öyrənilməmişdir. Halbuki dövri mətbuatda tə'lim-tərbiyə məsələlərinə aid qiymətli və zəngin fikirlər vardır. Xüsusilə bolşevik mətbuatını dərindən öyrənmək, Azərbaycan bolşeviklərinin xalq maarifi və məktəb uğrundakı mübarizəsini aşkar etmək, Azərbaycanda marksist pedaqoji fikrin meydana gəlməsi, yayılması və inkişaf yollarını araşdırmağın vaxtı çoxdan çatmışdır.

Bu günə qədər qələmə alınmamış, lakin tədqiqi zəruri olan məsələlərdən biri də Azərbaycanda sovet pedaqoji fikrin inkişafıdır. Oktyabrın qələbəsindən keçən 60 il ərzində Azərbaycanda yaranmış və milli zəmin üzərində inkişaf etmiş pedaqoji fikrimizin, ümumi orta təhsilin və ali məktəbin tədqiqi respublika və İttifaq əhəmiyyətindən başqa, beynəlxalq əhəmiyyət də kəsb edir.

Respublikada məktəb və pedaqoji fikir tarixinin öyrənilməsini həyatın tələb etdiyi səviyyəyə qaldırmaq üçün bir sıra ciddi təşkilati məsələlər üzərində də düşünmək lazımdır. Bu işlə bilavasitə məşğul olan elmi-tədqiqat institutu və ya şö'bənin olması çox vacibdir.

Bu vaxta qədər bu mühüm problem ilə respublika Maarif Nazirliyinin tabeliyində olan ETPEİ və ali məktəblərin ümumi pedaqogika kafedraları məşğul olurdu. Lakin son vaxtlar ETPEİ-də bu işlə məşğul olan şö'bə bağlanmış, pedaqoji institutların pedaqogika kafedralarının əməkdaşları isə əsasən tədris işi ilə (pedaqogika nəzəriyyəsi, məktəb həyatının daha aktual məsələləri və s.) məşğul olduğundan, kafedra üzvlərinin çox az

hissəsi Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tədqiqilə məşğuldurlar.

Ölkəmizdə bu sahənin tədqiqilə SSRİ PEA-nın müvafiq elmi-tədqiqat institutu məşğul olur. Son vaxtlar SSRİ xalqlarının çoxcildli məktəb və pedaqoji fikir tarixinə dair əsərlər nəşr edilib. Lakin bu institut əsasən rus pedaqoji irsini tədqiq edir. Akademiyanın bə'zi işçiləri son vaxtlar Avropa ölkələrində, ABŞ-da və digər xarici ölkələrdə məktəb, tə'lim-tərbiyə məsələlərini öyrənirlər. Milli respublikaların pedaqoji irsinin tədqiqilə yerli tədqiqat idarələri məşğuldur.

Fikrimizcə, Azərbaycan SSR Elmlər Akademiyası nəzdində ayrıca bir bölmə – məktəb və pedaqoji fikir tarixi bölməsi yaradılması barədə düşünmək yaxşı olardı. Bu şö'bə Azərbaycan mülki tarixinin və mədəniyyət tarixinin ayrılmaz bir hissəsi olan maarif və məktəb tarixini tədqiq etməkdə böyük iş görər. Azərbaycan məktəb və pedaqoji fikir tarixinin tədqiqi məsələsi SSRİ PEA-nı da düşündürməlidir.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədris edilməsi məsələsi üzərində ayrıca dayanmaq istərdik.

Fikrimizcə, pedaqoji institut və universitet tələbələrinə Avropa və Rusiya məktəb və pedaqoji fikir tarixilə yanaşı, həm də Azərbaycan məktəb və pedaqoji fikir tarixinin öyrədilməsi çox vacibdir. V.İ.Lenin adına APİ-nin ümumi pedaqogika kafedrasının təşəbbüsü ilə bu sahədə ilkin addım atılmış, proqram hazırlanaraq çap edilmişdir. Hal-hazırda həmin proqram üzrə tədris vəsaiti hazırlanır.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin ixtisas kursu şəklində tədrisi gələcək müəllimləri öz peşəsinə hazırlamaqda mühüm rol oynayır.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi və öyrənilməsi sahəsindəki çox mühüm qüsurlardan və tədqiqatçılar üçün çətinlik törədən məsələlərdən biri də nəşriyyatla əlaqədardır. Bu işlə nə «Azərnəşr», nə də «Maarif» nəşriyyatı məşğul olur. Ali məktəblərin nəşriyyat məkanı isə çox zəifdir.

Bir cəhəti ayrıca qeyd etmək istərdik ki, bu da Azərbaycan klassik pedaqoqlarının, maarifçilərin seçilmiş pedaqoji əsərlərinin hələlik çap edilməməsindən ibarətdir. Mə'lumdur ki, rus və Avropa

pedaqoqlarının demək olar ki, əksəriyyətinin seçilmiş pedaqoji əsərləri rus dilində nəşr edilmişdir. Məsələn, Y.A. Komenskinin, K.D. Uşinskinin, Dobrolyubovun seçilmiş pedaqoji əsərləri Azərbaycan dilində də çap olunmuşdur. Şübhəsiz bu çox faydalıdır və bu iş gələcəkdə də davam etdirilməlidir. Lakin narahatlıq doğuran cəhət odur ki, bu vaxta qədər M.T. Sidqi müstəsna olmaqla Azərbaycanın görkəmli pedaqoqlarından heç birinin pedaqoji əsərləri oxuculara çatdırılmamışdır.

Azərbaycan pedaqoji elminin inkişafında marksist tənqidin rolu böyükdür. Təəssüf ki, bu sahədə tənqid donmuş şəkildədir. Nəşr edilən məqalələr, əsər və monoqrafiyalar, dərslik və tədris vəsaitləri, dissertasiyalar, onların dəyəri, qüsuru haqda mətbuatda geniş, obyektiv tənqidə, elmi təhlilə rast gəlmirik.

Xalq maarifi, məktəb və pedaqoji fikrin inkişaf yolunu marksizm-leninizm tə'limi əsasında dərindən və əsaslı surətdə işləmək, onun müsbət cəhətlərindən kommunizm quruculuğunda istifadə etmək günün vacib məsələlərindən biridir.

«Azərbaycan müəllimi» qəzeti, 1 aprel 1978.

Nəsirəddin Tusi – fəzilət və ədalət mücəssəməsidir

Böyük zəka sahibləri haqqında düşünərkən onların bəşəriyyətə mə'lum olan nurlu əməlləri gözlərimiz önündə canlanır. İnsanlığın yoluna işıq salan bu əməl sahiblərinin ruhuna tarixən rəhmət dilənilmişdir; onların işıqlı ideyaları zaman-zaman şərh olunmuş, geniş kütləyə çatdırılmasına səy göstərilmişdir. Nəsirəddin Tusinin dünya elmi və mədəniyyəti tarixində mühüm yer tutduğunu, yubileyinin beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq dahi alim və mütəfəkkirin 800 illik yubileyinin qeyd olunması haqqında respublika prezidenti cənab Heydər Əliyev 13 iyun 2000-ci il tarixdə fərman imzalamışdır.

Neçə min illərdir dünya alimlərinin qızıl taxtında Aristotel əyləşib. Bu dahi filosofun poeziya və poetikaya, riyaziyyata, kainat və astronomiyaya, fəlsəfə və pedaqogikaya dair qiymətli fikirləri ona əbədi şöhrət qazandırmışdır. Nədənsə Aristotelin adı gələndə xatirimizdə Nəsirəddin Tusi canlanır. Zənnimizcə, Aristotel yunan və

dünya elminə nə vermişsə, məhz Nəsirəddin Tusi də Vətən və Şərq naminə eyni xidməti göstərmişdir. Əsrlərin, hətta minilliklərin fonunda müqayisələr, paralellər əsl həqiqətin ortaya çıxmasına və qiymətləndirmədə obyektivliyə tərəf meyli artırır. Bu baxımdan qədim Şərqin böyük zəka sahibləri Nəsirəddin Tusi, Əbu Əli ibn Sina, Əbu Reyhan Büruni, Ömər Xəyyam və bir çox başqaları bəzi məqamlarda eyni dərəcədə məşhur olsalar da, bəzi məqamlarda məhz Nəsirəddin Tusi türk dünyasının Aristoteli hesab edilməlidir. Alimin ensiklopedik biliyə malik olması göstərir ki, o, doğrudan da gəncliyindən başlayaraq mükəmməl təhsil almış, hələ erkən gənclik yaşlarından böyük şöhrət qazanmışdır. Alimin ensiklopedik biliyə malik olması göstərir ki, o, doğrudan da, gəncləyindən başlayaraq mükəmməl təhsil almış, hələ erkən gənclik yaşlarından böyük şöhrət qazanmışdır. Təsadüfi deyil ki, Nəsirəddin Tusinin dərs aldığı bir çox məşhur alim və pedaqoqlar Əbu Əli ibn Sinanın ardıcılları olmuşlar. Bizim diqqətimizi təkrar-təkrar özünə çəkən orta əsrlərin (XIII əsrin) universal zəkası hesab edilən Nəsirəddin Tusinin qələmindən çıxmış və neçə yüz illər boyu qoca Şərqin yeni-yeni nəsillərinin əxlaq dərsliyinə, insanlıq tərbiyəçisinə çevrilmiş «Əxlaqi-Nasiri» əsəridir. Qeyd etmək lazımdır ki, Şərq dünyagörüşünün formalaşmasında «Qur'ani-Kərim»lə yanaşı Sədinin «Bustan» və «Gülüstan»ı, Nəsirəddin Tusinin isə «Əxlaqi-Nasiri» əsəri mühüm rol oynamışdır. Azərbaycan alimi H. Məmmədbəyli 1968-ci ildə çapdan çıxmış «Nəsirəddin Tusi» adlı əsərində yazır: «Nəsirəddin öz vədinə əməl edərək 1235-ci ildə bütün Şərqdə çox böyük şöhrət qazanmış «Əxlaqi-Nasiri» əsərini hazırlayır. Həmin əsərin nüsxələri Qafqaz, Orta Asiya, Hindistan və başqa ölkələrdə yayılmağa başayır». Bu əsər hazır olandan bir az sonra Nəsirəddin Tusi həbs edilir və həşşaşilərin «Ələmut» qalasına göndərilir. Bu həbsin səbəbləri haqda müxtəlif rəy və fikirlər var. Zənnimizcə, bu həbsin əsl səbəbi «Əxlaqi Nasiri»nin mütərəqqi əhval-ruhiyyəyə köklənərək yazılmasıdır. Şəksiz, humanist, tərəqqipərvər fikirlər sahibi olan Nəsirəddin Tusi bu əsərə qədər yaşadığı mühitdə çoxlarını narahat etmiş və xoflandırmışdı. Bu əsər isə həmin fikirlərin ideoloji əsası kimi ortaya çıxır və Nəsirəddin Tusinin həbsinə səbəb olur.

Deməliyik ki, qələm məhsulu o zaman böyük təsir gücünə malik olur ki, o, şərh zamanı özünün hərtərəfli və dəqiq təhlilini tapa bilir. Bu mənada «Əxlaqi-Nasiri» təhlil edildikcə, haqqında elmi əsərlər, məqalələr yazıldıqca onun dünyəviliyi, həmişəyaşarlığı və müasirliyi bir daha aydın olur. «Əxlaqi-Nasiri» öyrədir ki, insanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir. Məlumdur ki, kamillik və naqislik sükanını idarə edən (sükançı) ağıl və iradədir ki, bunlar da, necə deyərlər, əxlaqda təzahür edir. Çox maraqlıdır ki, əxlaqi sifətləri daim inkişafda görən Nəsirəddin Tusi son nəticədə ya kamil və ya nadan (naqis), iradəli və ya iradəsiz insanı qəbul edir. Nəsirəddin Tusiyə görə, «Əxlaqda orta səviyyəli stabillik yoxdur».

«Əqidəsiz, inamsız, prinsipsiz yaşamaq olmaz. Aydındır ki, bunlarsız yaşayan adamların həyatı təsadüflər üzərində qurulur». Bu fikirlərin müəllifi mərhum professor Ziyəddin Göyüşov Nəsirəddin Tusini əxlaq bilicisi, peripatetik etikanın Azərbaycanda ən görkəmli nümayəndəsi, «Əxlaqi-Nasiri»ni isə onun əsas etik traktatı hesab edir.

Nəsirəddin Tusinin fikrincə, bir cisim eyni zamanda iki zidd xüsusiyyət qəbul edə bilməz. Məsələn, bir cisim eyni zamanda həm ağ, həm də qara ola bilməz. Cisimdə baş verən hər hansı bir dəyişiklik müəyyən səbəbin nəticəsində olur. Məsələn, qızdırmaq nəticəsində istilik, qaraltmaq nəticəsində qaralıq əmələ gəlir və s.

Əxlaqi sifətlər isə, bundan fərqli olaraq, insanın daxili aləminin təzahür forması kimi özünü qısa müddətə büruzə versə də, özülünü uzun müddətə qazanır.

Məlumdur ki, tarixi inkişafın bütün mərhələlərində insanlar arasında mürrəkəb əxlaqi münasibətlər mövcud olmuşdur. Xeyirxahlığa, səmimiyyətə, mehribançılığa, qarşılıqlı hörmətə – əsl insani münasibətlərə həmişə böyük ehtiyac duyulmuşdur. Tarixin qaranlıq zamanlarında nurun özünə yol açması o qədər də asan olmamışdır. Vaxtilə professor Həmid Araslının Məhəmməd Füzuli haqda dediyi bu sözləri eynən Nəsirəddin Tusiyə də aid etmək olar: «Zülmət səltənətində yalnız qüvvətin hakim olduğu bir əsrdə nə söz, nə əql, nə də zəka və istedadın heç bir qiymət və əhəmiyyəti olmadığını bildiyi halda»… böyük zəka sahibləri susmadılar. Nəsirəddin Tusi insanlığı əxlaqi saflıqda, paklıqda, nəfsə qalib

gəlməkdə, dünyəvi nemətləri yalnız yaşamaq xatirinə əldə etməməkdə görürüdü. O, həm də «Əxlaq» məfhumunu yeni, daha geniş və fəlsəfi mənada başa düşür və izah edirdi.

Şərqdə belə aforizm var: «Zəif adam hər şey üçün başqalarını təqsirləndirir, güclü adam isə uğursuzluğunun səbəbini özündə axtarır və taleyə qalib gəlir». Deməli, adamların düşdükləri şəraiti qiymətləndirmələrindən və vəziyyətdən çıxış yolunu seçmələrindən çox şey asılıdır. Bunun üçün isə insanda mübarizə aparmaq və müqavimət göstərmək qabiliyyətlərini tərbiyə etmək lazımdır. Bu, əxlaqi bütövlüyə dəlalət edir ki, bütün bunların nəzəri əsaslarını Nəsirəddin Tusi «Əxlaqi-Nasiri» əsərində işləyib hazırlamışdır. «Əxlaqi-Nasiri»də deyilir: «İnsanın həyatı iradə vasitəsi ilə təmin və idarə edilir, fəziləti o zaman daxili qüvvədən əyani fəaliyyətə çevrilə bilir ki, o, nəfsini belə, aydın rəzalət və bu qədər aşkar kəsafətdən təmiz saxlaya bilsin; çünki təbib xəstəliyin səbəbini ortadan qaldırmayınca, sağalmağa ümid bəsləmək olmaz; boyaqçı paltarı çirkdən təmizləməyincə, o, lazım olan rəngi tutmaz». Sonralar Avropa və Rusiya pedaqogikasında, əxlaq quruculuğunda əsas prinsiplərdən biri olan «pisi dəf etmək üçün yaxşıya yol açmaq lazımdır» deyimi məhz Nəsirəddin Tusi tərəfindən yuxarıda qeyd etdiyimiz şəkildə ifadə edilmişdir. Təmiz əxlaq kəsb etməyin bir və əsas yolu kimi Nəsirəddin Tusi elm və biliyə yiyələnməyi vacib sayır: «Elm və bilik əldə etmək, təcrübə toplamaq, qarşıya çıxan çətinlik və maneələri aradan qaldırmaq prosesində bu qüvvə get-gedə güclənir; bu, od qüvvəsini xatırladar. Od da rütubəti aradan qaldırmayınca qızışıb alovlana bilmir, elə ki, alovlandı, get-gedə güclənər və nəhayət, təbiətinin qabil olduğu ən yüksək dərəcəyə çatar».

Əxlaqi kamilliyə gedən yol bir «labirint»dir. Elə ki, bu labirintin açarı tapıldı, onda onun sonundakı mənəvi xəzinəyə sahib olacaqsan. Bu «açar» elmdədir. Təsadüfi deyil ki, böyük Nizami Gəncəvi də «Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz» deyib.

Yalançı möminliyi itlik, donuzluq kimi qiymətləndirən Nəsirəddin Tusi yalançı alimliyi, ibarəbazlığı da qəbih hesab edir və «Çirkin və qəbih işlər nə qədər murdar olsa, o qədər dərin basdırılmağa möhtacdırlar». Hətta onların gizlədilməsi, ört-basdır

edilməsi də təbiətdən silinməsi demək deyil. Nəsirəddin Tusiyə görə, bu cür qəbahətləri ancaq fəzilət qapılarını döymək və onun sehrli «otaqlarına» daxil olmaqla aradan qaldırmaq olar.

Antik dünyanın indiyə ən böyük işıq tutanı Aristotel insanlığı forma və məzmunun tamlığında, formaca insan olanın əxlaqi kamilliklə məzmunlaşdığını, yəni sözün həqiqi mənasında insanlaşdığını görür və yazırdı: «xarakterin birinci şərti nəciblikdir». Pedaqoq və psixoloqlar yaxşı bilirlər ki, «nəciblik», «düşünə bilmək» və «qiymətləndirmək» əxlaqın, həm də həqiqi əxlaqın təzahürü və nəticələridir. Təsadüfi deyil ki, müasir pedaqogikanın qarşısında duran əsas problemlərdən biri də insanlardakı naqisliklər, mənsəbpərəstliyi, kobudluğu, nəcibliklə, gözütoxluqla əvəzləməkdir.

Deməli, «Əxlaqi-Nasiri»n müəllifi öz dövrünün dünyagörüşünə dərindən bələd olmaqla yanaşı, həm də özündən əvvəlki bədii, etik, pedaqoji və fəlsəfi ideyaları mənimsəmiş, sonra isə «Əxlaqi-Nasiri»ni yazmışdır. Hətta deyilənə görə, Nəsirəddin Tusi «Əttaharə» (əxlaq təmizliyi) adlı əsəri ərəbcədən farscaya tərcümə etmək təklifindən ona görə imtina etmişdir ki, bu haqda özünün müfəssəl əxlaq traktatını yaratmaq barədə fikri artıq qəti imiş.

Bəşəriyyətin pedaqoji fikir tarixi özünün inkişafında bir sıra mərhələlərdən keçmiş və bu mərhələlərin hər birində yeni-yeni nəzəriyyələr və diqqətəlayiq əsərlərlə zənginləşmişdir. Böyük türk tarixində, bəlkə də, əxlaq tərbiyəsindən bəhs edən əsərlər sırasında birincisi məhz Nəsirəddin Tusinin «Əxlaqi-Nasiri» əsəridir. Deyirlər ki, insanın taleyində bəxt və təsadüflərin rolu az olmur. Nəsirəddin Tusi isə kamil əxlaqlı (elmli və nəcib) insanları bəxt sarıdan daha şanslı hesab edir və qeyd edir ki, çox vaxt təsadüflər də onlara rast gəlir. O, filosoflardan misal çəkərək «Əxlaqi-Nasiri»də yazır: «Əsl ləzzət sahibini naqislikdən kamilliyə, xəstəlikdən sağlamlığa, rəzilətdən fəzilətə qaldırır». Yəni bu iki qisim ləzzətin əvvəli də, sonu da fərqli və müxtəlifdir.

İnsanın əxlaqa yiyələnməsini hər cür elmi dəlillərlə mümkün və lazımlı hesab edən Nəsirəddin Tusi ədaləti və fəziləti də əxlaqi kamilliyin nəticəsi hesab edir: «Fəzilət düz xətt üzərindəki hərəkətə, rəzilət isə bu xətdən kənara çıxmağa oxşar». Həndəsə elmindən məlumdur ki, iki məntəqə arasındakı ən kəsə yol onları birləşdirən

düz xətt boyuncadır. Qalan yollar isə mütləq əyri xətt vasitəsi ilə tamamlanır. Olmazmı ki, yolumuzu düz xətdən salaq. Elə indinin özündə də. Onsuz da insanlığın son nəticədə gələcəyi qənaət belədir.

Böyük pedaqoq («Əxlaqi-Nasiri»nin müəllifi elə belə də adlanmalıdır), böyük alim tövsiyə edir: «Bundan sonra ədalət qanunlarına riayət etməyi, onları qoruyub saxlamağı, onun təbiətinə görə hərəkət edib fəaliyyət göstərməyi, başqaları ilə müaşirət, müamilə və münasibətdə onun təbiətinə uyğun davranmağı aşılamaq lazımdır. Əgər bu şərtə də əməl edilsə, yaradıcı insan olar, o, hikmət və fəzilət sahibi adını almağa layiq hesab görülər. Belə adam həm xarici, həm də daxili səadət uğrunda çalışsa, nur ələnnur olar, əks təqdirdə iş-gücünü buraxıb füzulluq (əllaməlik) eləməyinə dəyməz. Buna da ki, insan yalnız sarsılmaz iradə sayəsində çata bilər. Deməli, yenə də əxlaq mərtəbələrinin pillələrində qazandıqları sayəsində. Aqillər yaxşı deyiblər ki, «Özündən hər kim ki, deyil xəbərdar, Bir qapıdan girər, birindən çıxar» (Nizami).

Zənnimizcə, kifayət qədər faktlarla əsaslandırmaq olar ki, yalnız Şərqdə deyil, hətta Avropada yeni pedaqoji təfəkkürün formalaşmasında Nəsirəddin Tusi və onun «Əxlaqi-Nasiri»nin misilsiz rolu olub. Y.A. Komenskidən tutmuş K.D. Uşinskiyə qədər yeni dünyanın bütün mütərəqqi pedaqoqları Nəsirəddin Tusi ideyalarından (həm də dəqiq elmlərlə bağlı), onun «Əxlaqi-Nasiri»ndən bu və ya digr şəkildə (birbaşa və ya dolayısı ilə) məlumatlanmış və yaradıcılıqlarında ondan qidalanmış və bəhrələnmişlər. məsələn, fransız maarifçisi K.A. Helvetsi «Ağıl haqqında» adlı məşhur əsərində: «Ey ağıl! Sənlə insan zindanda da azaddır. Sən xoşbəxtliyin yolusan, xoşbəxtliyin özüsən» deyib. Bu gün «Əxlaqi-Nasiri»ni vərəqlədikcə bu fikirlərin heyrətamiz dərəcədə üst-üstə düşdüyünün şahidi oluruq.

Ölməz düha sahibinin «Əxlaqi-Nasiri» əsəri əvvəlindən tutmuş sonuna qədər, tam məsuliyyəti ilə deyə bilərik ki, öz dövründən daha çox bu gün üçün böyük əhəmiyyət kəsb edir. Məsələn, indiki bəzi insanların (xüsusən bir çox yurddaşlarımızın) pedaqoji və psixoloji düşüncələri ilə daha çox səsləşən aşağıdakı fikirlərə diqət yetirin: «Xəyanət-istər mal, istər vəzifə, istər dostluq, istərsə də məhrəmlikdə – bunun növü olduqca çoxdur. İnsanlıqda son dərəcə az payı olan bir adamın yanında da xəyanətdən daha alçaq

rəzalət olmaz. Buna görədir ki, heç kəs xainliyi boynuna almaz». Biz də Platondan iqtibas edilmiş və «Əxlaqi-Nasiri»n bəzəyi olan bir cümlə ilə fikrimizi bitiririk: «Xeyrə həsr edilməmiş həyat və məmatı hədərə getmiş hesab et».

«Pedaqoji Aləm», №4–5, 2000-2001, s.5-7. Məqalə Əlibala Zal oğlu Zalovla birlikdə yazılıb.

Nəriman Nərimanov tə'lim və tərbiyə haqqında

Ölkəmizin şəhərlərindəki dövlət arxivlərində və o dövrün mətbuatında Nərimanovun səmərəli pedaqoji fəaliyyəti haqqında çoxlu sənədlər və yazılar var. Təkcə bir faktı qeyd edək ki, özünün müvəffəqiyyətləri ilə Qafqazda deyil, bütün Rusiyada fərqlənən Bakı bazar günü məktəbi və axşam kurslarının tərəqqisi burada dərs deyən Ə.Haqverdiyev ilə bərabər, N.Nərimanovun mühüm xidmətlərindən hesab olunur.

N. Nərimanov özünün məslək dostları ilə birlikdə dövrün mühüm və mütərəqqi pedaqoji tələblərini daha düzgün görür və onun həllində ön sırada gedirdi. Rusiyada və Zaqafqaziyada olduğu kimi, Azərbaycanda da başlanan mütərəqqi hərəkat, hər şeydən əvvəl, ədəbiyyat, mətbuat ilə bərabər, əsasən məktəblə, xalq maarifi ilə bağlı idi. Geniş xalq gütləsi arasında elmi, təhsili geniş yaymağı, xalqın milli şüurunu oyatmağı, inkişaf etdirməyi qarşısına məqsəd qoyan və ilk növbədə yeni məktəb ideyası, ana dili təlimi ilə əlaqədar olan və dövlət orqanlarını, Rusiya Daxili İşlər Nazirliyini, polis departamentini təşvişə salan bu hərəkatın başında duranlar içərisində N.Nərimanov da var idi.

Bakıda səmərəli pedaqoji fəaliyyət göstərən qabaqcıl müəllimlərlə (ilk növbədə S.M. Qənizadə, H. Mahmudbəyov və Ə. Cəfərzadə ilə birlikdə) onun təşkil etdiyi və sonralar əhali arasında «Nərimanov qiraətxanası» adlandırılan ilk milli kütləvi kitabxana-qiraətxana şəhərin mədəni həyatında mühüm hadisə idi.

Hələ Bakıda müəllimlik edərkən «Tazə xəbərlər» (1899) adlı həftəlik qəzet və «Məktəb» (1900) adlı xüsusi pedaqoji jurnal nəşr etmək üçün dövlət idarələrinə rəsmi müraciət edən və hər dəfə rədd

cavabı alan Nərimanov 1905–1907-ci illərdə Bakıda nəşr olunan «İrşad» və «Həyat» qəzetlərinin redaksiyalarında işləyir. Bu qəzetlərin səhifələrində, bəzən hər nömrəsində «Cümə söhbətləri», «Həftə fəryadı» ümumi başlığı altında nəşr etdirdiyi silsilə məqalələri onun bir publisist kimi yetişməsini göstərir. «Nəriman» imzası ilə dərc edilən məqalələrin xeyli hissəsi xalq maarifinə, uşaq və gənclərin təliminə, tərbiyəsinə, müəllim kadrları hazırlığı kimi dövrün vacib pedaqoji problemlərinə həsr edilmişdir. Bu məqalələrin başlıca qayəsi, əsas məzmunu xalqı oyatmaq, milli şüuru formalaşdırmaq, xalq arasında maarifi yaymaq idi. O, Bakı ziyalılarının qabaqcıl dəstəsini özündə birləşdirən «Nəşri-maarif» və «Nicat» xeyriyyə cəmiyyətlərinin işində yaxından iştirak edirdi. «Nicat» cəmiyyətinin sədr müavini olan Nərimanovun bu cəmiyyət vasitəsilə 1906-cı ildə Bakıda Qafqaz müsəlman müəllimlərinin birinci qurultayının çağırılması və burada mühüm pedaqoji məsələlərin müzakirəyə qoyulması və həll edilməsi işindəki xidmətləri unudulmazdır. N.Nərimanovun çoxsahəli əməli fəaliyyətində, o cümlədən məqalələrində qaldırılan mühüm pedaqoji problemlər, habelə pedaqogika və psixologiyanın bir sıra nəzəri məsələləri, dünya və rus klassik pedaqoqlarının, Y.A.Komenski, J.J.Russo, İ.H.Pestalotsi, K.D.Uşinskinin pedaqoji fikirlərinin, ilk növbədə təlim və tərbiyə, haqqında Marks-Leninin nəzəriyyəsinin yayılması və təbliği onun fəaliyyətinin başlıca istiqamətini təşkil edirdi. Qeyd etmək lazımdır ki, onun sətiraltı fikirləri xalqı hürriyyətə səsləyirdi.

N.Nərimanov bütün fəaliyyətində əsl vətənpərvərlik mücəssəməsi, beynəlmiləlçilik carçısı idi. Onun 1906-cı il iyulun 23-də «Həyat» qəzetində dərc etdirdiyi «Müsəlman-erməni kasıb-fəqirlərinə bir neçə söz» adlı məşhur məqaləsi bu cəhətdən çox xarakterikdir. Həmin məqalədə oxuyuruq: «Siz iki bədbəxt millət, iki qonşu nə məqsəd ilə meydana çıxırsınız? Bir birinizin qanını tökmək ilə hansı bir əqidəni yola verib, hansı nöqtəyə çatmaq istəyirsininz? Kim kimin əlindən torpaq alıb ona sahib olacaqdır? Kim kimə qalib gəlib, məğlubi özünə tabe edəcəkdir?… Bir-birinizi zəifləşdirib, üçüncü bir yırtıcıya yemmi olmaq istəyirsiniz?».

Nərimanov erməni və müsəlmana (azərbaycanlıya) üz tutub açıq aşkar deyirdi: «böyük»lərinizdən sizə əlac yoxdur! Özünüz öz

dərdinizə dərman arayınız, qoyun olub ixtiyarınızı qurdlara tapşırmayınız. Onlar pul ilə, siz can ilə meydana gəlirsiniz…

Bəsdir millətin haqqında bu qədər zülm! Tamamdır nahaq yerə tökülən qanlar!…»

N. Nərimanovun 80 il bundan əvvəl söylədiyi həmin fikirlər o zaman üçün həyati olduğu kimi müasir dövrdə də ibrətamiz səslənir. Son iki ildə uydurma Dağlıq Qarabağ problemi və problem ətrafında baş verən qanlı-qadalı hadisələr, millətlərarası ziddiyyətlər, qaçqınlar və köçkünlər, didərginlər məfhumlarının reallığı buna sübutdur.

1990-cı ilin 20 yanvar qanlı şənbə günündə verilən qurbanlar Nərimanovun yuxarıda dediyi və aşağıda iqtibas gətirəcəyimiz sözlərin bir daha həyatiliyini göstərir. O deyirdi: «Hürriyyətpərəstlər bir nöqtə, bir məqsəd tutub həmin məqsədin, həmin əqidənin yolunda canlarını fəda edirlər. Bunlar deyirlər: Hürriyyətin meyvəsini biz görməsək də, bizdən sonra gələnlər görəcəklər, yeyəcəklər, ləzzətini görüb də, bizə rəhmət oxuyacaqlar…»

N. Nərimanovun məqalələrindən başlıca məqsəd həm də bütün zəhmətkeşləri, bütün millətləri birləşdirməyə, çarizmə qarşı mübarizədə vahid bir cəbhədə birləşməyə çağırmaq idi. Məşhur rus şairi İ.A. Krılovun «Balıq, ördək və xərçəng» təmsilini misal gətirən Nərimanov bütün zəhmətkeşləri proletar beynəlmiləlçiliyi bayrağı altında sıx birləşməyə səsləyirdi.

Bütün bu çağırışlar onunla nəticələndi ki, o 1909-cu ilin fevral ayında Tiflis şəhərində həbs edilərək məşhur Metex qalasına salındı və 7 aydan sonra 2 il müddətinə Həştərxana sürgün edildi, lakin o sürgündə olmasına baxmayaraq, burada da inqilabi, ictimai və maarifçilik fəaliyyətini davam etdirmiş və şəhər əhalisinin böyük hüsn-rəğbətini qazanmışdır. «Həştərxan xalq universiteti» və şəhər müsəlmanlarını birləşdirən «Şurayi-İslam» cəmiyyətlərində fəal iştirakı, yerli mətbuat orqanlarında, o cümlədən tatar dilində çıxan «Burhani-tərəqqi», rus dilində nəşr olunan «Astarxanski listok», «Astaraxanski kray», «Astaraxanski vestnik», «Prikaspiyski ray» adlı qəzetlərin və «Semeynoye vospitaniye» adlı jurnalın səhifələrində təlim-tərbiyə, xalq maarifi və məktəb məsələlərinə dair çoxlu və maraqlı məqalələrlə çıxış etmişdir.

Sürgündə olmasına baxmayaraq o, Bakıda baş verən ictimai-pedaqoji hadisələri diqqətlə izləyir və ona münasibətini bildirirdi. O

1911-ci ildə Bakıda nəşrə başlayan «Məktəb» adlı elmi-pedaqoji, ədəbi-bədii, demokratik istiqamətli jurnalın birinci nömrəsində dərc etdirdiyi «Əziz balalar» adlı məqaləsində uşaqlara müraciətdə deyirdi: «biz anadan təvəllüd tapıb da bu mərtəbəyə yeriş etməkdə» böyük zəhmətlərə, ağır məşəqqətlərə mübtəla olduq. Dərin uçurum dərələri keçib uca dağları aşarkən, həyatımız hər gün, hər saat və hər dəqiqə təhlükədə bulunub, məqsədimizə çatmamış həlak olmağımızı düşünürdük… Biz gedən yol, daşlı, torpaqlı, iti tikanlar ilə səpilmiş olarkən Sizin həyatınızın yolu işıq, təmiz, yumşaq görünür».

Bakıya qayıdan Nərimanov burada ictimai-siyasi fəaliyyətini davam etdirməklə yanaşı, yerli qəzetlərdə də elmə, təhsilə və tərbiyəyə aid qiymətli məqalələrlə çıxış edirdi.

N.Nərimanov bütün millətləri qardaşlığa çağırırdı. O yazırdı: «Ey dinini, məzhəbini, ata-babasının yurdunu sevən müsəlman camaatı! Ey hüququnu düşünən və onu müdafiə etmək istəməyən müsəlman xalqı! Ey balalarının istiqbalını fikir edən və onların səadətinə çalışmaq istəyən atalar və analar! Biz bu gün inqilabi və Qafqazı böyük bir təhlükədə görüb deyirik, bir ümid yerimiz varsa, o da təzə hökumətə var qüvvənizlə kömək etməlisiniz. Sizin hər tərəfdən nicat yolunuz Leninin məramnaməsindədir». Bəs nə etməliyik sualına cavab verən Nəriman deyirdi: «…hər yerdə çalışmalısınız ki, hökumət fəhlə, zəhmətkeş, kəndçilər şuralarının ixtiyarına keçsin».

N. Nərimanovun 70 il bundan əvvəl söylədiyi bu fikirlər bu günlər daha əzəmətlə səslənir. O yazırdı: «Müəyyən bir sinif, ağalar, mülkədarlar tərəfindən kəndçi, fəhlə və ümumzəhmətkeş sinfinin barəsində olan vicdansızlıq: oğurluq, quldurluq, qan tökmək. insan və millət balalarını ayaqyalın, başıaçıq, sərgərdan çöllərə salıb, elmdən, fəndən məhrum qoymaq: bütün insanların, millətlərin aralarına ziddiyyət salıb, bunları bir-birilə vuruşdurmaq, bunların əxlaqlarını pozub heyvan dərəcəsinə gətirmək, bütün insanları bir yola dəvət edən din, məzhəblərə qeyri bir rəng verib haqq yoldan azdırmaq… Bütün bunlar hamısı bu vaxtadək bu ağaların və onların zoru ilə, qüvvəti ilə, xahişi ilə meydana gələn xan, kral, padşahların vicdanlarına böyük bir ləkə salmaqdadır…»

Nərimanov hamıya bəyan edirdi ki, inqilab bizə külli-ixtiyar verib deyir: «Siz müsəlmanlar öz işlərinizi özünüz dolandırınız, hər

bir cəhətdən azadəsiniz, dininizi, dilinizi intişar ediniz, milli qoşun düzəldiniz: hətta bir dərəcəyə gəldiniz, Rusiyadan ayrılmaq istədiniz, ayrıla da bilərsiniz. Bunların hamısını inqilab və inqilabı davam etdirən xalq hökuməti bizə verərkən, bir şərt qoyub deyir: Hər bir şey edirsinizsə, hər bir qanun düzəltdirirsinizsə, çalışınız ki, camaatın, xalqın xahişi ilə düzəlsin və demokratik əsas ilə seçkilər düzəldiniz. Bunu ümuminqilabın yerişi və davam etməsi tələb edir».

N. Nərimanov dövrünün bəlalarını, xalqının düşdüyü vəziyyəti çox gözəl görür və bunun günahını hakim siniflərin ədalətsizliyi ilə izah edirdi. O deyirdi ki, insana məxsus sağlam beyin və bu beyində insanı heyvandan ayıran xüsusi nöqtələr anadan olanda hamıda birdir. Bütün beyin və ayrıca nöqtələrin müəyyən bir yolda qüvvət tapması sonrakı tərbiyəyə bağlıdır.

Nərimanov yazırdı ki, nə üçün birisi pulun gücü ilə elmə yiyələnsin, oxuyub doktor, vəkil, mühəndis olsun, fəhlə-kəndli uşaqları isə nadanlıq dəryasında boğulub qalsınlar? Nə üçün elmsiz, fəhmsiz, ağıldan kəm, tərbiyə verdirə bilsin, fəhlə, zəhmətkeş nəinki tərbiyə, hətta sevimli balalarına həsrət qalsın?

İki sinif – hakim və məhkum sinif arasında gedən mübarizə də bu təbii tələbdən irəli gəlir. N. Nərimanov millətindən asılı olmayaraq, bütün zəhmətkeşləri birləşməyə və zülmə, istibdada qarşı yekdil mübarizə aparmağa çağırırdı.

N. Nərimanov ana dilinin, təlimin ana dilində aparılmasının qızğın tərəfdarı, təbliğatçısı və müdafiəçisi idi. Çarizmin üsul-idarəsini, onun millətçilik siyasətini, ana dilinin məktəb proqramlarından çıxarılmasına çalışanları ifşa edən Nərimanov deyirdi ki, onlar nə qədər ciddi-cəhd göstərsələr də «… analarımızın laylalarını qulaqlarımızdan çıxara bilməyəcəklər. İllərlə bilüzum bir şey kimi ayaq altına atdıqları gövhəri qiymətdən sala bilməyəcəklər. Ana dilimiz hər halda qüvvət tapacaqdır».

Nərimanov özünün sələfləri və müasirləri olan mütərəqqi rus, dünya və Azərbaycan pedaqoqları kimi ana dilinə, onun tədrisinə böyük ictimai məna verirdi. O, ana dilinin qüvvət tapmasını mənəvi azadlıqda görür və onun keşiyində duran yeni Həsənoğluların, Füzulilərin, Vidadilərin, Vaqiflərin, Zakirlərin, Seyid Əzimlərin, Sabirlərin meydana gələcəyini görürdü.

N. Nərimanov inqilabdan əvvəlki illərdə deyil, Sovet Hakimiyyəti illərində də Azərbaycanda ana dilinin və onun tədrisinin keşiyində möhkəm dururdu.

N. Nərimanov bu fikrini Sovet hakimiyyəti illərində də ardıcıl olaraq müdafiə edir və həyata keçirirdi. Bu mənada onun 1922-ci il iyunun 15-də «Bakinski raboçi» qəzetində dərc olunmuş «Bəzi yoldaşlara cavab» adlı məqaləsi çox xarakterikdir. Belə ki, o zamanlar bəzi məsul işçilər mətbuatda çıxış edərək məktəblərdə Azərbaycan dilinin və Azərbaycan teatrında tamaşaların sayının azaldılmasını istəyirdilər. Buna ciddi etiraz edən Nərimanov belələrinə müraciətlə deyirdi ki, siz Azərbaycan fəhlə-kəndli uşaqlarını hansı dil ilə digər millətlərdən olan uşaqlarla yaxınlaşdırmaq istəyirsiniz? O, bu məsələdə Marks təliminə istinad edərək yazırdı ki, Marks əgər psixoloq olmasaydı, Marks olmazdı. Hanı Sizin psixologiyanız – Nərimanov məsələni belə qoyurdu: ya bu yoldaşlar Azərbaycan şəraitini bilmir və səhvə yol verirlər və yaxud da Marks nəzəriyyəsini yaxşı mənimsəməmişlər. Onda onlar qoy Lenin yoldaşın xalqların öz milli müqəddəratını təyin etməsini kifayət qədər, hərtərəfli şərh etdiyi «milli məsələni» oxusunlar. N.Nərimanov yazırdı: azərbaycanlı uşaqları nəinki Puşkinin, həmçinin Şekspirin, Şillerin şerlərini öyrənməlidirlər. Lakin bunu o zaman edə bilərik ki, hər şeydən əvvəl həqiqi proletar şairi, doğma Sabirin, qeyrətli, mübariz şerlərini, xalq şairləri Vaqifin, Zakirin, Vidadinin şerlərini öyrənmiş olsunlar və bu da marksizm nöqteyi-nəzərincə tamamilə doğrudur. Milli məsələdə təhriflərə yol verən, xalqın milli qürurunu tapdalayan, ana dilin həqir hesab edən, məktəblərdən onu sıxışdırmağa çalışan məsul işçilərə Nərimanovun tövsiyəsi belə idi: birinci növbədə Siz özünüz də Azərbaycan dilini öyrənin!

Nərimanovun bu sözləri bu gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1989-cu ildə qəbul etdiyi Azərbaycan dilinin daha fəal işlədilməsinə aid məlum qərarı ilə necə də həmahəng səslənir.

N.Nərimanov ana dilimizin tərəqqi tapmasında müəllimlərə bel bağlayır, onlara ümid edirdi. Tale elə gətirir ki, 1918-ci ilin iyun ayında xəstələnən Nərimanov Bakı Kommunasının tapşırığı ilə müalicə üçün Həştərxana göndərilir və sağaldıqdan sonra orada qalaraq fəaliyyət göstərir, peşəkar inqilabçı, məşhur maarifçi kimi

daha da məhşurlaşır və mətinləşir. O, bir müddət Həştərxan quberniya xalq maarif şöbəsinin müdiri işləmiş, xalq maarifinin yenidən qurulması, yeni sovet məktəblərinin təşkili, müəllim kadrları hazırlığı sahəsində unudulmaz xidmətlər göstərmişdir. N.Nərimanovun fəaliyyətinin bu dövründə diqqəti ən çox cəlb edən və bu günümüz üçün çox aktual olan bir məşhur dekretin müsəlmanlar arasında həyata keçirilməsində xalqın dini hisslərinin toxunulmazlığı, bəzi məsul vəzifəli adamların ehtiyatsız çıxışları, müsəlman əhalisinin məişət və dini görüşlərində spesifik xüsusiyyətlərin nəzərə alınmaması ilə bağlı olan tövsiyələridir.

1918-ci il dekabrın 20-də mollaların və tatar məktəbləri müəllimlərinin, dekabrın 28-də isə müsəlman kommunistlərinin və məsul işçilərinin yığıncağındakı nitqləri onun bu mühüm məsələdə doğru və düzgün yol seçdiyinə sübutdur. O, birinci məruzəsinə bu sözlərlə başlayır: «Kilsənin dövlətdən və məktəblərin kilsədən ayrılması xüsusundakı dekret çoxlarının başını qızışdırıb və fitnə-fəsadçılar da fürsətdən istifadə edərək müsəlman camaatı arasında belə yalan xəbərlər yayırlar ki, guya tez zamanda Şura hökuməti məscidləri bağlatdıracaq və s.

Nərimanov göstərirdi: Şura məktəbinin vəzifəsi uşaqlara sosializm-qardaşlıq ruhunda, bərabərlik və azadəlik ruhunda tərbiyə verməkdir. Biz deyirik: vicdan azad olmalıdır, din, iman isə vicdan işidir. O, 1919-cu ildə Qırğızıstan vilayətinin Urda şəhərində çağırılmış 3-cü qurultayda RK{b} II Həştərxan Komitəsinin nümayəndəsi kimi iştirak etmiş və yenə də bu məsələ barəsində məruzə ilə çıxış etmiş, həm təşkilat, həm də təşviqat işində zəhmətkeş qırğız xalqının böyük rəğbətini qazanmışdır. Nərimanov belə bir fikri qəti olaraq müdafiə edirdi ki, kimsə kütlələrə allah yoxdur – fikrini zorla aşılamaq istəyirsə, o öz məqsədinə nəinki çatmır, əksinə, bizim işimizi çətinləşdirir. Adamları güclə dinə inanmağa və ya inanmamağa məcbur etmək olmaz.

Bütün bunların nəticəsi idi ki, Xalq, Xarici İşlər Komissarı G.V. Çiçerin 1921-ci ildə RK {b} P MK-ya göndərdiyi məktubunda N.Nərimanovun bu göstərişlərini ayrıca qiymətləndirirdi. V.İ. Lenin Çiçerinin fikrinə tamailə şərik olmuş və N. Nərimanovun nitqi

əsasında belə bir təlim layihəsi hazırlamağa və onu MK-ya təqdim etməyə dair sərəncam vermişdir[1].

1919-cu ildə Moskvaya çağırılan Nərimanov Leninin qəbulunda olmuş və Azərbaycanın gələcəyi haqqında ona ətraflı məlumat vermişdir. Lenin onun fikirləri ilə razılaşdığını bildirmişdir.

Nərimanov bir müddət Mərkəzdə işləmiş, 1920-ci il mayın 16-da Bakıya gəlmişdir. Əvvəlcə Müvəqqəti Hərbi İnqilab Komitəsinin, sonralar isə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri olan Nərimanov zəhmətkeşlərin sosializm uğrunda mübarizəsinə rəhbərlik etmiş, xalq maarifinin təşkilinə böyük əmək sərf etmişdir. O, deyirdi: «Köhnə quruluşun məhv edilməsi ilə məktəb də yeniləşməli, tədris və tərbiyə üsulları da yeni olmalıdır»[2].

1924-cü ildə APİ-nin ilk məzunlarının buraxılışı münasibətilə Moskvadan göndərdiyi «Elmlərini yenicə tamam etmiş müəllimlərə açıq məktubu» buna parlaq sübutdur. O, həmin məktubunda müəllimlərin ilk dəstəsini səmimi təbrik etməklə yanaşı, onların qarşısında həm də tarixi vəzifələr qoymuşdur. Bu vəzifələr bu günümüz üçün də səciyyəvidir. Məktubda deyilirdi: «Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır və məsuliyyətli bir vəzifədirsə də, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir». Ona görə də «Sizin tərbiyinizdə olan Azərbaycan balaları gərək zəhmətsevər olsunlar, yəni başqasının yox, öz zəhmətlərinin qüvvətilə ehtiyaclarını rəfedici olsunlar». Bunun üçün təbiəti sevdirmək, doğma diyarın əlamətləri ilə onları tanış etmək lazımdır.

Vəzifələrdən biri vətən üçün, millət üçün cəsur, cəsarətli, dəyanətli, doğruçu və vicdanlı adamlar yetişdirməkdir, yəni bircə çörəkdən ötrü ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün «qatığa qara» deməsinlər». Nərimanov açıq-aşkar, cəsarətlə və hündürdən deyirdi: «Amandır, yoldaşlar! Buna yaxşı fikir verin, mənsəbdən ötəri yalan söyləyən, gündə vicdanını satan ikiüzlü adamlar bizim gələcək kommunaya üzv ola bilməzlər!»

[1] Bax: V.İ. Lenin. Əsərləri, 45-ci cild, s. 72.

[2] «Kommunist» qəzeti, rusca, 27 sentyabr, 1920-ci il, № 122.

N. Nərimanov «öz şəxsi mənafeyi naminə hər dəqiqə, hətta allahlarını, vicdan və namuslarını satmağa hazır olan «ziyalıları millətin, fəhlənin, kəndlinin bütün zəhmətkeşlərin mənafeyini müdafiə etməyə haraylayırdı. O dövrün qəzetlərindən birinin yazdığı kimi, «möhtərəm insan, maarifin dostu, Vətəni sevən», «insaniyyət dünyasına xidmət etməkdə əsrimizin birinci mücahidi» olan N.Nərimanovun zəngin pedaqoji fikirləri Azərbaycan məktəbi, xalq maarifi və marksist-leninçi pedaqogikanın tükənməz mənbələrindən biri kimi çox qiymətlidir, aktualdır və zəmanəmizdə daha böyük vüsətlə səslənir. Onun yeganə oğlu Nəcəfə yazdığı məktub bu gün məktəblərimizdə oxuyan hər bir gənc üçün, hər bir valideyn üçün, hər bir müəllim, tərbiyəçi və vətəndaş üçün daim qəlblərdə yaşayan, ölməz bir el ağsaqqalının arzusu, son sözü, vidası və tapşırığı kimi daha qürurla səslənir. O yazmışdı: «Əziz oğlum Nəcəf! Əgər mən yaşasam, səni elə böyütməyə çalışacağam ki, sən bəşəriyyət üçün faydalı adam olasan, əgər mənə əcəl macal verməsə, səndən təvəqqe edirəm, mənim insanlara göstərdiyim kiçik xidmət qədər bir xidmət göstər… Ümid edirəm ki, sən öz işində mənim əməllərimi daha da dolğun edəcəksən».

Bəli, bu nəsihət, vəsiyyət Nəriman Nərimanov pedaqoji irsinin leytmotivi kimi daha əzəmətlə səslənir; damarlarında azərbaycanlı qanı axanların qəlbini insanpərvərlik duyğuları ilə coşdurur.

Bütün bunlar Azərbaycan xalqının əməlpərvər pedaqoq oğlunun bizim müasirimiz olmasına dəlalət etmirmi?

«Azərbaycan məktəbi»
jurnalı № 4, 1990, s. 17–21.

Alim ömrü

O, elm aləminə heç də hamar yolla gəlməyib. 1965-ci ildə M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunu (indiki Bakı Slavyan Universitetini) ə'la qiymətlərlə bitirən Eldar Abaszadə pedaqoji fəaliyyətinə ucqar dağ rayonunda başlayıb. Tə'yinatla Lerikə göndərilən Eldar müəllim Bakıda doğulub böyüməsinə baxmayaraq kənd həyatının çətinliklərindən qorxmayıb. Tə'yinat müddəti başa çatanadək burada qalıb işləyib, şagirdlərdə tədris etdiyi

fənnə maraq oyada bilib. Təsadüfi deyil ki, onun bir çox yetirməsi rus dilinə dərindən yiyələnərək öz müəllimlərinin yolu ilə gedib.

Ömrünü rus dilinin tədrisinə həsr edən E.Abaszadənin pedaqoji və elmi fəaliyyəti bir-biri ilə sıx bağlıdır.

1971-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasına qəbul olub. Əvvəlcə kənd məktəbində, sonralar institutda müəllim işləməsi karına gəlib. Bu illər ərzində qazandığı təcrübəyə əsaslanaraq «Rus dilinin tədrisi metodikasının aktual problemləri» mövzusunda elmi iş üzərində işləməyə başlayıb. 1974-cü ildə dissertasiyasını tamamlayaraq elmlər namizədi alimlik dərəcəsi alıb. Bundan sonrakı pedaqoji və elmi fəaliyyətinə nəzər salanda aydın görmək olur ki, iste'dad və zəhmətsevərliyi vəzifə pillələrini sür'ətlə adlamağa imkan verib. Azərbaycan Pedaqoji İnstitutunda elmi katib, baş müəllim, dosent, professor, kafedra müdiri vəzifələrində çalışıb, dekan və tədris işləri üzrə prorektor işləyib. Bütün vəzifələrdə də özünü doğruldaraq kollektivin, elmi ictimaiyyətin hörmətini qazanıb.

E.Abaszadə bir alim kimi əsasən dərslik problemi haqqında düşünüb və bu sahədə səmərəli fəaliyyət göstərib. Müəllifi olduğu səkkiz dərs vəsaiti, iyirmidən çox tədris proqramı təcrübəli pedaqoq düşüncəsinin, alim axtarışlarının məhsuludur. Həmin dərslik və proqramlardan rus dilinin tədrisində indinin özündə də istifadə edilir.

Hazırda Azərbaycan Beynəlxalq Universitetində tədris işləri üzrə prorektor işləyən Eldar Abaszadənin altmış yaşı tamam olur. O öz bilik və təcrübəsini yenə əvvəlki şövqlə, yorulmadan tədris prosesinin təkmilləşdirilməsinə, tələbələrin yüksək ixtisaslı mütəxəssis kimi yetişməsinə sərf edir. Ona bu çətin və gərəkli işində, elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayırıq.

«Respublika» qəzeti, №179,
2001, 9 avqust.

Hörmətli Nübar xanım

Belə bir kitabın nəşrini çoxdan gözləyirdim. Nəhayət, qaranquş uçub bizim diyara da gəldi. «Pedaqoji aləm» jurnalı son onilliklərin həqiqətən qaranquşudur. Jurnalın nəşrini alqışlayıram, təqdir edirəm, ona görə ki, ilk nəşrindən unudulmuşlara, lazımlılara daha çox yer ayırıb. Elə ilk nömrəsindəcə: «Əziz oxucu! İstərdim ki «Pedaqoji aləm» jurnalının həyatında fəal iştirak edəsiniz», - deyə özünüzə dayaq seçirsiniz. Qiymətləndirirəm, ona görə ki, şair demişkən «Söykənmə özülü nəm divarlara, …Şair, qayalara-dağlara söykən» … deyiminə arxalanaraq oxucu kütləsinə üz tutursunuz. Jurnalın çox da siyasiləşməsinə yol verməməyiniz də alqışa layiqdir. Ağsaqqal (dini atalar) xeyir-duasını almağınız da təqdirə layiqdir, lakin unutmamalıyıq ki, orta əsrlərdən başlayaraq bəşər əhli özünün təhsilinin, maarifinin dünyəviliyi uğrunda döyüşür, vuruşur, ağrıyır, acıyır (Y.A.Komenskini, C.Brunonu, Q.Qalileyi, İ.H.Pestolotsini, N.Tusini, İ.Nəsimini, S.Ə.Şirvanini və s. xatırlamalı). Jurnalda Yusif Məmmədəliyev, Azad Mirzəcanzadə və başqaları haqqında gedən yazılar xalqımızın maarifinə, elminə (keçmişinə və indisinə) hörmətdən, ehtiramdan irəli gəlir.

Ən çox sevindirici hal odur ki, jurnalda «Dədə Qorqud» eposu haqqında yazı öz əksini tapıb. Yaxşı olardı ki, həm də «Dədə Qorqud»un pedaqoji fikir tariximizdə yeri haqqında söz deyiləydi (ədəbi şərhini də alqışlayırıq). «Pedaqoji aləm»in (həm də bir şəxs kimi) üç dildə danışması onun beynəlxalq arenaya çıxması deməkdir. Bu yeni zamanda üç səs qazanmaqdır. «Pedaqoji aləm» Azərbaycan maarifinə, pedaqoji elminə bir qaranquş kimi daxil olduğundan biz ondan «Azərbaycan məktəbi»nin, həm də onun əlavələrinin, «Ana sözü»nün, «Azərbaycan müəllimi»nin, «Maarifçi»nin, «Təhsil»in və s. ən yaxşı ən'ənələrini gözləyirik. Jurnal hər növ məddahçılıqdan, yarınmaqlıqdan, tərəfçilikdən uzaq olmalı, necə deyərlər, bugünkü Azərbaycan pedaqoji elmində «Dəbistan»ın, «Əkinçi»nin, Azərbaycan ictimai fikir tarixində «Molla Nəsrəddin»in oynadığı rolu oynamaq missiyasını öz üzərinə götürməlidir. Jurnal nə qədər nəfis buraxılsa da, zənnimcə, rənglərin qarışıqlığı onun oxunaqlığına

zərbədir. Sadəlikdə böyüklüyü (Asif Əfəndiyev) heç zaman unutmayın. Mən ağsaqqal sözünü deməyi özümə borc bilirəm.

Jurnal üz səhifəsindən tutmuş, son sətrinə qədər Azərbaycan maarifinə, məktəbinə, pedaqoji fikir tarixinə, mədəniyyətinə həsr edilmişdir. Bu gün pedaqoji sahədəki elmi ziddiyyətlər, razılaşmamalar, mübahisələr (həm də yeniliklərin çətin irəliləməsi) və s. özünün dəqiq pedaqoji şərhini məhz «Pedaqoji aləm»də tapmalıdır. Çox yaxşı olar ki, jurnalda ayrıca diskussiya səhifəsi açılsın. İş olan yerdə səhvlər, büdrəmələr ola bilər. Bundan qorxmaq lazım deyil. Nüfuzlardan, avtoritetlərdən qorxmadan, çəkinmədən sərt pedaqoji tənqidə yer ayrılmalıdır.

Sözümüzü Sizə uğurlar arzusu ilə bitirirəm. Onilliklərinizi, yüzilliklərinizi qeyd etmək arzusu ilə Hörmətlə akademik Hüseyn Əhmədov.

«Pedaqoji aləm» Elmi-populyar jurnal, 2000, №2–3.

Azərbaycan Respublikasının Konstitusiyası demokratik prinsipləri özündə əks etdirən tarixi sənəddir

Bu gün 12 noyabr Azərbaycan xalqının tarixinə milli Konstitusiyanın qəbul edilməsi günü kimi daxil olmuşdur. Bu da ölkəmizin hüquqlu və demokratik quruluşlu respublika olduğunu göstərir.

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı ilk dəfə öz milli Konstitusiyasını qəbul etdi. Ölkəmizdə insan azadlığı və hüquqlarının qorunması üçün e'tibarlı tə'minat yarandı. Bu o demkdir ki, Azərbaycan çoxdan uğrunda mübarizə apardığı və zaman-zaman şəhidlər verdiyi milli müstəqilliyini əldə etmiş və onu möhkəmləndirmək, dönməz tarixi reallığa çevirmək üçün yeni milli, müstəqil və demokratik dövlət quruculuğu mərhələsinə daxil olmuşdur.

Milli tarixi zərurətin nəticəsi olaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi-referendum yolu ilə (müstəqil Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyası) qəbul edilən Azərbaycan Respublikası Konstitusiyası ilk müstəqil Konstitusiya olmaqla xalqımızın tarixində mühüm hadisədir. Beləliklə, yeni dövlət quruculuğu prosesi özünün əsas siyasi-hüquqi baza ədəbiyyatına malik olmaqla, cəmiyyətin bütün istiqamətlərdə milli özgünləşməsinə istinadən yenidən formalaşdırılması imkanını əldə etdi.

1995-ci il noyabrın 27-də qüvvəyə minən bu Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət olmaqla ictimai-siyasi həyatın bütün sahələrini özündə əks etdirmişdir. Azərbaycan Respublikasının yeni Konstitusiyası bəşər tarixinin onilliklərlə, yüzilliklərlə sınaqlardan keçmiş beynəlxalq normaya çevrilmiş dəyərlərə-insan hüquqları, milli suverenlik və demokratiya prinsiplərinə əsaslanmışdır. Konstitusiya hazırlanarkən Azərbaycan Respublikasının əvvəlki Konstitusiyasından da istifadə edilmiş, onun dəyərli cəhətləri saxlanılmışdır.

Azərbaycan Respublikasının prezidenti H.Əliyev cənablarının sədrliyi ilə hazırlanan Konstitusiya müstəqil Azərbaycanın ilk Konstitusiyasıdır. Əsrin əvvəllərində müstəqillik qazanmış Azərbaycan Demokratik Respublikası (1918–1920) vaxtın azlığından öz Konstitusiyasını qəbul edə bilməmişdi. Yalnız 1919-cu ildə «Müstəqillik haqqında qəbul olunmuş Akt» təxminən Konstitusiyanı əvəz edirdi. Bu belə olmuşdu, Azərbaycan Demokratik Respublikasının dövründə başlanan Konstitusiya quruculuğu tariximizdə 1918-ci il may ayının

28-də ADR-in yarandığını e'lan edən «Müstəqillik haqqında Akt» Konstitusiya xarakteri daşıyan ilk hüquqi sənəd olmuşdur. Yə'qin ki, ADR Sovet Rusiyasının 1920-ci ildəki təcavüzü nəticəsində süqut etməsəydi, öz demokratik Konstitusiyasını yaradardı.

Sonrakı Konstitusiyalar isə Sovet Konstitusiyaları olub (1921, 1937, 1978) Azərbaycan xalqının və dövlətinin müəyyən inkişaf mərhələlərini əks etirən mühüm hüquqi sənədlər idi. Belə ki, Azərbaycanda ilk Konstitusiya Sovet Hökuməti dövründə, 1921-ci ildə qəbul olundu. Bu Konstitusiya formal mahiyyət daşımasına baxmayaraq müstəqil dövlətə xas olan bə'zi nişanələri özündə göstərirdi.

1922-ci ildə Zaqafqaziya Federativ Respublikasının yaranması və Azərbaycanın onun tərkibinə daxil edilməsi ilə (10 dekabr 1922-ci il) 1921-ci ildə qəbul edilmiş Konstitusiyada nəzərdə tutulan müstəqillik imkanlarını itirən həmin Konstitusiya müəyyən dəyişikliklərlə 1937-ci ilədək qüvvədə qaldı.

1937-ci ildə Azərbaycan SSR-in ikinci Konstitusiyası qəbul edildi. Bu Konstitusiya qəbul edilməzdən əvvəl, 1936-cı ildə Azərbaycan ZFR-in tərkibindən çıxmaqla SSRİ-nin tərkibinə müttəfiq respublika kimi daxil oldu.

Bu Konstitusiya 1921-ci ilin Konstitusiyasına görə nisbətən «müstəqil» olan respublikamızın müstəqilliyini daha da məhdudlaşdırdı. 1977-ci ildə SSRİ-nin yeni, üçüncü Konstitusiyasının qəbul edilməsi ən'ənəvi olaraq müttəfiq respublikaların, o cümlədən də Azərbaycan SSRİ-nin 1978-ci il Konstitusiyasının yaranmasına səbəb oldu.

Bu Konstitusiya da Azərbaycan Respublikasının müstəqilliyini tə'min etmək üçün heç nə vermədi.

Hər bir suveren-müstəqil dövlətin özünəməxsus fərqləndirici əlamətləri-xarici və daxili siyasətdə sərbəstliyi, digər suveren dövlətlərlə hüquq bərabərliyi əsasında qarşılıqlı siyasi, mədəni, ticarət və s. əlaqələrin yaradılması imkanları, özünün xarici siyasət idarəçiliyi, hərbi doktrinası və silahlı qüvvələri olmalıdır.

Mə'lumdur ki, nə 1978-ci il Konstitusiyası, nə də ondan əvvəlki Konstitusiyalarda Azərbaycanın yuxarıda sadalanan hüquqlarının heç biri real deyildi. Azərbaycan öz milli əmlakının sahibi deyildi, respublikanın mədaxilinin bütün illər ərzində məxaricindən qat-qat artıq olmasına baxmayaraq, məxaricdən artıq gəliri ümumi ittifaq büdcəsinə köçürülürdü.

Respublika sənayesinin inkişafı sərbəst planlaşdırmaq imkanından məhrum olduğundan müstəmləkə şəraitində yaşadığı bütün illər boyu xammal bazası kimi fəaliyyət göstərirdi. Yaradılan bə'zi sənaye sahələri tamamilə İttifaqdan asılı idi, ona görə ki, sənaye sistemi kooperasiya sahələri çox hallarda ittifaq sənayesi üçün yardımçı rol oynayırdı, əksər hallarda hazır məhsul deyil, komplektləşdirici vasitələri hazırlayırdı. Məhz onun nəticəsidir ki, ittifaq dağılandan sonra respublika sənaye kompleksi öz fəaliyyətini itirəcək böhran vəziyyətinə düşdü.

Keçmiş İttifaq hökumətinin bu planlaşdırma siyasəti yalnız onun tərkibinə daxil olan respublikaları itaətdə saxlamaq üçün əlverişli vasitələrdən biri idi.

İttifaqın dağılması (1991-ci il 29 dekabr) və Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra 1978-ci ilin Konstitusiyasına müəyyən dəyişikliklər edilsə də bu Əsas Qanun sayılan Akt respublikanın inkişafını ləngidir, bazar iqtisadiyyatına tam və qətiyyətlə keçilməsi imkanlarını məhdudlaşdırır.

Məhz bu əsaslara görə respublika qarşısında onun müstəqilliyini və demokratikliyini əks etdirən hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu, sosial və iqtisadi sahədə yeniləşməni tə'min edə bilən Konstitusiyanın hazırlanması vəzifəsi dayanırdı.

1991ci ilin avqust ayında Azərbaycan Ali Soveti tərəfindən qəbul edilmiş müstəqillik haqqındakı bəyanat və həmin ilin oktyabr ayının 18-də qəbul edilmiş Konstitusiya Aktı yeni Konstitusiyanın qəbul edilməsinin bünövrəsini qoydu.

Bu Konstitusiya Aktı 1991-ci il dekabr ayında keçirilmiş Ümumxalq referendumunda təsdiq edildikdən sonra öz qanuni qüvvəsini aldı. Bu sənədlər öz əhəmiyyətinə görə fərqlənməsinə baxmayaraq ölkənin ictimai və siyasi həyatında baş verən demokratik prosesləri əks etdirmək və onları nizama salmaq iqtidarında deyildi.

Azərbaycan Respublikasının qəbul etdiyi strateji yolun qanunvericilik bazasını yaratmaq, cəmiyyətin həyatında baş verən dəyişiklikləri hüquqi cəhətdən tənzimləmək üçün yeni suverenliyi əks etdirən Konstitusiyanın qəbul edilməsinin tezləşdirilməsini tələb edirdi.

1993-cü ilədək Azərbaycanın yeni Konstitusiyasının hazırlanmasına müəyyən təşəbbüslər göstərilsə də onlar reallaşmamışdı.

Bunun bir sıra səbəbləri vardır; respublikada ictimai-siyasi sabitlik yaradılmamışdı, rəhbərlikdə olanların isə bu sabitliyi yaratmağa səriştə və bacarıqları çatmırdı.

Bu dövrdə Ermənistanın respublikaya təcavüzü də öz mənfi tə'sirini göstərirdi.

H.Əliyevin respublikaya hakimiyyətə gəlişi (1993-cü il 15 iyun) ictimai-iqtisadi ab-havanın dəyişməsinə, respublikada gedən proseslərin hüquqla tənzimlənməsinə əsaslı təkan verdi. Proseslərin (gedişi) inkişafı suveren respublika Konstitusiyasının hazırlanmasını sür'ətləndirdi. 1995-ci il may ayının 2-də Milli Məclisin qərarı ilə Prezident H.Əliyevin (1993-cü il oktyabrın 3-də seçkilərdə seçilmişdi) sədrliyi ilə yeni Konstitusiya komissiyası yaradıldı. Onun tərkibinə respublikanın görkəmli dövlət xadimləri, hüquqşünasları, ictimai təşkilatların nümayəndələri, elm və mədəniyyət xadimləri daxil edilmişdi. Bundan sonra Konstitusiya layihəsi üzərində gərgin və məhsuldar iş aparılmasına başlandı.

Komissiya öz işində ictimai-siyasi və iqtisadi inkişafın ən yüksək modelinə sığınaraq respublika xalqının müsbət adət-ən'ənələrinin qorunub saxlanılması ilə yanaşı inkişaf etmiş ölkələrin əsas qanunlarından bəhrələnmək prinsiplərinə üstünlük verilməsini əsas götürdü.

Nəticədə, beynəlxalq hüquqi və demokratik prinsiplərə cavab verən, bazar iqtisadiyyatına hər vasitə ilə rəvac verən demokratik, dünyəvi dəyərləri əks etdirə bilən Konstitusiya layihəsi hazırlanaraq xalqın müzakirəsinə verildi.

Üç aylıq ümumxalq müzakirəsindən sonra 1995-ci il noyabr ayının 12-də keçirilən Ümumxalq referendumunda yüksək fəallıq nümayiş etdirən seçicilər, komissiya tərəfindən hazırlanmış Konstitusiyanın layihəsini bəyəndilər və qəbul etdilər. Yeni Konstitusiyanın qəbul edilməsi respublikanın həyatında mühüm ictimai-siyasi hadisə oldu, müstəqil Azərbaycanın hüquqi, demokratik dövlət quruculuğu istiqamətindəki inkişaf perspektivlərini müəyyənləşdirirdi.

Müstəqil respublikamızın ilk Konstitusiyasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa tə'minat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin

ifadəsi kimi qanunların aliliyini tə'min edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini tə'min etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək niyyətləri öz əksini tapmışdır.

Millətimizin tarixi gələcəyi, tərəqqisi və inkişafı üçün böyük əhəmiyyət kəsb edən bu siyasi və hüquqi sənədin hazırlanmasında xalqımızın öndəri, müdrik siyasətçi və əvəzedilməz prezidentimiz H.Əliyevin böyük tarixi xidmətləri olmuşdur. Məhz elə buna görədir ki, o, Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 1995-ci noyabrın 10-da keçirilən iclasdakı çıxışında demişdir:

«Bu gün hamımız mə'nəvi rahatlıq hissi keçirə bilərik. Çünki tarixi bir iş görülmüşdür. Tarixi bir sənəd yaradılıbdır. Bu gün biz ölkəmizin bütün ictimaiyyəti qarşısında deyə bilərik ki, biz tarixi bir sənədin yaradılmasının iştirakçılarıyıq, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd-siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm tarixi əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış Konstitusiyasıdır. Konstitusiya layihəsi indiyə qədər olan bütün Konstitusiyaların, qanunların hamısından tamamilə fərqlənir. Ona görə fərqlənir ki, bu, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır».

Daha sonra o fikrinə davam edərək bildirdi ki, Konstitusiyamızda dünya Konstitusiya təcrübəsindən çox istifadə olunubdur. Ancaq eyni zamanda bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ən'ənələrini, xüsusiyyətlərini də əks etdirir. Ona görə də məzmun və mə'nasına görə tam demokratik prinsipləri özündə əks etdirən bir Konstitusiyadır. Amma eyni zamanda isə bir başqa dövlətin konstitusiyasına bənzəməyən bir konstitusiyadır. Bu bizim özümüzün Konstitusiyamızdır, Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Hazırda respublikamızda Azərbaycan Konstitusiyasının tələblərinə uyğun olaraq quruculuq işlərinin aparılması ilə yanaşı, həmin sənədin siyasi, hüquqi, tarixi, milli əhəmiyyətinin öyrədilməsi, tədris edilməsi və tə'mini zəruri amillərdən birinə çevrilmişdir.

Azərbaycan Respublikasının bu gün 3-cü ildönümünə həsr olunmuş elmi-nəzəri konfransımızda haqqında danışdığımız müstəqil Azərbaycanımızın ilk Konstitusiyası ilə ölkəmizdə insan azadlığı və hüquqlarının qorunması üçün e'tibarlı tə'minat yaranmışdı. Biz bununla fəxr edir, qəlbimiz sonsuz qürur hissi ilə döyünür. Sevinirik ki, biz indi azad, müstəqil bir dövlətin vətəndaşıyıq.

Bu yaxınlarda, keçirilən azad və ədalətli prezident seçkiləri də Konstitusiyamızın xalqa bəxş etdiyi müstəsna hüquqlardan biridir. Konstitusiya ən ali, müqəddəs Qanundur, dövlətimizin əsasıdır. Məhz bunun sayəsində Azərbaycan bu gün demokratiya yolu ilə inamla irəliləyir, insan hüquqları getdikcə daha e'tibarlı qorunur.

«Dövlət və hüquq» jurnalı
1999, № 1–3.

Qurani-Kərimdə ailə tərbiyəsi

Müstəqillik yoluna yenicə qədəm qoymuş və bu yolda kövrək adımlayan respublikamızda müqəddəs İslamın dirçəliş, xalqımızın milli oyanış, özünüdərk, tarixi kecmişə qayıdış meyiləri getdikcə daha geniş vüsət tapır.

Danılmaz bir həqiqətdir ki , son yetmiş ildə sovet İttifaqında, o cümlədən rəspublikamızda Azərbaycan xalqının tarixinin, milli mədəniyyətinin, ictimai və fəlsəfi fikrinin örənilməsi sahəsində aparılan tədqiqatlarda İslam dininə qarşı birtərəfli, qərəzli mövqe tutulmuşdur. Xalqı mənəviyyatsızlaşdırmağa, tarixi köklərdən, adət-ənənələrdən məhrum etməyə səy göstərmişdir. Düşünülmüş surətdə aparılan Allahsızlıq (ateizm) siyasəti nəticəsində dünya dinlərinin ən cavanı və müqəddəsi olan İslam dininə hər addımda zərbə vurmağa çalışmışlar. Bu səbəbdən də İslamın tez bir müddət ərzində vüsət tapmasının sosial-iqdisadi, mənəvi-əxlaqi səbəbləri qəsdən açılıb göstərilməmiş, xalqdan gizlədilmişdir.

Dünya dinlərinin varisi olan İslam dininin getdikcə daha artıq bir sürətlə yayılmasını onun həyatiliyində, yüksək humanizmində, ülviyyətdə, daxili paklığı ön plana çəkməsinə, ictimai ədalət prinsiplərini rəhbər tutmasında, demokratikliyində, sülh-

sevərliyində və sözün həqiqi mənasında, çevikliyində, inqilabiliyində axtarmaq lazımdır.

Bir həqiqəti də dərk etməliyik ki, Azərbaycan mütəfəkkirlərinin, dahilərinin yetişməsində İslan dini, İslam əxlaqi güclü rol oynamışdır. Təəssüflər olsun ki ötən 70 il ərzində Azərbaycan mütəfəkkirlərinin əsərlərində İslam əleyhinə fikirlər axtarmış, onların cəhalətə qarşı mübarizəsini dinə qarşı mübarizə kimi qəbul etmiş, böyük bir tapıntı kimi xalqımıza, millətimizə təlqin etmişik. Nizaminin, Füzulinin, Qasım bəy Zakirin, Sabirin, Şirvaninin Hüseyn Cavidin İslam zəminində yetişdiyini dərk etməmişik, daha doğrusu dərk etməyimizə imkan verməmişlər. Bu görkəmli şəxsiyyətlərin İslam zəminində yazılan əsərləri xalqdan gizlədilərək məhv edilib və üzərindən sükutla keçilib. Bütün bunlar mənəviyyatımıza, əqidəmizə də tərbiyəmizə və mənfi təsirini göstərib.

İslam dininin müqəddəs kitabı – ilahi gözəlliyə malik, milyonlarla insanın qəlbinə hakim kəsilmiş, onların canına, qanına hopmuş, beyninə hakim kəsilmiş Qurani-Kərimdir. Qurani-Kərim göydən nazil edilmiş kitab olmaqla yanaşı, eyni zamanda bütün elmləri, ictimai-siyasi həyatın ən mühüm problemlərini, cəmiyyəti düşündürən və narahat edən məsələlərin cavabını özündə cəmləşdirən yeganə nüfuzlu mənbədir. Quran insan və insaniyyətlik məfhumlarını geniş və hərtərəfli müzakirə edir. Burada, insanın xəlq edilməsinə, onun vücudunun əslinə, psixoloji və zehni imkanlarına, maddi qüdrətinə, ictimai vəzifələrinə, onun həyatı ilə əlaqədar bütün amillərə toxunulur. Burada verilmiş moizədən, zərb-məsəllərdən, vəsiyyətlərdən, göstərişlərdən məqsəd insanı müdrikləşdirmək, onun ruhunu paklaşdırmaq, əxlaqını kamilləşdirmək, davranışını, əxlaqını kamilləşdirmək, davranış və əməllərini salehləşdirməkdir. Qurani-Şərif insanın bir məxluq kimi zəif xəlq olduğunu dəfələrlə qeyd edir. Uşaqlıqda ailə qayğısına möhtac olduğu kimi, qocalıqda da övrimdə tərbiyə məsələlərinə, o, cümlədən ailə tərbiyəsinə əksər surələrdə və ayələrdə toxunulur. İslamın nəzərində ailə səadəti dünyəvi xoşbəxtlik və səadətlərin ən böyüyüdür.

Ailə yuvası möminin kiçik bir cənnətidir.

İslama görə, bu dərəcə yüksək olan ailə səadətini əldə etməyin yolu ailə fərqlərinin bir-birinə qarşı səmimi sevgi, ciddi hörmət, tam bir bağlılıq, qarşılıqlı güvənmə və əmniyyət duyğuları

içində olmalarına bağlıdır. Bu barədə evin başçısı olan kişinin üzərinə böyük vəzifə düşür. Xanımı və uşaqları ilə xoş davranmalı, onlarla sərt rəftardan çəkinməlidir.

Kişi ailədən kənarda qarşılaşdığı hadisələrin sıxıntısını evə gətirməməlidir. Başqalarına olan hirsinin acısını evdəkilərdən almağa əsla cəhd etməməlidir.

Ailə səadətinə, ərlə-arvadın bir-birilə münasibətlərini qarşılıqlı anlaşma yoluyla qurduqları və bütün problemlərini birgə müzakirələrlə həll etdikləri zaman nail olmaq mümkündür. Bu zaman eqoist düşüncələrdən əl çəkmək və xırdaçılığı bir tərəfə qoyaraq, həyat yoldaşının fikrini səbrlə öyrənməyə çalışmaq lazımdır.

Ər və ya arvad həyat yoldaşının, özünə Allahın əmanəti olduğunu düşünərək hərəkət etməli və ona qarşı pis rəftardan çəkinməlidir. Həyat yoldaşı ilə yaxşı davranmaq insanın öz səadəti üçün vacibdir. Ailə xoşbəxtliyini təmin etmək və diqqətə alınmalıdır.

Rəsul – Əkrəm(s) bir gün:

– İnsanın ən pisi, ailəsinə (xanımına, uşaqlarına) sıxıntı verəndir, – deyə buyurdu.

Əshabı soruşdu:

– Ailəyə sıxıntı vermək necə olur?

Peyğəmbərimiz cavab verdi:

– Kişi evə gəldiyi zaman arvadını dəhşət götürər, uşağı isə qorxar qaçar.

Qeyd etməliyik ki, uşaqların hərtərəfli inkişafına, ən güclü təsir cəmiyyətin ilkin özəyi sayılan ailə ilə üzvi şəkildə bağlıdır. İctimai praktika təsdiq edir ki, ailə uşağı cəmiyyət həyatına hazırlayan əsl əxlaq məktəbidir. Bu isə öz gücünü insani gözəllikdən, ailədəki psixoloji mühitin necəliyindən, ailədaxili münasibətlərin əlvanlığından alır. Burada valideynlərin intellektual mədəniyyəti, pedaqoji mərifəti və biliyi başlıca rol oynayır.

Namuslu, tərbiyəli və ailəsinə bağlı bir qadının olduğu ev Cənnət guşəsidir. Və orada eşidilən səslərin, nəfəsi huri, qılman nəğməsindən və Kövsər çağıltısından fərqi yoxdur.

İslam tarixində belə bir nümunəvi ailə Peyğəmbər (s)ın ailəsi olmuşdur. Fatimənin anadan olması ilə Allah elçisinin evi get-gedə mehribanlıq, məhəbbət ocağı oldu. Əziz olanda kiçik Fatimə(ə)

rahatlıq verən nəsim kimi dərdli ata-anasının yorğun yanaqlarına nəvaziş verir və bu məşəqqətli günlərin əziyyətini sanki azaldırdı.

Necə heyrətləndiricidir. Rəsul əkrəm və onun nəsli bu əziz qızla təskinlik tapırdı. Onun haqqında Peyğəmbər(s) belə buyurmuşdur: «O, mənim ruhumdur (behiştin iyini ondan alıram Ü.Fatimə(s) haqqında bu sözlər təəccübləndirici deyil.

«Siz – Peyğəmbərlər(s) əhli, hər cür çirkinliklərdən kənar və təmiz olun». //Əhzab surəsi, 33-cü ayə//.

Fatimə/ə/ İslamın böyük peyğəmbər/s/i vücudunun məğzidir. Fatimə/ə/nin başdan-başa nurlu həyatı hər cür ilahi tərifəlayiqdir, Allah dərgahında qadınlar arasından seçilmiş və öz müqəddəsliyi ilə qadınların əzizliyini sübut etmişdir. Fatimə/ə/nin xilqəti o dövr üçün bir daha sübut edir ki, xeyirxahlığa, mənəviyyata aid hər nə varsa, qadına da aiddir.

Fatimə/ə/nin əziz atasının tərifə ehtiyacı yoxdur. O, elə bir atadır ki, Allah onu böyük xilqət kimi təqdim etmiş tanıtmış və ilahi kitabda aydın, təmiz dildə bildirmişdir:

«O, hər nə deyirsə ilahi vəhydir». //Ən-nəcm surəsi, 4-cü ayə//.

Fatimə/ə/ özünün nurlu həyatını başdan-başa vəhy altında və belə insanpərvər atanın kölgəsi altında keçirmişdi. Təxminən iki yaşında atası ilə birgə kafir qüreyşilərin iqtisadi müharibəsinə düşmüş və üç il Şəb Əbutalib adlanan dərədə atası, anası və başqa müsəlmanlarla çətin, ağır aclıq şəraitinə dözmüşdür.

Peyğəmbərliyin 10-cu ilində o, 10 il mübarizə etmiş, xüsusilə əziyyətli iqtisadi mühasirənin çətinliklərinin təzyiqinə dözmüş əziz anasını itirmişdi. Fatimə/ə/ anasız qaldı. Peyğəmbər hicrətindən bir az sonra 8 yaşında öz sülalələrindən olan başqa xanımlarla və Əli/ə/ ilə birgə Məkkədən Mədinəyə və yenə də atasının yanında qaldı. Peyğəmbər/s/in Mədinədəki bütün çətinlikləri vaxtı Fatimə həmişə onunla idi. Uhud müharibəsində müsəlmanlar məcburi halda geri çəkilib dağlara pənah aparanda Fatiimə/ə/ həyəcanlı halda Mədinədən Peyğəmbərin düşərgəsinə getmiş və Əmirvəlmöminin Əli/ə/ ilə birgə Peyğəmbərin/s/ yaralarını müalicə etməklə məşğul olmuşdur. Fatimə/s/ böyümüş, vəhy və nübüvvət havası ilə nəfəs almış, fəxr etmişdir. Onun həyatı Peyğəmbər/s/in həyatından ayrılmamışdır.

Hər səhər Peyğəmbər/s/in vidalaşdığı axırıncı adam və qayıdanda birinci görüşdüyü Fatimə/s/ olurdu.

Fatimə/ə/ uşaqlığının beş ilini Xədicə kimi fədakar və əziz ananın qucağında keçirmişdir. Anası islamın ilk xanımlarından idi. Xədicə/ə/ Peyğəmbər/s/in yanında çox hörmətli və sevimli idi. Onunla həyat qurana (bu o dövr üçün səciyyəvi hal deyildi) qədər ixtiyarını başqa heç kəsə verməmişdi. Vəfatından sonra da Rəsuli Əkrəm onu çox yad edirdi. Hətta Xədicənin dostlarına da hörmət edirdi. Bəzən ona təqdim edilən hədiyyələri Xədicənin dostu olmuş qadınların evinə göndərərdi. Doğrudan da Xədicə/ə/nin fədakarlığı Peyğəmbər/s/in öz vəzifələrini yerinə yetirməsi üçün layiqli təsir göstərmişdi. Çox şükür ki, Fatimə/ə/ belə bir ananın və belə bir atanın övladıdır. Peyğəmbər/s/in kəlamlarının biri belədir: «Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz». Doğrudan da valideynlərinin düzgün tərbiyəsi nəticəsində Peyğəmbər/s/in qızı Fatimə/ə/ ilahi şəxsiyyət səviyyəsinə yüksələ bilmişdir.

Xanımlar xanımı Fatimə/ə/ ilahi şəxsiyyəti bizim dərk edəcəyimizdən yüksək, vəsf edəcəyimizdən daha alidir.

Fatimə/ə/nin nurlu həyatını daha da qiymətləndirən cəhətlərdən biri böyük Peyğəmbər/s/in ona qeyri-adi münasibət və məhəbbətidir. O, öz ailəsi ilə, qohumları ilə, hətta yadlarla mehriban və xoşrəftar olmasına baxmayaraq, Fatimə/ə/yə olan xüsusi məhəbbəti aydın hiss olunurdu.

İmam Sadiq/ə/ Fatimə/ə/ buyurduqları haqda nəql edir. Peyğəmbər/ə/ xitab etdiyiniz zaman özünüz kimi çağırmayın və ad çəkməyin, ona Allahın elçisi deyə müraciət edin». //Nur surəsi, 63-cü ayə//. Bu ayə nazil olandan sonra mən Allahın elçisinə «ata» deyə müraciət etməyə qorxur, ya Rəsuləllah, yəni Allahın elçisi deyirdim. Bir neçə dəfə Peyğəmbər/s/ heç bir şey demədi. Bir dəfə mənə üz tutub buyurdu:

– Ey Fatimə/ə/ bu ayə sənin üçün nazil olmamış və sənin ailən, nəslin üçün də həmçinin. Sən məndənsən və mən səndənəm. Bu ayə qüreyş əhlinii təkəbbürlü, adam öldürən, kobud və zülmkarları üçün nazil olmuşdur. Sən müraciətlərində ata de, çünki bu ürəyimi canlandırar və allahı da şad edər.

Peyğəmbər/s/ buyurmuşdur: «Fatimə mənim bədənimin parçasıdır. Onu şadlandıram məni şadlandırar, onu narahat edər.

Fatimə/ə/ mənim ən əziz adamımdır: Peyğəmbər/s/ başqa kəlamlarında da ata məhəbbətinə böyük yer vermişdir:

Bir kişi Rəsuləllahdan soruşdu: «Valideynin övlad üzərində haqqı nədən ibarətdir?»

Peyğəmbər buyurdu: «Onlar sənin cənnətin və cəhənnəmindir» Peyğəmbər söyləyir ki, düzgün tərbiyə almamış övlad valideyn üçün cəhənnəmdən də betərdir. Başqa bir kəlama diqqət yetirək: «Üç duanın qəbul olunacağına şübhə yoxdur: məzlumun duası, qonağın duası və ata-ananın övladına etdiyi dua.

Övlad tərbiyə etmək böyük, ciddi və məsul işdir. Bu işin öhdəsindən ləyaqətlə gəlməkdən ötrü həm ana, həm də ata öz fikrini, diqqət və iradəsini buna verməli, valideynlik vəzifəsini bir an da olsun unutmamalıdır. Ailə başçılarının öz valideynlik vəzifəsinin məsuliyyətini daim hiss etmələri və onu fəal surətdə yerinə yetirmələri ailə tərbiyəsində müvəffəqiyyətin rəhnidir.

Son vaxtlar mövcud ədəbiyyatda bir qayda olaraq İslam dinində qadına münasibət məsələsi həmişə təhrif olunmuşdur. Guya ki, qız övladının razılığı olmadan valideynləri onları zorla istədikləri bir adama ərə verə bilərlər. Həqiqətdə isə İslam dini belə özbaşınalığa heç vaxt bəraət qazandırmamışdır. Peyğəmbər/s/in bu məqama münasibətinə diqqət edək. Əli/ə/ Fatimə/ə/yə elçiliyə gələndə, Peyğəmbər/s/ buyurur:

– Səndən əvvəl başqa adamlar Fatimə/ə/yə elçi gəldilər və hər dəfə Fatimə/ə/ni danışırdım. Onun sifətində meylsizlik, nifrət müşahidə etdim. İndi gəl qayıdana qədər burada qal.

Peyğəmbər/s/ Fatimə/ə/nin yanına getdi və Əli/ə/nin gəldiyini ona xəbər verdi. Fatimə/ə/ susdu, amma üzünü çevirmədi. Peyğəmbər/s/ ayağa qalxdı və dedi: – Allah böyükdür, onun susmağı razılıq əlamətidir.

Fatimə/ə/nin tərbiyəsinin kamilliyi onun əxlaq və rəftarında aydın göründü. Bu gözəl xanımın səbr və təmkini, çətinliklərə dözümü bütün insanlara əxlaq dərsi idi.

Peyğəmbər/s/ Fatimə/ə/yə buyurmuşdu.

– Ey Fatimə, böyük allah bir daha yerə nəzər saldı, sənin həyat yoldaşını seçdi və mənə vəhy gəldi ki, səni onunla evləndirim. Məgər sən bilmirsən ki, Allah sənə bu kəramətinə, böyüklüyünə görə

İslamı bütün müsəlmanlardan çox hifz etmiş, irəli aparmış, döyüşlü, bilikli, elmli bir adamla evlənməyi buyurmuşdur.

– Müştərək həyat, qarşılıqlı anlaşma onların yaşayışının əsasını təşkil edirdi.

Əmirəlmöminin Əli/ə/ demişdir: «Allaha aid olsun bütün ömrüm boyu Fatimə/ə/ni acıqlandırmamışam. Onu heç bir işə məcbur etməmişəm və o da məni acıqlandırmayıb, mənim sözümdən çıxmayıbdır. Həmişə ona baxanda qəm-qüssəm kənar olub, əziyyətim azalıbdır».

Ayişə demişdir: «Fatimə/ə/dən düz danışan adam görməmişəm, yalnız atası Rəsuli-Əkrəmdən başqa».

İmam Həsən/ə/ söyləmişdir ki, anam Fatimə/ə/ möminlər üçün dua edir, onların adını çəkir və özünə isə dua etmir.

Ona dedim: Ana başqalarına dua etdiyin halda özünə dua etmirsən? Dedi: Oğlum, əvvəl qonşu, sonra özün.

Fatimə/ə/ çox insaflı idi. O, ev qulluqçusu ilə işləri bərabər bölərdi. Səlman farsı deyir: «Fatimə/ə/ oturmuş və əl dəyirmanında arpadan un çəkirdi. Onun əli yaralı olduğundan dəyirmanın dəstəyi qana bulaşmış və kiçikyaşlı Hüseyn/ə/ güncdə oturub acından ağlayırdı. Dedim ki, ey Allahın elçisinin qızı, əlini yaralamısan. İş görmək üçün Fizzə (evin qulluqçusu) da var. Cavab verdi: «Allahın elçisi mənə öyrədib ki, bir gün işləri mən görüm, bir gün Fizzə. Dünən onun növbəsi idi».

Peyğəmbər toy günü Fatimə/ə/ üçün gəlinlik köynəyi hazırlatmışdır. Bu vaxt ehtiyacı olan bir adam onların evinin yanına gəlib köhnə bir paltar istədi. Fatimə/ə/ yamaqlı köynəyi bu kasıba vermək istədi, amma yadına düşdü ki, Allah buyurub: «Sevmədiyiniz şeyi xərcləmək yaxşılıq etmək deyil». //Ali-İmran surəsi, 92-ci ayə//. Buna görə o təzə köynəyini kasıba verdi.

Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrabaya, miskinlərə və Allah yolunda hicrat edənlərə (heç bir şey verməyəcəkləri, heç bir kömək göstərməyəcəkləri) barədə and içməsinlər. Onları əfv edib, (cəzalandırmaqdan vaz keçsinlər. Məgər siz (bu yaxşılıq müqabilində (Allahın sizi (günahlarınızı) bağışlanmağını istərmirsiniz Allah (bəndələrini) bağışlayan və rəhm edənlər. //Ən-Nur («Nur») surəsi, 22-ci ayə//.

İmam gətirib yaxşı işlər görənləri salehlər zümləsinə daxil edəcəyik. (Onlar Cənnətin yüksək təbəqələrində sakin olacaqlar.) //Əl-Ənkəbur («Hörümcək») surəsi, 9-cu ayə//.

Çətinliklərlə üzləşən, ehtiyacı olan, ac qalanlar son ümid yeri Əlinin evini bilər, onun ailəsinə pənah apararardılar. Bu evi, ailəni özlərindən çox, qonşuları, yadları düşünərdilər.

İsləm dinində ata-anaya övlad borcu ödənilməz norma sayılır. Qurani-Kərimin əksər surələrində bu məsələyə təkrar-təkrar qayıdılır.

(Yaqub və ailəsi) Yusifin huzuruna daxil olduqda o, ata anasını (analığı olan xalasını) bağrına basıb; Buyurun, Allahın izni ilə (hər şeydən arxayın olun) əmin –amanlıqla Misirə daxil olun? – dedi.\\Yusif surəsi, 99-cu ayə\\.

Rəbbim yalnız ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara; «uf» – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış \\ Əl – İsra «Gecə vaxtı seyd» və ya Bani – İsrail) («İsrail oğulları» surəsi, 23-cü ayə).

Onların hər ikisinə acıyırıq mərhəmə qanadının altına alıb; «Pərvərdigara onlar məni görpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et» – de.

Rəbbiniz ürəklərinizdə onları (qəlbinizin sirlərini) yaxşı biləndir. Əgər əməlisaleh olsanız (ata-ananıza bilmədən etdiyiniz pislikdən peşman olub tövbə etsəniz) və bundan sonra onlarla yaxşı davransanız, bilin ki, Rəbbiniz üzəklərinizdən onları (qəlbinizin sirlərini) ən yaxşı biləndir. Əgər əməlisaleh olsanız (ata-ananıza bilmədən etdiyiniz pislikdən peşman olub tövbə etsəniz) və bundan sonra onlarla yaxşı davransanız, bilin ki, Rəbbiniz, həqiqətən, tövbəkarları bağışlayandır //Əl-Nisa Gecə vaxtı seyr surəsi, 24, 25-ci ayələr\\.

Əbdullah ibn Əlhəsən Fatimə/ə/nin evinə gəldi. Fatimə/ə/ bir parça quru arpa çörəyi gətirdi. Peyğəmbər/s/ onunla iftar etdi və dedi ki, qızım, bu atanın üç gün müddətində yediyi çörəkdir. Bu sözdən Fatimə/ə/ağlamağa başladı və Peyğəmbər /s/ mübarək əli ilə onun üzünə nəvaziş edib, göz yaşlarını sildi.

Biz insana ata-anasına yaxşılıq etməyi, onlarla gözəl davranmağı tövsiyə etdik. Ey insan, əgər valideynlərin bilmədiyi bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə.

Hamınız (qiyamət gün) Mənim hüzuruma qayıdacaqsınız. Mən də (dünyada) nə etdiklərinizi sizə bir-bir xəbər verəcəyəm /Əl-Ənkəbut («Hörümçək») surəsi, 8-ci ayə/.

Biz insana, ata-anasına yaxşılıq etməyi (valideynə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik.

Anası onu (bətnində çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. /Biz insana buyurduq: «Mən və ata-anana şükür et. Axır dönüş məndədir /Loğman surəsi, 14-cü ayə//.

Ata-ananıza ehtiram edin ki, övladınız da sizə hörmət qoysunlar. Həyalı və namuslu olun ki, qadınlarınız da həyalı və namuslu olsunlar.

Bir nəfər rəsulallahın yanına gəlib dedi: «Mən cihad etmək istəyirəm, amma buna gücüm çatmır». Peyğəmbər soruşdu: Valideynlərindən sağ olanı varmı?» O adam var dedi. Peyğəmbər həzrətləri buyurdu: «Onun qulluğunda durmaqla Allahın hüzuruna yetiş. Bunu etsən həm həcc və ümrə ziyarəti, həm də cihad etmiş olarsan.

Pedaqoji, Psixoloji elmlər seriyası, 1992, №2, s.3–11.

Həmişə gülən Tapdıq

Yetirmələrimin içərisində öz dəsti-xətti, səmimiyyəti, məsuliyyətliliyi ilə seçilənlərdən biri də Tapdıq idi. Onu vaxtsız əcəl haqq dünyasına qovuşdurdu. Vəzirxandan sonra kafedramızın ikinci gənc bir üzvünü torpağa tapşırdıq. Mənim üçün çox ağırdır ki, yetirməm üçün vida sözü deyirəm. Bağban min əzab-əziyyətlə yetirdiyi ağacın barını dərməsə necə olar? Mən də eləyəm. Tapdığı yoldaşlarından fərqləndirən keyfiyyətlər çox idi. O, özünün səmimiyyəti ilə seçilirdi, həmişə üzü gülürdü. Heç nəyə tez reaksiya verməzdi, işgüzar, ailəcanlı idi. Ömrünün çiçəkləndiyi vaxt, əlinin çörəyə çatdığı vaxtda getdi. Pedaqoji ictimaiyyət arasında özünə

yeni-yeni nüfuz qazandığı vaxt aramızdan getdi. Onun ölüm xəbəri bizi sarsıtdı, mütəəssir etdi, gözəl bir həmkarımızı itirdik.

Tapdığın son gedişi Gədəbəyə oldu. Dağlarımıza bənzər dağlara qalxdı, soyuq bulaqlardan su içdi, küləklərin qovub gətirdiyi Vətən havasını uddu. Ürəyi Göyçə gölünün sahilləri üçün döyünürdü. Vətən həsrəti ilə də dünyasını dəyişdi. Ömrü kimi arzuları da yarımçıq qaldı…

Yas mağarında onun böyüdülmüş qırmızı və qara lentlərlə haşiyəyə alınmış şəkli asılmışdır. Tapdıq yenə də gülümsəyirdi. İndi o, bəlkə də, ölümün özünə gülürdü.

Yeganə təsəllimiz budur ki, o, bizim qəlbimizdə həmişə gülərüz Tapdıq kimi yaşayacaq.

Allah rəhmət eləsin!

Yarımçıq ömrün sahibi.
«Nasir» nəşriyyatı. Bakı, 2000, s.9.

Şərqin əxlaq nəzəriyyəçisi

Nəsirəddin Tusinin adı Azərbaycan mədəniyyəti tarixinə məşhur ensiklopedik alim və dövlət xadimi kimi daxil olmuşdur.

Nəsirədddin Tusi 1201-ci il fevralın 18-də anadan olmuşdur. Bəzi mənbələrdə, onun Həmədan şəhərində, digər mənbələrdə isə Xorasanda ən böyük mədəni mərkəzlərindən biri sayılan Tus şəhərində anadan olduğu göstərilir. O, ilk təhsilini də Tus şəhərində almışdır. Buradan da Tusi ləqəbini götürmüşdür.

O, hələ uşaqlıq çağlarında elmlə maraqlanmış, öz çalışqanlığı və səyi sayəsində müəllim və müdərrislərin rəğbətini qazanmış, özünün istedadı, hər şeyi tez qavramaq qabiliyyətilə onların heyrətinə səbəb olmuşdur.

N. Tusinin ilk müəllimi atası olmuş, sonrakı müəllimləri isə dövrünün görkəmli alim və pedaqoqları İbn Sina məktəbinə mənsub olan alimlər, o cümlədən Azərbaycanın məşhur filosofu və mütəfəkkiri, Bəhmənyar dövrünün ən şöhrətli müəllim və müdərrisi hesab edilən Fəridəddin Damad olmuşdur. F. Damad öz dünyagörüşü ilə müasirlərindən xeyli fərqlənirdi, təkçə şəriət ehkamları deyil,

yunan fəlsəfəsi, hind hikməti, fars mədəniyyəti, Azərbaycan incəsənəti ilə də yaxından maraqlanırdı.

N. Tusi çox mükəmməl təhsil almışdı və gənclik illərində böyük şöhrət tapmışdı. Hələ otuz yaşında ikən Qəhistan hakimi Nəsirəddin Əbülfəth İbn Mənsur (?-1257) tərəfindən fəxri qonaq kimi qəbul edilmişdi.

Lakin elə bu vaxtlar o göz dustağı kimi həbs edilir və həşşaşilərin «Əlamut» qalasına (İranda) göndərilir. Onun həbs olunma səbəbini belə izah edirlər: guya N. Tusi Qəhistanda qonaq olduğu zaman Bağdad xəlifəsinə bir qəsidə ithaf edərək ona göndərir. Həmin qəsidə ilə tanış olan Əlqəmi N. Tusini təhlükəli rəqib hesab edərək onun həbs edilməsinə aid əmr verir.

N.Tusi təxminən 20 ildən çox, 1256-cı ilə qədər Əlamut qalasında bir növ sürgündə yaşamalı olur. həyatının olduqca ağır keçməsinə baxmayaraq, o, bu illərdə bir sıra qiymətli əsərlər, o cümlədən: «Şərh-ül işarət», «Təhrir əlməcəsti», «Təhrir əqlidis» adlı əsərlərini yazmışdır.

1256-ci ildə Bağdad üzərinə hücum edən Hülakü xan Əlamut qalasını zəbt edir, başqa məhbuslarla birlikdə Nəsirəddin Tusini də azad edir və onu özunə şəxsi məsləhətçi təyin edir. O, yaxşı bilirdi ki, N. Tusinin Şərq ölkələrində şəxsi nüfuzu və ehtiramı böyükdür.

N. Tusi minlərlə günahsız alimi və bacarıqlı şəxsi monqol qılıncından xilas edə bilmişdi. Hülakü xanın vəfatından sonra (1265) isə N. Tusi onun oğlu Abaqa xanın vəziri olmuşdur (1265-1274).

Monqol hücumları işqal olunmuş ərazilərin təsərrüfat həyatına, elm və mədəniyyətinə ağır zərbə vurmuş olsa da, bir qədərdən sonra ölkədə müəyyən canlanma baş verdi. 1259-cu ildə N. Tusinin başçılığı ilə Marağa rəsədxanası açıldı.

Bağdadın işqalı zamanı N.Tusi Marağa rəsədxanasının təsisi üçün lazımi hazırlıq görür, alimlər cəlb edir, kitablar toplanmasını təşkil edir. Rəsədxana üçün Marağa şəhəri seçilir. Marağa rəsədxanasının tikintisi ilə bağlı belə bir rəvayət var ki, guya Çin hökmdarı Mengu xan qardaşı Hülakü xanı hələ İnran və İraq torpaqlarına hücuma göndərərkən ona belə bir tapşırıq da verir ki, həşşaşilərin qalasını zəbt etdikdə Nəsirəddin Tusini, azad edərək onu Pekində rəsədxana tikmək üçün Çinə göndərsin. Lakin bu zaman Menku xan Çinin Cənub hissəsində müharibə aparırdı. Buna görə də

Hülakü xan özü rəsədxana tikdirmək istəyir. Marağa rəsədxanasından 200 il əvvəl bu yerlərdə – Urgencdə və Reyddə rəsədxananın mövcud olması da bu işə təkan verir. Marağa rəsədxanası üçün lazim olan xərcin böyük bir hissəsi – 20.000 dinar Bağdad xəzinəsindən gətirilən gümüş və qızılın hesabına ödənilmişdi.

Rəsədxananın tikintisinə Nəsirəddin Tusi özü rəhbərlik edirdi. Şərq ölkələrindən (Hələb, Bağdad, Dəməşq və Misirdən) kitablar gətizdirir və rəsədxana nəzdində böyük bir kitabxana yaradır. Bəzi mənbələrə görə burada 400.000 cild əlyazması (o vaxt çap olunmuş kitablar yox idi), müvafiq cihazlar toplanmışdı. Dövrünün tanınmış alimlərindən məşhur riyaziyyatçı və astronomlar və işgüzar elm adamlarından ibarət mükəmməl bir elmi kollektiv yaradılmışdı. Burada azərbaycanlılarla yanaşı farslar, ərəblər, gürcülər, tatarlar, monqollar, yəhudilər və başqaları da var idi. N.Tusi öz kollektivinə ayrıca qayğı və nəvaziş göstərirdi: Marağa rəsədxanasının banisi olan. N. Tusi 15 il ona rəhbərlik etmişdir. Cahan-Şümul səciyyə daşıyan bu rəsədxana bütün dünya miqyasında fizika-riyaziyyat elmlərinin inkişafı tarixində çox mühüm və tarixi rol oynamışdır.

Bu rəsədxananın və N.Tusi irsinin tanınmış tədqiqatçısı H.C.Məmmədbəyli yazır:

«Marağa rəsədxanası XIII əsrdə dünyanın ən böyük mədəniyyət müəssisəsi olmuşdur. Marağa rəsədxanasında elmin bir çox sahələrinə dair aparılan tədqiqat işləri, onların yüksək elmi səviyyədə aparılması, elmi dəyəri və ən ümdəsi Marağa rəsədxanasının qoyduğu irsin sonrakı əsrlərdə elmi inkişafına göstərdiyi böyük təsir sübut edir ki, o adi rəsədxana çərçivəsindən kənara çıxaraq elmin inkişafında tam bir dövr təşkil etmişdir».

Marağa rəsədxanasında astronomiya elminin, bir çox təbiət elmlərinin dərindən öyrənilməsi ilə yanaşı, humanitar elmlərin inkişafına da böyük qayğı göstərilmişdi. Demək olar ki, elmi işlərin mahiyyətinə görə, o, orta əsr akademiyalarından biri olmuşdur. Bununla belə mütəxəssislərin işi astronomiya sahəsində olmuşdur və onun adını elm sahəsində əbədiləşdirən də məhz budur.

Marağa rəsədxanasında N. Tusinin rəhbərliyilə elmin müxtəlif sahələrinə aid bir sıra qiymətli əsərləri içərisində elələri vardır ki, onlar dünya miqyasında qiymətini itirməmiş və elmin

gələcək inkişafında böyük iş görmüşdür. Bunlar əsasən aşağıdakılardır:

«Zic Elxani»-astronomiyadan bəhs edən əsərdir. «Zic Elxani» əsərində XIII əsrdə məşhur olan 256 şəhərin coğrafi koordinatları verilmişdir Cədvəl 1652-ci ildə Londonda, 1711-ci ildə isə Oksfordda ərəb və latın dillərində çap edilmişdir. Bu cədvəllər XIII əsrdə Azərbaycan alimlərinin coğrafi biliklərinin yüksək səviyyədə olduğuna sübutdur. Coğrafiya elminin inkişafında bu cədvəlin böyük rolu olmuşdur. Amerikanın kəşfində onun az əhəmiyyəti olmamışdır.

«Təhlili öqlidis» (evklidin şərhi) – həndəsədən bəhs edən əsərdir. Bu əsər özündən əvvəl yazılmış bütün həndəsə kitablarından üstün olmuş, XIII əsrdən XVIII əsrə qədər həndəsə sahəsində ən qüvvətli əsər hesab edilmişdir.

Bu əsərdə Tusinin verdiyi ədəd anlayışı müəsir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdır.

«Şəkl-ül-qita» (Kəsişmələr şəkli)-tam dördtərəfli haqqında traktat hesab edilən bu əsər müstəvi və sferik triqonometriyadan bəhs edir.

«Hesablama məcmusu» – hesab elminin inkişafından bəhs edən əsərdir.

N.Tusinin əsərlərindən biri «Təhriri əl-məcəsta» adlanır ki, bu «Almagest»in işlənmiş variantıdır. Digər əsəri isə «Təzgireyi-Nəsiriyyə» adlanır. Hər iki əsər Ptolomeyin geosentrik sistemi daxilində planetlərin hərəki nəzəriyyəsinə və onun təshihinə aiddir.

N.Tusi yaradıcılığında «Əxlaqi-Nasiri» əsəri ayrıca əhəmiyyət kəsb edir. Bu əsərin qəribə yazılma tarixi var. Müəllif bu haqda belə yazır: «Qəhistan vilayətinin hakimi Nəsirəddinin xidmətində olarkən məclislərin birində görkəmli alim, kamil, filosof Əbu Əli-Misgəvehin «Əl-təharə» adlı kitabını ərəb dilindən fars dilinə tərcümə etmək mənə təklif olundu. Mən bir az fikirləşdim və özüm-özümə məsləhətləşərək, xəyalən belə dedim: «Bu qədər gözəl mənaları çevirmək, onların qəşəng libaslarını soyundurub burovuz

paltar geydirmək, adamı meymun şəklinə salıb eybəcərləşdirməyə oxşar»[1]...

Beləliklə Tusi bu təklifi rədd edir və özü həmin mövzuda orijinal bir bir əsər yazmağa qadir olduğunu bildirir. O öz vədini yerinə yetirir və 1235-ci ildə özünün məşhur «Əxlaqi-Nasiri» əsərini yazır. Kitab yuxarıda adı çəkilən hökmdar Nəsirəddinin əmri və təşviqi ilə yazıldığından əsərin adını («Əxlaqi-Nəsirin əxlaqa aid kitabı») qoyur.

Müəllif bu əsəri yazarkən Əbu Əli Misgəvehin, İbn Sinanın, Əl-Farabinin, Aristotel, Platon və başqa alimlərin fikirlərindən məharətlə istifadə etmişdir. Bu əsər tez bir azmanda Şərqdə böyük şöhrət qazanmış, onun nüsxələri Qafqaz. İran, Orta Asiya, Hindistan və başqa ölklərdə yayılmışdı. Tərbiyə, əxlaq və pedaqogikaya aid olan bu əsər Orta və Yaxın Şərq məktəblərində əxlaq dərsliyi rolunu oynamış, indi də bəzi orta məktəb və pedaqoji Universitet proqramlarında ona müəyyən yer verilir.

«Əxlaqi-Nəsiri» son vaxtlara qədər dərindən təhlil olunmamışdır. Yalnız 50-ci illərdə professor Ə.K.Zəkuzadə bu əsərin tədqiqi ilə məşğul olmuş, N.Tusinin psixoloji görüşlərini təhlil etmişdir. Filologiya elmləri namizədi M.S. Sultanov bu əsəri tədqiqata cəlb etmiş, onun ayrı-ayrı hissələrini tərcümə və nəşr etdirmişdir.

«Əxlaqi-Nəsiri» əsərini tam şəkildə Rəhim Sultanov farscadan Azərbaycan dilinə tərcümə etmiş, ona geniş müqəddimə və şərh yazaraq, 1980-ci ildə «Elm» nəşriyyatında çap edilməklə çox faydalı bir iş görmüşdür. (Redaktorları C.V.Qəhrəmanov, M.S.Sultanovdur).

R. Sultanovun çox haqlı olaraq yazdığı kimi, əgər N.Tusiyə dünya şöhrəti qazandıran onun riyaziyyat və nücum elmlərinə aid yazdığı «Zice Elxani» kimi əsərləri və Marağa rəsədxanasıdırsa, onu şərq xalqlarına sevdirən «Əxlaqi-Nasiri» əsəri olmuşdur. Məzmununun ictimai, iqtisadi, əxlaqi fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından bu əsər xüsusi əhəmiyyətə malikdir. Onun 700 ildən artıq bir müddət ərzində Orta və Yaxın Şərq məktəblərində, əxlaq dərsliyi kimi böyük şöhrət tapması da bununla izah olunur. Bu kitab çoxlu miqdarda üzü çıxarılaraq xalq içərisində yayılmışdır. «Əxlaqi-

[1] Bax: Xacə Nəsirəddin Tusi. «Əxaqi-Nasiri», Bakı, «Elm», 1989, s.34.

Nasiri» özündən əvvəl yaxın və Orta Şərqdə hökm sürən əxlaqi-fəlsəfi və pedaqoji fikirlərin bir növ yekunudur. tədqiqatçılar çox haqlı olaraq belə fikirdədirlər ki, son 700 il müddətində fars dilində «Əxlaqi-Nəsiri» kimi ikinci bir orijinal əsərin yaranmasına hələ təsadüf edilməmişdir[1].

N. Tusi həmin əsərində özünün mahir bir müəllim, gözəl bir tərbiyəçi olduğunu nümayiş etdirmişdir. İnsanda olan fitri qabiliyyət və istedadlar, mühiti və şəraitin insana (xüsusilə uşaq və gənclərə) təsirindən geniş bəhs edən müəllim bu işdə təlim və tərbiyənin son dərəcə böyük rolunu həyati misallarla nümayiş etdirir.

N.Tusinin fikrincə hər işi görən insandır. Bu mənada onun tərbiyəsi hər şeydən vacibdir. Bu işlə məşğul olan elm də şərəfli sayılmalıdır. «Bu elm insani-nəfsin elə xüsusiyyətlər qazana biləcəyindən danışır ki, onun iradəsi ilə edilən bütün davranış və rəftar gözəl, tərifəlayiq olsun».

«Əxlaqi-Nasiri»də mərkəzi yerlərdən birini əmək, zəhmət, peşə və sənət tutur. O, yazır ki, insan yaşamaq üçün hər şeydən əvvəl, yeməyə möhtacdır, insanın yeməyi isə başqa hevanlarınkı kimi ələf və sudan ibarət deyil və təbiət tərəfindən hazır-nazir verilmir ki, aclıq və susuzluqlarını rəf etdikdən sonra arxayınlaşıb dincəlməyə başlasınlar. İnsanın qidası sənət və peşə olmadan, məsələn, əkmək, biçmək, təmizləmək, üyütmək, yoğurmaq və bişirmək olmadan mümkün deyildir, bunun üçün isə köməkçi işlər, kənd təsərrüfatı ləvazimatını düzəltməyi və işlətməyi bacarmaq, uzun müddət böyük əmək sərf etmək lazımdır[2].

Tusi ailəni bütöv bir bədən üzvlərinə oxşadır. Ailə dolandırmaq sənətini isə bədəni sağlam saxlamaq istəyən həkimlik sənəti ilə müqayisə edir. Təbib insan bədəninə, onun üzvləri arasında münasibətin sağlamlığına neçə fikir verirsə, ailə başçısı da bütün ailə, eləcə də onun üzvləri arasında olan münasibətlərinə diqqət yetirməlidir.

Tusinin fikrinə görə, uşaqla təmiz idrakı qüvvələndirən birinci «həya» özünü göstərir, ona görə də hər şeydən əvvəl bu hissin tərbiyəsi və inkişafı ilə məşğul olmaq təklif olunur, «həyanın»

[1] Bax: Xacə Nəsirəddin Tusi. «Əxaqi-Nasiri», Bakı, «Elm», 1989, s.13.
[2] Bax: Xacə Nəsirəddin Tusi. «Əxaqi-Nasiri», Bakı, «Elm», 1989, , s.20.

böyük idraki əhəmiyyəti qeyd edilərək bunun nə üçün inkişaf etdirilməsi belə əsaslandırılır: «Əgər uşaq həyalıdırsa, əgsər halda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur; bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib, gözəl işlərə meyl göstərir, bu əlamət haman istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə haman uşağın tərbiyəsinə xüsusi fikir verməli, heç bir şeyi əsirgəməməli istedadın sönüb getməsinə yol verilməməlidir»[1].

N.Tusi Bağdada səfəri zamanı 1274-cü ildə vəfat etmiş və Bağdadda məşhur «Came Məscid»də dəfn olunmuşdur. Onun qəbir daşının üstündə aşağıdakı sözlər həkk edilmişdir:

«Elmin köməkçisi,
Elm ölkəsinin şahı,
Dövr anası belə
oğul hələ doğmamışdır».

İzahlar və şərhlər

1.**İbnSina** — (980—1037) — Əbu Əli Hüseyn İbn Abdullah (latınlaşdırılmış adı Avisenna) — Buxara yaxınlığında anadan olmuş, Həmədan şəhərində vəfat etmişdir. Tarixə məşhur alim, filosof, həkim, Şərq aristotelizmin nümayəndəsi kimi daxil olmuşdur. Orta Asiya və İranda yaşamış, ömrünün axırlarnda saray həkimi və vəzir olmuşdur. Antik fəlsəfi fikrin inkişafında böyük rol oynamışdır. 250-dən artıq əsəri dövrümüzə qədər gəlib çatmışdır.

2.**Bəhmənyar-ibn Mərzban** (Əbülhəsən, ? — 1066) məşhur Azərbaycan filosofu, Şərq peripatetizminin nümayəndəsi, İbn Sinanın şagirdi və davamçısı olmuşdur. Orta əsrlərdə müsəlman Şərqində fəlsəfi fikrin inkişafında böyük rolu olmuşdur. Bəhmənyarın fəlsəfi görüşləri bizim universitetimizin tanınmış alimlərindən olan, 1921-ci ildə İstambul Universitetinin fəlsəfə şöbəsini bitirmiş, fəlsəfə elmləri doktoru, 50-ci illərdə ümumi psixologiya kafedrasına rəhbərlik etmiş mərhum prof. Ə.K. Zəkuzadə (1883–1968-ci) tərəfindən müfəssəl tədqiq edilmişdir. İbn

[1] Yenə orada, s.157.

Sinanın psixoloji görüşləri də prof. Zakuzadə tərəfindən tədqiq edilmişdir.

3.**Həşşaşilər** — Bağdad xəlifəliyinin xeyrinə çalışan dini təşkilatın üzvləri idilər. Bu sektanın banisi Həsən Səbbah adına bir nəfər olub, Həşşailər sektası 180 il davam etmişdir. Bu təriqət 1256-cı ildə Hülakü xan tərəfindən məhv edilmişdir.

4.**Hülakü xan** (1217–1265) monqol xanı Çingiz xanın nəvəsidir. 1253-cü ildə qardaşı Monqol xanı Menqunun göstərişinə əsasən ön Asiyaya Hucum edən Hülakü xan qısa müddətdə Şimali İranda İsmaillilərin hökmranlığına (1256) və Abbasilər xilafətinə (1258) son qoydu.

Monqol istilası nəticəsində Yaxın və Orta Şərqdə Elxanilər dövləti (1256–1357) yaradıldı. Əsası Hülakü xan tərəfindən qoyulduğundan bu çox vaxt Hülakülər dövləti də adlandırılır. Bu dövlətin ərazisinə Azərbaycan, İran, Ermənistan, Gürcüstan, Kiçik Asiya, Kürdüstan, İraq, Əfqanıstan və Türkmənistanın çox hissəsi daxil idi. Paytaxtı müxtəlif vaxtlarda Marağa, Təbriz, Sultaniyyə olmuşdur. A.A. Bakıxanov yazır ki, Şam ölkəsinin o başından (Əqsayi-Şamdan) Ceyhuna, Ümmandan Dərbəndə qədər onun hakimiyyəti altında idi. Hülakü xan çox əzəmətli olub bir çox məziyyətlərə malik idi. Elm və Hikmət sahiblərinin ehtiramını saxlar, ümumin mənfəətinə aid müəssisə və binalar tikdirməyə son dərəcə səy edərdi. Paytaxtı əbriz şəhərində ail bir imarət tikdirmişdi. Hülakü xana çox yaxın olan Nəsirəddin Tusi, onun əmrilə Marağada bir rəsədxana bina edirdi. («Gülüstani İrəm», Bakı, 1951, s. 76).

5. Dar-üş-şəfa Monqolların əsarəti altında olmasına baxmayaraq XIV əsrin əvvəllərində Təbrizdə «Dar-üş-Şəfa» (müalicəxana, şəfa evi) yaradılmışdı. Elmin müxtəlif sahələri inkişaf edirdi. Riyaziyyatçı Übeyd Təbrizi, filosof Mahmud Şəbüstəri, musiqişünas Səfiəddin Urməvi, şairlərdən Əvhədi Marağayi, Zülfüqar Şirvani, İzəddin Həsənoğlu və b. Elxanilər dövründə yazıb yaratmışlar. Rəşidəddin, Vəssaf, Kaşani Həmdullah Qəzvini və b-nın farsidilli tarixşünaslığın inkişafında mühüm xidmətləri olmuşdur. Elxanilər dövründə Sultaniyyə və Mahmudabad (Muğanda) şəhərləri, Təbrizdə Şənbi Qazan, Rəb-i Rəşidi və s. məhəllələr salınmışdı. Şəhərlərdə məscid, mədrəsə xanagah və s. binalar tikilmişdi.

6. **Marağa şəhəri** Cənubi Azərbaycanda təbii gözəlliyi ilə məşhur olan şəhərlərdən idi. Urmiya gölünün yaxınlığında yerləşən bu şəhər gözəl bağça-bağları, üzümlük və tarlaları, narzan suları, saf və şəffaf havası ilə fərqlənirdi. Şəhərin ətrafında Daşkəsən adlanan yerdə mərmər yataqlarının olması rəsdxananın tikintisinə əlverişli şərait yaradırdı. Şəhər astronomiya müşahidələri üçün çox əlverişli idi.

7.Əbu Əli Əhməd ibn Məhəmməd ibn Yəqub ibn Misgəveh – X–XI əsrlərin məşhur tarixçisi, yazıçı və mütəfəkkirlərindəndir. Əsərləri əsasən ərəb dilindədir. Tarix, fəlsəfə, əxlaq, tibb, kimya elmləri ilə yaxından maraqlanmış və bu sahədə çoxlu əsərlər yazmışdır. Əsərləri içərisində daha şöhrətliləri «Ərəb və fars adətləri», «Əxlaq elmində təmizlik», «Xalqların təcrübələri», «Ağlın əbədiliyi» adlı tərbiyəvi-əxlaqi, fəlsəfi və tarixi əsərlərdir. 1030-cu ildə vəfat etmişdir.

Məqalə «Pedaqoji, Psixoloji elmlər seriyası» 1992, № 1, 2, s. 5-12.

Əbədiyyətə qovuşan ömür

Anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyini qeyd etməyə hazırlaşdığımız ərəfədə professor Mərdan Muradxanov vəfat etdi. Bu iste'dadlı alimin Azərbaycan pedaqoji fikrinin inkişafında özünəməxsus dəst-xətti vardı. Yaradıcılıq dairəsi çox geniş, zəngin məhsuldar, dərin və rəngarəng olan M. Muradxanov 1909-cu ildə Salyan şəhərində müəllim ailəsində anadan olmuşdur. 1927-ci ildə Bakı müəllimlər seminariyasını qurtardıqdan sonra o, Salyan şəhərindəki 3 nömrəli məktəbdə müəllim işləmişdir. 1932-ci ildə Ali Pedaqoji İnstitutu bitirdikdən sonra Sabirabad rayonunda məktəb inspektoru olmuş, sonralar Bakıya də'vət olunmuş və burada geniş elmi-pedaqoji fəaliyyətə başlamışdır.

Mərdan müəllim hələ tələbə ikən «Müəllimə köməк» jurnalının məs'ul katibi Hüseyn Əfəndiyevlə birlikdə III sinif üçün «Gənc kolxozçu» adlı ana dili dərsliyi yazmışdır.

O, 1939-cu ildə A.İ. Gertsen adına Leninqrad Pedaqoji İnstitutunun aspiranturasını bitirir. Böyük Vətən müharibəsində

iştirak etdiyindən xalqımızın dünya şöhrəti qazanmış böyük şair və mütəfəkkiri Nizaminin ölməz ədəbi irsindəki pedaqoji fikirlərə həsr etdiyi «Nizaminin pedaqoji görüşləri» adda namizədlik əsərini 1943-cü ildə əsgər paltarında müdafiə edir. Bu əsər sovet alimləri G.İ. Bertels, B.B. Komarovski, A.O. Mokavelski tərəfindən yüksək qiymətləndirilmişdir.

Müharibədən sonra o, 1946-cı ildən 1952-ci ilədək Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini və V.İ. Lenin adına APİ-də baş müəllim-dosent işləmiş, 1952-ci ildən e'tibarən həmin institutun pedaqogika kafedrasına rəhbərlik etmiş, 1960-cı ildən ömrünün sonuna kimi həmin institutun ibtidai təhsil pedaqogikası və metodikası kafedrasının müdiri olmuşdur.

Pedaqogika elminin inkişafında misilsiz xidmətinə və gənc alimlər yetişdirmək sahəsində sərf etdiyi gərgin əməyə görə ona 1961-ci ildə pedaqogika üzrə professor adı verilmişdir. Professor M. Muradxanov 40-dan çox kitab, kitabça və monoqrafiyanın müəllifi olmuş, ümumi həcmi 500 çap vərqi olan 180-dən çox elmi və metodik məqalə dərc etdirmişdir. Onun yazdığı irihəcmli əsərlərdə olduğu kimi, adi qəzet məqalələrində də orijinallıq, dərin elmilik, məktəb təcrübəsinin əksi diqqəti cəlb edir. Kəskin təfəkkürə, güclü hafizəyə və nitq mədəniyyətinə malik olan M. Muradxanovun elmi maraq dairəsi pedaqoji elmin, demək olar ki, bütün sahələrinin əhatə edir.

Təxminən 40 il bundan əvvəl yazıldığına baxmayaraq «Nizaminin pedaqoji görüşləri» əsəri bu gün də öz elmi təravətini və dəyərini saxlamaqdadır. Bu əsərin böyük elmi əhəmiyyəti ondadır ki, burada Nizaminin pedaqoji ideyaları, onun ümumi fəlsəfi və etik konsepsiyası orta əsr Şərq pedaqoji fikrinin inkişafı ilə əlaqədar olaraq işıqlandırılmışdır.

Görkəmli sovet pedaqoqu A.S. Makarenkonun zəngin və çoxcəhətli pedaqoji irsinin dərindən öyrənilməsi və Azərbaycan müəllimləri arasında yayılması sahəsində bu görkəmli alim xeyli iş görmüş, onun «A.S. Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri» adda monoqrafiyası Makarenkoşünaslığa böyük hədiyyə olmuşdur. Bu əsərdə Makarenkonun sovet pedaqogikasının metodoloji əsasları, tərbiyənin məqsədi, əxlaq

tərbiyəsinin mahiyyəti, prinsip və üsulları, uşaq kollektivinin təşkili və tərbiyəsi, əmək tərbiyəsi, uşaq oyunları kimi ideyaları yaradıcılıqla təhlil edilir, ayrı-ayrı problemlər müasir baxımdan inkişaf etdirilir və respublikamızdakı qabaqcıl məktəblərin təcrübəsi ilə əlaqələndirilir. Onun «A.S. Makarenko uşaqların ailə tərbiyəsi haqqında» kitabı da dərin məzmununa görə fərqlənir, müəllimlərin və valideynlərin stolüstü kitabına çevrilmişdir.

A.S. Makarenkonun çoxcəhətli tədqiqatçısı və onun ideyalarının Azərbaycanda fəal surətdə yayıcısı olduğuna görə çox vaxt oxucular, xüsusilə müəllimlər Mərdan Muradxanovu «Azərbaycanın Makarenkosu» adlandırırlar. O, «Məktəbdə şüurlu intizam tərbiyəsi». «Məktəblilərin əxlaq tərbiyəsinin prinsip və üsulları». «Ailə və məktəb», «Məktəblilərin ailədə tərbiyəsi», «Ali məktəbdə mühazirə» kimi irihəcmli əsərləri ilə sovet pedaqogika elmini xeyli zənginləşdirmişdir. Professor M. Muradxanov 1958 və 1964-cü illərdə çap olunan «Pedaqogika» dərsliklərinin əsas müəlliflərindən biri və həm də elmi redaktoru olmuşdur. Bu iste'dadlı alim respublikamızda pedaqogika üzrə terminoloji lüğətin yazılmasında da gərgin əmək sərf etmiş, klassik pedaqoqlardan Y.A. Komenski, K.D. Uşinski, A.S. Makarenko, N.K. Krupskayanın zəngin irsini böyük ilhamla və həvəslə Azərbaycan dilinə tərcümə etmiş, ömrünün son günlərində ilk dəfə hazırlanmış «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» proqramının müəlliflərindən biri kimi çox qiymətli sənədin yazılmasında fəal surətdə iştirak etmişdir.

Ailə tərbiyəsi üzrə Azərbaycan dilində pedaqoji ədəbiyyatın tərtibi professor M. Muradxanovun mühüm xidməti kimi qiymətləndirilməlidir. O, bu məsələyə 50 çap vərəqi həcmində 15 kitab və 30-dan çox jurnal məqaləsi həsr etmiş, «Maarif» nəşriyyatı tərəfindən «Valideynlər üçün» seriyasında buraxılmış 20-dən çox kitabçanın elmi redaktoru olmuşdur. Onun «Ailə və məktəb», «Ailədə uşaqların rejimi», «Valideynin şəxsi nümunəsi», «Ailə mühüm tərbiyə ocağıdır» və s. onlarca məqaləsi dövri mətbuatımızda oxucular tərəfindən yüksək qiymətləndirilmişdir.

Onun qələmindən çıxan tə'lim-tərbiyənin, demək olar ki, bütün sahələrinə, dərindən nüfuz edən hər bir əsərində, habelə mühazirə, mə'ruzə və çıxışlarında dərin müasirlik və mübarizlik hiss olunurdu.

Professor M.Muradxanov elmi işçilərin və müəllimlərin respublika, Zaqafqaziya, Ümumittifaq və beynəlxalq miqyasda keçirilən bir sıra elmi konfransların, simpoziumların fəal iştirakçısı olmuş, öz dolğun mə'ruzə və çıxışları ilə alimlərin, maarif işçilərinin və respublika zəhmətkeşlərinin hüsn-rəğbətini qazanmışdır. O, uzun müddət «Azərbaycan məktəbi», «Pioner» jurnallarının redaksiya hey'ətinin üzvü olmuş, Azərbaycan SSR Maarif Nazirliyinin tədris-metodika şö'bəsi ibtidai təhsil bölməsinin sədri. Ali və Orta İxtisas Təhsili Nazirliyi tədris-metodika şurasının pedaqogika bölməsinin, habelə işlədiyi institutun elmi şurasının üzvü olmuşdur.

Professor M. Muradxanov 20 nəfər elmlər namizədi yetirmiş və 40-dan çox alimin yetişməsində yaxından gömək göstərmişdir.

Daim yenilik sorağı, yaradıcılıq əzmi ilə çalışan M. Muradxanovun müəllimlik fəaliyyətində və şəxsiyyətində bir çox qiymətli keyfiyyətlər vardır ki, bu keyfiyyətlər pedaqoji elm sahəsində çalışan indiki gənc alimlər, məktəb müəllimləri və tələbələr üçün misilsiz nümunədir.

Mərdan müəllimin yaradıcı alim kimi bir keyfiyyəti də respublika məktəbləri və müəllimləri ilə müntəzəm əlaqəsində idi. Şikəst olmasına və çox ağır yeriməsinə baxmayaraq, o, Bakı, eləcə də Salyan, Neftçala, Əli Bayramlı, Göyçayın məktəblərində müntəzəm olur, müəllim və valideynlərlə görüşür, məktublaşır, onlara saatlarla vaxt sərf etməkdən həzz alırdı.

Mərdan müəllimin bir xüsusiyyəti də özünə və başqalarına qarşı son dərəcə tələbkar olmasında idi. Fəaliyyətə kömək etməyən «güzəşt» onun xarakterinə tam yabançı idi. Adi rə'y verəcəyi məqalə müəllifindən tutmuş aspiranta, dissertanta qədər, eləcə də kafedranın hər bir üzvünə kimi son dərəcə tələbkarlıqla yanaşan bu iste'dadlı alim tələb verdiyi adama qayğı göstərməyi, hörmət etməyi də bacarırdı. Tələb və hörmət onun fəaliyyətində qırılmaz tellərlə bir-biri ilə bağlanırdı. Respublikamızda, eləcə də Azərbaycanda pedaqogika üzrə əsər müdafiə etmiş qardaş respublikaların nümayəndələrindən çox az adam tapılar ki, ona Mərdan müəllim bu və ya digər səviyyədə kömək etməmiş olsun. O, son dərəcə obyektiv, sadə və təvazökar alim idi.

Sonuncu dəfə Mərdan müəllimlə ölüm yatağında olarkən görüşdüm. Ailə üzvləri, qohumlar və dostları onu əhatə etmişdilər.

Birdən o, gözlərini açıb qeyri-adi səslə «Şəfiqəni o biri otağa aparın», — dedi, qəhərləndi və gözlərini əbədi yumdu. Ölüm ayağında da bu gözəl insanda səmimiyyət və qayğıkeşlik özünü göstərdi, xəstə olan həyat yoldaşını bu dəhşətli mənzərədən uzaqlaşdırmağa sə'y göstərdi.

Partiya və dövlətimiz Mərdan Muradxanovun maarif sahəsindəki xidmətlərini və məhsuldar elmi-pedaqoji fəaliyyətini nəzərə alıb onu Qırmızı Əmək Bayrağı, «Oktyabr inqilabı» ordenləri, «Əmək rəşadətinə görə» xatirə medalı, «Qabaqcıl maarif xadimi» döş nişanı ilə, çoxlu fəxri fərmanla təltif etmişdir.

1973-cü ildə V.İ. Lenin adına Qırmızı Əmək Bayrağı ordenli APİ-nin 50 illiyi ilə əlaqədar olaraq institutun görkəmli alimlərindən 5 nəfəri Əməkdar elm xadimi fəxri adına layiq görüldü. Onların içərisində Mərdan Muradxanov da var idi. Bu hamının sevimli, respublika müəllimlərinin yaxın dostu, görkəmli alimə, eləcə də digər alimlərə Azərbaycan partiya təşkilatının və respublika hökumətinin misilsiz qayğısının təzahürü idi.

Bir vətəndaş, insan, alim kimi xalq qarşısında öz şərəfli vəzifəsini ləyaqətlə yerinə yetirmiş və bizi əbədi tərk etmiş Mərdan Muradxanov kimi şəxsiyyətlər ölmür, onlar ürəklərdə, şüurlarda əbədi yaşayır, əbədiyyətə qovuşurlar.

«Azərbaycan müəllimi»
qəzeti 8 yanvar 1979.

Azərbaycan xalq pedaqogikasının qiymətli incisi

«Kitabi–Dədə Qorqud » Azəbaycan Ədəbiyyatının çox qədim nümunələrindən, Azəbaycan xalq pedaqogikasının qədim incilərindən biridir.

Təxminən 1300 il əvvəl qələmə alınmış bu dastan xalqımızın çoxəsrlik mədəni abidəsidir. Bir müqəddimə və 12 boydan ibarət olan bu dastan orta əsrlər Azərbaycanında cərəyan edən hadisələrlə səsləşməkdədir. Xalqımızın qəhrəmanlıq və vətənpərvərlik nümunələri ilə zəngin olan bu dastan 1300 ildir ki, ağızdan-ağıza gəzir, eldən-elə, obadan-obaya yayılır, uşaq və gəncləri böyük və azad Vətən uğrunda mübarizəyə səsləyir.

Zamanca çox uzaqlardan gələn bu dastanın nüsxələri, əsrlərin keşməkeşli hadisələrinə, feodal müharibə dövrünün hadisələrinə davam gətirmədiyindən xarici ölkələrə səpələnmişdir.

«Kitabi –Dədə Qorqud » un bir əlyazma nüsxəsi Drezden kitabxanasında saxlanılır.

Azərbaycan xalqının tarixi və mənəvi xəzinəsi olan «Kitabi – Dədə Qorqud»un ikinci bir nüsxəsi Vatikanda tapılmışdır.

«Kitabi –Dədə Qorqud» ədəbiyyatımızın o cümlədən pedaqoji fikir tariximizin öyrənilməsi baxımından böyük əhəmiyyətə malik əvəzsiz bir mənbədir.

«Kitabi –Dədə Qoqud» dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Azərbaycan Respublikasının prezidentinin 21 fevral 1999-cu il tarixi sərəncamında bu dastanın yubileyi ilə bağlı silsilə tədbirlər planı təsdiq edilmişdir. Respublikamızın şəhər və kəndlərində kütləvi tədbirlərin, ədəbi –bədii gecələrin keçirilməsi, «Kitabi –Dədə Qorqud» –1300 mövzusunda səyyar sərgilərin təşkili, əlaqədar elm və tədris müəssələrində müvafiq işlərin görülməsindən tutmuş rəssamların beynəlxalq müsabiqəsinin keçirilməsinə qədər rəngarəng tədbirlərin hazırlanıb həyata keçirilməsi, bu tədbirlərin regional deyil, beynəlxalq səviyyə daşımasından xəbər verir.

Xarici ölkələrdə keçirilən tədbirlər, o cümlədən Almaniyanın Drezden şəhərində YUNESKO-nun Parisdəki iqamətgahında yubiley tədbirlərinin keçirilməsi, türk dövlətlərində, habelə İran, Gürcüstan, Rusiya və digər ölkələrdə «Kitabi –Dədə Qorqud» un yubileyinin qeyd edilməsi, Dədə Qorqudun cahanşümul əhəmiyyətini göstərir.

Nəhayət, Bakıda türk dövlətlərinin zirvə toplantısının keçirilməsi «Kitabi Dədə Qorqud»un təbliği və tədqiqi sahəsində uzunmüddətli proqramın hazırlanıb həyata keçirilməsi, xüsusi «Dədə Qorqud» elmi-tədqiqat laboratoriyasının yaradılması, serial filmlərin çəkilməsi və s. bu tədbirlərin miqyasının genişliyini göstərir.

Dövlət Komissiyasının tədbirlər planında həmçinin respublikanın bütün ümumtəhsil məktəblərində dastana dair proqramdankənar dərslərin və müsabiqələrin, ali məktəblərdə elmi konfrans və seminarların keçirilməsi, uşaqlar üçün «Kitabi- Dədə Qorqud» mövzusunda müxtəlif dillərdə nəşrlərin hazırlanmasının

ayrıca qeyd edilməsi «Kitabi-Dədə Qorqud» un elmi pedaqoji mənəvi və tərbiyəvi əhəmiyyətini vurğulayır.

«Kitabi-Dədə Qorqud»-un 1300 illiyinin Azərbaycanda qeyd olunması xalqımızın, ədəbiyyatımızın, dilimizin və tariximizin, o cümlədən pedaqoji fikir tariximizin, böyük bayramına çevrildi. Xalqımız yazılı və şifahi ədəbiyyatımızda dünyanın ən möhtəşəm dastanları ilə yarışa biləcək bir söz abidəsinin olması ilə fəxr edir. «Kitabi-Dədə Qorqud» xalq pedaqogikasının qiymətlərindən xəbər verir. «Manas», «İqor polku haqqında dastan» və yaxud «Koroğlu» ilə müqayisədə daha qədim olan «Kitabi-Dədə Qorqud» türkdilli xalqların qədim və zəngin pedaqoji abidəsidir.

«Hürriyyət» qəzetinin 23 fevral 1999-cu il tarixli 21 (423) sayında verdiyi məlumata görə «Dədə Qorqud» dastanı litva dilinə çevrilir. Dastanı orijinaldan Azərbaycan rəssam Adilə Əfəndiyeva çevirib. Vilnüsdə yaşayan rəssam həm də kitabın maketini hazırlayıb və bədii tərtibatını edib. Bu hadisə «Kitabi –Dədə Qorqud»un beynəlxalq əhəmiyyətindən xəbər verir.

«Kitabi – Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi xalqımızın qədim tarixi keçmişinin, mədəniyyətinin və mənəviyyatının öyrənilməsində çox mühüm istiqamətlərdən birini təşkil edir. Sovet imperiyası dövründə bu abidənin öyrənilməsi yolunda ciddi maneələr yaradılmışdı. Hətta bu kitabın Azərbaycana aid olması barəsində söhbət belə aparıla bilməzdi. Lakin müstəqil dövlətçiliyimizin yaranması bizə çox imkanlar açdı.

Möhtərəm prezidentimizin «Kitabi – Dədə Qorqud»un 1300 illik yubileyinin keçirilməsi üçün verdiyi fərman milli-mənəvi varlığımızın özümüzə qaytarılması yolunda çox mühüm tarixi bir hadisə kimi qiymətləndirilməlidir.

«Kitabi-Dədə Qorqud» Azərbaycan xalqının müqəddəs kitabıdır. Bu kitabdakılar müqəddəs bir şəxsiyyətin – oğuz elinin mənəvi atası Dədə Qorqudun dilindən söylənir.

Dədə Qorqud oğuzun tamam bilicisi idi. Nə desə olardı, qaibdən cürbəcür xəbərlər verərdi. Həqq-taala onun könlünə ilham verərdi. Həqq-taalanın könüllərə verdiyi ilham vəhydir. Vəhy isə Peyğəmbərlərə verilir. Dastandan belə görünür ki, Məhəmməd Peyğəmbər zamanına kimi Dədə Qorqud oğuz elinin peyğəmbəri olmuşdur.

«Kitabi–Dədə Qorqud» öz məzmununa görə real hadisələri təcəssüm etdirən əbədi idrak kitabıdır. Bu kitaba daxil olan əhvalatlarda insanların mənəviyyatı dünyagörüşü, bu günü və sabahı barədə həmişə gərəkli olan hökmlər verilir.

«Dədə Qorqud» öz müdrikliyi, aqilliyi, elin yol göstərəni olmaqla təsəvvürdə əzəmətli, nurani, ağıl və idrak mücəssəməsi olan bir şəxsiyyət kimi canlanır.

«Kitabi – Dədə Qorqud»un dili zəngin bir poetizm üzərində qurulmuşdur. Onun dili Orxon – Yenisey yazılarının dilini xatırladır. Bu dildə qədim türk şer üslubuna məxsus güclü lakonizm vardır. Şübhəsiz, bu ecazkar üslub qədim türk, həmçinin qədim Azərbaycan dili bədii ifadə imkanlarının daha dərin köklərə bağlı olduğunu və uzun zamanlar ərzində zəngin inkişaf yolu keçdiyini göstərir.

«Kitabi – Dədə Qorqud»u bizdən 1300 illik bir zaman məsafəsi ayırsa da, müdrik Qorqud atanın kəlamları bütün zamanlarda öz təravətini saxlamış və saxlayacaq. Odur ki, bu kitabı mənimsəmək və gənc nəslə mənimsətmək ziyalıların, alimlərin, pedaqoqların mənəvi borcudur. Bizim mənəvi borcumuz bir də ondan ibarətdir ki, ulu Dədə Qorqudun müqəddəs kəlamlarını körpələrimizin beşik nəğmələrinə çevirə bilək.

Dastan yaradıcılığı dünya ədəbiyyatında ayrı-ayrı xalqların müxtəlif tarixi dövrlərində ədəbi-bədii, ictimai siyasi düşüncəsini əks etdirən şifahi yaradıcılıq sahələrindən biridir. Xalqımızın həyatını, məişətini, adət və ənənələrini özündə əks etdirən, türk dünyasının qədim mədəniyyət abidələrindən, bədii-fəlsəfi təfəkkürümüzün ən nadir incilərindən sayılan «Kitabi – Dədə Qorqud» xüsusi maraq doğurur.

«Kitabi–Dədə Qorqud» boylarının qəhrəmanlıq dastanlarının struktur cəhətdən formalaşmasında təsiri aydın görünür.

Dədə Qorqud boyları özündən sonra yaranan klassik dastanlarla yanaşı müasir dastanların formalaşmasında da əvəzsiz rol oynamışdır. Kökünü əsasən klassik dastanlardan alan müasir dastanlar folklora xas olan şifahi yolla yaranma ənənəsini əsrin əvvəllərində də mühafizə etmiş, yeni yaranan dastanlar özünə yaşadığımız zəmanədə də sazın-sözün müşayiəti ilə maraq doğurmuşdur. Əsasını yazılı mənbələrdən alan real tarixi hadisələrlə səsləşən və müasir həyatın tərənnümünə həsr olunan yeni dastanlar

məlum müəlliflər tərəfindən yaradılmışdır: «Dədə Qorqud» ənənələrindən bəhrələnən bütün aşıq mühitlərində o cümlədən «Göyçə aşıq mühiti»ndə də mükəmməl aşıq dastanları meydana gəlmişdir. Aşıq Ələsgərin «Aşıq Ələsgərlə Dəli Alı» aşıq Əsədin «Nizami», Aşıq Bəhmənin «Əfqan və Tufan», «Bəhmən və Humay», şair Kazımın «Şair Kazım və Nazlı xanım» dastanlarını və s. göstərmək olar.

«Dədə Qorqud» ənənələrindən bəhrələnən sənətkarlarımız öz yaradıcılıqlarında həmişə Dədə Qorqud adını müqəddəslik rəmzi kimi çəkmişdilər.

«Dədə Qorqud» və digər qəhrəmanlıq dastanlarımızda diqqəti cəlb edən insan və təbiət, yad ölkələrə səfər, qardaş məhəbbəti, qardaş sədaqəti, oğulun ata-ana uğrunda fədakarlığı, oğul və ana həyəcanı, digər bu kimi psixoloji-dramatik hallar bizim hər birimizdə onların qəhrəmanlarının fəaliyyət dairəsi, mənəvi aləmi barədə bütöv bir dünyagörüşü yaradır.

Bu göstərilən cəhətlər Dədə Qorqud ənənələrini özündə yaşadan klassik və müasir dastanlarımız üçün də səciyyəvidir.

Təqdirəlayiq haldır ki, «Kitabi–Dədə Qorqud»un 1300 illiyinin keçirilməsi barədə Azərbaycan Respublikası prezidenti Heydər Əliyev cənablarının müvafiq sərəncamına uyğun olaraq respublikada keçirilən çoxsaylı tədbirlər hazırki şəraitdə gənclərimizin Vətənə, torpağa, xalqa bağlılığını «Dədə–Qorqud» boylarında təsvir edilən qəhrəmanlıq motivləri baxımından qiymətləndirməyə zərurət yaradır. Bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsində hər kəsin vətəndaşlıq payı olmalıdır.

«Kitabi–Dədə Qorqud» dastanı nəsillərə mənəvi töhfədir, onu oxuyub mənasını dərk edən Vətən övladlarına obanın obaya, tayfanın tayfaya, qohumun qohuma, elin elə, nəslin nəslə sığınaraq oğuz elinin, oğuz cəmiyyətinin, oğuz dövlətinin birliyini necə qorumalarını, ülvi duyğularını, müqəddəs hisslərini təlqin etmək son dərəcə gərəklidir, zəruridir. Odur ki, hər bir tədbirin leytmotivini indiki şəraitdə Vətən torpaqlarının işğalçı ermənilərdən azad edilməsinə bir yumruq kimi birləşməyə, düşmən qarşısında əzilməyən əcdadlarımızın – babalarımızın yenilməz igidlikləri timsalında şücaət göstərməyə ruhlandırmağın rəhni olmalıdır.

«Kitabi – Dədə Qorqud» milli mədəniyyətimizin iftixarı olmaqla bərabər, qədim türk bədii təfəkküründün ən qiymətli incilərindəndir. «Kitabi – Dədə Qorqud» elmi –tarixi, ədəbi-estetik düşüncələr üçün tükənməz qida mənbəyidir.

«Dədə Qorqud kitabı» Dədələrimizdən qalan ərmağandı, yer üzündə təkəm-seyrək tapılan dastanlardan biridi.

«Avesta», «Bilqamıs», «Mahab-harata», «Manas» kimi «Kitabi Dədə Qorqud» da belə bir siqlətli ideyaya xidmət edir ki, bu dərin cahanşümul abidə ancaq yüksək dərəcədə inkişaf etmiş, cilalanmış və tarixi təcrübə qazanmış bədii təfəkkür zəminində yarana bilərdi.

Bu kitibada babalarımızın sınaqdan çıxmış ömrü, günü var. Bu kitab kişi diriliyinin düzgün yollarını göstərir, ata-oğul münasibətlərinə, qarşılıqlı anlaşmaya arxalanır.

Bütün dövrlərdə, o cümlədən Dədə Qorqud zamanında «oğul atanın bir sözünü iki eləməzdi», əgər «oğul atanın bir sözünü iki eləyərdisə», onda oğulu oğul hesab etməzdilər.

Oğuz anlayışına görə:

«Oğul atanın yetiridi
İki gözünün biridi»

«Dədə Qorqud kitabı»nda göstərildiyi kimi, oğuz tayfaları yığcam yaşayırdılar. Bu onların üstün cəhətlərindən idi. Birlik oğuz elinin dirilik özülü idi.

Prof. Pənah Xəlilov yazdığı kimi, Dədə Qorqud kitabında «haradansan?» sualı var idi ki, onun da bircə cavabı var idi: «Oğuzdan. Oğuz elindən». Oğuz başçılarının igidlikləri, oğuzların hünər himni olub, qılıncdan kəsərli idi.

Oğuzların diqqəti cəlb edən bir mənəvi keyfiyyətləri də onların istər böyük olsun, istər kiçik, istər kişi, istərsə də qadın, onların hər biri ağır sınaqlarda mərdlik nümunəsi göstərirdi. Oğul atasının namusu uğrunda diri-diri çarmıxa çəkilmək, qovurmalıq ət üçün tikə-tikə doğranmaqdan çəkinmir. Qadın ərinin namusu yolunda hətta doğma oğlunun ətindən qovurma yeməyə belə dözür. Sərkərdələr düşmən zirzəmisində əzablara qatlaşır, lakin əyilmir, alçalmır. Bu igidlik, bu yenilməzlik, bu dözüm oğuz övladlarının nəsildən-nəslə keçən mühüm mənəvi-əxlaqi keyfiyyəti olub, onların

müzəffər rəmzi, dalğalanan bayrağı kimi insanları şərəfli yaşayış uğrunda mübarizəyə aparırdı.

Kitabda tərənnüm edilən başqa bir keyfiyyət isə oğuz qəbilələrinin birliyidir. Bu və ya digər qəbilənin, tayfanın mənliyi, xoşbəxtliyi o birinin sevinci olduğu kimi, qəmi-kədəri də hamınınkıdır. Birinin toyu olanda başqaları ona darılmır. Toy da yas da ellikdi, hamılıqla.

Kitabın bu ruhu oğuz nəsilləri üçün örnək olduğu kimi, bu gün bizim üçün də bir hikmətdi, gözümüzü açan misilsiz bir ədəbi abidədir.

Kitabda ibrətamiz sözlər, fikirlər çoxdur. Məsələn, göstərilir ki, bir təcrübəli sərkərdə yeniyetmə oğlunu başkəsən yağı qarşısına çıxmağa qıymır.

Oğul isə əksinə, bundan qorxmur və elə bir tənbehlə cavab verərək deyir:

«Ətrafdakı erkək quzular qurbanlıq üçün deyilmi?» Və yaxud:

Oğlunun öldürüləcəyini eşidən ana ağlayır, sızlayır. Oğlu isə əksinə anasına təsəlli verərək deyir: «Ana sən sağ ol, babam sağ olsun, Sizə məndən daha yaxşı oğul verər. Sən isə, ana, ağ südünü mənə halal eylə!»

Qorqud dədə Vətəni hər şeydən üstün tutur. Vətəni həmişə şad görmək istəyir və Vətəni belə alqışlayır:

«Uca dağların yıxılmasın! Kölgə salan iri ağacların kəsilməsin! Şır-şır axan bulaqların suyu qurumasın! Qanadların ucları qırılmasın! Vuruşlarda polad qılıncının ağzı kütləşməsin! Qadir tanrı səni namərdə möhtac eyləməsin!» və s.

Qorqud Dədənin bu alqışları əsrlər boyu ata-babalarımızın, ağbirçək aqsaqqalarımızın dilinin əzbəri olmuş və gənclərin Vətən sevgisinin himninə çevrilmişdir.

Dastanın adı ilə bağlı fikirlər belə şərh olunur. Qorqud şəxs adıdır. Dədə isə ağsaqqal, qəbilə başçısı, atalar atası müdrik, nüfuzlu, hökmü olan şəxs mənasındadır.

Kiçik Asiya oğuzlarının dədəsi həmişə el içində olarmış, ölkəni dolaşarmış, düşdüyü ev ocaq, tutiyə kimi müqəddəs tutularmış, başına adamlar yığılarmış, dədə obadan xəbər tutarmış, günahkarı cəzalandırarmış, faydalı işlərə xeyir-dua verərək, alqışlayarmış. Dastandakı Qorqud həmin tipli dədələrdəndir.

Dədə məfhumu zəmanəmizdə də işlədilmişdir. Məsələn, Aşıq Qurbaniyə – Dədə Qurbani. Aşıq Ələsgərə – Dədə Ələsgər, Aşıq Şəmşirə – Dədə Şəmşir deyilməsi, onların dünyagörmüş ustad, böyük olmalarına işarədir.

Azərbaycan xalq ədəbiyyatının və pedaqoji fikrinin ölməz abidəsi olan «Kitabi–Dədə Qorqud» eyni zamanda kollektiv ölməz yaradıcılıq dühasının məhsuludur. Daha çox məhz VII–VIII əsrlərin hadisələri ilə səsləşən bu dastan xalqımızın təkcə tarixi, həmçinin ədəbiyyat tarixi deyil, həm də tərbiyə məsələləri üzrə fikir və ideyalarını öyrənmək baxımından çox qiymətli bir mənbədir.

Dədə Qorqud boylarına dərindən nəzər saldıqda məlum olur ki, uzaq keçmişdə də azərbaycanlılar uşağı ailə həyatının bəzəyi, nəslin davamçısı ata-ananın sevinci və ümidi hesab etmiş, sonsuzluğu böyük dərd və faciə saymışlar.

«Kitabi–Dədə Qorqud»da oğlanla qız, qadınla kişi arasında və onların tərbiyəsi məsələsində ciddi fərq qoyulmur; qadın-ana müqəddəs sayılır. «Ana haqqı tanrı haqqı»na bərabər tutulur. Patriarxal düşüncənin əlehinə olaraq buradakı qadınların əksəriyyəti (məsələn, Burla xatun, Banu Çiçək, Selçan xatun və b.) uşaqlıqdan aldıqları tərbiyənin, alışdıqları ki, lazım gələndə ailə namusu, nəslin şərəfi və ədalət uğrunda kişi kimi silaha sarılır və son dərəcə dözümlü, qoçaq, qüvvətli, mərd, eyni zamanda ağıllı, tədbirli, müdrik, alicənab qəhrəman kimi çıxış edirlər. Dastandakı hadisələrin gedişi, Dədə Qorqudun özünün qəbilə həyatındakı rolu, işi fəaliyyəti insanı – xalq müdrikliyində ifadə olunmuş belə yenilməz bir qənaətə gətirir ki, «Başbiləsiz iş alınmaz». «Ağıllı baş hər şeydən mənfəət ala bilər».

Dədə Qorquda olan ümumxalq məhəbbəti və ehtiramı əslində ağıla, zəkaya, müdrikliyə olan ehtiram və məhəbbətdir. Məsələn, Dədə Qorqud öyrədir ki, «Qafil başın ağrısın beyin bilər», «Baba malından nə fayda, başda dövlət (yəni, ağıl – H.Ə.) olmasa», «Oğul ataya müxalifət etməz», «Oğul ata sözünü iki etməz», «Qadın evin dirəyidir», «Qarı düşmən dost olmaz», «Qonağı gəlməyən qara evlər yıxılsa yey», «Yalan söz bu dünyada olunca olmasa yey və i.a. Göründüyü kimi haqqında böyükhəcmli pedaqoji əsərlər və traktatlar yazılan (yaxud yazılmalı) bir sıra tərbiyə məsələləri bu aforistik kəlamlarda çox qısa, lakin sərrast şəkildə ümumiləşdirilmişdir.

Tərbiyə işində valideyn nümunəsinin əhəmiyyəti barəsində də dastanda yaxşı fikirlər çoxdur. Məsələn, Dədə Qorqud deyir: «oğul atadan görməyincə süfrə yaymaz», «Qız anadan görməyincə öyüd almaz». Bu atalar sözləri həm də oğlanın tərbiyəsində atanın, qızın tərbiyəsində ananın daha böyük rol oynaması fikrini özündə cəmləşdirir.

Dastanın ayrı-ayrı boylarının pedaqoji təhlilindən belə bir doğru qənaət hasil olur ki, insanın zahiri və daxili qəşəngliyi vəhdət təşkil etməlidir. «Camal sahibi kamal sahibi də olmalıdır». Dastandakı müsbət surətlərin çoxu məhz bu cür adamlardır.

Ümumən Dədə Qorqud boylarında sistemsiz, dağınıq və səpələnmiş şəkildə, həm də çox vaxt dolayı, eyham və işarələrlə verilmiş fikir və ideyaları toplayıb sistemləşdirəndə məlum olur ki, xalq «Sayı çox, sambalı yox», «Üzü bəzək içi təzək» gözəlliyin əleyhinədir. Yəni o məna gözəlliyini ilkin yerdə qoyur. Belə gözəlliyi təmin edən keyfiyyətlər sırasında isə insanpərvərlik, vətənpərvərlik, əməksevərlik, sədaqətlik, doğruçuluq, təvazökarlıq, ədəbli və kamallı olmaq, birliyi, dinc həyatı və ədalətli quruluşu qorumaq, xalqa qaynayıb-qarışmaq, rəzilliyə, təkəbbürlülüyə, satqınlığa və digər növ eybəcərlik hallarına, qarşı barışmaz mübarizə aparmaq kimi sifətlər dastanda tez-tez vəsf olunur. Bütün bunlar zəhmətkeş xalqın pedaqoji fikir tarixində «Kitabi-Dədə Qorqud»un parlaq bir səhifə təşkil etdiyini və dastandakı tərbiyə ideyalarının böyük əhəmiyyətə malik olduğunu açıq-aydın sübut edir. Bu ideyalar və motivlər «Dədə Qorqud»un özündən sonra yaranmış dastanlarımıza («Koroğlu»), «Şah İsmayıl», «Aşıq Qərib», «Əsli və Kərəm», «Tahir və Zöhrə», «Qurbani», Aşıq Valeh» və s. eləcə də Nizami Gəncəvidən tutmuş Səməd Vurğuna kimi bir sıra görkəmli adamlara bu və ya digər dərəcədə bədii və pedaqoji qida vermişdir.

«Kitabi–Dədə Qorqud»1300,
Bakı – «Maarif» – 2000, s.7–13.

Pedaqogika tarixi diqqət mərkəzində

(SSRİ pedaqoji tarixçilərinin ümumittifaq müşavirəsindən qeydlər)

Gənc nəslin kommunist təhsili və tərbiyəsi ilə əlaqədar pedaqoji elmlərin, ilk növbədə pedaqogikanın nəzəriyyəsi və tarixinin üzərinə böyük vəzifələr düşür.

Bu günlərdə Vladimir-Suzdalda keçirilən pedaqoji tarixçilərin Ümumittifaq müşavirəsi də məhz bu məqsədlə çağırılmışdır. SSRİ Maarif Nazirliyi, P.İ.Lebedev-Polyanski adına Vladimir Dövlət Pedaqoji İnstitutu tərəfindən çağırılmış bu müşavirədə Sov.İKP Vladimir Vilayət Komitəsinin məs'ul işçiləri, göstərilən nazirliklərin nümayəndələri, SSRİ PEA-nın müvafiq elmi-tədqiqat institutlarının, RSFSR-in və müttəfiq respublikaların elmi tədqiqat və pedaqoji institutlarında çalışan mütəxəssislər, mətbuat işçiləri və başqaları iştirak edirdilər. Müşavirədə respublikamızı H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun dosenti S. Zeynalov, M.F.Axundov adına Rus dili və Ədəbiyyatı Pedaqoji İnstitutunun dosenti E.Zeynalov, SSRİ-nin 50 illiyi adına AXDPİ-nin dosenti N.Şahmuradova və bu sətirlərin müəllifi təmsil edirdi. Geniş və əhatəli proqrama malik olan bu Ümumittifaq müşavirəsi ölkənin pedaqoji institutlarında pedaqogika tarixi kursunun tədrisini təkmilləşdirmək və tarixi-pedaqoji tədqiqatların təşkili problemlərinə həsr edilmişdi.

Ümumittifaq müşavirəsi Sov.İKP Vladimir Vilayət Komitəsi elm və tədris müəssisələri şö'bəsinin müdiri N.A.Korolyova yoldaşın giriş sözü ilə başlandı. Mə'ruzəçi bu qədim rus diyarının zəngin keçmişi, iqtisadiyyatı və mədəniyyəti, onun bu günü və sabahı haqda ətraflı və maraqlı mə'lumatla çıxış etdi.

Ümumittifaq müşavirəsində dinlənilən mə'ruzə və çıxışları öz məzmunu və mahiyyətinə görə əsasən aşağıdakı problemlərə bölmək olar:

1. Müasir dövrdə yüksək ixtisaslı müəllim kadrları hazırlığında psixoloji-pedaqoji elmlərin artmaqda olan mövqeyi.

2. Müstəqil bir fənn kimi pedaqogika tarixi kursunun tədrisini yaxşılaşdırmaq yolları.

3. Bir elm kimi pedaqogika tarixi üzrə tədqiqat işlərinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri.

SSRİ Maarif Nazirliyinin tədris müəssisələri idarəsinin rəisi V.K.Rozov yoldaşın mə'ruzəsi çox mühüm bir məsələyə – *müəllimin psixoloji-pedaqoji peşə hazırlığının təkmilləşdirilməsi probleminə* həsr edildi. Mə'ruzəçi ölkəmizdə orta ümumtəhsil məktəbinin bu günündən və sabahkı gələcəyindən, təhsilin məzmunu və tə'limi üsullarının təkmilləşdirilməsi zərurətindən, məktəblilərin əmək tərbiyəsindən, ictimai-faydalı əməyə hazırlanmasından və peşəyə istiqamətləndirilməsindən, ideya-siyasi tərbiyə işlərini təkmilləşdirmək yollarından ətraflı bəhs etdi. İnkişaf etmiş sosializm cəmiyyətində məktəb təhsili sistemi daim təkmilləşir, tədris planı, proqram, dərsliklər və tədris vəsaitləri optimallaşdırılır, tə'limdə yeni və tə'sirli metodlar irəli sürülür. V.K.Rozov yoldaş bu vacib məsələlərin həllində psixoloji-pedaqoji elmlərin artmaqda olan rolunu qeyd etdi.

Mə'ruzəçi son zamanlar attestatlarda orta balın xeyli yüksəlməsi, attestatdakı orta bal qiymətinin ali məktəblərdə qəbul zamanı nəzərə alınması məsələsində nəzərə çarpan həm müsbət, həm də mənfi halları qeyd etdi. Bununla əlaqədar olaraq müasir dövrdə müəllimin rolu, onun pedaqoji və metodik hazırlığı, ali pedaqoji institutlarda pedaqoji kadr hazırlığında nəzərə çarpan qüsurlar və bunların aradan qaldırılması yolları, pedaqoji institutların tədris planlarında edilən bə'zi dəyişikliklər və bu dəyişikliyin müəllim kadrları hazırlığına xidmət etməsi, müəllim şəxsiyyətinin formalaşması məsələlərindən, pedaqoji institutlara qəbul qaydalarından ətraflı söhbət getdi. Mə'ruzəçi pedaqoji institutlara qəbul qaydasında elektrik maşınlarından istifadə etməyin heç də həmişə əlverişli olmadığını qeyd etməklə, ali məktəbə tələbənin orta məktəbin zəmanəti ilə qəbul olunması qaydasına üstünlük verməyi göstərdi.

Mə'ruzəçi pedaqoji institutlarda psixoloji-pedaqoji elmlər üzrə tətbiq edilən xüsusi kurslara son vaxtlar diqqətin artırılması, bu kurslar vasitəsilə tələbələrdə pedaqoji peşəyə maraq yaratmaq üstündə ayrıca dayandı və belə bir maraqlı fakt göstərdi ki, pedaqoji institutlardan birində son kurs tələbələrinə «institutu bitirdikdən sonra müəllim olmaq istəyirsənmi?» sualına 100 tələbədən yalnız 14-

ü «bəli» cavabı, 42 nəfər «yox» cavabı vermiş, qalanları isə sualı cavabsız qoymuşlar. Bu mühüm sosioloji problem bu gün ali məktəb rəhbərlərini və mütəxəssisləri ciddi düşündürməlidir!

Bu mühüm sosial problemin həllində sovet pedaqogika elminin, ali məktəb pedaqogikasının son nailiyyətlərinə istinad edilməlidir.

Pedaqogika tarixi müstəqil tədris fənnidir. Bu mövzuda mə'ruzə ilə SSRİ Maarif Nazirliyi nəzdində pedaqoji elmlər üzrə elmi-metodik şuranın sədri, SSRİ PEA-nın həqiqi üzvü, V.İ.Lenin adına Moskva Dövlət Pedaqoji İnstitutu ümumi pedaqogika kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor A.İ.Piskunov çıxış etdi.

Mə'ruzəçi pedaqoji institutların tədris planlarında bu fənnin yerinə aid aparılan diskussiyalara öz münasibətini bildirdi və göstərdi ki, elmin tarixini bilmək üçün əvvəlcə onun nəzəriyyəsinə yiyələnmək lazımdır.

Bununla bərabər pedaqogika tarixi kursunun tədrisini təkmilləşdirməyə aid axtarışlar indi də davam edir. Belə ki, bu kursun tədrisində sxematizm, nəzəriyyə ilə təcrübənin vəhdətdə olmaması özünü göstərir. Bə'zi material fraqmentlər şəklində şərh olunur, ideyaların varisliyi, inkişaf tendensiyası heç də həmişə kifayət qədər şərh olunmur, pedaqoji nəzəriyyələrdəki konsepsiyalar açılmır, tarixilik və müasirlik məsələləri bə'zən kölgədə qalır, mühazirənin problem xarakterinə az fikir verilir və s.

Mə'ruzəçi pedaqogika tarixi fənninin quruluşunun və tədrisinin təkmilləşdirilməsinə aid də maraqlı fikirlər söylədi.

Buradaca qeyd etmək yerinə düşərdi ki, həqiqətən də pedaqogika tarixi fənninin mövcud məzmunu (həm də quruluşu) bizi, müttəfiq respublikaların pedaqoji ictimaiyyətini heç də tə'min etmir, yerlərdə yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasında istənilən səmərəni vermir. Bu hər şeydən əvvəl onunla izah olunur ki, bu kursun proqramında və dərslikdə başlıca yeri, mə'lum olduğu kimi, xarici ölkələrin, inqilaba qədərki Rusiyanın məktəb və pedaqoji fikir tarixi tutur, sovet məktəbi və pedaqogikası təşkil edir. Pedaqogika tarixi kursu üzrə rus dilində nəşr edilmiş müntəxəbatlarda isə ümumiyyətlə SSRİ xalqlarının pedaqoji irsinə aid heç bir material yoxdur. SSRİ xalqlarının zəngin məktəb və pedaqoji fikir tarixinə

dair dərslikdə verilən bir-iki material epizodik xarakter daşıyır. Məsələn, istər proqram, istərsə də dərsliyə gürcü pedaqoji fikir nümayəndələrindən yalnız Y.Qoqebaşvilinin, Azərbaycandan yalnız M.F.Axundov ilə R.Əfəndiyevin, Ermənistandan isə təkcə Q.Ağayanın daxil edilməsi yerlərdə xalqın məktəb və pedaqoji fikir tarixi haqqında ətraflı bəhs etməyə imkan vermir.

Özünü müəllimlik peşəsinə hazırlayan gənclər, məsələn, qədim Spartadan, Afinadan, Romadan tutmuş Avropa ölkələrində və inqilaba qədərki Rusiyada pedaqogika tarixinə aid sistemli bilik aldığı halda, öz doğma xalqının məktəb və pedaqoji fikir tarixindən demək olar ki, faydalanmırlar. Halbuki, tələbənin mənsub olduğu xalqın pedaqoji irsi onun pedaqoji peşəyə hazırlanmasında çox mühüm və əvəzedilməz amildir. Məhz buna görə də mə'ruzə və çıxışlarda, o cümlədən bu sətirlərin müəllifinin çıxışında bu qüsur ciddi tənqid edildi və gələcəkdə pedaqogika tarixi kursunu SSRİ xalqlarının pedaqoji irsi hesabına daha da zənginləşdirmək təklif edildi.

SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinin tədrisi problemi müşavirədə xeyli və əsaslı müzakirə obyektinə çevrildi və müttəfiq respublikalarda bu sahədə əldə edilən müsbət təcrübələrdən bəhs edildi.

"SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi üzrə xüsusi kurs və xüsusi seminarlar və gələcək müəllimlərin peşə hazırlığında bunların rolu" mövzusunda ayrıca mə'ruzə ilə çıxış edən A.M.Qorki adına Kiyev Pedaqoji İnstitutunun tədris işləri üzrə prorektoru, pedaqogika kafedrasının müdiri V.Z.Smal Ukrayna pedaqoji institutlarının iş təcrübəsindən danışdı. Onlar 1982-ci ildən e'tibarən Kiyev rusundan başlayaraq bu günə qədər Ukrayna xalqının məktəb və pedaqoji fikir tarixini ayrıca proqramla xüsusi kurs şəklində tədris edirlər. Bu məsələdə bizim təcrübəmiz daha diqqətəlayiqdir. Hələ 1977-ci ildə V.İ.Lenin adına APİ-nin ümumi pedaqogika kafedrası tərəfindən hazırlanan, respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təsdiq edilərək Azərbaycan və rus dillərində çap olunmuş "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" kursu üzrə aparılan xüsusi kurs və xüsusi seminar müşavirə iştirakçılarının diqqət mərkəzində oldu. İstər V.K.Rozov, istərsə də A.İ.Piskunov yoldaşlar bizim bu sahədəki müsbət təcrübəmizi yüksək qiymətləndirirdilər.

SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixindən əlavə ümumi pedaqogika tarixi kursu üzrə də xüsusi kurs və xüsusi seminarlar aparmaq məsələlərinə ayrıca mə'ruzələr həsr edildi. Lipetsk Pedaqoji İnstitutu pedaqogika kafedrasının müdiri, professor N.N.Kuzminin «Pedaqogika tarixi kursu üzrə xüsusi kurs və xüsusi seminarlar tələbələrin peşə istiqamətini gücləndirən bir vasitə kimi» adlı mə'ruzəsi məhz bu qəbildən idi.

Vladimir Pedaqoji İnstitutunun dosentlərindən F.A.Fradkinin «Sovet məktəbi və pedaqogika tarixi materialları üzrə gələcək müəllimlərin vətənpərvərlik tərbiyəsi». A.V.Plexanovun «Pedaqogika tarixi üzrə seminar məşğələləri aparmağın məzmunu və metodikası» adlı mə'ruzələrində maraqlı fikirlər var idi.

Ümumittifaq müşavirəsində pedaqogika tarixi kursunun təkmilləşdirilməsinin bir sıra optimal yolları geniş müzakirə obyekti oldu. V.İ.Lenin adına MDPİ-nin professoru V.A.Klarin «Pedaqoji institut tələbələrinin pedaqogika tarixi sahəsində tədris-tədqiqat və elmi-tədqiqat işlərinin təşkili», həmin institutun dosenti A.K.Qromtseva «Pedaqogika tarixi və müasirlik» mövzularında maraqlı mə'ruzələrlə çıxış etdilər.

Dinləyicilərin marağına səbəb olan mə'ruzələrdən biri ölkənin pedaqoji tarixçilərinin qocaman nəslinə mənsub olan professor M.F.Şabayevanın çıxışı idi. Sovet müəllimlərinin bütöv bir nəslinin dərs aldığı «Pedaqogika tarixi» kitabının əsas müəlliflərindən biri olan Mariya Fyodorovna «Pedaqogika tarixi kursunda Lenin mövzusu» problemindən söhbət açdı.

V.İ.Leninin ölməz irsi həmişə olduğu kimi, bu gün də aktualdır. Lenin mövzusu təkcə SSRİ-də deyil, həm də sosialist ölkələrinin pedaqogika tarixində də yeni mərhələdir.

Mə'ruzəçi bu mövzunun tədrisi ilə əlaqədar olan bir sıra mühüm metodoloji xarakter daşıyan məsələlər barəsində ətraflı danışdı. Pedaqogika tarixi kursunda bu mövzunun tədrisinə ayrıca əhəmiyyət verməyi xüsusi qeyd etdi. «Lenin və pedaqogika» mövzusunu tədqiq edən unudulmaz sovet pedaqoqlarından F.F.Korolyov ilə N.K.Qonçarovun xidmətləri ayrıca qeyd edildi.

«Azərbaycan müəllimi»
qəzeti 20 may 1983.

Pedaqogika tarixinin tədrisini və tədqiqini təkmilləşdirməli

Əvvəlcədən xəbər verildiyi kimi, V.İ. Lenin adına APİ-də «Pedaqoji institutlarda və S.M. Kirov adına Azərbaycan Dövlət Universitetində pedaqogika tarixi kursunun tədrisini təkmilləşdirmək və respublikada pedaqogika tarixi üzrə tədqiqatların təşkili» probleminə həsr edilmiş konfrans keçiriləcəkdir, Konfransda 100 nəfərdən artıq mütəxəssis, o cümlədən Moskva, S. Peterburq və ölkənin digər pedaqoji institut və universitetlərinin görkəmli alimləri, pedaqogika tarixinin tədqiqatçıları iştirak edəcəklər.

Moskva, S. Peterburq, Kiyev, Riqa, Minsk, Kişinyov, Xabarovsk, Alma-Ata, Düşənbə, Odessa, Pyatiqorsk, Səmərqənd, Tbilisi, Yerevan, Çelyabinsk, Kazan, Ufa, Mahaçkala, Nalçik və digər şəhərlərin ali məktəblərinin, həmçinin respublikamızın Kirovabad, Naxçıvan və Stepanakert pedaqoji institutlarının nümayəndələri bu konfransda çıxış edəcəklər.

Konfransda problemin iki mühüm cəhəti: bir tərəfdən yetkin sosializm cəmiyyəti şəraitində yüksək ixtisaslı müəllim kadrları hazırlığında müstəsna rol oynayan və pedaqoji-psixoloji elmlər sistemində mühüm yer tutan pedaqogika tarixi kursunun bir fənn kimi tədrisini daha da yaxşılaşdırmaq, digər tərəfdən isə respublikada məktəb və pedaqoji fikir tarixinin tədqiqinə diqqəti artırmaq müzakirənin əsas obyekti olacaqdır.

Sov. İKP XXVI qurultayının tələbləri, Sov. İKP MK-nın iyun (1983-cü il) və fevral(1984-cü il) plenumlarının qərarları, nəhayət, ümumtəhsil və peşə məktəbi haqqında yeni Qanun sovet məktəbi qarşısında çox mühüm, tarixi vəzifələr qoymuşdur. Bu vəzifələrin həlli, hər şeydən əvvəl, ümumtəhsil və peşə məktəblərində çalışan və əsrimizin sonu, XXI əsrin əvvəllərində çalışacaq möhkəm əqidəli elmi-pedaqoji biliklərlə silahlanmış müəllimlər ordusundan çox asılıdır.

Müəllim kadrlarının hazırlığında xüsusi rolu olan pedaqogika tarixi bir tərəfdən müəllimlik peşəsinə hazırlaşan bugünkü tələbəni keçmişin zəngin pedaqoji irsi, ən'ənəsi, müxtəlif dövrlərdə məktəb təhsilinin inkişaf yolları ilə, mütərəqqi pedaqoqların və xalq maarifi bahadırlarının tə'lim-tərbiyə ilə bağlı indi də öz təravətinin saxlayan

zəngin fikirləri ilə tanış edir, digər tərəfdən isə tələbənin pedaqoji bilik dairəsini genişləndirir, onların pedaqoji dünyagörüşünün formalaşmasına və pedaqoji peşəyə dərindən yiyələnməsinə kömək göstərir.

Respublikanın ali pedaqoji institutlarında pedaqogika tarixi kursunun tədrisi sahəsində xeyli müsbət təcrübə əldə edilmişdir. Hər şeydən əvvəl qeyd etməliyik ki, bu gün pedaqoji institutlarda pedaqoji tarixçilərin bütöv bir dəstəsi fəaliyyət göstərir. Onlar bu fənni müvəffəqiyyətlə tədris etməklə yanaşı, həm də dəyərli elmi-tədqiqat işi aparır, tədris-metodik vəsait hazırlığında yaxından iştirak edirlər. Təkcə V.İ. Lenin adına APİ-də fəaliyyət göstərən pedaqoji tarixçilər tərəfindən ilk dəfə olaraq 50-ci illərdə ana dilində üç cilddən ibarət «Pedaqogika tarixi» adlı tədris vəsaiti nəşr edilmişdir, 60-ci illərdə professor Ə. Seyidov tərəfindən dərsliyin yeni nəşri çap edilmişdir. Həmin dərslik 20 ildən artıqdır ki, respublikada pedaqoji institut tələbələri üçün yeganə vəsait olaraq qalır.

İnstitutun pedaqogika kafedraları tərəfindən son illərdə pedaqogika tarixi kursunun tədrisini yaxşılaşdırmaq sahəsində bir sıra nəzərə çarpacaq işlər görülmüş, proqramın bütün materialını əhatə edən əyani vəsait (mühazirə və seminar məşğələlərinə aid), sxemlər, metodik göstərişlər və işçi proqramından ibarət tədris-metodik vəsait kompleksi hazırlanmış və çap edilmişdir. Bu gün tələbələr pedaqogika tarixinin aktual mövzuları və problemləri üzrə kurs, yoxlama və diplom işləri yazır, tələbə elmi cəmiyyətinin konfranslarında mə'ruzələrlə çıxış edir, referatlar hazırlayırlar.

Son illər bu sahədə diqqəti daha çox cəlb edən məsələlərdən biri də «Azərbaycan məktəb və pedaqoji fikir tarixi»ndən xüsusi kurs və seminarların aparılmasıdır.

Mə'lum olduğu kimi pedaqogika tarixi kursunun proqramı əsasən Avropa ölkələrində, inqilaba qədərki Rusiyada və SSRİ-də xalq maarifi və məktəbin tərbiyə, təhsil və pedaqoji ideyaların meydana gəlməsi və inkişafı tarixinin əsas mərhələlərini əhatə edir. Milli respublikaların məktəb və pedaqoji fikir tarixinə aid verilən material isə epizodik xarakter daşıyır. Məsələn, proqramda Azərbaycan pedaqoqlarından yalnız ikisinin: M.F. Axundov ilə R. Əfəndiyevin adları çəkilir. Bu isə şübhəsiz ki, xalqımızın qədim və zəngin məktəb və pedaqoji fikir tarixi haqqında ətraflı mə'lumata

imkan vermir. Azərbaycan məktəbləri üçün hazırlanan müəllim kadrlarının öz xalqının dili, ədəbiyyatı və tarixi kimi, məktəb və pedaqoji fikir tarixini də bilməsi və özünün praktik fəaliyyətində bunlardan bəhrələnməsi çox zəruri və faydalıdır.

Bunları nəzərə alaraq institutumuzun pedaqoji tarixçiləri, müttəfiq respublikalar arasında birinci olaraq, Azərbaycan məktəb və pedaqoji fikir tarixinin sistemli kursunun proqramını işləyib hazırlamış və onu 1977-ci ildə Azərbaycan, 1978-ci ildə isə rus dillərində nəşr etdirmişlər.

Artıq on ilə yaxındır ki, həmin kurs üzrə xüsusi kurs və seminar müvəffəqiyyətlə tətbiq edilir.

Sevindirici haldır ki, institutumuzun bu təcrübəsi respublikamızın hüdudlarından kənara çıxmış və 1981-ci ildə Vətənimizin paytaxtı Moskvada SSRİ Maarif Nazirliyinin pedaqoji elmlər üzrə elmi-metodik şurasında müzakirə edilərək bəyənilmiş və onun yayılması qərara alınmışdır.

Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi V.İ. Lenin adına APİ-nin qabaqcıl iş təcrübəsindən istifadə etməyə dair xüsusi sərəncam vermişdir.

İnstitutun pedaqogika kafedraları pedaqoji tarixçilərin respublika konfransı ərəfəsində «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» adlı xüsusi kursun proqramını yenidən işləyərək Azərbaycan və rus dillərində çap etdirmişlər. Ümumi pedaqogika kafedrasının üzvləri respublikanın digər pedaqoji institutlarında və ETPEİ-də çalışan mütəxəssislərlə birlikdə «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» adlı tədris vəsaitini də nəşrə hazırlamışlar.

Pedaqogika tarixinin tədrisi sahəsində nailiyyətlərlə yanaşı, öz həllini gözləyən bə'zi problemlər də vardır ki, bu barədə respublika elmi-metodik konfransında fikir mübadiləsi aparılacaqdır.

Həllini gözləyən problemlərdən biri pedaqogika tarixi kursunun quruluşu, məzmunu və tədris planında tutduğu yer ilə əlaqədardır. Qeyd edək ki, bu gün mövcud pedaqogika tarixi kursunun nə proqramı, nə də dərsliyi xüsusilə milli respublikalarda yüksək ixtisaslı müəllim kadrları hazırlığını heç də tam tə'min etmir.

Pedaqogika tarixi ali məktəb fənnidir. Bu fənn orta məktəbdə tədris edilmir. Ona görə də ali məktəbdə tələbə ilk dəfə çoxəhatəli, çoxşaxəli bu fənn vasitəsilə bir sıra ölkələrin, xalqların pedaqoji irsi

ilə rastlaşır və çox mürəkkəb olan bu elm sahəsini mənimsəməkdə ciddi çətinliklə üz-üzə gəlir. Bu kurs III kursda cəmi bir semestr (payız) tədris edilir. Həm də payız semestrində tələbələrin adətən, kənd təsərrüfatı məhsulları toplanışında iştirakı ilə əlaqədar istər mühazirə, istərsə də seminar saatları xeyli ixtisar edilir və beləliklə onsuz da ağır olan kursun tədrisi öz keyfiyyətini xeyli azaldır. Bu səbəbdən də kursun tədrisinin V və VI semestr ərzində aparılmasını təklif edirik.

Pedaqogika tarixi kursunun tədrisinin səmərə və keyfiyyətini yaxşılaşdırmağın başlıca şərtlərindən biri dərslik ilə bağlıdır. Təəssüflə qeyd etməliyik ki, bu gün respublikamızda «Pedaqogika tarixi» kursu üzrə dərslik və tədris vəsaiti çox azdır.

Pedaqogika tarixi kursunun səmərəli tədrisi bu elm sahəsinin hərtərəfli və dərindən tədqiqi ilə bağlıdır. Qeyd edək ki, bütövlükdə ölkəmizdə, o cümlədən respublikamızda Sovet hakimiyyəti illərində xeyli və əsaslı elmi-tədqiqat işləri aparılmış, rus və milli dillərdə sanballı əsərlər çap edilmişdir. İlkin hesablamalara görə Sovet hakimiyyətinin 60 ili ərzində (1918–1977-ci illərdə) təkcə rus dilində pedaqogika tarixinə aid 9500 əsər nəşr olunmuş 800-dən artıq dissertasiya müdafiə edilmişdir.

Azərbaycanda pedaqogika tarixi üzrə yazılmış istər ayrı-ayrı əsərlər, istərsə də dissertasiyalar yalnız və yalnız Oktyabrın nailiyyətlərindən hesab olunur. SSRİ xalqlarının qardaşlıq ailəsində gündən-günə inkişaf edən Sovet Azərbaycanı pedaqogika tarixindən müdafiə edilən dissertasiyaların sayına görə bu gün müttəfiq respublikalar içərisində üçüncü yeri tutur. Respublikamızda pedaqogikanın nəzəriyyəsi və tarixi üzrə müdafiə edilən cəmi 8 doktorluq dissertasiyasından 6-sı məktəb və pedaqoji fikir tarixi probleminə həsr olunmuşdur (Bunlardan 4-ü inqilaba qədərki, ikisi isə sovet dövrünə aiddir). Namizədlik dissertasiyalarından bir qismi pedaqoji irsimizə həsr edilmişdir. Son vaxtlarda SSRİ PEA «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər» adlı çoxcildli əsərlər nəşr etmiş, müntəxəbatlar, lüğətlər, dörd cildli pedaqoji ensiklopediya və s. hazırlanmışdır. Bu sahədə daha böyük əhatəli iş davam etdirilir. Bununla belə, SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinin hərtərəfli tədqiqi, keçmişin zəngin mədəni irsinin öyrənilməsi həyatın tələbindən geri qalır.

Xalqımızın elmi-pedaqoji irsi qədim olmaqla bərabər, həm də zəngindir. Nizami dövründən başlayaraq orta əsrlərin bir çox görkəmli nümayəndəsinin pedaqoji fikirləri çox təəssüf ki, hələ də ciddi tədqiqat obyekti olmamışdır. Hansı səbəbdənsə pedaqogika tarixçiləri çox vaxt mütərəqqi pedaqoji ideyaların mənşəyini Avropada axtarır və bu sahədə yaxşı nə varsa Avropaya aid edir. Şərqə isə göz yumurlar. Elm naminə demək lazımdır ki, tə'lim və tərbiyə sahəsində XIV–XV əsrlərin Qərb humanistləri tərəfindən irəli sürülən ideyaların bir çoxu daha inkişaf etmiş, daha humanist və demokratik istiqamətdə Şərqin XII–XIII əsr görkəmli alimləri tərəfindən irəli sürülmüşdür. Amerika alimlərindən biri son zamanlar XIII əsrin məşhur Azərbaycan alimi Nəsirəddin Tusi haqqında belə yazmışdır: «Əgər Qərb alimləri Tusinin nələr yaratdığından xəbərdar olsaydılar, o zaman öz kəşflərini yeni hesab etməzdilər».

Orta əsrlərin bir çox şair, alim və filosofu tə'lim və tərbiyə haqqında zəngin irs qoyub getmişdir.

Lakin XIX əsrə qədərki dövr, Azərbaycanda marksist-pedaqoji fikrin meydana gəlməsi və inkişafı, Azərbaycanda sovet pedaqoji elmlərinin formalaşması və inkişafı tarixi, neçə-neçə görkəmli pedaqoqun pedaqoji jurnallarının təhsil və tərbiyə problemləri ilə bağlı tarixi-pedaqoji problemlər öz tədqiqini gözləyir.

Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin sistemli şərhinə dair ilkin material toplanmışdır. Vəzifə göstərilən problemlərə nüfuz etməklə yanaşı, Azərbaycan erməni-gürcü və rus pedaqoji əlaqələrini tədqiq edib üzə çıxarmaq Azərbaycan sovet pedaqogika tarixinin məktəbşünaslıq sahəsində addım atmaq, tələbələr üçün müntəxəbat hazırlamaq, biblioqrafik lüğətlər hazırlığı qeydinə qalmaqdır.

Bu məsələlərin həlli isə yeni qüvvələr, həm də Şərq dillərini (ərəb, fars) və ərəb əlifbasını bilən gənc tədqiqatçılar tələb edir.

«Azərbaycan müəllimi»
qəzeti 20 aprel 1984.

Elmi-pedaqoji əlaqələrimiz genişlənir

Sov.İKP-nin XXVI qurultayından keçən dövr respublikamızda, o cümlədən V.İ.Lenin adına APİ-də bütövlükdə pedaqoji elmlərin inkişafı üçün də böyük nailiyyətlər dövrü olmuşdur.

İnstitutumuzun professor-müəllim hey'əti, ilk növbədə pedaqogika və psixologiya kafedralarının bütün əməkdaşları Sov.İKP XXVI qurultayının və Sov.İKP MK-nın son plenumlarının xalq maarifi sahəsində qarşıya qoyduğu əzəmətli vəzifələri layiqincə yerinə yetirmək uğrunda əzmlə çalışmış və bir sıra diqqəti cəlb edən nailiyyətlər əldə etmişlər. Hər şeydən əvvəl pedaqoji elmlər üzrə tələbələrin bilik səviyyəsi əsaslı şəkildə yüksəlmiş, onların pedaqoji peşəyə yiyələnmələri işi yaxşılaşmışdır.

Göstərilən dövrdə sovet məktəbinin həyatında mühüm tarixi əhəmiyyəti olan hadisə baş vermiş – məktəb islahatı haqqında qərar qəbul edilmişdir. İnstitutun bütün pedaqoji və psixoloji kafedralarını əhatə edən elmi-metodoloji seminar məşğələlərində məktəb islahatı ilə bağlı problem məsələlərin müzakirəsi, tələbələr, orta məktəb müəllimləri və valideynlər qarşısında oxunmuş çoxlu məruzə və mühazirələr, söhbətlər, Neftçala rayonundakı Aşağı Surra kənd məktəbində 1984–1985-ci dərs ili ərzində fəaliyyət göstərən valideynlər lektoriyası, kafedra üzvlərinin dərc etdikləri silsilə məqalələr dediklərimizə sübutdur.

Bu sahədə nəzərə çarpan müvəffəqiyyətlərimiz ilə yanaşı, qarşıda duran vəzifələrimiz də böyükdür.

Mə'lumdur ki, məktəb islahatının müvəffəqiyyətlə, əyintilərə yol vermədən həyata keçirilməsi, həm də pedaqoji və psixoloji elmlərin bütövlüklə tədris-tərbiyə müəssisələrinə və ictimai həyata daha dərindən nüfuz etməsindən çox asılıdır. Biz ictimai həyatın, ictimai mühitin pedaqojiləşdirilməsi məsələsini nəzərdə tuturuq. Məktəblilər və tələbələrlə yanaşı, geniş əhali kütləsinə pedaqoji tə'siri artırmaq bu gün çox vacibdir. Əsas istiqamətlərdə deyildiyi kimi "Tərbiyənin səmərəliliyinin yüksəldilməsi ailənin, məktəbin, ictimaiyyətin və əmək kollektivlərinin sə'ylərinin əlaqələndirilməsindən və şagirdlərə onların tələblərinin vəhdətindən çox asılıdır".

Zəmanəmizdə pedaqoji elmlərin sistemi, onun əhatə dairəsi xeyli genişlənmiş, istehsalatın tərbiyəvi gücü artmış, istehsal pedaqogikası, peşə pedaqogikası kimi yeni sahələr yaranmışdır. Bu gün əhalinin kütləvi elmi pedaqoji təhsili həyati əhəmiyyət kəsb edir.

Bir cəhəti də qeyd edim ki, məktəb islahatının irəli sürdüyü çoxşaxəli və çoxsahəli problemlərin müvəffəqiyyətli həlli, gənclərin tə'lim və tərbiyəsinin mürəkkəb vəzifələrinin yerinə yetirilməsi həlledici dərəcədə müəllimdən, onun ideya inamından, professional ustalığından, erudisiyasından və mədəniyyətindən asılıdır.

Bu günün, sabahın və gələcəyin müəlliminin pedaqoji-psixoloji bilik dairəsi çox-çox geniş olmalıdır. Fikrimizcə, bu gün müəllim hazırlığında üç başlıca istiqamətə: 1) müəllimin ictimai-siyasi hazırlığına; 2) elmi-nəzəri hazırlığına; 3) pedaqoji-peşə hazırlığına ayrıca fikir verilməlidir.

Üçüncü istiqamət ilə bağlı onu deyə bilərəm ki, elə bu dərs ilində pedaqoji institutların tədris planlarına tələbələrin pedaqoji peşə hazırlığı ilə bağlı bir sıra yeni fənlər daxil edilib (məsələn, tərbiyə işinin metodikası, orta texniki peşə məktəblərində tərbiyə işinin xüsusiyyətləri,müxtəlif adda, o cümlədən, şagird istehsalat briqadaları, əmək tərbiyəsi və peşəyönümü şagird kollektivinin təşkili və tərbiyəsi, günüuzadılmış qrupla bağlı xüsusi seminarlar). Ən'ənəvi pedaqogika və tarixi pedaqogika kurslarının, həmçinin müəllimlik ixtisasına giriş kursunun tədrisində də xeyli dəyişiklik edilib, tələbələrin arası kəsilməz pedaqoji təcrübəsi, o cümlədən yay pioner təcrübəsi, xeyli gücləndirilibdir. Ümumiyyətlə, pedaqoji institutların 20 il bundan əvvəlki tədris planlarında pedaqoji-psixoloji elmlər üzrə tədris edilən fənlərin sayı 4 idisə, bu gün pedaqoji psixoloji xarakterli fənlərin sayı 25-ə çatdırılıb ki, bu da pedaqoji-psixoloji biliklərin müəllim kadrları hazırlığındakı rolunun artması, onun əsas baza fənninə çevrilməsi deməkdir.

Ümumiyyətlə, pedaqogika elmi məktəb işinin səviyyəsinin və səmərəliliyinin yüksəlməsinə, ümumtəhsil və peşə məktəbinin aktual problemlərinin tətbiqinə, təbliğinə və tədqiqinə doğru dönüş etməlidir

İnstitutumuzun və onun pedaqogika və psixologiya kafedralarının həyatında diqqəti cəlb edən əsas cəhətlərdən biri də ölkənin bir sıra pedaqoji institutları və SSRİ PEA ilə əlaqələrimizin genişlənməsidir.

Respublikamızın baş pedaqoji institutunun aparıcı kafedralarından olan ümumi pedaqogika kafedrası son illərdə yadda qalan və ölkənin pedaqoq alimlərinin nəzər diqqətini cəlb edən bir sıra elmi-praktik konfranslar keçirmişdir. 1984-cü ildə institutumuzda keçirilən elmi-praktik konfrans, tələbələrin pedaqoji təcrübəsinin təkmilləşdirilməsinə həsr edilmiş Moskva–Leninqrad şəhərlərinin və müttəfiq respublikaların nümayəndələrinin də iştirak etdiyi konfranslar, respublika «Bilik» cəmiyyəti ilə birlikdə məktəb islahatı ilə bağlı Zaqatala və Xaçmaz rayonlarında keçirdiyimiz zona-müşavirələri bu qəbildəndir.

Moskvada nəşrə hazırlanan «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər» adlı çoxcildliyin I və II cildlərində iştirakımız da konfranslararası dövrün məhsulu olub, pedaqoji əlaqələrimizin möhkəmliyindən xəbər verir. Bu əlaqələri gələcəkdə daha da zənginləşdirməyə çalışacağıq.

Qurultaylararası dövrdə kafedra üzvlərindən bir neçəsinin Moskva, Vilnüs, Sverdlovsk, Poltava, Rostov-Velikiy, Zveniqorod, Kiyev və b. şəhərlərdə keçirilən Ümumittifaq konfranslarında fəal iştirakı, mə'ruzələrlə çıxış etməsi, SSRİ PEA-nın və ümumittifaq «Bilik» cəmiyyətinin fəxri fərmanlarına və döş nişanlarına layiq görülmələri elmi-pedaqoji əlaqələrimizin genişlənməsini göstərir.

Qurultaylararası dövrdə pedaqoji elmlər sahəsində əldə etdiyimiz nailiyyətlərdən biri də müttəfiq respublikalar içərisində ilk dəfə bizim respublikada «Azərbaycan məktəbi və pedaqoji fikir tarixi» üzrə xüsusi kursun müvəffəqiyyətlə tədris edilməsidir. Bu sahədəki təcrübəmiz SSRİ Maarif Nazirliyinin pedaqoji elmlər üzrə elmi-metodik şurasında müzakirə edilərək bəyənilmişdir. Kafedra hal-hazırda bu sahədə vəsaiti çapa hazırlayır. Kafedra üzvləri həmin kursu tarix, ədəbiyyat, coğrafiya, biologiya fakültələrindən əlavə, həmçinin akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət

Pedaqoji İnstitutunda və A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda da tədris etmişlər.

Ümumiyyətlə, qurultaylararası dövrdə kafedramız öz elmi potensialı ilə fərqlənmişdir. Məhz bunun nəticəsidir ki, 1984–1985-ci dərs ilində kafedramız SSRİ PEA Elmi-tədqiqat Ümumi Pedaqogika İnstitutu tərəfindən hazırlanmış «İnkişaf etmiş sosializmdə məktəb və pedaqogika» adlı xüsusi kursun eksperiment yolu ilə sınaqdan keçirilməsində fəal iştirak etməsidir.

Keçən dövr ərzində gördüyümüz bir sıra yadda qalan işlər, tədbirlərlə yanaşı görülməyən, lakin həyata keçirilməsi çox zəruri olan bir sıra işlərimizi də qeyd etmək istərdik. Hər şeydən əvvəl, pedaqoji elmlər üzrə müdafiə şurasının olmaması bütövlükdə respublikada elmi-pedaqoji kadrların hazırlanmasına pis tə'sir göstərmişdir. Əgər əvvəlki beşillikdə müdafiə üçün bizim instituta gəlirdilərsə, son illər bizim aspirant və dissertantlar başqa yerlərə getməli olurlar. Başqa şəhərlərə getməyə isə heç də hamısının imkanı yoxdur.

Qarşıda duran vəzifələrdən biri pedaqoji elmlər üzrə orijinal tədris vəsaitinə olan ehtiyacı ödəməkdən ibarətdir. Nədənsə nazirlik və müvafiq nəşriyyatlar "Pedaqogika" və "Pedaqogika tarixi" kursu üzrə orijinal dərs vəsaitləri nəşrinə yaxından kömək göstərmirlər.

Tə'xirəsalınmaz vəzifələrdən biri də tədris planına daxil edilmiş, yeni fənlər (tərbiyə işinin metodikası, texniki peşə məktəbində tərbiyə işinin xüsusiyyətləri və s.) üzrə vəsait hazırlamaq, pedaqoji təcrübə, yay pioner təcrübəsi üzrə metodik tövsiyələr hazırlayıb çap etdirməkdir.

«Azərbaycan müəllimi»
qəzeti 17 yanvar 1986.

Yenidənqurma və tarixi-pedaqoji tədqiqatlar

Ali məktəb kursu olan pedaqogika tarixinin tədrisinin daha da təkmilləşdirilməsi probleminin aktuallığı, gələcək müəllimlərin ümumi peşə hazırlığında onun ideya tərbiyəvi və təhsil əhəmiyyətinin artmaqda olan rolu bu sahədə elmi-tədqiqat işlərinin keyfiyyətini artırmağı və miqyasını genişləndirməyi tələb edir. Ölkənin sosial-iqtisadi inkişafının sür'ətləndirilməsinə aid Sov. İKP XXVII qurultayın strateji xətti və bununla əlaqədar olaraq yenidənqurma şəraitində partiyanın kadr siyasətinin MK-nın yanvar (1978-ci il) plenumunda dərindən və hərtərəfli işlənib hazırlanması ideoloji silah olan nəzəri və ictimaiyyatşünaslıq elmlərinin rolunu bir daha artırdı.

Zəmanəmizdə gənclərin dünyagörüşünün formalaşmasında mühüm tərbiyəedici funksiyaya malik olan pedaqogika tarixi həm müstəqil bir tədris fənni, həm də elm sahəsi kimi istər ideoloji işdə, istərsə də xalq maarifi və məktəb təhsili sahəsində ətalətin, durğunluğun, mühafizəkarlığın, ictimai-mədəni tərəqqini ləngidən nə varsa, onu müəyyən etmək və gələcəyə istiqamət vermək işində özünəməxsus yer tutur.

Bu mühüm sosial məsələlərin həllində sovet məktəbi və pedaqogika tarixi sahəsində aparılan tədqiqatlar və onların proqnozçuluq xarakteri zəmanəmizdə xüsusi əhəmiyyət kəsb edir.

SSRİ PEA pedaqogikanın nəzəriyyəsi və tarixi bölməsi nəzdində fəaliyyət göstərən SSRİ xalqlarının məktəb və pedaqogika tarixi problemi üzrə Elmi Şuranın bu günlərdə Moskvada keçirilən növbəti III sessiyası da məhz yuxarıdakı məsələlərə həsr edilmişdir. Ölkənin aparıcı pedaqoji tarixçilərini özündə birləşdirən bu Ümumittifaq məclisi Elmi Şuranın sədri, SSRİ PEA-nın müxbir üzvü professor Z.İ. Ravkin açdı. O qeyd etdi ki, Elmi Şuranın bu sessiyası Sov. İKP MK-nın yanvar (1987) plenumunun qərarlarının həyata keçirildiyi, ölkədə yenidənqurmanın vüs'ət aldığı bir dövrə təsadüf edir. Ölkənin sosial-iqtisadi inkişafının sür'ətləndirilməsinə dair proqram vəzifəsinin yerinə yetirilməsi gənc nəslin ümumi və peşə təhsili hazırlığını kökündən yaxşılaşdırmağı tələb edir. Gənclərin həyata hazırlığı, səriştəliliyi, onların yüksək vətəndaşlıq məs'uliyyəti

elmi-texniki tərəqqinin, xalq təsərrüfatının intensivləşdirilməsinin miqyasını və sür'ətini xeyli dərəcədə müəyyən edir.

Bütün bunlar pedaqoji elmlərin, o cümlədən pedaqogika tarixinin də qarşısında yeni vəzifələr qoyur. Məqsəd sovet ümumtəhsil və peşə məktəbinin tarixi inkişafını elmi surətdə təhlil etmək və onların gələcəkdə inkişaf yollarını müəyyənləşdirməkdən ibarətdir.

Elmi Şuranın müzakirəsinə verilmiş iki mühüm məsələ məhz bundan irəli gəlirdi. Bu məsələlərdən biri «Ukrayna SSR-də sovet məktəbi və pedaqogikası sahəsində aparılan tədqiqatların əsas istiqamətləri» idi. Bu mövzuda USSR ETPEİ-nin şö'bə müdiri N.P. Kaliniçenko mə'ruzə ilə çıxış etdi. Mə'ruzəçi qeyd etdi ki, USSR-də tarixi-pedaqoji fikrin inkişafı çoxillik ən'ənəyə malikdir. Ukraynanın alim-pedaqoqlarının böyük bir dəstəsinin məktəb və pedaqoji fikrin tədqiqi və öyrənilməsi sahəsindəki nailiyyətləri respublikada və ondan kənarda böyük şöhrət qazanmışdır.

Ukrayna SSR-də pedaqoji ideyaların ilk sovet tədqiqatçılarından Y.A. Mamontyevin, Y.Y. Jurakovskinin, S.A. Ananiananın və başqalarının sanballı əsərləri bu sahədə ilk ümumiləşdirici əsərlər olmuşdur.

Müəllif mə'ruzəsində Ukrayna SSR-də marksist-leninçi tarixi-pedaqoji tədqiqatların inkişafının ayrı-ayrı mərhələləri, problemləri və onların məziyyətləri üzərində dayandı. Respublikada, xüsusilə də müharibədən sonrakı dövrdə tarixi-pedaqoji tədqiqat sahəsinin daha da genişlənməsindən, Ukrayna, rus və dünya pedaqoji fikrinin görkəmli nümayəndələrinin ideyaları ilə yanaşı sovet məktəbinin inkişaf yollarının tədqiq edilməsindən bəhs etdi. Qeyd edək ki, «Ukrayna SSR-də pedaqoji elmlərin vəziyyəti və daha da inkişaf etdirilməsi tədbirləri haqqında» Ukrayna KP MK-nın 1959-cu il tarixli qərarı tarixi pedaqoji problemlərin tədqiq edilməsində başlıca amil oldu. Məhz bu qərardan sonra respublikada diqqəti cəlb edən tədqiqatlar meydana gəldi. O, belə əsərlərə misal olaraq S.K. Qutyanskinin «Ukrayna xalq maarifində leninçi prinsiplərin həyata keçirilməsi» (1960), N.M. Şaşlonun «Ukraynada sovet məktəbinin inkişafında partiyanın rəhbər rolu» (1963), Q.İ. Yasnitskinin «Ukraynada xalq maarifinin inkişafı» (1965), M.S. Qritsenkonun

«Ukrayna SSR-də məktəb tarixinə dair oçerklər» (1966) və başqalarını göstərdi.

Ukrayna pedaqoji tarixçiləri A.S. Makarenkonun pedaqoji ideyaları və müasirlik, T.Q. Şevçenko və xalq maarifi, İvan Frankovun və V.A. Suxomlinskinin pedaqoji ideyalarının tədqiqi sahəsində böyük işlər görmüşlər. 60–70-ci illərdə pedaqogika tarxinin metodoloji və nəzəri problemləri daha səmərəli işlənmiş, Marks, Engels, Leninin ideya-pedaqoji irsinin daha dərindən öyrənilməsinə diqqət artırılmışdır. «V.İ.Lenin və pedaqoji elmlər», «Lenin və Ukrayna SSR-də xalq maarifi», «Politexnik təhsil haqqında marksizm-leninizm klassiklərinin ideyaları və onların sovet məktəbində həyata keçirilməsi», «Ulyanovlar ailəsində uşaqların tərbiyəsi» və s. əsərlərdə bu irsin müxtəlif sahələri öz əksini tapmışdır.

Qardaş Ukrayna pedaqoji tarixçilərinin tədqiqatlarında sovet məktəbi və pedaqogikasının işlənməsinə ayrıca fikir verilir və son illər bu sahədə iş daha da gücləndirilmiş, İttifaq miqyasında əhəmiyyətli monoqrafiyalar çap edilmişdir.

Mə'ruzədə pedaqoji tarixçilərin böyük nailiyyətləri göstərilməklə yanaşı, bu sahədə nəzəri cəlb edən qüsurlar, pozitiv fikirlər, bə'zi tədqiqatçılarda təsvirçilik, şərh zamanı informasiya konstatasiya (mə'lumat və faktları təsdiq etmək) üslubunun hakim olması, faktik materialın analitik tənqidi, dərk etmənin olmaması kimi hallar da ciddi tənqid edildi. Sov. İKP XXVII qurultayı və rəhbər partiya sənədləri Ukrayna pedaqoji tarixçilərinin fəaliyyətinə də yeni təkan vermişdir. Böyük Oktyabrın 70 illiyinə həsr edilmiş «Ukraynada xalq maarifi və pedaqoji fikrin inkişafı. 1917–1987-ci illər» adlı iki cilddən ibarət irihəcmli monoqrafik əsərin çapa hazırlanması bu sahədə irəliyə doğru atılmış iri və böyük addımdır.

Ukrayna pedaqoji tarixçilərinin çox mühüm nailiyyətlərindən biri də müttəfiq respublikalar içərisində pedaqoji antologiyanın çapına birincilər sırasında nail olmalarıdır. «Ukrayna pedaqoji antologiyası» hələ 1985-ci ildə çapdan buraxılmışdır («Azərbaycan pedaqoji antologiyası» nəşriyyatın 1989-cu il planında nəzərdə tutulmuşdur). A.S. Makarenkonun gələn il qeyd ediləcək–anadan olmasının 100 illik yubileyinə hazırlıq, V.A.Suxomlinskinin pedaqoji irsinin dərindən öyrənilib təbliğ edilməsi işləri diqqət mərkəzindədir.

Qardaş Ukrayna pedaqoji tarixi tədqiqatçıları rus-Ukrayna-belorus xalqlarının qarşılıqlı pedaqoji əlaqələri sahəsində də diqqətəlayiq işlər görmüşlər.

Elmi Şuranın sessiyasında müzakirə edilən ikinci problem texniki peşə təhsili ilə bağlıdır. «SSRİ-də texniki peşə təhsili üzrə elmi tədqiqatların vəziyyəti və perspektivləri haqqında» mə'ruzə ilə bu sahənin məşhur tədqiqatçılarından professor Y.Q. Osovski (Saranski Pedaqoji İnstitutundan) və professor N.N. Kuzmin (Lipetsk Pedaqoji İnstitutundan) çıxış etdilər.

Mə'ruzəçilər qeyd etdilər ki, pedaqoji elmlərin mühüm bir sahəsi olan sovet texniki peşə təhsilinin tarixi nisbətən gəncdir. Bu sahədə bir tərəfdən tarix elmləri (məsələn, SSRİ tarixi, fəhlə sinfinin tarixi, iqtisadiyyat tarixi və s.) ilə, digər tərəfdən isə sosial və iqtisadiyyat fənləri ilə əlaqədardır. Bu elm sahələrinin hər birinin ixtisaslı fəhlə kadrları hazırlığının tədqiqinə öz istiqaməti vardır. Bütün bunlar texniki peşə təhsili tarixinin tədqiqini əlaqəli şəkildə aparmağı tələb edir.

Son illər texniki peşə təhsili tarixinin öyrənilməsinə diqqət artırılmış, texniki peşə təhsili tarixçilərinin fəaliyyətini əlaqələndirən elmi-təşkilati işlər görülmüşdür. SSRİ PEA-nın texniki peşə təhsili problemləri üzrə Elmi şurası (sədr akademik S.Y.Batışevdir) nəzdində bu sahənin tarixi bölməsi yaradılmış, elmi-tədqiqat işlərinin mövzuları işlənib hazırlanmışdır. SSRİ PEA və RSFSR Pedaqoji Cəmiyyəti tərəfindən texniki peşə təhsili tarixi problemi üzrə 1981-ci ildə Lipetskidə keçirilmiş Ümumittifaq simpoziumu əlaqələndirmə sahəsində mühüm rol oynamışdır. Elmi qüvvələrin cəmləşdirilməsi «SSRİ-də texniki peşə təhsili tarixi oçerkləri» adlı monumental əsərin hazırlanıb çap edilməsinə (M., 1981) böyük kömək göstərmişdir. Həmin əsər SSRİ PEA-nın K.D. Uşinski adına mükafatına layiq görülmüşdür.

Son illər ölkəmizdə texniki peşə təhsili tarixinin bir sıra tanınmış tədqiqatçıları, o cümlədən N. Kuzmin, M. Kuçerenko, A. Çirkov, E. Osovski və başqaları texniki peşə təhsili tarixinin metodoloji biliklərin bir sahəsi kimi, texniki peşə təhsili tarixinin özünəməxsus xüsusiyyəti, onun predmeti, qarşılıqlı əlaqəsi, texniki dövrləşdirilməsi, tarixi mənbələri, mə'xəzşünaslığı və biblioqrafiyası aşkar edilmişdir. Texniki peşə təhsilinin sosialist konsepsiyanın əsas

müddəaları, ixtisaslı fəhlə hazırlığının sosial-siyasi, iqtisadi və təhsil-tərbiyəvi funksiyanın tarixən vəhdətdə həyata keçirilməsi, beynəlxalq aspektdə onun rolu və əhəmiyyəti öyrənilmişdir. SSRİ-də texniki peşə təhsilinin tarixi, nəzəriyyəsi və təcrübəsini saxtalaşdırmağa cəhd göstərən burjua ideoloqları və təftişçilərinin ideya və konsepsiyasına qarşı fəal tənqidi gücləndirmək tədbirləri müəyyən edilmişdir. Bütün bunlar ölkədə texniki təhsil sahəsindəki tədqiqatların keyfiyyətini xeyli yüksəltməyə imkan vermişdir.

Mə'ruzədə qeyd edildiyi kimi, ölkəmizdə son illər bu sahədə ayrı-ayrı problemlər üzrə diqqəti cəlb edən bir sıra tədqiqat işləri aparılmış, 1981-ci ildə «SSRİ-də texniki peşə təhsilinin tarixi oçerkləri» adlı ümumiləşdirici tarixi-xronoloji əsər nəşr edilmişdir.

Müttəfiq respublikalarda, ölkənin iri rayonlarında, o cümlədən Azərbaycan SSR-də də bu sahədə ilkin addımlar atılmışdır. M.F. Axundov adına APRDƏİ-nin pedaqogika kafedrasının dosenti Eldar Zeynalovun apardığı tədqiqat bu sahədə xüsusi maraq doğurur.

Hər iki mə'ruzə ətrafında müzakirələrdə fəal iştirak edən R.B. Vendorovski, V.V. Qaqua, V.Z. Smal, E.D.Dneprov, M,N, Kolmakova, İ.O. Obidov, Q.İ.Səlimova,A.İ. Fateyeva, B.M. Bim-Bad, A.Y. Ayzenberq, bu sətirlərin müəllifi və başqaları çıxış edərək göstərdilər ki, məktəb və pedaqogika tarixi sahəsində xeyli və əsaslı tədqiqat işləri aparılmasına baxmayaraq, elmin bu vacib sahəsi hələ də xalq maarifi qarşısında, pedaqogikanın nəzəriyyəsi qarşısında borcludur.

Elmi Şuranın III sessiyasında, həmçinin «Sovetskaya pedaqogika» jurnalının 50 illik yubileyinin qeyd olunması ilə əlaqədar məsələ müzakirə edildi. Bu barədə jurnalın baş redaktorunun müavini, pedaqoji elmlər namizədi L.V.Todorov yoldaş geniş mə'ruzə ilə çıxış etdi.

Nəhayət, Elmi Şurada pedaqoji tarixçilər kollektivi tərəfindən hazırlanıb 1989-cu ildə nəşr olunacaq «Tarixi pedaqoji elmlərin metodoloji problemləri» adlı monoqrafiyanın plan-layihəsi müzakirə edildi. Müzakirə olunan məsələlər barəsində geniş fikir mübadiləsi keçirildi və müvafiq tövsiyələr qəbul olundu.

«Azərbaycan müəllimi» qəzeti 1 may 1987.

Axtarışlar davam edir

M.F. Axundovun vəfatından keçən 100 ildən artıq bir dövr ərzində onun ədəbi, elmi və pedaqoji irsi müxtəlif cəhətlərdən tədqiq edilmiş, yüzlərlə əsər, məqalə yazılmış, irihəcmli monoqrafiyalar çap edilmişdir. Tədqiqatçılar hər dəfə onun fəaliyyəti ilə bağlı maraqlı məsələlər qaldırmış və yeni faktlar, sənədlər üzə çıxarmışlar. Lakin son araşdırmalar, axtarışlar və tapıntılar göstərir ki, bu böyük mütəfəkkirin fəaliyyəti və tükənməz irsi ilə bağlı hələ də tədqiqata cəlb edilməmiş, elmi əhəmiyyəti olan bə'zi sənədlər vardır və onların tapılıb üzə çıxarılması böyük əhəmiyyətə malikdir.

Biz bu yazımızda son zamanlar M.F. Axundovla bağlı mətbuatda dərc edilmiş iki məqalə barəsində bə'zi cəhətlərə toxunmaq istərdik.

M.F. Axundov tədqiq edildikcə yüksələn sənətkardır. Bu mə'nada haqqında bəhs edəcəyimiz hər iki məqalə elmi-pedaqoji ictimaiyyətin, xüsusilə də M. F. Axundovun yaradıcılığı ilə məşğul olan alimlərin, tədqiqatçıların böyük marağına səbəb olmuşdur.

Belə tapıntılardan biri Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı H.Herisçinin əldə etdiyi M.F. Axundovun çap olunmamış bir məktubudur. Onun Leninqrad şəhərində SSRİ EA-nın arxivindən üzə çıxardığı bu sənəd – M.F. Axundovun 1859-cu il martın 12-də yeni əlifba layihəsi ilə bağlı akademik B.A. Dorna göndərdiyi birinci məktubu – bu vaxta qədər tədqiqatçılara mə'lum olmamış və təbii olaraq onun əsərlərinə də daxil edilməmişdir. H. Herisçi «Ədəbiyyat və incəsənət» qəzetində (19 dekabr 1986-cı il) «Axtarışlar, tapıntılar» rubrikası altında «M.F. Axundovun çap olunmamış məktubu» adlı məqalə ilə çıxış edərək, həmin məktubun mətnini də Azərbaycan dilində oxuculara təqdim etməklə çox faydalı bir iş görmüşdür. Məktub bu vaxta qədər mə'lum sənədləri bir daha tamamlayır və böyük maarifçinin «müsəlman əlifbasını dəyişmək» və özünün «yeni əlifba layihəsi»ni həyata keçirmək uğrundakı mübarizəsinə çox qiymətli bir səhifə əlavə edir.

Axtarışların nəticəsi kimi mətbuatda dərc edilmiş ikinci məqalədə M.F. Axundovun «Məhəmməd əlifbası»nı təkmilləşdirmək

fikrinə düşməsinə, «Yeni əlifba icad etməsinə» aid rus dövri mərkəzi mətbuatında o zamanlar dərc edilən xəbərlərdən bəhs edilir. Doğrudur, bu barədə ilk dəfə oxuculara filologiya elmləri doktoru Sadıq Hüseynov müfəssəl mə'lumat vermişdi («Bakı» qəzeti, 1965-ci il, 10 aprel). Lakin məqalə müəllifinin – Bakıdakı 204 nömrəli məktəbin ədəbiyyat müəllimi Bilqeyis Kərimovanın başlıca məqsədi əslində bu yazıların məzmununu deyil, onların müəlliflərini aşkar etməyə yönəldilmişdir. «Namə'lum imzaların izi ilə» («Azərbaycan müəllimi» qəzeti, 4 mart, 1987-ci il) adlı məqalədən görünür ki, müəllif başlanan axtarışları davam etdirmiş və yeni söz deməyə, bə'zi məsələləri aydınlaşdırmağa cəhd göstərmişdir. Əldə olunan nəticədən, məqalənin aşkar edilməsindəki yəqinlikdən, yürüdülən fikrin dəqiqliyindən asılı olmayaraq, orta məktəb müəlliminin belə bir çətin işə girişməsi fikrimizcə təqdirəlayiqdir. Məsələ onda deyil ki, hər hansı bir məqalədə bu və ya digər naməlum fakt tamamilə və qəti şəkildə dürüstləşdirilsin. Bu məqalənin faydası və dəyəri ondadır ki, tədqiqatçıların nəzərini vacib bir məsələyə yönəldir. Hər hansı bir məqalənin əhəmiyyəti, həm də bundadır ki, araşdırmalara diqqət yetirməklə irəli sürülən fikri dürüstləşdirməyə zəmin yaradır.

B.Kərimova «Sankt-Peterburqskiye vedomosti» qəzetində dərc olunan və M.F. Axundovun ərəb əlifbasının islahatı sahəsindəki böyük fəaliyyətindən bəhs edilən iki məqalənin müəllifini müəyyən etmək üçün xeyli axtarış aparmışdır. O, tədqiqat nəticəsində belə qənaətə gəlir ki, 1) həmin qəzetin 1859-cu il 20 noyabr tarixli 253-cü nömrəsində (səh. 1124) «Şərq. İran–Hindistan» başlığı altında «R» imzası–təxəllüsü ilə çıxış edən müəllif S.İ.Rıjovdur; 2) yenə də həmin qəzetin 1860-cı il 15 mart (əslində 16 mart) tarixli nömrəsində (səh. 216) «Redaksiyaya məktub» sərlövhəsi altında «İ. İ.» (əslində N N imzası) təxəllüsü ilə çıxış edən müəllif isə İ. İ. Qriqoryevdir.

Biz yuxarıdakı məsələləri, əslində hər iki məqalədə M.F. Axundovun yeni əlifba layihəsi ilə bağlı olan çox qiymətli mə'lumatı nəzərdən keçirməli olduq. Bizi, hər şeydən əvvəl, maraqlandıran İ. İ. Qriqoryevə aid edilən məqalə idi. Həqiqətən də XIX əsrin ortalarında Tiflis gimnaziyasında Azərbaycan və fars dilləri üzrə baş müəllim işləyən İ. Qriqoryev M.F. Axundovu yaxından tanıyırdı. M.Ş. Vazeh ilə birlikdə tərtib etdikləri «Kitabi-türki» adlı müntəxəbat, M.F.Axundov, M.Ş.Vazeh ilə bərabər İ.Qriqoryevin 1845-ci ildə

Tiflis gimnaziyasında dərslik və dərs vəsaitlərinin müzakirəsində iştirak etməsi məlumdur. Lakin yuxarıda göstərilən məqalənin məhz İ.Qriqoryevə aid edilməsi faktı, fikrimizcə səhih deyil. Hər şeydən əvvəl, ona görə ki, «Sankt-Peterburqskiye vedomosti» qəzetində (№59, 16 mart, 1860, səh.286) «Redaksiyaya məktub» adlı ümumi başlıq altında dərc edilən VI məqalənin müəllifi əslində B.Kərimovanın yazdığı kimi «İ.İ.» deyil, «N.N.»-dir. Bu səbəbdən də biz bu istiqamətdə bəzi axtarışlar aparmalı olduq. Məlum oldu ki, rus dövri mətbuatında çıxış edən bəzi müəlliflər ad və familiya əvəzinə təxəllüs kimi, həm də latın və yunan əlifbası hərflərindən istifadə etmişlər. Bir sıra göstəricilərdə, xüsusilə də İ.F.Masanov tərəfindən tərtib edilən və Ümumittifaq Kitab Palatası tərəfindən 1956–1960-cı illərdə nəşr edilən «Rus yazıçıları, alim və ictimai xadimlərinin təxəllüs lüğəti» adlı məşhur göstəricidə N.N. təxəllüsü ilə rus mətbuatında yüzə qədər müəllif çıxış etmişdir. Əlbəttə, bütün bunlar göstərilən məqalənin İ.Qriqoryevə aid edilməsini təsdiq etmir.

«R» imzasına gəlincə, yenə də deməliyik ki, B.Kərimovanın bu barədə yürütdüyü mülahizəni də dəqiq hesab etmək mümkün deyil. Belə ki, «R» imzası ilə də çoxları çıxış etmişlər. Hətta məşhur rus şairi A.S. Puşkin o dövrün mətbuatında «R» imzası ilə çıxış etmişdir. Bu səbəbdən də «Sankt-Peterburqskiye vedomosti» qəzetində (1859-cu il 20 noyabr, № 253, səh. 1124) dərc edilən «Şərq. İran–Hindistan» adlı məqalə müəllifinin S.İ. Rıjov olmasını qəti təsdiq etmək mümkün deyil.

Burada bir məsələyə ayrıca diqqət vermək lazım gəlir. Əvvəla, yuxarıda dediyimiz kimi, bir çox müəlliflər rus əlifbasının deyil, həm də latın və yunan əlifbasının hərflərindən bir təxəllüs kimi istifadə etmişlər. Deməli «R» hərfini rus deyil, latın hərfi hesab etmək (məsələn, «R» – Puskin –Puşkin) faktı nəzərə alınmalıdır.

Digər vacib cəhət isə S.İ. Rıjovun «Oteçestvennıe zapiski» məcmuəsinin 1860-cı ildəki 13 və 5-ci nömrəsində özünün açıq imzası ilə çap etdirdiyi «Qərbi Zaqafqaziya oçerkləri»ndə M.F. Axundov ilə bağlı fikrin, «Sankt-Peterburqskiye vedomosti» qəzetində (1859-cu il noyabr 20, № 253, səh. 1124) «R» imzası ilə nəşr edilən «Şərq. İran–Hindistan» məqaləsindəki fikir ilə müqayisəsidir. Belə ki, S. İ. Rıjov öz məqaləsində M.F. Axundovun adını açıqca yazır, onun pyeslərini təqdir edir, onları mühüm hadisə kimi qiymətləndirir

və bu haqda gələcəkdə «Sankt-Peterburqskiye vedomosti» qəzetində söhbət açmağı və'd edir. Deməli, o öz və'dinə əməl etmiş olsaydı, məntiqi olaraq 1860-cı ilin may ayından sonra çıxış etməli idi. Həm də M. F. Axundovun yeni əlifba layihəsi barəsində deyil, məhz pyesləri barəsində söhbət açmalı idi. Lakin əslində qəzetdəki «R» imzası ilə nəşr edilən məqalə S.İ.Rıjovun məcmuədəki məqaləsindən bir il əvvəl nəşr edilmişdir.

Başqa sözlə desək, «Sankt-Peterburqskiye vedomosti» qəzetində göstərilən məqalənin 1860-cı ildən sonra deyil, əvvəl, 1859-cu ildə çap edilməsi onun S.İ. Rıjova aid olmasını təsdiq etmir. Başqa bir cəhət də budur ki, S.İ.Rıjov məcmuədəki məqalədə M.F.Axundov yaradıcılığına yaxından bələd olduğunu göstərir. «R» imzalı müəllif isə onun adını belə çəkmir, M.F.Axundovu «rusiyalı bir müsəlman» kimi qələmə verir. Həm də S.İ. Rıjov M.F. Axundovun pyeslərindən, «R» isə onun «Məhəmməd əlifbası»nı təkmilləşdirmək fikrinə düşməsindən söhbət açır. Əlbəttə ki, eyni müəllif bir məqalədə M.F. Axundovun pyeslərindən, digər məqalədə isə onun əlifba layihəsindən söhbət açа bilər. Lakin, göstərilən məqalələrin analitik-sintetik təhlili, onların nəşri tarixinin müqayisəsi «R» imzası ilə çıxış edən müəllifin S.İ. Rıjov olduğunu təsdiq etmir. Bu səbəbdən də nամə'lum imzaların S.İ. Rıjov ilə İ.İ. Qriqoryevə aid edilməsinə aid mülahizələri dəqiq hesab etmək olmaz və bu istiqamətdə tədqiqat davam etməlidir.

Bu məqalə ilə çıxış etməkdə məqsədimiz M.F.Axundovun irsinin tədqiqində yeni dolaşıqlığa yol verməmək, tədqiqatçıların diqqətini bu məsələlərə bir daha cəlb etməkdir.

Biz bu günlərdə Moskvada olarkən V. İ. Lenin adına Mərkəzi Dövlət Kitabxanasında yuxarıdakı məqalələri, onların müəllifləri ilə əlaqədar bir sıra mənbələri, təxəllüslərə aid göstəriciləri, digər sorğu və mə'lumat mənbələrini nəzərdən keçirdik. Bu göstəricilərdə hələlik «R» və «N N» imzaları ilə nəşr edilən məqalələrin kimə aid olmasını təsdiq edən mənbə əldə edə bilmədik. Göstərilən naməlum imzaların aşkar edilməsi əlavə axtarışlar tələb edir.

«Azərbaycan müəllimi»
qəzeti 2 dekabr 1987.

Pedaqoji elmlərin güzgüsü

Hal-hazırda SSRİ Pedaqoji Elmlər Akademiyasının aylıq elmi-nəzəri jurnalı olan «Sovetskaya pedaqogika»nın yarım əsrlik yubileyi tamam olub. Onun ilk nömrəsi 1937-ci ildə Moskvada çapdan çıxmışdır. Jurnal nəşrə başladığı ildən 1943-cü ilədək RSFSR Maarif Komissarlığının orqanı olmuş, 1943-cü ildə RSFSR PEA-nın təşkili ilə bağlı həmin akademiyanın orqanına çevrilmişdir. 1966-cı ildən bəri ölkəmizdə pedaqoji elmlərin baş qərargahı olan SSRİ PEA-nın orqanıdır.

Jurnalın ilk nömrəsini çapa məs'ul redaktorun müavini, tanınmış sovet pedaqoq alimi N. K. Qonçarov imzalamışdır. «Jurnalın vəzifələri haqqında» adlı baş məqalədə deyildiyi kimi, jurnal «pedaqogikanın bir elm kimi əhəmiyyəti və hüququnun bərpa edilməsi işində bir sıra əsaslarını» qoymalı idi. Yeni orqan ölkədə elmi-pedaqoji fikrin əsas mərkəzi olmalı, pedaqoji ictimaiyyəti məktəb uğrunda, elmin gələcək inkişafı, müəllim kadrlarının əsaslarına və özünün peşə texnikası işinə yiyələnməsi uğrunda mübarizə ətrafında birləşdirməli idi.

«Sovetskaya pedaqogika» özünün kəskin və səmimi çıxışları ilə «məktəbin ölməsi» barəsində yalançı elmin qalıqlarına, hər cür pedaqoji təhriflərə qarşı mübarizə aparmalı, bir elm sahəsi kimi pedaqogikanın və bir sıra peşə sahibi kimi pedaqoqun hüquqlarını tamamilə və qəti bərpa etməli, pedaqogika və psixologiyanın vacib problemlərinin işlənməsi uğrunda mübarizəni gücləndirməli idi.

Mə'lum olduğu kimi, o zamanlar pedaqoji elmlərin nüfuzunun itirilməsi, elmi tədqiqat işlərində əlaqələndirmənin olmaması yetişməkdə olan gənc nəslin tə'lim və tərbiyə işinə böyük ziyan vururdu. Bu səbəbdən də elmi-nəzəri orqan olan bu jurnalın qarşısında qoyulan vəzifə həm mürəkkəb, həm də məs'uliyyətli idi.

Jurnal pedaqoji elmlərin mübariz orqanına çevrilməli, mövcud qüsurların aradan qaldırılmasında elmi pedaqoji kadrlara və müəllimlərə yaxından kömək etməli, tə'lim nəzəriyyəsi və xüsusi

pedaqoqların ümumi problemlərinin, psixologiya və əlahiddə pedaqogikanın məktəbşünaslıq və SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə xüsusi diqqət yetirməklə pedaqogika tarixinin vacib məsələlərinin işlənməsinə kömək etməli idi.

Cəsarətlə demək olar ki, jurnal qarşıya qoyulmuş bütün vəzifələrin öhdəsindən layiqincə gəlmiş və özünün 50 illik fəaliyyəti müddətində sovet pedaqogika elmini dünya pedaqoji fikrinin zirvələrinə qaldıra bilmişdir.

Elə ilk illərdən e'tibarən görkəmli sovet pedaqoqları, psixoloqları və metodistləri jurnalın qaldırdığı vacib problemlərin həllində yaxından iştirak etmişlər. Jurnalın ilk müəllifləri sırasında B.Q. Ananyev, L.S. Raskin, Y.N. Medinski, R.M. Mikelson, S.M. Rives, İ.V. Çuvaşev, N.A. Konstantinov, N.K.Qonçarov, A.N. Leontyev, N.A. Mençinskaya, İ.T.Oqorodnikov və başqalarının adlarını qeyd etmək yerinə düşərdi. Ölkənin bu görkəmli alimlərinin və xalq maarifinin tanınmış xadimlərinin sanballı məqalələrində elmi pedaqogika, psixologiya, məktəb və pedaqoji fikir tarixi, xalq təhsili sisteminin çox vacib və həyati problemlərinə toxunulurdu. Bu səbəbdəndir ki, elə bir il sonra jurnal özünün sür'ətli inkişafı ilə fərqləndi. Əgər onun ilk nömrəsinin ümumi tirajı cəmi 10 min nüsxə idisə, 1938-ci ildə bu rəqəm 35 mini keçmişdi ki, bu da jurnalın elmi nüfuzunun və praktik əhəmiyyətinin tez bir zamanda yüksəlməsi ilə izah olunur.

Böyük Vətən müharibəsi ərəfəsində pedaqoji elmlər və məktəb təcrübəsi üçün daha aktual olan: xalq maarifi sahəsində partiyanın siyasəti, şagirdlərin müvəffəqiyyəti keyfiyyətinin yüksəldilməsi və iki il eyni sinifdə qalmanın aradan qaldırılması, məktəblilərdə şüurlu intizam tərbiyəsi, gənclərin praktik fəaliyyətə, sosialist Vətənini müdafiəyə hazırlanması və s. kimi məsələlər jurnalın diqqət mərkəzində duran başlıca məsələlər olmuşdur.

Ölkənin alimləri tərəfindən aparılan nəzəri və tətbiqi tədqiqatlara jurnalın səhifələrində geniş yer verilmişdir. Qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi o zamanlar vacib istiqamətlərdən idi. Didaktik problemlərin tədqiqinə diqqət artırılmışdı, «Sovet pedaqogikasının ən zəruri problemləri» mövzusunda diskussiya genişlənirdi. Tərbiyə nəzəriyyəsinin müxtəlif cəhətləri xüsusilə fəal müzakirə olunurdu. Jurnalın səhifələrində

sovet pedaqogikasının əsasını təşkil edən başlıca prinsip – tə'lim və tərbiyə prosesinin vəhdəti -tə'kidlə həyata keçirilirdi.

Jurnalın çox mühüm xidmətlərindən biri xüsusi metodikaların inkişafı ilə bağlıdır. Jurnalın səhifələrində xüsusi metodikaların inkişaf yolları fəal müzakirə obyekti olmuşdur.

Bir cəhəti də qeyd etmək yerinə düşər ki, Böyük Vətən müharibəsi illərində jurnal müntəzəm nəşr olunmuş, özünün fəal işini bir gün belə dayandırmamışdır. Müharibənin ağır illərində – 1943-cü ildə RSFSR PEA-nın təşkili ilə onun orqanına çevrilmişdir.

Pedaqoji Elimlər Akademiyasının, onun elm bölmələrinin işi, aparılan tədqiqatların gedişi və nəticələri məşhur alimlərin, o cümlədən V.P. Potyomkin, A.M.Pankratova, A.Y. Xançin, L.V. Şebr, İ.T.Oqorodnikov, Q.A.Fortunatov, B.P. Yesipov, L.V.Zankov, E.İ. Monoszon, F.F. Korolyov, M.F. Şabayeva və başqalarının çıxışlarında öz əks-sədasını tapmışdır.

40–50-ci illərdə jurnalın səhifələrində öz əksini tapan mərkəzi problemlər əsasən aşağıdakılar olmuşdur: tə'lim-tərbiyə işlərinin keyfiyyətinin yüksəldilməsi, uşaq kollektivinin təşkili, uşaqların Böyük Vətən müharibəsi tarixi, sovet xalqlarının əmək və qəhrəmanlıq ən'ənələri nümunəsində tərbiyəsi.

«Sovet məktəbi Böyük Vətən müharibəsi illərində», «Rus pedaqoji elmi dünya pedaqogikasında» və bir sıra məqalələrdə vətənpərvərlik anlayışının mahiyyəti, onun formalaşdırılmasının yol və vasitələri aşkar edilirdi.

Jurnalın tədqiq etdiyi ən vacib problemlərdən biri məktəbli əməyinin təşkili olmuşdur. Bu işdə P.N.Qruzdyevin çıxışları ayrıca əhəmiyyət kəsb edirdi. Bu gün də həmin problem jurnalın diqqət mərkəzindədir və bu sahədə dərc edilən onlarca məqalə məktəblilərin əmək tərbiyəsinin təşkili işinin səmərə və keyfiyyətinin daha da yüksəldilməsinə yaxından gömək etmişdir və indi də edir.

Jurnalda tərbiyənin fəlsəfi və sosioloji məsələlərinə gənc nəslin kommunist dünyagörüşünün formalaşdırılması, kommunist əxlaqı ruhunda tərbiyə edilməsi, təhsilin məzmunu və tə'lim üsulları, tə'limin proqramlaşdırılması problemlərinə aid məqalələrə xüsusi yer verilir. Jurnal diskussiya xarakterli yazılar dərc etməklə çoxmilyonlu müəllimlər ordusunu elmi-pedaqoji biliklərlə silahlandırır. «Tə'lim-tərbiyə məsələləri», «Marksist-leninçi təhsilə

kömək», «Pedaqoji təhsil», «Məktəb islahatı və pedaqoji elmlər», «Məktəb və pedaqoji fikir tarixi», «Xaricdə məktəb və biblioqrafiya», «Elm aləmində», «Dərs bu gün və sabah», «Sovet müəllim kadrları», «Publisist sözü», «Bizim müsahibə», «Texniki peşə təhsili», «Ali məktəb həyatı» ilə bağlı problemlər jurnalın daimi rubrikalarıdır. Bu ümumi başlıqlar altında dərc edilən yazılar maraqla oxunur.

Sovet tə'lim və tərbiyə nəzəriyyəsinin inkişafı, onun sovet məktəbinin inkişaf mərhələləri ilə sıx əlaqələndirilməsi, qabaqcıl təcrübənin tədqiqi (İ.N.Kazantsev, M.A. Danilov), biliklərin yoxlanılması və qiymətləndirilməsinə (Y. İ. Perovskaya) aid yazılar praktik işçilərə yaxından kömək etmişdir.

Jurnalda kommunist tərbiyəsi problemi ilə məşğul olan alimlər və praktik müəllimlər geniş təmsil edilmişdir. Məktəb şagird kollektivinə, şüurlu intizam tərbiyəsi, sinif rəhbərinin işinin metodikasına dair E.İ. Monoszonun, N.İ. Boldıryevin, V.E. Qmurmanın, İ.S.Maryenkonun, O.S. Boqdanovanın yazıları məktəb işçilərinin yaxın köməkçisi olmuşdur. 60-cı illərdən e'tibarən komsomol və pioner təşkilatlarının fəaliyyətində əmək tərbiyəsi məsələlərinin işıqlandırılması xeyli gücləndirilmişdir.

Ölkəmizdə yeni tip tədris müəssisələri–internat və günüuzadılmış məktəblərin təşkili ilə əlaqədar olaraq jurnal onlara aid silsilə material dərc etmişdir (E.Q.Kostyaşkin, Y.İ. Perovski). Jurnal məktəbşünaslıq probleminə də e'tinasız qalmamış, bu sahədə də xeyli materiallar vermişdir. (A.N. Volkovski və M.İ.Kondakov).

«Sovetskaya pedaqogika» jurnalının çox mühüm xidmətlərindən biri də budur ki, o, xalq pedaqogikası ilə bağlı bütün partiya və dövlət qərarlarına operativ səs vermişdir. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin «Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» (1966) məşhur qərarı ilə əlaqədar jurnal yeni rubrikalar altında tə'lim və tərbiyənin keyfiyyəti, müasir elm və texnikanın naliyyətlərinin məktəb təhsilinin məzmununda əks etdirilməsi, elmlərin əsaslarının öyrənilməsində varisliyin tə'min edilməsi, şagird tədris yükünün daha səmərəli bölünməsi və s. problemlərə dair materiallar dərc etməyə marağı daha da artırmışdır.

Ümumtəhsil və peşə məktəbi islahatının tələblərindən, Sov. İKP MK-nın son plenumlarının materiallarından irəli gələn çox mühüm pedaqoji problemlərin həllində jurnal yaxından iştirak edir və dərc etdiyi çoxşaxəli məqalələrlə sovet ümumtəhsil və texniki peşə təhsilinin daha da inkişaf etdirilməsinə elmi-pedaqoji və metodik istiqamət verir.

Pedaqogikanın digər köklü problemlərindən olan rus dili-ədəbiyyat, tarix və ictimaiyyətin, təbii-riyazi silsilədən olan fənlərin, xüsusilə təbiətşünaslığın tədrisi də diqqət mərkəzində olmuşdur.

Şagirdlərin fiziki və estetik tərbiyəsinə aid yazılar da jurnalda öz əksini tapmışdır.

Jurnal milli məktəblərə, xarici ölkələrdə məktəb və pedaqogika problemlərinə də diqqətlə yanaşır.

Müəllim kadrları hazırlığı və onun təkmilləşdirilməsi problemi jurnalın daim diqqət mərkəzində durur. «Sovetskaya pedaqogika» jurnalının səhifələrində pedaqogika tarixi ilə tanınmış sovet pedaqoji tarixçilərinin, o cümlədən V.S. Smirnov, N.A.Konstantinov, M.F. Şabayeva, F.F. Korolyov, Z.İ.Ravkin, A.İ. Piskunov və başqalarının dərc etdirdikləri məqalələr keçmişin mədəni irsinə münasibət haqqında V.İ. Lenin tə'liminə jurnalın sadiq qaldığını göstərir.

«Sovetskaya pedaqogika» jurnalının ən böyük xidmətlərindən biri SSRİ xalqlarının mədəni irsi–məktəb və pedaqoji fikir tarixi sahəsində aparılan tədqiqatların nəticələrini oxuculara çatdırmaq olmuşdur. Cəsarətlə demək olar ki, jurnal bu sahədə də xeyli və faydalı iş görmüş, rus olmayan xalqların, o cümlədən Azərbaycan xalqının məktəb və pedaqoji fikir tarixinin bu və ya digər probleminə aid də yazılar dərc etmişdir.

«Sovetskaya pedaqogika» jurnalının fəal müəllifləri içərisində professor M.M. Mehdizadə ilə Ə.Y.Seyidovun adını jurnalın yubiley ilində bir daha yad etmək yerinə düşərdi. Azərbaycan sovet məktəbinin inkişaf yollarını işıqlandıran, Azərbaycan pedaqoji fikrinin qiymətli incilərini Ümumittifaq və dünya oxucularına çatdıran bu müəlliflərin məqalələri jurnalı daha da oxunaqlı etmişdir. M. Məmmədov, Bəşir, Camal və Hüseyn Əhmədovlar, S. Əliyeva, İ. Mollayev və başqaları jurnalın fəal müxbirləri olmuşlar. Azərbaycanın bir sıra məşhur pedaqoqlarının, o

çümlədən M.Füzuli, A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, M.T.Sidqi, A.O.Çernyayevski, F.Köçərli, N.Nərimanov, Ü.Hacıbəyovun pedaqoji fikirlərinə, rus-Azərbaycan pedaqoji əlaqələrinə jurnalın səhifələrində ayrıca yer verilməsi onun beynəlmiləl məsləkini təsdiq edir.

«Sovetskaya pedaqogika» jurnalı bu gün də Azərbaycan pedaqoqlarının, xalq maarifi işçilərinin ən yaxın köməkçisi və stolüstü mənbələrindən biridir.

«Azərbaycan müəllimi» qəzeti 5 oktyabr 1987-ci il.

Azərbaycan pedaqogikasının ağsaqqalı

Pedaqoji elmlər namizədi, dosent Əyyub Səməd oğlu Tağıyev sovet dövründə Azərbaycanda yetişmiş pedaqoq-alimlərin ikinci nəslinə mənsubdur. O, prof.Ə.Seyidov elmi məktəbinin ilkin nümayəndələrindən biri və birincisidir. Əyyub müəllimi mən 1952-ci ilin payızından tanıyıram. O, prof.Ə.Seyidovun ilk iki aspirantlarından biri idi. Belə ki, 1949-cu ildə V.İ. Lenin adına APİ-nin pedaqogika kafedrasının əyani şö'bəsinə qəbul olunan 2 nəfər aspirantdan biri mərhum dos.Təl'ət Əfəndiyev, digəri isə Əyyub Tağıyev olmuşdur. Bu iki nəfərdən sonra həmin kafedra üzrə aspiranturanın əyani şö'bəsinə 1952-ci ildə mən qəbul olmuşam. O vaxtdan 45 il keçir. Bu müddət ərzində Əyyub müəllimlə biz bir yerdə, bir kafedrada, bir müəssisədə çalışmışıq, həmişə sıx ünsiyyətdə olmuşuq.

Əyyub müəllim bizim gözümüz önündə böyüyüb, püxtələşib, elmi-pedaqoji sahədə gərgin əmək çəkib, müxtəlif vəzifələrdə, o cümlədən institut partiya komitəsinin katibi, dekan, kafedra müdiri vəzifələrində çalışıb.

Dos.Əyyub Tağıyev pedaqogika elminə öz marağı və həvəsi ilə gəlmiş, özünün gərgin əməyi ilə yüksəlmişdir. Ona görə də o, bu peşənin qədrini bilib, ömrünün 60 ilindən çoxunu gənc nəslin təhsil və tərbiyəsi işinə həsr etmişdir.

Dos.Əyyub Tağıyev, prof.Ə.Seyidov elmi məktəbinin ilk davamçısıdır. Mə'lumdur ki, prof.Ə.Seyidov Azərbaycanda məktəb

və pedaqoji fikir tarixinin tədqiqi, tədrisi və təbliği sahəsində bir elmi məktəb yaratmışdır. Bu məktəbi ilk davam etdirən isə Əyyub müəllim olmuşdur. Belə ki, o da şüurlu həyatının bütöv bir dövrünü Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqinə, həm də tədrisinə həsr etmişdir. O, hər şeydən əvvəl 1954-cü ildə V.İ. Lenin adına APİ-nin elmi sovetində «Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra orta pedaqoji təhsilin inkişafı» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Doktorluq dissertasiyası üçün mövzu seçərkən tərəddüd etmədən Azərbaycan pedaqoji fikrinin araşdırılmamış problemlərini özünə tədqiqat obyekti seçmişdir. «XX əsrin əvvəllərində Azərbaycanda inqilabi-demokratik pedaqoji ideyaların inkişafı uğrunda «Molla Nəsrəddin» jurnalının mübarizəsi (1906–1931-ci illər) mövzusunda doktorluq dissertasiyasını 1973-cü ildə başa çatdırmışdır. O, ömrünün bir neçə on ilini bu problemin öyrənilməsinə həsr etmiş və onlarla jurnal məqaləsi dərc etdirmişdir.

Əyyub Tağıyev praktik-pedaqoji fəaliyyətinin sonuna qədər dosent olaraq qaldı. Lakin o nədənsə professorluğa təqdim edilmədi. Halbuki o, bu vəzifəyə yaradıcılığının nəticələrinə və xidmətlərinə görə layiq idi.

Dos.Əyyub Tağıyevin əsərləri Azərbaycan pedaqoji elmini xeyli zənginləşdirmiş, əsərləri gənc tədqiqatçılar üçün ilk mənbəyə çevrilmişdir.

Dos.Əyyub Tağıyev Azərbaycan pedaqogikasının ağsaqqalıdır. Ağsaqqallarından biri deyil, məhz ağsaqqalıdır. Onun keçdiyi həyat yolu gənclərə örnək olmalıdır.

Əyyub müəllim yaxşı yoldaş, səmimi dostdur. Xeyir və şər (Allah uzaq eləsin) məclislərində bir yerdə çox olmuşuq. O, həm də gözəl ailə başçısıdır, iki qız, bir oğul atasıdır.

1997-ci ilin mayında dos.Əyyub Tağıyevin anadan olmasının 85 illiyi tamam olur. Sağlıq olsun, onun yubileyini keçirmək ümidilə, haqqında yazılan kitabçaya yazdığım ön söz əvəzini bitirmək istəyirəm. Azərbaycan pedaqogikasının ağsaqqalına Allah-taalanın ona bəxş etdiyi ömrün qalan hissəsini də mə'nalı yaşamağı arzu edirəm.

Görkəmli pedaqogika tarixçisi
Əyyub Tağıyev. Bakı–ADPU–1997

«Azərbaycan məktəbi» jurnalının baş redaktoru, filologiya elmləri namizədi, əməkdar müəllim Zəhra xanım Əliyevaya!

Hörmətli Zəhra xanım!

Sizi anadan olmağınızın 70, elmi-pedaqoji, jurnalistlik fəaliyyətinizin 55 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, həyatda uzun ömür, cansağlığı, xoşbəxtlik, sevinc-səadət dolu günlər arzulayıram.

Sizi, Azərbaycan pedaqoji ictimaiyyəti gözəl tədqiqatçı-alimi, ədəbi əlaqələr tarixinin tanınmış araşdırıcısı, bacarıqlı təhsil təşkilatçısı, əvəzsiz pedaqoji jurnalist kimi dəyərləndirir və sevir. Siz uzun müddət respublika Maarif Nazirliyinin Baş Məktəblər İdarəsinə ləyaqətlə rəhbərlik etmiş, ümumtəhsilin inkişafında, Azərbaycan məktəbinin ümumi problemlərinin həllində böyük xidmətlər göstərmişsiniz.

Siz 1981-ci ildən bu günə kimi pedaqoji təfəkkürün xəzinəsi olan «Azərbaycan məktəbi» jurnalına bacarıqla, professional jurnalist səriştəsi ilə rəhbərlik edirsiniz. 90-cı illərin əvvəllərində iqtisadi çətinlik ucbatından nəşrini dayandırmaq təhlükəsi qarşısında qalan «Azərbaycan məktəbi» jurnalı məhz Sizin fədakarlığınız nəticəsində öz fəaliyyətini dayandırmamışdır. Rəhbərlik etdiyiniz bu jurnalın Azərbaycanda pedaqoji fikrin inkişafında, klassik dünya pedaqoqlarının, Azərbaycanın görkəmli maarifçilərinin, məktəbdarlarının, yazıçı və şairlərinin pedaqoji fikir və ideyalarının təbliğinə, xalqımızın zəngin mədəniyyət tarixinin ayrılmaz hissəsi olan məktəb və pedaqoji tarixinin müxtəlif problemlərinin araşdırılmasında xidmətləri təqdirəlayiqdir. Pedaqoji fikir tariximizin nadir inciləri – xalq pedaqogikasından, «Avesta»dan başlamış, müasirlərimiz olan onlarla maarifpərvərin pedaqoji fikirləri ilk dəfə məhz «Azərbaycan məktəbi» jurnalında öz əksini tapmışdır.

Əzizimiz Zəhra xanım! Sizi, Azərbaycan pedaqoji jurnalistikasının inkişafında misilsiz xidmətləri olan elimizin alim qızını, sözü də özü kimi lətafətli xanımı ad günü münasibəti ilə təbrik edir, Allahtaalanın Sizə bəxş etdiyi ömrü cansağlığı və şərəflə yaşamağı arzulayıram. Hörmətlə.

Azərbaycanın elm və mədəniyyət xadimləri. Ömürdən səhifələr. Bakı, 2000, s.198.

Uğurlu addımlar

Azərbaycan xalq maarifi, tə'lim-tərbiyə, məktəb təhsili və milli pedaqoji kadr hazırlığının son 75 ili «Azərbaycan məktəbi» jurnalı ilə bağlı olmuşdur. XX əsrin dörddə üçünü əhatə edən 75 il müddətində «Azərbaycan məktəbi» şərəfli bir yol keçmiş, respublikanın mədəni, elmi və pedaqoji həyatında mühüm rol oynamışdır.

«Məktəb» adlı jurnal nəşr etmək ideyası 100 il bundan əvvəl meydana gəlmişdir. Mə'lum olduğu kimi, hələ keçən əsrin sonlarında xalqımızın unudulmaz oğlu, o vaxtlar Bakı klassik gimnaziyasında müəllim vəzifəsində işləyən N.Nərimanov hökumət idarələrinə rəsmi müraciət edərək «Məktəb» adlı jurnal nəşr etməyə icazə istəmişdi, lakin onun təşəbbüsü, təəssüf ki, nəticəsiz qaldı.

Bununla belə, unudulmaz maarifçinin bu ideyası əsrimizin əvvəllərində Azərbaycanın qabaqcıl müəllimləri tərəfindən reallaşdırıldı.

Tanınmış maarif xadimlərindən olan Ə.Cəfərzadə ilə M.Əfəndizadənin redaktəsi ilə nəşr edilən «Dəbistan» («İbtidai məktəb») jurnalı 1906-cı il aprelin 16-da işıq üzü gördü. Səhifələrində N.Nərimanov, H.Zərdabi, M.Ə.Sabir, M.Hadi, A.Şaiq, S.M.Qənizadə, R.Əfəndiyev kimi pedaqoqların çıxış etdikləri «Dəbistan» günün vacib pedaqoji məsələlərinə toxunur, uşaqların tə'lim-tərbiyəsinə aid bədii əsərlər çap edir, coğrafiya, fizika, heyvanat aləminə dair yazılar dərc edirdi.

Demokratik istiqamətli bu pedaqoji jurnal ilə yanaşı, elə həmin ildə (24 sentyabr 1906cı il) məşhur müəllim və maarifçi M.Mahmudbəyov tərəfindən nəşr edilən aylıq «Rəhbər» jurnalı da məktəb təhsili, tə'lim və tərbiyə məsələlərinə dair yazılar, Azərbaycan, rus və dünya ədəbiyyatından nümunələr çap etməklə oxucuların hörmətini qazanmış, pedaqoji fikrin, ümumtəhsil ideyalarının yayılmasında mühüm və tarixi xidmətlər göstərmişdir.

Rus çarizminin ucqarlarda milli təhsilə qarşı mürtəce siyasəti, digər tərəfdən isə maddi çətinliklər nəticəsində bu jurnallar qısa müddətdən sonra bağlansa da, onların səpdiyi toxumlar yenidən cücərməyə başladı.

Səhifələrində N.Nərimanovun, H.Zərdabinin, S.S.Axundovun, Ü.Hacıbəyovun, A.Şaiqin, A.Səhhətin yazılarını dərc etdirən jurnal dövrünün başlıca pedaqoji məsələlərinə toxunur, elmi-pedaqoji bilikləri təbliğ edir, uşaqlarda düzgün mə'nəvi keyfiyyətləri formalaşdıran, elmə və maarifə həvəsi artıran yazılar dərc edirdi.

1920-ci ilə qədər nəşr edilən «Məktəb» jurnalı Azərbaycanda pedaqoji elmlərin inkişafında, məktəb təhsilinin genişləndirilməsində mühüm xidmətlər göstərmişdir.

Bu mə'nada Azərbaycan milli pedaqoji mətbuatının, onun yaranma ideyasının meydana gəlməsinin gələn il 100 ili tamam olur.

Bu gün «Azərbaycan məktəbi» adları yuxarıda çəkilən jurnalların xələfi və qanuni varisidir.

«Azərbaycan məktəbi» jurnalının fasiləsiz olaraq son 75 il ərzində fəaliyyət göstərməsi milli pedaqoji mətbuatımızın tarixində mühüm hadisədir. Mübaliğəsiz demək olar ki, «Azərbaycan məktəbi» jurnalı öz sələflərinin başladıqları çox xeyirxah məramı, milli və demokratik ruhlu prinsipial problemləri yeni siyasi, iqtisadi, ictimai və pedaqoji mühitdə daha da inkişaf etdirmiş, Azərbaycan pedaqoji fikrinə yeni ruh gətirmiş, məktəb təhsilinin pillə-pillə inkişafı ilə bərabər jurnal özü də addım-addım inkişaf etmiş, yeni forma və məzmun kəsb etmişdir.

Nəhayət, öz sələflərinin ləyaqətli davamçısı olan və bu il ilk nömrəsinin çapdan çıxmasının 75 illiyini qeyd edən «Azərbaycan məktəbi» jurnalı keçən müddət ərzində xalqımızın bütövlükdə milli mədəniyyətinin, məktəb və xalq maarifinin inkişafını işıqlandıran bir məş'əl rolunu oynadı.

Məktəbəqədər tərbiyə müəssisələrindən başlayaraq, ölkədə əvvəlcə ibtidai, sonra 7 və 8 illik, daha sonra isə 10–11 illik ümumi icbari təhsilin həyata keçirilməsi işində «Azərbaycan məktəbi» müəllimlərin köməkçisi olmuşdur.

Jurnalın mühüm xidmətlərindən biri də oxucuları dünya və rus pedaqoji fikrinin görkəmli nümayəndələrinin ideyaları ilə yanaşı, Azərbaycan xalqının pedaqoji təfəkküründün bir neçə nəslinin nümayəndələrinin zəngin fikirləri və təcrübələri ilə tanış etməsi olmuşdur.

«Azərbaycan məktəbi» jurnalı özünün fəaliyyəti müddətində pedaqogikanın nəzəriyyəsi və tarixinin, demək olar ki, bir çox vacib

problemlərinə dair yazılar dərc etmişdir. Xüsusilə də Azərbaycan xalqının keçdiyi bütün tarixi dövrlərin, əsrlərin son ikiyüzillikdə isə hətta qərinələrin belə məktəb təhsilinin forma və məzmununu, onun inkişaf dinamikasını əks etdirən məqalələr dərc etməklə öz oxucusunun pedaqoji dünyagörüşünün formalaşmasına yaxından kömək etmişdir.

Bu gün respublikamızın orta ixtisas və ali məktəblərində çalışan pedaqoq alimlərin istisnasız olaraq hamısı «Azərbaycan məktəbi» jurnalından bəhrələnmiş, onun səhifələrində böyümüşlər.

Yeri gəlmişkən onu qeyd etməyi lazım bilirəm ki, mən özüm də «Azərbaycan məktəbi» jurnalının, təxminən, 50 illik oxucusu kimi ondan çox faydalanmışam. Başqa sözlə desəm, «Azərbaycan məktəbi» jurnalı bir çoxları kimi, mənim də stolüstü kitabım, hər dəfə müraciət etdiyim ən mö'təbər bir mənbə olmuşdur.

Əvvəllər, tələbəlik illərində, eləcə də aspirantura dövründə oxucusu olduğumuz bu jurnalın sonralar həm də fəal müəlliflərindən birinə çevrildim və redaksiya hey'ətinin tərkibinə daxil edildim.

Bu gün əsərlərimizin biblioqrafiyasına nəzər saldıqda mə'lum olur ki, burada irili-xırdalı 60-a qədər məqaləm dərc edilib. İlk məqaləm 1955-ci ildə mərhum professor M.Muradxanovun tövsiyəsi ilə çap olunub.

Bu gün mənə sual versələr ki, «Azərbaycan məktəbi» jurnalı Sizə nə vermişdir? Bu sualın cavabı yuxarıda dediklərimdir. İkinci cavab isə budur ki, mən və mənim müasirlərim jurnalın əsas istiqamətvericiləri olan professor M.Muradxanovun bu gün də öz aktuallığını saxlayan məqalələrindən, professor Ə.Seyidovun Azərbaycan, rus və dünya pedaqoji fikrinin görkəmli nümayəndələrinə, pedaqogikanın metodoloji məsələlərinə dair yazılarından, akademik M.Mehdizadənin pedaqogikanın həm nəzəriyyəsinə, həm də tarixinə dair məqalələrindən nəinki faydalanmışıq, əslində onlardan ideya istiqaməti götürmüşük və bu ideyaları bu gün inkişaf etdirməyə çalışırıq.

«Azərbaycan məktəbi» jurnalı öz sələflərinin mütərəqqi ən'ənələrinə sadiq qalaraq dövrün görkəmli şəxsiyyətləri, o cümlədən Səməd Vurğundan tutmuş Mirzə İbrahimova qədər bir çox ictimai və pedaqoji fikir nümayəndələrinin, dövrün zəka sahiblərinin, xüsusilə də praktik məktəb işçilərinin, məktəbdarların qabaqcıl iş təcrübəsini

jurnal səhifələrinə çıxarmaqla onu daha da oxunaqlı və faydalı etmişdir.

Hazırda yeganə nəzəri, pedaqoji-metodik jurnalımız olan «Azərbaycan məktəbi»nin səhifələrində nəşr edilən yazılar bugünkü oxucuların pedaqoji biliklərini daha da zənginləşdirməklə kifayətlənmir. Bu yazılar həm də bizim sabahımızın, işıqlı gələcəyimizin, mədəni-mə'nəvi tariximizin, keçmişimizin səhifələrinə çevriləcək.

Nəhayət, onu da qeyd etməyi lazım bilirəm ki, «Azərbaycan məktəbi» jurnalı keçid dövrünün bütün çətinliklərinə sinə gərmiş, maddi sıxıntılar içərisində olsa da, ümidlə yaşamış və qarşısına qoyduğu vəzifələri ləyaqətlə yerinə yetirməyə sə'y göstərmişdir.

Son illər redaksiyanın yerləşdiyi otaqların zəbt edilməsi, redaksiyanın darısqallığa sıxışdırılması, abunəçilərin sayının təbii olaraq qismən azalması, xeyriyyəçiliyin olmaması faktını da dediklərimizə əlavə etsək, jurnalı yaşadanların gərgin əməyi, zəhməti və xalq maarifi yolunda əzmkarlığı, qeyrəti göz önündə canlanır.

Bu çətin, lakin şərəfli işdə jurnalın baş redaktoru, xalqımızın maarifpərvər qızı, uzun illər «Azərbaycan məktəbi»nin tərəqqisi yolunda özünün bilik və bacarığını əsirgəməyən Zəhra xanım Əliyevanın xüsusi xidməti diqqətə, hörmətə və ehtirama layiqdir. Məhz Zəhra xanımın ciddi sə'yi sayəsində «Azərbaycan məktəbi» jurnalı öz fəaliyyətini dayandırmadı. Və bu gün respublikanın pedaqoji ictimaiyyəti «Azərbaycan məktəbi»nin şanlı 75 illik yubileyini ləyaqətlə qeyd edir.

Beləliklə, keçid dövrünün müəyyən çətinliklərinə baxmayaraq, «Azərbaycan məktəbi» jurnalı müstəqil, suveren Respublikamızda xalq maarifinin yenidən qurulmasında dövlət siyasətinin həyata keçirilməsinin ön cərgəsində gedir.

«Azərbaycan məktəbi»
jurnalı 1999, №6, s.118–121.

Cəfakeş alim

Azərbaycanda pedaqogika elminin inkişafında, onun metodoloji problemlərinin tədqiqi, tədrisi və təbliğində böyük xidmətləri olan pedaqoq alimlərimizdən biri də elmi-pedaqoji ictimaiyyətin yaxşı tanıdığı pedaqoji elmlər doktoru, professor Əjdər Abdul-Hüseyn oğlu Ağayevdir. O, 1953-cü ildə Salyan şəhərindəki 2 saylı orta məktəbi müvəffəqiyyətlə başa vurmuşdur. Arzularının qanadında Bakıya gələn Ə.Ağayev indiki N.Tusi adına ADPU-nun tarix-filologiya fakültəsinə qəbul olunmuş, çoxları kimi sadə tələbə ömrü yaşamış, arayıb-axtarmış, yuxusuz gecələr, narahat gündüzlər keçirmişdir. Tarixçi kimi düşünüb-daşınmış, filoloq kimi yazıb-yaratmış, hər iki ixtisasın incəliklərinə yiyələnmiş, arzusunda olduğu müəllimlik peşəsinə qovuşmuşdur. Ali pedaqoji məktəbi fərqlənmə diplomu ilə başa vurmuş, bir müddət müəllim kimi fəaliyyət göstərmiş, eyni zamanda dövri mətbuatda pedaqoji-metodik və publisistik yazılarla müntəzəm çıxış etmişdir.

Yazıb-yaratmağa, elmi axtarışlar aparmağa olan daxili ehtiras, mənəvi ehtiyac onu pedaqoji elmlərin baş qərargahına – Azərbaycan ETPEİ-yə gətirir. 1966–1969-cu illərdə aspiranturada əyani təhsil alır. Apardığı elmi-tədqiqatları ümumiləşdirərək «Azərbaycan pedaqoji fikir tarixi elminin akademiki, canlı ensiklopediyası» (N.G.Qonçarov), professor Ə.Seyidovun rəhbərliyi ilə «Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri» mövzusunda namizədlik dissertasiyası müdafiə edir.

Namizədlik dissertasiyasında və həm də sonrakı illərdə nəşr etdirdiyi «Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri» (B., Maarif, 1987) monoqrafiyasında F.Ağazadənin dünyagörüşünün formalaşdığı ictimai iqtisadi şərait, dövrün maarif mənzərəsi geniş şərh edilmiş, ictimai-siyasi baxışların və yaradıcılığının ideya mənbələri müəyyənləşdirilmiş, pedaqoji fəaliyyəti, ümumtəhsil, məktəb və müəllim haqqında, təhsilin məzmunu, təlimin prinsip və üsulları, ana dili və onun tədrisi haqqında, əxlaq, əmək, fiziki, estetik, dini tərbiyə, qadın azadlığı, təhsili və tərbiyəsi, ailə tərbiyəsi haqqında fikirləri sələflərinin fikirləri kontekstində, müqayisəli şəkildə tədqiq olunmuş, gənc nəslin tərbiyəsində həmin irsdən istifadə etməyin əhəmiyyəti göstərilmişdir.

Ə.Ağayev sonrakı illərdə Azərbaycan ETPEİ-də kiçik elmi işçi, baş elmi işçi, bölmə müdiri, şöbə müdiri, direktorun elmi işlər üzrə müavini vəzifələrində çalışmış, 1974–1981-ci illərdə «pedaqoji biliklərin təfəkkür mərkəzi» (prof.Ş.Səfərov) hesab edilən «Azərbaycan məktəbi» jurnalının baş redaktoru olmuşdur. Hazırda professor Azərbaycan ETPEİ-də pedaqogika tarixi və nəzəriyyəsi şöbəsinə rəhbərlik edir. Ə.Ağayev Azərbaycan pedaqoji elminin 70-ci illər nəslinə mənsub olan pedaqogika nəzəriyyəsi və tarixi üzrə hazırlıqlı mütəxəssisdir. Son 30 ilə yaxın bir dövrdə Azərbaycanda məktəb, təhsil, pedaqoji elmlərlə bağlı elə bir elmi məclis, elmi-nəzəri və praktik konfrans, sessiya və yığıncaq olmaz ki, o, orada iştirak etməsin, orijinal fikirləri, yeni elmi ideyaları ilə həmkarlarının diqqətini cəlb etməsin, səmərəli və ağıllı təklif irəli sürməsin. O həm də pedaqogikanın metodoloji problemlərinin, dəqiqləşdirmə tələb edən elmi məsələlərin araşdırılmasına həsr olunmuş elmi diskussiyalarda fəal iştirak etmiş, bəzi elmi həqiqətlərin üzə çıxmasına, yeni pedaqoji nəzəriyyələrin formalaşmasına öz töhfəsini vermişdir.

Ə.Ağayev respublika elmi-pedaqoji ictimaiyyəti tərəfindən yaxşı tanınan və qiymətləndirilən alimdir. Onun orijinal tədqiqatlarının elmi nəticələrindən fəlsəfə, hüquq, pedaqogika və ədəbiyyatşünaslıq üzrə tədqiqatçılar, proqram və dərslik tədbirləri mənbə kimi istifadə etmişlər. Bu gün yüksək elmi məclislərdə, pedaqoji mətbuatda onun əsərlərinin respublikamızda pedaqoji fikrin inkişafına, müəllimlərin nəzəri hazırlığının yüksəldilməsinə böyük kömək etdiyi qeyd edilir. Adı isə pedaqogika elminin «qızıl sacayaqları» (M.Mehdizadə, Ə.Seyidov, M.Muradxanov) və «sütunları» ilə (N.Kazımov, H.Əhmədov, Ə.Həşimov, Y.Talıbov və b.) bir yerdə çəkilir.

Ə.Ağayevi həmkarlarından fərqləndirən cəhət onun geniş erudisiyaya malik olmasıdır. O, elmi pedaqoji, ədəbi-bədii, publisistik-jurnalistik istiqamətli zəngin irsə malikdir. 20 monoqrafiya, kitab, kitabça və broşuranın 500-dən artıq qəzet-jurnal məqaləsinin, 150 mahnının müəllifidir. Görkəmli bəstəkarlar C.Cahangirov və D.Kobalevski ilə birlikdə yazdığı əsərlər uşaqların mahnı bayramlarında 10 və 20 minlik xorun ifasında səslənmiş, arxiv fonduna daxil olmuşdur. Əsərləri rus, belorus, Ukrayna, başqırd

dillərində dərc olunmuşdur. Pedaqoji tənqidlə müntəzəm məşğul olan, elmi-pedaqoji prosesi təhlilə cəlb edən, uğur və nailiyyətləri təqdir etməklə, nöqsan və çatışmazlıqların obyektiv və subyektiv səbəblərini müəyyənləşdirən və səmərəli təkliflər verən Ə.Ağayev həm də ədəbi tənqidlə məşğul olmuşdur.

Elmi xidmətləri ilə Azərbaycan pedaqogika elminin son dövr tarixinə daxil olan Ə.Ağayevin elmi-pedaqoji irsində məktəb və pedaqogika tarixinin öyrənilməmiş məsələlərinin araşdırılması, tərbiyə nəzəriyyəsi və təcrübəsi üzrə (xüsusilə əxlaqi-mə'nəvi tərbiyə) orijinal tədqiqatların aparılması, tə'limin təkmilləşdirilməsi, təhsilin yeni məzmununun müəyyənlşdirilməsi, pedaqoji biliklərin geniş təbliği və digər məsələlər geniş yer tutur. O, ilk dəfə olaraq XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrinin başlıca problemləri və cərəyanlarını müəyyənləşdirib, təhlilini vermişdir.

İste'dadlı alim, eyni zamanda M.Əvhədinin, N.Tusinin, M.F.Axundovun, Ü.Hacıbəyovun, S.Vurğunun pedaqoji ideyalarının üzə çıxarılması və sistemə salınmasında da səmərəli fəaliyyət göstərmişdir.

Ə.Ağayev «Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi» (B., Maarif, 1975), «Vətəndaş olmağa borclusan» (B., Maarif, 1979), «Həyatın astanasında» (B., Maarif, 1983) kitablarında və silsilə məqalələrində şagirdlərin vətəndaşlıq borcu tərbiyəsi işinin metodikasını işləmiş, tərbiyənin bir sıra yeni prinsiplərini (xüsusilə sahiblik prisipini) müəyyənləşdirmişdir.

70-ci illərdə keçmiş İttifaqda, o cümlədən Azərbaycanda görkəmli pedaqoqların (bə'zən də heç pedaqoq olmayanların) pedaqoji görüşlərinin tədqiqi dəb olduğu bir vaxtda ilk dəfə Ə.Ağayev problem xarakterli mövzunun – şəxsiyyət haqqında Azərbaycan pedaqoji fikir klassiklərinin ideyalarının müddəa və mülahizələrin tədqiqinə girişir. «Azərbaycan maarifpərvərləri şəxsiyyət və onun formalaşması haqqında» (B., Elm, 1974), «Azərbaycan maarifpərvərləri şəxsiyyət haqqında» (B., Maarif, 1978) kitabları və silsilə məqalələri ilə pedaqoji fikir tarixinin tədqiqində yeni cığır açır, bu təşəbbüsün pioneri kimi pedaqoji elmə daxil olur. Həmin problemlə bağlı uzun illər səmərəli tədqiqatlar aparır. Sistemli və ardıcıl tədqiqatların ümumiləşdirilmiş yekunu

kimi formalaşdırdığı «Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi» adlı doktorluq dissertasiyasını müdafiəyə təqdim edir. Ciddi müzakirələrdən sonra doktorluq dissertasiyası Ali Attestasiya Komissiyasının müvafiq ekspert şurasına təqdim olunur. Görkəmli pedaqoq, Azərbaycan pedaqoji elminin cəfakeşlərindən biri, professor Z.Qaralovun rəhbərlik etdiyi ekspert şurasında iş diqqətlə oxunmuşdur, doktorantın elmi-pedaqoji və ictimai fəaliyyəti öyrənilmiş, elmi-pedaqoji kadr hazırlığındakı xidmətləri təqdir olunmuşdur, elmi-nəzəri və praktik əhəmiyyətə malik tədqiqat əsəri kimi səciyyələndirilmişdir. AAK-ın Rəyasət Hey'əti cəfakeş alimə pedaqoji elmlər doktoru alimlik dərəcəsi verməklə yanaşı, həm də professor elmi adının verilməsi haqqında qərar qəbul etmişdir. Əsərin belə uğur qazanmasının səbəbi nədədir? Ə.Ağayevin gərgin zəhmətinin və istedadının vəhdətindən yaranan bu əsərin məziyyətlərinə, orijinallığı ilə seçilən ideya, fikir və təkliflərin bə'zilərinə nəzər yetirsək, bizcə, bu müvəffəqiyyətin səbəbləri açılmış olar.

Minacatla başlanan bu əsərdə Azərbaycan ictimai-pedaqoji fikir tarixində şəxsiyyətin formalaşması probleminin qoyuluşu, məzmunu, həlli yolları üzə çıxarılır, ümumiləşdirilərək mahiyyəti şərh olunur, müasir dövrdə – milli oyanış, özünüdərk, tarixi keçmişə, qan yaddaşına qayıdış prosesində tə'lim-tərbiyə işində klassik pedaqoji fikir dəyərlərindən istifadənin başlıca imkanları müəyyənləşdirilir. Burada milli pedaqoji dəyərlər ayrılıqda deyil, ümumbəşəri dəyərlər, dünya ictimai fikrində, elmində və mədəniyyətində yaranan bütün mütərəqqi ideyalar məcmusunun fonunda tədqiq olunur, şəxsiyyət haqqında fikirlərin meydana çıxması, dini və elmi yanaşmaların inkişaf istiqamətləri müəyyənləşdirilir, «şəxsiyyət», «insanın inkişafı», «şəxsiyyətin formalaşması» anlayışlarının müasir pedaqoji, psijoloji, fəlsəfi, sosioloji ədəbiyyatda izahı müqayisəli olaraq təhlil edilir və bunlara münasibət bildirilir. İnsanın yaranması, onun fərddən şəxsiyyətə çevrilməsi haqqında fikirlərin elmi şərhi verilir, elmi cəhətdən əsaslandırılmayan fikir və ideyalar tənqid olunur, şəxsiyyətin formalaşması probleminin qaynaqları və bu qaynaqlarda qoyulan ideyalar üzə çıxarılır. Azərbaycan xalq pedaqogikasının şifahi nümunələri, yazılı abidələri, dini tə'lim və ideyalar şəxsiyyətin

formalaşması ideyasının mənbəyi kimi araşdırılır. Azərbaycan xalq pedaqogikasının şifahi nümunələri, yazılı abidələri, dini tə'lim və ideyalar şəxsiyyətin formalaşması ideyasının mənbəyi kimi araşdırılır. Azərbaycan mütəfəkkirlərinin fəlsəfi, ictimai-pedaqoji və bədii irsində şəxsiyyətin mahiyyəti məsələsini araşdırmağa çalışan Ə.Ağayev, qədim dövrün filosoflarından Ankaranın, orta əsr mütəfəkkirlərindən Ə.Bəhmənyarın, B.Miyanəçinin, Ş.Sührəvərdinin, Ə.Xunəcinin, S.Urməvinin, N.Tusinin, N.Qəzvinin, M.Şəbüstərinin şəxsiyyətə dair fikirlərini təhlilə cəlb edir və konkret nəticələr çıxarır. Belə bir nəticəyə gəlir ki, Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin mahiyyəti fərd üçün səciyyəvi olan bioloji xüsusiyyətlərdə deyil, ictimai məzmunlu insana məxsus sosial tələbləri ödəməsi ilə, etika-əxlaqi mc'yarlarla qiymətləndirilmişdir. Dissertasiyada şəxsiyyətin formalaşmasına tə'sir edən irsiyyət, mühit, tərbiyə amillərinin roluna dair fikirlər ətraflı təhlil edilir, ümumiləşdirilir, fərqlər və eyniliklər üzə çıxarılır. Şəxsiyyət tərbiyəsinin məqsədi, məzmunu, vasitə və metodları yeni yönümdə təsnif edilir, məktəbli şəxsiyyətin formalaşmasında tarixi-nəzəri fikir və təcrübədən istifadənin optimal imkanları müəyyənləşdirilir, dəyərli təkliflər irəli sürülür. Müəllifin fikrincə, insana verilən bütün biliklər, öyrədilən elmlər ilk növbədə kamil insan – şəxsiyyət yetişdirilməsinə xidmət göstərməlidir. Edilən kəşflər belə insana iqtisadi, sosial-mə'nəvi cəhətdən fayda vermirsə, faydasız hesab edilməlidir.

Tədqiqatda mə'nəvi-ruhi, əxlaqi-mə'nəvi və etik, ağlın, iradə və xarakterin tərbiyəsi ilə bağlı Azərbaycan pedaqoji fikir nəhənglərinin nəzəri ideyaları da sistemə salınmışdır.

Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması ilə əlaqədar meydana çıxan zəngin pedaqoji ideyaları və təcrübələri Azərbaycan milli pedaqogikasının elmi-pedaqoji əsasları kimi şərh edən Ə.Ağayev insanın heyvandan (meymundan) əmələ gəlməsi ideyasının həqiqətə uyğun olmadığını irəli sürür və elmi cəhətdən əsaslandırır. Onun möhkəm əqidəsinə və tədqiqatının elmi nəticəsinə görə, insan elə insan olaraq yaranmış, özünün qabiliyyət və keyfiyyət imkanlarından istifadə edərək inkişaf etmiş, təkmilləşmə yolu keçmişdir.

Ə.Ağayev şəxsiyyət tərbiyəsində bioloji, sosial və mə'nalı amillərin tə'sir dairəsini müəyyənləşdirmiş, inkişaf və tərbiyənin dinamik əlaqəliliyini tədqiqata cəlb etmiş, şəxsiyyətin formalaşması ilə bağlı dünya elmində mövcud olan, mirvari kimi səpələnmiş fikir və ideyaları toplamış, sistemə salmış, müasirlik baxımından cilalamış, şəxsiyyətin bütün parametrlərini nəzərə alaraq, ideoloji şablondan, milli-məhəlli məhdudluğundan uzaqlaşaraq bitkin konsepsiya irəli sürmüşdür. Onun fikrincə, şəxsiyyətin formalaşması, insanın bioloji (irsiyyət), sosial (mühit) və ictimai tərbiyə amillərinin tə'siri ilə inkişafı, özünüdərk və özünütəkmilləşdirmə yolu ilə yetkinləşməsi prosesidir. Dissertasiyada insanın fərddən şəxsiyyətə doğru inkişafı və formalaşmasının, təbii-bioloji, sosial və mə'nəvi təkamülü və qanunauyğunluqları ilk dəfə tarixi aspektdə izah edilmiş, şəxsiyyətin inkişafı, tərbiyəsi və formalaşmasının nəzəri əsasları müəyyənləşdirilmişdir. Əsaslı dəlillərlə, elmi və təcrübi faktlarla sübuta yetirilmişdir ki, cəmiyyətin intellektual və mədəni inkişaf səviyyəsi, sosial-iqtisadi şərait şəxsiyyətin hərtərəfli ahəngdar inkişafının, kamil insan yetişdirilməsinin başlıca şərtidir. Ə.Ağayev insana maddi və mə'nəvi varlığın məcmusu kimi yanaşmış, onun formalaşmasında irsi, ictimai-sosial və tərbiyə amillərinin küll halında nəzərə alınmasını vacib bilmişdir. Öz metodikasını da bu üçlüyün qarşılıqlı tə'sir mexanizmi əsasında işləmişdir ki, bu da ona uğur qazandırmış, sanballı fundamental elmi-tədqiqat əsəri yaratmasına impuls vermişdir. Məhz buna görə də «əsər Azərbaycanda pedaqoji fikrin inkişafına, tədqiqat mədəniyyətinin artırılmasına təhsil-tərbiyə quruculuğunun indiki mərhələdə təkmilləşdirilməsi və yetişdirilməsinə əsaslı tə'sir göstərə bilər» (prof.Z.Qaralov).

Millətin yazısını, dilini, ədəbiyyatını, elmini və nəhayət, özünü qoruyub saxlayan məktəbdir. Xalqımızın ümumi tarixinin mühüm hissəsi olan məktəb tarixinin öyrənilməsi, tədqiq olunması sahəsində də Ə.Ağayev elmi sə'y və fədakarlıq göstərmişdir. O, «150 yaşlı Şuşa məktəbi» (B., Maarif 1982), «Ötən əsrlərdə doğulmuşlardan biri» (B., Maarif 1993), «Privolnı məktəbinin bayramı» («Azərbaycan məktəbi» 1976, №1) «Əsr yarım xalqın xidmətində» («Azərbaycan məktəbi» 1983, №11) əsər və məqalələrində həmin məktəblərin inkişaf tarixini öyrənmiş, oradakı tə'lim-tərbiyə işlərinin

təşkilini elmi-pedaqoji aspektdən təhlil etmişdir. «Sona xanım Tağıyeva» (B., Azərbaycan, 1995) kitabçasında isə belə məktəblərdən birində saç ağartmış, həyatını şagirdlərinin ömrünə köçürmüş Sona xanım Tağıyevanın ömür yolu işıqlandırılır. Bakıdakı 190 saylı məktəbin uğurları təhlilə cəlb olunur, qabaqcıllığın sirri aşkarlanır.

Ə.Ağayev pedaqogikanın nəzəri-metodoloji məsələlərinin də tədqiqi ilə məşğul olmuş, xüsusilə, pedaqogikanın anlayış və terminologiya sisteminin, tə'lim-tərbiyə metodlarının təkmilləşdirilməsi ilə bağlı orijinal fikirlər söyləmiş, «Pedaqogika terminlərini dəqiqləşdirmək vacibdir» («Azərbaycan məktəbi» 1980, №7), «Tərbiyənin metodları» («Azərbaycan məktəbi» 1980, №5), «Tərbiyənin prinsipləri və onların tə'lim-tərbiyə prosesində reallaşdırılması» («Azərbaycan məktəbi» 1980, №1) kimi yüksək elmi-nəzəri əhəmiyyət daşıyan məqalələr yazmışdır.

O, eyni zamanda Azərbaycan pedaqoji fikrinin inkişaf tarixinin sistemini müəyyənləşdirmiş və bu əsasda irihəcmli «Azərbaycan pedaqoji fikir antologiyası»nı tərtib etmiş (prof. Ə.Həşimovla birlikdə) Moskvada, rus dilində çapına nail olmuşdur. Keçmiş İttifaq məkanında yaşayan xalqların elmi-pedaqoji ictimaiyyətini Azərbaycan xalqının zəngin mədəni-elmi və pedaqoji irsi, tərbiyə, tə'lim, təhsil nəzəriyyəsi və təcrübəsi ilə tanış edən bu hikmət çələnginin nəşri elmi-pedaqoji və siyasi əhəmiyyət kəsb edir.

Təhsilin məzmununu yeniləşdirməklə bağlı onun ideya və fikirləri həmişə maraq doğurmuş, bu sahədəki praktik fəaliyyəti təqdir olunmuşdur. Təhsilin məzmunu – formalaşan insanın məzmunu deməkdir – həqiqətə söykənən Ə.Ağayev hələ 90-cı illərin əvvəllərində məktəblərimizdə təhsilin məzmununun ciddi dəyişdirilməsini tələb edir.

Onun fikrincə, məktəblərimizdə təhsilin məzmunu düzgün müəyyənləşdirilmədiyindən, yaşadığı Mili, Şirvanı tanımayan uşaq Tundranı, Tayqanı öyrəndi. Ana Kürün, Xan Arazın bərəkətli suyundan xəbərsiz qaldı. Volqanın, Donun buzlu sularında «dondu». Tə'lim rus dilində olan məktəblərdə isə təlris planı RSFSR-dən olduğu kimi köçürüldüyündən, hətta bu məktəblərdəki azərbaycanlı uşaqlarına Azərbaycan ədəbiyyatı əvəzinə rus ədəbiyyatı tədris edildi. Onlar milli mə'nəvi məktəb olan Nizami dühasının

hikmətindən, Füzulinin mə'nəvi dünyasından, Xətainin vətəndaşlıq qeyrətindən, Nəsiminin milli amalından, Sabir tə'nəsindən, Mirzə Cəlil gülüşündən, Səməd Vurğundan, Koroğludan xəbərsiz qaldılar, «özgə paltarlarını geyinib toya gedən adamlara» (F.Köçərli) döndülər. Bu səbəbdən də o, ilk dəfə milli pedaqoji prisniplərə əsaslanan dərsliklərin, o cümlədən pedaqogika dərsliyinin yaradılmasının zəruriliyini irəli sürmüş, onun tərtibi prinsiplərini şərh etmişdir. Pedaqoji mətbuatda milli pedaqogikanın istinad mənbələrini, pedaqoji prinsiplərini müəyyənləşdirən, cəsarətli və orijinal fikirlər söyləyən, ciddi elmi ümumiləşdirmələr aparan Əjdər Ağayev pedaqoji məktəblər üçün «Pedaqogika» (B., Maarif, 1993) dərs vəsaitinin hazırlanmasında yaxından iştirak etmiş, tə'lim rus dilində olan məktəblərin II sinfi üçün «Azərbaycan dili» dərsliyini yazmışdır.

Ə.Ağayev qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilməsini ümumiləşdirən əsərlərin hazırlanmasında və nəşrində yaxından iştirak etmişdir.

Xarici ölkələrin klassik pedaqoqlarının bəşəri məzmun daşıyan ideyalarının tədqiqi və təbliğində də xeyli əmək sərf edən pedaqoq alimimiz 1971ci ildən bəri Azərbaycan televiziyası ilə şəxsiyyətin əxlaqi-mə'nəvi tərbiyəsindən bəhs edən «Həyat bizi səsləyir», «Təbliğatçının televiziya məktəbi», «Ədəb-ərkan dünyamız», «Təhsil: düşüncələr, mülahizələr» verilişlərinin müəllifi və aparıcısı olmuşdur.

Ə.Ağayev fəaliyyətində elmi-pedaqoji kadr hazırlığına da laqeyd olmamışdır. 18 nəfər tədqiqatçı məhz onun rəhbərliyi ilə pedaqoji elmlər namizədi, alimlik dərəcəsinə yüksəlmişdir. Belə bir göstərici özü elmlər namizədi ola-ola, 18 nəfər yüksək ixtisaslı elmi kadr hazırlamaq çoxlarına nəsib olmayan səadətdir. Ə.Ağayev 80-ci illərin axırlarından və 90-cı illərdə pedaqoji elmə gələn əksər tədqiqatçıların yardımçısı, təmənnasız xeyirxahı olub. Elmi rəhbər, opponent, müdafiə şurasının üzvü kimi çıxış edib və ya rəhbərlik etdiyi şö'bədə həmin iş müzakirə edilmişdir.

Ə.Ağayev respublikadan kənarda da Azərbaycanı layiqincə təmsil etmişdir. Moskva, Qomel, Ulyanovsk, Tbilisi, Minsk və b. şəhərlərdə keçirilən elmi sessiyalarda, konfranslarda maraqlı mə'ruzələrlə çıxış etmiş, təqdir olunmuşdur. O, SSRİ PEA-nın

pedaqogika tarixi üzrə elmi-problem şurasının üzvü olmuş, öz məzmunlu mə'ruzə və çıxışları ilə həmkarlarının rəğbətini qazanmışdır. 90-cı illərin əvvəllərində akademiyada keçirilən növbəti elmi sessiyadakı çıxışında erməni-Azərbaycan münaqişəsinin anatomiyasını açmış, əsl həqiqətlə həmkarlarını tanış etmiş, hər iki xalqa ziyan vuran müharibənin səbəblərini açıqlamış, Azərbaycan reallıqlarını yüksək elmi tribunadan söyləmiş, tanınmış və nüfuzlu alimləri əlahəzrət fakt qarşısında aciz qoymuşdur.

Ə.Ağayev elmi xidmətlərinə görə 1993-cü ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının pedaqogika doktoru seçilmişdir. O, müxtəlif ictimai işlər aparmış və indi də aparmaqdadır. Belə ki, bir müddət Azərbaycan Respublikası Təhsil Nazirliyində Vahid Elmi-Metodiki Şuranın pedaqogika bölməsinə rəhbərlik etmiş, N.Tusi adına ADPU-da fəaliyyət göstərən pedaqogikanın nəzəriyyəsi və tarixi üzrə ixtisaslaşdırılmış müdafiə şurasının üzvü olmuş, Təhsil Nazirliyi yanında Dövlət Ali Ekspert Komissiyasının işində üzv kimi iştirak etmişdir və hazırda «Təhsil» qəzeti redaksiyasının üzvü, Respublika Təhsil Cəmiyyəti sədrinin müavini kimi yeni elmi pedaqoji ideyaların, tədqiqat işlərinin nəticələrinin reallaşdırılmasında fəallıq göstərir, öz prinsipiallığı, obyektivliyi, dəyişməz mövqeyi və sağlam mə'nəviyyatı ilə tanınır.

Pedaqoji ictimaiyyət arasında yüksək nüfuz ilə seçilən Əjdər müəllim gözəl ailə başçısıdır. Ailəsində üç övlad böyüyüb. Ülviyyə Aytac Azərbaycan Tibb Universitetinin tələbəsidir. Həyat yoldaşı əzab-əziyyətini çəkən, pərvanə tək onun oduna yananlardandır.

Pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev ömrünün ən xoş, sevinc-səadət dolu məqamlarını yaşamaqdadır. Gərgin zəhmətinin və iste'dadının vəhdətindən doğan sevinc payı şərəfli alim ömrünün töhfəsidir.

Azərbaycan pedaqogika elminin inkişafı naminə görüləcək işlər hələ çoxdur. Bu yolda ona tükənməz yaradıcılıq enerjisi, səmərəli və məhsuldar fəaliyyət arzulayırıq. İnanırıq ki, Ə.Ağayevin zəngin təcrübəsi pedaqoji elmlər üzrə tədqiqata başlayan gənc tədqiqatçılar üçün dəyərli örnək olacaq.

Əjdər Ağayev. Biblioqrafik göstərici. Bakı, 1997, s.3–9.

Məktəb və pedaqoji fikir

«Ədəbiyyat və incəsənət» qəzetində (16 yanvar 1987, №3) dərc edilən «Elmin tarixi – xalqın tarixidir» adlı məqalədə çox mühüm və vacib məsələ qaldırılır. «Aşkarlıq» rubrikası başlığı altında dərc edilən bu məqalənin müəllifi professor Ağbaba Rzayev çox haqlı olaraq göstərir ki, «xalqın yaratdığı elmin tarixini öyrənmədən, xalqın tarixini dərk etmək çətin olur. Həm də belə tarix heç zaman tam ola bilməz». Məqalədə başqa bir fikir də diqqəti cəlb edir ki, xalqı onun çobanları, inşaatçıları və başqaları ilə deyil, «ilk növbədə onun şairləri, yazıçıları, rəssamları, alimləri ilə tanıyırlar».

Bu məqalədə oxucunu maraqlandıran məsələlərdən və qarşıya qoyulan vəzifələrdən biri də pedaqoji elmlər tarixinin tədqiqinin vacibliyinə diqqəti cəlb etməkdir. Müəllif yazır ki, «Xalqımız öz fəlsəfi, ədəbiyyatşünaslıq, tarix, riyaziyyat, astronomiya ilə yanaşı pedaqoji elmlərin də tarixini gözləyir».

Pedaqoji elmlərin tarixi xalqımızın mə'nəvi mədəniyyətinin mühüm tərkib hissəsidir. Xalqımız özünün keçmiş mədəniyyəti, xalq maarifi, məktəb təhsilinin qədimliyi və zənginliyi, mütərəqqi maarifçiləri, pedaqoqları, mütəfəkkirləri, məktəbdarları, alimləri ilə fəxr edir. Onların xalq maarifi, məktəb təhsili, tə'lim və tərbiyə sahəsindəki xidmətləri əvəzedilməzdir. Burasını qeyd edək ki, Azərbaycanda pedaqoji elmlər tarixinin öyrənilməsi və nəşri ancaq Böyük Oktyabrın nailiyyətlərindəndir. Bütövlüklə ölkəmizdə, o cümlədən respublikamızda Sovetlər hakimiyyəti illərində pedaqoji elmlərin tarixi sahəsində xeyli və əsaslı elmi tədqiqat işləri aparılmış, Azərbaycan və rus dillərində sanballı əsərlər çap edilmişdir. ilkin hesablamalara görə Sovet hakimiyyətinin 60 ili ərzində (1918–1977-ci illərdə) məktəb və pedaqoji fikir tarixi üzrə yazılmış dissertasiyaları sayına görə bu gün müttəfiq respublikalar içərisində Azərbaycan üçüncü yeri tutur. Son vaxtlar SSRİ PEA tərəfindən «SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər» adlı çoxcildli əsərlərin nəşri davam etdirilir. Moskvanın «Pedaqogika» nəşriyyatı tərəfindən çapa hazırlanan «Azərbaycan pedaqoji antologiyası» bu sahədə irəliyə doğru atılmış ilkin addım kimi qiymətlidir. Respublika Maarif Nazirliyinin ən qədim dövrlərdən başlayaraq Azərbaycanda xalq maarifinin inkişaf tarixinə

aid iki və ya üç cilddən ibarət iri həcmli «Oçerklər» hazırlamaq sahəsindəki təşəbbüsü və bu sahədə aparılan az-çox praktik işlər də sevindiricidir. Lakin bütün bunlarla bərabər Azərbaycan xalqının məktəb və pedaqoji fikir tarixinin hərtərəfli tədqiqi, keçmişin zəngin mədəni irsinin öyrənilməsi həyatın tələbindən geri qalır.

Xalqımızın elmi-pedaqoji irsi qədim olmaqla bərabər, həm də zəngindir. Nizami dövründən başlayaraq orta əsrlərin bir çox görkəmli nümayəndələrinin pedaqoji fikirləri; xalqımızın bu vacib mədəni-pedaqoji irsinin bütöv dövrü, daha doğrusu, bütöv dövrlər hələlik tam tədqiq edilməmiş, ciddi tədqiqat obyekti olmamışdır. Yeri gəlmişkən, onu da qeyd edək ki, hansı səbəbdənsə pedaqoji tarixçiləri çox vaxt mütərəqqi pedaqoji ideyaların mənşəyini Avropada axtarır və bu sahədə yaxşı hər nə varsa Avropaya aid edir, qocaman Şərqə isə göz yumurlar. Elm naminə demək lazımdır ki, tə'lim və tərbiyə sahəsində XIV–XV əsrlərin Qərb humanistləri tərəfindən irəli sürülən ideyaların bir çoxu daha inkişaf etmiş, daha humanist və demokratik istiqamətdə Şərqin XII–XIII əsr görkəmli alimləri tərəfindən irəli sürülmüşdür. Amerika alimlərindən biri son zamanlar XIII əsrin məşhur Azərbaycan alimi Nəsirədin Tusi haqqında belə yazmışdır: «Əgər Qərb alimləri Tusinin nələr yaratdığından xəbərdar olsaydılar, o zaman öz kəşflərini yeni hesab etməzdilər». Təkcə onu qeyd etmək lazımdır ki, Tusinin tərbiyə haqqında «Əxlaqi Nasiri» adlı traktatı dövrünün pedaqoji dərsliyi rolunu oynamış, onun Marağa rəsədxanası Şərq münəcatında şərəfli yer tutmuşdur.

Pedaqoji elmlər tarixinin tədqiqini yaxşılaşdırmaq məsələsinə müxtəlif cəhətlərdən yanaşmaq lazımdır: bir tərəfdən tədqiqini gözləyən vacib problemlərini üzə çıxarmaq, digər tərəfdən isə aparılmış tədqiqatları təhlil etmək yolu ilə onların xarakterini müəyyən etmək, gələcək tədqiqatların nəzəri səviyyəsini yaxşılaşdırmaq, təsvirçiliyi aradan qaldırmaq, diqqəti daha çox problem xarakterli tədqiqatlara cəlb etmək, elmi tədqiqat işlərinin əlaqələndirilməsinə diqqəti artırmaq, kollektiv tədqiqatlara üstünlük vermək, gənc tədqiqatçılar hazırlığı qayğısına qalmaq, tədris metodik vəsait, müntəxəbat və biblioqrafiyalar hazırlamaq, nəhayət, əldə edilən elmi nəticələrin həyata, praktikaya tətbiqi yollarını müəyyən etmək və s. və i.a.

Elmin tarixini öyrənmək, təkcə tariximizi üzə çıxarmaqla məhdudlaşmır. Gələcəkdə müəllimliyə hazırlaşan gəncin ümumi

pedaqoji hazırlığında təfəkkür tərzinin və dünya görüşünün formalaşmasında pedaqoji elmlər tarixi də mühüm əhəmiyyət kəsb edir. Yeri gəlmişkən burasını da qeyd edək ki, bu sahədə respublikamızda bə'zi addımlar atılmış və müsbət təcrübə toplanmışdır. Hələ 1977-ci ildən müttəfiq respublikalar içərisində ilk dəfə olaraq Azərbaycan SSR-də V.İ.Lenin adına APİ-də «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» adlı xüsusi kursun tədrisinə başlanılmışdır. Bu kurs ən qədim dövrlərdən başlayaraq bu günə qədərki tə'lim-tərbiyə, xalq maarifi, məktəb və pedaqoji fikirlərin meydana gəlməsi və inkişafını əks etdirir. Bu kursun proqramı respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təsdiq edilmişdir.

Ümumiyyətlə, qeyd etmək istərdik ki, məktəb və pedaqoji fikir tarixinə aid nəşriyyat işlərimiz günün tələblərindən çox geri qalır. Təkcə bir faktı qeyd edək ki, M.T.Sidqi müstəsna olarsa, Azərbaycanın klassik pedaqoqlarının, maarifçilərin, alimlərin seçilmiş pedaqoji əsərləri hələ də nəşr edilməmişdir. Bu barədə fikirləşmək deyil, iş görməyin vaxtıdır.

Prof.Ağababa Rzayevin qaldırdığı bir vacib məsələ də elm tariximizə həsr olunmuş kitabların buraxılış nüsxəsinin narahatçılığı ilə bağlıdır. Həqiqətən də məqalədə adı çəkilən, istər müəllifin tərtib etdiyi M.Kazımbəyin seçilmiş əsərləri, istərsə də F.Məmmədovanın Qafqaz Albaniyası problemlərinə həsr edilmiş kitabının cəmi 4 min nüsxə çap edilməsi təəssüf doğurur. Moskvalı həmkarlarımdan birisi prof.M.Kazımbəyin seçilmiş əsərlərindən bir nüsxə əldə edib ona göndərməyi xahiş etmişdir. Lakin həmin kitab dərhal satılıb qurtardığından mən özümdə olan yeganə nüsxəni göndərməli oldum. Belə vacib kitabların buraxılış nüsxələrinin çox azlığı əlaqədar yoldaşları, idarə və təşkilatları narahat etməlidir. Elmin tarixinə aid çap olunan kitabların buraxılış nüsxələri ilə oxucunun tələbatı çox vaxt nədənsə nəzərə alınmır. 1985-ci ildə «Maarif» nəşriyyatı bizim «XIX əsr Azərbaycan məktəbi» adlı əsərimizi cəmi 3 min tirajla çap etmişdir. Bu, azlıq edir. Təkcə V.İ.Lenin adına APİ-də 10 min tələbə təhsil alır ki, onların hər birinə bu kitab bir vəsait kimi lazımdır.

Vaxtilə Xəndanov adına Leninqrad Dövlət Universitetinin şərqşünaslıq kitabxanasında saxlanılan müvafiq sənədləri nəzərdən keçirmək üçün ora getmişdim. Universitetin dəhlizində vaxtilə orada işləmiş böyük alimlərlə yanaşı həmyerlimiz, professor M.Kazım-

bəyin də böyük portreti diqqətimi cəlb etdi. Belə anlarda fəxr edirsən ki, vaxtilə mənim xalqımın oğlu da bu qədim və möhtəşəm elm ocağında işləmiş və fəxri yer tutmuşdur. Lakin bu gün bə'zi tədris və ya elmi tədqiqat müəssisələrinə daxil olarkən divarlarda bu qəbildən olan elm bahadırlarının portretlərinə rast gəlmək olmur.

Elmin tarixini tədqiq etmək, nəşr edib oxuculara çatdırmaq vətənpərvərlik və vətəndaşlıq borcumuzdur. Bu sahədə rastlaşdığımız başlıca çətinlik hər şeydən əvvəl ərəb və fars dillərini bilən tədqiqatçıların azlığı ilə bağlıdır. Bu dilləri bilməyən gənclər arxivlərə üz tutub, əlyazmalarını və başqa mətbu əsərləri tədqiqata cəlb edə bilmir. Bu sahədə nə isə bir iş görmədən bu boşluğu bu gün də, sabah da doldurmaq mümkün olmayacaq.

Pedaqoji elmlərin tarixini tədqiq edib xalqa çatdırmaq sahəsində ümumi işə mane olan daha bir sıra cəhətlər də vardır ki, son zamanlar mətbuatda dərc edilən yazılarda, tədqiqat xarakterli əsərlərdə, elmi-kütləvi məqalə və kitabçalarda başqasının əsərlərindən sıx-sıx köçürmələr özünü göstərir. Arxiv üzü görməyən, ilk mənbədən xəbərsiz olan yoldaşlar başqasının zəhməti və axtarışları nəticəsində üzə çıxarılan bir məsələni onun müəllifinə istinad etmədən sadəcə olaraq köçürür və çap etdirir ki, bu da çeynənmiş tikəni təzədən yedizdirmək deməkdir. Son zamanlar səlahiyyətli elmi müəssisələrdən birində yazılarında arxiv sənədlərinə istinad edən şəxsin həmin arxivdə olmasına və göstərilən mənbədən istifadə etməsini təsdiq edən sənədləri araşdıraraq müəyyən etmişlər ki, həmin sənədlər onun tərəfindən öyrənilməmiş, başqasının əsərindən götürülmüşdür. Tədqiqatçıları, xüsusilə də gəncləri bu yoldan çəkindirmək lazımdır.

İşimizə mane olan başqa bir cəhət isə budur ki, pedaqoji elmlərin tarixinə bələd olmayanlar da bə'zən bu sahəyə meyl edir və ilk mənbələrdən xəbərsiz olduqlarından tarixi fakt və hadisələri təhrif edirlər. Belə yazılara ən çox bir pedaqoqun, hər hansı bir maarifçinin və ya bir məktəbin yubileyi ilə bağlı yazılarda daha çox rast gəlirik. Mətbuatda özünə yol tapan bu və ya digər bir yazı isə, sonralar bir mənbəyə çevrilir və elmin tarixində dolaşıqlıq yaradır ki, bu dolaşıqlığı açmaq üçün sonradan xeyli zəhmət çəkməli olursan.

Pedaqoji elmlərin tarixinin öyrənilməsində ümumi işə zərər vuran məsələlərdən biri də sağlam tənqidin olmamasıdır. Açığını

e'tiraf edək ki, son zamanlar sağlam pedaqoji tənqidə nisbətən qərəzçilik xarakterli yazılar üstünlük təşkil edir. əgər sən vaxtilə kiminsə əsərinə tənqidi yanaşmısansa, kiminsə zəif və qüsurlu dissertasiyasına müsbət fikir söyləməmisənsə, o sənin işində «birə axtarmağa çalışır: hansı əsərində mətbəə xətası olaraq bir nöqtə və ya vergül yerində qoyulmayıbsa və ya iri həcmli əsərdə bir-iki hərf xətası varsa, onu əllərində bayraq edib, bu və ya digər redaksiyanın qapısını sındırmaqdan belə usanmırlar. Belələri haqda Ü.Hacıbəyov gözəl demişdir: «Həqiqi və doğru tənqid vacibdir və mənfəəti də çoxdur. Lakin cahilanə tənqid çox zərərlidir. Çünki cahil tənqidçi heç bir şey anlamır. Yaxşı-yaxşı seçə bilmir. İşdə haman əhli adamları xilas etmək işin sür'ətlə irəliləməsinə səbəb olar».

Xalqımızın məktəb və pedaqoji fikir tarixinə həsr edilmiş diqqətəlayiq, elmi-pedaqoji ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan əsərlərin, monoqrafiyaların müəlliflərini həvəsləndirmək məqsədilə müəyyən tədbirlər görmək də yerinə düşərdi. Məsələn, SSRİ PEA ən yaxşı əsərlər üçün N.K.Krupskaya və K.D.Uşinski adına medallar tə'sis etmişdir. Hər il bu mükafatlar üçün müsabiqə e'lan edilir. Respublikamızda da belə bir tədbir həyata keçirmək olar və lazımdır. Maarif Nazirliyi, respublika Pedaqoji Cəmiyyəti bu işi öz öhdəsinə götürə bilər. Başqa bir çətinlik respublikada pedaqoji elmlərin tarixini öyrənən vahid elmi mərkəzin olmamasıdır. Təcrübə göstərir ki, nə Azərbaycan SSR ETPEİ, nə də pedaqoji institutların pedaqogika kafedralarında aparılan xırda-para tədqiqat işləri də xalqımızın çoxəsrlik mədəniyyətinin tərkib hissəsi olan məktəb pedaqoji fikir tariximizi bütövlükdə tədqiq edib xalqa çatdırmaq uzun müddət mümkün olmayacaqdır. Elmlər akademiyasında ayrıca bir şö'bə yaratmaq bu işə böyük kömək edərdi. Respublikada bütün elmlər kimi pedaqoji elmlərin də sistemli tarixinin yaradılması bu gün qarşıda duran və tə'xirəsalınmaz vəzifələrdən olmalıdır.

Ədəbiyyat və incəsənət» qəzeti,
12 iyun 1987, №24(2263), s.2.

Ana dili dərsliyi problemində ilk addım

Azərbaycanın Rusiya tərkibinə daxil olması, həm də ana dilində yeni tipli dərsliklərin meydana gəlməsinə əlverişli zəmin yaratdı.

Azərbaycan dilinin dövlət məktəblərinin tədris planına rəsmən daxil olması, bu dilin öyrənilməsinin zəruriliyi, ana dilində bir sıra dərslik və tədris vəsaitlərinin yaranması ilə nəticələndi. Əsasən digər millətlərdən olan şagirdlərin bu dili öyrənməsi üçün nəzərdə tutulan həmin dərslik və tədris vəsaitlərinin tərtibi ana dilində yeni üsulla dərslik tərtib etməyin birinci mərhələsini təşkil edir.

XIX əsrin 80-ci illərində meydana gələn xalq məktəbləri ilə ana dilində dərsliklər tərtibinin ikinci mərhələsi başlandı. həm də bu dövrdə meydana gələn dərsliklər müstəsna olaraq azərbaycanlılar üçün nəzərdə tutulurdu.

Ana dili dərsliklərinin tərtib edilməsində Zaqafqaziya Müəllimlər Seminariyasının (ZMS) azərbaycanlı şö'bəsinin mühüm rolu olmuşdur.

Sövti (fonetik) üsulla ilk əlifba kitabının meydana gəlməsi həmin şö'bənin direktoru A.O.Çernyayevskinin çox mühüm xidmətlərindəndir.

Mə'lum olduğu kimi, 1879-cu ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində Azərbaycan şö'bəsi açılmışdır və A.O.Çernyayevski (1840–1894) bu şö'bənin inspektoru tə'yin olunmuşdu. Şö'bənin nəzdində bir ibtidai məktəb – baza məktəbi təşkil edilmişdi. Həmin baza məktəbinin təşkili yeni dərslik yaradılması ehtiyacı meydana çıxarmışdı. Bu ehtiyacı əsas tutan A.O.Çernyayevski böyük yaşlı tələbələrinin köməyilə həftəlik proqram düzəldir, gündəlik dərslərdə sövti üsulla məşğələ aparmaq üçün oxu materialı hazırlayırdı.

Bu qayda ilə onun əlində tədricən xeyli material toplandı və həmin materiallar əsasında o, sövti üsulla «Vətən dili» kitabını tərtib etdi. O vaxtlar seminariya tələbələrindən biri olan R.Əfəndiyev öz yazılarından birində qeyd etmişdir:

«Dərsə şiru edilən zaman bir vaxt başa düşdülər ki, türk (Azərbaycan – H.Ə.) dilində əlifba kitabı qətiyyən yoxdur və olmamışdır. Beynəvə Çernyayevski böyük tələbələri kabinəsinə toplayıb bir komissiya intixab etdi. O cümlədən mən də o komissiyada iştirak edirdim. Həftəlik proqram tərtib edib gündəlik dərslərə material hazır edirdik və hər dərs üçün müfəssəl konspekt yazılırdı. Dörd ədəd naçalni şkolalarla[1] üsulu sövtü üzrə dərslər keçirilirdi. Erməni, gürcü və rus dillərində zvukovoy metod (səs üsulu – H.Ə.) üzrə basılmış kitablar mövcud idi. Lakin yalnız türk (Azərbaycan – H.Ə.) dili üçün təzədən kitab qoşulmaq və nəşr edilməyə böyük ehtiyac görünürdü. Çünki tatarski otdeleniyanı (Azərbaycan şö'bəsini – H.Ə.) bitirib müəllim çıxan cavanlar üçün kəndlərdə pişəzvəxt türk məktəbi açılırdı. Onlar kəndə gedəndə öz məktəbini seminarski obroztsovaya (seminariya nəzdindəki nümunə məktəbinə – H.Ə.) bənzədib təzə qoşulmuş kitab ilə də dərslərini aparacaq idilər. Bu cəhətə görə Çernyayevski əlində toplanmış dərs materiallarından ietixab edib bir kitab şəklinə saldı və mənim xəttimlə daş basmada 1883-cü sənədə[2] «Vətən dili» adında o kitabı basdırdı»[3].

«Vətən dili» dərsliyinin meydana gəlməsi zəruriyyətindən bəhs edən Çernyayevski sonralar yazırdı ki, seminariyanın azərbaycanlı şö'bəsi yanındakı ibtidai məktəb kimi «mübtədi məktəbləri bina eyləməyə çox şey lazım idi. Əzan cümlə (o cümlədən – H.Ə.) birisi təzə qayda ilə təsnif olunmuş kitablar idi, hansı ki, nə qədər mən custcu edib (axtarıb – H.Ə.) mülahizə qaldım türki (Azərbaycan – H.Ə.) dilində (pedaqogika), yə'ni elmi-tərbiyə qanununa müvafiq bir kitab tapa bilmədim. Və hətta o kitablar ki,

[1] Seminariya nəzdində olan rus, gürcü, erməni və azərbaycanlı ibtidai məktəbləri – baza məktəbləri nəzərdə tutulur – H.Ə.

[2] «Vətən dili» (I hissə) dərslyinin nəşri tarixi. «Azərbaycan tarixi»ndə (2-ci cild, s.350). QTD popeçitelinin 1883-cü ilə aid edilir ki, bu səhvdir. Leninqrad şəhərindəki Saltıkov – Şedrin adına dövlət kitabxanasında saxlanılan həmin dərsliyin titul səhifəsində onun 1882-ci ildə nəşr edilməsi göstərilir (şifr Azərb). Azərbaycanda kitab, o cümlədən dərslik nəşri 3–7677 tarixində bu kitabın böyük əhəmiyyətinin nəzərdən qaçırılması və onun «Azərbaycan kitabı»na daxil edilməməsi böyük təəssüf doğurur.

[3] Azərb.SSR EA rəf, R.Əfəndiyevin arxivi, Q–2.

axırıncı vaxtlarda təsnif olunub, hənuz çapa gətirməmişdi[1], ittifaqən mülahizə edib bedəsturi elm-tərbiyə və fənn-tə'lim qaydasına namüvafiq gördüm və məktəbimizdə köhnəsayaq üzrə oxutmağı və hazırda olan kitablardan birisini intixab edib onunla dərs verməyə imkan tapa bilmədim.

Bu cəhətə ki, o surətdə məktəbimizi məktəbi müntəzəm adlandıra bilməzdik. Bəs zikr olunan işkalata (çətinliyə – H.Ə.) görə məcbur olduq ki, müsəlman əlifbasını təriqeyi sövtü ilə tə'lim verməyi imtahanə gətirim…[2]

Müsəlman əlifbası çətin əlifbalardan biri olsa da, A.O.Çernyayevski onu sövti üsulla tə'lim etməyin mümkün olduğunu sınaqdan keçirmiş və beləliklə, «Vətən dili» kitabını nəşr etdirmişdir. «Vətən dili» dərsliyinin tərtibi və nəşrinin digər bir səbəbi mövcud qanun üzrə dövlət tərəfindən açılan ibtidai məktəblərdə birinci ilindən tə'limin ana dilində aparılması idi. mə'lum olduğu kimi QTD müsəlman kəndlərində açılan ibtidai xalq məktəblərində savad tə'liminin ana dilində aparılmasına və ikinci sinifdən başlayaraq tədris edilən rus dili dərslərindən ana dilinə və ana dili dərslərindən rus dilinə tərcümələr etməyə icazə vermişdi. Tədris dairəsi şurasının qərarında deyilirdi: Dərslərdə yerli dillərdən tələb olduğu qədər istifadə edilsin. Dərslər mexaniki əzbərləmə şəklində deyil, şüurlu keçilməlidir. İbtidai məktəblərə yerli dilləri bilən müəllimlər tə'yin olunmalıdır. Savad tə'limi dövründə rus dilindən istifadə etmək məqsədə uyğun olmadığı üçün dərslər müəyyən dövrə qədər yerli dillərdə keçilsin.

Bu qərar «Vətən dili» (I hissə) dərsliyinin meydana gəlməsinə əlverişli şərait yaratdı. Bunu ayrıca qeyd edən A.O.Çernyayevski, sonralar 1888-ci ildə S.A.Vəlibəyovla birlikdə tərtib etdikləri «Vətən dili»nin ikinci hissəsinə Azərbaycan və rus dillərində yazdıqları müqəddimədə deyirdi: «Vətən dili» adlanan kitabçanın birinci qismi tə'yin olunmuşdur. Zaqafqaziya türklərinin mübtədi məktəblərində əvvəlinci il tə'lim verməkdən ötrü. Çünki 1881-ci ildə yanvar ayının 13-də canihin Qafqazın təsdiq elədiyi

[1] İrəvan gimnaziyası Azərbaycan dili müəllimi Elxanovun «Vətən dili» dərsliyinə işarədir.

[2] A.O.Çernyayevski, «Vətən dili». Metodiki rəhbərlik. Tiflis, 1882, s. 3–4.

tə'lim-düstur aləminə müvafiq gördü ki, Qafqaz əhalisinin mübtədi məktəblərində əvvəlinci il tə'lim-tərbiyə olunsun hər tayfanın öz dilində (yə'ni ana dilində)[1].

«Vətən dili» sövti üsul əsasında nəşr edilmiş ilk Azərbaycan dili çərəkə dərsliyi idi. Mə'lum olduğu kimi, feodalizm dövrünün məhsulu olub, doqmatizm və sxolastika ilə bağlı olan və əsrlərdən bəri davam edən höccələmə (əbcəd-çərəkə) üsulu XIX əsrin üçüncü rübünə qədər Azərbaycan məktəblərində savad tə'limi üsulu kimi davam etmişdir. Sonralar bu üsul bütün kəlməni olduğu kimi xatırladan hərf-heca üsulu ilə əvəz edildi. Bu üsula görə saitlər samitlərlə birləşdirilir və heca əmələ gətirilirdi. Əlifba sırası ilə bütün hərflərdən bu qayda ilə heca və sözlər düzəldilməsi davam etdirilirdi.

Keçən əsrin 80-ci illərində heca üsulu da savad tə'limində müvəffəqiyyət qazanmadı və öz yerini tədricən sövti üsula verdi. Bu üsulun Azərbaycanda yayılmasında böyük rus pedaqoqu K.D.Uşinskinin ana dili tə'limi ideyası və onun Qafqazdakı ardıcılları olan D.D.Semyonovun, xüsusilə də A.O,Çernyayevskinin xüsui rolu və xidməti olmuşdur. A.O.Çernyayevskinin göstərilən dərsliyi istər höccələmə, istərsə də hərf-heca üsuluna qarşı ilk qüvvətli zərbə idi. Onu da qeyd etmək lazımdır ki, türk-tatar xalqları içərisində sövti üsulla dərs demək və dərslik tərtib etmək təşəbbüsü Azərbaycandan başlamış və ilk dəfə Azərbaycan məktəbində tətbiq olunmuşdur. F.Köçərlinin yazdığına görə, tamam islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır[2]. Bu dərsliyin meydana gəlməsi, ana dili təlimində ondan istifadə edilməsi Azərbaycanın məktəb tarixində mühüm pedaqoji hadisə idi. Özünün quruluşu, tərtibi prinsipləri, dilinin sadəliyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmaq e'tibarilə «Vətən dili» dərsliyi K.D.Uşinskinin eyni adlı dərsliyinə uyğun olmaqla bərabər, həm də orijinal idi

A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi qabaqcıl rus pedaqoji ideyaları əsasında meydana gəlmişdir. O, K.D.Uşinskinin

[1] A.O.Çernyayevski və S.A.Vəlibəyov, «Vətən dili» (ikinci hissə). Tiflis, 1888, müqəddimə, s.1.

[2] Bax: Ф.Кочарлинский. А.О.Чернйайевский, «Каспи» гязети, 1914, №282.

zəngin təcrübəsinə istinad edərək onun eyni adlı dəsliyindəki materiallardan da yeri gəldikcə istifadə etmişdir.

A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi sonralar dəfələrlə nəşr edilmiş[1] və uzun müddət Azərbaycan məktəblərində ana dili dərsliyi kimi istifadə olunmuşdur.

A.O.Çernyayevskinin mühüm xidmətlərindən biri budur ki, o, ana dili tə'limində sövti üsul tətbiq etmiş və buna aid metodiki göstərişlər hazırlamışdır. «Metodiki rəhbərlik» adlanan həmin kitabça Tiflis şəhərində nəşr edilmişdir.

Prof.M.Mehdizadənin çox haqlı olaraq yazdığı kimi heç bir mübaliğə etmədən, demək olar ki, yalnız bu dərsliyin meydana gəlməsi ilə Azərbaycan dilinin tədrisi müəyyən mə'nada düzgün metodiki istiqamət aldı[2]. Bütün bunlar isə öz növbəsində Azərbaycan dilinin gələcək inkişafına qüvvətli təkan verdi.

Bütün bunlarla bərabər, onu da əlavə edək ki, A.O.Çernyayevski «Vətən dili» (I hissə) dərsliyində ərəb əlifbasının qüsurlarından xilas ola bilmədi və ola da bilməzdi. O, əslən rus olduğundan ehtiyatla dolanırdı ki, onu dini və milli məsələlərdə ittiham etməsinlər. Odur ki, Çernyayevski ərəbcə yazılmış olan «dərsdən irəli və sonra oxunan dualarını» da kitabına daxil etmişdi. Bu və ya digər qüsurlarına baxmayaraq A.O.Çernyayevskinin bu kitabı Azərbaycan xalq məktəbləri üçün üsuli-sövti ilə nəşr edilmiş ilk əlifba kitabıdır. «Vətən dili» özündən sonra yazılan əlifba və ondan sonrakı ilk oxu kitabları üçün örnək olmuşdur. «Azərbaycan tarixi»ndə deyildiyi kimi, Azərbaycan ziyalılarının böyük bir nəsli bu dərslik üzrə savada yiyələnmişdir[3].

«Vətən dili» (birinci hissə) kitabının müvəffəqiyyəti onun ikinci hissəsinin tərtibinə də zəmin hazırladı.

1880-ci illərin sonralarında A.O.Çernyayevski seminariyanın azərbaycanlı şöbəsinin ibtidai məktəb müəllimi S.A.Vəlibəyovla birlikdə «Vətən dili» kitabının ikinci hissəsini də tərtib etdilər. Bu kitabın tərtibində yaxından iştirak edənlərdən biri də görkəmli

[1] İkinci nəşri 1888, üçüncü nəşri 1896-cı ildə olmuşdur.

[2] Bax: M.M.Mehdizadə. Azərb.SSR-də məktəb tarixinin inkişafına dair oçerklər. Doktorluq dissertasiyası. Moskva, 1956, s.106.

[3] Bax: Azərbaycan tarixi, 2-ci cild. Bakı, 1964, s. 350, s.406.

müəllim və şair Həsənəli Qaradaqidir (1929–1950). A.O.Çernyayevski tərəfindən Tiflisə də'vət edilən H.Qaradaqi tərtib olunacaq ana dili dərsliyində daxil edilməli olan uşaq şe'rləri və hekayələri yazıb hazırlamağı öz öhdəsinə götürür. Şuşada açdığı məktəbdə bu şe'r və hekayələri təcrübədən keçirir və onları Çernyayevskiyə göndərir. Bu materiallardan bir çoxu Çernyayevski ilə Vəlibəyovun «Vətən dili» (II hissə) dərsliyinə daxil edilir.

«Vətən dili»nin ikinci hissəsi ilk dəfə 1888-ci ildə Tiflisdə «Kəşkül» mətbəəsində çap olunmuşdur.

Kitabın üzərində «Vətən dili» (ikinci cild). Türki-Azərbaycan dilində tə'lim-qiraət, inşa və imla məşğuliyyəti üçün kitabçadır. Müəllifləri, Çernyayevski və Vəlibəyov, Qafqaz qit'əsinin maarif rəisi məclisində Qafqaziyanın səbyan məktəblərində tədris olunmaq üçün tərcih ilə qəbul olunub və Qafqaz ümuri-mülkiyyə rəisi təsdiq edibdir. Tiflis «Kəşkül» mətbəəsi, 1305» – sözləri yazılmışdır.

«Vətən dili» (ikinci hissə) ikinci tədris ilində (II sinifdə) ana dili tə'limi üçün nəzərdə tutulmuşdur. Kitab sadə xalq dilində yazılmışdır. O vaxt bə'zi ziyalılar arasında elə bir yanlış müddəa hökm sürürdü ki, azərbaycanlı uşaqları ana dilini öyrənməzdən əvvəl, ərəb və fars dilini öyrənməlidirlər. «Vətən dili»nin (ikinci hissə) tərtibçiləri olan A.O.Çernyayevski ilə S.A.Vəlibəyov bu müddəanın əleyhinə olaraq dərsliyi bə'zi ziyalıların «vulqar» adlandırdıqları xalq dilində tərtib etmişdilər. Əsərin müqəddəməsində deyilir: «Zənnimizə görə bu əlifin (kitabın – H.Ə) dili bir parə müsəlman üdəba və üləmalarına üfrat sadə görünəcəkdir. Çünki onların rə'yi və nəzərlərinə görə fəsihanə ibarələr gərəkdir dolu olsun ərəbi və farsi kəlmələri ilə[1], amma gərəkdir bu barədə bizləri məzur tutub bunu nəzərə alsınlar ki, həmin kitabça ancaq əlifbayı qurtarıb yeni qiraətə şüuru edənlər üçündür»[2].

Müəlliflər sözlərinə davam edərək yazırdılar:

[1] Hətta bir para alimlərin təsvirinə görə bir türk türkcə bilmək xahiş eləsə gərəkdir ki, qabaqca fars və ərəbcə təhsil eyləsin (Qeyd tərtibçilərindir).
[2] A.O.Çernyayevski və S.A.Vəlibəyov. «Vətən dili», ikinci hissə, Tiflis 1888, müqəddimə, s.4.

«Biz şagirdlərin qanacağının məratibini və fəhm və dərrakəsini nəzərə alıb sə'y etmişik ki, tərbiyəyi səbyan qaydasına müvafiq mətalib ancaq sadə türki Azərbaycan dilində bu risaləyə qeyd olunsun. O cəhətdən ki, mübtədilərə ən əvvəl öz ana dillərinin tə'limi borcudur, nəinki ərəb və fars sözləri»[1].

Dərsliyə daxil edilən imla və inşa qaydaları əsasən prof.Kazımbəyin Azərbaycan dilinin qrammatikası («Qrammatika tatarskoqo yazıka») kitabına, həmçinin Budaqovun və Vəzirovun əsərlərinə əsaslanmışdır. Bundan əlavə, müəlliflər tərəfindən «bir neçə imla, inşa barəsində dürüst və səhi qayda və zabitlər bu kitabçaya» daxil edilmişdir. Müəlliflər kitabın giriş hissəsində bir sıra qrammatika, imla və metodika məsələlərindən bəhs edərək, müəllimlərə qiymətli məsləhətlər verirlər.

Kitabçada ilk dəfə bə'zi durğu işarələrində (., :, !, ?) yerli-yerində istifadə etmək məsləhət görülür.

Kitaba daxil edilən oxu mətnləri şagirdlərin yaş və bilik xüsusiyyətlərinə müvafiq olub məzmunu əsasən ictimai həyatdan, xalqın və məktəblilərin məişətindən alınmışdır.

Mətnlər 26 bölmədə cəmləşdirilmişdir. Birinci bölmə tə'lim və oyun şeyləri adı altında «məktəb, lövhə, uşaqları məktəbə şövqləndirmək, kitab və kağız, karandaş» və s. başlıqları ilə kiçik mətnlərlə başlanır. Qiraət materialı kimi lətifələr, təmsillər, atalar sözləri və zərbi məsələlərdən istifadə edilmişdir: birinci hissədə olduğu kimi «Vətən dili»nin ikinci hissəsinə də heç bir şəkil daxil edilməmişdir ki, bu da o dövrün mətbəə çətinlikləri ilə əlaqədar idi.

«Vətən dili»nin birinci hissəsi kimi, ikinci hissəsi də K.D.Uşinskinin pedaqoji prinsiplərinin tə'siri altında yaranmışdı. Bununla belə müəlliflər yerli şəraitə müvafiq olaraq bə'zi mətnləri kitaba daxil etməklə onun orijinallığını saxlamışlar[2].

K.D.Uşinskinin «Ana dili» dərsliyinin nümunəsi əsasında tərtib edilmiş bu dərsliklər, F.Köçərlinin yazdığı kimi o zamana qədər fars dilində mövcud olan çərəkə əsasında, yə'ni hərfləri höccələmək üsulu ilə dərs keçən Azərbaycan məktəblərində

[1] Yenə orada.

[2] A.O.Çernyayevski və S.A.Vəlibəyov. «Vətən dili», ikinci hissə, Tiflis 1888, müqəddimə, s.3.

tamamilə yeni bir islahat əmələ gətirdi»[1]. Demək olar ki, Çernyayevski ilə Vəlibəyovun kitabı və zəhməti sayəsində «azərbaycanlılarda da pedaqoji iş elmi zəmində aparılmağa başlanmışdır»[2]. O.A.Çernyayevski ilə S.A.Vəlibəyovun «Vətən dili» dərsliyi sonralar, yenidən çap olunaraq Azərbaycan dilinin tədrisində geniş istifadə olunmuşdur.

«Azərbaycan dili və ədəbiyyat tədrisi», 1980, № 1, s.75–82.

Nəsillərə nümunə

Ə.Seyidov – 110

XX əsr Azərbaycan pedaqoji elminin korifeyi

Qədəm qoyduğumuz XXI əsrin ilk illərindən dönüb arxaya boylandıqda, XX əsrdə pedaqoji elmlərin üç böyük nümayəndəsi ilə rastlaşırıq. Bunların hər biri özünün dəsti-xətii, mövqeyi, elmi və ictimai nüfuzu ilə seçilirlər. Onların xidmətləri təkcə pedaqoji elmlərin inkişafı, intişarı ilə məhdudlaşmır. Onların həyatı və fəaliyyəti bütövlükdə Azərbaycanda təhsilin və tərbiyənin, elmi-pedaqoji kadr hazırlığının, elm və mədəniyətin tərəqqisi ilə sıx bağlı olmuşdur. Bunlar kimlərdir? Onlardan biri və birincisi Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru, professor, Azərbaycan SSR-in Əməkdar elm xadimi, Azərbaycan Sovetlər dövrü pedaqoji elminin ağsaqqalı, həyatının 50 ilini keçmiş V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU) ilə bağlayan Əhməd Yusif oğlu Seyidovdur (1892–1977).

Sovetlər dövrü Azərbaycan pedaqoji elminin ikinci ən böyük nümayəndəsi SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan SSR-in Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor, on yeddi il Respublika maarif naziri kimi məsul dövlət vəzifəsində çalışmış, o vaxtkı müttəfiq respublikaların maarif

[1] Firidünbəy Köçərli. Seçilmiş əsərləri. Bakı, 1963, s.78.
[2] Yenə orada.

nazirləri arasında özünün erudisiyası ilə fərqlənən və Moskvada böyük nüfuz sahibi olan Mehdi Mehdizadədir (1903–1984).

XX əsr Azərbaycan Sovet pedaqoji elminin tanınmış nümayəndələrindən üçüncüsü isə, təkcə Azərbaycanda deyil, Sovetlər Birliyində məşhur tərbiyə nəzəriyyəçisi kimi tanınan və hələ sağlığında ikən Azərbaycanın Makarenkosu adlandırdığımız Əməkdar elm xadimi Mərdan Muradxanovdur (1909–1979).

Haqqında söhbət açaçağımız və bu il anadan olmasının 110, vəfatının isə 25 ili tamam olan professor Əhməd Yusif oğlu Seyidov Qazax qəzasında İncədərəsi adı ilə məşhur olan yaşayış məskəninin Aslanbəyli kəndində anadan olmuşdur (21.03.1892).

Professor Ə.Seyidov 1917-ci ildə Gürcüstanın Qori şəhərində məşhur Zaqafqaziya Müəllimlər Seminariyasının azərbaycanlı şöbəsini bitirmişdir. Ömrünün sonuna qədər, 60 il ərzində – 1917–1977-ci illərdə ardıcıl olaraq pedaqoji işlə məşğul olmuş və özündən sonra böyük elmi-pedaqoji irs qoymuşdur.

Professor Seyidov hər şeydən öncə öz doğma kəndində – Aslanbəyli ibtidai qız məktəbinin əsasını qoymuş, Azərbaycan Demokratik Respublikası dövründə qəza təhsil şöbəsində çalışmış, qəza kəndlərində yeni ümumi təhsil məktəblərinin açılmasına yaxından kömək etmişdir.

Professor Seyidov sonralar bir müddət Azərbaycan Dəmir Yolu məktəbləri idarəsində məsul işdə çalışmışdır. 30-cu illərdə qiyabi yol ilə ali-pedaqoji təhsil alan Əhməd müəllim ömrünün ən məhsuldar dövrünü pedaqoji institut ilə bağlamışdır. Məhz bu institutda dekan, rektor, kafedra müdiri vəzifəsində işləyən Əhməd müəllim elmin ən yüksək zirvələrinə yüksəlmişdir.

Professor Ə.Seyidov elmdə tapdanmış yol ilə getməmiş, əksinə yeni cığır açmış və bu cığırla sonralar başqaları da irəliləmişdir. Bu o deməkdir ki, Əhməd Seyidov SSRİ məkanında, müttəfiq respublikalar arasında ilk tədqiqatçıdır ki, öz xalqının milli nümayəndələrinin pedaqoji ideyalarını tədqiqata cəlb etmiş, XIX əsrin ən görkəmli şəxsiyətlərinin – A.A.Bakıxanovun, M.Ş.Vazehin, M.F.Axundovun, S.Ə.Şirvaninin, H.Zərdabinin, bunların ardınca Firudin bəy Köçərlinin, M.Füzulinin, C.Məmmədquluzadənin, M.Ə.Sabirin tükənməz pedaqoji irsini və fikirlərini arayıb axtarmış, sistemə salmış və oxuculara çatmışdır. Məhz bu mənada müasirləri

onu milli respublikalar arasında milli pedaqoji fikir tarixinin tədqininin pioneri, yəni öncülü adlandırmışlar. Professor Ə.Seyidovun məhz bu tədqiqatı, sonralar digər xalqların da milli pedaqoji fikir nümayəndələrinin irsinin tədqiqinə geniş yol açdı. Professor Ə.Seyidovun tədqiqatının nəticəsi olan «XIX əsr Azərbaycan pedaqoji fikrin görkəmli nümayəndələri» adlı monoqrafiyası (Bakı, Maarif, 1958, 305 s.) Azərbaycan pedaqoji elminin qızıl fonduna daxil olmuşdur. Biz bu yazıda professor Seyidovun irili-xırdalı, Azərbaycan və rus dillərində çap etdirdiyi məqalə, kitab, broşyüra, dərslik və dərs vəsaitlərinin hamısı haqqında ayrıca bəhs etməyi lazım bilmədik. Yalnız onu qeyd etməyi lazım bilirəm ki, professor Seyidovun məqalə və əsərlərinin böyük, həm də çox böyük hissəsi keçən əsrin məhsulu olsa da, bu əsərlər bu gün də öz elmi-pedaqoji məziyyətlərini saxlayır və gələcəkdə də oxucuların, məktəb və pedaqo]i fikir tarixi tədqiqatçılarının müraciət edəcəkləri ilk mənbələr olaraq qalacaqdır.

Belə əsərlərdən biri də onun «Pedaqogika tarixi» adlı dərsliyidir (Bakı, Maarif, 1964, 425 s.).

Bu dərslik yarım əsrə yaxındır ki, Azərbaycan ali pedaqoji məktəblərində tələbələrin istifadə etdikləri yeganə əsərdir. Mübağiləsiz demək lazımdır ki, professor Ə.Seyidovun bu əsərində Azərbaycan müəllimlər ordusunun bümöv bir nəsli faydalanmışdır, Avropa, Rusiya və Azərbaycanda məktəb və pedaqoji fikrin meydana gəlməsi və inkişaf tarixini məhz bu dərslikdən öyrənmişlər.

Professor Seyidovun hər iki əsəri mənim gözlərim qarşısında ərsəyə gəlib. Hər iki əsərə mən o vaxtlar rəy yazmışdım. Onlardan biri – birincisi haqda yazdığım «Azərbaycanda pedaqoji fikir tarixinə dair yeni kitab» adlı rəyim o vaxtlar Sovetlər Birliyi jurnalında çap olunmuşdu (1959, №6, s.143).

Professor Seyidovun çox mühüm xidmətlərindən biri də onun elmi-pedaqoji kadr hazırlığı sahəsindəki fəaliyyətidir. Tam olmayan məlumata görə onun rəhbərliyi altında 40-a qədər (30 nəfər) aspirant və dissertant pedaqoji elmlər üzrə namizədlik dissertasiyası müdafiə etmiş və alimlik dərəcəsi almışlar.

Onlardan biri də mənəm. Mən 1952–1955-ci illərdə professor Ə.Seyidovun sayca üçüncü aspirantı olmuşam. Məndən əvvəlki aspirantlar isə mərhum Tələt Əfəndiyev ilə Əyyub Tağıyev

olmuşlar. Mənim həyatımın ən məhsuldar dövrü, zəkamın və əqlimin ən iti dövrü professor Ə.Seyidovla birlikdə keçirdiyim fəaliyyət dövrüdür. Professor Ə.Seyidov dünyasını dəyişənə qədər tam 25 il mən o kişi ilə daim təmasda olmuşam və deyə bilərəm ki, onun yetirmələri içərisində mən – Hüseyn Əhmədov ona və onun ailə üzvlərinə ən yaxından bələd olan şəxs olmuşam. Və deyə bilərəm ki, professor Seyidov şəxsiyyət idi, həm də sözünə bütöv şəxs idi. Halal insan idi. bizlər üçün müqəddəs sayılırdı. Onun həyat yoldaşı – hələ sağlığında ikən öz əməlləri ilə cənnətin ən gözəl guşələrindən birində özünə yer qazanan Abi-Həyat xanımın bizə analıq qayğısı göstərməsini heç kəs unuda bilməz. Və o müqəddəs ailədən ədəb-ərkan öyrənən bizlər o müqəddəslər qarşısında mənəvi borcumuzu daim hiss etməliyik və onların yolunda nə isə etməkdən yorulmağa haqqımız yoxdur. Mən öz payıma deyə bilərəm ki, professor Seyidovun yolunda əlimdən gələni etmişəm. Seyidovun əsərlərinin biblioqrafiyası qarşımdadır. Oraya Seyidov haqqında yazmış müəlliflərin siyahısı da daxil edilmişdir. Seyidovla bağlı mətbuatda 20 nəfər çıxış etmişdir. Çox xoşdur ki, siyahıda professor Ə.Seyidov haqqında ən çox yazan məhz mənəm. Professor Ə.Seyidova həsr emdiyim bir yazım «Sovet Azərbaycanının ilk alim pedaqoqu» adlanır. Bu yazı Seyidovun anadan olmasının 90 illiyi günündə «Azərbaycan müəllimi» qəzetində nəşr edilmişdi (21 mart 1982). O vaxtlar biz professor Ə.Seyidovun anadan olmasının 90 illiyini çox geniş qeyd etdik. V.İ.Lenin adına APİ-də, Qazax rayon mərkəzində və onun doğma kəndi Aslanbəylidə keçirdiyimiz geniş elmi-praktik konfranslar yaddaqalan oldu. Bu tədbirlər nəticəsiz qalmadı. Aslanbəyli kənd məktəbinə, Qazax şəhərində küçələrdən birinə professor Ə.Seyidovun adı verildi. APİ-də kafedra müdiri olarkən oturduğu otaqda – professor Seyidovun adına pedaqoji kabinet düzəltdik, onun həyatı və pedaqoji fəaliyyətini əks etdirən foto-stend, əsərlərindən ibarət kolleksiyalar və s. düzəltdik, kafedranın qarşısına xatirə lövhəsi vuruldu. Nəhayət, 1992-ci ildə Seyidovun anadan olmasının 100 illiyinə həsr edilmiş respublika miqyaslı xüsüsi elmi-nəzəri konfrans keçirdik ki, burada onlarca məruzə dinlənildi.

Professor Ə.Seyidovla bağlı elmi-pedaqoji tədbirləri daimi təşkil etmək, müəllimlik fəaliyyətinə hazırlaşan gəncləri Seyidovun

irsi ilə tanış etmək tələbə-gənclərin pedaqoji dünyagörüşünü formalaşdırmağın ən səmərəli vasitəsidir.

Bu gün professor Ə.Seyidovun anadan olmasının 110 illiyi ilə əlaqədar onu bir daha xatırlayarkən, bəzi məqamlar yenidən yada düşür. Və bunlardan bəzilərini deməmək mümkün deyil. Xatirimdədir, 70-ci illər idi. Doktorluq dissertasiyasını tamamlamışdım. Müdafiə etmək üçün elmi şura məsələsi bir problem kimi qarşıda dururdu. Məqsədimiz Azərbaycanda – Bakıda müdafiə etmək idi. O vaxtlar APİ-nin rektorluğu Respublikanın Ali və Orta ixtisas Təhsili Nazirliyi (Nazir Züleyxa xanım Hüseynova idi) Moskvaya – SSRİ Ali və Orta İxtisas Təhsili naziri V.P.Yelyutinə rəsmi məktubla müraciət edərək mənim dissertasiyamın Universitetdə müdafiə edilməsinə icazə verilməsini xahiş etdilər. Mən özüm də Yelyutinin qəbulunda oldum. Lakin bir şey hasil olmadı. İşimi Moskvada SSRİ PEA-nın EMUPİ-yə təqdim etdim (rus dilində, geniş avtoreferatla birlikdə).

Beləliklə, müzakirəni gözləyirdim. Günlərin birində professor Seyidov kafedrada məni yanına çağırıb müdafiə işimin nə yerdə qaldığını soruşdu. Dedim ki, çox xahişdən, gem-gəldən sonra işimi Moskvaya təhvil verdim. Oturub müzakirəni gözləyirəm.

Bir az fikrə gedən professor kafedranın əməkdaşı Asya xanımı çağırıb bir ağ vərəq istədi. Və Moskvaya – nazir Yelyutinə bir yoldaşlıq məktubu yazdı. Qori seminariyasının ənənələrinə sadiq olan Əhməd Seyidovun dəsti-xətti, hərfləri muncuq kimi yan-yana düzməsi məsələnin bir tərəfi idisə, məktubun məzmunu onun daha vacib cəhəti idi.

Professorun rus dilində yazdığı məktubdan bir cümləni olduğu kimi oxuculara təqdim edirəm. O yazırdı ki, bu işin müəllifi yəni, mən, Hüseyn Əhmədov – «On sirota om rodu. Proşu vas protenut Vaşu dobruyu ruku». Professor onu da əlavə edirdi ki, dissertasiya işi Azərbaycanla bağlı olduğundan onu azərbaycanın elmi-pedaqoji ictimaiyyəti qarşısında müdafiə etmək daha yaxşı olardı.

Beləliklə, əvvəlki iki illik rəsmi yazışma bir nəticə vermədi, lakin professorun bir vərəqlik yoldaşlıq məktubu öz bəhrəsini verdi. Heç bir ay keçməmiş Moskvadan cavab cavab məktubu gəldi. Azərbaycan Dövlət Universitetinin rektoru professor F.Bağırzadəyə,

surəti isə professor Ə.Seyidova ünvanlanmış məktubda mənim miüdafiəmin Azərbaycan Dövlət Universitetində təşkil edilməsinə icazə verildiyi bildirilirdi[1].

Professor Seyidovun Moskva və digər iri şəhərlərin köhnə kişiləri – köhnə nəslin nümayəndələrinin, tanınmış alimlərin yanında xüsusi hörməti var idi. Yadımdadır, akademik N.K.Qonçarov Bakıya gəlmişdi. Biz onu dəmiryolu vağzalında qarşıladıq. Onun ilk sözü professor Ə.Seyidovu soruşmaq oldu. Seyidov o vaxtlar Bərpa Cərrahiyyə xəstəxanasında yatırdı. Akademik Qonçarov vağzaldan birbaşa xəstəxanaya getdi. Bu bir tərəfdən böyük rus aliminin alicənablığını göstərirdisə, digər tərəfdən Azərbaycanın ağsaqqal aliminin nüfuz dairəsinin genişliyinə dəlalət edirdi.

Professor Ə.Seyidovun ailəsi də nümunəvi ailə idi. Bizlər hər cəhətcə ona oxşamaq istərdik. Bu ailədə böyüyən uşaqlar da həyatda öz davranışı ilə Seyidovlar ailəsinə layiqli övlad olduqlarını nümayiş etdirdilər. Professor Ə.Seyidovun o müqəddəs ocağından güc və qüvvəm alan professor Səməd Seyidov Azərbaycanın ən böyük ali məktəblərindən birinə rəhbərlik etməklə bərabər, milləm vəkili kimi ictimai və siyasi həyatda fəal çalışır.

Nəticə olaraq bir daha qeyd edirəm. Professor Əhməd Seyidov böyük müəllim idi. Seyidov klassik pedaqoq idi. Seyidov fitrən pedaqoq idi.

Azərbaycan kişilərinin, alimlərinin, elm və mədəniyyət xadimlərinin ən yaxşı keyfiyyətlərini özündə cəmləşdirən, Azərbaycan xalq pedaqogikasının qiymətli incilərindən gen-bol bəhrələnən professor Əhməd Seyidov XX əsr Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus şərəfli bir yer tutur.

Hüseyn Əhmədov
akademik

[1] «Azərbaycan məktəbi» №4, 2002.

Unutsaq unudularıq...

Yaşamaq üçün yaşatmaq (və yaxud tələbənin öz müəlliminə heykəl ucaltması)

Məlum həqiqətdir ki, cəmiyyətin inkişafı həyat həqiqətlərində əksliklərin vəhdəti və mübarizəsi üzərində qurulur. Bəzən, zamanın tarixi yaxud tarixin zamanı müəyyənləşdirməsi haqda mübahisəli fikirlər yaranır. Daha çox müəyyən olan odur ki, illər, qərinələr, əsrlər xalqların həyatlarından izsiz ötmür. Yaxşı, pis öz möhürünü vurub keçir. Bax bu mənada cəmiyyətin inkişafını müəyyənləşdirən onu istiqamətləndirməyə səy göstərən ictimai bəşəriyyət üçün doğulub doğmalaşan böyük tarixi şəxsiyyətlər onların cəmiyyətdəki mövqeyi, yeri, mənsub olduğu xalqa qarşılıqlı münasibəti, əlaqəsi tədqiq edilməli, öyrənilməli, vətən övladlarına həmişə yerinə yetirilməsi şərəf hesab edilən mənəvi bir borcdur. Övladın ataya, ulu keçmişə, Vətəndaşın Vətənə olan borcudur.

Ötən yüz illik, xüsusən XX əsrin son on illiyi ərzində baş verən olaylar xalqımızın mənəvi dəyərlərinə, milli adət-ənənələrinə ağır zərbələr vursa da, əsasən xalqın milli özünü dərk məsələsinə bir əks təsir də yaratmışdır. Əlbəttə kütləvi şəkildə olmasa da bir çox adamlar bu kimi problemlərə diqqət yönəldə bilmişlər.

Cəmiyyətin formalaşmasında, keçmişdəki mövcud təcrübənin mənimsənilməsində və gələcək nəsillərə ötürülməsində münasibətlər, məxsusi olaraq ustad-şagird, müəllim-tələbə münasibətləri mühüm rol oynayır. Bu hal, bu yol Şərqdə, xüsusən Azərbaycanda həmişə ön cərgədə olub. Bunun tərbiyədə nə demək olduğunu möhtərəm oxucularımıza geniş şərh etməyə ehtiyac duymuruq. Təsadüfi deyil ki, Göyçə mahalının Azərsimalarından biri, aşıq sənətimizin zirvəsi, korifeyi hesab edilən Dədə Ələsgər vaxtilə yazırdı ki, «Adım Ələsgərdi mərdi-mərdanə, on iki şəyirdim işlər hər yana».

Deməli sənət, sənətkar o vaxt daha qiymətlidir ki, əvəzetmə prinsipi özünü doğrultsun.

Diqqətimizi bu problemə yönəldən xalqımızın görkəmli ziyalısı, alim, publisist, yazıçı gözəl insan, «XX əsrin fəxri ziyalısı» adının daşıyıcısı, Həsənbəy Zərdabi, qocaman ədib Abdulla Şaiq adına mükaftların laureatı, respublikamızda ilk dəfə xalq şairi Rəsul Rza adına mükafata layiq görülmüş professor, filologiya elmləri doktoru Bağır Ulduz Bağırovun «Əliyar Qarabağlı-100» monoqrafiyası oldu. Monoqrafiyanın elmi, ədəbi, bədii və xəlqi dəyərlərindən danışmamışdan əvvəl diqqəti bu fundamental tədqiqat, gərgin zəhmət və çoxillik müşahidələrin məhsulu olan bu əsərlərin müəllifinə yönəltmək istəyirik.

Bağır Ulduz İbrahimxəlil oğlu Bağırov 1929-cu ildə Qərbi Azərbaycanda-qədim İrəvan şəhərində anadan olub. İlk təhsilini doğma İrəvan şəhərində alan Bağır Ulduz Bağırov 1945-ci ildə pedaqoji texnikumu bitirir və 1945-46-cı illərdə Göyçə mahalında, - Basarkeçər rayonunun Dərə kəndində sinif müəllimi işləyir. O, 1946-cı ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin dil-ədəbiyyat fakültəsinə daxil olur. 1948-ci ilin deportasiyası ilə bağlı olaraq təhsilin Bakıda, indiki ADPU-da davam etdirir və 1950-ci ildə həmin təhsil ocağının dil və ədəbiyyat fakültəsini bitirir. Onun bundan sonrakı həyat yolunu öyrənməyi oxucuların ixtiyarına buraxaraq qısaca olaraq xatırladırıq ki, Bağır Ulduz Bağırov Azərbaycan Yazıçılar birliyinin, Jurnalistlər və Teatr xadimləri İttifaqının üzvü, keçmiş SSRİ-nin Maarif əlaçısı, respublikanın maarif xadimi, əmək veteranı, filologiya elmləri doktoru, H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji Universitetinin professorudur.

O qədirşünas alim və vətəndaş olaraq diqqətimizi daha çox cəlb edir. Onun vaxtilə elmi rəhbəri olmuş, yalnız Gürcüstanda deyil, eyni zamanda Azərbaycanda da maarif şamını yandıranlardan biri, doğma respublikamızda ədəbiyyatın tədrisi sahəsində unudulmaz xidmətləri olan, zəngin şifahi xalq ədəbiyyatının cəfakeş toplayıcısı və onun tədrisi metodikasını işləyib hazırlayan, ədəbiyyat tədrisi sahəsində böyük bir metodistlər nəsli yetişdirən, bununla da özünəməxsus məktəb yaradan professor Əliyar Qarabağlının mənalı həyatı və şərəfli yoluna həsr etdiyi «Əliyar Qarabağlı» monoqrafiyası oxucularımıza layiqli hədiyyədir, qədirşünaslığın bariz nümunəsidir.

«Ruhun şad olsun, ustad» deyə müəlliminə rəhmət diləyi ilə monoqrafiyaya verilən giriş onun çox oxunaqlı olduğundan xəbər verir və oxucunun diqqətini çəkir.

Monoqrafiya dil sadəliyi və orijinal təsvir üsulu, yüksək elmi-nəzəri səviyyəsi, faktik materialın zənginliyi baxımından da diqqəti cəlb edir. Bədii əsər təsiri bağışlayır.

Monoqrafiya iki hissədən ibarət olsa da onun əsas qayəsi birinci hissədə toplanmışdır.

Professor Bağır Bağırov tapındığı etiraflarla, gəldiyi qənaətlərlə ustadının şərəfini artırmaqla, həm də öz böyüklük səviyyəsini təsdiqləyir.

O öz taleyində Əliyar Qarabağlının, gözəl insanın, müəllimin, elm xadiminin yerini aydınca görür. «Əliyar müəllim mənim taleyimdə» bölməsi monoqrafiyanın dəyərini artırmaqla, həm də, onu tarixləşdirir, həyatiləşdirir.

Əsərdə 1961-ci ilin «elm aləminə daxil olmaq istəyənlərin» necə qarşılanması, dövrün ab-havası, professor Ə.Qarabağlının və professor F.Qasımzadənin şəxsində canlandırılması bir xatirə olmaqdan başqa, həm də, həyat dərsidir, canlı həyat lövhəsidir ki, bədii əsərə gətirilib.

Professor Əliyar Qarabağlının ömür yolu nəsillərə nümunədir. Bu müəllifin qənaətidir. Əsəri oxuyan hər kəsdə buna yəqinlik hasil olacağı zənnindəyik.

Əsərdə Abbas Səhətdən gətirilən iqtibas nə qədər dəyərli və yerindədir, «Məsləkim-tərcümeyi-halımdır» «Həyatda elə adamlar var ki, biz onları nə vaxt xatırlasaq, nə vaxt yadımıza salsaq ürəyimiz açılacaq, gözlərimiz işıqlanacaqdır. Çünki onlar bizim hafizəmizə, bizim həyatımıza təmiz ürəkli, nəcib təbiətli, xoş niyyətli, alicənab adamlar kimi daxil olmuşlar. Biz onların həmişə cəmiyyət üçün, insanlar üçün faydalı olmağa çalışdıqlarını şəxsən müşahidə etmişik». Bu xoş sözlər isə bu gün özü xatirələrdə yaşayan xalq yazıçısı Mirzə İbrahimova məxsusdur.

Əliyar Məhəmməd oğlu Qarabağlı 1901-ci ildə qədim Borçalı diyarının (indiki Gürcüstan respublikasının Marneuli rayonu) Ləcbəddin kəndində anadan olmuşdur.

XX əsrin əvvəllərində çox yerlərdə olduğu kimi Borçalıda da savadsızlıq, nadanlıq, gerilik və s. kimi problemlərdən insanlar özləri

də bilmədən əzab, zillət çəkirdilər. Nəriman Nərimanovun dili ilə desək «Müəllimi bu ölkədə özlərinə düşmən hesab edirlər» qənaəti hakimi mütləq idi.

Əliyar Qarabağlının uşaqlıq illəri belə bir mühitdə keçir. Lakin Borçalı aşıq məktəbi, xalq təfəkküründün məhsulu olan ağız-el ədəbiyyatının təsiri öz işini görür. Və Əliyar Qarabağlının gələcək taleyinə möhür basır.

O, 1921-ci ildə Qazax şəhərinə gəlib, buradakı altı aylıq pedaqoji kursda təhsil alır. Təsadüfi deyil ki, həmin kursun rəhbəri Əli Hüseynov (xalq yazıçısı mərhum Mehdi Hüseynin atası) idi. Monoqrafiyadan məlum olur ki, prof.Ə.Qarabağlının Bakıya gəlməsi onun həyatının ikinci-əsas dövrünü təşkil edir ki, bu dövrdə o görkəmli ədib Abdulla Şaiq, qocaman maarif xadimləri Səməd bəy Acalov, Cəmo bəy Cəbrayılbəyli və qeyriləri ilə yaxından tanış olur və bu tanışlıqdan məharətlə bəhrələnir. Əliyar Qarabağlı bu kimi simaların şəxsində, varlığı əsil müəllim – vətəndaş, xalq və vətən yolunda fədakar mübarizələri, xalqın maariflənməsi, balalarımızın savadlanması, sağlam ruhda böyüməsi yolunda hər cür əzab və əziyyətdə hazır olan qibtəyə layiq insanları görürdü. Dünya gör-götür dünyasıdır. Məhz Ə.Qarabağlı bu şərəfli yolu öz ustadlarından götürmüşdü. Nejə ki, bizim Bağır müəllim də öz ustadı prof.Ə.Qarabağlının yolunu şərəflə davam etdirir. Bu əsil pedaqoji varislikdir. Həyatda öz təsdiqini tapan varislik.

Məktəb, dərs Ə.Qarabağlı üçün hər şey idi. Axı o çox eşitmişdi ki, Şaiq müəllim (Abdulla Şaiq) «Mən həmişə yaradıcılığımdan çox müəllimliyimlə fəxr etmişəm», - deyərdi. Yetirməsinin, monoqrafiyanın müəllifinin necə deyərlər bizim qeydlərimizin qəhrəmanı Bağır Bağırovun öz müəllimi Əliyar Qarabağlı haqqında bir müəllim kimi qənaəti belədir: «O dərslərdə biliyi verdiyindən artıq tələb edənlərdən deyildi».

Yeri gəlmişkən onu da qeyd etməyi lazım bilirik ki monoqrafiyadan məlum olur ki, Əliyar Qarabağlı Ərtoğrul Rasizadənin müəllimi olmuşdur.

Böyük Cavidin övladı, Riyaziyyatdan xüsusi biliyə və fitri istedada malik olan» Ərtoğrul Rasizadə Əliyar Qarabağlının ən çox sevdiyi şagirdlərdən idi ki, onu da necə deyərlər «dəqiq

elmlərin sonsuz pərəstişkarı olan bu gənci də sözün həqiqi mənasında əfsunlamışdı, əməlli-başlı «xəstələndirmişdi». Bu şagirdi ədəbiyyat azarkeşi etmişdi. Çox yazıqlar ki, yarımçıq ömür hökmü hakim olub.

Xalq ədəbiyyatının mahir bilicisi Əliyar Qarabağlının bu sahədəki maraq və bilik dairəsini onun qeydlərindən gətirdiyimiz monoqrafiyada öz əksini tapan bir neçə misalla çatdırmağa çalışacağıq ki, bunlar mərhum professorun haqqında tələbəsinin parlaq rəyindən yüzdə biridir.

Təqdim etdiyimiz nümunələr el bayatılarıdır:

Əzizinəm incə belə,
Naz belə, incə belə,
Qulpun qırılsın sənək,
Nə çıxmısan incə belə?..

Professor Əliyar Qarabağlının qeyd dəftərlərində Şaiq müəllimin dediklərindən olan aşağıda qeyd etdiyimiz bayatı da el deyimi səviyyəsində qiymətləndirilməli və müəllifinə də, bu günə çatdıranına da rəğbət yaradır.

Əzizinəm baş əyər
Barlı budaq baş əyər
Qiyamət o gün qopar
Mərd namərdə baş əyər

Sağlığında özü ustad olan, öz ustadlarına sonsuz məhəbbət prof.Ə.Qarabağlıya məhəbbət təsadüfi deyil. Biz də öz növbəmizdə qeyd etməliyik ki, Əliyar Qarabağlı bütün maarif xadimlərinə, ziyalılara xüsusi məhəbbətlə yanaşar, onların xatirəsini əziz tutardı.

Məhz prof.Ə.Qarabağlı bir alim kimi, bir müəllim kimi o qənaətdə idi ki, pedaqoji ustalıq, metodiki priyomlar, prinsiplər, tədrisin, xüsusən ədəbiyyatın tədrisinin açarıdır. Bu həm də monoqrafiya müəllifinin fikridir. Bizcə elmdə, işdə, dərsdə, hətta «Kosmoso səyahətdə» də insanlıq birinci şərtdir.

«Əliyar Qarabağlı - 100» monoqrafiyasının müəllifi Bağır Bağırovla əsərin qəhrəmanı arasında bir insanlıq mehri, məhəbbəti, əlaqəsi, tələbəlik-müəllimlik, şagirdlik-ustadlıq əlaqəsi olub ki, bu gün həmin münasibətlərin nəticəsi olaraq bu monoqrafiya yaradılmış və meydana çıxmışdır. Bu monoqrafiya şagirdin ustada son borcu, ən layiqli töhfəsidir.

Hüseyn Əhmədov,
Əlibala Zalov

XARİCİ ÖLKƏLƏRİN MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ

Böyük dostluq nəğməkarı

T.Q.Şevçenko 1814-cü ildə Kiyev quberniyasının Morinptisi kəndində yoxsul təhkimli kəndli ailəsində anadan olmuşdur. Onun babası çəkməçi idi. Çəkməçiyə Ukrayna dilində «şevts» deyilir ki, buradan da onun familiyası Şevçenko qalmışdır.

Tarasın ailəsi mülkədar Enxelqardtın ixtiyarında idi. Ömrünü əzab-əziyyətlə keçirən Taras ata-anasını lap erkən yaşlarından itirmişdir. O, öz ağasının yanında bir xidmətçi kimi 1831-ci ildə Peterburqa gəldi və burada təsadüf nəticəsində rəssamlıq Akademiyasının şagirdi ukraynalı İ.M.Soşenko ilə tanış oldu ki, bu tanışlıq şairin gələcək həyatında böyük rol oynadı.

Həmyerlisinin vasitəsilə Taras məşhur rus rəssamı K.P. Bryullovla və şair V.A.Jukovski ilə yaxından tanış oldu. Həmin sənətkarlar kimsəsiz gəncin rəssamlıq və ədəbi iste'dadını yüksək qiymətləndirərək, ona kömək etməyə, hər şeydən əvvəl, onu təhkimçilikdən azad etməyə çalışdılar. Bunun üçün isə Tarasın atası 2.500 manat pul istəyirdi. Bu vaxt rəssam Bryullov Jukovskinin gözəl bir portretini çəkdi. Bu əsər lotereya oyununda uddu. Onlar bu pula Taras Şevçenkonun azadlığını mülkədardan satın aldılar. Beləliklə, Şevçenko 1838-ci il aprelin 22-də rəsmi surətdə təhkimçilikdən azad olundu. Taras, yenə həmin adamların köməyi ilə Peterburq rəssamlıq Akademiyasına qəbul edildi.

Rəssamlıq Akademiyasında oxuya-oxuya o, öz ədəbi yaradıcılığını da davam etdirdi. 1840-cı ildə Peterburqda onun «Kobzar» adlı ilk şe'rlər kitabı çap edildi. Sonralar o, «Katerina», «Çəhrayı qız», «Qaydamaklar» və b. əsərlərini yazdı ki, burada şair xalqın çəkdiyi əzab və əziyyətləri bədii boyalarla, sadə xalq dilində, yana-yana təsvir edirdi. Taras I Nikolayı lağa qoyur, onu əhatə edən yaltaqlara, ikiüzlülərə gülürdü. Onun əsərləri öz təbiiliyi və həyatiliyi ilə hələ o vaxt çox tez bir zamanda məşhurlaşmış, çoxlu oxucu kütləsi tərəfindən sevilərək oxunmuşdur.

T.Şevçenkonu gözü götürməyənlər onu «kəndli şairi» adlandırırdılar. Onlara cavab olaraq şair deyirdi: «Hər nə adlandırırsınız adlandırın, axır ki, şairəm. Məncə bundan başqa heç bir şey lazım deyil».

Əlbəttə, Şevçenko «şair» sözünü geniş mə'nada başa düşür, bu sözü xalq məfhumu ilə birlikdə işlədirdi. Onun fikrincə şair xalqın xidmətçisidir.

Şevçenko 1843-cü ildə Ukraynaya qayıtdı. Vətəni səyahət edən şair, «Muzdur qadın», «Dustaq», «Qafqaz», «Bayquş», «Nədən mən dərdliyəm», «Yuxu» kimi bir sıra məşhur əsərlərini yazdı. Bu əsərlərində şair hayata daha nikbin və mübariz bir əhval-ruhiyyə ilə baxır, təhkimçilik idarə üsulunu tənqid və ifşa edirdi. Onun hər bir şe'r və ya poeması mütləqiyyətə qarşı zərbə idi.

1846-cı ildə Kiyevdə yaşayan şair xüsusi dərnək təşkil etmiş inqilabçı gənclərə yaxınlaşmış, Ukraynada gizli siyasi təşkilat olan «Kirillo-Mefodiyev qardaşları» cəmiyyətində iştirak etmişdir. O, cəmiyyətin demokratik fikirli hissəsinə başçılıq edirdi. Buna görə də 1847-ci il aprelin 5-də Şevçenko həbs edilərək Peterburqa göndərildi. Öz ideyasından əl çəkməyən şair həbsxanada da şe'rlər yazırdı. Sonralar Şevçenko Peterburqdan Ukraynaya göndərilərkən çar I Nikolay şairin haqqında çıxarılmış məhkəmə qərarının üstündə şəxsən bu sözləri yazmışdı:

«Ən sərt bir nəzarət altında saxlanılsın, şe'r yazmaq və şəkil çəkmək isə qadağan edilsin».

Şairi öz doğma vətənindən ayırmaq məqsədilə əvvəlcə onu əsgər katorqasına, sonra isə Zakaspi çöllərinə sürgün etdilər. O, sürgün illərində yenə də öz inqilabi fikirlərindən əl çəkməyərək, şe'rlər yazmaqda davam edirdi.

Uzun əzab və işgəncələrdən sonra, yalnız 1857-ci ildə Şevçenko amnistiya ilə azad edildi, Peterburqa qayıtmağa icazə aldı, 1859-cu ildə isə vətəninə qayıda bildi. Lakin kəndli təbəqələri arasında inqilabi fikirləri təbliğ etdiyinə görə Şevçenko yenidən Peterburqa qaytarıldı. O, burada bir sıra mühüm əsərlər yazdı və 1861-ci il martın 10-da vəfat etdi.

Şevçenkonun adı Ukraynadan çox-çox uzaqlarda məşhurdur. Onu bütün xalqlar sevir və dərin hörmət bəsləyir, xarici ölkələrin

milyonlarla adamları ona ehtiram edir. Şairin əsərləri dünyanın hər yerində bir çox xalqların dillərinə tərcümə edilmişdir.

Şevçenkonun yaradıcılığa başladığı dövr xalqın səbr kasasının dolması, təhkimçilik quruluşuna qarşı çıxaraq kortəbii e'tirazlar etməsi ilə xarakterikdir. O zaman Rusiya imperiyasının başının üstünü duman bürümüşdü. Belə bir dövrdə yaşamış, təhkimçiliyin, köləliyin dözülməz vəziyyətini öz şəxsi həyatında sınamış olan realist sənətkar zəhmətkeş xalqın halına acıyır, onu mübarizəyə çağırırdı. O, «Vəsiyyət» adlı şe'rində xalqa müraciətlə deyirdi:

Məni basdırınız, üsyan ediniz,
Qırıb yox ediniz o qandalları.
Düşmənin qanını axıtmaqla siz
Azad olarsınız, biliniz barı.

Şevçenkonun yaradıcılığında vətənpərvərlik, humanizm və beynəlmiləlçilik ideyaları tərənnüm edilir. O, slavyan xalqlarını və çar Rusiyasında yaşayan digər xalqları birliyə çağırırdı. Onun bu ideyası çox qiymətlidir. Şevçenko milliyyətcə zənci olan Oldric və gürcü A.Tsereteli ilə ümumi dil tapmış, Beranje, Berns, Mitskeviç poeziyasına məftun olmuşdu. Beləliklə də o, xalqlar dostluğunun nümunəsini göstərmişdir. Şevçenko «xalqların nifaqı, çəkişmələri unudub, böyük bir ailədə birləşmələrini» arzu edirdi.

Şair digər millətlərlə bərabər Qafqaz xalqlarının da hüquqsuzluğunu, istismar edilməsini görmüş, onların halına acımışdır. O, 1845-ci ildə yazdığı «Qafqaz» adlı şe'rinə qədim mifologiyanın əfsanəvi qəhrəmanlarından olan Prometeyin nümunəsində Qafqaz xalqlarının vəziyyətini təsvir edərək demişdir:

Dağlar dalındakı dumanlı dağlar
Qana boyanmışdır, yaş töküb ağlar!
Dünya yaranandan bu günə qədər,
Orda Prometeyi bir qartal didər.
Didər ürəyini, qabırğasını,
Atar bir tərəfə hər parçasını.

Taras Şevçenkonun dünyabaxışının əsası materializm olmuşdur. O, dinə, allaha inanmamışdır. «Yuxu» adlı əsərində insanlara nə allahdan, nə də onun cənnətindən bir kömək olmayacağını söyləyərək, bu dünyanın özündə yaşayıb yaratmağa, yaxşı həyat uğrunda mübarizəyə çağırırdı:

Yoxdur göy üzündə, yoxdur bir Allah!
Sizsə boyunduruq altında çöküb,
Yalvarıb gətirin göylərə pənah,
O biri dünyada cənnət istəyin!
Yoxdur! Heç şey yoxdur! Boşa çıxaraq,
Heyifdir bu zəhmət! Ayılın, bilin:
Hər şey bu dünyada, burdadır ancaq!

Şevçenko həyatda inqilabçı, sənətdə isə yenilikçi olmuşdur.

Rus inqilabçı demokratlarının ideya silahdaşı, təhkimçiliyə və mütləqiyyətə qarşı barışmaz mübariz T.Q.Şevçenko dahi söz sənətkarı olmaqla bərabər, həm də ictimai-siyasi xadim, kəndli inqilabının ideoloqu, görkəmli mütəfəkkir və pedaqoqdur. Onun ədəbi-pedaqoji irsi bütün tərəqqipərvər bəşəriyyətin mə'nəvi xəzinəsinin qiymətli inciləridir.

Keçən əsrin 30-cu illərindən başlayaraq məktəb, tərbiyə və ailə məsələləri dövrün görkəmli mütəfəkkirləri olan Belinski, Gertsen, Çernışevski və Dobrolyubovun nəzər-diqqətini cəlb edirdi. Dövrünün görkəmli şəxsiyyətlərindən biri olan Şevçenko da, digər ictimai-siyasi xadimlər kimi, bu məsələlərin həllindən kənarda qalmamışdır. Bu məsələlər onu daim narahat edirdi. O, bu məsələləri inqilabi – demokratik ruhda həll etmiş və özündən sonra zəngin pedaqoji irs qoymuşdur.

Şevçenkonun tə'lim-tərbiyəyə aid fikirləri əsasən onun nəzm əsərlərində, povestlərində, dramlarında, məşhur gündəliyində və yazışmalarında verilmişdir. Ona görə də Şevçenkonun tə'lim-tərbiyəyə aid fikirlərini onun bütöv yaradıcılığından ayırmaq olmaz.

Şevçenkonun xalq maarifi və tə'lim-tərbiyə məsələlərinə aid fikirləri ilə böyük rus inqilabçı demokratların, xüsusilə V.Q.Belinskinin fikri arasında bir çox ümumi cəhətlər vardır.

V.Q.Belinski kimi, Şevçenko da xalqın savad öyrənməyə həris olduğunu, sadə xalqın buna ehtiyac hiss etdiyini duymuş, bu ehtiyacın ödənilməsinə hər vasitə ilə çalışmışdır. Xalq müdrikliyinin yaratdığı «tə'lim – işıqdır, savadsızlıq isə zülmət», «elm başda olar», «bir alim üçün iki nadan (savadsız) verirlər, lakin bir alimə iki savadsız almırlar» kimi ifadələr onun əsərlərində öz əksini tapmışdır.

Şair 1841-ci ildə yazdığı «Qaydamaklar» adlı poemasının epiloqunda yurdsuz, yetim, sısqa, çörəksiz bir uşaq təsvir edir. Bu uşaq «balaca ayaqları ilə» Ukraynanı gəzib dolaşır, Lomonosov kimi, həqiqi müəllim-tərbiyəçi axtarır ki, ona xeyirxahlıq öyrətsin.

Elmin, təhsilin qızğın tərəfdarı olan Şevçenko elmin bütün xalqa məxsus olacağı vaxtı ürək döyüntüsü ilə gözləyirdi. Şevçenko ümumi təhsil arzulayırdı və deyirdi ki, «Xalqda ümumi savad böyük yaxşılıqdır, lakin o yerdə ki, 100 nəfərə bir savadlı düşür – böyük müsibətdir».

Demokratik mövqedən çıxış edən Şevçenko maarifin məqsədini xalqda mütləqiyyətə, təhkimçiliyə və onun mürtəce ideologiyasına qarşı mübarizlər tərbiyə etməkdə görürdü.

Şevçenkonun əsas pedaqoji müddəalarından biri tərbiyə və ictimai mühit məsələsidir. Onun fikrincə, insan şəxsiyyətinin formalaşmasına tə'sir edən amillərdən biri də tərbiyə və ictimai mühitdir. Tərbiyədə ictimai mühitin rolu onun «Ekizlər» adlı povestində öz əksini tapmışdır.

Burada iki oğlan uşağının həyat yolu təsvir edilərək göstərilir ki, insan şəxsiyyətinin formalaşması, uşaqlıq və yeniyetməlik dövründə onun kim və nə ilə əhatə olunmasından asılıdır.

Şevçenko uşağın mə'nəvi aləminin formalaşmasında tə'lim verən şəxsin rolunu yüksək qiymətləndirmişdir. O, Poltava gimnaziyasında dərs deyən dövrün tərəqqipərvər pedaqoqu və məşhur Ukrayna yazıçısı İ.P.Kotlyarevskinin uşaqlarda yüksək əxlaqi sifətlər tərbiyə etdiyini buna nümunə göstərmişdir. O, pedaqoji işi yüksək dərəcədə xeyirxah və ciddi işlərdən hesab etmişdir. Şevçenkonun fikrincə, uşağın mə'nəviyyatının formalaşmasında ailənin, xüsusilə ananın müstəsna rolu vardır. Özünün sələfləri olan Radişşev və Belinski kimi, Şevçenko da sübut etmişdir ki, mülkədar-zadəgan ailələri həqiqi, ağıllı tərbiyə verə

bilməzlər. Şairin bu fikri onun «Bədbəxt», «Musiqiçi», «Knyaginya» və s. kimi povestlərində irəli sürülür. Şevçenkonun fikrincə, bərabərlik olmayan ailədə böyük dostluq, sevgi olmayan ailədə sevinc və xoşbəxtlik ola bilməz.

Şevçenkonun pedaqoji irsində vətənpərvərlik tərbiyəsi xüsusi yer tutur. Onun vətənpərvərlik ideyası doğma ölkəsinə məhəbbəti, zülm altında inləyənlərə məhəbbəti, istismarçılara və onlara xidmət edənlərə: mə'murlara, keşişlərə və monaxlara nifrəti ilə birləşmişdi. Şevçenkonun zəhmətkeşlərə dərin hörmət bəsləməsi onun nikbinliyindən irəli gəlirdi. O, daim haqqın, həqiqətin, ədalətin qalib gələcəyinə ümid bəsləyir, cəmiyyətin yenidən qurulacağına, həyatın dəyişdiriləcəyinə, «ağıl ilə işləyənlərin və işləyən əllərin qalib gələcəyinə» inanırdı.

Şevçenko uşaqlara böyük məhəbbət bəsləyirdi. Onun bu məhəbbəti uşaqlar üçün yeni məktəb uğrunda mübarizədə ifadə olunur. O, köhnə məktəbin – əzbərləmə məktəbinin ciddi əleyhdarı kimi çıxış edərək, əsaslı islahat tələb edirdi. O, elə məktəb istəyirdi ki, xalq onu sevsin, orada sevimli ana dili səslənsin.

Rusiyada olan ali və orta ixtisas məktəbləri, qapalı tədris müəssisələri və pansionları, oradakı tə'lim-tərbiyə işləri Şevçenko tərfindən ciddi tənqid edilmişdir.

Gənc zadəganları hərbi qulluğa hazırlayan kadet korpuslarındakı tə'lim-tərbiyə işlərinin qoyuluşu onu qətiyyən tə'min etmirdi. Buradakı tərbiyə sistemini kəskin tənqid edən Şevçenko göstərirdi ki, kadet korpusu həqiqi əqli, əxlaqi, bədii və fiziki tərbiyə vermir, əksinə, gəncləri eybəcərləşdirir.

Şevçenkonun pedaqoji fəaliyyəti, əsasən, onun həyatının sonrakı dövründə daha da çiçəklənməyə başladı. Sürgündən qayıdandan sonra o, bilavasitə xalq maarifi ilə, pedaqoji işlə yaxından məşğul oldu. Onun pedaqoji fəaliyyəti sırasında bazar günü məktəbləri ilə əlaqədar olan cəhətlər diqqəti daha cəlb edir.

Şevçenko dövrünün mühüm pedaqoji hadisəsi olan bazar günü məktəblərinin işində fəal iştirak etmişdir. O, əhali arasında savadın yayılması uğrunda gərgin mübarizə aparmış və xalqa təhsil almaqda kömək etmək məqsədilə bazar günü məktəbləri üçün «Cənubi rus əlifbası» adlı dərslik tərtib etmişdir. Bu kitab 1861-ci ildə 10 min nüsxə tirajla çap edilmişdir.

Şevçenkonun «Əlifba»sı o dövrdə Ukraynada ən yaxşı dərslik idi. Dərslikdə maraqlı mətnlər, diqqəti cəlb edən şəkillər vardı. Çar hökumətinin qadağan etməsinə baxmayaraq, bu dərslik tezliklə yayılmışdı.

Qeyd etmək lazımdır ki, Şevçenkonun dərsliyi Ukrayna əlifbasını rus əlifbasından sün'i surətdə ayıran Ukrayna burjua millətçisi Kulişin «Qrammatika» dərsliyindən kəskin bir surətdə fərqlidir. Şevçenko özünün əlifbasında bütün rus hərflərini saxlamış və beləliklə də öz əlifbasını Kulişin əlifbasının əksinə olaraq rus əlifbası ilə qohumlaşdırmışdır. Şevçenko öz əlifba kitabını, hər bir kəndlinin onu sərbəst surətdə oxuya biləcəyi şəkildə tərtib etmişdi. Oradakı mətnlər aydın, atalar sözləri ilə zəngin və dərin ictimai fikirlərlə dolu idi. Şevçenko əlifbasının hər bir sətrində köləliyə və zülmə qarşı üsyan ruhu duyulurdu. Burada zəhmətkeşlərin qüvvələrini birləşdirmək ideyası irəli sürülür, kollektivçilik prinsipi təbliğ edilirdi. Əsəri senzuradan keçirmək üçün müəllif ona dua adı altında qanunsuzluğa və yalançılığa qarşı qəzəbli sözlər daxil etmişdir. Burada o, həqiqətin və xeyirxahlığın qızğın tərəfdarı və müdafiəçisi, carçısı kimi çıxış edirdi. Dərslikdə deyilir:

O yerdə ki, xeyirxah adamlar var
Orada həqiqət də var.
O yerdə ki, yalançılıq var
Orada xeyirxahlıq da yoxdur.

Böyük maarifçi və inqilabçı demokrat olan Şevçenko öz əlifbasını geniş təhkimçi kəndli kütləsi içərisində hər vasitə ilə yaymağa çalışırdı. O, bununla, bir tərəfdən kəndlilərin əlinə əlverişli, aydın və anlaşılan əlifba vermək, digər tərəfdən isə, bazar günü məktəbləri üçün vəsait toplamaq məqsədini güdürdü.

Bütün bunlara baxmayaraq, güclü və mürtəce mütləqiyyət quruluşu Şevçenkonun «Əlifba»sının xalqa yolunu kəsdi. Çar hökuməti 10 iyun 1862-ci il fərmanı ilə bazar günü məktəblərini bağladı. Çar hökumətinin bu fərmanı böyük maarifçinin sonrakı fəaliyyətinə də zərbə vurdu. Şevçenko hələ 1861-ci ildə bazar günü məktəbləri üçün yeni dərsliklər yazmaq üçün böyük plan nəzərdə tutmuşdu. O, elə xalq məktəbləri nəzərdə tuturdu ki, onun

proqramına bir sıra ümumtəhsil fənləri, o cümlədən coğrafiya, tarix daxil olsun.

Şevçenko dərsliklər tərtib etməyi xalq maarifi üzrə böyük işin bir hissəsi hesab edir və ona xüsusi əhəmiyyət verirdi.

Şevçenkonun çoxcəhətli yaradıcılığı nəinki Ukrayna xalqının, eyni zamanda vətənimizdə yaşayan bütün qardaş xalqların tə'lim-tərbiyə sistemini və maarifini rus inqilabçı demokratlarının ideyası ruhunda inkişaf etdirmək işində böyük rol oynamışdır.

Taras Şevçenkonun zəngin və mə'nalı poeziyası dünyanın bütün sadə adamları üçün əziz və qiymətlidir. O, öz əsərləri ilə insanların sevimlisi olaraq qalır və yaşayır.

«Azərbaycan məktəbi»
jurnalı 1964, №3, s.8–12.

A.S.Makarenko və Azərbaycan

Böyük pedaqoq və yazıçı Anton Semyonoviç Makarenko sovet pedaqogikası tarixində görkəmli yer tutur. Onun tərbiyə probleminə həsr olunmuş irihəcmli bədii-pedaqoji əsər və məqalələri, nitq və çıxışları sovet pedaqogika elminin yeni və yüksək inkişaf mərhələsini təşkil edir. Makarenkonun «Pedaqoji poema», «Qalalar üstündə bayraqlar», «Valideynlər üçün kitab» adlı əsərləri sovet pedaqoji və bədii ədəbiyyatının qızıl fonduna daxil olmuşdur.

A.S. Makarenko özünün bütün həyatını, bacarıq və qüvvəsini yeni insan tərbiyəsinə həsr etmişdir. O, həyatının məqsəd və xoşbəxtliyini bu sahədəki əməkdə görmüşdür.

A.S. Makarenko, M.Qorkinin sözləri ilə desək, böyük ehtiras və sənətkarlıqla işləməklə bərabər uzaq gələcəyi görməyi bacarırdı. O, öz əsərlərindən birində yazmışdır: «İndiki valideynlər öz uşaqlarını tərbiyə etməklə ölkəmizin gələcək tarixini və deməli, dünya tarixini tərbiyə etmiş olurlar». Bu sözlər bizim dövrümüzdə də özünün böyük aktuallığını saxlayır. Sovet müəllimləri, valideynlər və tərbiyəçilər xalq maarifinin bütün sahələrində fəaliyyət göstərən işçilər A.S.Makarenkonu yüksək qiymətləndirir, onun ölməz pedaqoji əsərlərindən yaradıcı surətdə istifadə edir və öz işlərində ondan nümunə götürürlər.

A.S.Makarenkonun pedaqoji irsi Azərbaycan müəllimləri üçün də qiymətli bir məktəbdir. Böyük pedaqoq bizim üçün həm də ona görə yaxın və qiymətlidir ki, o özünün rəhbərlik etdiyi F.E. Dzerjinski adına kommunanın kommunarları ilə birlikdə Azərbaycana gəlmiş və üç gün Bakıda qalmışdır.

A.S. Makarenko Bakıya gəlməzdən əvvəl Bakı fəhlələri ilə tanış idi. Bu tanışlıq hələ 1930-cu ilin yanvar ayında kommunada başlanmışdı. Belə ki, 1929-cu ildə Bakı Şəhər Soveti ilə Xarkov Şəhər Soveti yarışırdı. Bu münasibətlə də Bakı fəhlələrinin nümayəndələri Xarkov şəhərinə getmişdilər. Bakı fəhlələrinin nümayəndələri Xarkovda olarkən A.S.Makarenkonun işlədiyi F.E.Dzerjinski adına kommunada olmuşdular. Bu vaxt F.E.Dzerjinski adına kommuna, nəinki təkcə Sovet İttifaqında, habelə xarici ölkələrdə də şöhrət qazanmışdı.

Kommuna Bakı fəhlələri nümayəndə hey'ətinin xoşuna gəlmiş və ona yaxşı tə'sir bağışlamışdı. Bakılılar kommunanın «Təəssürat kitabı»na aşağıdakı sözləri yazmışdır: «Burada kommunarlardan əslində, nəinki təkcə istehsalatçılar, həm də öz həyatlarının gözəl təşkilatçıları hazırlanır. Bizə bu təcrübəni öyrənmək və Bakı uşaq evlərində bundan istifadə etmək lazımdır. Binanın, sinfin və yataq otaqlarının təmizliyi ən yaxşı təəssürat oyadır».

A.S.Makarenko və onun kommunarları Bakıda olarkən neftçilərlə, fəhlələrlə və şəhər əhalisi ilə bir sıra görüşlər keçirmişlər. Bu görüşlərdən biri də Bakının ən qədim neft mə'dənlərindən olan Bibiheybətdə olmuşdur.

Bakının neft mə'dənləri kommunarlarda xüsusi maraq oyatmışdı. Bibiheybət Bakının ilk mə'dənlərindən biri olduğu və beşilliyi 2 il yarımda yerinə yetirdiyi üçün kommunarların diqqətini xüsusilə cəlb edirdi. Ona görə də kommunarlar dəstə-dəstə mə'dənə dağılmış və Makarenkonun sözləri ilə desək, yarım saat müddətində bütün xəndəklərə, günc-bucaqlara baxmış və neftçıxarmanın bütün təfsilatını soruşub öyrənmişlər.

Bibiheybət neftçiləri ilə kommunarların görüşü çox gözəl təəssürat buraxmışdır. Görüş zamanı Bibiheybət neftçilərinin qələbə rəmzi olan qırmızı bayraq birdən ortaya gətirilmiş və kommunarlar öz ən'ənələri üzrə bayrağa hörmət əlaməti olaraq rəsmi-tə'zim etmişlər

Görüşün sonunda kommunarlardan biri - A.N.Şved çıxış edərək demişdir: «Bibiheybət fəhlələri! Bu bayraq sənayeləşdirmə cəbhəsində sizin qələbənizin rəmzidir. Sizin qələbəniz bütün fəhlələri sevindirdi. Sizin qələbəniz bütün İttifaqı dünyanın bütün fəhlələrini sevindirdi. Biz özümüzü xoşbəxt hesab edirik ki, sizin bayrağı, sizin çox böyük qələbənizi alqışlamaq bizə nəsib oldu. Biz sizə heyran olmuşuq, biz sizdən nümunə götürəcəyik, biz qalib gəlməyi sizdən öyrənəcəyik».

Yeri gəlmişkən qeyd edək ki, Aleksandr Natanoviç Şved-F.E.Dzerjinskinin adını daşıyan və o zaman şöhrət qazanmış kommunanın komsomol bürosu katibi olmuşdur. O kommunaya 1929-cu ilin iyun ayında gəlmişdir. A.S.Makarenko «30-cu illərin marşı» adlı əsərində onu belə xarakterizə edir: «Şved böyük siyasətçi və sayıq, ağıllı, bilikli və ciddi olmaqla bərabər, yumşaq və dərin fikirlidir». Bir sıra digər kommunarlar kimi A.N.Şved də öz müəllimi A.S.Makarenkonun yolu ilə gedərək pedaqoq olmuşdur. Dnepropetrovsk, Lvov, Vinnitsa şəhərlərində uşaq tərbiyə müəssisələrinə rəhbərlik etmiş, hazırda isə Novosibirsk milis şö'bəsi yanında uşaq otağının müdiridir. O deyir: «Hər dəfə mən çətinlik qarşısında qalarkən Anton Semyonoviçi xatırlayıram, onunla məsləhətləşirəm: əgər mənim yerimdə o olsa idi, necə edərdi? Onun devizi-hər bir insan uğrunda mübarizə aparmaqdan ibarət idi» (bax: Pravda qəzeti, 1963-cü il, 13 mart).

Bakılılarla kommunarların növbəti görüşü şəhər mədəniyyət və istirahət parkında olmuşdur. Makarenkonun yazdığına görə, həmin görüşə 2000-dən artıq adam toplaşmışdı. Bu görüş də çox təntənəli keçmiş və yaxşı təəssürat buraxmışdır. Dzerjinskiçilərdən Kamardinov kommunarların həyatından, istehsalatda işləməsindən, gələcəyindən danışmışdır. O, neftçilərin qəhrəmanlıq işlərinə heyran olduğunu bildirmiş və əmək rəşadəti üçün onları kommunarlar adından təbrik etmişdir. Makarenkonun yazdığına görə, görüşdə iştirak edən Bakı fəhlələrindən bir çoxu cavab nitqi söyləmişdir.

A.S.Makarenko bakılılarla olmuş bu görüşü «yaxın adamların özlərinin ümumi proletar mahiyyəti ilə yaxın adamların həqiqi yığıncağı» adlandırmışdır.

Yığıncaqdan sonra qonaqların orkestri inqilabi və Ukrayna musiqisindən bir neçə marş çalmış, dəstələrlə parkda gəzmişlər.

Çevik və boylu-buxunlu kommunarlar gümrah və mehriban olduqlarından bakılıların xoşuna gəlmişlər. Görüşdən sonra fəhlələrin bir çoxu Makarenkonun yanına gələrək kommunarların təhsili, tərbiyəsi və s. məsələlərə aid ona suallar vermiş və Makarenkonun əməyini təqdirəlayiq iş kimi qiymətləndirərək, onun əlini sıxmışlar.

Bakılılarla olan bu görüşü Makarenko «ən yaxşı saatlar» hesab etmiş və kommunarların bu yürüşünü özünün «30-cu illərin marşı» adlı əsərinə daxil olan «F.D-1» adlı povestində təsvir etmişdir.

Makarenko öz kommunarları ilə üç gün (23–25 iyul) Bakıda qaldıqdan sonra Tbilisiyə yola düşmüşdür.

A.S.Makarenko özündən sonra böyük bir pedaqoji irs qoyub getmişdir. Hələ vətən müharibəsindən əvvəl A.S.Makarenkonun pedaqoji irsinin öyrənilməsi böyük maraq əmələ gətirdi. Onun ölümündən sonra, xüsusilə 1939–1941-ci illərdə Makarenkonun həyatı və fəaliyyəti sistematik olaraq böyük diqqətlə öyrənilməyə başlanılmışdır.

Makarenkonun pedaqoji irsinin öyrənilməsi RSFSR-in əməkdar müəllimi M.Kropaçayevanın «Pravda» qəzetində dərc edilmiş «İstifadəsiz irs» («Pravda», 17 mart 1940-cı il) adlı məqaləsi ilə başlanmış, bundan sonra «Uçitelskaya qazeta»nın səhifələrində açılmış mübahisənin gedişi zamanı daha da genişlənib dərinləşmişdir. M.Kropaçayevanın məqaləsində Makarenkonun təcrübəsinin məktəblərə şamil edilməsindən bəhs edilir. «Pravda» qəzeti az sonra «Ailə və məktəb» adlı baş məqaləsində A.S.Makarenkonun pedaqoji irsinin böyük əhəmiyyətini xatırladaraq, uşaqları kiçik yaşlardan e'tibarən kollektivçilik ruhunda tərbiyə etməyin zəruriliyini qeyd etmişdir. Orada deyilirdi: «Mütəşəkkil və möhkəm kollektiv – sovet tərbiyə sisteminin əsasının əsasıdır. Yazıçı-pedaqoq Makarenkonun maraqlı pedaqoji təcrübəsini xatırlamağa dəyər» («Pravda», 29 mart 1940-cı il). M.Kropaçayevanın «İstifadəsiz irs» adlı məqaləsinə cavab olaraq A.S.Makarenkonun yetişdirmələrindən biri olan S.Kalabalinin «Öz müəlliminin ardınca» adlı məqaləsi («Pravda», 16 aprel 1940-cı il) dərc edildi. Bu məqalələr ictimaiyyətin diqqətini A.S.Makarenkonun pedaqoji irsindən istifadə olunmasına cəlb etmişdi.

1940-cı ildə «Uçitelskaya qazeta»da müzakirə təriqi ilə Leninqrad Dövlət Universitetinin dosenti N.A.Lyalinin «A.S.Makarenkonun pedaqoji irsi haqqında» adlı böyük məqaləsi dərc edilmişdir («Uçitelskaya qazeta», 7-9 iyun 1940-cı il). Bununla əlaqədar olaraq redaksiya mübahisə açmaqla pedaqoqları, yazıçı və tənqidçiləri Makarenkonun irsindən kütləvi məktəblərdə istifadə etmək məsələsi üzrə öz fikirlərini söyləməyə də'vət etmişdir.

Ölkəmizin digər respublikalarında olduğu kimi, Azərbaycanda da ictimaiyyətin, o cümlədən müəllim və pedaqoqların fikri A.S.Makarenkonun irsindən istifadə etmək məsələsinə cəlb edildi.

«Uçitelskaya qazeta»nın çıxışında olduğu kimi, Azərbaycan ETMİ-nin (bu institut indi Azərbaycan DETPİ adlanır) professoru B.B.Komarovskinin «A.S.Makarenkonun pedaqoji fəaliyyəti» adlı məqaləsini dərc etməklə («Müəllim qəzeti», 3 avqust 1940-cı il) Azərbaycan oxucularını ilk dəfə olaraq, böyük sovet pedaqoqu və yazıçısının həyat və fəaliyyəti ilə tanış etmişdir.

«Müəllim qəzeti» Azərbaycan ziyalılarını, ilk növbədə müəllimləri Makarenkonun pedaqoji irsi ilə daha yaxından tanış etmək məqsədilə N.A.Lyalinin yuxarıda adını çəkdiyimiz məqaləsini də «Uçitelskaya qazeta»dan tərcümə edərək, olduğu kimi çap etmişdi («Müəllim qəzeti», 21 avqust və 6 sentyabr 1940-cı il).

«Müəllim qəzeti» 1940-cı ildə yenə də prof. B.B.Komarovskinin «A.S.Makarenkonun pedaqoji irsi haqqında mübahisədən məktəblər üçün bə'zi nəticələr» («Müəllim qəzeti», 9 oktyabr 1940-cı il) və daha sonra Azərbaycan ETMİ-nin keçmiş elmi işçisi – hazırda V.İ.Lenin adına APİ-nin ibtidai məktəb pedaqogika və məktəb metodikası kafedrasının müdiri professor M.Muradxanovun «Makarenkonun pedaqoji sistemində uşağa inam» adlı böyük məqaləsini çap etmişdir (7 dekabr 1940-cı il).

Beləliklə, 1940-cı ildə Azərbaycan oxucuları ilk dəfə olaraq, böyük sovet pedaqoqunun pedaqoji irsi ilə tanış olmuşlar.

Azərbaycan müəllimlərini və ümumiyyətlə maarif işçilərini Makarenkonun irsi ilə daha dərindən tanış etmək işində Azərbaycan SSR Maarif Nazirliyinin orqanı olan «Müəllimə köməк» adlı elmi-pedaqoji metodik jurnalının böyük rolu olmuşdur. «Müəllimə köməк» jurnalı A.S. Makarenko pedaqoji irsinə həsr edilmiş bir sıra məqalələr, o cümlədən prof. B.B. Komarovskinin «A.S. Maka-

renkonun pedaqoji sistemində əmək tərbiyəsi» («Müəllimə kömək» jurnalı, 1946-cı il, №11–12) M.Muradxanovun «A.S. Makarenkonun pedaqoji sistemində uşaq kollektivi» (1946, № 11–12) və mərhum dos. Əmir Tağıyevin «A.S. Makarenko və fiziki tərbiyə» (yenə orada) adlı məqalələrini dərc etməklə Makarenkonun pedaqoji irsini yaymaq işində mü-hüm rol oynamışdır.

Göstərilən məqalələrin müəllifləri Makarenkonun koloniyada və kommunadakı fəaliyyəti ilə oxucuları tanış etmiş, uşaq kollektivi, uşaqların əmək və fiziki tərbiyəsinə aid onun fikirlərini nəzərdən keçirmiş və ondan istifadə etməyin bə'zi yollarını göstərməyə çalışmışlar.

Respublikamızın oxucularını Makarenkonun əsər və məqalələri ilə tanış etmək təşəbbüsü də «Müəllimə kömək» jurnalına aiddir. 1940-cı ildə «Valideynlər üçün mühazirələr» seriyasında Makarenkonun «İntizam», «Oyun», «Pedaqoji təcrübənin bə'zi nəticələri» adlı 4 mühazirəsi tərcümə edilərək jurnalda nəşr olunmuşdur.

Azərbaycanda A. S. Makarenkonun pedaqoji irsinin öyrənilməsi və ondan istifadə edilməsi işində dövri pedaqoji mətbuatla bərabər, müəllim və maarif işçiləri üçün təşkil olunmuş mühazirələrin də böyük əhəmiyyəti olduğunu qeyd etmək lazımdır.

1940-cı ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı kollegiyasının xüsusi iclası çağırılaraq, məktəblərdə və uşaq müəssisələrində Makarenkonun pedaqoji irsindən istifadə etmək məsələsi geniş müzakirə edilmişdir.

Azərbaycan SSR XMK-nın kollegiyası Makarenkonun pedaqoji irsini öyrənərək respublika müəllimlərinə izah etməyi, bundan yaradıcı şəkildə istifadə olunması yollarını göstərmişdir. Azərbaycan SSR XMK kollegiyasının qərarı əsasında Makarenkonun irsini təbliğ etmək işində respublikamızın pedaqoji institutlarının pedaqogika kafedraları da xüsusi fəallıq göstərmişlər.

A.S.Makarenkonun pedaqoji irsini respublika müəllimləri arasında təbliğ edənlərdən biri də o vaxt N.K.Krupskaya adına Kirovabad Dövlət Müəllimlər İnstitutunun pedaqogika müəllimi Qasım Qafarzadə olmuşdur. 1941-ci ilə aid bir sənəddə göstərilir ki, Qasım Qafarzadə həmin ildə Azərbaycanın 31 rayonunda müəllimlər və valideynlər qarşısında çıxış edərək, «A.S.Makarenkonun pedaqoji

irsi», «Şüurlu intizam tərbiyəsi», «Ata-ananın nüfuzu» və s. kimi pedaqoji mövzularda 116 mühazirə oxumuşdur.

Qeyd etmək lazımdır ki, həmin dövrdə respublikamızın pedaqoji mətbuatı ilə yanaşı, «Kommunist» qəzeti səhifələrində də Makarenkonun pedaqoji irsinə dair materiallar dərc edilmişdir. Məsələn, «Kommunist» qəzetinin 1941-ci il aprel nömrəsində tənqidçi N.Çetunovanın «Yazıçı və pedaqoq» adlı məqaləsində A.S.Makarenkonun məşhur əsəri «Pedaqoji poema»nın novatorluq mahiyyəti elmi surətdə izah olunmuş, geniş oxucu kütləsi böyük pedaqoqun ədəbi-pedaqoji irsi ilə tanış edilmişdir. Həmin tarixdə «Gənc işçi» qəzetində də «A.S.Makarenko» adlı maqalə dərc edilmişdir.

Lakin Böyük Vətən müharibəsinin başlanması görkəmli pedaqoq və yazıçının irsinin öyrənilməsi sahəsindəki təqdirəlayiq işləri müvəqqəti olaraq dayandırdı. Bu dövrdə respublikamızda A.S. Makarenkonun irsinə aid yalnız bir məqalə dərc edilmişdir («Müəllimə köməkə» jurnalı, 1944, № 2–3). Böyük Vətən müharibəsi qurtardıqdan sonra Azərbaycan pedaqoqları və yazıçıları Makarenkonun ədəbi və pedaqoji irsini öyrənmək, yaymaq və ondan istifadə etmək sahəsində başlanmış işi davam etdirmişlər.

Azərbaycanda A.S.Makarenkonun irsi 1940-cı illərdə olduğu kimi, sonrakı illərdə də iki yol ilə A.S.Makarenkonun özünün ədəbi pedaqoji əsərlərinin tərcümə olunaraq çap edilməsi və A.S.Makarenko haqqında məqalə və əsərlər yazılması yolu ilə oxuculara çatdırılmışdır.

1946-cı ildən başlayaraq A.S.Makarenkonun ədəbi və pedaqoji irsi üzərində aparılan elmi-tədqiqat işləri ilə yanaşı, respublika ziyalılarını, o cümlədən xalq maarif işçilərini onun irsi ilə silahlandırmaq və özlərinin pedaqoji işlərində ondan istifadə etməyə çağırmaq işində «Azərbaycan müəllimi» qəzetində və «Azərbaycan məktəbi» jurnalında bu haqda bir sıra məqalələr dərc edilmişdir. «Azərbaycan müəllimi» qəzetində «A.S.Makarenkonun pedaqoji irsindən» başlığı altında verilmiş «İntizam, rejim (qayda), cəza və həvəsləndirmə» adlı məqalə ilə əlaqədar olaraq redaksiyanın qeydində deyilirdi: «Qəzetimizin bu nömrəsindən e'tibarən böyük sovet pedaqoqu Anton Semyonoviç Makarenkonun öz qiymətli pedaqoji təcrübələri əsasında yazdığı nəzəri məqalələrini dərc

etməyə başlayırıq. A.S.Makarenko həqiqi vətəndaşlar yetişdirməklə öz nəzəriyyəsini təcrübədə sınaqdan keçirmişdir. Lakin Makarenkonun işlədiyi koloniyanın (kommunanın) şəraitini, tərbiyənin internatda aparıldığını və tərbiyə edilən uşaqların müəyyən xüsusiyyətlərə malik olduqlarını nəzərə alaraq redaksiya onun bütün təcrübələrini bir ehkam kimi mexaniki surətdə kütləvi şəraitdə həyata keçirməkdən müəllimləri saqındırdı. Makarenko özü «işləmiş olduğum 7 il ərzində koloniyada bir-birinə tamamilə oxşayan iki təsadüf olmamışdır», – deməklə göstərir ki, aparılmış təcrübəni eynən tətbiq etmək olmaz. Makarenkonun təcrübələrini eynən kütləvi məktəbdə həyata keçirməyə təşəbbüs edən pedaqoqların işi müvəffəqiyyətsiz olmuşdur. Odur ki, Makarenkonun təcrübə və nəzəriyyəsini ətraflı surətdə öyrənmək, onun ruhunu qavramaq və ən başlıcası Makarenkonun qiymətli təcrübələrinə yaradıcılıqla yanaşmaq lazımdır. Xüsusilə onun məktəbdə bolşevik qaydası yaratmaq və tərbiyə işində ona əsaslanmaq, şagird ictimai əfkarını ayrı-ayrı intizamsız hərəkətlər əleyhinə yönəltmək, ən'ənələr yaratmaq və s. haqqında fikir və təkliflərini müəllimlərimiz yaxşı öyrənməlidirlər («Azərbaycan müəllimi» 1946-cı il 16 may).

«Azərbaycan müəllimi» qəzeti başladığı bu təşəbbüsü qəzetin sonrakı nömrələrində də davam etdirmişdir.

Əgər 40-cı illərdə Azərbaycan ziyalıları A.S.Makarenkonun əsərləri ilə yalnız qəzet və jurnal səhifələrində dərc olunmuş kiçik parçalarla tanış olurdularsa, sonralar onun irihəcmli əsərlərini ana dilində oxumuşlar. A.S.Makarenkonun ədəbi və pedaqoji irsinə artan tələbatın və verilən yüksək qiymətin nəticəsi olaraq bir-birinin ardınca onun bir sıra mühüm əsərləri, o cümlədən «Tərbiyə işləri haqqında» (məqalələr məcmuəsi) kitabçası (Bakı, Azərnəşr, 1948) və 1950 -ci ildə «Müəllim kitabxanası» adı altında «Seçilmiş pedaqoji əsərləri» (buraya əvvəlki 2 kitabçada olmayan bütün məqalə və çıxışlar daxil edilmişdir), M.Arifin tərcümə etdiyi «Pedaqoji poema» (Bakı, Uşaqgəncnəşr, 1952) və 1954-cü ildə «Kommunist tərbiyəsi haqqında» (seçilmiş pedaqoji əsərləri) kimi irihəcmli kitabları ana dilində nəşr edilərək oxuculara çatdırılmışdır. Qeyd etmək lazımdır ki, «Azərbaycan məktəbi» jurnalı redaksiyası oxucuların tələbatını nəzərə alaraq A.S.Makarenkonun «Pedaqoji poema» əsəri kitab şəklində çap edilənə qədər jurnalın səhifələrində onun bir sıra

fəsillərini hissə-hissə nəşr etmişdir (Bax: «Azərbaycan məktəbi» jurnalı, 1951-ci il, №7,8 və 9; 1952-ci ildə ikinci dəfə təkrar nəşr edilmişdir). «Kommunist tərbiyəsi haqqında» əsəri isə Bakıda 1953-cü ildə rus dilində də nəşr edilmişdir.

Böyük Vətən müharibəsindən sonra A.S.Makarenkonun əsərləri ilə bərabər onun haqqında bir sıra irihəcmli tədqiqat əsərləri, kitabçalar və çoxlu məqalələr də dərc edilmişdir ki, bunlar A.S.Makarenkonun pedaqoji sisteminin mahiyyətini başa düşməkdə və Azərbaycan şəraitində ondan istifadə etməkdə istiqamət vermişdir.

Mə'lum olduğu kimi A.S.Makarenko novator pedaqoqdur. O, özünün novatorluğu ilə sovet pedaqogika elmini zənginləşdirmiş və onu daha da inkişaf etdirmişdir. Prof. Ə.Y.Seyidovun «A.S.Makarenko novator pedaqoqdur» («Azərbaycan məktəbi» jurnalı, 1949, № 2) adlı məqaləsi məhz bu məsələyə həsr edilmişdir. Prof. Ə.Y.Seyidov bir sıra başqa məqalələrində, mə'ruzə və çıxışlarında da A.S.Makarenkonun novatorluğunu böyük ehtirasla təbliğ edən ilk Azərbaycan pedaqoqlarındandır.

A.S.Makarenkonun yubileyi münasibəti ilə yazılmış bir sıra qəzet və jurnal məqalələri nəzərə alınmazsa bu sahədə geniş tədqiqat işi aparmaq və A.S.Makarenkonun pedaqoji irsini respublikamızda təbliğ etmək işi birinci növbədə prof. M.Muradxanova aiddir.

A.S.Makarenkonun pedaqoji irsinə həsr edilmiş onlarca əsər və məqalələr müəllifi olan prof. M.Muradxanov Böyük Vətən müharibəsindən əvvəlki illərdə olduğu kimi, sonralar da böyük pedaqoqun irsinə məhəbbətlə yanaşmış, onu böyük həvəslə tədqiq etmişdir.

M.Muradxanovun bu sahədəki, mühüm xidmətlərindən biri budur ki, o hər şeydən əvvəl, Azərbaycan pedaqoji mətbuatı vasitəsilə Makarenkonun pedaqoji irsini yaymışdır. «Azərbaycan məktəbi» jurnalında M.Muradxanovun «A.S.Makarenkonun pedaqoji irsindən istifadə etməyə dair» («Azərbaycan məktəbi», 1951, №7), «A.S.Makarenkonun pedaqoji irsindən perspektiv xətlər sistemi və ondan istifadə etmək yolları» (yenə orada, 1953, №2), «A.S.Makarenko intizam tərbiyəsi rejiminin rolu haqqında» (1954, № 4), «A.S.Makarenkonun tərbiyəsi» (1958, № 3), «A.S.Makarenko uşaq oyunları haqqında» (1962, № 6) və s. kimi irihəcmli məqalələri dərc

edilmişdir ki, burada müəllif unudulmaz sovet pedaqoqunun pedaqoji irsini dərindən təhlil və şərh etmişdir.

Prof. Muradxanov A.S.Makarenkonun pedaqoji irsini təbliğ edərkən yalnız qəzet və jurnal məqalələri yazmaqla kifayətlənməmişdir. O, bu irsə bir sıra irihəcmli kitablar da həsr etmişdir. Məsələn, «A.S.Makarenkonun pedaqoji irsi və məktəbdə ondan istifadə etmək yolları» (Bakı, 1954), «A.S.Makarenko uşaqların ailə tərbiyəsi haqqında» (Bakı, Azərbaycan ETPİ-nin nəşri, 1955), «A.S.Makarenko əmək tərbiyəsi haqqında» (əlyazması şəklindədir), «Makarenkonun pedaqoji irsi» (Bakı, 1965) və s. adlı əsərləri M.Muradxanovun uzun illərdən bəri apardığı tədqiqat işinin nəticəsidir ki, oxucular bu əsərlərdən Makarenkonun çoxsahəli pedaqoji irsini hərtərəfli öyrənə bilirlər.

Azərbaycanda Makarenkonun psixoloji irsi də öyrənilmişdir. Respublikanın görkəmli psixoloqlarından dos. M.Məhərrəmov Makarenkonun psixoloji baxışları üzərində xeyli tədqiqat aparmış, xüsusilə onun iradə tərbiyəsi haqqındakı fikirlərini geniş öyrənmişdir….

«Azərbaycan məktəbi» jurnalı 1968, №3, s.53–59.

K.D.Uşinskinin pedaqoji ideyalarının Azərbaycanda yayılmasına dair

XIX əsrin ikinci yarısında mütərəqqi rus mədəniyyəti xadimləri arasında K.D.Uşinski (1824–1870) şərəfli yer tutur. Onun pedaqoji əsərləri, irəli sürdüyü fikirlərin yeniliyi, dolğunluğu, müasirliyi və mütərəqqiliyi e'tibarı ilə öz müasiri olan Qərbi Avropa pedaqoqlarının əsərlərindən qat-qat yüksəkdə durur. K.D.Uşinskinin böyüklüyü orasındadır ki, o özünün bütün həyatını sədaqətlə, fədakarcasına xalq maarifinə xidmət etməyə həsr etmiş və tərbiyə haqqında elmin bünövrəsini qoymuşdur. V.Q.Belinskinin ideyaları ruhunda tərbiyə alan və əqidə e'tibarilə demokrat maarifçi olan K.D.Uşinski yeni mütərəqqi məktəb uğrunda, tərbiyə və tə'limin elmi əsaslar üzərində qurulması uğrunda ardıcıl mübarizə aparmışdır. Məhz buna görədir ki, rus pedaqogikasının yaradılmasında və rus xalq məktəblərinin inkişafında göstərdiyi unudulmaz xidmətlər üçün

Rusiyanın qabaqcıl adamları onu «Rus pedaqogikasının atası» adlandırmışlar. Onun adı dünyanın ən məşhur pedaqoqu olan Y.A.Komenski (1592–1670) ilə yanaşı çəkilir. K.D.Uşinskinin rus pedaqogika elmində tutduğu mövqe A.S.Puşkinin rus ədəbiyyatında, Çaykovskinin rus musiqisində, Repinin rus rəssamlığında tutduğu mövqeyə bərabərdir.

K.D. Uşinskinin çox mühüm xidmətlərindən biri budur ki, o «Vətən dili» və «Uşaq aləmi» kimi məşhur dərsliklərin müəllifidir. Yarım əsr ərzində Rusiyanın və Rusiya tabeliyində olan ucqarların 10 milyonlarla uşaqları bu dərslikləri oxumuş və tərbiyə almışlar. İstər sağlığında, istərsə də vəfatından sonra bu dərsliklər dəfələrlə nəşr edilmişdir. Təkcə bunu qeyd etmək kifayətdir ki, Böyük Oktyabr sosialist inqilabına qədər bu böyük pedaqoqun üç hissədən ibarət olan «Vətən dili» adlı dərsliyi cəmi 294 dəfə, «Vətən dilinə rəhbərlik» 35 dəfə, «Uşaq aləmi» (2 hissə birlikdə) cəmi 80 dəfə, «İnsan tərbiyə predmetidir» adlı əsəri 13 dəfə çap edilmişdir. Həmin kitabların dəfələrlə çap olunması onun məziyyətlərindən irəli gəlirdi. O dərsliklərin bir sıra prinsipləri hal-hazırda da öz əhəmiyyətini saxlamış və ibtidai məktəblər üçün yazılan mövcud dərsliklərdə ondan geniş istifadə edilir.

Rus pedaqogika klassikinin unudulmaz adı, zəngin pedaqoji irsi Azərbaycan pedaqoji ictimaiyyəti üçün də yaxın və əzizdir. Çünki Uşinskinin öz dövründə irəli sürdüyü ideyalar Azərbaycan pedaqogikası və məktəb təhsili nəzəriyyəsinin və təcrübəsinin inkişafına böyük kömək etmişdir. İstər inqilabdan əvvəl, istərsə də Sovet hakimiyyəti illərində K.D.Uşinskinin əsərləri Azərbaycan maarifçilərinin-pedaqoqlarının ən çox faydalandığı kitablar içərisində birinci yerlərdən birini tutmuş və pedaqogikanın ən vacib problemlərini həll etməkdə böyük kömək etmişdir.

Yeri gəlmişkən, təəssüflə qeyd etməliyik ki, Azərbaycanda məktəb təhsili, xalq maarifi və demokratik pedaqoji ideyaların inkişafında K.D.Uşinski irsinin rolu və əhəmiyyəti, Uşinski ideyalarının Azərbaycana nüfuz etdiyi zəmin, tarixi şərait bu vaxta qədər hərtərəfli və dərindən öyrənilməmişdir. Doğrudur, bir çox əsər və məqalələrdə, dissertasiya və monoqrafiyalarda, birində az, digərində bir az çox bu məsələyə toxunulmuşdur. Lakin bu problem kimi tədqiq edilib öyrənilməmişdir. İstər Azərbaycan, istərsə də rus

sovet pedaqoji ədəbiyyatında K.D.Uşinskinin Azərbaycan pedaqoji fikrinə tə'sirindən bəhs edildikdə ötəri olaraq ilk növbədə Rəşidbəy Əfəndiyevin və ondan sonrakı pedaqoqların adı çəkilir. Lakin arxiv sənədlərinin və XIX əsr dövri mətbuatının dərindən öyrənilməsi göstərir ki, K.D.Uşinskinin pedaqoji ideyalarının Azərbaycan pedaqogikasına və məktəb təcrübəsinə nüfuz etməsi, Azərbaycanda yayılması və mütərəqqi müəllimlər tərəfindən mənimsənilərək yerli şəraitə müvafiq şəkildə ondan istifadə edilməsi daha əvvəldir və bu məsələnin kökləri xeyli dərindədir.

K.D.Uşinskinin pedaqoji ideyaları Azərbaycan məktəb təcrübəsinə və pedaqoji fikrinə hər şeydən əvvəl onun məşhur dərslikləri ilə tə'sir etmişdir. Belə ki, XIX əsrin 30–40-cı illərindən başlayaraq Azərbaycanda əvvəllər qəza, sonralar şəhər məktəbləri adı ilə meydana gələn tədris müəssisələrində rus dili K.D.Uşinskinin «Vətən dili» və «Uşaq aləmi» kitabları əsasında tədris edilirdi. Azərb. MDTA-da K.D.Uşinskinin hər iki dərsliyindən istifadə edilməsini, məktəb kitabxanalarında bu kitabların nüsxələrinin saxlandığını, müəllimlərin referat xarakterli yazılarında Uşinskinin fikirlərinə istinad edildiyini göstərən sənədlər saxlanmaqdadır. K.D.Uşinskinin dərsliklərinin Azərbaycan məktəbi üçün əhəmiyyəti təkcə rus dilinin səmərəli öyrənilməsi ilə bitmir, bu kitablar, həm də Azərbaycan dilinin öyrənilməsini asanlaşdırmaq üçün, yeni üsullu dərsliklər tərtib edilməsi üçün əsas örnək olmuşdur.

Onu da qeyd edək ki, o vaxtlar təhsilin rus dilində verildiyi dövlət məktəblərində digər fənlərlə bərabər Azərbaycan dilinin də tədrisi Zaqafqaziya məktəblərinin 1829-cu il nizamnaməsi ilə qanunlaşdırılmışdı. Azərbaycan məktəb tarixində ana dili məhz bu nizamnamə sayəsində tədris planında rəsmən müstəqil bir fənn kimi öz yerini tutmuşdur. Azərbaycan dili təkcə Azərbaycan ərazisindəki dövlət məktəblərində deyil, həmçinin İrəvan, Tiflis, Qori və Şimali Qafqazdakı bir sıra dövlət məktəblərində tədris edilən fənlərdən idi. Lakin Azərbaycan dilinin tədrisi nə qədər zəruri və həyati əhəmiyyət kəsb edirsə, bir o qədər də çətin idi. Bu çətinliyin əsas səbəblərindən biri pedaqoji təhsilə malik kadrların azlığı idisə, digəri səs üsulu ilə yazılmış dərslik və tədris vəsaitinin yoxluğu idi. M.F.Axundov 1853-cü ildə bu münasibətlə yazırdı: «… hər yerdə qəza məktəbləri açıldığı zaman hökumət başqa fənlərlə bərabər bu

məktəblərdə Azərbaycan dilinin öyrənilməsini də lazım bildi. Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı»[1].

Bu çətinliklərin aradan qaldırılması işində Azərbaycan dili müəllimlərinin unudulmaz xidməti olmuşdur.

Keçən əsrin 70–80-ci illərindən başlayaraq Azərbaycan dilinin tədrisi və praktik oxu üçün tərtib olunan dərsliklər, demək olar ki, K.D.Uşinskinin yuxarıda adları qeyd olunan dərsliklərı nümunəsində yazılmışdır. Dövlət məktəblərində çalışan sadə xalq müəllimləri K.D.Uşinskinin dərslik tərtib etmək prinsipini mənimsəmiş, onun əziyyətlərini yüksək qiymətləndirmiş və azarbaycanlı balaları üçün də belə dərsliklər tərtib etməyə başlamışdır.

Çoxlu arxiv materialları və rəsmi sənədlərin təhlili göstərir ki, bu sahədə Rəşidbəy Əfəndiyevdən də, A.O.Çernyayevskidən də əvvəl ilk addım atmaq məhz Mirzə Ələkbər Elxanova nəsib olmuşdur. Azərbaycanlı müəllimlər arasında Uşinskinin ardınca gedərək onun «Vətən dili» kitabı əsasında və eyni adda dərslik ilk dəfə M.Ə.Elxanov tərəfindən tərtib edilmişdir.

M.Ə.Elxanov 1856-cı ildən ömrünün sonunadək təxminən 30 ilə qədər İrəvandakı dövlət məktəblərində (əvvəlcə qəza məktəblərində, sonra progimnaziya və gimnaziyada) Azərbaycan dilindən dərs demişdir. O öləndən sonra onun yerinə gələcəyin görkəmli pedaqoqu və maarifçisi Firudinbəy Köçərli tə'yin edilmişdir.

M.Ə.Elxanov müəllimlik edərkən öz dövrünün mühüm ictimai-pedaqoji hadisələri ilə yaxından maraqlanır, rus dili və ədəbiyyatını öyrənir, elmi-pedaqoji biliyini genişləndirir, şe'r yazmaqda qələmini sınayırdı.

Lakin M.Ə. Elxanovun pedaqoji fəaliyyətində diqqəti cəlb edən əsas cəhət, mütərəqqi rus pedaqoji fikrini, o cümlədən K.D.Uşinskinin mə'lum prinsiplərinə istinad edən və yaradıcı surətdə istifadə edən M.Ə.Elxanov 1880-ci illərdə «Azərbaycan dilinin əlifbası» adlı dərslik yazmışdır.

Lakin M.Ə.Elxanovun dərsliyinin nəşr edilməməsinə baxmayaraq o nəticəsiz qalmadı. Əlyazması şəklində qalan bu kitab

[1] M.F.Axundov. Əsərləri, 3-cü cild, Bakı, 1962, s. 70.

səs üsulu ilə yeni dərsliyin yaradılması zəruriyyətini, yeni dərsliklər tərtib edərkən Azərbaycan məktəbinin mütərəqqi ən'ənəsi ilə bərabər mütərəqqi rus pedaqogikasından və məktəbindən, xüsusilə K.D.Uşinskinin təcrübəsindən istifadə etməyin zəruriyyətini təsdiq etdi. Mirzə Elxanovun «Vətən dili» dərsliyinin nəşr edilmədiyini nəzərə alsaq, K.D.Uşinskinin ana dili tə'limi ideyasını Azərbaycanda davam etdirən A.O.Çernyayevski 1882-ci ildə K.D.Uşinskinin dərsliyi nümunəsində sövti üsul ilə «Vətən dili» adlı ilk əlifba kitabını nəşr etdirməklə əsrlərdən bəri davam edən höccələmə üsuluna güclü bir zərbə vurdu. Bu dərsliyin meydana gəlməsi, ana dili tə'limində ondan istifadə edilməsi Azərbaycan məktəbi və pedaqoji fikir tarixində mühüm hadisə idi. Bu hadisənin əhəmiyyəti, həm də, ondan ibarət idi ki, bütün türk-tatar dilli xalqlar içərisində, tamam islam aləmində səs üsulu ilə dərs demək və dərslik tərtib etmək təşəbbüsü ilk dəfə Azərbaycanda ortaya çıxmışdır[1]. Özünün quruluşu, tərtib prinsipləri, dilinin sadələyi, şagirdlərin yaş və bilik səviyyəsinə uyğunluğu ilə «Vətən dili» dərsliyi K.D.Uşinskinin eyni adlı dərsliyinə uyğun olmaqla bərabər, həm də, orijinal idi.

K.D.Uşinskinin ardınca gedən A.O.Çernyayevski «Vətən dili» dərsliyinə metodiki rəhbərlik də tərtib etmişdir. Onun «Vətən dili» dərsliyi sonralar dəfələrlə nəşr olunmuş və Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır. Yalnız bu dərsliyin meydana gəlməsi ilə Azərbaycan dilinin tədrisi müəyyən mə'nada düzgün pedaqoji və metodiki istiqamət aldı.

«Vətən dili»nin (I hissə) müvəffəqqiyyətləri onun ikinci hissəsinin də tərtibinə zəmin hazırladı. Göstərilən dərsliklərin nəşri ilə Azərbaycan məktəblərində yeni bir islahat meydana gəldi və məşhur Azərbaycan pedaqoqu F.Köçərlinin yazdığı kimi, «Azərbaycanlılarda da pedaqoji iş elmi zəmində aparılmağa başladı».

A.O.Çernyayevskinin təcrübəsi, sonralar cənubi Azərbaycanda da tezliklə mənimsənildi. Cənubi Azərbaycan pedaqoqlarından Həsən bəy Mehdi 1894-cü ildə Təbrizdə eyni adlı dərslik nəşr etdirmişdir.

A.O.Çernyayevskinin başladığı işi sonralar onun şagirdlərindən R.Əfəndiyev davam etdirdi. Hələ ZMS-da oxuyarkən

[1] Bax: F.Köçərlinski, A.O.Çernyayevski. «Kaspi» qəzeti, 1914, № 282.

K.D.Uşinskinin pedaqoji görüşlərinin tə'siri altında yeni Azərbaycan məktəbi yaratmağı qarşısına məqsəd qoyan R.Əfəndiyev kənd məktəbində müəllimlik etdiyi vaxtlar Çernyayevskinin «Vətən dili» dərsliyinin bütün yaxşı və qüsurlu cəhətlərini sınaqdan keçirmiş və özünün on illik pedaqoji təcrübəsi əsasında «Uşaq bağçası» adlı əlifba kitabını yazmış və İstanbulda çap etdirmişdir.

«Uşaq bağçası»nın üstünlüyü onda idi ki, bu kitabda uşaq A.O.Çernyayevskinin dərsliyində olduğu kimi 6 ay deyil, bir ay ərzində oxuyub yazmağı öyrənirdi. R.Əfəndiyevin tərtib etdiyi rəhbərlik də daha mükəmməl idi. Sonralar dəfələrlə çap edilən bu dərslik təkcə Azərbaycan və Zaqafqaziya məktəblərində deyil, Şimali Qafqaz və Orta Asiyadakı müsəlman məktəblərində də istifadə edilmişdir.

R.Əfəndiyevin 1901-ci ildə nəşr etdirdiyi «Bəsirət-ül-ətfal» adlı dərsliyi də K.D.Uşinskinin pedaqoji ideyalarının tə'siri altında yazılmışdır. Kitaba Azərbaycan və rus klassik yazıçı və şairlərinin əsərlərindən parçalar daxil edilməsi onun üstün cəhətlərindən idi. Hər iki dərslikdə L.N.Tolstoy, V.P.Vaxterov, N.A.Korf və başqa rus pedaqoqlarının tə'siri hiss edilir, lakin K.D.Uşinskinin tə'siri və onu təqdir etmək hər iki dərsliyin əsasını təşkil edir.

R.Əfəndiyev sonralar yazırdı: «Pedaqojini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb xalqa maarif və bilik verməyir, köhnə məktəb dağılmalıdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan dərs kitabı kimi, öz məktəbimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür».

R.Əfəndiyev yazır ki, məhz bu məqsədlə də «Uşaq bağçası» kitabını qiymətli bir əsərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur və məhbub əlifba kitabçasını özümə rəhbər qəbul etdim.

XIX əsrin sonlarında və əsrimizin əvvələrində təkcə Bakıda və Tiflisdə deyil, həmçinin ölkənin Peterburq, Moskva, Kiyev, Kazan, Xarkov və b. mədəniyyət mərkəzlərində təhsil alan azərbaycanlı ziyalıları mütərəqqi rus maarifçiləri, yazıçı və şairləri ilə ünsiyyətdə olması nəticəsində onların bütöv bir dəstəsi tərbiyə olunub yetişdi. Mütərəqqi rus elmi, ədəbiyyatı və pedaqogikası ilə silahlanan gənclər Vətənə qayıdarkən pedaqoji ictimaiyyəti məşğul edən bir sıra aktual problemlərin həllinə girişir, mütərəqqi rus və dünya klassik pedaqoji fikrini təbliğ edirdilər. Əsrin sonlarında

Azərbaycan ziyalılarının bir dəstəsi mətbuat səhifələrində demokratik pedaqoji fikri təbliğ edir, ana dili tə'limi ideyasını yayır (S.Mehmandarov, M.Şahtaxtlı, F.Köçərli və b.), bir dəstəsi ana dilində yeni üsullu məktəb açır (M.T.Sidqi, S.Ə.Şirvani, M.M.Nəvvab və b.), digər bir dəstəsi «Rus-tatar» məktəbi adlanan yeni tədris müəssisələri təşkil edir (S.M. Qənizadə, M.Mahmudbəyov), başqa bir dəstəsi isə mütərəqqi rus pedaqogikası, xüsusilə də K.D.Uşinskinin ideyalarına əsaslanaraq yeni üsullu dərsliklər tərtib edirdilər (R.Əfəndiyev, S.Vəlibəyov, N.Nərimanov və b.).

Ümumiyyətlə qeyd edək ki, azərbaycanlı ziyalıların qabaqcıl dəstəsinin fikirləri mühüm pedaqoji problemlərin həllində, o cümlədən təhsilin ana dilində olması, ana dilinin tə'lim və tərbiyəvi əhəmiyyəti, tə'limin səs üsulu ilə aparılması, xalq məktəblərinin təşkili və xalq müəllimlərinin hazırlanması məsələsində qabaqcıl rus pedaqoqlarının, ilk növbədə isə K.D.Uşinskinin fikirləri ilə səsləşirdi.

Mə'lumdur ki, «Rusiyada ibtidai məktəbin əsasını qoyan» K.D.Uşinski ibtidai təhsilin əsas vəzifəsini, tə'limin üsullarını və əsas tərzlərini çox dəqiq, aydın və inandırıcı şəkildə işləmişdir. O, ibtidai təhsilin məhz ana dilində, – «hələ nə kitab, nə də məktəb olmadığı dövrlərdə belə xalqı öyrədən və onu tarixin sonuna qədər öyrətməkdə davam edən ən böyük xalq tərbiyəçisi» – adlandırdığı bir dildə verilməsini tələb edir və göstərirdi ki, «dil xalqın çoxəsrlik mə'nəvi həyatının ən dolğun və ən düzgün tarixidir. Hər bir yeni nəsil ana dilini asanlıqla və əmək sərf etmədən mənimsəməklə bərabər, eyni zamanda əcdadının fikir və hisslərinin bəhrələrini də mənimsəyir»[1].

Bu ideya Azərbaycan ziyalıları tərəfindən mənimsənilmiş və yerli şəraitə uyğun olaraq inkişaf etdirilmişdir.

K.D.Uşinskinin müasiri, görkəmli yazıçı və jurnalist, ömrünün 50 ilini Azərbaycan xalq maarifinin, məktəb, ədəbiyyat və mətbuatın inkişafına həsr etmiş M.Şahtaxtlı (1848–1930) hələ 1880-ci illərdə «Qafqaz» qəzetində nəşr etdirdiyi «Müsəlmanların məktəb həyatı» adlı silsilə məqalələrində K.D.Uşinskinin yuxarıda göstərilən fikirlərinə istinad edərək Azərbaycan məktəblərində tə'limin ərəb və fars dillərində deyil, məhz ana dilində aparılması ideyasını müdafiə

[1] K.D.Uşinski. Seçilmiş pedaqoji əsərləri, Bakı, 1953, s.112–113

və təbliğ etmişdir. Ana dilinin tə'lim əhəmiyyətinə ayrıca əhəmiyyət verən M.Şahtaxtlı təhsilin, xüsusilə də ibtidai təhsilin yalnız və yalnız ana dilində aparılmasını zəruri hesab edirdi. O, tə'limin xarici dillərdə aparılmasını böyük qüsur hesab edərək yazırdı ki, «İbtidai məktəb yalnız təhsilin ana dilində aparıldığı zaman yaxşı nəticə verər»[1].

1905–1907-ci illərin birinci rus inqilabı dövründə və sonralar ana dili, onun təmizliyi və tədrisi uğrunda mübarizə xalqın azadlığı uğrunda mübarizənin tərkib hissəsi olduğundan Azərbaycanın dövri mətbuatı bu məsələyə ayrıca fikir verir, Uşinskinin fikrinə istinad edir, onu təbliğ edirdi. Bu işdə «Molla Nəsrəddin» jurnalı daha çox fərqlənirdi. Jurnalın 1913-cü ildəki 22 və 23-cü nömrələrində dərc edilmiş F.Köçərlinin ana dilinə aid məqaləsi o vaxtlar böyük pedaqoqun ana dilinə aid fikirlərini azərbaycanlı oxucularına çatdırmaqla yanaşı, böyük mübahisə obyektinə çevrilmiş və ana dilinin təmizliyi uğrunda mübarizədə böyük rol oynamışdır. N.Nərimanov, Ü.Hacıbəyov və başqa ziyalılar öz məqalələrində yeri gəldikcə K.D.Uşinskinin fikirlərinə istinad edirdilər. Ü.Hacıbəyov «İkinci il» adlı ana dili dərsliyi ilə əlaqədar yazdığı məqaləsində deyirdi:

«Pedaqoqların mə'lum olduğu üzrə hər bir dərs kitabında, havi olduğu (əhatə olunan – H.Ə.) dərslərin müəyyən bir üsul ilə bir-birinin ardınca düzəlməsi iqtizaatı pedaqojiyyədən biridir.

O üsul isə müxtəlifdir. Lakin hamısının yaxşısı məşhur pedaqoq Uşinski qəbul və təklif etdiyi üsuldur ki, buna «dərslərin üsuli-təbii üzrə düzəlməsi» demək olar»[2].

Ü.Hacıbəyov «üsuli-təbii» deyərkən, K.D.Uşinski kimi, tədrisin yaxından-uzağa, mə'lumdan-məchula prinsipini nəzərdə tuturdu. Onu da qeyd edək ki, Azərbaycan pedaqoqları K.D.Uşinskinin irsindən istifadə edərkən heç də onu kor-koranə qəbul etmir, yaradıcı surətdə, yerli şəraitə uyğun olaraq tətbiq edirdilər. Onlar Uşinskinin zəngin pedaqoji irsində Azərbaycan xalqının mədəniyyətinə yaxın, tələb və ehtiyaclarının ödənməsinə kömək edən cəhətləri açıb götürürdülər.

[1] «Qafqaz» qəzeti, № 160, 1882.
[2] Üzeyir Hacıbəyov. Əsərləri, 4-cü cild, Bakı, 1968, s.31.

İnqilabdan əvvəl olduğu kimi, sovet hakimiyyəti illərində də K.D.Uşinskinin pedaqoji irsi Azərbaycanda məktəb təcrübəsi və pedaqoji nəzəriyyənin inkişafına və zənginləşməsinə böyük kömək etmişdir. Azərbaycan sovet dövri pedaqoji mətbuatı ilə ilkin tanışlıq nəticəsində müəyyən edilmişdir ki, K.D.Uşinskinin pedaqoji irsinə aid xüsusi məqalə ilə çıxış edən Azərbaycan pedaqoqlarının ağsaqqalı, Azərbaycan SSR-nin Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Ə.Y.Seyidov olmuşdur. Azərbaycan SSR Maarif Nazirliyinin elmi-pedaqoji və metodiki orqanı olan «Müəllimə köməkə» jurnalı hələ 1939-cu ildə onun «Uşinskinin pedaqoji görüşləri» və «Uşinskinin didaktik görüşləri» adlı iki məqaləsini dərc etmişdir (№ 5-8). Həmin məqalə böyük mütəfəkkirin həyatı və pedaqoji fəaliyyəti, siyasi, fəlsəfi və psixoloji görüşləri, pedaqoji sistemi, əlifba tə'liminə, müəllimə, məktəbəqədər tərbiyəyə aid fikirləri ilə oxucuları tanış etmişdir. 1941-ci ildə azərbaycanlı oxucular Uşinskinin əsərlərindən parçalarla ana dilində tanış olmuşlar. Azərbaycan tədris pedaqoji nəşriyyatı ilk dəfə unudulmaz müəllim və pedaqoq R.Əfəndiyevin tərcüməsi, Q.Məmmədovun redaktəsi ilə Uşinskinin əsərlərindən parçaları «Məktəbdə tə'lim-tərbiyə işləri haqqında» adı ilə nəşr etmişdir. Kitabın əvvəlində prof.V.Strumskinin «Rus pedaqogikasında K.D.Uşinskinin tarixi əhəmiyyəti» adlı məqalə verilmişdir.

K.D.Uşinskinin zəngin pedaqoji irsi ilə geniş oxucu kütləsi Böyük Vətən müharibəsindən sonra daha yaxından tanış olmuşdur. Unudulmaz pedaqoqun vəfatının 75 illiyi vətənimizin hər yerində olduğu kimi, Azərbaycanda da geniş qeyd olunmuşdur. 1946-cı ildə «Azərbaycan məktəbi» jurnalının bir nömrəsi bütövlüklə Uşinskiyə həsr edilmişdir. Respublika pedaqoji ictimaiyyətinin qabaqcıl dəstəsini təmsil edənlərdən Ə.Y.Seyidov, M.Ə.Muradxanov (hal-hazırda Azərbaycan SSR-nin Əməkdar elm xadimi, professor), mərhum professorlardan B.B.Komarovski, Ə.Zəkuzadə, A.Baqri, dos.Ə.Qarabağlı, C.Cəbrayılbəyli, Ə.Həsənov və başqalarının məqalələri Uşinskinin çoxcəhətli fəaliyyəti və irsi ilə azərbaycanlı oxucuları – xalq maarifi işçilərini və çoxminli müəllimlər ordusunu tanış etmək işində mühüm rol oynamışdır.

Jurnalda, həmçinin, Uşinskinin ayrı-ayrı əsərlərindən parçaların tərcüməsi çap edilmişdir. O vaxtlar, həmçinin,

«Azərbaycan müəllimi» qəzeti Uşinski irsinin təbliğində böyük rol oynamışdır. Qəzetin səhifələrində Uşinskinin əsərlərindən parçalar çap edilmiş, onun haqqında silsilə məqalələr buraxılmışdır.

Sonrakı illərdə Uşinski irsinin təbliğində Azərbaycan Dövlət universitetinin dosentlərindən mərhum A.P.Nasir ilə M.Məhərrəmovun da az əməyi olmamışdır.

1953-cü ildə Azərbaycanın pedaqoji ictimaiyyəti «K.D.Uşinskinin seçilmiş pedaqoji əsərləri»nin nəşrini böyük sevinclə qarşıladı. Professor M.Ə.Muradxanov tərəfindən tərtib edilən və böyük giriş məqaləsi yazılan həmin əsərin nəşri ilə azərbaycanlı oxucular Uşinskini ana dilində oxumaq imkanına malik oldular. 50-ci illərdən sonra K.D.Uşinskinin pedaqoji irsinin tədqiq və təbliğində pedaqoji elmlər doktoru, professor N.M.Kazımovun əməyi ayrıca qeyd edilməlidir. Onun 1956-cı ildə rus dilində nəşr olunan «Pedaqoji klassikləri tə'lim prosesində müqayisə üsulunun əhəmiyyəti haqqında» adlı kitabçası və 1957-ci ildə Azərbaycan dilində nəşr etdirdiyi «Müqayisəli tə'lim üsulu haqqında K.D.Uşinskinin fikirləri və məktəb tə'limində bunun əhəmiyyəti» adlı monoqrafiyası böyük nəzəri və praktiki əhəmiyyətə malikdir. Uşinskinin ideyalarının bugünkü məktəb həyatına təcrübi köməyi həmin əsərlərdə konkret misallarla göstərilir.

«V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi əsərləri», XI seriya 1974, №3, s.9–16.

Görkəmli demokrat-pedaqoq, məşhur metodist və maarifçi

İlya Nikolayeviç Ulyanovun adı tarixə məşhur metodist, mütərəqqi fikirli maarifçi, Simbirsk quberniyasında xalq təhsilinin təşkilatçısı və rəhbəri kimi daxil olmuşdur. Böyük pedaqoqun həyat və fəaliyyətinin otuz ildən çoxu dövrünün müasir və qabaqcıl pedaqoji ideyalarının bərqərar olması və özünün təcrübəsində bu ideyaların həyata keçirilməsinə və yayılmasına həsr edilmişdir.

İ.N.Ulyanov 1831-ci il iyulun 14 (26) -də Həştərxan şəhərində anadan olmuşudur. O, 1850-ci ildə Həştərxan gimnazi-

yasını, 1854-cü ildə isə Qazan Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir. Pedaqoji fəaliyyətə də elə bu dövrdən başlayan gənc Ulyanov əvvəlcə Penza Dvoryan İnstitutunda (1855–1863-cü illər), sonra isə Nijni-Novqorod şəhər (indiki Qorki şəhəri) gimnaziyasında və Mariya qız məktəbində (1863–1869-cu illər) riyaziyyat və fizika fənləri üzrə baş müəllim vəzifəsində çalışmışdır. İlya Nikolayeviç pedaqoji fəaliyyətinin ilk dövrlərindən başlayaraq müəllimlərin qabaqcıl dəstəsinin tərəfində durmuş, dövrün tə'lim və tərbiyənin yeni üsullarını müdafiə edən mütərəqqi ictimai və pedaqoji görüşləri ilə həmfikir olmuşdur. İbtidai və orta məktəbin görkəmli metodisti kimi fəaliyyət göstərən İ.N. Ulyanov bu illərdə bir sıra fənlər, o cümlədən hesab, cəbr, həndəsə, triqonometriya, fizika, riyaziyyat, fiziki coğrafiya, tarix fənləri üzrə proqramların tərtibi ilə məşğul olmuş, mətbuatda bu fənlərin tədrisi metodikasına dair sanballı məqalələrlə çıxış etmişdir. Onun tərtib etdiyi proqramlar özünün bir sıra üstünlükləri ilə o, cümlədən, şagirdlərin yaş xüsusiyyətlərinin, psixologiya elminin və qabaqcıl metodikanın son nailiyyətlərinin nəzərə alınması ilə fərqlənirdi. İ.N.Ulyanovun xüsusən fizika-riyaziyyatın tədrisi metodikasının işlənib hazırlanmasında və zənginləşməsində böyük xidməti olmuşdur.

İ.N.Ulyanovun didaktik və metodiki görüşünün mahiyyətini tə'limin elmiliyi, sistemliliyi, əyaniliyi, şagirdlərin anlaq səviyyəsinə uyğunluğu, təcrübə ilə, şagird özfəaliyyəti ilə möhkəm bağlılığı təşkil edirdi. O, Nijni-Novqorodda müəllimlərin qabaqcıl dəstəsini özündə birləşdirən pedaqoji cəmiyyət yaratmağın təşəbbüsçüsü olmuşdur.

Görkəmli maarifçinini ictimai-pedaqoji fəaliyyətində Simbirsk dövrü xususilə fərqlənir. O 1869-cu ildə Simbirsk şəhərinə köçmüşdü. Nəhəng Volqa çayının sahilində yerləşən və 1648-ci ildə əsası qoyulmuş bu qədim rus şəhəri abadlığı olmayan, zəif inkişaf etmiş kustar sənayeyə malik idi. 1 milyon 200 min nəfər əhali yaşayan Simbirsk quberniyası o vaxtlar Volqa boyunda ən böyük quberniyalardan olmasına baxmayaraq, xalq maarifinin inkişafı vəziyyətinə görə Rusiyanın nisbətən geridə qalmış quberniyaları sırasında idi. Mürtəce dvoryanlar tərəfindən idarə edilən Simbirsk Zemstvo təşkilatı xalq maarifinin inkişafına lazımi qayğı

göstərmirdi. Quberniyanın rus olmayan xalqları arasında təhsil daha aşağı səviyyədə idi.

Çoxmillətli quberniyada xalq məktəblərinin direktoru olan İ.N. Ulyanov məhz belə bir çətin şəraitdə gərgin və məhsuldar pedaqoji fəaliyyəti ilə fərqlənmiş, məktəb işlərinin təşkili cəhətdən yenidən qurulmasında mühüm xidmət göstərmişdir. O, hər şeydən əvvəl, quberniyada xalq maarifi və məktəb təhsilinin həqiqi vəziyyətini öyrənir, əhali arasında savadsızlığın aradan qaldırılmasına, yeni məktəblərin açılmasına çalışır, dövrün tələblərinə cavab verən müəllim kadrları hazırlığının vahid sisteminin işlənməsinə kömək edir, xalq məktəbləri şəbəkəsinin genişləndirilməsi, pedaqogikanın son nailiyyətlərinin məktəb işinə tətbiqinə istiqamət verilməsi, məktəbləri təftiş etməyin yeni sisteminin işlənib hazırlanması, məktəblərin maddi bazasının yaxşılaşdırılması qayğısına qalırdı. Bütün bunlar İlya Nikolayeviçin pedaqoji fəaliyyətinin əsas istiqamətini təşkil edirdi.

Onun fəaliyyəti dövründə Simbirsk quberniyasında 450 yeni məktəb açılmış, xalq məktəblərinin sayı təxminən beş dəfədən çox artmış, 200-dən artıq məktəb binası tikilmişdi. Hər il məktəblərdə 20 mindən artıq kəndli uşağı təhsil alırdı. Qız şagirdlərinin sayı 2 dəfə artmışdı.

İ.N.Ulyanovun pedaqoji fəaliyyətinə rus olmayan xalqların (mordvin, çuvaş və tatarların) təhsilinin qayğısına qalmaq və onu inkişaf etdirmək ayrıca yer tutur. O, bu xalqların məktəb təhsili və maarifi üçün müvafiq proqramlar hazırlanıb həyata keçirilməsi, milli məktəblərin ana dilində dərsliklə, əyani vəsaitlə tə'min edilməsi sahəsində böyük işlər görmüşdür. Məhz onun qayğısı və yaxından köməyi sayəsində yeni məktəblər açılmış, qeyri- rus xalqlardan olan uşaqların məktəbə cəlb edilməsi vəziyyəti xeyli yaxşılaşmış, şagirdlərin sayı iki dəfədən çox artmışdı. 1871-ci ildə Simbirskdə çuvaş müəllimlər məktəbinin (sonralar seminariyaya çevrilib) təşkili Ulyanovun rus olmayan xalqların mədəni inkişafına hörmət və qayğının nəticəsi idi. İ.N.Ulyanov bu məktəbin tədris-tərbiyə prosesinə ilk illər özü rəhbərlik etmişdir. Məhz bu dövrdə Simbirsk çuvaş məktəbi çuvaş xalq maarifinin metodiki mərkəzinə çevrilmişdi. Çuvaş xalqının əlifbası burada hazırlanmış, gələcək milli ziyalıların bütöv bir dəstəsi burada təhsil almışdır.

Ümumiyyətlə, rus olmayan xalqlar və millətlər arasında maarif və mədəniyyətin yayılmasına qayğı göstərmək, onların milli xüsusiyyətlərinə və hüquqlarına hörmət etmək İ.N. Ulyanovun pedaqoji fəaliyyətinin və görüşlərinin beynəlmiləlçilik ruhu ilə bağlı idi.

İ.N. Ulyanovun pedaqoji görüşləri N.Q.Çernışevskinin və N.A.Dobrolyubovun inqilabi-demokratik ideyalarının tə'siri altında formalaşmışdır. İ.N. Ulyanov xalqın geniş və hərtərəfli təhsili uğrunda mübarizə aparır, açdığı məktəblərin qarşısında mə'nəvi və əqli cəhətcə möhkəm adamlar yetişdirmək məqsədini qoyurdu. O hamı üçün təhsil tərəfdarı idi: oğlanların və qızların, varlıların və kasıbların, rusların və rus olmayanların hamısının oxumasını istəyirdi. Vətənpərvər maarifçi elmi biliklər vasitəsilə uşaqlarda ətraf mühit haqqında düzgün dünyagörüşü formalaşdırmağı, həyatda lazım olan təcrübi mə'lumat və bilik almalarına kömək etməyi, onların təbii qüvvə və bacarıqlarını inkişaf etdirməyi və təkmilləşdirməyi məktəbin başlıca vəzifələrindən hesab edirdi.

İlya Nikolayeviç tə'lim metodikasına münasibətdə böyük rus pedaqoqu K.D.Uşinskinin ardıcılı olmuş, onun pedaqoji ideyalarını geniş təbliğ etmiş və bu ideyaları xalq məktəblərinin təcrübəsinə tətbiq etməyə çalışmışdır.

O, quberniyada ibtidai məktəb təhsili sisteminin yenidən qurulmasına sə'y göstərərkən N.A.Korf, N.F.Bunakov kimi qabaqcıl rus pedaqoqlarının mütərəqqi metodiki göstərişlərinə əsaslanmışdır: tə'limdə əzbərçiliyə, doqmatizmə qarşı çıxmış, biliyin şagirdlər tərəfindən fəal və şüurlu surətdə mənimsənilməsinə, tə'limin tərbiyəedici xarakter daşımasına üstünlük vermişdir. Məktəblə həyat arasındakı böyük uyğunsuzluğu ləğv etməyə çalışan görkəmli pedaqoq şagirdlərin əmək fəaliyyətinin müxtəlif növlərinin təşkilinə üstünlük vermişdir. O, tə'limin əhalinin həyat tərzi ilə əlaqəsini yaxşılaşdırmış və Rusiyada ilk dəfə şagirdlərin dəmirçilik, dülgərlik və çilingərliyi öyrənmələrini xalq məktəblərində təcrübi olaraq həyata keçirmişdir. İ.N.Ulyanov şagirdlərin müxtəlif növlü əmək işlərində iştirakına onların hərəkətini, sümüklərini möhkəmləndirən, tənəffüsünü və ürək sistemini nizama salan, onu təkmilləşdirən bir vasitə kimi baxır və xalq məktəblərində şagirdlərin əmək fəaliyyətinin müxtəlif növlərini təşkil etməyi lazım bilirdi.

İ.N.Ulyanovun didaktik görüşlərində dərsin metodikasını yaxşılaşdırmağa və inkişaf etdirməyə başlıca diqqət yetirildiyinin şahidi oluruq. Onun tərəfindən dərsin aşağıdakı növləri müəyyənləşdirilmişdir: kombinə edilmiş dərs (mürəkkəb dərs), təkrar və müstəqil məşğələ dərsləri, izahlı oxu dərsi, yazılı çalışmalar, biliklərin qiymətləndirilməsi dərsi, əyani tə'lim, ekskursiyalar.

Özünün mütərəqqi müasirləri və sələfləri kimi İ.N.Ulyanov da tə'limin keyfiyyətinin bilavasitə dərsin keyfiyyəti ilə bağlı olduğunu göstərir, dərsin keyfiyyətinin isə, hər şeydən əvvəl, müəllimin şəxsiyyətindən asılı olduğunu qeyd edirdi. O, müəllimin tərbiyəvi tə'sirinə, şagirdlərin dərsliklə, kitabla və digər tədris ləvazimatı ilə işlənməsini təşkil etməsinə mühüm əhəmiyyət verirdi. İlya Nikolayeviç, həmçinin, məktəb intizamına xüsusi diqqət yetirir və deyirdi ki, məktəb qaydaları, nizam-intizam cəzaların qorxusu ilə deyil, müəllimin nüfuzu, şagirdləri düzgün məşğul etmək bacarığı, onların əhvali-ruhiyyəsini dərindən bilmək qabiliyyəti, müəllimin uşaq aləminə daimi və qüvvətli tə'sir göstərməsi ilə əldə edilir.

Demokrat-pedaqoqun mühüm xidmətlərindən biri də uşaqların fiziki tərbiyəsinin təşkili ilə bağlıdır. O, məktəb proqramlarına gimnastika üzrə məşğələlər daxil etmişdir. Onun təklifi ilə bədən tərbiyəsi məşğələlərinin metodikası işlənmiş, nümunə dərsləri təşkil edilmişdir.

İ.N.Ulyanovun müəllim kadrlarının hazırlığı, onların pedaqoji və metodik biliklərlə daim silahlandırılması ilə əlaqədar fəaliyyəti də az olmamışdır. Müəllim kadrları hazırlığına da özünün təcrübəsinə və K.D.Uşinskinin pedaqojisinə istinad edən İ.N.Ulyanov ikiillik pedaqoji kurslar təşkil etmişdir. Bu kurslar dinləyicilərə kifayət qədər ümumi elmi hazırlıqla yanaşı, uşaqların mə'nəvi inkişafına dair doğru və aydın təsəvvür verməli, pedaqogikanın və metodikanın başlıca müddəaları ilə onları silahlandırmalı idi. İ.N.Ulyanov pedaqoji kurslara təkcə rəhbərlik etmir, həm də özü bir sıra fənlərdən mühazirələr oxuyurdu. Simbirsk quberniyasında ilk müəllimlər seminariyasının təşkili də (1872-ci ildə) İ.N. Ulyanovun adı ilə bağlıdır.

Görkəmli pedaqoqun fəaliyyətində məktəblərin işi ilə şəxsən tanış olmaq, onu öyrənmək, müəllimlərin dərslərində iştirak etmək, nümunə dərsləri demək, yerlərdə praktik məsləhətlər vermək diqqəti

cəlb edən cəhətlərdəndir. O, təcrübəli metodist və tərbiyəçi olmaqla yanaşı, yorulmaz təşkilatçı, ibtidai xalq təhsilinin rəhbəri idi.

İ.N.Ulyanov xalq maarifi məsələlərinin həllində konkretlik və operativlik tərəfdarı idi. O, işinin çoxluğuna baxmayaraq ildə təxminən 50 məktəbdə olur, xalq maarifinin və təhsilin vəziyyəti ilə şəxsən maraqlanırdı. Onun tərəfindən hazırlanmış və ilk dəfə Simbirsk quberniyasında təcrübədən keçirilmiş məktəbin pedaqoji cəhətdən səmərəli yoxlanması sistemi bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Bu sistemin üstün cəhətlərindən biri yerlərdə müəllimə praktik kömək etməkdir. Onun özünəməxsus yoxlama üsulu var idi. Humanist müəllim təkcə tələb etməklə kifayətlənmir, özünün bacarığı və işgüzarlığı ilə nümunə göstərirdi. İnsanpərvər münasibəti, rəftarı ilə müəllim və şagirdlərin böyük rəğbət və hörmətini qazanmış İ.N.Ulyanovun məktəbə hər gəlişi müəllim və şagirdlərin sevincinə səbəb olurdu. Onun hər bir təftişinin nəticəsi, illik hesabatları məktəbə aydın və konkret istiqamət verən bir metodiki rəhbərlik idi. O, qabaqcıl təcrübəni yorulmadan yayırdı. Bu cəhətdən İ.N.Ulyanovun bilavasitə iştirakı ilə hər il təşkil edilən müəllimlərin qəza qurultaylarının əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Bu qurultaylar, bir növ, elmi-pedaqoji və metodiki mərkəzə çevrilmiş, xalq müəllimlərinin ümumi və pedaqoji mədəniyyətinin inkişafına xeyli kömək etmişdir. 1869–1879-cu illərdə Simbirsk quberniyasında 8 belə qurultay çağırılmışdı. Qurultaylarda pedaqogikanın nəzəri və təcrübi məsələləri müzakirə edilir, referatlar dinlənilir, fikir və təcrübə mübadiləsi aparılırdı. Rəsmi sənədlərdə pedaqoqların, İ.N.Ulyanovun müasirlərinin bu qrultaylara böyük qiymət verdikləri qeyd edilir. Lakin xalq məktəbləri müəllimlərinin fəallaşmasından qorxuya düşən çar hökuməti qurultayların çağırılmasına hər cəhətdən mane olmağa çalışırdı.

Yeri gəlmişkən qeyd edək ki, İ.N.Ulyanovun və Simbirsk quberiniyası xalq məktəbləri müəllimlərinin qəza qurultayları və onların iş təcrübələri ilə Azərbaycan müəllimlərinin bu və ya digər dərəcədə əlaqəsi olub-olmadığı haqda əlimizdə müəyyən bir dəlil yoxdur. Lakin bu bir həqiqətdir ki, XIX əsrin sonlarında ibtidai məktəb müəllimlərinin qəza qurultaylarının çağırılması təcrübəsi, burada sınaq dərsləri deyilməsi, pedaqoqiga, psixologiya və metodikanın aktual məsələləri barəsində fikir mübadiləsi

aparılması, referatların müzakirəsi Azərbaycan qəzalarında da geniş yayılmışdı. Məsələn, 1893-cü ildə Qutqaşendə, 1895-ci ilin sentyabr ayında Cavanşir, Şuşa və Cəbrayıl qəzalarında, sonralar Zəngəzur qəzasında Azərbaycan müəllimlərinin qəza qurultayları çağırılmışdı. Görünür, Rusiyanın qabaqcıl məktəb təcrübəsi silsiləsində Simbirsk quberniyası müəllimlərinin qəza qurultaylarının mütərəqqi ən'ənəsi də Azərbaycana yol tapmış və burada geniş əks-səda doğurmuşdur.

Azərbaycan qəzalarında keçirilən müəllimlər qurultayının gündəliyi, işin məzmunu və metodu tamamilə Simbirsk quberniyası müəllimlərinin qəza qurultaylarının iş təcrübəsinə bənzəyir. Mübaliğəsiz demək olar ki, məhz bu cəhət Azərbaycan–rus pedaqoji əlaqələrinin konkret bir nümunəsi və ifadəsi kimi diqqətəlayiqdir.

İ.N.Ulyanov məktəblərin maddi bazasının möhkəmlənməsi, müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması uğrunda daim çalışmış və bu işə qayğısını əsirgəməmişdir. Onun cidd-cəhdi nəticəsində quberniya və qəza Zemstvo idarələri hər il xalq təhsilinə vəsait ayırmağı artırmağa məcbur olmuşlar. Məsələn, 1869-cu ildən 1878-ci ilə qədər olan dövrdə kənd məktəbləri müəllimlərinin əmək haqqının ildə 67 manatdan 180 manata qaldırılması bilavasitə İ.N.Ulyanovun tə'kidi nəticəsində mümkün olmuşdur. O, müəllimlərin mənzil ilə tə'min edilməsi, pulsuz müalicə olunması, qabaqcıl müəllimlərin mükafatlandırılması qayğısına qalırdı. Onun təşəbbüsü ilə müəllimlərin qarşılıqlı yardım kassası təşkil edilmişdi

Görkəmli pedaqoq xalqın maariflənməsi sistemində mədəni-maarif müəssisələrinin, o cümlədən kitabxana və kitab mağazalarının rolunu yüksək qiymətləndirirdi. 1870–1871-ci dərs ilində onun təşəbbüsü və bilavasitə rəhbərliyi ilə məktəb kitabxanalarının vəziyyəti öyrənilmiş və kitab fondlarının qeyri-qənaətbəxş vəziyyətdə olması aşkar edilmişdir. Bu vəziyyəti aradan qaldırmaq üçün İ.N.Ulyanov quberniya məktəb kitabxanalarının mükəmməl bir şəbəkəsini yaratmağı qarşısına məqsəd qoymuşdur.

Onun fəaliyyəti dövründə Simbirsk quberniyasında 400-dən artıq məktəb kitabxanası yaradılmışdır. O, məktəb kitabxanalarının müvafiq ədəbiyyatla zənginləşdirilməsinə, ən başlıcası isə xalq müəllimlərinin kitabla işləmək texnikası və metodikasının əsaslarını

öyrənmələrinə xüsusi diqqət yetirmiş, məktəb kitabxanaları üçün ayrılan vəsaitin artırılmasına, Moskva, Peterburq və Qazan şəhərlərinin kitab satışı ilə məşğul olan iri mağazaları ilə birbaşa əlaqələr yaradılmasına nail olmuşdur.

Rəsmi mənbələrdə İ.N.Ulyanovun təşəbbüsü ilə Simbirsk pedaqoji kursları nəzdində mükəmməl bir «Tədris kitabxanası» yarandığı qeyd edilir. Bu kitabxana quberniya müəllimlərinin peşə hazırlığında və ideya inkişafında mühüm rol oynamışdır. Bütün bu tədbirlər nəticəsində 80-ci illərin sonunda quberniya məktəb kitabxanaları 23 faiz artmış, 375 məktəb kitabxanası yeni ədəbiyyatla zənginləşdirilmişdir.

Keçən əsrin 70–80-ci illərinin siyasi irtica dövründə hüquqsuz xalq müəllimləri İ.N.Ulyanovun simasında həssas və qayğıkeş, nəzakətli, humanist xalq maarifi xadimini görür və ondan hər cür kömək alırdılar.

İ.N.Ulyanovun rəhbərliyi altında xalq məktəbləri üçün yüzlərlə müəllim hazırlanmış, bir sıra görkəmli metodist və müfəttiş, məktəb inspektoru yetişmişdir.

İ.N.Ulyanovun və yetirmələrinin maarifçilik işləri onun ictimai-demokratik görüşlərindən nəş'ət edir və kəndlilərin siyasi şüurunun oyanmasına, onların öz azadlıqları uğrunda mübarizəyə qalxmalarına obyektiv kömək göstərirdi.

Müasirləri və mütərəqqi fikirli pedaqoqlar İ.N.Ulyanovun ictimai və pedaqoji fəaliyyətini yüksək qiymətləndirirlər O, 30 ildən artıq fəaliyyəti dövründə bütün bilik, bacarıq və təcrübəsini öz xalqına xidmətə sərf edərək Rusiya xalq maarifi tarixində dərin iz qoymuşdur.

«Azərbaycan məktəbi»
jurnalı, 1981, №6, s.59–64.

A.S.Makarenkonun pedaqoji irsi Azərbaycan məktəbi və pedaqogikasının tükənməz mənbəyidir

Unudulmaz pedaqoq, tərbiyənin bir çox mühüm nəzəri və praktik problemlərini yaradıcılıqla həll edən A.S.Makarenkonun əməli fəaliyyəti və fikirləri pedaqogika elminin qızıl fonduna daxil olmuşdur.

Mə'lum olduğu kimi, A.S.Makarenko pedaqogikaya dair xüsusi monoqrafiya yazmamışdır. Lakin bədii əsərlərində, məqalələrində, mə'ruzə və mühazirələrində onun pedaqoji görüşlərinin müəyyən sistemi öz əksini tapmış, pedaqogikanın, tərbiyə nəzəriyyəsinin bir sıra vacib problemlərinin metodologiyası şərh olunmuşdur.

A.S.Makarenko pedaqogika elminin bütün əsas problemlərini: pedaqogika ilə siyasətin qarşılıqlı əlaqəsini, tərbiyənin məqsəd və vəzifələrini, pedaqogikanın məntiqini, əxlaqı tərbiyəsini, yeni insan tərbiyəsində kollektivin rolunu, ictimai və şəxsi mənafe, əmək və intizam tərbiyəsi məsələlərini və s. pedaqoji problemləri kommunist partiyasının prinsipləri mövqeyindən həll etmişdir. Makarenko göstərirdi ki, burjua pedaqogikasının əksinə olaraq bizim pedaqogikanın məntiqi-metodologiyası siyasi məqsədlərimizdən nəş'ət alır, partiyamızın insana və kollektivə göstərdiyi qayğıya, verdiyi yüksək tələblərə istinad edir.

O, pedaqogikanın başlıca vəzifəsini işlərkən dialektik mövqedə dururdu. «Biz uşaqları təkcə bu gün üçün deyil, həm də gələcək üçün tərbiyə edirik». Onun bu fikirləri tərbiyə sahəsində prespektiv üçün geniş imkanlar açır və sovet pedaqogika nəzəriyyəsi qarşısında xüsusi vəzifələr qoyurdu. Başqa sözlə desək, A.S.Makarenko sovet pedaqogikasının bu vəzifəsini dərindən dərk edir və «sabahkı günün pedaqogikasını» yaratmaq tələbini irəli sürürdü. O, deyirdi ki, sovet pedaqogikası yeni tipli sovet adamının keyfiyyətlərini çox uzaqgörənliklə müəyyən etməlidir.

Bu zəngin pedaqoji irsdə pedaqogikanın metodoloji məsələləri, o cümlədən tə'lim və tərbiyənin hər birinin özünəməxsus məntiqi və iş sahəsi olması haqqındakı fikirləri ayrıca qeyd etmək lazımdır. Anton Semyonoviç öz məqalələrində tərbiyə işini tə'limlə,

sinifdə keçilən dərslərlə məhdudlaşdırmaq təşəbbüslərinin əleyhinə çıxmışdır.

A.S.Makarenkonun böyük xidmətlərindən biri də tərbiyə məsələlərini işləməsi və bununla da pedaqoji ictimaiyyətin diqqətini tərbiyə problemlərinə yönəltməsi olmuşdur. O, tərbiyənin bir çox məsələlərini istər nəzəri və istərsə də əməli olaraq daha dərindən işləməklə sovet pedaqogikasında tərbiyə nəzəriyyəsinin inkişafında, onun metodoloji məsələlərinin zənginləşməsində böyük xidmət göstərmişdir.

Tərbiyənin məqsədini pedaqoji işin ana xətti hesab edən Makarenko mühazirələrindən birində deyirdi: «Bizim vətəndaş necə olmalıdır? Bunu biz bilirik. Biz yeni adamın nə demək olduğunu, onun hansı sifətlərlə fərqlənməli olduğunu yaxşı bilməliyik. Biz yaxşı bilməliyik ki, onun səciyyəsi, əqidə sistemi, təhsili, iş qabiliyyəti, əmək qabiliyyəti necə olmalıdır, bizim yeni sosialist, kommunist adamımız nə ilə fərqlənməli, nə ilə fəxr etməlidir»[1]. Biz, ümumiyyətlə, insan deyil, «Sovet İttifaqı vətəndaşı tərbiyə etməliyik» – deyən Makarenko tərbiyənin üsul və vasitələrini bu böyük məqsədə tabe edirdi.

A.S.Makarenkonun əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə edilmişdir. SSRİ-də və xarici ölkələrdə Makarenkonun pedaqoji irsinə aid külli miqdarda kitab və məqalələr çap olunmuşdur. Onun nəzəri müddəaları, elmi-pedaqoji və metodiki göstərişləri sovet məktəbində, ailə tərbiyəsində və məktəbdənkənar tərbiyə müəssisələrində yaradıcı surətdə tətbiq olunur və kommunizmin gənc qurucularının hazırlanmasına yaxından kömək edir.

A.S.Makarenkonun zəngin pedaqoji irsi Azərbaycan müəllimləri və elmi-pedaqoji ictimaiyyəti üçün də yaxın və əzizdir. Anton Semyonoviç və onun pedaqoji görüşləri, hər şeydən əvvəl, bizim üçün ona görə yaxın və doğmadır ki, o, öz həyatının bir neçə gününü Azərbaycanda, respublikamızın paytaxtı Bakı şəhərində keçirmişdir.

A.S.Makarenkonun zəngin irsi Azərbaycan məktəbi üçün həm də ona görə yaxın və doğmadır ki, yarım əsr ərzində bu böyük pedaqoqun əsərləri pedaqoqlarımızın stolüstü kitabları olmaqla gənc nəslin kommunist tərbiyəsi işinin müvəffəqiyyətlə həyata keçi-

[1] A.S.Makarenko. Seçilmiş pedaqoji əsərləri, Bakı, 1950, s. 266.

rilməsində onlara yaxından kömək etmişdir. Bu əsərlər respublikada pedaqoji elmlərin, xüsusilə tərbiyə problemlərinin işlənməsində düzgün istiqamət verən ən e'tibarlı və tükənməz mənbələrdən biri olmuşdur. Bu gün onun pedaqoji ideyalarından Azərbaycanın orta və ali məktəblərində, uşaq tərbiyə müəssisələrində yaradıcı surətdə istifadə edilir.

Respublikamızda Makarenko irsinin öyrənilməsinə və yayılmasına hələ Böyük Vətən müharibəsindən əvvəl başlanılmışdır. Sovet hökumətinin, görkəmli partiya və dövlət xadimlərinin gənclərin kommunist tərbiyəsi məsələlərinə daim böyük əhəmiyyət vermələri də bu irsin öyrənilməsinə yaxından kömək etmişdir. M.İ.Kalinin «Pedaqoji poema»ya aid qeyd kitabçasında poemanın baş qəhrəmanlarından olan Zadorov ilə bağlı mə'lum hadisə haqqında yazmışdır: «Mənə belə gəlir ki, bunun müsbət nəticə verməsi Makarenkonun artıq qazanılmış nüfuzu və kolonistlərə olan hörməti nəticəsində olmuşdur»[1].

Makarenkonun pedaqoji irsindən istifadə etmək məsələsində «Pravda» və «Uçitelskaya qazeta»nın çıxışlarının mühüm rolu oldu. Azərbaycanda bu pedaqoji irsin təbliğində ilk təşəbbüs «Müəllim qəzeti»nə (hazırda «Azərbaycan müəllimi») məxsusdur.

«Müəllim qəzeti» hələ 1940-cı ildə professor B.B.Komarovskinin və M.Ə.Muradxanovun məqalələrini dərc etməklə Azərbaycan oxucularını ilk dəfə olaraq böyük sovet pedaqoqunun həyatı və fəaliyyəti ilə tanış etmişdir.

Azərbaycan oxucularını Makarenkonun pedaqoji irsi ilə daha dərindən tanış etmək işində Azərbaycan SSR Maarif Nazirliyinin «Müəllimə köməkə» elmi-pedaqoji-metodik jurnalının (hazırda «Azərbaycan məktəbi» jurnalı) böyük rolu olmuşdur. Hələ 1940-cı ildə Makarenkonun valideynlər üçün mühazirələr seriyasından «İntizam», «Oyun», «Pedaqoji təcrübənin bə'zi nəticələri», «Ailə və məktəbdə uşaqların tərbiyəsi» adlı mühazirələrin tərcüməsi jurnalda nəşr edilmişdir.

Respublikamızın xalq maarifi ordusunu A.S.Makarenkonun pedaqoji irsi ilə silahlandırmaq üçün görülən tədbirlərdən biri də

[1] Bax: Y.Balabanoviç, A.S.Makarenko, həyatı və yaradıcılığı haqqında oçerk, Moskva, 1951, s. 82.

onun əsərlərinin Azərbaycan dilində nəşridir. 1941-ci ildə «Azərnəşr» onun valideynlər üçün mühazirələrini «Ata-analar üçün mühazirələr» adı ilə çapdan buraxmışdır.

40-cı illərdə respublikamızın pedaqoji mətbuatı ilə yanaşı, «Kommunist» və «Gənc işçi» qəzetləri də Makarenkonun pedaqoji irsinin yayılmasında az iş görməmişdir.

Böyük Vətən müharibəsindən sonrakı illərdə də Azərbaycan ziyalıları bir tərəfdən yazılarında, məqalələrində Makarenkoya tez-tez müraciət edir, onun ideyalarını yayır, digər tərəfdən isə onun əsərlərini ana dilində nəşr etdirirdilər.

Bu gün A.S.Makarenkonun 100 illik yubileyini keçirərkən onun ideyalarını Azərbaycanda yayan alimlərin, əsərlərini tərcümə edən ziyalıların xidmətini də qeyd etmək çox yerinə düşərdi. Bu şərəfli işdə fəal iştirak edənlər sırasında professorlardan B.Komarovski, Ə.Seyidov, M.Mehdizadə, M.Muradxanov və M.Məhərrəmovun, «Pedaqoji poema»nın tərcüməçisi M.Arifin adlarını ayrıca qeyd etmək lazımdır. Bu gün azərbaycanlı oxucu onun «Seçilmiş pedaqoji əsərləri»ni, «Pedaqoji poema», «Kommunist tərbiyəsi haqqında», «Tərbiyə işləri haqqında», «Valideynlər üçün kitab» adlı əsərlərini doğma ana dilində oxuyur.

Respublikanın «Maarif» nəşriyyatı tərəfindən onun iki cilddən ibarət seçilmiş pedaqoji əsərlərinin çapa hazırlanması Makarenko irsinə hörmət və rəğbətin əlamətidir. Pedaqoji elmlər namizədi Əjdər Ağayev tərəfindən tərtib edilmiş I–II cild artıq oxuculara çatdırılmışdır.

Azərbaycan alimlərinin, ilk növbədə, psixoloq və pedaqoqların əsərlərində yeri gəldikcə onun irsinə müraciət edilməsi bu irsin zənginliyi ilə bərabər, onun müasirliyini göstərir. A.S.Makarenko irsinin respublikamızda və ölkəmizdə tanınmış tədqiqatçısı, professor M.Muradxanovun əsərləri, xüsusilə onun 1965-ci ildə çapdan çıxmış «Makarenkonun pedaqoji irsi» adlı monoqrafiyası bu gün də xalq maarifi işçilərinin stolüstü kitablarındandır.

Bakının Əzizbəyov rayonundakı internat məktəbinə A.S.Makarenkonun adının verilməsi respublika mədəni ictimaiyyətinin böyük sovet pedaqoqu və yazıçısına dərin hörmət və məhəbbətinin bariz ifadəsidir.

Makarenko irsinin dərindən və hərtərəfli öyrənilməsi, gündəlik pedaqoji işdə ondan yaradıcı şəkildə istifadə edilməsi gənc nəslin tə'limi və kommunist tərbiyəsi ilə məşğul olan müəllimlər ordusuna böyük fayda verir. Onun pedaqoji irsinin dərin mə'nası, böyük məziyyəti və həyatiliyi orasındadır ki, o, artıq təcrübədə sınaqdan çıxmış və milyonların hörmətini qazanmışdır. Təsadüfi deyil ki, ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərində oxuyuruq: «Pedaqoqların bir neçə nəslinin əməyi, sovet məktəbi və pedaqogika elmi sahəsində qazanılmış qiymətli nə varsa, zamanın sınağından çıxmış nə varsa hamısı qayğı ilə qorunmalı və ondan istifadə edilməlidir».

A.S.Makarenkonun pedaqoji irsi zamanın, daha doğrusu, enişli-yoxuşlu 20–30-cu və 30–40-cı illərin, Böyük Vətən müharibəsi dövrünün və müharibədən sonrakı dinc quruculuq illərinin sınaqlarından çıxmış, inkişaf etməkdə olan sosializmin qiymətli xəzinəsinə çevrilərək məktəb təcrübəsinə və pedaqoji həyatımıza dərindən nüfuz etmişdir.

Görkəmli pedaqoqun əsərlərində mərkəzi yeri kollektiv tutur. O, özünün pedaqoji təcrübəsində sübut etmişdir ki, şəxsiyyət yalnız kollektiv içərisində yetişib inkişaf edə bilər. A.S.Makarenkonun çox böyük xidmətlərindən biri budur ki, o, uşaq kollektivinin bir sıra vacib məsələlərini, onun təşkili, tərbiyəsi yollarını müəyyən etmiş və təcrübədə sınaqdan keçirmişdir. O deyirdi ki, biz hamımız sovet cəmiyyətində böyük bir kollektivin üzvləri kimi böyüyürük.

A.S.Makarenkonun ideyaları məktəbdə, uşaq tərbiyə müəssisələrində kollektivin təşkilində və tərbiyəsində aparıcı rol oynayır. Sinif rəhbərləri, tərbiyə işləri üzrə direktor müavinləri, pioner və komsomol işçiləri öz fəaliyyətlərində bu fikirləri rəhbər tuturlar.

Kollektivin yaşaması üçün zəruri olan məktəb ən'ənələrinin, kollektivin qarşısında duran perspektiv xətlərin Azərbaycan məktəblərində böyük sistemi yaranmışdır. Məktəbin adını daşıyan şəxslərlə əlaqədar keçirilən tədbirlər, ilk və son zəng ən'ənələri, dostluq görüşləri və s. respublika məktəblərində geniş yayılmışdır.

Makarenko zəhməti sevməyi sovet adamının əsas keyfiyyətlərindən biri hesab edirdi. Onun fikirlərində məhsuldar əməyə üstünlük verilir. O, öz təcrübəsinə istinad edərək belə qənaətə

gəlmişdir ki, «qiymətli bir əmtəə yaradılmasını nəzərdə tutmayan əmək müsbət tərbiyə ünsürü deyildir»[1].

A.S.Makarenkonun pedaqoji irsində xüsusilə ailədə uşaqların əmək tərbiyəsi daha müfəssəl işlənmişdir. Onun əmək tərbiyəsinə dair mühazirələrində deyilmiş fikirlər əvvəllər olduğu kimi, indi də aktual səslənir. O deyirdi: «Valideynlər birinci növbədə yadda saxlamalıdırlar ki, Sizin uşağınız əmək üzərində qurulmuş cəmiyyətin üzvü olacaqdır. Deməк, onun bu cəmiyyətdəki əhəmiyyəti, onun bir vətəndaş kimi qiyməti yalnız ictimai əməkdə necə iştirak edə bilməsindən, bu əməyə nə dərəcədə hazır olmasından asılı olacaqdır»[2].

A.S.Makarenko əmək tərbiyəsinə müxtəlif cəhətlərdən yanaşır, hər şeydən əvvəl, uşağın layiqli vətəndaş kimi yetişməsində, adamın gələcək maddi həyat səviyyəsinin, rifahının tə'min edilməsinin əsasını əmək tərbiyəsində görürdü.

Böyük pedaqoqun əsərlərində ailə tərbiyəsi problemi, valideynlərin bir-birinə və uşaqlara münasibəti, onların şəxsi nümunəsi, yeganə övlad, çoxuşaqlı ailələrdə tərbiyə işinin qoyuluşu və digər məsələlər öz əksini geniş tapmışdır.

Son illər məktəblərimizdə keçilən «Ailə həyatının etika və psixologiyası» fənninin səmərəli tədrisində sovet ailə tərbiyəsinin tanınmış nəzəriyyəçisi A.S.Makarenkonun fikirlərindən daha geniş istifadə olunur. Ə.Ə.Əlizadə və A.N.Abbasovun IX sinif şagirdləri üçün yazdıqları «Ailə» adlı dərslikdə[3] A.S.Makarenkonun fikirlərinə geniş istinad edilməsi, bu dərs vəsaitinin elmi-pedaqoji məziyyətlərini bir daha artırmaqla, Makarenko irsinin müasirliyini göz önündə canlandırır.

A.S.Makarenkonun öz təravətini daim saxlayan zəngin, qiymətli pedaqoji irsi Azərbaycan məktəb və pedaqogikasının tükənməz mənbələrindən biri olmuş və olaraq da qalır.

«Azərbaycan məktəbi»
jurnalı, 1988, №3, s.31–34.

[1] A.S.Makarenko. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1950, s. 236.
[2] A.S.Makarenko. Seçilmiş pedaqoji əsərləri, I cild, Bakı, 1983, s.314.
[3] «Ailə» «Maarif» nəşriyyatı, 1986.

N. K. Krupskaya kiçikyaşlı məktəblilərin tərbiyəsində nümunənin rolu haqqında

Gənc nəslin kommunist tərbiyəsi nəzəriyyəsini inkişaf etdirməkdə görkəmli partiya və dövlət xadimi, böyük sovet pedaqoqu N.K.Krupskayanın xüsusi xidməti olmuşdur. O, inqilabi fəaliyyətinin ilk dövründən başlayaraq ömrünün sonunadək bütün həyatını partiyanın işi uğrunda, zəhmətkeşlərin səadəti uğrunda mübarizəyə sərf etmişdir.

N.K. Krupskaya özünün əsərləri, məqalə, nitq və çıxışlarında kommunist tərbiyəsinin məqsəd və vəzifələrindən, metod və vasitələrindən ətraflı bəhs etmişdir. O, kommunist tərbiyəsi məsələsini dərindən tədqiq edərək tərbiyə edəcəyimiz insanın hansı əxlaqi keyfiyyətlərə malik olmasını və sovet məktəbinin qarşısında duran vəzifələri müəyyənləşdirmişdir. N.K.Krupskaya göstərirdi ki, bizim məqsədimiz məktəblərimizdə vətənimizin şüurlu vətəndaşlarını tərbiyə etməkdir. Sosializm işini axıra çatdıra biləcək nəsil tərbiyə edib yetişdirməkdir. Bu şərəfli vəzifəni yerinə yetirmək vəzifəsini partiya sovet müəlliminə tapşırmışdır. Ona görə də müəllim gənc nəsildə hansı xüsusiyyətləri tərbiyə edəcəyini bilməli, bunun üçün hansı üsul və vasitələrdən istifadə edəcəyini müəyyən etməlidir. Onun fikrincə, bu metod və vasitələrin içərisində nümunə çox əlverişlidir. Uşaqların tərbiyəsini nümunələr üzərində qurmağın böyük əhəmiyyəti var. Krupskayanın əsərlərində göstərilən nümunələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Kommunist Partiyası və Sovet dövlətinin rəhbəri V.İ.Leninin nümunəsi;

2) müəllim və tərbiyəçinin şəxsi nümunəsi;

3) yaxın yoldaşların, dostların və qabaqcıl pionerlərin nümunəsi;

4) ölkəmizin, gündəlik həyatımızın qəhrəmanları, təyyarəçilər, staxanovçular, sərhədçilərin nümunəsi;

N.K.Krupskaya kommunist tərbiyəsi məsələsini dərindən tədqiq edərkən, hər şeydən əvvəl, tərbiyə edəcəyimiz insanın hansı əxlaqi keyfiyyətlərə malik olmasını müəyyənləşdirmişdir. O, «Kommunist tərbiyəsi məsələsinə dair» adlı məşhur məqaləsində

yazırdı: «Gənclərin kommunist tərbiyəsinin necə olması məsələsinə düzgün yanaşmaq üçün, bilmək lazımdır ki, kommunist necə olmalıdır, o nələri bilməlidir, nəyə can atmalıdır, necə hərəkət etməlidir» (Seçilmiş pedaqoji əsərləri, «Maarif», 1966, səh.4).

Krupskayanın fikrincə, kommunist, hər şeydən əvvəl, ictimai duyğuları çox inkişaf etmiş, hamının yaxşı yaşamasını və bütün adamların xoşbəxtliyini arzulayan ictimai adam olmalıdır. O, ətrafında nələr baş verdiyini anlamalı, mövcud quruluşun mexanizmindən baş çıxarmalıdır. Kommunist öz şəxsi həyatında həmişə kommunizmin mənafeyini əsas tutmalıdır.

Krupskaya göstərmişdir ki, uşaqlarımızda Vətənə qızğın məhəbbət, kommunist dünyagörüşünün ideyaları uğrunda mübarizə aparmaq bacarığı tərbiyə edilməlidir. O, məktəbliləri elə tərbiyə etməyi məsləhət görürdü ki, onlar ətrafında baş verən hadisələri anlamağı öyrənsinlər, mövcud quruluşun mexanizmindən baş çıxarsınlar, bəşər cəmiyyətinin inkişafı qanunlarını öyrənsinlər, hadisələr arasındakı qarşılıqlı əlaqəni anlasınlar və xüsusən ictimai inkişafın haraya doğru getdiyini başa düşsünlər.

Göründüyü kimi, Krupskaya gəncləri kommunistlərin nümunəsində yetişdirməyi kommunist tərbiyəsinin ən mühüm vəzifəsi hesab edir və göstərirdi ki, kommunist bütün hərəkət və davranışları ilə, nəcib əxlaqi sifətlərilə yetişməkdə olan gənc nəsil üçün bir nümunə, bir ideal olmalıdır.

N.K.Krupskayanın pedaqoji sistemində gənc nəsli V.İ.Leninin nümunəsində bütün həyatlarını zəhmətkeşlərin səadəti uğrunda mübarizəyə həsr edən yeni tipli insan–leninçilər kimi yetişdirmək problemi mərkəzi yer tutur. Bu məsələni Krupskaya «Leninçilər tərbiyə edib yetişdirmək haqqında», «Leninin adı bizim bayrağımızdır», «Ləyaqətli nəsil tərbiyə edək» və s. məqalələrində ətraflı şərh etmişdir.

N.K.Krupskaya qeyd edir ki, tərbiyəçi V.İ.Leninin obrazını uşaqların xəyalında kiçik yaşlardan canlandırmalı, böyük rəhbərimizin gözəl işlərini uşaqlara lazımınca çatdıra bilməlidir.

Müəllim Lenin haqqında danışarkən böyük mübariz, inqilabçı, vətənpərvər, mütəfəkkir insanın şəxsiyyətini uşaqlara tanıtdıraraq, onun şəxsiyyətinin yüksək ideal olduğunu göstərə bilməli, uşaqlarda bütün həyatı boyu bu misilsiz ideala can atmaq həvəsi oyatmalıdır.

N.K.Krupskaya qeyd etmişdir ki, Leninin parlaq həyat və fəaliyyətinin öyrənilməsi uşaqlarda kommunist dünyagörüşünün müəyyənləşdirilməsi üçün vacib şərtlərdən biridir. O, «Ləyaqətli nəsil tərbiyə edək» adlı məqaləsində Lenin kimi işləyə bilmək üçün uşaqları müstəqil çalışmağa öyrətməyi lazım bilirdi. O yazırdı: «Siz Vladimir İliçin necə işlədiyi ilə tanış olarkən uşaqları kiçik yaşlarından hər şeyə diqqət yetirməyə, müstəqil düşünməyə öyrətmək və onlarda müstəqil fikir oyatmağın vacib olduğunu görəcəksiniz».

Uşaqlarda kommunist əxlaqının mühüm keyfiyyətlərindən olan xalqlar dostluğu və sosialist beynəlmiləlçiliyi tərbiyə etmək üçün Leninin uşaqlıq illərindən nümunələr gətirmək lazımdır. Vladimir İliç xırda millətlərdən olan uşaqlara müstəsna münasibət bəsləyirdi. O, yuxarı sinifdə oxuyarkən rus dilini yaxşı bilmədiyinə görə «əla» oxuya bilməyən bir çuvaşla məşğul olurdu. Xırda millətlərə bu cür münasibət Vladimir İliçin sonrakı fəaliyyətinə da öz tə'sirini göstərdi .

Uşaqlarda dostluq, yoldaşlıq hissi tərbiyə etmək üçün Leninlə fəhlələr arasındakı səmimi dostluğun canlı nümunəsini göstərmək, uşaqları da mədəni həyat quruculuğuna cəlb etmək lazımdır, yalnız bu zaman uşaqlardan həqiqi leninçilər yetişər.

N.K.Krupskaya kənc nəslin tərbiyəsində müəllimin şəxsi nümunəsinə çox böyük qiymət vermişdir. Gənc nəslə kommunist tərbiyəsinin aşılanmasında müəllim şəxsiyyətinin həlledici rolu var. Buna görə də Krupskayanın uzunmüddətli pedaqoji fəaliyyətində, onun əsərlərində müəllimin şəxsi nümunəsi əsas yer tutur.

Krupskaya tələb edirdi ki, uşaqların kommunist tərbiyəsini düzgün təşgil etmək üçün müəllim marksizm-leninizm əsaslarına yiyələnməlidir. Yalnız bu zaman müəllim sovet məktəbinin qarşısında duran məqsəd və vəzifələrinin nədən ibarət olduğunu başa düşə bilər. Bizim məqsədimiz məktəblərimizdə vətənimizin şüurlu vətəndaşlarını tərbiyə etməkdir, sosializm qurmaq işini axıra çatdıra biləcək nəsil tərbiyə edib yetişdirməkdir. Biz şagirdlərimizi bunun üçün lazım olan biliklərlə silahlandırmağa, onlarda bu biliyi həyatda tətbiq etmək, qarşıya qoyulmuş vəzifələri kollektiv sə'ylə həyata keçirmək vərdişləri aşılamağa çalışırıq. Bunu yalnız o şərtlə etmək mümkündür ki, müəllim məktəbin qarşısında duran məqsədi başa düşsün və onu həyata keçirmək yollarını aydın təsəvvür etsin.

Krupskaya göstərirdi ki, məsələ ancaq marksist-leninçi nəzəriyyəni sadəcə öyrənməklə bitmir, həm də Marks-Engels-Leninin tə'lim-tərbiyə haqqında əsas tə'limini həyata keçirmək lazımdır. O, «Marks, Engels və Leninin hər bir müəllim tərəfindən öyrənilməli olan əsərləri» məqaləsində müəllimlərə dəyərli məsləhətlər verərək onların əsərlərini necə oxumaq və pedaqoji təcrübəyə tətbiq etmək məsələsini izah edirdi. Yazırdı ki, məktəb uşaqlara ideyaca tə'sir göstərməli və onların beynində kommunizm dünyagörüşünün bünövrəsini qoymalı, kommunizm işini onlara daha yaxın, daha aydın etməlidir. Bizim məktəblərimiz burjua məktəblərindən tamamilə fərqlidir. Biz məktəblərimizdə yeni tipli insan, kommunist əxlaqı ruhunda tərbiyə edilmiş insan, bütün məsələlərə yalnız öz şəxsi mənafeyi nöqteyi-nəzərindən deyil, ictimai mənafe nöqteyi-nəzərindən yanaşan insan yetişdirmək istəyirik və buna çalışırıq.

Yeni insan şəxsiyyətinin təşəkkülündə müəllimlər ordusunun görkəmli müvəffəqiyyətlərindən bəhs edən N.K.Krupskaya «Lenin adı bizim bayrağımızdır» məqaləsində deyirdi: «İndi müəllimlərin çoxu partiyalı və partiyada olmayan bolşeviklərdir. Onlar bütün sosializm quruculuğunda iştirak edirlər, onlar öz işlərini daha yüksək pilləyə qaldırmaq istəyirlər, onlar çalışırlar ki, uşaqlardan həqiqətən sosializmi möhkəmlədə biləcək, kommunizm qura biləcək nəsil tərbiyə edib yetişdirə bilsinlər».

Məhz buna görədir ki, Krupskaya müəllimin əməyinə yüksək qiymət verir, müəllimlik ixtisasını «ən şərəfli və ən maraqlı ixtisas» hesab edir, o, müəllim işini cansıxıcı iş adlandıran bəzi köhnə müddəalara qarşı çıxır və qeyd edirdi ki, yalnız o adamlar müəllimliyin cansıxıcı iş olduğunu güman edə bilərlər ki, özləri müəllimin tə'siri altında uşaqların necə inkişaf etdiyini görməmiş olsunlar. Lev Tolstoyun dediyi kimi, müəllim uşaqların «çiçək kimi açıldığını müşahidə edir… Uşağın necə inkişaf etdiyi, müəllimin gözü qabağında necə artdığı isə insana böyük fərəh verir. Uşaqlar sanki şəffafdırlar. Onların daxili həyatını görmək olur. Müəllim sənətinin poeziyasını göstərə bilmək lazımdır».

Müəllimlik sənətinin yüksək xüsusiyyətlərini göstərən Krupskaya müəllimlik işini yalnız məktəb daxili ilə məhdudlaşdırmır. Müəllim həm də geniş xalq kütləsi arasında siyasi maarif

işinin aparıcısıdır. Bu mə'nada müəllim uşaqları böyük həyat quruculuğuna hazırlayır.

Krupskaya müəllimlərlə daim əlaqədə idi. Müəllimlər ondan məsləhət alır, öz müvəffəqiyyətlərindən yazır, ondan kömək istəyirdilər. Alınan məktubların içindən pedaqoji sənəti düzgün anlamağı və onu qiymətləndirməyi bacarmayan bir sıra gənc müəllimlərin məktubları da vardır. Məsələn, 1938-ci ilin axırında Krupskaya bir kənd müəllimindən məktub alır. Bu məktubda gənc müəllim yazır ki, o, ali təhsil aldıqdan sonra kənd mühitində işləyə bilmir. Krupskaya cavab məktubunda onun bütün səhvlərini hərtərəfli göstərir və sosializm cəmiyyətində müəllimin rolunu belə qiymətləndirməyin zərərini qeyd edərək sosializm kəndində pedaqoji işin şərəfli bir iş olmasını göstərirdi. O, müəllimə özünü ələ almağı, marksist-leninçi nəzəriyyəni ciddi öyrənməyi, geniş ictimai iş aparmağı məsləhət görürdü. Krupskaya gənc nəslin kommunist tərbiyəsində müəllim şəxsiyyətini yüksək qiymətləndirərək, sovet müəlliminin keyfiyyətini onun qarşısında duran yeni tipli insan tərbiyə etməsilə əlaqələndirirdi.

Müəllimin hansı keyfiyyətlərə, şagirdlər arasında yüksək nüfuz və hörmətə malik olması, verdiyi tə'lim və tərbiyədə müvəffəqiyyət qazanmasını tə'min edən şərtlərin nədən ibarət olduğu Krupskayanın əsərlərində ətraflı şərh edilmişdir. Məsələn, müəllimin şagirdlər arasında yüksək nüfuza malik olmasının birinci şərtini öz fənninə oyatdığı maraqla izah edir. O, 1932-ci il oktyabrın 14-də marksist pedaqoqlar cəmiyyətində etdiyi mə'ruzəsində demişdir: «Əgər uşaqlardan soruşsan ki, onların sevimli fənni hansıdır, bu suala alınan cavab müəyyən dərəcədə müəllimlərdən kimin maraqlandırmağı, maraq oyatmağı bacardığını göstərər, yaxşı müəllimin zəruri keyfiyyətlərindən biridir».

Krupskayanın fikrincə, əgər müəllim bütün qaydalara riayət edərək dərsini nümunəvi deyirsə, lakin uşaqlarda maraq oyada bilmirsə, nədən yapışmaq lazım gəldiyini, uşaqların diqqətini xüsusilə nəyə cəlb etmək və onları necə maraqlandırmaq yolunu tapa bilmirsə, bəlkə də belə dərsə yaxşı dərs demək olar. Amma Sovet hökumətinə çox lazım deyildir. «Biz istəyirik ki, müəllim öz fənninin vurğunu olsun, bu fənlə maraqlansın və öz marağını uşaqlara da sirayət etdirə bilsin». Deməli, müəllimin öz sənətinə necə sahib olması, öz biliyini şagirdlərə necə verməsi və şagirdlərdə necə

təəssürat oyatması müəllimin nüfuzunu artırır. «Öz fənninin vurğunu olan müəllimlərin» tə'siri şagirdlərin yadından uzun zaman çıxmır. Öz işlərinə e'tinasız yanaşan, dərslərində tə'sir oyada bilməyən müəllimlər isə şagirdlərdə lazımi məhəbbət oyada bilmir.

Müəllimin sağlam ideyası, məfkurəsi, prinsipiallığı da şagirdlərin gələcək inkişafına, bu inkişafın hansı istiqamətdə getməsinə ciddi tə'sir göstərir. Müəllimin tutduğu mübariz yolu sonralar onun şagirdləri davam etdirirlər. Bunu Krupskayanın həyat təcrübəsindən gətirdiyimiz bir misal ilə izah edək. Krupskayanın 10 yaşında ikən Aleksandra Timofeyevna adlı bir kənd müəlliməsilə olan dostluq münasibəti sonralar da öz tə'sirini itirməyib .Krupskaya ona həmişə hörmət edər, onu məhəbbətlə xatırlayardı. Həmin müəllim kənddə inqilabi ədəbiyyat yaydığına görə az sonra həbs olunur. Bu xəbər Krupskayaya dərin tə'sir bağışlayır:

– Mən də onun keçdiyi tikanlı yol ilə gedəcəyəm, – deyir.

Doğrudan da, Krupskaya həmin tikanlı yolu – şanlı inqilab yolunu müvəffəqiyyətlə keçdi. İkinci tərəfdən, həmin şəxsin müəllimlik sənəti Krupskayada da müəllimliyə maraq oyatdı. Krupskaya öz xatirələrində bu münasibətlə belə yazmışdır: o zamandan bəri məndə kənd məktəbinə və müəllimliyinə maraq oyanmış və bu maraq bütün həyatım boyu davam etmişdir.

Krupskaya pedaqoji fəaliyyətində pioner hərəkatına daim diqqət yetirmiş, pionerlər üçün dəyərli göstərişlər və məsləhətlər vermişdir. O, göstərmişdir ki, bilik uğrunda mübarizədə pionerlər böyük rol oynamalı və bu rolu məhz bir təşkilat kimi oynamalıdırlar. Krupskayanın fikrincə, pioner elə olmalıdır ki, başqa uşaqlar onu təqlid etsinlər.

Krupskaya «Pioner hərəkatı pedaqoji problem kimi» adlı məqaləsində pioner hərəkatının məqsədini müəyyən edərək yazırdı: Pioner hərəkatında başlıca məsələ tərbiyə məsələsidir. Pioner hərəkatının məqsədi sosializm, kommunizm quruculuğu işini axıra çatdıra bilən gənclik tərbiyə etməkdir».

Gənc nəslin tərbiyəsi məsələsinə böyük qiymət verən Krupskaya göstərirdi ki, sosializm qurmaq təkcə əmək məhsuldarlığını yüksəltməkdən, təsərrüfatı inkişaf etdirməkdən ibarət deyildir. Yüksək inkişaf etmiş ictimai təsərrüfat ümumi rifah halını tə'min edən yalnız bir zəmin, yalnız bir əsasdır. Sosializm

quruculuğunun mahiyyəti isə bütün ictimai həyatı yeni qaydada təşkil etməkdən, yeni ictimai quruluş yaratmaqdan ibarətdir.

Sosializm quruluşu təkcə iqtisadi təməl yaratmaqdan ibarət deyildir, həmçinin yeni insan tərbiyə edib yetişdirməkdən ibarətdir. Yeni insan mahiyyəti isə bundan ibarətdir ki, o, hər bir məsələyə yeni qayda ilə kommunistcəsinə yanaşır. Onun adətləri, başqa insanlara münasibətləri kapitalizm quruluşunda olduğundan bambaşqadır. Sosializm quruculuğu, həmçinin, ondan ibarətdir ki, biz bütün psixologiyamızı, bütün münasibətlərimizi dəyişdirib yenidən qururuq.

Pioner hərəkatının böyük əhəmiyyətini qeyd edən Krupskaya 1937-ci ilin iyulunda uşaq kommunist təşkilatları mərkəzi bürosunun plenumunda söylədiyi nitqində deyirdi ki, gərək pioner dəstəsi uşaqlarda kommunist əxlaqı, yəni nəyin yaxşı və nəyin pis olduğu haqqında aydın təsəvvür yaratmağa çalışsın. Bunun üçün nümunəni ən qüdrətli yol hesab edən Krupskaya tələb edirdi ki, pioner təşkilatı uşaqları kommunist ruhunda tərbiyə etməli, pionerlərin özləri də yoldaşları üçün nümunə olmalıdırlar. Gənc pionerlərin özlərini necə aparmalarına dair qaydalarda deyildiyi kimi, «Pioner bütün uşaqlara nümunədir!». Əlbəttə bu, heç də o demək deyildir ki, pioner qırmızı qalstuk taxdığı üçün o birilərindən yuxarı durur. Yox! O, pioner təşkilatlarında işləyərək mütəşəkkil, dəyanətli olmaqda nümunə olmalıdır.

Krupskayanın fikrincə, pionerlər üçün nümunə dəstə rəhbəridir. Krupskaya deyir ki, 11–12 yaşlı uşaqlar təqlid etməyə çox meyillidirlər. Buna görə də dəstə rəhbərinin bütün hərəkətləri, davranışları pionerlər üçün nümunə olmalıdır. Dəstə rəhbəri nə pionerlərin gözü qabağında, nə də onlardan kənarda elə bir iş tutmamalıdır ki, pioner hərəkatı onun əleyhinə mübarizə aparır. Dəstə rəhbərinin pis hərəkəti dəstənin işini pozar və onun hörmətini zəiflədə bilər.

Nümunəvi pioner dəstə rəhbəri olmaq üçün Krupskayanın fikrincə, aşağıdakı xüsusiyyətlərə malik olmq zəruridir. Əvvələn, oxumağı bacarmaq, ikincisi, siyasi cəhətdən savadlı olmaq,üçüncüsü, fəal ictimaiyyətçi olmaq, dördüncüsü, uşaqlara bələd olmaq və onları necə təşkil etməyi bacarmaq lazımdır .

Krupskaya ailədə böyük yaşlıların kiçiklər üçün nümunə olmasından, kiçiklərin onları təqlid etməsindən də bəhs etmişdir. O,

«Körpələrlə iş haqqında» məqaləsində yazırdı ki, xırda uşaqlar özlərindən böyük qardaşlarının pis və yaxşı hərəkətlərini təkrar edirlər. Böyük qardaş nənəni söyər, kobud cavab verərsə, körpə uşaqlar da nənəyə dilini göstərməyə və söyməyə başlayacaqdır; böyük bacı evdə şıltaqlıq edər, hər bir boş şeydən ötrü ağlayarsa, bə'zən küsərsə, xırda uşaqlar da ona baxıb şıltaqlıq edər və səs-küy evi bürüyər .

Yaşlı uşaqlar və ya valideyn oxumağı sevir, kitabçanın üzünə kağızdan cild çəkir, bu kitabçaları qoruyurlarsa, xırda uşaqlar da kitablarla maraqlanmağa başlayır, onları cırıb çirkləndirmir və özlərini elə göstərirlər ki, guya onlar da kitab oxuyurlar. Böyüklər yeməkdən əvvəl əllərini yuyurlarsa, xırda uşaqlar da bunu edirlər və s.

Bütün bunları nəzərə alan Krupskaya göstərir ki, «Yaşlı qardaş, yaşlı bacı kiçik qadaşlarına və bacılarına nümunədir» («Gənc pionerlər haqqında», 1951, səh.126).

Krupskaya sosializm cəmiyyətində ictimai tərbiyəni ailə tərbiyəsindən ayırmır. O, uşağın ailə tərbiyəsinə çox böyük fikir verir. Uşaq psixologiyasının təqlidə olan meylini nəzərdə tutaraq Krupskaya valideynlərdən tələb edirdi ki, onlar uşağın tərbiyəsində düzgün istiqamət tutsunlar. Krupskaya deyirdi ki, uşağın gələcək cəmiyyət adamı kimi inkişaf etməsinə kömək edə biləcək adətləri hələ xırda yaşlarından uşağa aşılamağı bacarmaqda valideynin böyük rolu vardır. Krupskaya göstərirdi ki, uşağı ailə tərbiyəsindən asılı olaraq bir qaravaş kimi də tərbiyə etmək olar, onu ətrafdakı coşğun və sür'ətli həyatla əsla maraqlanmayan, bu həyatdan kənarda duran və intəhasız surətdə ancaq öz hissiyyatını qurdalayan xırda burjua fərdiyyətçisi kimi də tərbiyə etmək olar. Uşağı fəal kommunizm qurucusu kimi kollektiv əməkdən, böyük ideyalar uğrunda mübarizədən zövq alan insan kimi, həqiqi kommunist kimi də tərbiyə etmək olar. Odur ki, uşağın tərbiyəsində valideynin, ailənin yaşlı üzvlərinin və xüsusən də ananın böyük rolunu Krupskaya ayrıca qeyd etmişdir. Krupskaya göstərir ki, ana təbii tərbiyəçidir. Uşaqlara, xüsusən xırda yaşlı uşaqlara ananın tə'siri çox böyükdür. Bu tə'sir insanın xarakterində, onun bütün gələcək inkişafında dərin iz buraxır.

«İbtidai məktəb və məktəbəqədər tərbiyə» məcmuəsi 1989, №2, s.64–68.

N.K.Krupskaya və Azərbaycan

N.K.Krupskayanın zəngin elmi, pedaqoji fəaliyyəti, bu gün də öz təravətini saxlayan qiymətli pedaqoji ideyaları Azərbaycanda sovet məktəbi və pedaqoji elminin təşəkkülü, inkişafı ilə sıx əlaqədar olmuşdur.

N.K. Krupskayanın elmi pedaqoji ideyalarının Azərbaycanda yayılması kökləri xeyli dərindir. Onun Azərbaycan ilə əlaqəsi əsrimizin əvvəllərinə təsadüf edir. Bu əlaqə, hər şeydən əvvəl, leninçi «İskra»nın meydana gəlməsi ilə bağlı olmuşdur.

V.İ.Leninin 1900-cü ildə yaratdığı ilk Ümumrusiya gizli siyasi marksist qəzeti redaksiyasının tərkibinə N.K.Krupskaya da daxil idi. O, 1901-ci ilin aprelindən redaksiyanın katibi idi. Xaricdə çıxmasına baxmayaraq «İskra» Rusiya ilə sıx əlaqə saxlayırdı.

V.İ.Lenin «İskra»nın və digər marksist ədəbiyyatın xaricdən Berlin-Təbriz-Bakı vasitəsilə Rusiyaya göndərilməsinə ayrıca əhəmiyyət verirdi[1]. Krupskaya V.İ.Leninin göstərişi ilə Bakı sosial-demokrat təşkilatı ilə müntəzəm əlaqə saxlayır və yazışırdı. N.K.Krupskayanın Bakı ilə, Azərbaycanla əlaqəsi də məhz bu yol ilə olmuşdur. Elə bu illərdən başlayaraq N.K.Krupskayanın əsər və məqalələri Azərbaycan oxucuları arasında yayılır, Bakı proletariatının inqilabi ruhda tərbiyə edilməsinə yaxından kömək edirdi.

Qeyd etmək yerinə düşər ki, hələ o vaxtlar Bakı Rusiyada inqilabi hərəkatın mərkəzlərindən biri kimi çox mühüm rol oynayırdı. M.İ.Kalininin sözləri ilə desək, ən yaxşı qəzetlər, inqilabi qəzetlər, gizli «İskra» qəzeti burada çap olunur, çoxaldılır və yayılırdı[2]. Bakı şəhər polis idarəsinin müsadirə etdiyi marksist ədəbiyyat içərisində N.K.Krupskayanın «İskra» qəzeti tərəfindən nəşr edilən «Fəhlə qadın» broşürasının da olması bu əsərin böyük ictimai-siyasi və tərbiyəvi məziyyəti ilə bağlı idi. Bu əsərlər Azərbaycanda rüşeym şəklində olan marksist pedaqoji ideyaların

[1] Bax: V.Y.Səmədov. Marksizm-leninizmin Azərbaycanda yayılması. Bakı, 1962 (rusca), s. 445.

[2] Bax: «Бакински рабочи» qəzeti, 10 may 1945-ci il.

cücərməsinə, tədricən yayılmasına və inkişaf etməsinə güclü tə'sir edən ilkin mənbələr idi.

N.K.Krupskayanın elmi-pedaqoji və nəzəri irsi Böyük Oktyabr sosialist inqilabından sonra Azərbaycanda sovet məktəbi, uşaq və gənclərin kommunist tərbiyəsi, tə'limi və təhsilinin bir çox vacib problemlərinin praktik həllinə yaxından kömək edən və ona istiqamət verən başlıca mənbələrdən biri olmuşdur.

Hələ 1918-ci ildə Bakıda Sovet hakimiyyəti qurularkən N.K.Krupskayanın ideyaları yeni sovet məktəbinin, bütövlükdə xalq maarifi işinin təşkilinə yaxından kömək edirdi.

Azərbaycan bolşevik mətbuatı, xüsusilə «Bakinski raboçi» qəzeti N.K.Krupskayanın mərkəzi mətbuatda dərc edilən məqalələrini hərdən çap edərək Azərbaycan oxucularına çatdırırdı. N.K.Krupskayanın bu məqalələrində Sovet hakimiyyəti şəraitində xalq maarifinin təşkili və idarə olunması məsələlərindən bəhs edilir, konkret olaraq birinci dərəcəli məsələlər qoyulur və onların həlli yolu göstərilirdi.

N.K.Krupskaya 1918-ci ildə «Məktəb və dövlət» adlı silsilə məqalələrindən birində yazırdı: «Burjuaziya məktəbdən sinfi ağalıq silahı düzəltmişdir. Məktəbin proqramları, tədris üsulu, məktəb intizamı, bir sözlə, məktəbin bütün ruhu elə idi ki, bunlar şagirddən, fəhlə və ya kəndlinin oğlundan hər cür müdiriyyətin iradəsinə sözsüz tabe olmağa, əmrləri dürüst icra etməyə və mövcud burjua qanun-qaydasını cənab allahın özü tərəfindən qoyulmuş yenilməz və dəyişilməz hesab etməyə adət etmiş bir adam tərbiyə edirdi»[1].

Sözünə davam edən Krupskaya yazırdı ki, «*proletariat burjuaziyanı devirərkən, yalnız özünü deyil,* bütün bəşəriyyəti azad etməyə çalışır. Proletariat diktaturasının məqsədi burjuaziyanın sinfi ağalığını sındırmaqdan, … bütün zülm formalarını dağıtmaqdan ibarətdir… Maarif komissarlığı da öz fəaliyyətində bunu rəhbər tutmuş və bundan sonra da rəhbər tutacaqdır»[2].

Xalq kütlələrini, ilk növbədə fəhlələri təhsilə geniş cəlb etmək zəruriyyəti N.K.Krupskayanın məqalələrindən qırmızı xətlə

[1] N.K.Krupskaya. Seçilmiş pedaqoji əsərləri, I hissə, «Maarif», 1966, s. 31
[2] N.K.Krupskaya. Seçilmiş pedaqoji əsərləri, I hissə, «Maarif», 1966, s. .33. Kursiv bizimdir – H.Ə.

keçir. Bu əsərlər yerlərdə xalq təhsilinin bir çox problemlərinin həlli yollarını düzgün müəyyənləşdirməyə yaxından kömək göstərirdi.

Bakı kommunası dövründə xalq maarif komissarı olmuş N.N.Kolesnikova (1882–1964) xatirələrində yazır ki, «N.K.Krupskayanın «Bakinski raboçi» qəzetinin nömrələrindən birində yenidən nəşr olunan «Ölkədə xalq təhsili işini necə təşkil etməli» adlı məqaləsi mənə xüsusilə böyük kömək etdi»[1].

N.K.Krupskaya öz məqaləsində belə bir fikir irəli sürürdü ki, fəhlələrin xalq maarifi işinə cəlb edilməsi vasitələrindən biri xalq təhsili üzrə şuralar olmalıdır ki, onları bütün ölkədə təşkil etmək lazımdır. Bu şuralar fəhlələri yeni məktəbə, yaşlılar üçün mədəni-maarifçilik müəssisələri quruculuğuna cəlb edəcəkdir.

N.K.Krupskayanın yuxarıdakı fikrinə istinad edən N.N.Kolesnikova yazır ki, «mən dərhal xalq təhsili üzrə şuralar təşkilini hazırlamağa başladım, həm də ki, şuralar haqqında nümunəvi layihə mərkəzi mətbuatda dərc edilmişdi»[2].

N.K.Krupskayanın xalq təhsilinin idarə olunması prinsiplərinə aid vaxtında irəli sürdüyü fikirlər – xalq təhsili şuraları bu gün yenidən öz aktuallığı ilə diqqəti cəlb edir.

Bu günlər mətbuatda e'lan edilən və ümumxalq müzakirəsinə verilən ümumi orta təhsilin konsepsiyası layihəsində göstərildiyi kimi, zəmanəmizdə məktəbin yeniləşdirilməsinin həlledici şərtlərindən biri də xalq təhsilinin idarə olunmasının yenidən qurulmasıdır. Məktəb işinin yeniləşdirilməsi «bürokratik şüurda kök salmış» yuxarıdan rəhbərlik və «aşağıdan» icraçılıq müddəalarından əl çəkməyi nəzərdə tutur.

Məktəbin idarə olunmasının yeni ictimai-dövlət keyfiyyətini məktəb haqqında ilk Lenin dekretlərinin məqsədinə və N.K.Krupskayanın ideyalarına uyğun olaraq yenidən yaradılan xalq təhsili şuraları – məktəb şuraları həyata keçirirlər.

Ümumi orta təhsilin konsepsiyası layihəsində göstərildiyi kimi, «Məktəbin idarə olunmasını demokratikləşdirmək yolu xalq təhsili şuralarını ictimai özünüidarə orqanlarına çevirmək yoludur».

---

[1] N.N.Kolesnikova. Gizli fəaliyyət yollarında (xatirələrdən), Azərnəşr, 1966, s. 243 (rusca)

[2] Yenə orada, s. 244

N.K.Krupskayanın Lenin tə'liminə əsaslanan pedaqoji ideyalarından yaranan bu müddəalar onun vaxtilə irəli sürdüyü fikirlərin həyatiliyini bir daha sübut edir.

Krupskayanın pedaqoji ideyaları Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra daha geniş yayılmağa başlamış və respublikada xalq maarifinin, uşaq və gənclərin, bütövlükdə zəhmətkeşlərin kommunist tərbiyəsi və təhsili işinin bir çox sahələrinin müvəffəqiyyətli inkişafına yaxından kömək etmişdir.

N.K.Krupskayanın elmi-pedaqoji ideyaları Azərbaycanda başlıca olaraq üç mühüm yolla yayılmışdır. Bunlardan birincisi, onun əsərlərinin orijinalının çap olunması, ikincisi, tərcümə yolu ilə (mühüm əsərlərinin ana dilinə tərcüməsi), üçüncüsü, respublikanın partiya, sovet və maarif xadimləri ilə şəxsi görüşləri, məktublaşması vasitəsilə yayılmasıdır.

N.K.Krupskayanın pedaqoji irsini dərindən öyrənmək məqsədilə onun əsərlərinin ana dilinə tərcümə edilməsi məsələsi hələ Sovet hakimiyyətinin ilk illərindən başlayaraq respublika partiya və sovet təşkilatlarının, pedaqoji ictimaiyyətin diqqət mərkəzində durmuşdur.

N.K.Krupskayanın əsərlərinin biblioqrafiyası göstərir ki, onun əsərlərini Azərbaycan oxucuları öz ana dillərində hələ 1923-cü ildən oxumağa başlamışlar. Məhz 1923-cü ildə ilk dəfə onun «Müəllimsiz təhsil nə təhər olmalıdır?» adlı əsəri Azərbaycan dilinə tərcümə edilərək Azərbaycan LKGİ MK nəşriyyatı tərəfindən çap edilmişdir[1].

Ümumiyyətlə, 1920–1930-cu illərdə azərbaycanlı oxucular N.K.Krupskayanın əsər və məqalələrinin, demək olar ki, bir çoxunu ana dilində oxuya bilmişlər. Əgər ilk vaxtlar pedaqoqun ayrı-ayrı məqalələrinin tərcüməsinə üstünlük verilirdisə, sonrakı illərdə irihəcmli əsərləri tərcümə edilmişdir. Bu illərdə onun «Təbliğat və təşviqat haqqında», «Şura quruluşu ilə məmləkətin sənayeləşdirilməsinin siyasi-maarif işlərinə tə'siri», «Savad nəyə lazımdır», «Kitabxana uğrunda hücuma keçməli», «Pioner kitabxana haqqında

[1] Bax: Ə.T.Xələfov, N.K.Krupskayanın əsərləri Azərbaycan dilində. Biblioqrafiya, Bakı, 1968, s.9; Н.К.Крупская. Библиография трудов и литературы о жизни и деятельности. Москва, 1969, № 2470–2493

nə bilməlidir», «Xalq təsərrüfatının rekonstruksiyası və politexnik tə'lim», «Qadın azadlığı haqqında Lenin vəsiyyətləri» və b. əsərləri Azərbaycan dilində nəşr olunaraq oxuculara çatdırılmışdır. Onun şah əsəri hesab edilən və V.İ.Lenin tərəfindən yüksək qiymətləndirilən «Xalq maarifi və demokratiya» hələ 1935-ci ildə tərcümə olunaraq Azərnəşr tərəfindən çap edilmişdir. 1950-ci ildə isə N.K.Krupskayanın müəllim kitabxanası seriyası ilə «Seçilmiş pedaqoji əsərləri» M.Mehdizadənin redaktəsi ilə Azərbaycan dilində nəşr edilmişdir.

Ümumiyyətlə, 1923-cü ildən 1967-ci ilədək respublikamızda Krupskayanın 24 kitabı, 442 məqalə, mə'ruzə və çıxışı, 54 məktubu ana dilində oxuculara çatdırılmışdır.

Böyük pedaqoqun anadan olmasının 100 illiyi münasibətilə iki hissədən ibarət seçilmiş pedaqoji əsərlərinin «Maarif» nəşriyyatı tərəfindən nəfis şəkildə nəşr edilməsi onun əsərlərinə olan böyük tələbatın, Krupskaya irsinə tükənməz qayğı və diqqətin nəticəsidir.

Anadan olmasının 120 illiyi ərəfəsində Krupskayanın seçilmiş pedaqoji əsərlərinin iki cildliyi yenidən nəşrə hazırlanmışdır. Əvvəlkilərdən xeyli fərqlənən birinci cild hələ 1983-cü ildə nəşr edilərək oxuculara çatdırılmışdır. Əsəri tərtib edib çapa hazırlayan Əjdər Ağayev həm də ona «N.K.Krupskaya» adlı yığcam müqəddimə yazmışdır. Yeri gəlmişkən, N.K.Krupskayanın pedaqoji irsinin yayılmasında «Maarif» nəşriyyatının böyük xidmətini qeyd etməklə yanaşı, gələcəkdə belə əsərləri izah və şərhlərlə nəşr etməyi məsləhət bilərdik. İzah və şərhlər əlavə olunan əsər onun sanbalını birə-beş qat artırır.

Krupskayanın əsər və məqalələrinin tərcümə və redaktəsi ilə respublikanın ən yaxşı tərcüməçiləri, alimlərin, maarifçilərin və pedaqoqların böyük bir dəstəsi, o cümlədən Ə.A.Mustafazadə, S.Məlik, M.Rəhimli, A.Əfəndizadə, Q.Rəcəbli, M.Rzaquluzadə, C.Əmirov, Ə.H.Hüseynov, C.Əzimov, M.Ağamirov, M.Süleymanov, S.Tarıverdiyev, A.Qənbərov, C.Əliyev, C.Məcnunbəyov, İ.Əliyev, B.Eyvazov, Ş.Məmmədova, V.Kərimov və başqaları məşğul olmuşlar.

N.K.Krupskayanın elmi və pedaqoji irsinin Azərbaycanda yayılması və əsərlərinin nəşri işində Azərnəşr, Uşaqgəncnəşr, «Maarif» nəşriyyatları ilə yanaşı, dövri mətbuat, o cümlədən

«Kommunist», «Yeni məktəb», «Azərbaycan məktəbi», «Yeni fikir», «Azərbaycan gəncləri», «Azərbaycan müəllimi» kimi qəzet və jurnalların xüsusi rolu olmuşdur.

Azərbaycan alimləri tərəfindən Krupskayanın pedaqoji irsi müxtəlif cəhətlərdən dönə-dönə tədqiq edilmiş, onun haqqında irəli-xırdalı yüzlərlə qəzet və jurnal məqaləsi dərc olunmuşdur. SSRİ-nin 50 illiyi adına Azərbaycan XDPİ-nin dosenti Ə.T.Məmmədov professor Ə.Y.Seyidovun rəhbərliyi altında hələ 1964-cü ildə «N.K.Krupskayanın pedaqoji irsindən Azərbaycanda istifadə edilməsi» adlı namizədlik dissertasiyası müdafiə etmişdir.

N.K.Krupskayanın elmi-pedaqoji və nəzəri irsinin məziyyəti ondadır ki, bu irs ensiklopedik səciyyə daşıyır. Burada bütün əsas pedaqoji problemlər öz əksini tapmışdır. Krupskayanın əsərlərində vətən və dünya pedaqogikasının özünü göstərən ən yaxşı cəhətlər toplanmışdır. N.K.Krupskayanın əsərləri inqilabın ilk günlərindən başlayaraq sovet məktəbi və pedaqoji elminin inkişafına böyük kömək etmiş və bu gün də etməkdədir.

N.K.Krupskayanın pedaqoji ideyaları Azərbaycanda xalq maarifi, məktəb təhsili, uşaq və gənclərin kommunist tərbiyəsi və sovet pedaqoji elminin bir çox sahələrinə dərindən nüfuz etmişdir.

Hər şeydən əvvəl, böyük metodoloji əhəmiyyət kəsb edən ideya-siyasi tərbiyə işlərinə aid onun irəli sürdüyü fikirlər Azərbaycanda bu sahədə əsaslı irəliləyişə yaxından kömək etmişdir.

Krupskaya yazırdı ki, bizim məktəblərimiz burjua məktəblərindən tamamilə fərqlidir. «Biz məktəblərimizdə yeni tipli insan, kommunist əxlaqı ruhunda tərbiyə edilmiş insan, bütün məsələlərə yalnız öz şəxsi mənafeyi nöqteyi-nəzərdən deyil, ictimai mənafe nöqteyi-nəzərindən yanaşan insan yetişdirmək[1] istəyirik və buna çalışırıq». O, tələb edirdi ki, uşaqlarda yeni-yeni maraq oyatmaq, hərtərəfli inkişaf etmiş adamlar yetişdirmək çox vacib bir işdir. Bu işdə böyük rəhbərin həyatı və fəaliyyəti uşaq və gənclər üçün tükənməz nümunədir, örnəkdir.

Krupskaya deyirdi ki, Biz Lenindən danışarkən sosializmi düşünürük, əldə etdiyimiz böyük nailiyyətləri düşünürük, kommunizmin qələbəsini düşünürük. Biz uşaqlarımızı həqiqi leninçi

[1] N.K.Krupskaya. Seçilmiş pedaqoji əsərləri, Bakı, 1950, s. 279–280.

kimi yetişdirməliyik ki, onlar da müəllimləri kimi hərəkət edərək, öz ata-analarına baxaraq həqiqətən yeni insan kimi yetişsinlər. «Lenin kimi işləyə bilmək üçün uşaqlıqdan müstəqil çalışmağa alışmaq lazımdır»[1].

N.K.Krupskayanın əsər və məqalələrində xarakterik cəhət bundan ibarətdir ki, Krupskaya pedaqogikada klassik irsin ən görkəmli təbliğatçısıdır.

Krupskayanın bu mövzuda 20-dən artıq məqaləsi Azərbaycan dilinə tərcümə olunmuşdur. «Lenin və əməkçi qadın», «Lenin və kitabxana», «Lenin və partiya», «Lenin və texnika», «Lenin gənclər haqqında», «Lenin maarif və xalq maarifi haqqında» və s. əsərləri məktəbli gənclərin kommunist tərbiyəsində və dünyagörüşünün formalaşmasında başlıca mənbə olmuş və olaraq qalır.

N.K.Krupskayanın pedaqoji irsinin böyük və həyati əhəmiyyəti həm də onunla izah olunur ki, onun hələ inqilabdan əvvəl yazdığı əsərlər Oktyabrdan sonra yeni sovet məktəbinin yaranmasına, təhsilin məzmununun müəyyən edilməsinə bilavasitə kömək etmişdir.

A.V.Lunaçarskinin ifadəsi ilə desək, Oktyabr inqilabından sonra məktəb işini tamamilə yeni qaydada aparmaq məsələsini hələ heç kim təfərrüatı ilə bilmirdi. Lakin xoşbəxtlikdən N.K.Krupskaya kimi görkəmli inqilabçı, marksist pedaqoqun RSFSR XMK-da işləməsi bu işə böyük təkan verirdi[2].

Azərbaycan məktəblərində şagirdlərin əmək tərbiyəsi və politexnik tə'limin müvəffəqiyyətli həlli işində Krupskayanın pedaqoji irsi istiqamətverici mənbələrdən biri olmuşdur.

RSFSR Xalq Maarif Komissarlığı Dövlət Elmi Şurasının (DİŞ) rəhbəri olan Krupskaya tərəfindən hazırlanmış proqramların Azərbaycan dilinə tərcümə edilərək Azərbaycan Maarif Komissarlığının Elmi-metodik Şurası (EMŞ) tərəfindən rəhbərlik üçün yerlərə göndərilməsi fikrimizə sübutdur[3].

---

[1] Yenə orada, s. 243.

[2] Bax: A.V.Lunaçarski. Xalq maarifi haqqında, M., 1958, s. 508 (rusca).

[3] Bax: «Yeni məktəb» jurnalı, 1926, № 1, s. 19.

20-ci illərin sonlarında ölkənin sənayeləşdirilməsi politexnik təhsilin rolu məsələsini yenidən bütün kəskinliyi ilə qarşıya qoyurdu. Bu işdə N.K.Krupskayanın məqalə və çıxışları başlıca mənbələrdən idi.

Respublikanın ümumtəhsil məktəblərində uşaq və gənclərin əmək və politexnik tə'limini səmərəli təşkil etmək və müəllimləri müvafiq ədəbiyyatla, ilk növbədə, marksizm-leninizm tə'liminə əsaslanan materialla tə'min etmək məqsədilə 1929-cu ildə Krupskayanın «Politexnik təhsil haqqında» adlı məşhur əsəri ana dilinə tərcümə olunub praktik rəhbərlik üçün tövsiyə edilmişdir.

Krupskayanın bu qəbildən olan əsərləri, həmçinin, politexnik təhsil üzrə birinci Ümumrusiya qurultayındakı (1931-ci il) məşhur çıxışı Azərbaycan məktəblərində bu sahədə işin əsas istiqamətverici mənbələrindən idi. O vaxtlar «Kommunist tərbiyəsi uğrunda» jurnalında dərc edilən bir məqalədə deyilirdi: "Krupskaya yoldaş I politexnik tərbiyə qurultayında kütlənin politexnik tərbiyəsi uğrunda bizim sosialist quruluşumuzun nə dərəcədə böyük vəsait yaratmış olduğunu aydın surətdə söyləmişdir. Bu qurultaydakı bütün mə'ruzələr xırda kitabçalarda bir kitabxana şəklində buraxılmışdır. Krupskaya yoldaşın mə'ruzəsi… Hər bir müəllimin masası üstündə olmalıdır. Bir şeyin üzərində israr edirik ki, hər bir müəllim, hər bir məktəb işçisi Krupskayanın mə'ruzəsini və qurultayın qərarlarını ətraflı surətdə öyrənsinlər[1].

Krupskaya ölkədə, o cümlədən Azərbaycanda politexnik təhsilin gedişi ilə yaxından maraqlanırdı. Politexnik təhsil üzrə Azərbaycanda keçirilən birinci respublika qurultayına onun teleqram göndərməsi və qurultayın fəxri rəyasət hey'ətinə seçilməsi buna sübutdur.

N.K.Krupskayanın adı və pedaqoji irsi Azərbaycan maarifçiləri üçün əzizdir. O, digər milli respublikalar kimi, Şərqin qapısı olan Sovet Azərbaycanında da xalq maarifinin, məktəb təhsilinin inkişafını daim izləyir və ona kömək göstərirdi.

Azərbaycanın görkəmli partiya, sovet və maarif xadimləri ilə, Moskvada oxuyan müdavimlərlə onun dəfələrlə görüşməsi, bu

[1] Bax: "Kommunist tərbiyəsi uğrunda, 1931, № 5–6, s. 34.

haqda olan çoxlu xatirələr, məqalələr və digər sənədlər çox şeydən xəbər verir.

N.K.Krupskaya işinin çox olmasına baxmayaraq hər dəfə Azərbaycan elçilərini öz otağına də'vət edəndə mehribanlıqla söhbət edər, Azərbaycanda xalq maarifinin, Azərbaycan qadınlarının vəziyyəti ilə yaxından maraqlanar və faydalı məsləhətlər verərdi.

Xalqımızın unudulmaz qızı «Şərq qadını» jurnalının redaktoru, Azərbaycan xalq maarif komissarının müavini Ayna Sultanova, Azərbaycan SSR Xalq Maarif Komissarlığında məktəbəqədər tərbiyə kabinetinin müdiri Gülrux Qədimbəyova, tanınmış müəllimlərdən Məryam Mirqədirova, Mina Mirzəyeva, Şəfiqə Əfəndiyeva, Məryəm Bayraməlibəyova, Qəmər Şahmalıyeva, Sona Nağıbəyova, Zərifə Əbdürrəhimova, Cəmilə Sultanova, Nabat Əfəndiyeva və b. müxtəlif vaxtlarda N.K.Krupskaya ilə görüşmüş, yazışmış, onun mə'ruzə və mühazirələrini dinləmişlər. Onun Azərbaycan qadınları ilə daim əlaqə saxlaması, Bakı, Kirovabad, Ağdam və Salyanın evdar qadınları, məktəblilər, pionerlər ilə məktublaşması bu əlaqələrin qızıl fondunu təşkil edir. Krupskaya məktublarından birində yazırdı: «Bakının evdar qadınlarının işindən bəhs edən məktubunuzu böyük maraqla oxudum. Mənə məktub yazdığınıza və yetim qalmış uşaqlara göstərdiyiniz qayğıya görə çox sağ olun. Bakının evdar qadınlarına alovlu salam göndərir və onlara işdə müvəffəqiyyətlər arzu edirəm»[1]. Azərbaycan qadınları da böyük pedaqoqun xidmətini daim yüksək qiymətləndirmişlər. Gülrux Qədimbəyova o görüşləri «unudulmaz günlər» «hesab edir, Şəkinin maarifçi qadınlarından olan Zərifə Əbdürrəhimova isə «öyüdü qulağımdadır» – deyirdi.

N.K.Krupskayanın Azərbaycan qadınları ilə, Azərbaycan maarifçilərinin nümayəndələri ilə kollektiv çəkdirdiyi şəkillər bu gün nadir və qiymətli sənədlərdir.

N.K.Krupskayanın məktəblilərə yazdığı məktublar da maraqlıdır. O, 1926-cı ildə uşaq kitabxanaları barəsində Bakıdan aldığı bir məktuba belə cavab verirdi: «Kitabı sevməyən, kitabı oxumayan pioneri təsəvvür etmək çox çətindir. O, yeni quruluşçu ola biləcəkmi? O yerdə ki, pionerlər kitab oxumur, yalnız məşq edib

[1] Bax: «Azərbaycan qadını» jurnalı, 1969, № 2, s. 5.

nəğmə oxuyurlar orada iş düzgün təşkil olunmamışdır. Pionerlər gənc leninçilərdir. Onlar kitabın dostu olmalıdırlar. Bundan başqa onlar ictimai kitabxanalardan istifadə etməyi bacarmalıdırlar… Lenin həyatının yarısını kitabxanalarda keçirib. O, hər gün Peterburqun ictimai kitabxanasına, Londonda Britaniya muzeyinə, Fransada milli kitabxanaya gedirdi. O öz işi üçün kitabxanalardan lazımınca istifadə edirdi».

N.K.Krupskayanın irsində Azərbaycanda ateist tərbiyə ilə də bağlı maraqlı fikirlər vardır.

Azlıqda qalan millətlərin maarifi üzrə RSFSR Xalq Maarifi Komissarlığı Şurasının 1927-ci ildə keçirilən I sessiyasında «Beynəlmiləl və milli mədəniyyət haqqında»kı məruzəsində Krupskaya burjua mədəniyyəti ilə proletar mədəniyyəti arasında gedən mübarizədən bəhs edərək deyirdi ki, dini təsir on illər, əsrlər boyunca əmələ gəlmişdir və onlara qarşı mübarizə üçün düzgün yol tapmağın böyük əhəmiyyəti vardır. O, çox haqlı olaraq göstərirdi ki, bir çox millətlərin milli mədəniyyətində müəyyən dini dünyagörüşü vardır.

N.K.Krupskaya təkcə məktəb, tə'lim-tərbiyə və təhsil nəzəriyyəçisi deyil, eyni zamanda pedaqogika tarixçisi kimi məşhur olmuşdur. Onun 1915-ci ildə yazdığı «Xalq maarifi və demokratiya» adlı əsəri bu cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Rusiya müəllimləri kimi, Azərbaycan müəllimləri də Marks və Engelsin tə'lim və tərbiyə haqqındakı fikirləri ilə, həmçinin keçmişin böyük demokratlarının baxışları ilə, Avropa və Amerikanın yeni məktəbi haqqında materiallarla ilk dəfə məhz həmin əsər vasitəsilə tanış olmuşlar. Bu əsər hələ 1935-ci ildə Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur.

Xalq təhsilinin yenidən qurulduğu, fasiləsiz təhsilə keçildiyi müasir dövrdə N.K.Krupskayanın xalq maarifinin təşkilinə dair bir çox ideyaları öz aktuallığını saxlayır. Bu ideyalardan, xüsusən böyük pedaqoqun politexnik tə'limə dair fikirlərindən bu gün məktəbin politexnikləşdirilməsinin getdikcə dərinləşdirilməsi prosesində yaradıcı şəkildə istifadə olunur.

«Azərbaycan məktəbi» jurnalı,
1989, №3, s.46–51.

Ümumdünya pedaqoji elminin korifeyi

Böyük çex pedaqoqu və mütəfəkkiri, ümumdünya pedaqoji elminin korifeylərindən olan Yan Amos Komenskinin anadan olmasından 4 əsr keçir. Komenskinin adı müxtəlif elm sahələrinin tanınmış nümayəndələri ilə bir sırada çəkilir. Bu, səbəbsiz deyildir, onun əsərləri pedaqogikanın müstəqil bir elm kimi formalaşmasına və inkişafına həlledici tə'sir göstərmişdir.

Y.A. Komenski 1592-ci ildə Çexo-Slovakiyanın Moraviya vilayətində, o qədər də böyük olmayan Nivnitse şəhərində anadan olmuşdur. Atası "Bogem (çex) qardaşları" adlanan icmanın üzvlərindən idi. İlk təhsilini bu icmaya məxsus yüksək tipli qardaşlıq mətəbində alan Komenski 1608–1610-cu illərdə latın məktəbində, sonralar isə Herborn akademiyasında və Heydenberq universitetində oxumuşdur. 24 yaşında ikən icmanın keşişi vəzifəsinə, 1618-ci ildə həm də qardaşlıq məktəbinə rektor vəzifəsinə seçilmişdir. O, icma üzvlərinin yaxşı yaşaması və tərəqqisi üçün əlindən gələni əsirgəmir, öz şagirdləri ilə məhəbbətlə məşğul olur, təbiəti dərg etməyi və sevməyi onlara öyrədirdi.

Böyük pedaqoqun həyatı sakitlik şəraitində keçməmiş, 30 illik müharibələr (1618–1648) dövrünə təsadüf etdiyindən ömrünün sonuna qədər köçəri həyat sürməli olmuşdur.

Komenski elə bir dövrdə yaşayıb yaratmışdır ki, bu dövrdə islahatçılıq hərəkatı genişlənir, katolik kilsəsi azadlıq ideyalarının təzahürlərinə qarşı amansız mübarizə aparırdı. Katolik kilsəsi öz qılıncı və tonqalı ilə elmi dünyagörüşünə malik olanları məhv edirdi: Cordano Bruno tonqalda yandırıldı, Qaliley məhkəməyə cəlb olundu.

Həmin dövrdə ilahiyyat hökm sürürdü və Komenskinin əsərlərindəki dini ayinlər bununla əlaqədardır. İlahiyyat onun sağlam gerçəklik hissini heç də kütləşdirməmiş, ömrünün sonuna qədər əsarət altında qalan xalqına sadiq olmuş, öz xalqının qabaqcıl demokratik hissəsi ilə birgə yaşayıb yaratmış, özünün pedaqoji ideyaları üçün ilham mənbəyini xalq kütlələrinin ideologiyasında tapmışdır.

Son zamanlara qədər bir fikir hökm sürürdü ki, guya onun baxışları ingilis filosofu F. Bekonun (1561–1626) tə'siri altında formalaşmışdır. Lakin son tədqiqatlar sübut edir ki, onun baxışları

heç də ingilis burjuaziyasının və burjualaşmış mülkədarların mənafeyinə xidmət edən Bekonun nəzəriyyəsinin tə'siri altında deyil, məhz xalqın mənafelərindən nəş'ət edir, onun mövqeyində dururdu. Əgər Bekon ingilislərin Hindistandakı soyğunçuluq ideyasını fəal surətdə müdafiə edirdisə, Komenski bunu pisləyirdi. Bekon xalqın azadlığı əleyhinə olduğu halda, Komenski xalqın azad olunması tərəfdarı idi. Beləliklə, Komenskinin ideyaları özünün demokratik məziyyətlərilə Bekonun nəzəriyyəsindən çox-çox yüksəkdə dururdu. Komenskinin ideyalarının bəşəri xarakteri və zamanəmizə qədər öz aktuallığını saxlaması da məhz bununla izah olunur. O belə güman edirdi ki, insanlara demokratik ideyalara müvafiq təhsil vermək yolu ilə mövcud quruluşu dəyişdirmək olar. Bu, onun utopik fikirləri ilə bağlı idi.

Böyük pedaqoqun dünyagörüşü ziddiyyətli idi: dini baxışlarında panteizmə yaxınlaşan protestant idi; dünyanın dərk edilməsi məsələsində sensualist idi. «Duyğuda olmayan şey zehində də mövcud deyil» fikri ona məxsusdur.

Komenski idrakı düşünülmüş tə'limlə sıx əlaqədə olan fəal bir proses sayırdı. Onun «hamıya hər şeyi öyrətmək» ideyası belə bir müddəaya əsaslanırdı ki, bütün insanlar idraka və təhsilə qabildirlər. Bu səbəbdən sadə xalq kütlələri də biliklərə yiyələnmək imkanı əldə etməlidirlər. Öz pedaqoji görüşlərində təhsilin əməli vəzifələrindən bəhs edərək yazırdı ki, «bilmək», danışmaq və iş görmək» müdrikliyin əsasını təşkil edir.

Yan Amos Komenski 92 əsər yazmışdır. 1623-cü ildə yazdığı «Dünya labirinti və qəlbin cənnəti» əsərində də müxtəlif təbəqələr ilə müxtəlif rütbələr arasında ədalətsizliyin təzahür etməsini və onun səbəblərini canlı lövhələrlə açan müəllif ictimai münasibətlərdə bir əxlaqi anlayışın digəri ilə dəyişdirilməsi zərurətini göstərir.

Görkəmli pedaqoqun «Böyük didaktika» (1627–1632) əsəri əvvəlcə çex dilində yazılmış və nəşr edilmiş, sonra müəllif tərəfindən latın dilinə tərcümə edilmişdir. Əsərin mərkəzi ideyasını məktəbin bir-birinin ardınca gələn dörd dərəcəsinə həsr edilmiş oçerklər təşkil edir. Burada «Ana qucağı məktəbi»nə, «Ana dili məktəbi»nə, latın məktəbinə və akademiyaya həsr edilmiş ayrıca oçerklər verilir, intizam haqqında fikirlər şərh olunur. Əsərin giriş hissəsində bütün insan nəslinin müstəsna ağır vəziyyətdə olduğunu, hər bir adnın

«Hədsiz təhlükəli uçurumlar» içərisində, kələk üçün qurulmuş torlar arasında güzəran keçirdiyini, gah birinin, gah da başqasının uçuruma yuvarlandığını böyük ürək ağrısı ilə qeyd edən Komenski belə bir nəticəyə gəlirdi ki, insanların pozğunluğuna qarşı müxtəlif vasitələr tətbiq etmək zəruridirsə, bunu ilk növbədə gəncliyin ehtiyatla və hərtərəfli təbiyəsi yolu ilə aparmaq lazımdır.

Komenski həm də belə qənaətə gəlirdi ki, insan nəslini dəyişdirmək üçün cəmiyyətdə yalnız rütbəli təbəqənin uşaqlarını deyil, bütün xalqı əhatə edən təhsil və tərbiyənin inkişaf etmiş geniş sistemi lazımdır. Məhz buna görədir ki, «Böyük didaktika»nı hamıya hər şeyi öyrətməyin ümumi nəzəriyyəsi hesab edirdi. «Böyük didaktika»nın məqsədi bütün icmalarda elə məktəblər açmağın düzgün və düşünülmüş yolundan ibarətdir ki, burada hər iki cinsdən olan bütün gənclər hər yerdə, heç bir müstəsna olmadan elmləri öyrənə bilsin, əxlaqca kamilləşib mö'min olsun və beləliklə də, gənclik illərində indiki və gələcək həyatda lazım olan hər şeyi ixtisarla, zövqlə əsaslı öyrənsinlər.

Böyük çex pedaqoqunun didaktikasının başlıca əsası bu idi: elə yollar axtarıb kəşf olunsun ki, bunun sayəsində öyrədənlər az öyrətsinlər öyrənənlər isə çox öyrənsinlər. Məktəblərdə səs-küy, baş gicəlləntisi, faydasız əmək az, əyləncə, sevinc və möhkəm müvəffəqiyyət isə çox olsun.

Əsər həcminə görə deyil, əhatə etdiyi pedaqoji problemlərin genişliyinə görə «Böyük didaktika» adlandırılmışdı. Mütəxəssislərin fikrincə, zəmanəmizdə didaktika pedaqogikanın yalnız bir bölməsi olduğundan bu əsəri pedaqogika adlandırmaq daha məqsədəuyğun olardı. Həm də o vaxt «pedaqogika» termini hələ vətəndaşlıq hüququ qazanmamışdı. «Didaktika» termini «pedaqogika» terminə nisbətən daha üstün sayılırdı.

Komenski «Davranış qaydaları», «Yaxşı təşkil olunmuş məktəbin qanunları» (1653-cü il). "Pansofiya məktəbi» (1651) adlı digər məşhur əsərlərilə yanaşı, həmçinin «Dillərə açıq qapı» (1631), «Astronomiya» adlı dərsliklərin də müəllifidir. Mütəxəssislərin fikrincə, o, təkcə «Dillərə açıq qapı» adlı əsəri ilə bütün dünyada özünə ölməz şöhrət qazandırmışdır. Bu kitab hələ o zamanlar Avropadan başqa Şərq xalqlarının bir neçəsinin də dillərinə tərcümə edilmiş, uzun müddət dərs kitabı olmuşdur.

Onun «Ana qucağı məktəbi» məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə dair rəhbərlik olub, dünyada bu sahədə ilk yazılan kitabdır.

«İnsani işləri yaxşılaşdırmaq haqqında ümumi məsləhət»adlı 7 cilddən ibarət əsərinin yalnız 2 cildi sağlığında çap edilmişdir. Qalan o biri cildlər 1935-ci ildə tapılmış və Çexo-Slovakiyada çap edilmişdir.

Komenski geniş beynəlxalq əlaqə saxlamış, məktəbləri yenidən qurmaq üçün İngiltərə, İsveç, Norveç və Macarıstana də'vət olunmuşdur.

Ömrünün son günlərində Hollandiyada sığıncaq tapan böyük pedaqoq 1670-ci ildə Amsterdam şəhərində vəfat etmişdir.

Mə'lum olduğu kimi, Komenski tə'limdə və tərbiyədə təbiətəmüvafiqlik prinsipini irəli sürmüş və onu elmi dəlillərlə əsaslandırmışdır. Bu prinsipinə görə tə'lim və tərbiyə hər şeydən əvvəl, xarici aləmə və uşağın təbiətinə, təbii inkişaf xüsusiyyətlərinə, yaş dövrlərinin tələblərinə əsaslanmalıdır. «Böyük didaktika»da belə bir fikir hakimdir ki, düzgün tərbiyə hər cəhətdən təbiətə müvafiq olmalıdır.

Komenski belə hesab edirdi ki, təbiət böyük aləmdir, insan isə təbiətin bir hissəsidir. «Kiçik aləm» olan insanlar «böyük aləm»in, ardınca getməli, təbiətin ümumi qanunlarına tabe olmalıdır.

Böyük və kiçik aləm məsələlərinə gəldikdə qeyd etmək lazımdır ki, hələ Komenskidən əvvəl Şərqdə, Şərq fəlsəfi fikrində bu ideya mövcud idi. Şərq fəlsəfəsi və pedaqoji fikrində insanlardan asılı olmayaraq dünya, dünyadakı nizam, qanunauyğunluqlar, «böyük aləm» hesab edilirdi. İnsanlar isə «kiçik aləm» («aləmisəqir») adlandırılır və təbiət qanunlarına uyğun hərəkət etmək tövsiyə olunurdu. Bu mə'nada XIII əsrin məşhur Azərbaycan alimi Nəsirəddin Tusinin (1201–1271) fikirləri çox maraqlıdır.

Komenskinin çox mühüm xidmətlərindən biri didaktikanı xüsusi bir elm kimi işləyib hazırlamasıdır. O, didaktikanın dörd prinsipini irəli sürmüşdür: əyanilik, tədricilik, təqlid və mümarisə. Bunlar təbiətin və biliklərin səbəb və əlaqələrini əsaslı surətdə dərk etməyə, biliklərin səmərəli mənimsənilməsinə və möhkəmləndirilməsinə xidmət edirdi.

Komenskinin pedaqoji irsində mərkəzi yerlərdən birini tutan bu dördlük, yə'ni 4 prinsip, 4 yaş dövrü, ilin 4 fəslindən çıxış edərək,

tədris ilinin 4 rübə bölünməsi ideyaları da fikrimizcə, qədim yunan və Şərq fəlsəfəsində geniş yayılan «dörd ünsür», «dörd element», «dörd təbiət», «dörd keyfiyyət» və s. adlanan tərkiblərə bir növ uyğundur.

Böyük pedaqoqun bəşəri ideyaları Azərbaycanda məktəb və pedaqoji elmlərin inkişafına əsaslı tə'sir etmişdir.

Y.A. Komenskinin ideyaları Azərbaycan pedaqoqları arasında hələ keçən əsrin sonlarından başlayaraq yayılmağa başlamışdır. Onun irsi, hər şeydən əvvəl, Zaqafqaziya (Qori) müəllimlər seminariyasının mə'zunları tərəfindən mənimsənilmiş və yayılmışdır. Seminariyanın ilk mə'zunlarından olan Teymurbəy Bayraməlibəyov (1862–1907) ana dilinin tərbiyəvi əhəmiyyətindən bəhs edərək Komenskinin «ana dilini bilmədən özgə dili bilmək olmaz» fikirlərinə istinad edirdi.

Seminariyanın digər bir mə'zunu, gələcəyin, məşhur pedaqoqu, ictimai və dövlət xadimi N. Nərimanov (1870–1925) əsrimizin əvvəllərində dövri mətbuatda dərc etdiyi silsilə məqalələrində müəllimlik sənətinə hazırlanan hər bir kəsin klassik pedaqogikanın Komenski, Russo, Pestalotsi, Uşinski kimi görkəmli nümayəndələrinin pedaqoji ideyalarından faydalanmasını dönə-dönə tövsiyə edirdi.

Araşdırmalar göstərir ki, Y.A. Komenskinin pedaqoji irsinin Azərbaycanda yayılması başlıca olaraq üç yol ilə həyata keçirilmişdir.

Bunlardan birincisi, onun əsərlərinin Azərbaycan dilinə tərcümə və nəşr edilməsi ilə bağlıdır. Y.A. Komenskinin şah əsəri olan «Böyük didaktika» müəyyən ixtisarla ilk dəfə 1941-ci ildə «Didaktik prinsiplər» adı altında nəşr edilmişdir.

Rus, Avropa və Şərqin mütəfəkkir pedaqoqları içərisində Azərbaycan dilində ilk dəfə nəşr olunan əsər Komenskinin «Böyük didaktika»sı olmuşdur. Kitaba professor B.B. Komarovski giriş sözü yazmışdır.

1957-ci ildə Ümumdünya və Sovet Sülhü Müdafiə komitələrinin qərarı əsasında bütün tərəqqipərvər xalqlar kimi, Azrbaycan xalqı da böyük pedaqoqun əsərlərinin nəşr olunmasının 300 illiyini ləyaqətlə qeyd etdi. Məhz bu münasibətlə onun seçilmiş pedaqoji əsərləri Azərbaycan dilində nəşr olundu.

Komenskinin pedaqoji irsinin Azərbaycanda yayılmasında ikinci yol onun irsinin tədqiqata cəlb edilməsi ilə bağlı olmuşdur. Bu sahədə Azərbaycan alimlərindən Ə. Seyidov, M. Mehdizadə, M. Muradxanov, B.Komarovski, Ş. Ağayev, Ə. Tağıyev və b. fərqlənmişdir.

Y.A. Komenskinin pedaqoji irsinin Azərbaycanda yayılmasının üçüncü yolu tədris ilə bağlıdır. Mə'lum olduğu kimi, Komenskinin pedaqoji görüşləri pelaqogika tarixi kursunda ayrıca yer tutur. Bu mə'nada Azərbaycan dilində yazılmış tədris vəsaitlərində, ilk növbədə Ə.Y. Seyidovla Ə.S. Tağıyevin nəşr etdikləri 3 cildlik Pedaqogika tarixi» (I c. Bakı, 1959), Ə.Y. Seyidovun "Pedaqogika tarixi" (Bakı, 1958) və H.M. Əhmədovun «Pedaqogika tarixi kursundan mühazirələr»ində (Bakı, 1987) Komenskinin həyatı və pedaqoji fikirləri geniş şərh olunmuşdur.

Yubiley YUNESKO-nun qərarı ilə keçirilir. Bu onunla əlaqədardır ki, Komenski dünya mədəniyyətinə böyük Avropa pedaqoqu, bəşəriyyətin ən böyük pedaqoji nəzəriyyəçisi filosof, dilçi, mütəffəkir və ilahiyyatçı kimi daxil olmuşdur.

Y.A. Komenski bir tərəfdən böyük elmi kəşflər dövründə, digər tərəfdən isə üzücü müharibələr dövründə yaşamış, bu səbəbdən də milli mənafelərin müdafiəçisi kimi çıxış etmişdir. Onun fəaliyyəti və nəzəri prinsipinin mərkəzində insan amili durur. Böyük pedaqoq milli məhdudiyyəti rədd edir, millətlər arasında sülh, müdriklik ideyalarını təbliğ edirdi. Onun ideyaları bütün dünyaya yayılmışdır. Həmin ideyalarda məktəb təhsili bir vasitə idi. Əsas məqsəd isə insanlar arasında xeyirxahlığı yaymaq idi. Əgər onun bu ideyaları həyata keçirilərdisə, bugünkü milli qırğın olmazdı. Azəraycanda gedən kütləvi insan qarğını böyük mütəfəkkirin ideyaları ilə bir araya sığışmır.

Bugüngü pedaqogika elmini bu elmin banisi, dərsliklər müəllifi, məktəb sisteminin yaradıcısı, yaş dövrlərinin təsnifçisi olan Yan Amos Komenskisiz təsəvvür etmək olmaz.

«Azərbaycan müəllimi» qəzeti 3 aprel 1992.

Hüseyn Əhmədov

PEDAQOGİKA TARİXİ KURSUNDAN MÜHAZİRƏLƏR

Ön söz

Pedaqoji institutlarda tədris edilən psixoloji-pedaqoji fənlər sırasında ayrıca yeri olan **pedaqogika tarixi** tələbələrin ümumi pedaqoji peşə hazırlığında və pedaqoji dünyagörüşünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir və pedaqoji elmlər silsiləsində onun xüsusi çəkisi vardır. İnkişaf etmiş cəmiyyətdə yüksək ixtisaslı, ideya-siyasi və peşə hazırlığına malik müəllim kadrları hazırlığında pedaqogika tarixi müstəsna rol oynayır. Pedaqogika tarixi bir tərəfdən müəllimlik peşəsinə hazırlanan bugünkü tələbəni keçmişin zəngin pedaqoji irsi, ən'ənəsi, müxtəlif dövrlərdə tərbiyə, tə'lim və məktəb təhsilinin meydana gəlməsi və inkişafı yolları, həmçinin, mütərəqqi pedaqoqların və xalq maarifi bahadırlarının tə'lim, tərbiyə ilə bağlı bu gün də öz təravətini saxlayan zəngin fikirləri ilə tanış edir. Digər tərəfdən isə pedaqoji nəzəriyyələrin, tə'lim və tərbiyənin inkişaf yollarını öyrədən marksist-leninçi pedaqogika tarixi, tələbənin pedaqoji bilik dairəsini genişləndirir. Onların pedaqoji dünyagörüşünün formalaşmasına və pedaqoji peşəyə dərindən yiyələnməsinə böyük kömək edir.

Pedaqogika tarixi, həmçinin, keçmişin pedaqoji irsinə və təcrübəsinə tənqidi yanaşmağı və bugünkü məktəb təcrübəsində ondan bacarıqla istifadə etməyi öyrədir. Pedaqogika tarixi tələbələrdə pedaqogikanın nəzəriyyə və təcrübəsi sahəsində əldə edilmiş nailiyyətlərin ümumi inkişafla, cəmiyyətin ictimai-iqtisadi və siyasi quruluşu ilə, sinfi mübarizə ilə, hər bir tarixi dövrdə elmi biliyin inkişaf səviyyəsi ilə şərtləşməsi haqqında aydın təsəvvür yaratmaqla bərabər, gələcəyə yol göstərir.

Respublikanın ali pedaqoji institutlarında pedaqogika tarixi kursunun tədrisi sahəsində xeyli müsbət təcrübə əldə edilmişdir. Hər şeydən əvvəl qeyd etməliyik ki, bu gün pedaqoji institutlarda pedaqoji tarixçilərin bütöv bir dəstəsi fəaliyyət göstərir. Onlar bu fənni müvəffəqiyyətlə tədris etməklə yanaşı, həm də dəyərli elmi-tədqiqat işi aparır, tədris-metodiki vəsait hazırlığında yaxından

iştirak edirlər. Təkcə V.İ.Lenin adına APİ-də fəaliyyət göstərən pedaqoji tarixçilər tərəfindən ilk dəfə olaraq 1959–1960-cı illərdə ana dilində üç hissədən ibarət "Pedaqogika tarixi" adlı tədris vəsaiti nəşr edilmişdir (I və II hissələr, prof.Ə.Y.Seyidovla dos. Ə.S.Tağıyev, III hissə isə ayrıca prof. Ə.Y.Seyidov tərəfindən hazırlanmışdır). 1968-ci ildə prof. Ə.Y.Seyidov tərəfindən dərsliyin yeni nəşri çap edilmişdir. Həmin dərslik 20 ildir ki, respublikada pedaqoji institut tələbələri üçün yeganə vəsait olaraq qalır. Pedaqoji institutların minlərlə tələbələri pedaqoji tarixi üzrə biliklərə bu kitab vasitəsilə yiyələnmişlər.

İnstitutun pedaqogika kafedraları tərəfindən son illərdə pedaqogika tarixi kursunun tədrisini yaxşılaşdırmaq sahəsində bir sıra nəzərə çarpacaq işlər görülmüş, proqramın bütün materialını əhatə edən əyani vəsait, mühazirə və seminar məşğələlərinə aid sxemlər, metodiki göstərişlər, digər tədris-metodiki vəsait kompleksi hazırlanmışdır. Bu gün tələbələr pedaqogika tarixinin aktual mövzuları üzrə kurs, yoxlama və diplom işləri icra edir, tələbə elmi cəmiyyətinin konfranslarında mə'ruzələrlə çıxış edir, referatlar hazırlayırlar.

Son illər bu sahədə diqqəti daha çox cəlb edən məsələlərdən biri də «Azərbaycan məktəb və pedaqoji fikir tarixi»ndən xüsusi kurs və xüsusi seminarların aparılmasıdır.

Mə'lum olduğu kimi pedaqogika tarixi kursunda verilən material əsasən Avropa ölkələrində, inqilaba qədərki Rusiyada və SSRİ-də xalq maarifi və məktəbin, tərbiyə, təhsil və pedaqoji ideyaların meydana gəlməsi və inkişafı tarixinin əsas mərhələlərini əhatə edir. Milli respublikaların məktəb və pedaqoji fikir tarixinə aid material isə epizodik xarakter daşıyır. Məsələn, dərslikdə Azərbaycan pedaqoqlarından yalnız ikisinin: M.F.Axundov ilə R.Əfəndiyevin pedaqoji fikirlərindən bəhs edilir. Mövcud proqram xalqımızın qədim və zəngin məktəb və pedaqoji fikir tarixi haqda ətraflı bəhs etməyə imkan vermir. Halbuki Azərbaycan məktəbləri üçün hazırlanan müəllim kadrlarının öz xalqının dili, ədəbiyyatı və tarixi kimi, məktəb və pedaqoji fikir tarixini də bilməsi və özünün praktik fəaliyyətində bunlardan bəhrələnməsi çox zəruri və faydalıdır.

Bunları nəzərə alaraq institutumuzun pedaqoji tarixçiləri müttəfiq respublikalar arasında birinci olaraq Azərbaycan məktəb və pedaqoji fikir tarixinin sistemli kursunun proqramını işləyib hazırlamış və onu ilk dəfə 1977-ci ildə Azərbaycan, 1978-ci ildə isə rus dilində nəşr etdirmişlər (proqramın tərtibçiləri: prof. H.M.Əhmədov, prof. M.Ə.Muradxanov və dos. Ə.S.Tağıyev olmuşdur).

Göstərilən ixtisas kursu V.İ.Lenin adına APİ-dən başqa, akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunda və A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunun Azərbaycan şö'bəsində tətbiq edilmiş və sınaqdan keçirilmişdir.

Sevindirici haldır ki, institutumuzun bu uğurlu təcrübəsi respublikamızın hüdudlarından kənara çıxmış və 1981-ci ildə SSRİ Maarif Nazirliyinin pedaqoji elmlər üzrə elmi-metodik şurasında xüsusi müzakirə edilərək bəyənilmiş və onun yayılması qərara alınmışdır.

Azərbaycan SSR-in Ali və Orta İxtisas Təhsili Nazirliyi V.İ.Lenin adına APİ-nin bu sahədə qabaqcıl iş təcrübəsindən istifadə etməyə dair ayrıca sərəncam vermişdir.

İnstitutun pedaqogika kafedralarının əməkdaşları 1984-cü ildə V.İ.Lenin adına APİ-də keçirilən pedaqoji tarixçilərinin respublika konfransı ərəfəsində «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» adlı xüsusi kursun proqramını yenidən işləyərək Azərbaycan və rus dillərində çap etdirmişlər. Ümumi pedaqogika kafedrasının üzvləri respublikanın digər pedaqoji institutlarında və ETPEİ-də çalışan mütəxəssislərlə birlikdə «Azərbaycanda məktəb və pedaqoji fikir tarixi» adlı tədris vəsaitini də nəşrə hazırlayır.

Ümumtəhsil və peşə məktəbi haqqında islahat «Gələcək müəllimlərə, tərbiyəçilərə ən müasir biliklər və yaxşı əməli hazırlıq verməyi» tələb edir[1]. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün ən tə'xirəsalınmaz işlərdən biri də pedaqoji məktəblərin yüksək keyfiyyətli dərsliklər və dərs vəsaitləri ilə tə'min edilməsi sahəsində əlavə tədbirlər hazırlanması və həyata keçirilməsidir.

[1] Ümumtəhsil və peşə məktəbi islahatı haqqında. Sənədlər və materiallar toplusu. Azərnəşr, 1984, s. 64.

Bu səbəbdən də gələcək müəllimlərin peşə hazırlığının formalaşmasında bu kursun rolu və mövqeyi – bu fənn üzrə hazırlanmış dərslik və dərs vəsaitlərinin ideya-nəzəri və metodiki səviyyəsindən çox asılıdır. Dərsliklərə verilən ümumi tələblər məktəb islahatında çox dəqiq göstərilmişdir. Orada deyilir: «Bütün kurslar üzrə mövcud dərsliklər, dərs vəsaitləri təkmilləşdirilsin və yeniləri yaradılsın. Yüksək ideyalılıq və elmilik, anlaşıqlıq və yığcamlıq, şərhin dəqiqliyi, aydınlığı və canlılığı, metodik aparatın mükəmməlliyi hər bir dərslik qarşısında qoyulan qəti tələblərdir».

Pedaqoji institut tələbələri üçün nəzərdə tutulan bu mühazirələr pedaqogika tarixi kursunun ilk mövzularını əhatə edir.

Mühazirələrdə pedaqogika tarixi fənni üzrə mövcud proqram tələblərinin əsasən gözlənməsinə cəhd edilmişdir. Mühazirələri çapa hazırlayarkən digər materiallarla yanaşı mövcud dərslik və dərs vəsaitləri, xüsusilə N.A.Konstantinov, Y.N.Medınski və M.F.Şabayevanın «Pedaqogika tarixi» kitabı (Moskva, 1982) əsas götürülmüşdür.

Mühazirələrdə nəzərə çarpan qüsurları göstərən, tənqidi qeydlərini, həmçinin, xeyirxah arzu və təkliflərini müəllifə göndərən yoldaşlara əvvəlcədən öz razılığımızı bildiririk. Tənqidi qeydlər, təklif və arzular mühazirələrin gələcəkdə daha da təkmilləşdirilməsinə fayda verər.

Pedaqogika tarixi kursunun predmeti və vəzifələri

Pedaqoji elmlərin mühüm tərkib hissəsi olan sovet pedaqoji tarixi ən qədim zamanlardan başlayaraq zəmanəmizə qədər müxtəlif tarixi mərhələlərdə, marksist-leninçi mövqedən tərbiyə, məktəb və pedaqoji ideyaların meydana gəlməsi və inkişaf yollarını öyrədir. Pedaqogika tarixi dialektik materializmin prinsiplərinə istinad edərək, sinifli cəmiyyətlərdə tərbiyə nəzəriyyəsi və təcrübəsinin sinfi mahiyyətini, mütərəqqi pedaqoji ideyalarla nəzəriyyələr arasında gedən mübarizəni açıb göstərir; həmçinin, tərbiyə nəzəriyyəsi və təcrübəsinin inkişafının tarixi qanunauyğunluğunu üzə çıxarır.

Tə'lim və tərbiyə haqqında marksist-leninçi tə'lim öyrədir ki, keçmişdə gənc nəslin tərbiyə və təhsil nəzəriyyəsi və təcrübəsinin necə inkişaf etdiyini bilmədən, sosializm cəmiyyətində kommunist tərbiyəsi və təhsilini müvəffəqiyyətlə həyata keçirmək mümkün deyil.

Bir sıra elmlər kimi pedaqoji elmlərin tarixinin də öyrənilməsi böyük zəruriyyətdir. V.İ.Lenin yazırdı ki, marksizm burjua epoxasının ən qiymətli nailiyyətlərini heç də kənara atmamışdır, əksinə, insan fikri və mədəniyyətinin iki min ildən artıq bir müddət ərzindəki inkişafında olan bütün qiymətli cəhətləri mənimsəmiş və yenidən işləmişdir.

Mədəniyyət tarixinin ayrılmaz hissəsi olan məktəb və pedaqoji fikir tarixinin dərindən öyrənilməsinin əhəmiyyəti böyükdür.

A.İ.Gertsen obrazlı şəkildə demişdir: "Keçmişi tam dərk etməklə, biz bu günümüzü anlayırıq: fikrən keçmişin dərinliklərinə endikcə, gələcək fikirləri aşkar edirik: geriyə nəzər yetirməklə irəliyə addımlayırıq". Aqillər gözəl deyiblər: Keçmişinə güllə atsan, gələcək səni topa tutar. Bu gün sabah üçün iz qoymalıdır, sabah isə bu gün. Əgər belə olmasa o biri gün olmayacaq.

Burası bir həqiqətdir, xalqın yaratdığı elmin tarixini öyrənmədən, xalqın tarixini dərk etmək çətin olur. Həm də belə tarix heç zaman tam ola bilməz. Bu da mə'lumdur ki, hər hansı bir xalqı ilk növbədə onun qədim keçmişi, mədəniyyətinin zənginliyi ilə tanıyırlar.

Köhnə məktəbdə özünü göstərən yaxşı ilə pisi ayırd etmək, köhnə məktəbdə yaxşı nə varsa, bəşəriyyətin topladığı və kommunizm quruculğu üçün faydalı olan nə varsa bütün bunları götürməliyik. Bu o deməkdir ki, köhnə məktəbin təcrübəsinə e'tinasız qalmaq onu tamamilə rədd etmək deyil, əksinə, ona tənqidi yanaşmaq və mütərəqqi cəhətləri seçib götürməyi bacarmaq lazımdır.

Pedaqogika tarixi həm də keçmişin klassik pedaqoqların,tanınmış maarifçilərin, mütəfəkkirlərin pedaqoji ideyalarını öyrənir. Onların vaxtında irəli sürdükləri mühüm pedaqoji ideyaları tənqid süzgəcindən keçirməklə dərindən öyrənilməsi pedaqoji təfəkkürü inkişaf etdirir, pedaqoji mədəniyyəti yüksəldir.

Pedaqoji elmlərin tarixi xalqımızın mə'nəvi mədəniyyətinin mühüm tərkib hissəsidir. Xalqımızın özünün keçmiş mədəniyyəti, xalq maarifi, məktəb təhsilinin qədimliyi və zənginliyi, mütərəqqi maarifçiləri, pedaqoqları, mütəfəkkirləri, məktəbdarları, alimləri ilə fəxr edir. Onların xalq maarifi, məktəb təhsili, tə'lim və tərbiyə sahəsindəki xidmətləri əvəzedilməzdir.

Mədəni səviyyə e'tibarilə inkişaf etmiş bir sıra xarici ölkə xalqları ilə bərabər, SSRİ xalqlarının, o cümlədən də Azərbaycan xalqının elmi-pedaqoji irsi qədim olmaqla bərabər, həm də zəngindir. Nizami dövründən başlayaraq orta əsrlərin bir çox görkəmli nümayəndələrinin pedaqoji fikirləri, Azərbaycan xalq pedaqogikası uşaq və gənclərin tə'lim və tərbiyəsində mühüm rol oynamışdır.

Azərbaycan xalqının bir çox mütəfəkkirlərinin tə'lim-tərbiyəyə aid orijinal fikirləri dünya pedaqoji tarixinin qiymətli incilərini təşkil edir və onu daha da zənginləşdirir. Lakin yeri gəlmişkən onu da qeyd edək ki, hənsı səbəbdən pedaqoji tarixçiləri çox vaxt mütərəqqi pedaqoji ideyaların mənşəyini Avropada axtarır və bu sahədə yaxşı hər nə varsa Avropaya aid edir, qocaman Şərqə isə göz yumurlar. Elm naminə demək lazımdır ki, tə'lim və tərbiyə sahəsində XIV–XV əsrlərin Qərb humanistləri tərəfindən irəli sürülən ideyaların bir çoxu xeyli əvvəl, həm də daha inkişaf etmiş, daha humanist və demokratik istiqamətdə Şərqin XII–XIII əsr görkəmli alimləri tərfindən irəli sürülmüşdür. Amerika alimlərindən biri son zamanlar XIII əsrin məşhur Azərbaycan alimi Nəsirəddin Tusi haqqında belə demişdir: «Əgər Qərb alimləri Tusinin nələr yaratdığından xəbərdar olsaydılar, o zaman öz kəşflərini yeni hesab etməzdilər». Təkcə onu qeyd etmək lazımdır ki, Tusinin tərbiyə haqqında «Əxlaqi-Nasiri» adlı məşhur traktatı dövrünün pedaqoji dərsliyi olub, onun Marağa rəsədxanası isə Şərq münəcatında şərəfli yer tutmuşdur.

K.Marks göstərirdi ki, cəmiyyətdə istehsal münasibətlərinin məcmusu onun iqtisadi strukturunu, real maddi həyat şəraitini təşkil edir ki, cəmiyyətin ideyaları, siyasi tə'sisatı da bunun üzərində qurulur. Cəmiyyətin maddi həyat şəraiti necə isə, üstqurum xarakteri daşıyan mə'nəvi həyatı da ona müvafiq olur. Cəmiyyətin real maddi həyatı onun üstqurumunu müəyyən etdiyi kimi, üstqurum da öz

növbəsində maddi həyatın inkişafının sür'ətlənməsinə yaxından kömək edir və ya onu ləngidir. Bu mə'nada müxtəlif pedaqoji nəzəriyyələr, məktəb sistemi, tə'lim və tərbiyə işinin təşkili məzmunu və üsulları mövcud cəmiyyətin maddi həyat şəraiti ilə müəyyən edilir. Başqa sözlə desək, tarixdə bir köhnə ideyalar var, bir də yeni, qabaqcıl ideyalar vardır. Birincilər cəmiyyətin inkişafını ləngidir, ikincilər isə sür'ətləndirir, cəmiyyətin irəliləməsini asanlaşdırır. Həm də qabaqcıl ideyalar cəmiyyətin maddi həyatının inkişafı tələbatını nə qədər dürüst əks etdirirsə, bir o qədər çox əhəmiyyət qazanır.

Bir başlıca cəhəti də qeyd edək ki, yeni ictimai ideyalar yalnız cəmiyyətin maddi həyatının inkişafı nəticəsində qarşıya qoyulan yeni vəzifələrlə bağlı olaraq meydana çıxır. Beləliklə, yeni ideyalar meydana gəldikdən sonra cəmiyyətin maddi həyatının qarşıya qoyduğu yeni vəzifələrin həllini asanlaşdıran çox ciddi bir qüvvə olur. Xalqların mə'nəvi mədəniyyət tarixində belə qüvvələrdən biri də pedaqoji ideyalar, qabaqcıl pedaqoji nəzəriyyələrdir ki, onlar cəmiyyətin irəli sürdüyü vəzifələrin həllinin sür'ətlənməsinə yaxından kömək edir. Bununla bərabər keçmişin pedaqoji irsinə müraciət edərkən, onu öyrənərkən və təcrübədə, pedaqoji prosesdə ondan istifadə edərək, keçmişi heç də idealizə etmək olmaz. Bu və ya digər qabaqcıl nəzəriyyənin və təcrübənin mütərəqqi cəhətləri ilə yanaşı onun zəif cəhətlərini də aşkar etmək, nəzərə almaq lazımdır. Yalnız və yalnız marksizm-leninizm mövqeyindən yanaşmaqla keçmişin pedaqoji irsini düzgün qiymətləndirmək olar.

Hər bir milli mədəniyyətdə iki mədəniyyətin olmasına dair V.İ.Lenin tə'limini rəhbər tutan sovet pedaqogika tarixi keçmişdə gənc nəslin tərbiyəsini, pedaqoji ideyaların tarixini öyrənərkən inqilabi-demokratik pedaqogikanın təşəkkülü və inkişafına ayrıca əhəmiyyət verir.

Pedaqoji elmlərin tarixini öyrənmək, təkcə tariximizi, pedaqoji irsimizi üzə çıxarmaqla məhdudlaşmır. Onun bu günümüz, inkişafımız üçün də əhəmiyyəti böyükdür. Bu mə'nada pedaqoji elmlərin tarixi ayrıca əhəmiyyət kəsb edir. Cəmiyyətin inkişafı üçün ictimai sifarişin ödənilməsi sahəsində ali pedaqoji tədris müəssisələrinin kadr hazırlığında, müəllim kadrlarının hərtərəfli yetişdirilməsində keçmişin mədəni və pedaqoji irsindən tənqidi istifadə etməyin əhəmiyyəti mə'lumdur. Tə'lim və tərbiyə haqqında

marksist-leninçi tə'lim tələb edir ki, bügünkü tələbə, gələcək müəllim keçmişin pedaqoji ideyalarının təşəkkül və inkişaf tarixinə, qabaqcıl təcrübəyə dərindən bələd olsun. Bugünkü tələbə bəşəriyyətin yaratdığı biliklər ehtiyatından faydalanmalı, tərbiyənin tarixi və sinfi xarakterinə aid materialı bütövlükdə mənimsəməli və ona elmi təhlil verməyi bacarmalıdır. Pedaqoji elmlər tarixinin təhsil əhəmiyyəti ilə yanaşı, tərbiyəvi əhəmiyyəti də qüvvətli və əhatəlidir. Keçmişin klassik pedaqoqlarının, o cümlədən Y. A. Komenski, K. D. Uşinski ilə yanaşı, xalqımızın mütəfəkkirlərinin, alimlərinin, pedaqoqlarının fəaliyyəti və əsərləri tələbə və müəllimlər üçün qüdrətli tərbiyə vasitəsidir. Keçmişin unudulmaz pedaqoqlarının timsalında bugünkü nəslin gələcəyini görmək çox lazımdır. Gələcəkdə müəllimliyə hazırlaşan gəncin ümumi pedaqoji hazırlığında, təfəkkür tərzinin və dünyagörüşünün formalaşmasında pedaqoji elmlər tarixi də mühüm əhəmiyyət kəsb edir. Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərində deyilir: «Pedaqoqların bir neçə nəslinin əməyi, sovet məktəbi və pedaqogika elmi sahəsində qazanılmış qiymətli nə varsa, zamanın sınağından çıxmış nə varsa hamısı qayğı ilə qorunmalı və ondan istifadə edilməlidir»[1].

Pedaqoji elmlərin tarixinin öyrənilməsi sovet müəllimlərinin pedaqoji mədəniyyətinin yüksəldilməsində böyük rol oynayır, onların pedaqoji ustalığının yüksəldilməsinə tə'sir edir, humanist pedaqogikanın ən yaxşı ən'ənələri ilə silahlandırır və nəticə e'tibarilə onların gündəlik fəaliyyətinə kömək edir.

Pedaqogika tarixi kursu üç hissəyə bölünür:

1. Xarici ölkələrin pedaqoji tarixi.
2. Böyük Oktyabr sosialist inqilabına qədərki dövrdə SSRİ xalqlarının məktəb və pedaqogika tarixi.
3. SSRİ-də və digər sosialist ölkələrində məktəb və pedaqogika tarixi.

Pedaqogika tarixi kursunun mənbələri əsas e'tibarilə aşağıdakılardır: Hökumətin müvafiq qərarları; xalq maarifinə dair arxiv sənədləri: qədim yazılı abidələr, tə'lim və tərbiyəyə aid qədim əlyazmaları; rəsmi sənədlər, məsələn, dövlət qanunları, layihələr,

[1] Bax: Ümumtəhsil və peşə məktəbi islahatı haqqında. Sənədlər və materiallar toplusu. Azərnəşr, 1984, s. 70–71.

sərəncamlar, hesabatlar, mə'ruzələr və s. dərslik və dərs vəsaitləri, proqramlar, məktəb işini səciyyələndirən digər tədris materialları, görkəmli pedaqoqların əsərləri, ümumi və pedaqoji mətbuat; ədəbi-bədii əsərlər.

Pedaqogika tarixi kursunun digər elmlərlə əlaqəsi.

Pedaqogika tarixi hər şeydən əvvəl mədəniyyət tarixi ilə sıx əlaqədardır. Pedaqogika tarixi, həm də mülki tarix, fəlsəfə, ədəbiyyat və incəsənət tarixi ilə əlaqədardır.

İbtidai icma cəmiyyətində tərbiyə

Tərbiyənin mənşəyi. Tərbiyənin mənşəyi, onun təşəkkülü məsələsi prinsipal əhəmiyyət kəsb edir. bu məsələyə münasibətdə müxtəlif nöqteyi-nəzər özünü göstərir. Burjua alimləri məsələni bir cür, marksist-leninçi metodologiyaya istinad edən alimlər isə başqa cür izah edirlər.

Burjua sosioloqları tərbiyənin təşəkkülü məsələsini izah edərkən, ibtidai icma quruluşunda tərbiyənin cəmiyyətin iqtisadi həyat şəraiti ilə və insanların əmək fəaliyyəti ilə əlaqələndirmir, onu inkar edirlər. İnsanın inkişafı haqqında vulqar-təkamül təsəvvürlərin tə'siri altında olan bə'zi burjua alimləri tərbiyənin təşəkkülündə tərbiyənin sosial mahiyyəti təcrid edilir, tərbiyə prosesi bioloji prinsip kimi şərh olunur.

Burjua nəzəriyyəçilərindən Ş. Leturno, A. Espinas heyvanat aləmində yaşlı nəslin kiçiklərə «qayğısını», ətraf aləmə uyğunlaşmaqla əlaqədar verilən vərdişlərə aid faktik materiala əsaslanaraq, heyvanların instinktiv hərəkətləri ibtidai insanların tərbiyə prosesilə eyniləşdirmişlər. Bununla da belə yanlış nəticəyə gəlmişlər ki, insanların nəsli davam etdirməsindəki instinktiv cəhd və təbii seçmə qanunu – tərbiyənin yeganə əsasıdır.

XIX əsrin sonları, XX əsrin əvvəllərində burjua alimləri içərisində belə bir fikir də yayılmışdır ki, uşaqların böyükləri fəal, həm də kortəbii təqlid etmələri tərbiyənin əsasıdır. Bu nəzəriyyəni amerikan alimi P.Monro daha da inkişaf etdirmişdir.

Beləliklə də, Monro tərbiyənin təşəkkülü səbəblərinin bioloji izahını yalnız psixoloji hadisə ilə eyniləşdirməyə çalışmışdır. Bu isə

mahiyyət e'tibarilə tərbiyənin yaranmasını idealistcəsinə izah etmək deməkdir. Doğrudur, tərbiyə prosesində uşaqların böyükləri təqlid etməsinin elementləri özünü göstərir. Lakin, ictimai hadisə olan tərbiyənin meydana gəlməsi cəmiyyətin, təbii və sosial varlıq olan insanın inkişaf prosesi ilə bağlı olmuşdur.

Tərbiyə haqqında marksizm-leninizm tə'limi öyrədir ki, tərbiyənin təşəkkülünün əsas şərti ibtidai insanların əmək fəaliyyəti ilə bağlı olmuşdur. Heyvanat aləminə deyil, yalnız insan cəmiyyətinə xas olan tərbiyə insanların əmək fəaliyyəti nəticəsində yaranmış, bununla da ictimai münasibətlər formalaşmış və inkişaf etmişdir. F.Engels özünün «Meymunun insana çevrilməsi prosesində əməyin rolu» adlı klassik əsərində yazır ki, «Əmək bütün insan həyatının birinci əsas şərtidir, həm də o dərəcədə belə bir əsas şərtdir ki, biz müəyyən mə'nada deməliyik: insanın özünü əmək yaratmışdır»[1]. İnsanın təşəkkül etməsi üçün bioloji zəmin, əmək sayəsində, heyvan vəziyyətindən insanlığa keçməsi üçün əsas ola bilmişdir. İnsan cəmiyyəti insanların əmək alətləri qayırması ilə təşəkkül etmişdir. Beləliklə, tərbiyənin də meydana gəlməsində insanların əmək fəaliyyətinə və əmək alətlərinə olan ehtiyacı və ona yiyələnmək tələbatı əsas rol oynamışdır. Sadə, primitiv əmək alətlərinin düzəldilməsi, get-gedə genişlənməsi və onların şüurlu surətdə daha da mürəkkəbləşməsi, əməyə aid bilik, bacarıq və vərdişlərin gənc nəslə verilməsi zərurətini yaratdı. Bütün bunlar ilk vaxtlar əsasən əmək fəaliyyətində, bütöv məişət və ictimai həyat prosesində baş verirdi. Sonralar tərbiyə insan fəaliyyəti və şüurunun xüsusi sahəsinə çevrildi.

İbtidai icma quruluşunda tərbiyənin xarakteri

İbtidai icma quruluşu dedikdə insan cəmiyyətinin inkişafının ilk mərhələsi nəzərdə tutulur. Bu quruluş ilk insanların meydana gəlməsindən sinifli cəmiyyət yarananadək olan dövrü əhatə edir. Bu quruluş üçün səciyyəvi cəhət bundan ibarətdir ki, istehsal vasitələrinə münasibət və ictimai məhsuldan pay almaq cəmiyyət üzvləri üçün eynidir. Ümumi əmək, ümumi mülkiyyət, istismarın və siniflərin

[1] Bax: K.Marks, F.Engels. İkicildlik seçilmiş əsərləri, II cild, Bakı, 1953, s. 74.

yoxluğu ilə həmin cəmiyyətin səciyyəvi xüsusiyyətlərindəndir. Bu dövrdə insanlar əsasən təbiətin hazır məhsullarından istifadə edir, ovla məşğul olur.

Uşaqların tərbiyəsi də olduqca məhdud və sadə idi. Uşaqlar hamıya məxsus olduğuna görə onların tərbiyəsilə bütün icma üzvləri məşğul olurdu. Sonralar ictimai münasibətlər meydana gəlir. İbtidai icma quruluşunda ictimai münasibətlərin meydana gəlməsi qan qohumluğu ilə bir vaxta düşür. Burada əmək və ictimai vəzifələr təbii bioloji əsaslar üzərində qurulur, qadınlarla kişilər arasında əmək bölgüsü, həmçinin ictimai kollektivin yaş bölgüsü meydana gəlir.

Qəbilə quruluşuna qədərki dövrdə cəmiyyət üç əsas yaş dövrünə bölünürdü: 1) uşaq və yeniyetmələr; 2) həyat və əməyin tam yararlı və tam hüquqlu iştirakçıları; 3) fiziki qüvvəyə malik olmadığından ümumi həyatda tam yararlı iştirak etməyən yaşlı adamlar və qocalar. Uşaq doğularkən əvvəlcə yeniyetmə və yaşlıların ümumi qrupuna daxil olur, burada öz yaşıdlarının və qocaların həyat təcrübəsi əsasında əmək vərdişləri, həyati biliklər kəsb edir. Bundan sonra o növbəti yaş qrupuna daxil olurdu ki, burada o ciddi yoxlamadan keçməli idi. Yaş qrupları üzvləri arasındakı münasibət, yazılmamış, lakin ciddi riayət edilən adət və ən'ənələr tənzim edilirdi.

İbtidai icma quruluşunda uşaqlar əsasən həyat fəaliyyətində, yaşlıların işində iştirak etməklə, hər gün onlarla ünsiyyətdə olmaqla tərbiyə olunur və öyrənirdilər. Bununla da uşaq yaşlılarla birlikdə və onların rəhbərliyi birbaşa onun səviyyəsinə müvafiq olan əmək fəaliyyətinə, kollektiv əməyə və məişətə hazırlanırdı. Bu cəmiyyətdə hər şey kollektiv xarakter daşıyırdı. Uşaqlar da bütün qəbiləyə məxsus idi. Uşaqlar əvvəllər, yə'ni qrup nigahı dövründə qohumluq ana xətti ilə müəyyən edildiyi zaman (matriarxart dövründə) ana xətti ilə müəyyən edilən qəbiləyə məxsus idilər. Maldarlıq və əkinçiliyin inkişafı ilə əlaqədar kişilərin təsərrüfat və ictimai həyatda rolunun artması ilə (patriarxat dövründə) uşaqlar da ata xətti ilə müəyyən edilən qəbiləyə məxsus olur. Əməkdə iştirak edən və yaşlılarla gündəlik ünsiyyətdə olan uşaqlar həyat üçün zəruri vərdiş və əmək bacarığını mənimsəyir, qəbilənin adətləri ilə müvafiq mərasimlərin icra edilmiş qaydaları ilə tanış olur və beləliklə də özünün bütün

vəzifələrini tamamilə qəbilənin mənafeyinə, böyüklərin tələbinə tabe etməyi öyrənir.

İbtidai icma quruluşunda oğlanlarla qızların tərbiyəsində müəyyən cinsi fərqlər özünü göstərirdi. Oğlanlar kişilərlə birlikdə ov etmək, balıq tutmaq silah qayırmaqda iştirak edirdilər. Qızlar isə qadınların rəhbərliyi altında məhsul yetişdirir və toplayır, yemək, qab-qacaq, paltar hazırlayırdılar. İbtidai icma quruluşunda, matriarxat mərhələsinin inkişafının sonlarında gənc nəslin tərbiyə və həyata hazırlanması üçün ilk müəssisələr – Gənclər evi meydana gəlir. Burada qəbilə başçılarının rəhbərliyi altında oğlan və qızlar ayrı-ayrılıqda əməyə hazırlaşırdılar.

Patriarxart dövründə, istehsal qüvvələrinin inkişafı, insanların əmək təcrübəsinin genişlənməsilə bağlı olaraq tərbiyə işi də mürəkkəbləşir, çoxsahəli və planlı xarakter daşıyır. Uşaqların tərbiyəsini daha təcrübəli adamlara tapşırmaq zəruriyyəti yaranır. Uşaqları əmək bacarıqları və vərdişləri ilə silahlandırmaqla yanaşı onlar təşəkkül tapmaqda olan bir sıra dini mərasim qaydaları ilə tanış edilirdi. Uşaq və gənclərin tərbiyəsində şifahi xalq yaradıcılığı-nağıllar, oyun və rəqslər, musiqi və nəğmələr böyük rol oynayır, onların əxlaqını, davranışını, xarakter keyfiyyətini müəyyən edirdi.

Qəbilə icmasının sonrakı inkişaf dövründə gənclərin hərbi tərbiyəsinin başlanğıcı qoyulur: oğlanlara ox atmaq, nizədən istifadə etmək, at çapmaq və s. kimi bacarıqları əhatə edən hərbi tərbiyə verilir; sonralar isə ilkin biliklər vermək, yazının əmələ gəlməsi ilə əlaqədar olaraq yazı öyrətmək meydana gəlir.

Beləliklə, tərbiyənin qəbilə icması tərəfindən ayrılan xüsusi adamlar tərəfindən həyata keçirilməsi nəticə e'tibarı ilə tərbiyənin məzmununun və sınaq proqramının genişlənməsi və mürəkkəbləşməsi, – bütün bunlar göstərir ki, ibtidai icma quruluşunda tərbiyə ictimai fəaliyyətin xüsusi forması kimi fərqlənməyə başlamışdır.

İbtidai icma quruluşunun dağılması dövründə tərbiyə

Əmlak bərabərsizliyinin get-gedə güclənməsi, xüsusi mülkiyyətin təşəkkül tapması və tədricən formalaşması, qulların və monoqramiyanın (təkkəbinlilik, nigah və ailənin tarixi forması – H.Ə.) meydana gəlməsi ilə ibtidai icma quruluşu dağılmağa başladı. Ailə mühüm ictimai hadisə olub, cəmiyyətin əsas iqtisadi özəyinə çevrildi. Qəbilə quruluşundan fərqli olaraq uşaqların tərbiyə edilməsi vəzifəsi ailənin üzərinə düşdü. Ailə tərbiyəsi tərbiyə işinin kütləvi formasına çevrildi. Bu zaman yuxarıda haqqında bəhs etdiyimiz "Gənclər evi" davam etməklə yanaşı, həm də məktəblər meydana gəlməyə başladı. İlk məktəblər Qədim Şərqdə: Babilistanda, Assuriyada, Misirdə və Hindistanda meydana gəlmişdir. SSRİ ərazisində ilk məktəblər 4-cü əsrdə Ermənistan və Gürcüstanda, 5-ci əsrin birinci yarısında Azərbaycanda yaranmışdır.

Əhalinin meydana kələn hakim qrupları uşaqların əqli təhsilini, fiziki əmək tələb edən tə'lim verməkdən ayırmağa cəhd göstərdilər. İmtiyazlı şəxslər biliklərin əsaslarını məsələn, sahələri, ölçmək, çay daşqınlarının qarşısını almaq, insanları müalicə üsulları və s. ilə məşğul olan elmləri, o cümlədən, hesab, həndəsə, astronomiya, tibb və s. öz əllərində cəmləşdirir, onları öz imtiyazları edirdilər. Bu bilik sahələri üzrə yaradılan xüsusi məktəblər həm də hakim başçıların hökmranlığının möhkəmlənməsinə xidmət edirdi. Belə məktəblər xüsusilə Qədim Meksikada daha çox yayılmışdı. Bu məktəblərdə adlı-sanlı adamların uşaqları təhsil alırdılar.

Fiziki əmək istismar olunanların uşaqlarına aid edilirdi. Belə ailələrdə uşaqlar erkən yaşlarından əməyə alışdırılır, valideynlər öz təcrübələrini uşaqlarına öyrədirdilər. Məktəbdə verilən mütəşəkkil tərbiyə get-gedə daha çox imtiyazlı adamların uşaqlarına nəsib olurdu. Beləliklə, bəşər tarixinə ilk dəfə əqli təhsil fiziki əmək tələb edən tə'lim məşğələsindən ayrılır və kahinlərin inhisarına keçir; xüsusi məktəblər yaranır və istismarı möhkəmlətmək üçün onlardan bir alət kimi istifadə edilir. Bununla da tərbiyə və məktəb sinfi səciyyə daşımağa başlayır.

Quldarlıq cəmiyyətində tərbiyə və pedaqoji fikrin yaranması

İbtidai icma cəmiyyəti sonrakı tarixi inkişafında yeni ictimai quruluş olan quldarlıq cəmiyyəti ilə əvəz edildi. Bəşəriyyət tarixində insanın insan tərəfindən istismarına əsaslanan ilk sinifli ictimai formasiya yarandı. Quldarlıq quruluşunda əsas antaqonist siniflər quldarlar və qullar idi. Qədim quldarlıq dövlətləri eramızdan əvvəl 4-cü, 3-cü min illiklərdə Mesopotamiya və Misirdə meydana gəlmişdir. Bu zamanlar Qədim Şərqdə maddi və mə'nəvi mədəniyyətin əsası qoyuldu. Qədim Şərq mədəniyyəti, sonralar Asiya, Afrika və Avropa (xüsusilə Yunanıstan və Roma) xalqları tərəfindən əxz edilərək mənimsənildi.

Qədim Şərq ölkələrində məktəb. Qədim Şərq ölkələrində meydana gələn məktəblər əsasən əhalinin hakim qruplarının imtiyazında idi. Qədim dünyada ilk məktəblər Hindistanda təşəkkül etmiş və möhkəmlənmişdir. Sadə əkinçilər tərəfindən təşkil olunan icma məktəbləri min illər ərzində öz fəaliyyətini davam etdirmişdir. Burada həmçinin böyük şəhərlərdə və mə'bədlər nəzdində olan məktəblər də böyük əhəmiyyətə malik idi. İlk məktəblərin yarandığı ölkələrdən biri də Çin və Kiçik Asiya ölkələridir. Qədim Çində həm ibtidai, həm də yuxarı dərəcəli məktəblər olmuşdur. Bu ölkələrdə elmin bir sıra sahələri inkişaf edirdi. Məsələn, Misirdə çayların suyundan səmərəli istifadə etmək, təbiət hadisələri üzərində müşahidələr aparmaq və sü'ni suvarmadan istifadə etmək məqsədilə çayların daşqın vaxtını dəqiq müəyyən etmək, möhkəm bəndlər düzəltmək və s. ilə əlaqədar olaraq astronomiya, coğrafiya, hesab, cəbr, həndəsə, tibb, kimya, fizika və başqa elmlər yaranmağa başladı. Tikinti alətləri hazırlandı. Misirdə iki cür məktəblər olmuşdur: 1) saray kahinləri və yaxud ən imtiyazlı adamların uşaqları üçün olan məktəblər; 2) kiçik mə'murlar hazırlayan məktəblər. Sonralar Misirdə din xadimləri, hərbçilər, me'marlar və həkimlər hazırlayan məktəblər də açılmışdır. Ümumiyyətlə, qədim mədəniyyət Misirdə və Aralıq dənizinin şimal hissəsində yerləşən Krit adasındakı Knos adlı məşhur şəhərdə, İraqda yaxud Mesopotomiya deyilən ölkədə – Qərbi Asiyada, Dəclə və Fərat çaylarının hövzələri arasında, həmçinin Çində və Hindistanda və sonralar isə Yunanıstanda yaranmışdır. Cəvahirləl Nehru yazır ki, Hindistandan və Çindən

başqa, heç yerdə həqiqi mə'nada mədəniyyət olmamışdır. «Hindistanın mədəniyyəti Misirin, Çinin və İraqın mədəniyyətilə həmyaşıddır. Hətta qədim Yunanıstan da onların yalnız kiçik qardaşı ola bilər»[1]. Ümumiyyətlə uzun dövrlər ərzində, qərinələr boyu Asiya ölkələri mədəni inkişaf səviyyəsi e'tibarı ilə Avropaya nisbətən üstün olmuşlar. Dünyaya tə'sir göstərən böyük ideya rəhbərlərini məhz Asiya yetirmişdir.Başlıca dinlərin böyük banilərini də Asiya vermişdir. Vaxtı ilə Avropanı viran qoyan da Asiya xalqları olmuş, Avropanı mədəniləşdirən də, Misirdə olduğu kimi, İraqda və İranda qədim mədəniyyətlərin büsbütün qeyb olmasına baxmayaraq Şərqlə Qərb arasında ticarət əlaqələri nəticəsində bu ölkələrin mədəniyyəti Avropa xalqlarına, ilk növbədə Yunanıstana güclü tə'sir etmişdir.

Şərq ölkələrinə, xüsusilə Çin, Hindistan, Misir və başqalarına məxsus olan qədim əlyazmalarında tərbiyəyə, müəllim və tərbiyəçiyə verilən tələblərə aid qiymətli fikirlər vardır.

Şərq ölkələrindəki məktəblərdə, xüsusilə aşağı təbəqələrə məxsus olan məktəblərdə sərt intizam mövcud idi, bədən cəzası geniş tətbiq edilirdi, zəhmətkeşlərin və qulların uşaqlarının böyük əksəriyyəti məktəb təhsilindən kənar da qalırdı. Əmək və davranış normaları ilə əlaqədar olan əsas bilik və bacarıqları onlar ancaq ailədə öz valideynlərindən və ətrafdakılardan alırdılar.

Qədim Yunanıstanda tərbiyə, məktəb və pedaqoji fikir. Qədim Yunanıstan böyük olmayan bir sıra quldar dövlətlərindən ibarət idi. Bunlar şəhər dövlətləri-polislər adlanırdı. Bu dövlətlərdən ikisi diqqəti daha çox cəlb edir.

1) Əsas şəhəri Sparta olan Lakoniya dövləti.
2) Əsas şəhəri Afina olan-Attika dövləti.

Qədim Yunan şəhər dövlətlərində (polislərində) yaranan müxtəlif tərbiyə və maarif sistemlərindən ən məşhurları Afina və Sparta sistemləri idi. Bu dövlətlərin istər iqtisadi, istərsə də siyasi vəziyyətləri, həmçinin mədəni səviyyəsi müxtəlif olduğundan tərbiyə sistemləri də müxtəlif idi. Buna baxmayaraq hər iki dövlətdə ictimai tərbiyə yalnız quldarların uşaqlarına xidmət edirdi. Bütün Yunanıstanda qullara ancaq «danışan alətlər» kimi baxılırdı. Onlar

[1] Bax: Cavahirlal Nehru. Ümumdünya tarixinə nəzər. Bakı, Gənclik, 1986, s. 40.

bütün insani hüquqları ilə bərabər məktəblərdə təhsil almaq hüququndan da məhrum idilər.

Sparta tərbiyə sistemi. Lakoniya əkinçilik ölkəsi idi. Əsas yeri qul əməyi tuturdu. Qullar amansızcasına istismar edildiklərindən, bə'zən üsyan edir, öz sahibkarlarına divan tuturdular. Burada 9 min quldar ailə 25 min qulun üzərində hökmranlıq edirdi. Bu səbəbdən də Sparta tərbiyə sistemində başlıca məqsəd quldar uşaqlarından elə adamlar hazırlamaq idi ki, onlar qullara qarşı amansız və qəddar olsunlar. Burada tərbiyə dövlət tərəfindən həyata keçirilirdi. Vəzifə möhkəm və davamlı hərbçilər, gələcək quldarlar yetişdirmək idi. Dövlət tərbiyə müəsissəsi olan məktəbə aqellam deyilirdi. Bu məktəblərin rəhbərliyinə hakimiyyətə mə'lum olan adamlar tə'yin olunurdu ki, onlara-pedonom deyilirdi. Spartada yeni doğulanlar arasından yalnız sağlam körpələr dövlət tərəfindən tərbiyə edilirdi. 8–20 yaşlı hər bir spartalı üçün dövlət məktəb tə'limi məcburi idi. 13–15 yaşlılar gimnasistlərdə oxuyurdular. Onların fiziki tərbiyəsinə ayrıca fikir verilirdi: onların bədəni möhkəmləndirir, soyuğa, aclığa və susuzluğa davam etmək, ağrılara dözmək aşılanırdı. Gənc spartalıları qaçmağa, hoppanmağa, disk və nizə atmağa, güləşməyə, əlbəyaxa vuruşma zamanı müxtəlif vasitələrdən istifadə etməyə, hərbi mahnılar oxumağa hazırlayırdılar. Fiziki tərbiyəyə, həm də musiqi, nəğmə, hərbi, döyüş xarakteri daşıyan dini rəqslər də əlavə olunurdu.

Oxu və yazı öyrədilməsinə gəlincə, şagirdin özünə zəruri olan qədər öyrədilirdi. 18–20 yaşlılar hərbi və mülki xidmət məktəbi sayılan xüsusi düşərgələrdə-**efebiyalarda** biliklərini və fiziki hazırlıqlarını təkmilləşdirirdilər.

Gənclərin əxlaqi və siyasi tərbiyəsi dövlət başçılarının bilavasitə onlarla söhbətləri zamanı həyata keçirilirdi. Dövlət başçıları öz sələflərinin vətənin düşmənlərilə müharibədə göstərdikləri möhkəmlik, dözümlük barəsində, qəhrəmanlar haqqında danışardılar. Uşaq və gənclərə cavablarda dəqiq və müxtəsər olmaq öyrədilirdi ki, buna "lakonik nitq" deyilirdi.

Spartada qızların da hərbi-fiziki tərbiyəsinə böyük diqqət yetirilirdi. Bu ondan irəli gəlirdi ki, kişilər müharibədə olduğu zaman qulların üsyanı baş verdikdə qadınlar daxili asayişi qorumalı və qulları silah gücünə itaətdə saxlamalı idilər.

Afina tərbiyə sistemi. Afina tərbiyə sistemi spartadan fərqlənirdi. Afinanın iqtisadi həyatı, Spartanınkı kimi qapalı deyildi. Afinada əkinçilik, sənətkarlıq və ticarət sür'ətlə inkişaf edirdi. Quldarlar iki təbəqəyə: ticarət və torpaq zadəganlarına ayrılmışdı. Burada qul üzərində xüsusi mülkiyyət mövcud idi.

Eramızdan əvvəlki V–IV əsrlərdə burada mədəniyyət sür'ətlə inkişaf etməkdə idi. Engelsin qeyd etdiyi kimi yunan fəlsəfəsinin inkişafı diqqəti xüsusilə cəlb edirdi. Burada həmçinin təbiətşünaslıq, riyaziyyat, incəsənət, ədəbiyyat, diqqəti cəlb edən yunan arxitekturası və me'marlığı inkişaf edirdi. Spartaya nisbətən demokratik quldarlıq qurluşuna malik olan Afinada o adam ideal hesab edilirdi ki, həm fiziki həm də mə'nəvi cəhətdən gözəl olsun: əqli, əxlaqi, estetik və fiziki tərbiyəni özündə cəmləşdirsin. Lakin bu ideal əsasən yuxarı təbəqələrə-quldarlara aid idi. Fiziki tərbiyə ancaq qulların vəzifəsi heab edilirdi. Bununla bərabər əhali arasında meydana gələn təbəqələşmə nəticəsində azad vətandaşlar yetişirdi ki, onların bir hissəsi sənətkarlıqla, hətta müəllimliklə məşğul olurdu. Afinada uşaqlar 7 yaşa qədər ailədə tərbiyə alırdılar. Bundan sonra oğlan uşaqları məktəbə gedir, qızlar isə ailədə tərbiyə almaqla ev işlərinə alışdırılırdılar.

Afinada uşaqlar 7 yaşdan 13–14 yaşa qədər qrammatika və kifara adlanan məktəblərdə tə'lim alırdılar. Bu iki məktəbdə tə'lim ya eyni zamanda davam edirdi, ya da ardıcıl olaraq əvvəlcə qrammatika, sonra kifara məktəbində aparılırdı. Bu məktəblər ayrı-ayrı adamlar tərəfindən açılırdı və təhsil pullu idi. Bu səbəbdən vəsaiti olmayan azad vətandaşların (onların sayı 90–100 min nəfər idi) uşaqlarının xeyli hissəsi təhsil almaq imkanına malik deyildirlər. Uşaqların tə'limi ilə məşğul olan müəllimə –didaskal deyilirdi («didaska»-öyrədirəm deməkdir: didaktika sözü də buradan götürülüb). Oğlanları məktəbə aparan qul pedaqoq adlanırdı (pedaqoq sözü yunanca «polis», «paidos» sözündən olub yönəldirəm, uşaq tərbiyə edirəm deməkdir). Qrammatika məktəbində oxu, yazı və hesab öyrədilirdi. Tə'limdə hərf-heca üsulundan istifadə edilirdi. Kifara – musiqi məktəbində uşaqlara ədəbi təhsil və estetik tərbiyə verilirdi. Onlar musiqi, nəğmə, deklamasiya deməyi öyrənirdilər. Oğlanlar 12–13 yaşlarında palestra adlanan məktəblərdə oxumağı davam edir, 2–3 il fiziki təmrinlərlə məşğul olurdular. Orada yeniyetmələrə beş

bacarıq: qaçmaq, hoppanmaq, güləşmək, ox atmaq, üzmək öyrədilirdi. Siyasi və əxlaqi məsələlər söhbətlər zamanı aşılanırdı. Belə ki, söhbətləri adətən məşhur adamlar aparırdı.

Gənclərin daha çox tə'min olunmuş hissəsi təhsillərini gimnaziyalarda davam etdirir, burada fəlsəfə, siyasət və ədəbiyyat öyrənməklə dövləti idarə etmək işinə hazırlaşır, idman məşğələlərinə davam edirdilər.

Nəhayət, 18–20 yaşlı uşaqlar, Spartada olduğu kimi, efebiyalarda hərbi və siyasi tərbiyə alırdılar. Onlar qalalar tikmək, hərbi maşınları idarə etmək, şəhər qarnizonlarında hərbi xidmətdə olmaq, dənizçiliyi öyrənmək, ictimai bayram təntənələrində iştirak etməyi öyrənirdilər.

Afina respublikasında quldarlıq cəmiyyəti daxilində baş verən təbəqələşmə tərbiyə işində də özünü göstərir, hərtərəfli almaq ancaq varlı quldarların uşaqlarına qismət olurdu. Əhalinin əsas hissəsini təşkil edən azad vətandaşların uşaqları isə məktəblərdə təhsil ala bilmirdilər. Ona görə də aşağı təbəqənin uşaqları əsasən fiziki işlə məşğul olur, atalarından onun sənətini öyrənirdilər. Yalnız ata savadlı olduğu halda övladına savad verə bilərdi. Bununla bela ata öz peşəsini uşağa öyrətmədikdə dövlət qanununa görə gələcəkdə övladının maddi qayğısından məhrum edilirdi.

Beləliklə, «demokratik» Afinada tərbiyə siistemi dövlətlilərə xidmət ediridi.

Spartada olduğu kimi, Afinanın quldarlıq aristokratları da fiziki əməyə bir ləkə kimi baxır, onu qulların payı hesab edirdilər. Qullar «danışan alət» adlandırılırdı. Afina ilə Sparta tərbiyə sisteminin arasındakı bir fərq də odur ki, Spartada tərbiyə müəssisələri dövlətin əlində olduğu halda, Afinada xüsusi adamların ixtiyarında idi.

Sparta tərbiyəsi hərbi-fiziki xarakter daşıyırdı. Afina tərbiyəsi isə gimnastika və musiqi xarakterində idi ki, burada əqli və estetik tərbiyəyə üstünlük verilirdi.

Qədim Yunanıstanda pedaqoji nəzəriyyələrin yaranması

Qədim Yunan filosoflarından olan Sokrat, Platon, Aristotel və Demokritin əsərlərində və kütləvi çıxışlarında tə'lim və tərbiyə haqqında dəyərli fikirlər vardır. Onlardan bir neçəsi ilə tanış olaq.

Sokrat (b.e.ə. 469–399) idealist filosofdur. Özünün demokratik mənşəyinə baxmayaraq, o konservatik torpaq aristokratiyasının ideoloqu olmuşdur. Sokrat söhbətlərə əsasən həqiqətin üzə çıxarılması kimi anlaşılan fəlsəfi dialektikanın (verilmiş müəyyən suallara sistemli cavab tapılırdı) banilərindən biri olmuşdur. K.Marks Sokratı «fəlsəfənin təcəssümü» adlandırmışdır. Sokrat qədim naturfəlsəfəni qane hesab etməyərək, insan şüuru və təfəkküründün təhlilinə diqqət vermişdir. Sokrata görə aləmin quruluşu, şeylərin fiziki təbiəti dərk edilməzdir; biz yalnız özümüzü dərk edə bilərik. Biliyin ən mühüm vəzifəsi nəzəri deyil, praktikidir, yə'ni yaşamaq bacarığıdır. Sokratın fikrincə bilik ümumi olan haqqında fikir, anlayışdır. Anlayış tə'rif vasitəsilə aydınlaşdırılır, intuisiya yolu ilə isə ümumiləşdirilir. Sokrat tə'rif və ümumiləşdirmə nümunələri yaratmışdır. Etikada Sokrat rasionalist mövqe tutmuşdur. Sokrata görə yaramaz hərəkətlər yalnız bilməməzlikdən törəyir və heç kəs bilərəkdən qəddar olmur: ləyaqət bilik, yaxud müdriklikdir.

Sokratın fikrincə, tərbiyənin məqsədi şeylərin təbiətini öyrənmək deyil, özünün özünü dərk etməsidir. Sokrat həm də böyük tribun idi. O, sofistlərlə mübarizə və gəncləri tərbiyələndirmək məqsədilə küçə və meydanlarda moizə eləyirdi. Sokrat həqiqəti tapmaq üçün sual-cavab metodundan istifadə edirdi. Tarixdə bu üsula Sokrat üsulu deyilir.

Gələcək dövrlər üçün Sokrat müdriklik idealının təcəssümünə çevrildi.

Platon (b.e.ə. 427–347) fəlsəfədə idealist mövqedə durmuşdur. Sokratın tələbəsi olmuşdur. Obyektiv idealizm nəzəriyyəsini yaratmışdır. Platona görə ideyalar ilkindir, materiya isə törəmədir, qeyri-mühümdür.

Platon Afina aristokratiyasının nümayəndəsi olduğundan aristokratiya hökmranlığının daimi olması haqqında nəzəriyyə irəli sürmüşdür. O, elə ideal aristokratik dövlət quruluşu təsvir etmişdir

ki, burada üç ictimai qrup mövcuddur: 1) filosoflar, 2) hərbçilər, 3) sənətkarlar və əkinçilər.

Filosoflar idarə edir, hərbçilər dövləti müdafiə edir, sənətkar və əkinçilər isə işləyir, birinci ilə ikinciləri yedizdirirlər. Onun təsvir etdiyi dövlət quruluşunda qullar da vardır. Qullar da sənətkar və əkinçilər kimi hüquqsuzdurlar. Platonun fikrincə «ideal dövləti» tərbiyə yolu ilə qurmaq mümkündür. Özünün pedaqoji sistemində Platon Afina və Sparta tərbiyəsindəki müvafiq cəhətləri götürərək birləşdirir. Platonun fikrincə, uşaqlar 0 yaşından 6 yaşınadək dövlət tərəfindən tə'yin olunmuş tərbiyəçinin nəzarəti altında meydançalarda oyunla məşğul olurlar. O, məktəbəqədər yaş dövründə ictimai tərbiyənin tərəfdarı olmuşdur. 7–12 yaşlı uşaqlar dövlət məktəblərində təhsil alır, oxu, yazı, hesab, nəğmə və musiqi öyrənirlər. 12–16 yaşlı uşaqlar palestra məktəbinə gedir və fiziki tərbiyə alırlar. Sonralar, 18 yaşa qədər olan gənclər hesab, həndəsə və astronomiyanı öyrənirlər (hərbi hazırlıq məqsədilə). 18–20 yaşlılar efebiyaya davam edir, hərbi-gimnastik hazırlıq keçirlər. 20 yaşdan başlayaraq əqli təhsilə meyli olmayan gənclər hərbçilərə çevrilir. Mücərrəd, zehni fəaliyyətə həvəsi olan gənclərin az bir hissəsi təhsilin üçüncü dərəcəsinə qədəm qoyur və 30 yaşa qədər təhsili davam etdirir. Burada fəlsəfə, hesab, həndəsə, astronomiya, musiqi nəzəriyyəsi öyrədilir. Onlar dövlət vəzifəsinə hazırlanırlar. Müstəsna iste'dada malik olanların çox az hissəsi təhsillərini daha beş il davam etdirir və böyük dövlət vəzifəsini tutmağa hazırlanır.

Qadın təhsilinə gəldikdə isə Platon Spartada olduğu kimi fiziki tərbiyəyə üstünlük verir. Platonun fikirlərində fiziki əmək çirkin hesab edilir. Bu səbəbdən də o, əməyi-zəhməti qullara məxsus bir keyfiyyət hesab edir. Qul uşaqlarının təhsil almasına icazə verilmir.

Platonun pedaqoji sisteminin aristokratik xarakterinə baxmayaraq o, **məktəbəqədər tərbiyə haqqında, tərbiyənin ardıcıl dövlət sistemi haqqında** vacib, fikirlər söyləmiş, müsbət nümunələr vasitəsilə tərbiyə haqqında tələblər irəli sürmüşdür.

Platonun fikirləri utopik sosialistlərə tə'sir etmişdir. Müsəlman Şərqində Platon Əflatun kimi tanınmışdır.

Aristotel (b.e.ə. 384–322) Platonun şagirdi, makedoniyalı İsgəndərin tərbiyəçisi olmuşdur.

K. Marks Aristoteli «Qədim dünyanın çox böyük mütəfəkkiri», onun tə'limini isə qədim yunan fəlsəfəsinin zirvəsi hesab etmişdir[1]. F. Engeles Aristoteli qədim yunan filosofları içərisində «ən universal zəka» adlandırmışdı[2]. Geniş və çoxcəhətli yaradıcılığa malik olan Aristotel məntiq, psixologiya, təbiətşünaslıq, etika, siyasət, tarix, poeziya və ritorikaya aid əsərlər yazmışdır.

Materializm ilə idealizm arasında tərəddüd edən Aristotel fəlsəfəsində Platonun «ideyalar» tə'liminin tənqidi mühüm yer tutur. Aristotel göstərirdi ki, əbədi və dəyişməz hesab edilən «ideyalar» real aləmdən, onun cisimlərindən əvvəl və öz-özünə mövcud ola bilməz. Öz-özünə və obyektiv şəkildə mövcud olan təbiətdir, ideyalar isə onun əsasında yaranır.

Aristotelə görə bütün reallıq ardıcıl şəkildə «materiyadan» «formaya» və «formadan» «materiyaya» keçiddən, hər bir cism isə materiya ilə formanın vəhdətindən ibarətdir. Burada Aristotel fəlsəfəsinin dialektik xarakteri özünü göstərir. Materiya forma ilə birləşdikdə gerçəkliyə çevrilir, forma materiyanın müəyyənliyidir. Aristotel təbiəti onun cism və hadisələrini hərəkət və inkişafda götürmüşdür.

Aristotel quldarlıq dövlətinin ideoloqu idi. Xüsusi mülkiyyəti, ictimai bərabərsizliyi müdafiə edirdi. Yaşadığı cəmiyyətin hakim və məhkum siniflərə bölünməsini «təbii» hal sayırdı.

Aristotelə görə həyatın maddəsi vücud, forması isə ruhdur. O, insanda bədən ilə ruhu bir-birindən fərqləndirmiş, lakin bunları vəhdətdə olan maddə və forma kimi götürmüşdür. Canlıların üç qrupuna (bitki, heyvan və insan) müvafiq olaraq, Aristotel üç ruhun və ya onun üç qisminin olduğunu göstərir: bitki ruhu, heyvan ruhu (duyan) və zəkalı ruh. Ruhun bu üç növünə müvafiq olaraq o, tərbiyənin üç cəhətini göstərir: fiziki, əxlaqi və əqli. İnsanda əql ən yüksəkdə durur.

Aristotelin fikrincə, tərbiyənin məqsədi ruhu ali dərəcədə inkişaf etdirmək, əqilli və iradəli adamlar yetişdirməkdir. Hər bir

[1] K.Marks. Kapital, 1-ci cild, Bakı 1969, s. 409.
[2] F.Engels. Anti-Druinq. Bakı, 1967, s. 15.

canlının inkişaf etmək imkanı olduğu kimi, insan da təbiət e'tibarilə inkişafa möhtacdır. Təbiət ruhun üç növünü bir-birilə möhkəm əlaqələndirdiyi kimi, insanlar da təbiətin ardınca gedərək fiziki, əxlaqi və əqli tərbiyəni bir-birilə sıx əlaqələndirməlidir.

Aristotel dövlətin möhkəmlənməsi üçün tərbiyəni bir vasitə hesab etmiş və bu işlə dövlətin məşğul olmasını, ona qayğı göstərməsini zəruri saymışdır. Onun fikrincə ailə tərbiyəsi ilə ictimai tərbiyə bir-birilə əlaqədar olmalıdır. O, qullar müstəsna olmaqla, bütün vətandaşların bərabər tərbiyə olunmasını lazım bilmişdir. Aristotel insanlığın tarixi təcrübəsini ümumiləşdirərək, pedaqogika tarixində ilk dəfə uşaqların yaş dövrlərini müəyyən etmişdir. O, böyüyən insanın həyatını üç dövrə bölmüşdür: 1) 7 yaşa qədər, 2) 7–14 yaş, 3) 14–21 yaş. Onun fikrincə bu dövrlər insanın təbiətinə müvafiqdir.

Aristotel bu dövrlərdə tərbiyənin vəzifələrini də müəyyən etmişdir. 7 yaşa qədər uşaq evdə tərbiyə alır. O, bu dövrü bitki dövrü adlandırır və bitkiyə qulluq etmək lazım gəldiyi kimi, uşağa da qulluq etməyi zəruri sayır, 7 yaşdan sonra uşaq dövlət məktəbində davam etməlidir.

İkinci dövr, heyvani dövr hesab edilir və uşaqlarda iradi keyfiyyətləri tərbiyə etmək zəruri sayılır. Bu dövrdə fiziki tərbiyə əqli tərbiyəni qabaqlamalıdır. İbtidai təhsil müddətində uşaq gimnastikadan əlavə oxu və yazı, qrammatika, rəsm və musiqi öyrənməlidir. Gənclər məktəbdə ədəbiyyat, tarix, fəlsəfə, riyaziyyat, astronomiya, musiqiyə dair ciddi təhsil almalıdır. Bunlar əsasən oğlanlara aiddir.

Əxlaqi tərbiyədə o, təmrinlərə, adətlərə üstünlük vermişdir. Onun fikrincə insanın hər bir arzusunda üç cəhət vardır: çatışmazlıq, artıqlıq və orta həddi- mö'tədillik. O, orta həddi faydalı hesab etmişdir.

Aristotelin pedaqoji ideyalarında mütərəqqi cəhətlə yanaşı mürtəce cəhətlər də vardır. Onun nəzəriyyəsinin mütərəqqi cəhətləri antik pedaqogikanın sonrakı inkişafına böyük tə'sir göstərmişdir. Lakin orta əsrlərdə Aristotel nəzəriyyəsinin bütün müsbət cəhətləri atılmış; V.İ.Lenin dediyi kimi, din xadimləri

Aristotel nəzəriyyəsindəki canlı cəhətləri öldürüb, ölüləri əbədiləşdirmişlər[1].

Aristotel Şərq xalqlarının, o cümlədən Azərbaycan fəlsəfi və ictimai fikrinin inkişafına müsbət tə'sir göstərmişdir. XI-XIV əsrlərdə Azərbaycanda aristotelçilik daha geniş yayılmışdı. Onun «Poetika» əsəri 1974-cü ildə Azərbaycan dilinə tərcümə edilmişdir[2].

Demokrit (b. e. ə. 460-370) – Qədim yunan fəlsəfəsinin zirvəsini atomistika nəzəriyyəsinin banilərindən biri olan materialist-filosof Demokritin görüşləri təşkil edir. K. Marksın tə'birincə desək, «empirik təbiətşünas və yunanlar içərisində ilk ensiklopedik zəka» olan Demokrit bütün elm sahələri ilə, o cümlədən etika, astronomiya, fizika, riyaziyyat, tibb, musiqi nəzəriyyəsi ilə məşğul olmuşdur. Demokrit öz əsərlərində tərbiyə məsələlərinə də böyük diqqət vermiş, təbiət qanunlarına müraciət etmiş və tərbiyədə təbiətvarilik prinsipini irəli sürənlərdən biri olmuşdur. Onun fikrincə «təbiət və tərbiyə oxşardır». Demokritə görə zəka əxlaqi davranışın me'yarıdır. O, xeyir və şər probleminə utilitarizm[3] mövqeyindən yanaşmış, faydalı olanı xeyir, zərərli olanı şər adlandırmışdır.

Demokrit quldarların mənafeyinə uyğun əmək bölgüsünü ictimai həyatın, o cümlədən tərbiyənin vacib şərti hesab etmişdir. O, göstərirdi ki, «nəzəriyyə yaxşı şeyləri yalnız əmək əsasında hasil edir». Əxlaqi hərəkət və davranışda mənfi nümunələri rədd etmiş, təmrinlərə üstünlük vermişdir.

Demokrit quldarlığın tə'məlinə tənqidi münasibət oyatmış, təbiəti həqiqətdə olduğu kimi dərk etməyə, tərbiyə işini əməklə əlaqələndirməyə çağırmışdır.

V.İ.Lenin fəlsəfə tarixində materialist xətti Demokrit xətti adlandırmışdır.

---

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı. c. 29, səh.345.

[2] Bax: Aristotel. Poeziya sənəti haqqında. Bakı, Azərnəşr, 1974, tərcümə, məqalələr və şərhlər Aslan Aslanovundur.

[3] Utilitarizm – «faydanı», «mənfəəti» əxlaqın əsası hesab edən və kapitalizm cəmiyyətinin ümumi «səadət» və «ahəng» yaratmağa qadir olduğunu sübut etməyə çalışan burjua əxlaq nəzəriyyəsidir –H. Ə.

Nəticə e'tibarilə qeyd edək ki, qədim yunan filosoflarının əsərlərində tə'lim-tərbiyənin bir sıra vacib məsələləri də öz əksini tapmışdır. Onlar, təkcə nəzəri fikirlər irəli sürməklə kifayətlənməmiş, həm də xüsusi dərnəklər-«məktəblər» yaratmışlar. Bu «məktəblər» ya yarandığı yerin, ya da onu yaradan alimin adı ilə adlandırılırdı. Buna misal olaraq Afinada Platon akademiyasını, Aristotel likeyini göstərmək olar.

Qədim yunan maarif sisteminin və pedaqoji nəzəriyyəsinin Avropa və ərəb maarifinə əsaslı tə'siri olmuşdur.

Qədim Romada tərbiyə və məktəb. Eramızdan əvvəl V əsrədək tə'lim və tərbiyənin əsas mərkəzi ailə idi. Gənc nəsil əcdadların e'tiqad və adətlərinə «hörmət», «ata hakimiyyətinə» sözsüz itaət ruhunda tərbiyə olunurdular. Roma respublikasında (e.ə.510-e.ə.30-cu illər) quldarlığın inkişaf etməsi, sərvətlərin toplanması əhalinin ictimai təbəqələşməsini daha da gücləndirirdi. Bu da öz növbəsində valideynin varidatına müvafiq olaraq məktəblərin **elementar** və daha yüksək dərəcə hesab edilən **qrammatika**, sonralar isə **natiqlik** məktəblərinə bölünməsi ilə nəticələndi. Respublika dövründə təhsil xüsusi idi və dövlət bu işə qarışmırdı.

Elementar məktəblər. Eramızdan əvvəl V əsrdən e'tibarən xüsusi adamlar tərəfindən açılırdı. Təhsil pullu idi. İmtiyazlı valideynlərin uşaqları 4–5 il müddətində latın və yunan dilləri, tarix və ədəbiyyatdan bə'zi mə'lumat olmaqla ritorika öyrənirdilər. Məqsəd seçkili rəhbər vəzifə tutmaq üçün natiqlik sənətinə yiyələnmək idi.

Romanın güclü dövlətə çevrilməsi məktəb təhsilində də yeni sistemin yaranmasına səbəb oldu. Qrammatika və ritorika məktəbləri meydana gəldi. Qrammatika məktəblərində geniş humanitar təhsil verilirdi. Xüsusi **ritorika** (natiqlik) məktəbində yuxarı təbəqənin uşaqları yüksək təhsil haqqı verməklə ritorika, fəlsəfə və qanunşünaslıq, yunan dili, riyaziyyat və musiqi öyrənir, yüksək dövlət vəzifələri tutmağa hazırlanırdılar. Eramızdan əvvəl II əsrdə Yunanıstanın işğalından sonra Ramada yunan mədəniyyəti yayılır və yunan dili zadəgan dili olur.

Roma imperiyasının təşkili ilə əlaqədar (eramızın əvvəllərində) dövlət maarif işini öz nəzarəti altına aldı. Mövcud

qrammatika və ritorika məktəbləri **dövlət məktəblərinə** çevrildi. Məqsəd ölkə üçün mə'murlar hazırlamaq idi. İmperatorlar dövlət məktəbinin müəllimlərini onların siyastini həyata keçirən itaətkar adamlara çevirməyə cəhd göstərirdilər. Bu səbəbdən də müəllimlərə maaş tə'yin edilir və müxtəlif güzəştlər verilirdi. Eramızın II əsrindən ali məktəblər yaradılmağa başlandı. Xristian dini imperiyanın hakim dini və onun istinadgahı e'lan edildikdə müəllimlik vəzifəsinə xristian ruhanilər tə'yin edilir və məktəblərdə tə'lim –tərbiyə işləri kəskin dini səciyyə daşıyır. Xristianlıq qədim yunan mədəniyyətinə, antik elmə və məktəbə düşmən münasibət bəsləyirdi.

Qədim Romada pedaqoji və metodiki müddəaların hazırlanması

Romanın ən məşhur pedaqoqlarından biri Mark Fabi Kvintilian (42–118) olmuşdur. Qədim Roma natiqlik sənəti nəzəriyyəçisi idi. Onun təkcə «Natiqlik təhsili haqqında» əsəri (12 kitab) tam mühafizə olunmuşdur. Bu əsər antik dövrün ritorika və pedaqogikasının ən qiymətli mənbələrindən sayılır. Bu əsər pedaqogika tarixində məktəb təcrübəsi ilə sıx surətdə bağlı olan ilk əsərlərdən biridir. Bu əsərdə, həm də ritorika məktəbinin müəllimi kimi onun özünün böyük təcrübəsi ümumiləşdirilmişdir.

Kvintilian belə hesab edirdi ki, azad vətəndaşlar böyük təbii qabiliyyətlərə malikdirlər. Onların içərisində küt və qabiliyyətsiz adamların olması nadir hadisədir. Uşaq məktəbdə tərbiyə edilməlidir, müəllim hər bir şagirdə ehtiyatla və diqqətlə yanaşmalıdır. Müəllim özü təhsilli, təmkinli, nümunəvi olmalı, uşaqları sevməli, onları diqqətlə öyrənməli və cəzalandırmağı bacarmalıdır. Müəllimlər tə'limin bütün mərhələlərini keçməli, yüksək tip məktəbdə çalışan hər bir müəllim əvvəlcə elementar məktəblərdə işləməlidir.

Kvintilian uşaqda nitqin inkişafına kiçik yaşlardan başlamağa böyük əhəmiyyət verirdi. Bu məqsədlə də o evə yaxşı tələffüzə malik olan dayələr də'vət etməyə, uşağın oynadığı yoldaşların tə'sirindən uzaqlaşdırmağı, uşağın oynadığı yoldaşları seçməyi, uşağı əhatə edən adamların davranışına diqqət yetirməyi tövsiyə edirdi. Kvintilianın fikrincə, uşağın dil və musiqi öyrənməsi

yaxşı tələffüzə yiyələnməsinə kömək edir, nitq qaydalarını yaxşılaşdırır, onu tə'sirli edir.

Kvintilian uşaqlarda məntiqi təfəkkürün tərbiyəsi, fikrin ardıcıl və sistemli olması üçün riyaziyyatın öyrənilməsini zəruri hesab edirdi. Əsaslı bilik verməyi, tə'lim prosesində tələsməməyi məsləhət bilirdi.

Ümumiyyətlə, Kvintilianın məsləhət və tövsiyələrində təcrübi-müəllimin səsi eşidilir, ruhu duyulur. Onun əsərləri sonralar, İntibah dövründə, bir çox pedaqoqlar tərəfindən maraqla oxunmuş və mənimsənilmişdir.

Feodalizm cəmiyyətində tərbiyə, məktəb və pedaqoji fikir

Erkən feodalizm mərhələsində tərbiyə. Feodalizm cəmiyyətində hakim təbəqələr dünyəvi feodallar və ruhanilər idilər ki, bunlar bütün torpaq sahələrinə malik olub, onların tabeliyində olan kəndliləri istismar edirdilər. Kilsə hakim təbəqənin əsas ideoloji dayağı idi. Engels göstərir ki, feodalizm mərhələsini keçmiş Qərb ölkələrində təhsil ruhanilərin inhisarında olub, əsasən dini xarakter daşıyırdı[1].

Uşaqların və yaşlıların təhsilinin məzmununa din elə hopmuşdu ki, sadə zəhmətkeş adamlarını allaha və hökmdarlara itaət etmək ruhunda tərbiyə etmək başlıca məqsədə çevrilmişdi. Din xadimləri əmək adamlarının şüuruna belə bir fikir yeridirdilər ki, kim bu dünyada əzab-əziyyət içərisindədirsə, o dünyada – «həqiqi» dünyada firavan yaşayacaqdır. Bununla da insanları tərki-dünyalığa də'vət edirdilər.

Feodalizmin ilkin mərhələsində elm və mədəniyyətin inkişafı Şərq ölkələrində xüsusilə özünü göstərirdi. Mə'lum olduğu kimi VII–VIII əsrlərdə ərəb istilaları nəticəsində iri dövlətlər yaranmışdı ki, onlar Çin, Hindistan və Avropa ölkələri ilə sıx iqtisadi əlaqə yaratmışdı. Ərəb istilaları zamanı tabe edilmiş bir sıra ölkələrdə ərəbləşdirmə siyasəti aparılırdı. Ərəblərin dili, dini, maddi və mə'nəvi mədəniyyətinin bir çox ünsürü işğal edilmiş ölkələrin xalqlarına böyük tə'sir göstərirdi. İşğal olunmuş ölkələrin xalqlarının

[1] К.Маркс и Ф.Энгельс. Сочинения, изд. второе т. 7, Москва, 1956, с.360.

mədəniyyətlərinin də öz növbəsində ərəblərə tə'siri olmuşdu. Beləliklə, özünəməxsus ərəb mədəniyyəti yaranmışdı. İslamı qəbul etmiş, lakin milli müstəqilliyini saxlamış, sonralar isə dövlət müstəqilliyinə nail olmuş xalqlar (Orta Asiya, İran, Zaqafqaziya xalqları) ərəb mədəniyyətinin inkişafında mühüm rol oynamışlar. IX–X əsrlərdə çiçəklənmə dövrünə çatan ərəb mədəniyyəti bir çox xalqın, o cümlədən orta əsrlərdə Avropa xalqlarının mədəniyyətini zənginləşdirmiş və dünya mədəniyyəti xəzinəsinə çox qiymətli əsərlər vermişdir Bu, hər şeydən əvvəl, fəlsəfə, təbabət, riyaziyyat, astronomiya, coğrafi biliklərin, kimyanın və mineralogiyanın inkişafına aiddir. Maddi mədəniyyət və incəsənət (mc'marlıq, bədii sənətkarlıq) sahəsində qiymətli abidələr yaradıldı.

VIII əsrdə ərəblərin Pireney yarımadasını işğal etməsi nəticəsində müsəlman İspaniyasında müstəqil ərəb-ispan mədəniyyəti inkişaf etməyə başladı. X–XV əsrlərdə ərəb-ispan mədəniyyəti çiçəklənmə dövrünü yaşayırdı. Qərbi Avropada bir sıra yüksək tipli müsəlman məktəbləri meydana gəldi. Kordovada təşkil edilmiş universitet tipli ali məktəb mühüm əhəmiyyət kəsb edirdi. Qərbi Avropanın bir sıra ölkələrindən tələbələr buraya oxumağa gəlirdilər. Kordova xilafəti dövründə Antik dövrün bir çox əsərlərinin, o cümlədən Aristotelin əsərlərinin Qərbi Avropaya yayılmasında Kordova xilafəti bir körpü rolunu oynayırdı. Kordova şəhərində tanınmış ərəb alimləri yaşamış, astronomiya, riyaziyyat, kimya və təbabətdə daha böyük müvəffəqiyyətlər qazanmışdılar. İbn Düşdün əsərlərində ərəb fəlsəfəsinin mütərəqqi xətti – (Əl-Fərabi, İbn Sina) inkişaf etdirilirdi. İspaniya-Mavritaniya mc'marlığı və tətbiqi sənət abidələri şöhrət qazanmışdı.

IV əsrdə Roma imperiyası Qərb və Şərq olmaqla iki yerə bölündü. Qərb hissəsi bir sıra barbar dövlətlərə parçalandı. Şərq hissəsi isə Bizans imperiyasına çevrildi. XV əsrin ortalarına qədər mövcud olan Bizans imperiyasında xristian dininin hakim mövqe tutmasına baxmayaraq, maarifdə, bədii yaradıcılıqda təsviri sənətdə antik mədəniyyətin ən'ənələri saxlanmışdı. Məktəblərdən əlavə, bə'zi şəhərlərdə kilsələr nəzdində ali məktəblər var idi. Burada köhnə müqəddəs dini kitablardan əlavə, antik dövr filosofları, şair və yazıçıların əsərləri də öyrənilirdi.

Ümumiyyətlə, XII əsrədək Bizansda maarif Avropadakına nisbətən daha yüksək səviyyədə idi. Orta təhsil proqramına orfoqrafiya, qrammatika, natiqlik sənəti, tələffüz, şe'r-qoşma prinsipləri, sənədləri tərtib etmək bacarığı, fəlsəfə və s. fənlər daxil idi. 425-ci ildə Konstantinopolda yaradılmış ali məktəb Afina, Beyrut, İskəndəriyyə və başqa şəhərlərdə antik dövrdən qalmış ali məktəbləri sıxışdırırdı. Səlib yürüşləri zamanı Şərqlə Qərbin qarşılıqlı əlaqəsi sayəsində antik dünyanın bir sıra əsərləri Qərbdə də mə'lum oldu. Bizans mədəniyyətinin Şərqi Avropaya yayılmasında slavyanalar böyük rol oynadılar. Bizans mədəniyyəti Qədim Rusiyaya da nüfuz edirdi.

XV əsrdə türklərin Bizansı işğal etməsi nəticəsində bir sıra bizans alimləri Avropaya köçdülər və burada antik filosofların əsərlərini yaydılar. Bizans fəlsəfəsi bir çox ölkədə, o cümlədən slavyan ölkələrində, Gürcüstanda və Ermənistanda fəlsəfənin inkişafına böyük tə'sir göstərmiş, İntibah dövrü fəlsəfi və pedaqoji fikrinin əsas ideya mənbələrindən olmuşdur.

Qərbi Avropada kilsə məktəbləri. Qərbi Avropa ölkələrinin həyatında katolik kilsəsi böyük rol oynamışdır. Kilsələr bütün təhsili öz əllərində saxlamışlar. Orta əsr monastırlarında ibadət üçün lazım olan kitabların üzü köçürülür, kitab köçürücülər hazırlanır, kitabxana və məktəblər təşkil edilirdi. İlk əvvəllər rəsmi şəklə düşən məktəblər təşkil edilirdi. İlk əvvəllər rəsmi şəklə düşən məktəblərdən biri monastır məktəbləri idi. Monastır məktəbləri birinci minilliyin ortalarında Hindistanda, VI–VII əsrlərdə xristianlığın yayılması ilə Bizansda və Qərbi Avropada yaranmışdır. SSRİ-nin indiki ərazisində ilk monastır məktəbləri V–VI əsrlərdə Gürcüstan və Ermənistanda meydana gəlmişdir. Qədim Rusiyada monastır məktəbləri əsasən ibtidai məktəblər idi. Müasir buddist və katolik monastırlarının bə'zilərində belə məktəblər indi də fəaliyyət göstərir.

Qərbi Avropanın bə'zi monastır məktəblərində oğlanlar gələcək rahibliyə hazırlaşırdılar. Şagirdlər monastırda yaşadıqlarından belə məktəblər daxili məktəblər adlanırdı. Xarici məktəblərdə isə aşağı kilsə təşkilatının üzvü olanların uşaqları oxuyur, ruhani və ya mə'mur olurdular.

Kilsə idarələri mərkəzlərində sobor (keşişin kafedrası nəzdində olduğundan bu məktəblərə kafedral məktəblər də deyilir) məktəbləri də tədricən inkişaf edirdi.

Üçüncü növ məktəblər kilsələr nəzdində olur və məhəllə məktəbləri adlanırdı. Burada ancaq oğlanlar oxuyurdu. Latın dilində dua, kilsə nəğmələri və yazı öyrədilirdi.

Monastır və sobor məktəbləri bir qayda olaraq xüsusi binaya malik idi. Müəyyən təhsil müddəti yox idi. Müəllimliklə ruhanilər məşğul olurdu. Məhəllə məktəblərində uşaq və gənclərlə yanaşı, hətta yaşlılar da oxuyurdu. Monastır və sobor məktəblərində sərt fiziki cəza tətbiq olunurdu.

Geniş əhali kütləsi məktəb təhsilindən kənarda idi. Ailələrdə və sənətkarlıq e'malatxanalarında peşə tə'limi sistemi yaranmışdı. Monastır və sobor məktəblərində təhsilin məzmunu get-gedə genişlənmiş, buraya qrammatika, ritorika və dialektika daxil olmuşdur. Bə'zi məktəblərdə, həm də, hesab, həndəsə, astronomiya və musiqi tədris edilirdi. Bə'zi məktəblərdə yüksək təhsil verilirdi. Beləliklə təhsilin məzmununu «yeddi sərbəst sənət» təşkil edirdi ki, bunlar üçlüyə (trivium) və dördlüyə (quadrivium) bölünürdü. Birinciyə –qrammatika, ritorika və dialektika, ikinciyə isə –hesab, həndəsə, astronomiya və musiqi daxil idi. Bunlardan əlavə bütün elmlərin tacı hesab olunan ilahiyyat da tədris olunurdu.

Dünyəvi feodalların tərbiyəsi. Torpağa və kəndlilərə hakim olan feodal uşaqlarına cəngavərlik tərbiyəsi verilirdi. Cəngavər tərbiyəsinin məzmununu hərbi-fiziki bacarıq –at çapmaq, üzmək, ox atmaq, qılınc oynatmaq, ov etmək, şahmat oynamaq və şe'r qoşub oxumağı bacarmaq təşkil edirli. Oxu, yazı öyrənmək cəngavər üçün məcburi deyildi. Bu səbəbdən də ilk orta əsrlərin ən böyük qrafları və hersoqları savadsız olurdular.

Feodal uşaqları 7 yaşa qədər ailədə tərbiyə olunurdu. 7 yaşdan sonra daha yuxarı rütbəli feodalın sarayında, onun arvadının yanında (şagird-paj sifətilə), 21 yaşında isə cəngavər yanında silahdaşıyan vəzifəsində olur və lazımi tərbiyə alırdı. 21 yaşa çatdıqda ona təntənəli şəraitdə cəngavər adı verilirdi.

Adlı-sanlı ailələrdən olan qızların təhsili, bə'zən oğlanlardan yuxarıda idi. Onların bir çoxu monastırda xüsusi tə'lim kursu keçirdilər. Bə'zi qızlar latın müəlliflərinin bədii əsərlərini bilirdilər.

Sxolistika. Orta əsr universitetlərinin meydana gəlməsi və inkişafı. Sex, gildiya və şəhər məktəbləri. XII–XIII əsrlərdə Qərbi Avropada ölkələr arasında iqtisadi əlaqələr genişlənir, qapalı feodal

həyatı zəifləyir, şəhərlər artır, sənətkarlıq və ticarət inkişaf edirdi. Dini ehkamlara qarşı şübhələr oyanırdı. Belə bir dövrdə dinə köməkçi, həm də onu elmlə, e'tiqadla, şüurla sazişə gətirməyə çalışan sxolastik fəlsəfə-dini fəlsəfə tipi meydana çıxdı. Sxolastik fəlsəfi cərəyanlar olan nominalizm və realizm yarandı. Bunların məktəb və maarif sahəsində tə'siri onunla nəticələndi ki, təhsildə ehkamçılıq artdı.

Bununla bərabər iqtisadi inkişafın dərin bilik tələb etməsi universitetlərin meydana gəlməsi ilə nəticələndi. İlk universitetlər XII əsrdə İtaliyada, Fransada, İngiltərədə, XIV əsrdə Çexiyada, bir qədər sonralar isə Polşada açılmışdır. Orta əsr universitetləri bir qayda olaraq alimlərin təşəbbüsü ilə meydana gəlmiş və özünü müstəqil idarə etmək hüququna malik olmuşdur. Ruhanilər təhsili öz monopoliyasına aldıqlarından, dərhal universitetləri də öz tə'siri altına almağa çalışmış, hətta özləri universitet tə'sis etməyə başlamışlar (məs. XII əsrdə Parijdə). Universitetlərdə başlıca rol oynayan ilahiyyat fakültəsinin yaradılması da bununla bağlı olmuşdur.

Orta əsr universitetləri hazırlıq (yaxud incəsənət), ilahiyyat, tibb və hüquq fakültələrinə malik idi. Təhsil müddəti 6–7 il olan hazırlıq fakültəsini bitirənlər «incəsənət magistri» dərəcəsi alırdılar. Təhsil müddəti 5–6 il olan digər fakültələri bitirənlərə elmlər doktoru dərəcəsi verilirdi.

Universitetlərdə əsas məşğələ növü mühazirə idi. Disputlara ayrıca yer verilirdi.

Orta əsrlərdə sənətkarlar və tacirlər kilsə məktəbləri ilə tə'min olunmadıqlarına görə təhsil sahəsində kilsənin inhisarına qarşı çıxır və özləri üçün məktəb açırdılar. Odur ki, sənətkarlar özləri üçün sex məktəbləri, tacirlər isə gildiya məktəbləri açdılar. Burada oxu, yazı, hesab və şəriət öyrədilir, əsasən dünyəvi səciyyə daşıyan biliklər verilirdi. Bu məktəblər tədricən ibtidai məktəblərə çevrildi və şəhər bələdiyyə idarələri tərəfindən də tə'min edildi.

İntibah dövründə məktəb və pedaqoji fikir (XIV–XVI əsr). İntibah (renessans – dirçəliş) dövrü – Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyəti tarixində orta əsr mədəniyyətinin yeni dövr mədəniyyətinə keçid dövrüdür. İntibah dövrü mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi xarakter

daşımasında, humanist dünyagörüşü, antik mədəni irsə müraciəti və onun sanki «dirçəlməsi» ilə xarakterizə edilir. İntibah dövrü mədəniyyəti köhnə feodal münasibətlərinin dağıldığı, Avropanın iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkələrində erkən kapitalist münasibətləri rüşeymlərinin yarandığı və burjuaziyanın ilk ünsürlərinin formalaşdığı dövrdə meydana gəlmişdir. Engels yazır: «Bu, bəşəriyyətin o vaxta qədər gördüyü bütün çevrilişlər içərisində ən böyük mütərəqqi bir çevriliş idi, dahilərə ehtiyacı olan, təfəkkür ehtiras və xarakter cəhətdən, kamillik və alimlik cəhətdən dahilər yetirən bir dövr idi»[1].

İntibah dövründə riyaziyyat, astronomiya, mexanika, coğrafiya, təbiyyatşünaslıq geniş inkişaf edirdi. Bu dövr elm və bilik sahəsində yeni kəşflər və ixtiralar dövrüdür. Avropada kitab nəşri, Amerikanın kəşfi, Hindistana dəniz yolunun açılması bu dövrə təsadüf edir.

İntibah dövründə elmi fikrin tə'siri ilə kilsənin mə'nəvi hökmranlığı sarsıldı. Yeni dövrün mühüm pedaqoji ideyaları irəli sürüldü. İnsanın əqli və fiziki inkişafına imkan yaradan, ona yüksək mə'nəvi keyfiyyətlər aşılayan tərbiyə üsulları orta əsrlərin sxolastik təhsil sisteminə qarşı qoyuldu. Humanistlər latın və yunan müəlliflərinin ən yaxşı əsərləri ilə, ümumiyyətlə bütün mə'xəzlərlə şagirdlərin orijinaldan tanış olmasını məktəbin əsas vəzifələrindən sayır, məktəbdə latın və yunan dili, tarix və antik ədəbiyyatla yanaşı, riyaziyyat, astronomiya, təbiyyat və s. elmlərin də mütləq öyrədilməsini lazım bilir, şagirdlərin insan fəaliyyətinin müxtəlif sahələri ilə tanış olmasını müdafiə edirdilər. Humanistlər uşaqların fiziki inkişafına, estetik tərbiyəsinə böyük diqqət yetirir, tə'lim və tərbiyədə uşaqların yaş xüsusiyyətlərini nəzərə almağın zəruriliyini göstərir, məktəblərdə fiziki cəzaya qarşı çıxırdılar. Qadın təhsilinə də xüsusi diqqət verilirdi.

Bütün bunların nəticəsi olaraq, məktəb təhsilində də bir sıra yeniliklər özünü göstərdi. Sənətkar və tacir uşaqlarının oxuduğu Şəhər məktəbləri inkişaf edir, qızlar üçün xüsusi məktəblər açılırdı. XVI əsrdə ibtidai məktəblərlə yanaşı yüksək tipli məktəblər və orta məktəblər də meydana gəldi.

[1] F.Engels. Təbiətin dialektikası, Bakı, 1966, s.5.

İntibah dövründə müxtəlif ölkələrdə meydana gələn pedaqoji fikir hər bir ölkənin spesifik xüsusiyyətləri ilə bağlı olub onun inkişafını əks etdirmişdir.

İntibah dövrü pedaqoji fikrinin görkəmli nümayəndələrindən biri olan Vittorino da Feltre (1378–1446) humanist pedaqoji ideyaları əsasında 1423-cü ildə zədagan uşaqları üçün açdığı «Şadlıq evi» məktəbində cismani cəza ləğv edilmiş, şagirdlərin bədən tərbiyəsinə ayrıca diqqət verilirdi. Orta əsr məktəblərindən fərqli olaraq, burada qədim dillər, Roma və yunan ədəbiyyatı, riyaziyyat tədris edilir, əyani vəsaitdən istifadə olunurdu. Müasirləri onu «ilk yeni tipli məktəb müəllimi» adlandırırdılar.

İntibah dövrü pedaqoji fikrinin ən tanınmış nümayəndələrindən biri fransız yazıçısı humanist Fransua Rabledir (1494–1553) fransız Renessansının ensiklopedik abidəsi olan frantastik «Qarqantua və Pantaqruel» adlı beş hissədən ibarət məşhur romanından o, xalq yumoru ilə feodal quruluşunu, tərkidünyalıq, riyakarlıq və cəhaləti, mə'nəvi əsarəti satira atəşinə tutmuş, humanist ideyaları tərənnüm etmişdir. Orta əsrlərin sxolastik tə'lim-tərbiyə sistemini kəskin tənqid edən Rable insanın fiziki, zehni və mə'nəvi cəhətdən ahəngdar inkişaf prinsipini təsdiq etmiş, əmək tərbiyəsini xüsusilə yüksək qiymətləndirmişdir.

İntibah dövrü pedaqoji fikrinin ən görkəmli nümayəndələrindən biri olan ingilis mütəfəkkiri və utopik sosializmin banisi Tomas Mor (1478–1535) nəzəri biliyi əməklə əlaqələndirmək ideyasını irəli sürmüşdür. O, «Ən gözəl dövlət quruluşu haqqında qızıl kitab və ya yeni Utopiya adası» adlı əsərində sosial və siyasi bərabərsizliyi, istismarı ifşa etmiş, xüsusi mülkiyyətin, zehni və fiziki əmək arasındakı ziddiyyətin ləğvi ideyasını ilk dəfə irəli sürmüşdür. O, həmçinin ilk dəfə olaraq erkən utopik sosializmin pedaqoji ideyalarını e'lan etmişdir. T.Mor tərbiyəyə böyük əhəmiyyət verirdi. O, təsvir etdiyi «Utopiya» adasında bütün uşaqlara – oğlanlara da, qızlara da, – ictimai tərbiyə və ibtidai tə'lim verilir, tə'lim ana dilində aparılır. Oxu və yazıdan əlavə, məktəblərdə hesab, həndəsə, astronomiya, musiqi, dialektika, təbiətşünaslıq öyrədilir, əyani vəsaitlərdən geniş istifadə edilirdi.

T.Mor fiziki tərbiyəyə ayrıca əhmiyyət verir, fiziki tərbiyədə Afina sisteminə üstünlük verirdi. O əmək tərbiyəsini ilk dəfə irəli

sürən mütəfəkkirlərdən biridir. Onun təsvir etdiyi utopik cəmiyyətin bütün üzvləri əkinçiliyi və əlavə olaraq başqa bir sənəti də öyrənməli idilər. Fiziki əmək hamı üçün məcburi idi.

Utopik cəmiyyətin üzvləri boş vaxtlarını kitabxanalarda, muzeylərdə keçirir, özünütəhsilə həvəs göstərirdilər.

T.Morun ideyalarının pedaqoji fikrin sonrakı inkişafında mühüm əhəmiyyəti olmuşdur. O, ümumtəhsil prinsipini e'lan etmiş, kişilər və qadınlar üçün eyni təhsil tələb etmiş, geniş miqyaslı özünütəhsilin inkişafı, yaşlıların maariflənməsi haqda fikir irəli sürmüş, təhsilin ana dilində aparılmasını tələb etmiş, təbiətşünaslıq mərkəzi yeri tutmaqla geniş tədris fənləri nəzərdə tutmuşdur.

Beləliklə, feodalizm cəmiyyəti içərisində yaranan və inkişaf edən kapitalizm istehsal üsulu yeni ideyaların, o cümlədən pedaqoji fikirlərin və məktəb sisteminin meydana gəlməsinə səbəb oldu.

MÜSTƏMLƏKƏÇİ KAPİTALİZMƏ QƏDƏRKİ DÖVRDƏ MƏKTƏB VƏ PEDAQOGİKA

Yan Amos Komenskinin pedaqoji ideyaları

Pedaqoji elmlərin əsasları əvvəlki dövrlərə təsadüf etsə də, onun müstəqil bir elm sahəsi kimi formalaşması XVII əsrdə Avropada baş verən ictimai-iqtisadi dəyişikliklər, kapitalist münasibətləri ünsürlərinin yaranması, feodal istehsal üsulunun dağılması, burjuaziyanın siyasi və iqtisadi mövqeyinin tədricən möhkəmlənməsi maarif və məktəb sahəsində də yeniliklərin meydana gəlməsinə zəmin yaratdı. Alman protestantlığının banisi Martin Lüterin (1483–1546) adı ilə bağlı olan dini-reformist hərəkat ictimai hərəkatın genişlənməsinə güclü tə'sir etdi. İnsanın hərtərəfli və ahəngdar inkişafı, dünyəvi təhsil ideyaları irəli sürüldü. Bu vaxta qədər əsasən fəlsəfənin tərkibində olan pedaqogika XVII əsrdən müstəqil bir elm sahəsinə çevrildi. Pedaqogikanın müstəqil bir elmə çevrilməsi məşhur çex pedaqoqu Y.A.Komenskinin adı ilə bağlıdır.

Yan Amos Komenski 1592-ci ildə Çexiyanın Cənubi Moraviya vilayətinin Nivnitse şəhərində dəyirmançı ailəsində anadan olmuşdur. Onun atası «Çexiya qardaşlığı» adlı bir təriqətin

üzvlərindən olmuşdur. Sənətkar və kəndlilərdən ibarət olan vətənpərvərləri özündə birləşdirən bu təriqətin demokratik meylləri: çexiya xalqının azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizə Y.A.Komenskinin dünyagörüşünün və pedaqoji ideyalarının formalaşmasına böyük tə'sir göstərmişdir. Komenski sonralar özü bu «qardaşlıq» icmasının rəhbərlərindən biri olmuşdur.

Komenski həmin icmanın hesabına Herborn akademiyasında və Heydenberq universitetində ali təhsil aldıqdan sonra həmin icmanın keşişi seçilmiş və «qardaşlıq» məktəbinə rəhbərlik etmişdir.

XVII əsrin əvvəllərində Avropada başlamış otuzillik müharibə (1618–1648) zamanı katolik kilsəsinin tə'qibinə mə'ruz qalan çexiya protestantları öz vətənlərini tərk edirlər. Bir müddət Moraviyada əzablı həyat keçirən Komenski «qardaşlıq» cəmiyyətinin bir sıra üzvləri ilə birlikdə Polşaya mühacirət edir, Leşno şəhərində «qardaşlıq» məktəbinə rəhbərlik edir, az sonra baş keşiş seçilir.

Komenski fəlsəfə, fizika, astronomiya, dilçilik və pedaqogikaya dair bir sıra məşhur əsərlər yazmışdır. Onun «Böyük didaktika» (1632), «Ana məktəbi» (1632), «Davranış qaydaları», «Yaxşı təşkil olunmuş məktəbin qanunları» (hər ikisi 1653-cü il), «Pansofiya məktəbi» (1651) adlı əsərləri ilə yanaşı «Dillərə açıq qapı» (1631), «Astronomiya» (1632), «Fizika» (1633), «Duyulan əşyalar aləmi şəkillərdə» (1668) və s. adlı dərslikləri ona böyük şöhrət qazandırmışdır. Ümumiyyətlə Komenski 92 əsərin müəllifidir. Mütəxəssislərin fikrincə, o, təkcə «Dillərə açıq qapı» adlı əsəri ilə bütün dünyada özünə ölməz bir şöhrət qazandırmışdır. Bu kitab hələ o zamanlar Avropanın və Şərq xalqlarının bir neçəsinin dillərinə tərcümə edilmişdir, uzun müddət məktəblərdə dərs kitabı olmuşdur. Onun «Duyulan əşyalar aləmi şəkillərdə» adlı əsəri şəkilləri mətn ilə üzvi surətdə əlaqələndirən ilk dərslikdir. O, məşhur «Böyük didaktika» adlı əsəri ilə tə'lim prosesi haqqında elmin əsasını qoymuşdur. Bu kitab da bir çox dillərə tərcümə edilmiş və onun müəllifini bütün dünyada şöhrətləndirmişdir. Komenskinin «Ana məktəbi» məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə dair rəhbərlik olub, dünyada ilk dəfə bu sahədə yazılan xüsusi əsərdir.

Komenski öz vətəninin əzab-əziyyətlərinə qulluq etməyi bütün insanlığa xidmət etməklə birləşdirməyə cəhd göstərmişdir.

O, müxtəlif sosial dəyişikliklər ideyası ilə çıxış edirdi. O, qanlı müharibələr, amansız siyasi və dini divan tutmalar dövründə ümumi sülhü saxlamağı, siyasət, elm və təhsil sahəsində beynəlxalq əməkdaşlıq yaratmağı tələb edirdi. O, insanı münasibətləri və ictimai həyatı yaxşılaşdırmaq məqsədilə dünyanın bütün ölkələrilə əlaqə saxlayan bir universal mərkəz yaratmağa cəhd göstərirdi. Komenski «İnsani işləri yaxşılaşdırmaq haqqında ümumi məsləhət» adlı 7 cilddən ibarət böyük əsər yazmışdır. Onun sağlığında həmin əsərin yalnız iki cildi çap edilmişdir, qalanları 1935-ci ildə tapılmış və sonralar Çexoslavakiya Sosialist Respublikasında nəşr edilmişdir. Bu əsərdə humanist və demokratik proqramla çıxış etmişdir.

Komenski geniş beynəlxalq əlaqə saxlamış, məktəbləri yenilən qurmaq üçün İngiltərə, İsveç, Norveç və Macarıstana də'vət olunmuşdur.

1656-cı ildə İsveçlə Polşa arasında başlanmış müharibə nəticəsində «çexiya qardaşlığı» icmasının son sığınacağı olan –Leşno şəhərinin yandırılması nəticəsində Komenski Hollandiyada özünə sığınacaq tapmış və 1670-ci ildə Amsterdam şəhərində vəfat etmişdir.

Komenskinin dünyagörüşü. O dövrün xalq hərəkatı, xüsusilə də «çexiya qardaşlığı»nın azadlıq uğrunda mübarizəsi Komenskinin dünyagörüşünün formalaşmasına qüvvətli tə'sir göstərmişdir. Onun əsərlərində dövrünün yeni ideyaları, o cümlədən demokratizm, zəhmətkeşlərə dərin humanizm, dvoryanlara və katolik kilsəsinə mənfi münasibət dərindən əks etdirilmişdir. Onun dünyagörüşündəki demokratizm mənsub olduğu təbəqədən, varından və cinsindən asılı orlmayaraq bütün uşaqlar üçün ana dilində ümumi icbari təhsil tələbi ilə bağlı idi.

Komenskinin dünyagörüşünün bə'zi cəhətləri, o cümlədən humanizm , şadlıq və nikbinlik intihab dövrü mədəniyyətinin tə'siri altında təşəkkül etmişdir.

Bununla belə intibah dövrünün pedaqoqlarından-humanistlərdən fərqli olaraq Komenski seçmə adamlar üçün deyil, cəmiyyətin aristokratik yuxarı təbəqələri üçün deyil, əhalinin demokratik təbəqələri üçün, xalq kütlələri üçün tərbiyə sistemi yaratmışdır. Fəlsəfi baxışlarına görə Komenski materialist

sensualizmə yaxın olsa da, tərbiyənin məqsədini müəyyənləşdirməkdə dini ideologiyanın tə'siri altında olmuşdur. O, bir tərəfdən bu dünyadakı həyatı «əbədi həyata» yalnız hazırlıq hesab edir, digər tərəfdən isə əşyaları, ətraf mühiti, real, varlığı, həyat üçün faydalı olan həqiqi biliyi öyrənməyi tələb edirdi. Onun başlıca didaktik ideyaları sensualist xarakter daşıyır. Real aləmi hissi idrakla dərk etməyin mümkünlüyü onun dünyagörüşünün əsaslarını təşkil edir. O, göstərirdi ki, «ölü kitablar əvəzinə təbiətin canlı kitablarını açmalıyıq». Komenskinin fikirləri ingilis filosofu F.Bekonun (1561–1626) sensualizm nəzəriyyəsi ilə səsləndirdi. Bekon elmin başlıca vəzifəsini maddi dünyanın dərk edilməsində görürdü. K.Marks Bekonu ingilis materializminin və bütün müasir eksperimental elmin əsl banisi adlandırmışdır[1]. Komenski Bekonun əsərlərinə, onun induktiv metoduna böyük qiymət verirdi.

F.Bekonun empirik fəlsəfəsinə istinad edən Komenski biliklərin mənbəyini xarici aləmdə görmüş, orta əsr məktəblərində hökm sürən doğmatik və sxolastik tə'limin əleyhinə çıxmışdır. Lakin, Komenskinin məzmunca materialist səciyyə daşıyan sensualizminə dini forma geyindirilmişdir. Bu da onun nəzəriyyəsinin və dünyagörüşünün ziddiyyətli olduğunu göstərir.

Beləliklə, o, idrak nəzəriyyəsində sensualist mövqedə durmuş, ictimai və pedaqoji görüşlərində dövrünün ən mütərəqqi, insanpərvər və demokratik fikirlərinin ifadəçisi olmuşdur. Onun baxışlarında insana, onun qüdrətinə, gözəl meyl və arzularına böyük inam var idi. O, deyirdi: «Hamı insan olmaq kimi əsas bir məqsəd üçün doğulmuşdur». «İnsanın həqiqi insan olması üçün o, təhsil almalıdır»… «Xalq kütləsinin üzünə hikmətlərin geniş darvazası açıq olmalıdır». Başqa sözlə desək, Komenski ümumi ibtidai tə'lim ideyasını irəli sürmüşdür. Komenskiyə görə insan yalnız tərbiyə sayəsində insan olur. Tərbiyə isə daha əlverişli yaş dövründə – uşaqlıqda verilməlidir. O, uşaqları qruplara bölərkən iste'dadsız və tənbəllərə çox az təsadüf etdiyini və onları da tə'lim-tərbiyənin gücü ilə düzəltməyin mümkün olduğunu qeyd edirdi. Tərbiyənin böyük gücünə inam, Komenskinin pedaqogika elminə gətirdiyi yeni fikir idi.

[1] Bax: K.Marks və F.Engels. Əsərləri, 2-ci cild, s.142 (rusca).

Tərbiyənin məqsədi. Komenskinin fikrincə insan nəslini düzəltmək üçün cəmiyyətdə yalnız rütbəli təbəqənin uşaqlarını deyil, bütün xalqı əhatə edən təhsil və tərbiyənin inkişaf etmiş geniş sistemi lazımdır. O, deyirdi ki, biz hər şeydən əvvəl məktəbləri qaydaya salmalı və onların çiçəklənməsinə imkan verməliyik. Çalışmalıyıq ki, onlar insanların həqiqi və canlı e'malatxanaları olsunlar.

Komenski həm «mülkü hakimləri», həm də «kilsə rəhbərlərini», həm «məktəb hakimlərini», həm də valideynləri, o cümlədən uşaqların qəyyumlarını yeni nəslin qayğısı üçün qarşılıqlı köməyə və bütün qüvvələrini bu nəcib məqsəd ətrafında mərkəzləşdirməyə hərarətlə çağırır və onlardan xahiş edir ki, bu yolda hər bir adamın üzərinə düşən və qabaqlarda sezilməz olan şüanı yeni əsrdən gizlətməsin, həm də bu şüada ən kiçik nöqsanlı parıltını belə düzəltsin: çox göz təkdən daha çox görər. O, gəncliyi dünyanın ən dəyərli xəzinəsi hesab edir və ona arxalanmağa çağırırdı. O, tərbiyənin durğun xarakter daşıdığını qeyd edirdi.

Komenski yazırdı: «Lazım gəlir ki, mövcud olan və ətrafda cərəyan edən ən mühüm şeylərin əsaslarını, xassələrini və məqsədlərini hamı anlamağa öyrənsin: çünki insanlar dünyaya yalnız müşahidəçi olmaq üçün deyil, həm də fəaliyyət göstərmək üçün göndərilir». (SPƏ, B.1961, s.23). O, yazırdı ki, təbiətdə «başqalarına ağalıq edən varlıq olan» insan, hər yerdə, bütün varlıqlar arasında özünü hakim kimi aparmalı, yə'ni ləyaqətli və müqəddəs olmalı, təbiətdən ona bəxş olunmuş ləyaqəti gözləməli, hər bir şeydən harada, nə zaman, necə və nə dərəcədə düşüncəli surətdə istifadə olunmasını yaxşı bilməlidir. Başqa sözlə desək, insan özünün və başqalarının daxili və xarici hərəkətlərini, iş və rəftarını düşüncəli surətdə idarə etməyi bacarmalıdır.

Komenski insanın həm özünə və öz tələbatlarına, həm də qohumlarına olan münasibətində düşüncəli davranmaq yolunu göstərmişdir.

Komenskinin əsərlərində insan ömründən səmərəli istifadə etməyə aid də maraqlı fikirlər vardır. Mə'lumdur ki, Aristotel və Hippokrat insan ömrünün qısalığından gileylənmiş və bu işdə təbiəti təqsirləndirmişlər. Onlar şikayətlənirdilər ki, təbiət marallara, qarğalara və digər qeyri-şüurlu heyvanlara daha uzun həyat verdiyi halda, bu qədər yüksək məqsədlər üçün yaranmış insanın həyatını

çox dar, çox qısa sərhədlərdə məhdudlaşdırmışdır. Komenski bu fikirlə razılaşmır. O, Romanın məşhur filosofu və əxlaq nəzəriyyəçisi, imperator Ne'ronun tərbiyəçisi L.Senekanın (2–65-ci illər) belə bir müdrik cavabına haqq qazandırır ki, «qısa həyatı bizə vermirlər, biz özümüz onu belə edirik: bizim həyatımız kasıb deyildir, amma biz onu istismar edirik. Həyatdan bacarıqla istifadə olunsa, o çox uzundur». Həmçinin «bütün həyatdan yaxşı istifadə etsək, böyük işlər görmək üçün həyat tamamilə uzun və yararlıdır». (SPƏ, B.1961, s.115).

Komenskinin fikrincə yalnız varlıların, adlı-sanlı şəxslərin uşaqları deyil, əksinə hamı, adsız-sansızlar, varlılar və yoxsullar, oğlanlar və qızlar bütün şəhərlərdə, qəsəbələrdə və kəndlərdə bərabər olaraq məktəbə cəlb edilməlidirlər. Dünyaya gələn bütün insanlar yalnız bir əsas məqsədlə yaranmışlar: insan olmaq, gələcək həyata ləyaqətlə hazırlaşmaq.

Tərbiyənin təbiətə müvafiqlik anlayışı

Komenskinin bütün pedaqoji əsərlərində, xüsusilə də onun şah əsəri olan «Böyük didaktika» da belə bir fikir hakimdir ki, düzgün tərbiyə hər cəhətdən təbiətə müvafiq olmalıdır. Bu səbəbdən də çox zaman Komenskinin pedoqogikasını təbiətəmüvafiqlik pedaqogika adlandırırlar. Həqiqətən də, Komenskinin pedaqoji ideyaları təbiətəmüvafiqlik prinsipi üzərində qurulmuşdur.

Komenskidən başlayaraq XVIII və XIX əsrin bir sıra görkəmli pedaqoji nəzəriyyəçiləri, o cümlədən Russo, Pestalotsi, Disterveq və başqalarının fikirlərində dəfələrələ təbiətəmüvafiqlik prinsipinə rast gəlirik, həm də onlar bu prinsipi bə'zən müxtəlif şəkildə başa düşmüşlər.

Komenski bütün yaradıcılığı boyu tərbiyənin yeni təbii qanunlarını axtarmış və bu qənaətə gəlmişdir ki, bu qanunlar tə'lim prosesinin öz təbiətindən nəş'ət etməli və düzgün tərbiyə təbiətəmüvafiq olmalıdır. Komenski təbiəti bizim müəllimimiz hesab edir və Siseronun belə bir fikrinə tərəfdar idi ki, «Əgər bir rəhbər kimi biz təbiətin arxasınca getsək, heç bir zaman azmırıq.»

Komenski belə hesab edirdi ki, insan təbiətin bir hissəsidir. Ona görə də onun ümumi qanunlarına tabe olmalıdır. «Təbiət hər yerdə bizə nümunə göstərir».

Doğrudan da, təbiətin öz qanunları, öz nizamı var və bu nizam üstündə qurulub cahan. Ümmanlar hərdən qabarıb coşsa da, öz sahilindən çıxa bilmir, quşlar üzü küləyə uçur, yarasa hər yerdə qaranlıq gəzir, kəpənək çiçəkdən –çiçəyə qonur, ilanlar həmişə daş altında yatır, qartallar zirvədə qərar tutur, çinarlar üzü günəşə boylanır, barlı ağaclar torpağa tərəf əyilir, kiçik çaylar böyüyə qovuşur və dənizə can atır, gecədən sonra gündüz gəlir, bahar fəslini yay, payız fəslini qış əvəz edir. Dəryada balıqlar öz həmcinsləri ilə üzür, səmada quşlar öz növləri ilə uçur, meşədə ağaclar, səhrada otlar həmçinin öz növləri ilə bir yerdə bitir və s. və i. a. Təbiətdə hər şeyin bir başlanğıcı və bir də sonu vardır.

Komenskiyə görə məktəb də bütün qaydalarını təbiətdən götürməlidir. O, «Böyük didaktika» əsərində (VIII fəsil) bitkilərin, heyvanların həyatından gətirdiyi bir çox misallarla təbiətin ümumi qanunlarının tərbiyəyə də aid olduğunu sübut etməyə çalışmışdır. Doğrudur, tərbiyənin obyektiv qanunlarını təbiətdə axtarmaq meyli elmi yol hesab edilə bilməz. Bununla bərabər, o öz fikirlərini əsaslandırarkən dini doğmatizmdən imtina etməsə də, təbiətə istinad etməsi mütərəqqi cəhət idi. Lakin insanın təbiətin ardınca getməsi fikri, son nəticədə səhvdir. Çünki insan təbiət hadisələrini dəyişdirməyə, onları özünə tabe etməyə qadirdir.

Beləliklə, Komenski ağacların, quşların, balıqların həyatından gətirdiyi çoxlu misallara istinad edərək həm tə'lim, həm də tərbiyə prosesi üçün müəyyən qaydalar irəli sürmüşdür. O, təbiət qanunları və insan təbiəti nümunəsində birgə tə'lim zəruriyyətini sübut etməyə çalışmışdır. O, fərdi tə'limin əleyhinə olaraq sinif- dərs sistemini irəli sürmüş, uşaqların təbii yaş dövrlərini, məktəb sistemini müəyyən etmiş, təbiət qanunlarına əsaslanaraq bir sıra didaktik prinsip və qaydalar təklif etmişdir.

Komenski insan təbiətinə və təcrübəsinə də müraciət edirdi. Məsələn, dülgər ağacdan müəyyən bir şey yonmadan əvvəl, balta ilə ona təxmini forma verir, dəmirçi də dəmiri döyməzdən əvvəl onu qızdırır, toxucu yunu əyirməzdən əvvəl onu təmizləyir.

Müəllim də şagirdə təhsil verməzdən əvvəl, onda təhsilə qarşı sə'y oyandırmalıdır.

Yaş dövrləri və məktəb sistemi. İnsanın təbiətindən çıxış edən Komenski yetişməkdə olan gənc nəslin həyatını hər biri 6 yaş olmaqla dörd qrupa bölmüşdür:

1) Uşaqlıq dövrü – 0–6 yaş,
2) Yeniyetməlik dövrü – 6–12 yaş,
3) Gənclik dövrü –12–18 yaş,
4) Yetkinlik dövrü – 18–24 yaş.

Bu bölgünün əsasını uşaqların yaş xüsusiyyətləri təşkil edir. Bu bölgü əsasən yaş xüsusiyyətlərinin elmi təsnifinə çox yaxındır. Bu dövrləri ən çox səciyyələndirən cəhətlər aşağıdakılardır. Birinci dövr güclü fiziki artım və hiss üzvlərinin inkişafı ilə fərqlənir. Yeniyetməlik dövrü – hafizə və təxəyyülün, onların icraedici orqanları olan – dil və əqlin inkişafı ilə; gənclik dövrü-göstərilən keyfiyyətlərlə yanaşı, dərk etmək, mühakimə yürütmək ilə; dördüncü dövr isə – iradənin və ahəngini saxlamaq bacarığının inkişafı ilə səciyyələnir.

Komenski hər yaş dövrünə müvafiq olaraq dörd təhsil sistemi irəli sürmüşdür:

1) 6 yaşa qədər uşaqlar üçün hər ailədə «ana məktəbi» (ananın rəhbərliyi altında məktəbəqədər tərbiyəni nəzərdə tutur).

2) 6 yaşdan 12 yaşa qədər yeniyetmələr üçün, hər kənddə, hər icmada və qəsəbədə 6 illik ana dili məktəbi;

3) 12–18 yaşlı gənclər üçün hər şəhərdə latın məktəbi və gimnaziya.

4) 18–24 yaşlı yetkinləşmiş uşaqlar üçün hər bir dövlətdə və ya iri vilayətdə akademiya – ali məktəb

Hər bir sonrakı mərhələ əvvəlkinin davamı hesab edilirdi. Beləliklə Komenski demokratik prinsipli vahid məktəb irəli sürmüşdü. Akademiyadan başqa hər mərhələ üçün o, təhsilin məzmununu da müəyyən etmişdir. Məsələn, «ana məktəb»ndə uşaqların ətraf mühit haqqında təsəvvürlərini, xarici hiss üzvlərini inkişaf etdirməyi, onları təsərrüfata alışdırmağı tələb edirdi. Məktəbəqədər tərbiyənin daha səmərəli təşkili və valideynlərə kömək üçün Komenski dünyada ilk dəfə bu məsələni hərtərəfli işləmiş və «Ana qucağı məktəbi» adlı vəsait yazmışdır. Komenskinin fikirləri sonralar məktəbəqədər tərbiyənin inkişafında böyük rol oyanmışdır.

Altı il təhsil müddəti olan ana dili məktəbi hər iki cinsdən və bütün silklərdən olan uşaqlar üçün nəzərdə tutulur. Ana dili məktəbi təhsilin məzmununa görə o dövrün ibtidai məktəblərindən fərqlənirdi. Komenski ana dilində olan ibtidai məktəbə ayrıca əhəmiyyət verirdi. Tədris planına həndəsədən, coğrafiyadan, təbiətşünaslıqdan ilkin mə'lumat, nəğmə və əl əməyi daxil etmişdi. Əlbəttə, o şəraitin öyrənilməsinə də ayrıca diqqət yetirirdi.

Latın məktəbində (gimnaziyada) təhsilin məzmununa o dövrün orta məktəblərindəki ali fənlər «yeddi sərbəst elm» daxil edilmişdi (qrammatika, ritorika, dialektika, hesab, həndəsə, astronomiya və musiqi). Bununla bərabər o dövrünün sxolastik məktəblərinə daha yeni fənlər, o cümlədən fizika, coğrafiya və tarix əlavə etmişdi. Gimnaziyada həmçinin latın, yunan dilləri, ana dili və yeni dillərdən biri öyrədilirdi. Komenski bir novator pedaqoq kimi, elmlərin tədrisi sistemini də illər üzrə müəyyən etmişdir.

Akademiyaya gəlincə Komenski burada o dövrün adi fakültələrini (İlahiyyət, hüquq və tibb) nəzərdə tuturdu. Komenski bütün gənclərə geniş universal təhsil verməyə çağırmışdır.

Komenskinin didaktik görüşləri. Komenskinin ümumi pedaqoji irsində onun didaktik görüşləri mərkəzi yeri tutur. Onun pedaqoji, o cümlədən didaktik görüşlərinin əsasında pansofiya, –hamıya hər şeyi öyrətmək, –ideyası durur.

F.Bekonun empirik fəlsəfəsinə istinad edən Komenski biliklərin mənbəyini xarici aləmdə görmüş, biliyi köhnə məktəblərdəki kimi sxolastik kitablardan mexaniki surətdə əzbərləməklə deyil, şüurlu olaraq ətraf mühitdən götürməyi əsaslandırmış və tə'limdə ə'yanilik, şüurluluq, sistemlilik və yaşauyğunluq prinsiplərini irəli sürmüşdür. O, didaktikanı həm təhsil və tə'lim, həm də tərbiyə nəzəriyyəsi kimi əsaslandırmışdır.

Komenskiyə görə tə'lim prosesində yalnız uşağın hafizəsindən deyil, onun bütün qabiliyyətindən, xarici hiss orqanlarından, düşüncəsindən və iradəsindən istifadə edilməlidir. Bu səbəbdən də o, əyanilik prinsipini birinci yerə qoyur və onu tə'limin «qızıl qaydası» adlandırırdı. Komenski yazırdı: *«…mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək, qoy müəllimlər üçün qızıl qayda olsun, yə'ni görünəni- görmə duyğusuna, səsi-eşitmə duyğusuna, iyi-iybilmə duyğusuna, dadı olanı-dad*

duyğusuna, toxunula biləni-lamisə duyğusuna təqdim etməli. Əgər bir şeyi birdən-birə bir neçə duyğu ilə qavramaq mümkündürsə, qoy eyni zamanda bir neçə duyğu ilə qavranılsın» (SPƏ. B,1961,s.174)

Komenski tələb edirdi ki, şagirdlərə yalnız özünün beş barmağı kimi aydın olan şeyləri öyrətmək lazımdır. Bütün bunların asan öyrədilməsi üçün idrak prosesinə xarici hissləri mümkün qədər çox cəlb etmək lazımdır. O, göstərirdi ki, duyğularımızda olmayan bir şey şüurumuzda da yoxdur. O, tə'limi əşyaların və hadisələrin canlı müşahidəsindən başlamağı tələb edərək deyirdi ki, şeylər bədən, sözlər isə paltardır. Şeylər nüvə, sözlər isə qabıqdır. «Tədris edilən bütün şeyləri dəlilərlə elə əsaslandırmaq lazımdır ki, şübhə üçün, nə də unutqanlıq üçün heç bir yer qalmasın. … hər şeyi ağlın dəlililəri ilə möhkəmlətmək, hər şeyi səbəbi göstərə-göstərə öyrətmək deməkdir. Yə'ni hər bir şeyin yalnız necə əmələ gəldiyini göstərmək deyil, eyni zamanda bu şeyin nə üçün başqa cür ola bilməyəcəyini göstərməkdən ibarətdir. Çünki müəyyən bir şeyi bilmək onu səbəb əlaqələrində dərk etmək deməkdir» (yenə orada, səh.29)

Komenskinin fikrincə təhsil elə tə'lim edilməlidir ki, insanlar mümkün olduğu qədər bilikləri kitablardan deyil, göydən və yerdən, palıddan, ağcaqayından əldə etsinlər, yə'ni onlar yalnız başqalarının müşahidələrini və şeylər haqqında şəhadətlərini deyil, şeylərin özlərini dərk etsinlər. Bu o deməkdir ki, şagirdlər bilikləri başqa mənbədən deyil, şeylərin özündən alsınlar; hər bir nəticəni şeylərin sarsılmaz əsaslarından çıxarmaq; hər bir şeyi təkcə nüfuz əsasında öyrətməməli, hər şey xarici hisslərə və ağla əsaslanan sübutların köməyi ilə öyrədilməlidir.

Komenski əyanilik haqqında yalnız nəzəri fikirlər söyləməklə kifayətlənməmiş, onu, həm də öz təcrübi işində, xüsusilə dərsliklərində həyata keçirmişdi. Onun «Duyulan əşyalar aləmi şəkillərdə» dərsliyi buna əyani sübutdur.

Komenski tə'limin sistemliliyi, ardıcıllığı, gücə müvafiqliyi və möhkəmliyi haqqında da çox qiymətli fikirlər irəli sürmüşdür. Komenski öz didaktik qaydalarının böyük əksəriyyətini sübut etmək üçün şagirdlərin fitri qabiliyyətlərinə uyğunlaşdırmağı tələb edirdi.

O, təbiətin keçdiyi yollara istinad edərək gənclərin tə'limini asanlaşdırmaq üçün aşağıdakıları təklif edirdi.:

1) tə'limə öz vaxtında, yə'ni ağlın kütləşməsini hiss etməzdən əvvəl başlanılsın;

2) tə'limdən qabaq lazımi zehni hazırlıq keçirilsin;

3) şagirdlər həddən artıq miqdarda materialla yüklənməmiş olsunlar;

4) yaşa uyğun olmayan heç bir şey ağıla zorla çatdırılmasın:

5) hər bir şey xarici hisslər vasitəsilə tədris olunsun.

Beləliklə, tə'limin asanlığına dair on didaktik qaydadan beş qayda insan təbiətinin xüsusiyyətlərinə əsaslanır, ümumiyyətlə başqa qaydalar da insan təbiətinin xüsusiyyətlərinə istinad edilir, ancaq bunlar bir qədər örtülü şəkildə ifadə olunmuşdur:

a) tə'limdə daha çox ümumidən daha çox xüsusiyə doğru və s;

b) daha çox asandan daha çox çətinə doğru gedilsin;

v) hər şeydə tələsmədən irəli gedilsin;

q) ancaq həyat üçün bilavasitə faydalı olan şeylər tədris edilsin;

d) hər bir şey daim eyni bir metodla çatdırılsın.

Komenski bütün bu qaydalarda doğrudan da insan təbiətinin xüsusiyyət və xassələrinə əsaslanır.

Tə'limin əsaslığı qaydaları da tə'limin qısalığı qaydaları kimi məhz insan təbiətinin xassələrinə və xüsusiyyətlərinə əsaslanır.

Didaktik nəticələrin böyük əksəriyyəti məktəblərdə pedaqoji prosesin Komenski tərəfindən aparılan çoxlu miqdarda və rəngarəng şəxsi müşahidələrinə əsaslanır.

«Böyük didaktika» nın əsas müddəası bitki və heyvan aləmində olan varlıqlardan daha yüksək, daha mükəmməl və ali varlığın – insanın tərbiyə oluna və təhsil verilə bilən şəxsiyyəti haqqında yeni humanist təsəvvürdən ibarətdir (SPƏ. s.31)

Komenski tə'lim üsullarına aid də fikirlər söyləmişdir. O, əsərlərində, xüsusilə də «Həqiqi üsulun tə'rifi» və «Şeyləri dürüst adlandırmağın xeyri haqqında» adlı əsərlərində təbliğ etdiyi metodun ümumi səciyyəsini vermişdir.

Komenski metodun mahiyyətini aləmin təhlili vasitəsilə ağılları irəliyə doğru aparan analizdən (təhlildən) sintezə (tərkibə)

keçməklə öyrənilənlər haqqında tam təsəvvür yaradılmasında görürdü. O, analiz və sintezin köməyinə üçüncü bir vasitəni– müqayisəni cəlb edirdi. Onun fikrincə müqayisə şagirdlərə «oxşar və oxşar olmayanı, fərqi və əksi» müəyyən etməyə və beləliklə, öyrəniləcək şeylərin bütün müxtəliflik və çoxluğundan baş çıxarmağa imkan verir.

Beləliklə, onun didaktikasının başlıca əsası – «elə yollar axtarıb kəşf etməkdən ibarət idi ki, bunun sayəsində öyrədənlər az öyrətsinlər, öyrənənlər isə çox öyrənsinlər: məktəblərdə səs-küy, baş gicəlləntisi, faydasız əmək az, əyləncə, sevinc və möhkəm müvəffəqiyyət isə çox olsun» (SPƏ.B, 1961, s.68)

Komenskinin didaktik görüşləri sonralar Pestalotsi və Disterveq, həmçinin Uşinski tərəfindən inkişaf etdirilmişdir.

Məktəb tə'liminin təşkili. Sinif - dərs sistemi

Komenskinin mühüm xidmətlərindən biri tə'limin təşkili məsələlərini geniş işıqlandırmasıdır. O, demək olar ki, ilk dəfə olaraq məktəb ili – tədris ili anlayışını bərqərar etmişdir. Təbiətdə ilin 4 fəslə, fəsillərin aylara, ayın həftələrə, günlərə bölünməsi hadisəsini əsas götürən Komenski dərs ilini də 4 rübə bölmüş, tə'til və dərs günlərinin təşkilini müəyyən etmiş (ana dili məktəbində gündə 4, latın məktəbində 6 saat),tədris məşğələlərinin sinif – dərs sistemini nəzəri cəhətdən əsaslandırmış və təcrübi olaraq həyata keçirmişdir.

Mə'lum olduğu kimi Komenskiyə qədər və onun dövründə şagirdlərin məktəbə qəbulu bütün il ərzində, müxtəlif vaxtlarda, həm də fərdi şəkildə həyata keçirilirdi. Uşaqlar bir sinifdə otursalar da, tə'lim kollektiv deyil,fərdi surətdə həyata keçirilirdi (fərdi tə'lim üsulu da buradan meydana gəlmişdir). Yaş və bilik səviyyələrindən asılı olmayaraq hər kəs öz dərsini öyrənir, fərdi şəkildə ona verilən tapşırığı icra edirdi.

Təbiətdə hər şeyin başlanğıcı olmasını, məsələn təqvim ilində – bahar fəslində çöl-tarla işlərinin başlanmasını əsas götürən Komenski dərs ilinin də başlanma vaxtını müəyyən etmiş və şagirdlərin məktəbə ildə bir dəfə qəbul olunması qaydasını, həm də müəllimin tək-tək şagirdlərlə deyil, bütöv siniflə kollektiv məşğul

olmasını tə'kid edmişdir. Bununla da, o, tədris məşğələlərinin sinif – dərs sisteminin əsasını qoymuş, dərsin necə planlaşdırılmasına və aparılmasına aid göstərişlər vermişdir. O, göstərirdi ki, hər bir dərsin müəyyən mövzusu və özünün başlıca vəzifəsi olmalıdır. Müəllim bütün şagirdlərin fəal iştirakını diqqətlə izləməli və dərs zamanı sinifdə intizam yaratmalıdır.

Komenskinin dərslikləri. Komenski dərsliklərin necə olmasına dair bir sıra nəzəri fikirlər söyləmiş, öz nəzəri müddəalarını praktikada həyata keçirmiş, öz zəmanəsi üçün bir sıra nümunəvi dərsliklər tərtib etmişdir. O, tələb edirdi ki, dərslikdə tədris materialı kifayət qədər tam eyni zamanda qısa olmalı, yə'ni başlıca məsələlərdən kənar, lazımsız və artıq şey olmamalıdır. Dərslikdə material sistemlə yerləşdirilməli və uşaqlar üçün anlaşıqlı olan, aydın, sadə dildə şərh edilməlidir.

Komenskinin tərtib etdiyi məşhur dərsliklər, ilk növbədə «Dillərə açıq qapı» və «Duyulan aləm şəkillərdə» xüsusilə geniş yayılmışdı. Özünün zəngin təcrübəsi əsasında yazılmış bu kitablar uşaqların yaş və anlaq səviyyələrinə müvafiq olmaqla materialın sistemliyi və ardıcıllığı ilə seçilirdi. Onun «Duyulan aləm şəkillərdə» dərsliyi ibtidai bilikləri əhatə edən uşaq ensiklopediyası idi. Buraya daxil edilmiş 150 kiçik mətnlərin hər birinə müvafiq şəkil verilmişdir. Bu kitab bir çox dillərə tərcümə edilmiş və 150 ildən artıq bir müddətdə ibtidai təhsil üçün ən yaxşı dərslik olmuşdur. XVIII əsrdə bu kitab bə'zi dəyişikliklərlə müxtəlif adlar altında Rusiyada da çap edilmişdir. Mütəxəssislərin dediyinə görə, bu kitab məktəbi həyata, həyatı isə məktəbə gətirmişdir. Böyük alman şairi Göte XIX əsrin əvvəllərində bu nümunəvi dərslikdən özünün dərs almasını xatırlayırdı.

Əxlaq tərbiyəsi. İntizam. Komenskinin fikrincə tərbiyənin üç məqsədindən biri insanın idarə edilməsidir. Bu isə əxlaq tərbiyəsi ilə əldə edilir.

Antik filosoflara istinad edən Komenski ləyaqəti, müdrikliyi, mö'tədilliyi, mərdliyi və ədalətliyi əsas və başlıca ləyaqət hesab edirdi. Onun fikrincə təhsil və elm nəticə e'tibarı ilə insanı müdrik etməlidir, onu əqli cəhətdən olduğu kimi, mə'nəvi cəhətdən də yüksəltməli, onu mərd və alicənab etməlidir. Əxlaq tərbiyəsinin əsas vəzifəsi xeyirxah, ədalətli insan tərbiyə etməkdir. «Xeyirxahlığın

inkişafına ən gənc yaşlardan, ruhda nöqsan kök salmazdan əvvəl başlamaq lazımdır» Uşaqlar müdrikliyi əşya və hadisələr haqqında yürüdülən ədalətli mühakimələrdən və əqli nəsihətlərdən öyrənməlidir. Doğrucul və ədalətli hərəkət etmək vərdişi insanın ikinci təbiətinə çevrilməlidir. Bu əxlaqi keyfiyyətlərin aşılanmasında əsas rolu «ədəb e'malatxanası» olan məktəb oynamalıdır.

Komenski əxlaq tərbiyəsinin vasitələri kimi aşağıdakıları irəli sürmüşdür: valideyn, müəllim və yoldaşların nümunəsi; nəsihətlər, uşaqlarla əxlaqi söhbətlər; əxlaqi davranışlara aid çalışmalar (xüsusilə mərdlik tərbiyəsində); intizamsızlığa, tənbəlliyə, düşünülməmiş hərəkətlərə, ədəbsizliyə qarşı mübarizə. Əxlaq tərbiyəsi prosesində müsbət vərdişlər qazanılmasının da böyük əhəmiyyəti vardır.

İntizamın böyük əhəmiyyətini göstərən Komenski çex atalar sözünə istinad edərək deyirdi: «İntizamsız bir məktəb susuz dəyirmana bənzər». Komenskinin böyük xidməti ondadır ki, o, orta əsrlər məktəbinin kobud və kötək intizamının əleyhinə çıxaraq, uşaqlara humanistcəsinə yanaşmağı məsləhət görürdü. O, intizamın başlıca olaraq yaxşı nümunə göstərməklə, uşaqlarla mehriban və mülayim rəftar etməklə, səmimi və xeyirxah söhbətlərlə əldə ediləcəyinə inanırdı.

Komenski uşaqların bədən cəzasının əleyhinə olmuşdur. O, yazırdı: «Uşaqları tə'lim edərkən heç bir cismani cəzaya yol verilməməlidir» (SPƏ.B,1963, s.139). O, kötək üsulunu köləlik cəmiyyətinin tərbiyə vasitəsi hesab edirdi. Bütün bunlarla bərabər, o, müstəsna hallarda, xüsusilə dinə qarşı e'tiraz əlamətləri təzahür etdikdə fiziki cəzanın tətbiqini lazım bilirdi (hərdən bir təbiət də insanlara cəza verir: zəlzələ, tufan, leysan yağışlar və s.)

Müəllim haqqında. Komenski müəllimə böyük əhəmiyyət verir, müəllimlik vəzifəsini dünyada heç bir şeylə müqayisə edilə bilməyən ən üstün, ən şərəfli vəzifə hesab edirdi. O, «Yaxşı təşkil olunmuş məktəbin qanunları» adlı əsərində yazır ki, müəllimlər namuslu, fəal və əməksevər şəxslər olmalıdırlar: zahiri görünüşü üçün deyil, əsl həqiqətdə onlar başqalarına aşılamalı olduqları xeyirxahlığın canlı nümunəsi olmalıdırlar. O, yazırdı: «Kim müəllim olmağı özünə eyb bilirsə və ancaq pul xatirinə müəllimlik edirsə, o, əlbəttə daha artıq maaş tə'min edən başqa növ iş tapan kimi oradan,

dəyirman daşı altından qaçan kimi qaçır» Komenski əsl müəllimi günəşə bənzədir və deyirdi ki, onlara günəş altında ondan daha yüksək ola bilməyən çox gözəl bir vəzifə tapşırıldığını düşünürlər. Komenskinin fikrincə, müəllim üçün ən yaxın qayğı şagirdləri öz yaxşı nümunələri ilə qüvvətli surətdə cəlb etməkdən ibarətdir; axı sonra gələnlərin əvvəlkilərin arxasınca getməsindən və şagirdlərin öz müəllimləri nümunəsində tərbiyə olunmasından daha təbii bir şey yoxdur.

Müəllimlər, onlara e'tibar edilmiş uşaqları bəşəri təhsilə alışdırmalı və bu məqsədə təkcə göstərişlər ilə deyil, öz nümunəsi ilə nail olmalıdırlar. Bu mə'nada müəllimlər əməkdə və geyimdə sadəliyin, fəaliyyətdə, gümrahlıq və əməksevərliyin, davranışın təvazökarlıq və gözəl əxlaqın, nitqdə danışmaq və susmaq sənətinin nümunəsi olmalı, bir sözlə, şəxsi və ictimai həyatda ağıllığın örnəyi (nümunəsi) olmalıdırlar (Bax: SPƏ, s.329).

Bütün pedaqoqlar öz yetirmələrinin təkcə rəhbərləri deyil, həm də dostları olmağa cəhd etməlidirlər. Tərbiyə işini heç bir təhsilsiz adama və xüsusən əxlaqca pozğun adama, vicdanı şübhəli şəxsə heç bir şəraitdə e'timad etmək olmaz. Tərbiyəçi daim öz adına tamamilə layiq hərəkət etməlidir.

Komenski deyirdi: Əgər müəllim öz vəzifəsini ləyaqətlə yerinə yetirirsə, tə'riflənməyə layiq olar, əks halda nifrətə layiq görülər.

Komenski öz dünyagörüşünə müvafiq olaraq, təbbii ki, dindarlığı da müəllimin mühüm keyfiyyətlərindən hesab edirdi.

Sonrakı əsərlərdə pedaqogikanın və məktəb təcrübəsinini inkişafında Komenskinin pedaqoji nəzəriyyəsinin əhəmiyyəti. Yan Amos Komenski bütün dünyada pedaqoji fikrin və məktəbin inkişafına çox böyük tə'sir göstərmişdir.

Göründüyü kimi, məktəb işini yaxşılaşdırmaq üçün onu müxtəlif ölkələrə – İngiltərəyə, İsveçrəyə, Macarıstana də'vət etmişlər. Onun dərslikləri bir çox dillərə tərcümə edilmiş, bir sıra ölkələrdə, o cümlədən XVII–XVIII əsrlərdə Rusiyada geniş yayılmış, uzun müddət ibtidai tə'lim üçün ən yaxşı dərsliklər olmuş, digər mütərəqqi pedaqoqların dərslik hazırlanması üçün örnək rolunu oynamışdır.

Böyük rus pedoqoqu K.D.Uşinski XIX əsrin 60-cı illərində Komenskinin xidmətlərini yüksək qiymətləndirir, uşaqların yaş xüsusiyyətlərinin hesaba alınması ilə elmin pedaqoji şərhinin

başlanğıcını Komenskinin «Duyulan əşyalar aləmi şəkillərdə» kitabında görürdü.

Komenski didaktika sahəsində novator pedaqoq olmuş, bir sıra mütərəqqi didaktik ideyalar irəli sürmüş, tədris ilinin təşkili qaydalarını müəyyən etmişdir. Onun tövsiyələrinin əsas əlamətləri bu gün də müxtəlif ölkələrdə tətbiq edilir.

Məşhur alman filosofu Q.Leybnitsin tə'birincə desək pedaqogikanın inkişafında Komenskinin rolu və xidmətləri fəlsəfənin inkişafında Dekart və Bekonun, astronomiyanın inkişafında Kopernikin roluna bərabərdir.

Komenskinin elmi-pedaqoji irsi dünya mədəniyyəti xəzinəsini zənginləşdirən böyük hədiyyədir.

«Pedaqogika tarixi kursundan mühazirələr» Bakı, APİ – 1987, səh. 3–51.

A.S. Makarenko Bakıda

Mühüm coğrafi yollar ayrıcında olan Bakıya bir sıra məşhur səyyahların, yazıçı və alimlərin, turist dəstələrinin yolu düşmüşdür. Bunlardan biri də tanınmış pedaqoq və yazıçı A.S. Makarenkodur. Adətən, Makarenko başçılıq etdiyi Kommunanın kommunarları ilə hər il müəyyən marşrut üzrə səfərə çıxardı. Belə səfərlərdən biri də 1931-ci ildə Qafqaza təşkil edilmişdi. Səfərin planında Xarkov – Şimali Qafqaz –Hərbi Gürcüstan yolu ilə Tbilisiyə getmək nəzərdə tutulurdu. Lakin Şimali Qafqaza gələrkən güclü yağış nəticəsində Terek çayının daşması, dağ uçurumları və yolların xarab olması marşrutun planını dəyişdirməyə səbəb oldu. Tbilisiyə Hərbi Gürcüstan yolu ilə deyil, Orconikidze – Beslan – Dərbənd – Bakı dəmiryolu ilə getmək qərara alındı. Makarenko özünün 156 nəfər kommunarı ilə birlikdə Bakıya gəldi və üç gün burada qaldı.

Makarenkonun Bakı neftçiləri ilə tanışlığı hələ 1930-cu ilin yanvar ayından kommunada başlanmışdı. Belə ki, 1929-cu ildə Bakı şəhər Soveti ilə Xarkov şəhər Soveti yarışırdı. Bu münasibətlə Bakı fəhlələrinin nümayəndələri Xarkov şəhərinə getmişdilər. Onlar Xarkovda A.S. Makarenkonun işlədiyi F.E. Dzerjinski adına

kommunada da olmuşlar. Kommuna nəinki təkcə Sovet İttifaqında, həm də xarici ölkələrdə böyük şöhrət qazanmışdı.

Kommuna Bakı fəhlə nümayəndələrinin xoşuna gəlmiş və onlara yaxşı təəssürat bağışlamışdı. Bakılılar kommunanın «təəssürat kitabçası»nda aşağıdakı sözləri yazmışlar:

«Burada kommunarlardan əslində nəinki təkcə istehsalatçılar, həm də öz həyatlarının gözəl təşkilatçıları hazırlanır. Bizə bu təcrübəni öyrənmək və Bakı uşaq evlərində bundan istifadə etmək lazımdır. Binanın, sinfin və yataq otaqlarının ideal təmizliyi ən yaxşı təəssürat buraxır».

A.S. Makarenko və onun kommunarları Bakıda olarkən şəhərin bir sıra tarixi yerlərini gəzmiş, neftçilərlə, fəhlələrlə və şəhər əhalisi ilə görüşmüşlər. A.S. Makarenko və kommunarların olduqları yerlərdən biri də Bakının ən qədim və məşhur neft mə'dənlərindən olan Bibi-Heybətdir.

Bibi-Heybətin neft mə'dənləri kommunarlarda xüsusi maraq oyatmışdı. Bu münasibətlə Makarenko yazmışdır ki, Bibi-Heybətin Bakının ilk mə'dənlərindən biri olması və beşilliyi 2 il yarımda yerinə yetirməsi kommunarların xüsusi marağına səbəb olmuşdur. Kommunarlar dəstə-dəstə mə'dənlərə dağılmış və Makarenkonun sözləri ilə desək, yarım saat müddətində bütün xəndəklərə, künc-bucaqlara baxmış və neftçıxarmanın sirrini bütün təfsilatı ilə soruşub öyrənməyə çalışmışlar.

Bibi-Heybətdə neftçilərlə kommunarların görüşü çox maraqlı keçmişdir. Görüş zamanı Bibi-Heybət neftçilərinin qələbə rəmzi olan qırmızı bayraq ortaya gətirilmiş və kommunarlar öz ən'ələri üzrə, bayrağa hörmət rəmzi olaraq salyut vermişlər.

Görüşün sonunda kommunarların adından çıxış edən Şved demişdir;

– Bibi-Heybət fəhlələri! Bu bayraq sənayeləşmə cəbhəsində sizin qələbənizin rəmzidir. Sizin qələbəniz bütün İttifaqı, dünyanın bütün fəhlələrini sevindirir. Özümüzü xoşbəxt hesab edirik ki, sizin bayrağı, sizin çox böyük qələbənizi, sizin işlərinizi alqışlamaq bizə nəsib oldu. Biz sizə heyran olmuşuq biz sizdən nümunə götürəcəyik, biz qalib gəlməyi sizdən öyrənəcəyik.

Bakılılarla kommunarların növbəti görüşü şəhərin mədəniyyət və istirahət parkında olmuşdu. Makarenkonun yazdığına

görə, həmin görüşdə 2 mindən artıq adam iştirak edirdi. Bu görüş də çox təntənəli keçmişdir.

Dzerjinsklilərdən Kamardinov kommunarların həyatından, istehsalatda işləmələrindən, kommunada tikilən zavodun gələcəyindən danışmışdır. O, bir daha kommunarlar adından Bakı neftçilərinin qəhrəmanlıq işləri qarşısında baş əymişdir. A.S.Makarenko bu görüşü «yaxın adamların, özünün ümumi proletar mahiyyəti e'tibarı ilə yaxın adamların həqiqi yığıncağı» adlandırmışdır

Böyük pedaqoq bakılılarla görüşü «ən yaxşı saatlar» hesab etmiş, kommunarların Bakı səfərini özünün «30-cu illərin marşı» adlı əsərinə daxil olan «FD-1» adlı povestində təsvir etmişdir. («FD-1»-Sovet İttifaqında ilk güclü elektrik qurğusunun zavod markasıdır. Sovet sənayesini xarici idxaldan azad etmək məqsədilə bu alətin istehsalını F. E. Dzerjenski adına kommunanın zavodu mənimsəmişdir. «F; D» hərfləri Feliks Dzerjinskinin adını, 1 rəqəmi isə modelin nömrəsini bildirir).

Makarenko öz kommunarları ilə Bakıdan Tbilisiyə yola düşmüşdür.

«Azərbayçan gəncləri» 10 mart 1963.

Uşinski və Azərbaycan pedaqoji fikri

(K. D. Uşinskinin anadan olmasının 140 illiyi)

On doqquzuncu əsr rus mədəniyyət xadimləri içərisində görkəmli yer tutan, həmçinin Azərbaycanda da məktəb və pedaqoji fikrin inkişafına müsbət tə'sir göstərən görkəmli simalardan biri də böyük rus pedaqoqu K.D. Uşinskidir.

Uşinski rus və dünya pedaqoji fikirləri xəzinəsinə böyük irs qoyub getmişdir. O, özünün bir sıra əsərlərində pedaqogikanın ən mühüm məsələlərini həll etməyə çalışmışdır. «Vətənimə daha çox xeyir verməyə çalışmaq – mənim həyatımın yeganə məqsədidir» – deyən Uşinski özünün bütün həyatını və tükənməz iste'dadını xalqa xidmətə həsr etmişdir.O, dünya şöhrəti qazanan görkəmli rus alimlərinin cərgəsində ilk yerlərdən birini tutur.

İrəli sürülən fikirlərin yeniliyi, həqiqiliyi və tərəqqipərvərliyi nöqteyi-nəzərincə Uşinskinin əsərləri o dövrün Qərbi Avropa pedaqoqlarının əsərlərindən qat-qat yüksəkdə durur. Onun «İnsan tərbiyə predmetidir» adlı şah əsəri rus klassik pedaqogikasının tacı, Marksa qədərki pedaqoji fikrin ən böyük nailiyyəti, böyük psixoloji-pedaqoji traktatdır.

Uşinskinin ən böyük xidmətlərindən biri budur ki, o, Rusiyada xalq məktəbləri uğrunda mübarizə aparmış və bu xidmətlərinə görə «Rus xalq məktəblərinin atası» adlandırılmışdır. Uşinski bir sıra görkəmli əsərləri ilə bərabər, həm də «Vətən dili» və «Uşaq aləmi» kimi məşhur dərsliklərin müəllifidir. Bu dərsliklər yarım əsr Rusiya məktəblərində tədris edilmiş və rus xalqının bir çox nəsli bu kitabdan tə'lim və tərbiyə almışdır.

Uşinskinin sağlığında bu dərsliklər dəfələrlə nəşr edilmişdir. «Vətən dili» kitabı (birinci il) Böyük Oktyabr sosialist inqilabına qədər 146 dəfə nəşr edilmişdir.

Uşinskinin böyük pedaqoji irsinin tə'siri altında Rusiyada XIX əsrin 60–80-ci illərində Bunakov, Korf, Semyonov və başqaları kimi görkəmli pedaqoq – metodistlər yetişmiş və onun ardıcılları kimi çıxış etmişlər.

Təkcə rus mütərəqqi pedaqoji fikrinin inkişafına deyil, həmçinin rus olmayan xalqların qabaqcıl pedaqoji fikirlərinin inkişafına da Uşinski əhəmiyyətli tə'sir göstərmişdir. Məşhur gürcü pedaqoqu Yakov Qoqebaşvili, erməni pedaqoqları Qazaros Ağayan və Ter-Qevondyan, qazax pedaqoqu Altın Sarın Uşinski məktəbinin davamçılarıdırlar. Uşinskinin dərslikləri Azərbaycan məktəbləri üçün dərsliklər tərtib etməyə böyük kömək etmişdir. Azərbaycan müəllimlərinin hazırlanmasında böyük xidmətləri olan Çernyayevskinin eyni adlı «Vətən dili» dərsliyində Uşinskinin tə'siri özünü göstərir. Azərbaycanın məşhur pedaqoqu və unudulmaz müəllimlərindən Rəşidbəy Əfəndiyev hələ seminariyada oxuyarkən Uşinskinin pedaqoji ideyalarının tə'siri altında Azərbaycanda yeni məktəb yaratmağı qarşısına məqsəd qoymuş və əməli pedaqoji fəaliyyətində bunu həyata keçirməyə çalışmışdır.

Rəşidbəy Əfəndiyev yazmışdır: «Pedaqojini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb xalqa maarif və bilik vermir, köhnə məktəb dağılmalıdır. Bu isə yalnız Uşinskinin yeni üsulla dərs

kitabı kimi öz məktəbimiz üçün ana dilindən dərs kitabını tərtib etməklə mümkündür.

R. Əfəndiyev yazır ki, «məhz bu məqsədlə də «Uşaq bağçası» kitabını qiymətli bir əsərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur və məhbub əlifba kitabçasını özümə rəhbər qəbul etdim».

Böyük rus pedaqoqu və rus klassik pedaqogikasının banisi K. D. Uşinskinin pedaqoji sisteminin əsasında xəlqilik durur ki, buradan da ibtidai məktəbdə tə'limin ana dilində aparılması nəş'ət edir.

K.D. Uşinski klassik rus pedaqoji elmində ilk dəfə olaraq ana dilinin tə'lim və tərbiyəvi əhəmiyyətini çox düzgün qiymətləndirmişdir. Onun fikrincə, ana dili böyük xalq pedaqoqudur. 6–7 yaşlı uşaq 2–3 ildə ana dilində asan və mükəmməl mənimsədiyinin yarısını sonralar 20 illik sə'y və metodik tə'limat nəticəsində belə mənimsəyə bilmir. Dvoryanların xarici mədəniyyət qarşısında baş əyməsi nəticəsində uşağın erkən yaşından öz rus dili əvəzinə fransız və ya alman dili öyrəndiyi və məktəbdə xarici dillərin rus dilini sıxışdırdığı bir zamanda K.D.Uşinskinin çıxışı xüsusi əhəmiyyət kəsb etmişdir. Uşinskinin ardınca gedən R. Əfəndiyev özünün ana dili tə'limi ideyasını irəli sürmüş və onun fikirləri əsasında inkişaf etdirmişdir.

Rəşidbəy Uşinskinin dərsliklərindən bə'zi mətnləri tərcümə edərkən öz kitablarına daxil etmişdir. Həmin dərsliklər XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan məktəblərində geniş tədris edilmiş və ən yaxşı vəsaitlərdən biri olmuşdur. Azərbaycanda Uşinskinin ən yaxşı davamçılarından biri də Azərbaycanın görkəmli pedaqoq və maarifçisi F. Köçərlidir. İstər köhnə məktəbin tənqidində, istərsə də ana dilinin tə'limi məsələlərində F.Köçərlinin fikirləri Uşinskinin ideyaları ilə səslənir.

Sovet hökuməti böyük pedaqoqun irsinə yüksək qiymət verir, SSRİ Xalq Komissarları Sovetinin xüsusi qərarı ilə Uşinskinin 11 cilddən ibarət əsərlərinin gülliyyatı nəşr edilmişdir. Uşinskinin seçilmiş pedaqoji əsərləri ölkəmizin bütün xalqlarının dilinə tərcümə edilmişdir. Onun seçilmiş pedaqoji əsərləri Azərbaycan müəllimləri və xalq maarifi işçilərinin stolüstü kitablarındandır.

SSRİ xalqlarının qardaşlıq ailəsində boy atan Sovet Azərbaycanında xalq maarifi, məktəb, tə'lim və tərbiyə işlərinin inkişaf etdirilməsində Vətənimizin bütün xalqları ilə bərabər, birinci növbədə böyük rus xalqının unudulmaz köməyi olmuşdur. Sovet Azərbaycanının xalq maarifi işçiləri respublikamızda məktəb və maarif işlərinin təşkilində Sovet Rusiyasının qabaqcıl iş təcrübəsindən daim istifadə etmiş və edirlər.

«Bakı» qəzeti 29 yanvar 1964.

Rus pedaqogikasının atası

(K.D. Uşinskinin anadan olmasının 150 illiyi münasibətilə)

XIX əsrin ikinci yarısında rus mədəniyyət xadimləri arasında böyük rus pedaqoqu Konstantin Dmitriyeviç Uşinski şərəfli bir yer tutur. Onun pedaqoji əsərləri, irəli sürdüyü fikirlərin yeniliyi, dolğunluğu və tərəqqipərvərliyi öz müasiri olan Qərbi Avropa pedaqoqlarının əsərlərindən qat-qat yüksəkdə durur. Dövrünün görkəmli və qabaqcıl şəxsiyyətlərindən biri olan Uşinski özünün bütün həyatını sədaqətlə, fədakarcasına xalq maarifinə həsr etmiş və tərbiyə haqqında elmin bünövrəsini qoymuşdur.

K.D. Uşinski 1824-cü ildə Tula şəhərində anadan olmuşdur. O, 1844-cü ildə Moskva Universitetinin hüquq fakültəsini müvəffəqiyyətlə bitirmişdir. Universitet şurasının qərarı ilə Uşinski elmi fəaliyyətinə hazırlanmaq məqsədilə universitetdə saxlanılır. 1846-cı ildə 22yaşlı Konstantin hüquq elmləri üzrə professorluq vəzifəsini əvəz edən müəllim kimi Yaroslav hüquq litseyinə göndərilir. Lakin onun azadlığa meyl göstərən mühazirələri məktəb rəislərini qorxutmuş və ona görə də Uşinski 1848-ci ildə vəzifəsindən çıxarılmışdır. Bir neçə il əziyyətlə həyat keçirdikdən sonra 1854-cü ildə Uşinski Peterburq yaxınlığındakı Qatçina yetimlər institutuna ana dili müəllimi, sonra isə inspektor tə'yin olunmuşdur. Uşinski buradakı tə'lim və tərbiyə işlərini ciddi surətdə yaxşılaşdırmışdır. Həmin illərdə onun çap olunan «Pedaqoji ədəbiyyatın faydası haqqında», «İctimai tərbiyədə xəlqilik haqqında», «Məktəbin üç ünsürü» adlı əsərləri və Qatçina

institutundakı əməli pedaqoji fəaliyyəti Uşinskinin mövqeyini getdikcə artırır. O, böyük nəzəriyyəçi pedaqoq kimi tanınır.

1859-cu ildə Uşinski Smolnı nəcib qızlar institutuna inspektor tə'yin olunur. Yetişməkdə olan nəslin xəlqilik ruhunda tərbiyə olunmasına çalışan Uşinski institutdakı tədris planlarında bir sıra dəyişikliklər etmiş, tə'limin əyani keçirilməsinə, təbiiyyat, coğrafiya, riyaziyyat elmlərinin genişləndirilməsinə, bütün fənlərin rus dilində aprılmasına nail olmuşdur.

Uşinski həm də «Sovremennik», «Biblioteka dlya çteniya», «Jurnal dlya vospitaniye» və sairə kimi mütərəqqi jurnallarda əməkdaşlıq etmişdir. Uşinski 1860-cı ildə «Jurnal ministerstvo narodnoqo prosveşeniya» (xalq maarif nazirliyinin jurnalı) adlı jurnalın redaktoru tə'yin edildikdən sonra qısa müddət ərzində jurnalın pedaqoji məzmununu əsaslı surətdə yaxşılaşdırmışdır. Lakin 1861-ci ilin sonunda Uşinski jurnalın redaktorluğundan, sonralar isə Smolnı institutundan azad edilmişdir. O, 1862-ci ildə qadın təhsilinin vəziyyətini öyrənmək məqsədilə xarici ölkələrə e'zam edilir. Uşinski 1868-ci ildə Vətənə qayıtmış və 1870-ci il dekabrın 21-də Odessa şəhərində vəfat etmişdir.

Vətənə daha çox şey verməyə çalışmağı həyatının yeganə məqsədi hesab edən Uşinski rus və dünya pedaqoji fikirlər xəzinəsinə böyük irs qoyub getmişdir. O, özünün bir sıra orijinal əsərlərində və dərsliklərində tə'lim və tərbiyənin ən mühüm məsələlərini həll etməyə çalışmışdır. Onun «İnsan tərbiyə predmetidir» adlı şah əsəri rus klassik pedaqogikasının tacıdır. Bu əsər Marksa qədərki dünya pedaqoji fikrinin ən mükəmməl, misilsiz nailiyyəti olan böyük psixoloji–pedaqoji traktatdır. Uşinski bu əsərində qabaqcıl rus pedaqogikasının – Vətənə, əməyə və azadlığa sevgi, demokratizm, insan ləyaqətini müdafiə etmək, bütün xalqların milli hisslərinə hörmət, tərəqqi və elmə sarsılmaz inam və möhkəmlik kimi əsas cəhətlərini aşkara çıxarmışdır.

«Rus xalq məktəblərinin atası» hesab edilən Uşinskinin mühüm xidmətlərindən biri budur ki, o, «Vətən dili» və «Uşaq aləmi» kimi məşhur dərsliklərin müəllifidir. Yarım əsr ərzində Rusiyada on milyonlarla uşaq bu dərslikləri oxumuş və tərbiyə almışdır. İstər sağlığında, istərsə də vəfatından sonra bu dərsliklər dəfələrlə nəşr edilmişdir. Təkcə bunu qeyd etmək kifayətdir ki,

Böyük Oktyabr sosialist inqilabına qədər böyük pedaqoqun üç hissədən ibarət olan «Vətən dili» adlı dərsliyi 294 dəfə, «Vətən dilinə rəhbərlik» 35 dəfə, «Uşaq aləmi» (2 hissə birlikdə) 80 dəfə, «İnsan tərbiyə predmetidir» adlı əsəri 13 dəfə çap edilmişdir. Uşinskinin dərsliklərinin dəfələrlə çap olunması o dövrdə məktəb və müəllimlərin ehtiyacından irəli gəlirdi. Həmin kitabların bir sıra əsas prinsipləri hazırda da öz əhəmiyyətini saxlamış və ibtidai məktəblər üçün mövcud dərsliklərdə geniş istifadə edilir.

Uşinskinin pedaqoji sistemində tərbiyənin məqsədi, prinsip və mahiyyəti mühüm yer tutur. O, insan şəxsiyyətinin formalaşmasında əməyə xüsusilə böyük əhəmiyyət vermişdir.

Uşinskinin fikrincə tərbiyənin məqsədi uşaqları «əməyə və həyata» hazırlamaqdan ibarətdir. O, göstərirdi ki, insanın bədəni, ürəyi və ağlı əmək tələb edir. Əmək insanın ləyaqətinin və xoşbəxtliyinin zəruri şərtidir. Əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə birinci növbədə onu əməyə hazırlamalıdır. Əmək ailə həyatını möhkəmləndirir. Bunun üçün Uşinski tərbiyənin bütünlüklə xalqın ixtiyarında olmasını, yetişməkdə olan nəslin ümumi icbari təhsil ilə əhatə edilməsini və təhsilin ana dilində verilməsini tələb edirdi. Xəlqilik ideyasına əsaslanan Uşinski yazırdı ki, dildə bütün xalq və onun bütün vətəni canlanmış olur. Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, o, eyni zamanda ana dilinin doğma döşündən mə'nəvi həyat və qüvvət içir. Ana dilində xalqın mə'nəvi həyatının bütün tarixi əks olunur.

Uşinskinin mühüm xidmətlərindən biri budur ki, o, tərbiyədə məktəbin və müəllimin roluna üstünlük verir. Uşinskinin fikrincə uşaqla üzbəüz duran tərbiyəçi tərbiyənin bütün imkanlarını öz şəxsiyyətində daşıyır. Xarakter ancaq xarakter yaradır. Müəllimin şəxsiyyəti tərbiyədə hər şey deməkdir.

Uşinski müəllim kadrları hazırlığına xüsusi fikir vermiş və ilk dəfə olaraq müəllim kadrları hazırlamaq sistemini, prinsip və üsulları elmi surətdə əsaslandırmışdır ki, bunun bir çoxu bu gün də öz aktuallığını saxlayır.

Uşinskinin ən böyük xidməti və onun irsinin bir mühüm əhəmiyyəti də bundan ibarətdir ki, Uşinskinin irəli sürdüyü ideyalar təkcə o dövr üçün deyil, bizim dövrümüz üçün də qiymətli bir xəzinədir. Uşinskinin pedaqoji irsinin məhz bu cəhətinə xüsusi əhəmiy-

yət verən M.İ. Kalinin demişdir: «Vaxtında Uşinskinin inkişaf etdirdiyi ideyalar həqiqi – pedaqoji ideyalardır. Hələ bu da azdır. Məncə onlar ancaq sosializm cəmiyyətində tamamilə həyata keçirilə bilər».

Sovet hökuməti böyük pedaqoqun irsinə xüsusi əhəmiyyət verir. Hələ 1945-ci ildə Uşinskinin ölümünün 75 illiyi ilə əlaqədər olaraq SSRİ Xalq Komissarları Soveti Uşinskinin əsərləri külliyyatını nəşr etmək haqqında xüsusi qərar qəbul etmişdir. Bu qərar əsasında RSFSR PEA 1948 –1952-ci illərdə Uşinskinin 11 cilddən ibarət əsərlərini kütləvi tirajla nəşr etmişdir. Uşinskinin əsərləri ölkəmizin bütün xalqlarının dillərinə tərcümə edilmiş, müəllim və tərbiyəçilərin stolüstü kitabı olmuşdur. SSRİ Kitab Palatasının 1 oktyabr 1963-cü il mə'lumatına görə Uşinskinin əsərləri ölkəmizdə ümumi tirajı 20 milyon 908 min olmaqla 291 dəfə SSRİ xalqlarının 58 dilində və xarici dillərdə nəşr edilmişdir.

Ölkəmizin bir sıra tədris müəssisələri Uşinskinin adını daşıyır. Qabaqcıl pedaqoqları təltif etmək üçün Uşinski medalı tə'sis edilmiş, aspirant və tələbələr üçün Uşinski adına xüsusi təqaüd müəyyən edilmişdir.

Sovet pedaqogika elmi Uşinski tərəfindən işlənmiş tərbiyə sistemindən yaradıcı surətdə istifadə edir, onun qabaqcıl ideyalarını inkişaf etdirir.

Müəllimlərin müəllimi olan Uşinskinin pedaqoji irsi bu gün də özünün yaradıcı qüvvəsini saxlayır və gələcəyin – kommunizm cəmiyyətinin milyonlarla gənc vətəndaşlarının tərbiyə edilməsinə kömək edir.

«Gənc müəllim» qəzeti,
1974, 23 yanvar.

Müəllimlərin müəllimi

Uşinskinin fikrincə, tərbiyənin məqsədi uşaqları «əməyə və həyata» hazırlamaqdan ibarətdir. O göstərirdi ki, insanın bədəni, ürəyi və ağlı əmək tələb edir. Əmək insanın ləyaqətinin və xoşbəxtliyinin zəruri şərtidir. Əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, birinci növbədə onu əməyə hazırlamalıdır. Əmək ailə həyatını möhkəmləndirir.

Bunun üçün Uşinski tərbiyənin bütünlüklə xalqın ixtiyarında olmasını, yetişməkdə olan nəslin ümumi-icbari təhsil ilə əhatə edilməsini və təhsilin ana dilində verilməsini tələb edirdi. Xəlqilik ideyasına əsaslanan Uşinski yazırdı ki, dildə bütün xalq və onun bütün vətəni canlanmış olur. Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, o, eyni zamanda ana dilinin doğma döşündən mə'nəvi həyat və qüvvət içir. Ana dilində xalqın mə'nəvi həyatının bütün tarixi əks olunur.

Tə'lim və tərbiyənin müvəffəqiyyətlə həyata keçirilməsi üçün uşağın psixoloji xüsusiyyətlərini nəzərə almağın əhəmiyyəti böyükdür. Psixologiyanın bir sıra mühüm məsələlərinin həllində Uşinskinin görkəmli xidmətləri vardır.

Uşinskinin mühüm xidmətlərindən biri budur ki, o, tərbiyədə məktəbin və müəllimin roluna üstünlük verir. Uşinskinin fikrincə uşaqla üzbəüz duran tərbiyəçi tərbiyənin bütün imkanlarını öz şəxsiyyətində daşıyır. Xarakteri ancaq xarakterlər yaradır. Müəllimin şəxsiyyəti tərbiyədə hər şey deməkdir.

Uşinski müəllim kadrları hazırlığına xüsusi fikir vermiş və ilk dəfə olaraq müəllim kadrları hazırlamaq sistemini, prinsip və üsullarını elmi surətdə əsaslandırmışdır ki, bunun bir çoxu bu gün də öz aktuallığını saxlayır.

Uşinskinin tə'limi təkcə rus mütərəqqi pedaqoji fikrinin sonrakı inkişafına deyil, həmçinin rus olmayan xalqların qabaqcıl pedaqoji fikrinin inkişafına da əhəmiyyətli tə'sir göstərmişdir. Məşhur gürcü pedaqoqu Yaqov Qoqebaşvili, erməni pedaqoqları Qazaros Ağayev və Ter Qevondiyan, qazax pedoqoqu Altın Sarın Uşinski məktəbinin davamçılarıdır.

Uşinski 30 ilə qədər İrəvan qəza məktəbində və gimnaziyasında Azərbaycan dilindən dərs deyən müəllim Mirzə Elxanovun, azərbaycanlı müəllimlərin hazırlığında böyük xidmətləri olmuş Çernyayevskinin, Azərbaycanın görkəmli pedaqoq və maarifçisi olan Rəşidbəy Əfəndiyevin yaradıcılığına da böyük tə'sir göstərmişdir. M.Elxanovun 1880-ci illərdə tərtib etdiyi «Vətən dili» dərsliyi, Çernyayevskinin 1883-cü ildə nəşr etdirdiyi yenə də eyni adlı «Vətən dili» ktabı, Rəşidbəy Əfəndiyevin «Uşaq bağçası» (1889) və «Bəsirət-ül-Əftal» (1901) adlı dərslikləri böyük pedaqoq Uşinskinin tə'siri altında yazılmışdır.

Bu gözəl tə'siri xatırlayan Rəşidbəy sonralar öz tərcümeyi-halında yazmışdır: «Pedaqojini öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb xalqa bilik vermir. Köhnə məktəb dağılmalıdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan dərs kitabı kimi öz məktəblərimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür».

Rəşidbəy yazır ki, «Bu məqsədlə də «Uşaq bağçası» kitabımı qiymətli bir əsərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur və məhbub əlifba kitabçasını özümə rəhbər qəbul etdim».

Göründüyü kimi böyük rus pedaqoqunun tə'lim və tərbiyəyə aid qiymətli irsi təkcə Rusiyada deyil, Rusiyadan kənarda da xalq maarifinin inkişafına böyük tə'sir göstərmişdir.

Uşinskinin ən böyük xidməti və onun irsinin bir mühüm əhəmiyyəti də bundan ibarətdir ki, Uşinskinin irəli sürdüyü ideyalar təkcə o dövr üçün deyil, bizim dövrümüz üçün də qiymətli bir xəzinədir, Uşinskinin pedaqoji irsinin məhz bu cəhətinə xüsusi əhəmiyyət verən M.İ.Kalinin demişdir: «Vaxtında Uşinskinin inkişaf etdirdiyi ideyalar həqiqi-pedaqoji ideyalardır. Hələ bu da azdır. Məncə onlar ancaq sosializm cəmiyyətində tamamilə həyata keçirilə bilər».

Sovet hökuməti böyük pedaqoqun irsinə xüsusi əhəmiyyət verir. Hələ 1945-ci ildə Uşinskinin ölümünün 75 illiyi ilə əlaqədar olaraq SSRİ Xalq Komissarlar Soveti Uşinskinin əsərləri külliyyatını nəşr etmək haqqında xüsusi qərar qəbul etmişdir. Bu qərar əsasında RSFSR PEA 1948–1952-ci illərdə Uşinskinin 11 cilddən ibarət əsərlərini kütləvi tirajla nəşr etmişdir.

Uşinskinin əsərləri ölkəmizin bütün xalqlarının dillərinə tərcümə edilmiş, müəllim və tərbiyəçilərin stolüstü kitabı olmuşdur.

SSRİ kitab palatasının 1 oktyabr 1963-cü il mə'lumatına görə Uşinskinin əsərləri ölkəmizdə ümumi tirajı 20 milyon 908 min olmaqla 291 dəfə SSRİ xalqlarının 58 dilində və xarici dillərdə nəşr edilmişdir.

Ölkəmizin bir sıra tədris müəssisələri Uşinskinin adını daşıyır. Qabaqcıl pedaqoqları təltif etmək üçün Uşinski medalı tə'sis edilmiş, aspirant və tələbələr üçün Uşinski adına xüsusi təqaüd müəyyən edilmişdir.

Sovet pedaqogika elmi Uşinski tərəfindən işlənmiş tərbiyə sistemindən yaradıcı surətdə istifadə edir, qabaqcıl ideyalarını inkişaf etdirir.

Müəllimlərin müəllimi olan Uşinskinin pedaqoji irsi bu gün də özünün yaradıcı qüvvəsini saxlayır və gələcəyin kommunizm cəmiyyətinin milyonlarla gənc vətəndaşlarının tərbiyə edilməsinə kömək edir.

"Gənc müəllim" 23 fevral 1994.

İ.N.Ulyanov

(Anadan olmasının
150 illiyi münasibətilə)

İlya Nikolayeviç Ulyanovun XIX əsrin ikinci yarısında Rusiyada xalq maarifi və məktəb təhsilinin inkişafında görkəmli xidmətləri olmuşdur.

Dünya zəhmətkeşlərinin rəhbəri V.İ.Leninin atası İ.N.Ulyanovun diqqətəlayiq pedaqoji fəalliyyəti çox maraqlı və zəngindir. O, Rusiya məktəb və pedaqoji fikir tarixinə görkəmli pedaqoq, metodist, mahir məktəb inspektoru, xalq maarifinin gözəl təşkilatçısı Volqaboyu xalqlarının hamisi və dostu kimi əbədi olaraq daxil olmuşdur.

İ.N.Ulyanov 1831-ci il iyulun 26-da Həştərxan şəhərində dərzi ailəsində doğulmuşdur. Yeddi yaşında ikən atasını itirən İlya böyük qardaşı Vasili Nikolayeviçin himayəsində qalmış, onun köməyilə 1843-cü ildə Həştərxan gimnaziyasına daxil olmuş və 1850-ci ildə oranı gümüş medalla bitirmişdir. Qeyd edək ki, 1806-cı ildən e'tibarən Həştərxan gimnaziyasını ilk dəfə gümüş medalla bitirmək İ.Nikolayeviçə nəsib olmuşdur.

Oxumaq həvəsi İ.N.Ulyanovu Kazan universitetinə gətirib çıxarır. O, 1850-ci ildə həmin universitetin fizika-riyaziyyat fakültəsinə daxil olur. XIX əsrin əvvəllərində (1804) əsası qoyulmuş Kazan universiteti Rusiyanın qabaqcıl ali məktəblərindən biri kimi zəngin ən'ənəyə, böyük elmi-pedaqoji qüvvəyə malik idi. Dövrün bir sıra görkəmli alimləri, o cümlədən görkəmli Azərbaycan şərqşünası, professor Mirzə Kazım-bəy uzun müddət (1826–1849-cu illər)

burada səmərəli fəaliyyət göstərmişdir. Kazan universitetinin 20 ilə qədər (1827-1846) rektoru olmuş professor N.İ.Lobaçevskinin fikirləri İ.N.Ulyanovun ictimai baxışlarının formalaşmasına böyük tə'sir göstərmişdir. Maddi həyatının ağır keçməsinə baxmayaraq İ.N.Ulyanov universiteti də müvəffəqiyyətlə bitirmiş, riyaziyyat elmləri üzrə namizədlik dərəcəsi almışdır.

İ.N.Ulyanov müəllimlik fəaliyyətinə Penza Dvoryan İnstitutunda başlamışdır. 1830-cu illərdən tə'sis edilməyə başlayan dvoryan institutları mahiyyətcə orta məktəb olub, ancaq dvoryan uşaqlarına məxsus idi.

İ.Nikolayeviç burada çalışqanlığı ilə fərqlənmiş və tezliklə institutun ən qabaqcıl müəllimlərindən biri olmuş, şagirdlərin böyük hörmət və rəğbətini qazanmışdır. Rəsmi sənədlərdə də İ.Nikolayeviçin şagirdlərlə həvəslə məşğul olması, riyaziyyat və fizika fənlərini müvəffəqiyyətlə tədris etməsi göstərilir.

İ.N.Ulyanov təkcə dərs deməklə kifayətlənməmiş, Penza quberniyasında ilk dəfə olaraq metodoloji müşahidələr aparmışdır. Onun nəticələri Kazan və Peterburq universitetlərinin professorları tərəfindən yüksək qiymətləndirilmişdir.

İ.N.Ulyanov 1863-cü ildən Nijni-Novqorod gimnaziyasında müəllimlik etmiş, eyni zamanda I dərəcəli Mariya qız məktəbində fizikadan dərs deməyə və Aleksandrovsk Dvoryan İnstitutunda tərbiyəçi vəzifəsinə də'vət edilmişdir. O, burada da səmərəli fəaliyyət göstərir, pedaqoji ustalığını artırır, qabaqcıl rus pedaqoqlarının, ilk növbədə K.D.Uşinskinin ideyalarını davam və inkişaf etdirir. Rus inqilabçı – demokratlarından N.A.Dobrolyubovun və N.Q.Çernışevskinin əsərləri və ideyaları ilə dərindən maraqlanır. O, demokratik əhval-ruhiyyəli müəllimləri özündə birləşdirən Novqorod pedaqoji cəmiyyətinin əsasını qoyur.

İ.N.Ulyanovun ictimai pedaqoji fəaliyyətində Simbirsk dövrü ayrıca mərhələ təşkil edir. O, 1869-cu ildə Simbirsk quberniya xalq məktəblərinə inspektor tə'yin edilir. O vaxt Simbirsk istər əhalisinin sayca azlığı, istərsə də sənaye və kənd təsərrüfatının zəif inkişafı ilə fərqlənirdi, Şəhərdə və bütöv quberniyada xalq maarifi zəif inkişaf etmişdi. Bununla bərabər Simbrskdə qabaqcıl ictimai və siyasi fikir inkişaf etməkdə idi. Müxtəlif dövrlərdə burada rus elminin, ictimai və ədəbi fikrin bir sıra görkəmli nümayəndələri yaşamışlar.

Quberniya xalq məktəblərinin inspektoru 1874-cü ildən isə direktoru vəzifəsində işləyən İ.N.Ulyanovun çoxcəhətli və məhsuldar fəaliyyəti nəticəsində quberniyada xalq maarifi geniş miqyasda yenidən qurulmuş və inkişaf etdirilmişdir. Onun yaxından rəhbərliyi və böyük təşkilatçılığı nəticəsində quberniyanın əsasən kənd yerlərində 450-yə qədər yeni məktəb tə'sis edilmiş, 200-ə qədər məktəb binası tikilmiş, şagirdlərin sayı xeyli artmışdır.

İ.Nikolayeviç xalq maarifinin tərəfdarı və hamisi idi. O, quberniya ərazisində xalq maarifi işinin vəziyyətini dərindən öyrənir və zəhmətkeşlər arasında elmi yaymaq üçün iki başlıca istiqamətdə iş aparırdı. Bir tərəfdən xalq məktəbləri üçün müəllim kadrlarının hazırlığı ilə məşğul olur, müəllimlərin tərkibini yaxşılaşdırır, digər tərəfdən məktəb işlərinin, tədris və tərbiyə işinin keyfiyyətini yüksəltməyə çalışırdı.

İ.N.Ulyanovun xalq müəllimləri hazırlamaq ideyası K.D.Uşinskinin bu barədəki fikirlərinin davamı idi. O, Simbirskə gələnə qədər burada fəaliyyət göstərən müəllimlərin böyük əksəriyyəti ibtidai məktəb bitirdiklərindən və ya ev təhsili aldıqlarından pedaqoji fəaliyyətə əsla hazır deyildi və xalq məktəblərinə fayda verə bilmirdi.

İ.N.Ulyanovun sə'yi nəticəsində şəhər qəza məktəbi nəzdindəki pedaqoji kursların vəziyyəti nisbətən yaxşılaşır, dinləyicilərin sayı xeyli artır, yeni müəllimlər seminariyası təşkil edilir. Göstərilən pedaqoji kursların və seminariya məzunlarının get-gedə çoxalması ilə quberniyada xalq məktəbləri nisbətən hazırlıqlı müəllimlərlə təmin olunur. «Ulyanovçu müəllimlər» adlandırılan bu müəllimlər özlərinin bacarığı, humanizmi, demokratik fikirləri ilə fərqlənirdilər.

İ.N.Ulyanov məktəbləri gəzir, müəllimlərin dərslərində iştirak edir, onlara düzgün pedaqoji və metodik göstəriş verirdi. Məhz bunun nəticəsi idi ki, Ulyanovun məktəblərə baş çəkməsi hər dəfə müəllimlərin böyük razılığına səbəb olur, onların əhval-ruhiyyəsini yüksəldirdi. Onun göstərişləri özünün aydınlığı və konkretliyi ilə fərqlənirdi. Məktəblərdə apardığı yoxlamaların nəticəsini əks etdirən və hal-hazırda saxlanılan sənədlər İ.N.Ulyanovun xalq maarifinə, məktəbin idarə edilməsinə, tə'limin səmərə və keyfiyyətini yüksəltməyə nə qədər ciddi-cəhd göstərdiyini əyani sübut edir. Onun bu sahədəki təcrübəsində bu gün də əhəmiyyəti olan cəhətlər çoxdur və öyrənilməyə layiqdir.

İ.N.Ulyanov müəllimlərlə metodik işə ayrıca əhəmiyyət verirdi. Bu cəhətdən onun təşəbbüsü ilə çağırılan qəza müəllimlərinin sahə qurultayları müəllimlərin pedaqoji bilik və bacarığının, ixtisasının təkmilləşdirilməsində mühüm rol oynamışdır. Onun dövründə (1870–1878) quberniyada müəllimlərin 8 qəza qurultayı keçirilmişdir.

İ.N.Ulyanov müəllimlərin böyük dostu idi. O daim xalq müəllimlərinin maddi vəziyyətinin yaxşılaşdırılmasına çalışmış, əmək haqqının artırılmasına, xəstəxanalarda pulsuz müalicə edilməsinə nail olmuşdur. Quberniya müəllimlərinin birinin xatirələrində onun xalq müəllimlərinə humanist münasibəti, xeyirxahlığı ayrıca qeyd edilir.

İnqilaba qədərki Rusiyada quberniya xalq məktəblərinin inspektor və direktorları içərisində İ.N.Ulyanov özünün xalqa yaxınlığı, demokratikliyi ilə fərqlənirdi. Xalq arasında ibtidai təhsilin həyata keçirilməsində, rus dili, hesab, bədən tərbiyəsi və s. fənlərin səmərəliliyinin yüksəldilməsində, yeni tədris üsullarının tətbiqində, tə'limin şüurlu mənimsənilməsində İ.N.Ulyanovun xidmətləri unudulmazdır.

Ulyanov bir sıra məktəblərdə şagirdlərə kənd təsərrüfatına, müxtəlif peşələrə aid bilik verilməsini praktik həyata keçirmişdir. İ.N.Ulyanov tə'limi həyatla bağlamağa çalışır, əhalinin məişəti ilə əlaqədar peşələrin məktəbdə öyrənilməsinə sə'y göstərirdi. Quberniya məktəblərində şagirdlər məktəb üçün əşyalar – stol, stul, digər ləvazimat düzəldir, bir sıra məktəblərdə çəkməçilik, dərzilik, dülgərlik, çilingərlik, dulusçuluq və s. peşələr öyrədilirdi. Bə'zi məktəblərdə şagirdlər bağçılıq, bostançılıq və arıçılıqla da məşğul olurdular.

İ.N.Ulyanov şagirdlərin zehni və müşahidə qabiliyyətlərini inkişaf etdirmək üçün tədris planına rəsm, rəsmxətt, nəğmə daxil edir, bədən tərbiyəsi və idmana xüsusi əhəmiyyət verirdi.

İ.N.Ulyanov səmərəli fəaliyyətində kiçik xalqlara və müəllimlərə humanist münasibət, hörmət və qayğı nümunəsi göstərmişdir. Quberniyanın mordvin, çuvaş və tatar uşaqlarının təhsili daim onun diqqət mərkəzində olmuşdur. Povoljyedə yaşayan əhalinin üçdə birini təşkil edən rus olmayan xalqların təhsili aşağı səviyyədə idi. Bir sıra irticaçıların təzyiqinə baxmayaraq İ.Nikolayeviç onların ana dilində dünyəvi təhsilini həyata keçirməyə

hər cür cəhd göstərmişdir. O, 60-cı illərin mütərəqqi ictimai-pedaqoji hərəkatının, N.İ.Piroqovun, K.D.Uşinskinin arxasınca gedərək rus olmayan xalqların ana dili tə'limini həyata keçirirdi. Onun keçmiş şagirdlərindən, sonralar əmək qəhrəmanı, 55 il çuvaş məktəblərində müəllimlik etmiş İ.Y.Zaytsevin N.K.Krupskayaya göndərdiyi xatirələrində İ.Nikolayeviçin bu sahədəki xidmətləri yüksək qiymətləndirilir. Görkəmli çuvaş maarifçisi və pedaqoqu İ.Y.Yakovlevin ictimai-pedaqoji görüşlərin formalaşmasına və inkişafına İ.N. Ulyanovun möhkəm təsiri olmuşdur. İ.Y.Yakovlev Simbirsk mərkəzi çuvaş məktəbinin direktoru olarkən İ.N.Ulyanovla birlikdə çuvaş xalqının maarif və mədəniyyətinin tərəqqisi sahəsində unudulmaz xidmət göstərmişdir. İ.Nikolayeviç rus olmayan xalqlar üçün müəllim kadrları hazırlığına ayrıca diqqət verir, bu məqsədlə qısamüddətli pedaqoji kurslar təşkil edir, çuvaş şagirdlərə və müəllimlərə maddi kömək göstərilməsinə nail olur, qızları məktəbə cəlb edirdi. Simbirsk mərkəzi çuvaş məktəbi, çuvaş xalq maarifinin mərkəzinə çevrilir, çuvaş əlifbası yaranır, tərcümə və orijinal çuvaş ədəbiyyatının yaranması üçün əlverişli zəmin hazırlanır.

İ.N.Ulyanov həmçinin dövlət tərəfindən tatarlar üçün məktəb açılmasına və əlverişli bina əldə edilməsinə nail olmuşdur.

Ümumiyyətlə, İ.N.Ulyanov qeyri-rus xalqlarına və millətlərinə qayğıkeş münasibətilə diqqəti cəlb etmişdir. Bu keyfiyyət atasından oğluna – V.İ.Leninə də keçmiş və onun inqilabi fəaliyyətində, SSRİ xalqlarının dostluğunun tə'məlinin qoyulmasında özünü bariz şəkildə göstərmişdir.

N.K.Krupskaya məqalələrindən birində yazırdı ki, İlya Nikolayeviçin kim olduğunu axıradək başa düşmək üçün, Nekrasov və Panayevanın redaktəsi ilə nəşr edilən, Belinski, Çernışevski, Dobrolyubovun əməkdaşlıq etdiyi «Sovremennik»i oxumaq lazımdır.

İ.Nikolayeviçin özünün bütün həyatını, bilik və bacarığını xalqın maariflənməsinə, təhkimçilik qalıqlarından azad olması uğrunda mübarizəyə həsr etmişdir. Onun maarifçilik fəaliyyəti XIX əsrin 60-cı illərindən başlayan azadlıq hərəkatı ilə bağlı olmuşdur.

İ.N.Ulyanov 1886-cı il yanvarın 24-də vəfat etmişdir.

«Azərbaycan müəllimi» qəzeti, 24 iyul 1981.

Filantropistlərin pedaqoji ideyaları və təcrübələri

Pedaqogika tarixi kursunun yeni proqramına bir sıra yeni mövzular daxil olmuşdur. Belə mövzulardan biri də «Filantropistlərin pedaqoji ideyaları və təcrübələri»dir.

Mövcud Azərbaycan pedaqoji ədəbiyyatında filantropistlərə aid material olmadığından bu məsələnin tədrisi istər müəlimlər, istərsə də tələbələr üçün müəyyən çətinlik törədir.

Rus pedaqoji ədəbiyyatında filantropistlər haqqında ilk mə'lumata görkəmli sovet pedaqoqu N.K.Krupskayanın «Xalq maarifi və demokratiya» adlı məşhur əsərində rast gəlirik. Hələ Böyük Oktyabr sosialist inqilabından əvvəl, 1915-ci ildə yazılmış və 1917-ci ildə «Cizng i znanie» («Həyat və bilik») nəşriyyatı tərəfindən ilk dəfə nəşr edilən həmin kitabda Avropanın yeni məktəbləri və pedaqoji ideyaları, o cümlədən filantropistlərin nümayəndələri haqqında yığcam mə'lumat verilmişdir. V.İ.Leninin 1916-cı ildə M.Qorkiyə göndərdiyi məktubundan mə'lum olur ki, demokratik görüşlər tarixini tədqiq etmək ən aktual məsələlərdəndir və N.K.Krupskaya bu sahədə ilk addım ataraq demokratik ideyaların marksist təhlilini vermişdir.

N.K.Krupskayanın qeyd etdiyi kimi, hər xalqın tarixində elə momentlər olur ki, istehsal üsulundakı əsas dəyişmələrin tə'siri altında o xalqın bütün həyatı yeni istiqamətdə inkişaf etməyə başlayır. Mövcud olan köhnə qaydalar yeni şəraitlə, təsərrüfat, ailə və hüquq münasibətlərinin yeni tələbləri ilə qətiyyən ayaqlaşmır, yaranmaqda və inkişaf etməkdə olan yeni münasibətlər köhnə ictimai formalara əsla sığmayır, beləliklə də yeniliklə köhnəlik arasındakı uyğunsuzluq kəskinləşir. Keçmiş qaydalar ciddi tənqid obyektinə çevrilir. Dövrün qabaqcıl adamları uzaqgörən zəka sahibləri yeni ictimai münasibət formaları yaratmağın zəruriliyini dərk edirlər. Hər bir xalqın həyatındakı belə hallarda bütün məsələlər, o cümlədən tə'lim-tərbiyə məsələləri xüsusi olaraq geniş, prinsipial surətdə qarşıya qoyulur və öz həllini tələb edir.

Avropa belə bir dövr, mə'lum olduğu kimi, XVIII əsrin sonu, 1789-cu il Fransa burjua inqilabı dövrü və bilavasitə ondan əvvəlki dövr, inqilab ərəfəsi dövrü idi.

V.İ.Lenin yazırdı: «Bu dövr – burjuaziyanın yüksələn xəttidir, ümumiyyətlə, burjua – demokratik hərəkat və xüsusi burjua milli hərəkat dövrüdür, vaxtı keçmiş feodal mütləqiyyətçi tə'sisatın sür'ətlə dağılması dövrüdür» [1].

Ölkənin iqtisadi həyatında baş vern ciddi dəyişiklik, inkişaf etməkdə olan sənaye keçmiş sex qaydası ilə, adət və qanunları ilə üz-üzə dayanmışdı. Pul təsərrüfatı feodal münasibətlərini kökündən dəyişmişdi və kəndli həyatı artıq dözülməz dərəcəyə gəlmişdi. XVIII əsrin ortalarında feodal quruluşu və onun köhnə qaydaları məhsuldar qüvvələrin inkişafı üçün ciddi maneə törədirdi. Mübarizə getdikcə qüvvətlənir, köhnə quruluşun qayda-qanunları tənqid edilirdi. Əvvəllər tamamilə unudulmuş bir halda yaşayan xalq kütlələri artıq səhnəyə çıxmağa başlamışdı.

Xalq kütlələrinin yoxsulluq və cəhaləti artıq göz qabağında dururdu. N.K.Krupskayanın yazdığı kimi, bu vaxtlar ilk dəfə olaraq «xalqdan» danışmağa başladılar. Xalqı maarifləndirmək məsələsi birinci dəfə olaraq qarşıda durdu. O vaxta qədər məktəblər yalnız yuxarı və orta təbəqələrin uşaqları üçün idi. Aşağı təbəqələrin uşaqları üçün olan məktəblər müstəsna bir hal təşkil edir və xüsusi məqsəd daşıyırdı. Xalq maarifi haqqında bu yeni məsələ o zaman qızğın bir surətdə irəli sürülür, xalqın maddi-rifahı və mədəni-maarif işi dövlət qanunvericiliyinin ümumi problemləri ilə əlaqələndirilirdi.

Xalq maarifi məsələləri belə geniş şəkil aldığından, ən mühüm ictimai-iqtasadi və siyasi problemlər çərçivəsində qoyulduğundan o vaxtlar bu məsələnin necə həll edildiyi ilə tanış olmaq sovet pedaqogika elmi üçün çox mühümdür. N.K.Krupskayanın tə'birincə desək, bu iş xalq maarifinin növbəti məsələlərini yeni cəhətdən, yeni şəkildə inkişaf etdirmək işində sovet hakimiyyətinin ilk illərində bizə yaxından kömək etdiyi kimi, hal-hazırda da kömək edə bilər.

N.K.Krupskaya yazırdı: «Vaxtında deyilmiş bu ideyalarla daha yaxından tanış olmaq, bunları o vaxtın iqtisadi və ictimai inkişafı ilə əlaqədar olaraq nəzərdən keçirmək, o zaman aparılan təcrübələrin nə üçün baş tuta bilməyəcəyini, buna səbəb nə olduğunu açıb-aydınlaşdırmaq, bunlarda mühüm və zəruri olan şeylərin həyata

[1] V.İ.Lenin. Əsərləri. Bakı, 1951, XXI cild, s.141.

keçirilməsi üçün nə lazım olduğunu müəyyən etmək müstəsna dərəcədə faydalıdır»[1].

Mə'lumdur ki, XVIII əsrin ortalarından Avropa köhnə quruluşun qayda-qanunlarının tənqid edilməsində Fransanın materialist filosofları və maarifçiləri görkəmli yer tuturlar. F.Engelsin göstərdiyi kimi, fransız materialist filosofları öz dövründə rəsmi dinə, hətta dövlətə qarşı açıq mübarizə edirdilər. Onların əsərləri Fransadan xaricdə nəşr olunur, özləri isə çox vaxt Bastiliya qalasına salınırdılar[2]. V.İ. Leninin dediyi kimi, onlar maarifin yüksəlişini feodal quruluşunun və dinin ləğvi üçün əsas vasitə hesab edirdilər.

Dövrünün feodal tərbiyə sisteminə ciddi zərbə vuran J.J. Russonun (1712–1778), K.A. Helvetsinin (1715–1771), D.Didronun (1713–1774), P.A.Holbaxın (1723–1789) ideyaları bütün Avropa ölkələrinə yayılırdı və xüsusən J.J. Russonun 1761-ci ildə nəşr edilmiş «Emil, yaxud tərbiyə haqqında» əsəri pedaqoji təfəkkürün bütün istiqamətlərinə güclü tə'sir göstərirdi. Russo öz dövrünün tərbiyə üsullarını ciddi surətdə tənqid etməklə o zamankı zəkaları həyəcana gətirmiş və o zamankı tərbiyənin bütün miskinliyini, bütün qeyri-təbiiliyini aydınlaşdırmışdır. Beləliklə, ictimai, o cümlədən pedaqoji təfəkkür bu istiqamətdə inkişaf etməyə başlamış, azacıq əvvəl kimsənin diqqətini cəlb etməyən, tamamilə normal görülən şey, indi e'tiraz doğurur, davam etməkdə olan şeyləri, mövcud qayda-qanunları dəyişdirmək meyli və arzusunu meydana qoyurdu[3].

Şübhəsiz ki, ümumi ictimai şəraitdən asılı olaraq, Russo hər ölkədə başqa cürə anlaşılırdı. «Emil, yaxud tərbiyə haqqında» əsərində irəli sürülən, təbliğ edilən ictimai və pedaqoji ideyalar müxtəlif cərəyanlara mənsub olan hər mütəfəkkirin ümumi dünyagörüşü nöqteyi-nəzərindən keçərək qavranılırdı. Belə cərəyanlardan biri də «filantropistlər» cərəyanı idi.

Filantropizm – yunan sözü olan «filantropiya» sözündəndir. Mə'nası, insanı sevmək, insanpərvərlik (burjua xeyriyyəçiliyi, burjua

[1] N.K.Krupskaya. Xalq maarifi və demokratiya. Bakı, 1935, s.29.

[2] Bax: F.Engels. Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu. Bakı, 1954, s.6.

[3] Bax: N.K.Krupskaya. Xalq maarifi və demokratiya. Bakı, 1935, s.29.

insanpərvərliyi) deməkdir. Filantropistlərə mövcud ədəbiyyatda «bəşəriyyət dostları»da deyilir.

«Filantropizm» adlanan cərəyan XVIII əsrin sonlarında Almaniyada meydana gəlmişdir. Bu, mütərəqqi burjuaziya pedaqoji cərəyanı idi. Bu cərəyan fransız maarifçilərinin, ilk növbədə J.J. Russonun pedaqoji ideyalarının ciddi tə'siri altında idi.

Filantropizm cərəyanının əsası məşhur alman pedaqoqu İohani Bernhard Bazedov (1723–1790) tərəfindən qoyulmuşdur[1].

X.Q.Zalsman (1744–1811), E.X. Trapp (1745-1818), B.Q.Blaşe (1766–1832), İ.Q. Kampe (1746–1818), İ.X.Quts-Muts (1759–1839) və başqaları bu cəryanın ən görkəmli nümayəndələridir.

Filantropistlərin ideyaları Almaniyanın iqtisadi, ictimai və siyasi vəziyyəti zəminində meydana gəlmişdir. Mə'lum olduğu kimi alman dövlətlərində kapitalist istehsal üsulunun elementləri digər Qərbi Avropa ölkələrinə nisbətən gec inkişaf etməyə başlamış və bu inkişaf xeyli zəif getmişdir. XIX əsrə qədər burjuaziya ilə Almaniya feodal dairələri arasında ciddi ziddiyyətlər baş vermişdir. Alman burjuaziyasının ideoloqları belə ictimai quruluşu dəyişmək haqqında düşünmürdülər, onların bütün sə'yi burjuaziyanın da ictimai vəziyyətini dvoryanlarla bərabərləşdirməyə istiqamətlənmişdi.

Bütün bunlara görədir ki, tərbiyə sahəsində də yeni ideyalar, təbii olaraq, zəif inkişaf edirdi, tə'lim-tərbiyənin məzmunu və üsullarından ölkənin iqtisadi həyatı ilə bilavasitə bağlı olan dəyişiklik etmək tələbi də məhz ancaq fəlsəfə və ilahiyyatın köməyilə əsaslandırılırdı.

Pedaqoq – filantropistlərin meydana gəldiyi dövr elə bir tarixi dövr idi ki, cəmiyyətin silki təbəqələşməsi tədricən öz yerini cəmiyyətin sinfi təbəqələşməsinə verməyə başlayırdı. Bunun nəticəsidir ki, filantropik pedaqogikanın bir çox görkəmli nümayəndələrinin görüşlərində kapitalizmin yüksəlişi dövrünə məxsus mütərəqqi elementar silki məhdudluq elementləri ilə birləşir və bütün bunlar filantropistlərin əməli fəaliyyətində öz əksini geniş

[1] «Pedaqoji lüğət»in I cildində (Moskva, 1960, səh.78, rusca) Bernhart, «Pedaqoji ensiklopediya»nın I cildində (Moskva, 1964, s.160, rusca) Bernxart yazılmışdır. Anadan olduğu il həmin lüğətdə 1724-cü il, ensiklopediyada II.IX.1723-cü il kimi getmişdir. Fikrimizcə, ensiklopediya son nəşr olduğundan oradakı tarixi əsas götürmək lazımdır. –H.Ə.

tapırdı. Bununla belə, yetişməkdə olan nəsildən cəmiyyətdə faydalı üzvlər, ictimai inkişafa kömək edə biləcək adamlar hazırlamaq tələblərini irəli sürmək onların ən böyük xidmətlərindən idi.

Hərtərəfli, həyata əməli cəhətdən zəruri olan tərbiyə tələb etməklə, şübhəsiz ki, filantropistlər ilk növbədə zəruri maddi vəsaitlərə malik olan, lakin dvoryanların istifadə etdikləri bir sıra hüquqlardan məhrum edilmiş gənc alman burjuaziyasının nümayəndələrini nəzərdə tuturdular.

Bununla belə, mütləqiyyətə və feodolizmə qarşı mübarizə dövründə burjuaziyanın hüquqlarını müdafiə etmək obyektiv olaraq mütərəqqi hadisə idi və cəmiyyətin inkişaf tələblərinə müvafiq idi.

Filantropistlər o dövrdə Almaniyanın ictimai-iqtisadi inkişafı ilə ayaqlaşmayan mövcud tə'lim-tərbiyə sistemini kökündən dəyişdirməyi qarşılarına məqsəd qoymuşdular. Filantropistlər məktəbin tə'lim işində quru əzbərçiliyə və dil-cavaba, tə'limin məzmununun real həyatın tələblərindən ayrı düşməsinə, orta əsrlərdən bəri təzyiq nəticəsində məktəblərdə saxlanılmış qədim dillərin tədrisinə qüsur kimi baxırdılar. Onlar düşünülmüş dərsliklər və tədris vəsaitləri sisteminin olmamasını, həmçinin gələcək müəllim kadrlarının pedaqoji hazırlığına e'tinasızlığı tə'lim işində böyük maneə hesab edirdilər. Filantropistlər həqiqi tərbiyədə səmərəli başlanğıcın olmamasını, uşaqlara qarşı amansızlığı (qəddarlığı) başlıca və mühüm qüsur kimi qeyd edirdilər.

Əsasən doğmatizmə, dinə əsaslanan hakim pedaqoji görüşlərin əksinə olaraq filantropistlər məktəbi təbiətlə və həyatla bağlamağa, tə'limi fərəhli etməyə, uşaqlardan yararlı vətəndaş-vətənpərvər, fəal və insanların həyatını sevən adamlar hazırlamaq istəyirdilər. Bütün bu ideyalar o zamanlar vahid milli alman hökmranlığı yaratmağa cəhd edən gənc alman burjuaziyasının dünyagörüşü ilə səsləşirdi.

Filantropistlərin nümayəndələri özlərinin pedaqoji ideyalarını təşkil etdikləri yeni tipli tə'lim-tərbiyə müəssisəsində – filantropistlərdə, başqa sözlə desək, internata bənzər xüsusi məktəblərdə həyata keçirirdilər. Belə nümunəvi filantropistlərdən biri ilk dəfə 1774-ci ildə Bazedov tərəfindən Almaniyanın Dessau şəhərində açılmışdır. Bu məktəb əsasən varlı adamların uşaqları üçün nəzərdə tutulmuşdu. Belə ki, orada oxuyanların (pansionçuların)

yaşaması və tə'limi üçün yüksək təhsil haqqı alınırdı. Doğrudur, filantropinə kasıbların da uşaqları qəbul olunurdu və bunlar xeyriyyəçilərin (famulyantların) vəsaiti hesabına oxuyurdular. Onlar əsasən gələcəkdə müəllim, burjua və zadəgan ailələrində uşaqlara ilk tərbiyə və təhsil verən tərbiyəçilər-quvernerlər kimi və hətta aristokrat evlərində qulluqçu vəzifəsini tutmağa hazırlanırdılar.

Beləliklə, filantropinə cəmiyyətin müxtəlif təbəqələrinin uşaqlarının qəbul olunmasına baxmayaraq, o, silki məktəb xarakteri daşıyırdı. Şagirdlər pansionçulara və famulyantlara bölünürdü. Tanınmış vadlideynlərin uşaqlarından olan pansionçular universitetlərə daxil olmaq üçün, kasıb valideynlərin uşaqları isə gələcək quverner vəzifəsinə hazırlanırdı. Bazedov bu barədə yazırdı ki, mənim təkliflərim və pedaqoji əsərlərim prinslərdən (əsilzadələrdən başlamış tacirlərin və rəssamların uşaqlarına qədər ən varlı təbəqələr üçün müəyyən edilmişdir. Bu böyük və artıq qiymətli təbəqənin dünyəvi tərbiyəsi, şübhəsiz, həmin təbəqə üçün lazım olan praktiki xarakter daşımalıdır. Bilik minimum lazımdır, lakin bu minimum yüksək təbəqələrdə olan bilik ehtiyatlarından diqqətlə seçilib götürülməlidir.

Tədris işi elə qurulmuşdu ki, gələcəkdə pansionçuların universitetlərdə təhsili davam etdirmələrinə imkan verirdi. Tədris planına alman, fransız, latın və yunan dilləri, fəlsəfə, əxlaq, riyaziyyat, təbiətşünaslıq, coğrafiya, tarix, musiqi, rəsm və at sürmək daxil idi. Əl işinə, xüsusilə də sənətkarlığa və kənd təsərrüfatına ayrıca fikir verilirdi. Göründüyü kimi, tədris planında latın və yunan dilləri də var idi. Lakin bu dillərin tədrisi əhəmiyyətli yer tutmurdu. Əksinə, filantropistlər o vaxtlar orta məktəblərdə latın və yunan dillərinə üstünlük verilməsinə qarşı ilk dəfə olaraq cəsarətlə açıq mübarizə aparırdılar. Tə'limin məqsədi və üsullarına onlar tamamilə başqa cür yanaşırdılar. Filantropistlərin tə'lim-tərbiyə müəssisələrində əsas diqqət real fənlərə, uşaqları təbiətlə və insanların həyatı ilə tanış edən fənlərə verilirdi.

Bazedov yazırdı: «Təbiət! Məktəb! Həyat!» Əgər bu üçlük arasında dostluq və ekdiemik (uyğunluq, müvafiq olmaq) hakimdirsə, o vaxt insan nə olmalı idisə, elə də olacaqdır, lakin dərhal deyil, tədricən, yə'ni uşaqlıqda şən, gənclikdə xeyirxah və hər şeyi bilmək istəyən, yaşa dolduqda isə məmnun qalmış (tə'min

edilmiş, razı qalmış) və faydalı bir şəxs olacaqdır». Ona görədir ki, Bazedovun fikrincə, «Tərbiyənin başlıca məqsədi uşaqları ictimai-faydalı, vətənpərvərlik və xoşbəxtlik həyatına hazırlamaqdan ibarət olmalıdır»[1].

Ümumiyyətlə, Bazedov və digər filantropistlər təbiyyat fənlərinin və yeni dillərin tədrisinə üstünlük verirdi.

Mə'lum olduğu kimi, təbiyyat-riyaziyyat silsiləsindən olan elmlər, o cümlədən fizika, riyaziyyat, kimya, biologiya, coğrafiya və b. fənlər real təhsil sistemini təşkil edir və şagirdlərə həyati faydası olan bilikləri öyrədir.

Real biliklərə ehtiyac kapitalizmin meydana gəlməsi ilə doğmuşdur, elmin, sənayenin və ticarətin inkişaf tələbləri ilə əlaqədar olmuşdur. Real bilikləri həyata keçirmək hərəkatı klassik təhsil ilə uzunmüddətli mübarizə prosesində inkişaf etmişdir. Bu mübarizə XIX əsrin ortalarında xüsusilə qüvvətlənsə də, onun tarixi kökləri daha əvvəllərdən XVI–XVII əsrlərdən başlamışdır. Məşhur ingilis utopik sosialisti Tomas Mor (1478–1535), İtaliya mütəfəkkiri, utopik kommunizmin görkəmli nümayəndəsi Tommazo Kampanella (1568–1639), intibah dövrü pedaqoji fikrinin görkəmli nümayəndəsi, böyük fransız yazıçısı Fransua Rable (1494–1553), ingilis iqtisadi fikrinin görkəmli nümayəndəsi Uilyam Petti (1623–1687) və başqaları real təhsilin tərəfdarları kimi çıxış etmişlər.

Doğrudur, təhsil sistemində real biliklərin zəruriliyi haqda söylənilmiş fikirlər sonralar klassik pedaqogikanın Y.A.Komenski (1592–1670), Con Lokk (1632–1704), J.J.Russo (1712–1778), Deni Didro (1713–1784), A.Lavuazye (1743–1794) və b. görkəmli nümayəndələri tərəfindən inkişaf etdirilmişdir.

Lakin bununla belə, bu ideya hələ XVII əsrdən alman meşşanlarının varlı hissəsi arasında yaranan və Lyuteran ehkamlığına qarşı çevrilən pietizm cərəyanı tərəfdarları ilə bərabər haqqında bəhs etdiyimiz filantropizm cərəyanının nümayəndələri tərəfindən mənimsənilmiş və inkişaf etdirilmişdir.

Pedaqoq-pietistlərin və bu cərəyanın başçısı olan Avqust Frankenin (1663–1727) başlıca xidməti bunda idi ki, onlar da

[1] İqtibas götürülmüşdür: А.И. Пискунов. Теория и практика трудовой школы в Германии. М.1963, стр.52.

filantropistlər kimi, məktəbdə praktik əhəmiyyəti olan biliklər verilməsinin tərəfdarı olmuş, ilk dəfə bu ideyanı irəli sürmüş və Almaniyada real məktəblərin əsasını qoymuşlar. Lakin sonralar bu cərəyan başlanğıcdakı demokratizmdən uzaqlaşdı və mütləq feodal quruluşunu möhkəmləndirmək silahına çevrildi. XVIII əsrdə pietizm pedaqogikasına qarşı filantropizm və neohumanizm cərəyanı meydana gəldi. Öz sələfləri və müasirləri kimi filantropistlər də təhsil sistemində real biliklərə üstünlük verirdilər.

Filantropistlər latın məktəblərini və onun dinin nüfuzuna əsaslanan sxolastik, doqmatik tə'lim üsullarını dəyişdirməyi, bunları tamamilə yeni tipli məktəblə əvəz etməyi, bu məktəblərdə başlıca yeri real fənlərin tutmasını, tə'lim üsullarının əyaniliyə və şagirdlərin fəallığına istinad etməsini nəzəri cəhətdən əsaslandırmağa çalışırdılar. Həqiqətən də filantropistlərin təşkil etdiyi tədris müəssisələrində tə'lim üsulları əyaniliyə, fəallığa, konkretdən mücərrədə doğru prinsipinə əsaslanırdı. Ekskursiya və oyun tə'lim üsulu kimi geniş tətbiq edilirdi. Şagirdləri təkcə əşya və şeylərin adları deyil, bilavasitə onların özləri ilə tanış edirdilər. Dillərin tədrisi zamanı o vaxtlar geniş yayılmış adi qrammatik-tərcümə üsulu əvəzinə müsahibə üsulundan istifadə edilirdi. Tədris prosesində Y.A.Komenskinin ideyaları ruhunda tərtib edilmiş dərslik və dərs vəsaitlərindən geniş istifadə olunurdu. Gəzintilərə, ekskursiyalara və fiziki terminlərə böyük diqqət verilirdi.

Dessau filantropinində tərbiyənin başlıca xüsusiyyətlərini dinə e'tinasızlıq, yumşaq intizam, tərbiyə olunanlara qarşı diqqətlilik təşkil edirdi. Bazedov filantropinin işinə kilsənin qarışmasına imkan verməməyə çalışırdı. O, din azadlığı tərəfdarı idi.

Bazedovun ideyası və təcrübəsi nəticəsiz qalmadı. Onun ideyasının və təcrübəsinin tə'siri altında Almaniyada daha bir sıra belə tədris müəssisələri yaradıldı. Avropada şöhrət qazanmış belə məktəblərdən biri 1784-cü ildə Almaniyanın Qota şəhəri yaxınlığındakı Şnepfental adlı malikanədə təşkil edilmiş filantropindir. Bu məktəbin əsası Bazedovun müasiri və həmməsləki X.Z.Zalsman tərəfindən qoyulmuşdur.

Məşhur alman filantropisti olan Zalsman 1761–1764-cü ildə İen universitetində ilahiyyat elmlərini öyrənmiş, 1768-ci ildən Erfurtda prostestant keşişi olmuş, 1781-ci ildə Bazedovun yuxarıda

göstərilən filantropinində din müəllimi vəzifəsində işləmiş və 1784-cü ildə özü Şnepfental malikanəsində yeni məktəb-filantropin açmışdır. Bu tədris müəssisəsi xeyli müddət – XX əsrə qədər fəaliyyət göstərmişdir.

Bazedovun Dessaudakı filantropininə nisbətən Zalsmanın açdığı filantropində təhsilin məzmunu daha geniş idi. Açıq-aydın ifadə edilmiş silki xarakter daşıyan ən'ənəvi tərbiyə işində islahat aparmağa cəhd göstərən Zalsman tərbiyəni kübarlar təbəqəsi (əsilzadələr) və bujuaziya uşaqları üçün bərabər etmək istəyirdi. Dessaudan fərqli olaraq, burada həm də ingilis və italyan dilləri tədris edilir, arxeologiya, mühasiblik və hesabdarlıq öyrədilirdi. Gələcəkdə universitetlərə, habelə qulluğa daxil olmaq, ticarət fəaliyyətinə və s. hazırlaşmaq məqsədilə şagirdlərə arzu etdikləri tədris fənlərini seçərək öyrənmək hüququ verilirdi.

Zalsmanın filantropinin tədris planında başlıca yeri real elmlər silsiləsindən olan fənlər təşkil edirdi. Fənlərin tədrisində müxtəlif əyani vasitələrdən, ekskursiyalardan, şagirdlərin müşahidəsindən geniş istifadə edilirdi. C.Lokkun və J.J.Russonun mə'lum ideyalarının ciddi tə'siri altında olan Zalsman əl əməyinin müxtəlif növlərindən, şagirdlərin bağda və bağçada işləməsindən geniş istifadə edirdi. O, həmçinin şagirdlərin xüsusi fiziki qüvvələrini möhkəmləndirmək, onlara həyat üçün faydalı olan bilik, bacarıq və vərdişlər aşılamaq vasitəsi kimi baxırdı.

Zalsmanın filantropinində yeni dillərin tədrisi zamanı başlıca yer formal olaraq qarmmatikanın öyrənilməsinə deyil, şifahi nitq çalışmalarına və müxtəlif kitabların oxunmasına verilirdi.

Filantropin şagirdlərinin həyatının bütün təşkili ailəyə yaxınlaşdırılırdı.

Zalsman tərbiyə işində nümunənin rolunu yüksək qiymətləndirir və ona görə də müəllimləri çox diqqətlə seçirdi.

Zalsmanın tədris müəssisəsində filantropistlərin görkəmli nümayəndələrindən olan B.Blaşe, İ.X.Quts-Muts və b. fəaliyyət göstərmişdir.

Zalsman bir sıra əsərlərin müəllifi kimi də şöhrət qazanmışdır. Onun ən çox yayılmış əsərlərindən «Xərçənglər haqqında kitab»ı (1780) göstərmək olar. Bu kitabda o, çoxlu misallarla, nümunələrə əsasən mövcud tərbiyə praktikasının

möhkəmliyini göstərir. Onun digər əsəri – romanı «Konrad-Kifer, yaxud uşaqların ağıllı tərbiyəsi üçün nəsihətnamə» (1796) adlanır. Başqa bir əsəri isə 1806-cı ildə nəşr edilən «Qarışqalar haqda kitab»dır. Sonuncu əsər müəllimlər üçün rəhbər kitab olub, dövrümüzə qədər öz əhəmiyyətini saxlamışdır.

Dünyagörüşü e'tibarilə Zalsman öz müasiri olan Fransa burjua inqilabına mənfi münasibət bəsləyir və belə hesab edirdi ki, maarif və islahatların köməyilə cəmiyyətdə sülh yolu ilə arzu edilən dəyişikliyə nail olmaq mümkündür.

Alman filantropist-pedaqoqlarının görkəmli nümayəndələrindən biri də Ernest Xristian Trappdır. Qettingel universitetini bitirən Trapp bir müddət orta məktəbdə işləmiş, 1777–1779-cu illərdə Dessauda Bazedovun məktəbində çalışmış, sonra isə Qalle universitetində pedaqogika professoru olmuşdur. 1786-1790-cı illərdə Braunşveyqdə məktəb direksiyasının üzvü olmuş, məktəb sistemi layihəsinin işlənməsində fəal iştirak etmiş, məktəbin kilsədən asılı olmamasına çalışmışdır. O, ruhanilərlə yaranan narazılıqlar nəticəsində iste'faya çıxmağa məcbur olmuşdur.

Trapp filantropizm cərəyanının məşhur nəzəriyyəçilərindən olmuş, o, məktəbin kilsədən və dövlətdən asılı olmaması uğrunda ardıcıl çıxış etmişdir.

Trapp ən'ənəvi klassik gimnaziyanın əleyhinə olmuş, bütün filantropistlərin rə'yini ifadə edərək, məktəbdə əsas fikri qədim dillərin öyrədilməsinə deyil, faydalı və həyati əhəmiyyətli biliklərin tədris edilməsinə verməyi lazım bilirdi. O belə hesab edirdi ki, əgər mövcud məktəblər köhnə, ən'ənəvi qədim dillərin tədrisindən hələlik əl çəkmək istəmirlərsə, onda qədim dillərin öyrədilməsinə erkən yaşlardan deyil, 15 yaşdan sonra başlamaq, həm də ancaq elmi fəaliyyətə hazırlaşanlara öyrətmək lazımdır.

Trapp özünün ən böyük əsəri olan «Pedaqogikanın təcrübəsi»ndə (1780) tərbiyənin nəzəriyyə və təcrübəsini psixologiya və fiziologiyanın nəticələrinə istinad edərək əsaslandırmağa cəhd etmiş, müəllim kadrları hazırlığına müstəsna əhəmiyyət vermiş, müəllimlərin, hər şeydən əvvəl, ümumi pedaqogikanı, xüsusi metodikaları, insan və insan cəmiyyəti haqqındakı elmləri bilməsini zəruri hesab etmiş, tə'lim və tərbiyə işində şagirdlərin fəallığına arxalanmağı, məşğələlərin çətinliyini uşaqların əqli və fiziki

imkanları ilə uyğunlaşdırmağı lazım bilmişdir. O, rəğbətləndirməyə üstünlük vermiş, cəzanı isə çox nadir hallarda tətbiq etməyi məqsədəuyğun hesab etmişdir.

Trappın göstərilən əsəri XVIII əsrin sonlarında gənc alman burjuaziyasının pedaqoji ideyalarının bütöv qanun külliyyatı olmuşdur.

Filantropistlərin görkəmli nümayəndələrindən biri də Bernxard Henrix Blaşedir. Blaşe XVIII əsrin sonu, XIX əsrin əvvəllərində müxtəlif məktəblərdə, o cümlədən Zalsmanın filantropinində əl əməyi və təbiətşünaslıq tədris etmişdir. Əmək tə'limi məsələlərini işləyən ilk pedaqoqlardan olan Blaşe əl əməyinə uşaqlarda müxtəlif alətlərlə davranmaq vərdişi verən, tədris materiallarının xeyli hissəsini fəal, əyani bir surətdə öyrənmək vasitəsi kimi baxırdı. O, şagirdlərin sənətkarlıqla tanış olmasına ayrıca əhəmiyyət verir və bunu gəncləri həyata hazırlamaq vasitəsi hesab edirdi. Blaşe Almaniyada əl əməyinə metodiki rəhbərliyin ilk müəllifi olmuş və onun əsərləri kütləvi surətdə geniş istifadə edilmişdir.

Filantropistlərin başqa bir nümayəndəsi olan İoaxim Henrix Kampe uşaq yazıçısı və filoloq olmuşdur. O, Xelmştedt və Qalle universitetlərində fəlsəfə və ilahiyyat öyrənmiş, bir müddət möizəçi (bir fikri, nəzəriyyəni təbliğ edən), sonra isə ev tərbiyəçisi olmuşdur. 1777-ci ildə Hamburq şəhərinə gedərək ədəbi fəaliyyətlə məşğul olmuş və iri ticarət burjuaziyasının uşaqları üçün pansion təşkil etmişdir. 1786-cı ildə məktəbləri maarifçilik ideyası ruhunda yenidən qurmaq üçün Braunşveyqə də'vət edilmiş, lakin ruhanilər və yerli dvoryanların təzyiqi nəticəsində məktəb müşaviri vəzifəsini tərk etmişdir. Onun ən mühüm xidmətlərindən biri pedaqoji və uşaq ədəbiyyatı nəşr etməyi təşkil etməsidir. Filantropist-pedaqoqların kollektiv əsərlərinin nəşri onun xidmətlərindəndir və bu əsərlər o vaxtlar – maarifçilik dövründə qabaqcıl alman pedaqogikasının qanun külliyyatını təşkil edirdi. O, J.J. Russonun «Emil», C.Lokkun «Tərbiyə haqqında fikirlər» əsərinin alman dilində tərcüməsinə şərhlər yazmışdır. 1799-cu ildə özünün yazdığı kimi, «Fransız despotizminin dəfnində iştirak etmək üçün» Parisə getmiş və inqilab zamanı yazdığı «Parijdən məktubları»nda o, Fransa inqilabçı xalqının nailiyyətlərini sevinclə təsvir etmişdir. Onun «məktublar»ı

mütərəqqi dairələrdə müsbət əks-səda yaratmaqla, mürtəce dairələrdə ona qarşı kin-nifrət oyatdı. Kampenin xidmətləri Fransada yüksək qiymətləndirilmiş və ona digər 18 xarici vətəndaş ilə 1892-çi ildə Qanunvericilik məclisi tərəfindən Fransanın fəxri vətəndaşı adı verilmişdir.

Kampenin nəşr etdirdiyi «Uşaq və gənclər üçün əsərlər külliyyatı» geniş yayılmış, onun «Yeni Robinzon» əsəri XIX əsrin sonlarında 117 dəfə nəşr edilmişdir. Kampe alman dilində 5 cildlik lüğətin müəllifi kimi də şöhrət qazanmışdır.

Nəhayət, filantropistlərin sonuncu məşhur nümayəndəsi İohani Xristof Fridrix Quts-Mutsdur. Onun ən böyük xidməti fiziki tərbiyə nəzəriyyəsini işləməklə bağlıdır. O, əsərlərində məktəblərdə fiziki temrinlərin: gimnastika, oyun, əl əməyi və s. tətbiqini tələb etmişdir. Quts-Muts bunlara uşaqların fiziki qüvvələrini hərtərəfli inkaşaf etdirən mühüm bir vasitə kimi baxırdı. O, Zalsmanın məktəbində texnologiya, idman, üzgüçülük və coğrafiyadan dərs demiş, həm də coğrafiyanın tədris üsuluna bir sıra yeniliklər etmişdir. Onun «Gənclər və kişilər üçün texniki çalışmalar»(1801), «Gənclik üçün idman» (1793), «Coğrafiya dərsliyi» (1810), «Coğrafiyanın metodikası» (1835)əsərləri və s. geniş yayılmışdı.

Deyilənləri yekunlaşdıraraq qeyd etmək lazımdır ki, o zamanlar iqtisadi və siyasi cəhətcə geridə qalmış Almaniyada meydana gələn yeni pedaqoji cərəyan-filantropistlər cərəyanı və onun görkəmli nümayəndələri J.J. Russo tərəfindən təbliğ edilən təbiətə qayıtmaq, təbii şəraitə qayıtmaq zəruriyyətinə hər şeydən artıq əhəmiyyət verirdilər. Onlar öz məktəblərini şəhərlərdə deyil, təbiətin ağuşunda açır, sağlamlığa, davamlı olmağı, səyahətə, açıq və təmiz havadakı oyunlara çox böyük əhəmiyyət verirdilər. Zalsmanın fikrincə, hətta uşaqların mənimsəməsi üçün sual-cavab formasında şərh edilən xristian ilahiyyəti üzrə ibtidai kursda belə (katexizisdə-sual-cavab kitabında) sağlamlığa aid bir sıra suallar, məsələn, özünü diş ağrısından necə qorumalı, görmə itiliyini necə mühafizə etməli və s. olmalıdır.

Filantropistlərdə şagirdlər sadə paltar geyinir, sadə yeməklər yeyirlər. Russonun «uşaqda hər hansı bir müəyyən rejim alışqanlığı tərbiyə edilməlidir» fikrini «həyata keçirən» Bazedov öz filantropinində «təsadüfi günlər» adlanan bir qayda qoymuşdur ki, bu

günlərdə adi həyat alt-üst edilirdi. Məsələn, uşaqlar bütün gecəni oyaq keçirir və ya bütün gün ərzində heç bir şey yemirdilər və s.

Lakin sözün həqiqi mə'nasında, filantropistlər Russonun ideyalarının əsas ruhunu anlamaqdan çox-çox uzaq idilər. Onlar Russonun ideyasının mahiyyətini deyil, formasını rəhbər götürürdülər. Doğrudur, görkəmli alman yazıçısı və pedaqoqu, Jan Pol ləğəbi ilə tanınan, «Levan, yaxud tərbiyə haqqında tə'lim» adlı məşhur pedaqoji əsərin müəllifi Fridrix Rixter (1763–1825) Bazedovu «Russonun mə'nəvi izahatçısı və təbliğçisi» adlandırırdı». Lakin N.K.Krupskayanın yazdığı kimi, Rixterin belə deməsinə səbəb onun özünün Russonu çox dar səthi və bə'zi vaxt hətta gülünc bir şəkildə başa düşməsidir. N.K.Krupskaya yazırdı: «Ümumiyyətlə, «Emil»in iliyinə qədər işləmiş olan demokratik ruh filantropistlər üçün yabançı idi, onlar həmin əsərdə əməyə, əməkçilərə bəslənilən hörməti anlamayırdılar»[1].

Məsələn, Zalsman xalq üçün yazdığı «Konrad Kifer» romanında Russonun ideyalarının kəndlinin həyat şəraitinə necə tətbiq edilə biləcəyini bədii formada göstərməyə çalışırdı. Lakin o, Russodan ancaq Almaniyanın o zamankı siyasi və ictimai şəraitində həyata keçirilə biləcək şeyləri götürdüyündən məsələnin bütün ictimai cəhətini unudurdu. «Emil»in ruhunu təşkil edən və onun öz müasirlərində o qədər böyük tə'sir buraxmasını tə'min etmiş olan hər şeyi götürüb kənara atırdı.

N.K. Krupskayanın tə'birincə desək, hərflər arxasınca gedən filantropistlər «Emil»in əsas ruhuna, başlıca ideyasına e'tinasız qalmışlar.

Mə'lumdur ki, Russo «Emil» əsərində tərbiyə edəcəyi uşağı varlı dairədən götürmüşdür. O nə üçün belə etmişdir? Çünki Russo ümumiyyətlə, insanı necə tərbiyə etmək lazım olduğunu göstərməyi qarşısına məqsəd qoymuşdu. Russo bu münasibətlə yazır: «Mənə gəlincə mən ona elə bir rütbə vermək istəyirəm ki, heç zaman itməsin. Hər zaman onu şərəfli etsin. Mən onu insan mərtəbəsinə çatdırmaq istəyirəm».

Bazedovun isə bşlıca məqsədi zadəganlardan başlamış tacirlər və rəssam uşaqları olmaqla varlı təbəqələr üçün dünyəvi bilik

[1] N.K.Krupskaya. Xalq maarifi və demokratiya. Bakı, 1935, s.30.

vermək idi və bu biliklər onlar üçün həyati əhəmiyyət kəsb edən biliklər olmalı idi.

Başqa sözlə, Russo insan tərbiyəsindən, Bazedov isə imtiyazlı təbəqələrin uşaqlarının tərbiyəsindən danışırdı. Russonun ictimai və pedaqoji ideyalarının ruhunu anlamaqdan Bazedovun nə dərəcədə uzaq olduğu, həm də bundan görünür ki, onun filantropinində təhsil alan «famulyantlar» – kasıb valideynlərin uşaqları imtiyazlı təbəqələrdən olan tələbələrin ixtiyarında olan nökər-tələbə hesab olunurdular. «Famulyantlar» onların çəkmələrini təmizləyir, çarpayılarını yığışdırır, onlar tərəfindən istənilən iş üçün göndərilirdi. Bə'zən cəza olaraq imtiyazlı təbəqələrdən olan tələbələr də «famulyant» dərəcəsinə keçirilir və ağır işlər görməyə məcbur edilirdilər. Ümumiyyətlə, fiziki iş alçaq, yalnız aşağı təbəqələr üçün yararlı bir iş hesab edilirdi. Həm də filantropinlərdə fiziki əmək tətbiq edilsə də, ancaq bir əyləncə kimi, bir kef vasitəsi kimi, fiziki qüvvəni inkişaf etdirmək vasitəsi kimi tətbiq edilirdi. Məhsuldar əmək, sözün həqiqi mə'nasında, alçaq bir əmək hesab edilirdi.

Russo isə məsələyə tamamilə başqa mövqedən yanaşırdı. O, əsil insanı əməkdən kənarda təsəvvür edə bilmirdi. Russonun fikrincə, insan kimsədən heç bir şeylə asılı olmadıqda istədiyi kimi yaşamaq haqqına malik olur.

Russo insanlar arasında fərq qoymur və göstərirdi ki, əmək hər bir kəsin labüd ictimai vəzifəsidir, istər dövlətli, istər yoxsul, istər qüvvətli, istər zəif olsun, əməkdə iştirak etməyən hər hansı bir vətəndaş oğrudur.

Russonun fikirlərində əməyə dərin hörmət, imtiyazlar üzərində qurulmuş təbəqələrə ayrılmış sinifli cəmiyyətə qarşı nifrətli bir e'tiraz var idi.

Filantropistlər isə bunu eşitmirdi. Bütün bu fikirlər onlar üçün «yeddi möhür altında saxlanılan bir kitab idi» (N.K.Krupskaya).

Beləliklə, filantropistlərin nəzəriyyə və təcrübəsində məhsuldar əmək, yalnız hifz-səhiyyə və məhdud pedaqoji məqsəd daşıyırdı.

Pedaqoji nöqteyi-nəzərdən filantropistlərin ideyaları bir çox cəhətdən qüsurlu idi. Onların məqsədi ancaq burjuaziyanın bə'zi təbəqələrinin xüsusi tələblərini tə'min etmək idi.

Lakin Russonun ideyalarının əsl ruhunu filantropistlər dərk etməsələr də, o zamanlar Fransadan bir qədər başqa şəkildə olsa da, inqilab ərəfəsində olan İsveçrədə Russonun ideyaları qüvvətli bir tə'sir buraxdı. Bu ideya İsveçrənin məşhur pedaqoqu olan Pestalotsi tərəfindən mənimsənildi.

Nəhayət, burasını da qeyd etmək lazımdır ki, filantropizm cərəyanı nümayəndələrinin pedaqoji ideyalarında və təcrübi fəaliyyətlərində bir çox məhdud cəhətlər, yanlış fikirlər olmasına baxmayaraq, onlar məktəb və pedaqoji fikir tarixində xeyli iz buraxmışlar. Pedaqoq-filantropistlər uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq tə'lim üsullarının təkmilləşməsinə kömək etmişlər. Onlardan bə'ziləri, məsələn, Quts-Muts məktəb gimnastikasının, Blaşe əmək tə'liminin, Kampe uşaq ədəbiyyatının, Trapp isə pedaqoji təhsilin əsasını qoymuşlar.

XIX əsrin sonlarında yeni tərbiyə tərəfdarları filantropistlərin pedaqoji ideyalarından və təcrübələrindən müəyyən dərəcədə istifadə etmişlər.

«V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitunun Elmi əsərləri» 1977, №6 s.47–57.

MÜNDƏRİCAT

AZƏRBAYCAN PEDAQOJİ FİKİR TARİXİ

1.	Elmi redaktordan.....	3
2.	N.Nərimanovun pedaqoji fəaliyyəti haqqında (Həştərxan dövrü).....	5
3.	N.Nərimanovun həyatı və pedaqoji fəaliyyətinin ilk dövrü (1871 – 1890).....	12
4.	N.Nərimanovun həyatı və mədəni maarifçilik fəaliyyətinin Həştərxan dövrü.....	24
5.	R.Əfəndiyevin pedaqoji fikirləri.....	35
6.	Unudulmaz müəllim (Ü.Hacıbəyov haqqında).....	52
7.	N.Nərimanov əmək tərbiyəsi haqqında.....	64
8.	Sənədlər danışır.....	67
9.	Tarixi qurultay.....	69
10.	«Həyat» qəzetində tə'lim-tərbiyə məsələləri.....	80
11.	S.M.Qənizadənin pedaqoji fikirləri.....	82
12.	Böyük pedaqoq, unudulmaz müəllim (N.Nərimanov haqqında).....	92
13.	Böyük pedaqoqun ilk ardıcılı (M.Ə.Elxanov haqqında).....	104
14.	«Əkinçi»də xalq maarifi və məktəb məsələləri.....	109
15.	N.Nərimanovun bir məqaləsi haqqında «Məktəbyaşlı uşaqların döş qəfəsinə diqqət yetirmək nə üçün zəruridir».....	113
16.	Pedaqoji irsimizin güzgüsü.....	121
17.	Pedaqoji irsimizi dərindən öyrənək.....	125
18.	Görkəmli maarifçi (A.O.Çernyayevski haqqında).....	129
19.	«Əlifba» dərsliyi məsələsinə dair bə'zi qeydlər.....	136
20.	Məmmədəli Səfiyev ilk rus dili müəllimidir.....	139
21.	Görkəmli pedaqoq, maarifçi və metodist.....	143
22.	Sovet Azərbaycanın ilk pedaqoqu.....	149
23.	M.F.Axundov ana dili məktəbi uğrunda mübarizədə.....	154
24.	Pedaqogika tarixi kursunun səviyyəsini yüksəldək.....	163
25.	Ü.Hacıbəyov müəllim və onun hazırlığı haqqında.....	168
26.	Elmi-pedaqoji əlaqələrimiz.....	175
27.	Pedaqogika elminin görkəmli tədqiqatçısı (Ə.Seyidov haqqında).....	177
28.	Təvazökar alim (M.Muradxanov haqqında).....	184
29.	Tanınmış Azərbaycan maarifçisi Səidrza Əlizadə.....	186

30.	N.Nərimanov müəllim haqqında	194
31.	80 yaş nədir ki?	196
32.	Qərbi Azərbaycan ziyalılarının ümumi Azərbaycan maarifi, elm və mədəniyyətinin inkişafında tarixi xidmətləri	198
33.	Heydər Hüseynov Azərbaycanda maarif, elm və mədəniyyətin inkişafında tarixi xidmətləri	209
34.	Uşaq və gənclərin böyük dostu, hamisi və qayğıkeşi	216
35.	Doğruçuluq carçısı, həqiqət mücəssəməsi	224
36.	Tarixi-pedaqoji problemlər	226
37.	Pedaqoji irsimizi dərindən öyrənək	232
38.	Nəsrəddin Tusi fəzilət və ədalət mücəssəməsidir	237
39.	N.Nərimanov tə'lim və tərbiyə haqqında	242
40.	Alim ömrü	250
41.	Hörmətli Nübar xanım	252
42.	Azərbaycan Respublikasının Konstitusiyası demokratik prinsipləri özündə əks etdirən tarixi sənəddir	254
43.	Qur'ani – Kərimdə ailə tərbiyəsi	259
44.	Həmişə Gülən Tapdıq	267
45.	Şərqin əxlaq nəzəriyyəçisi	268
46.	Əbədiyyətə qovuşan ömür	276
47.	Azərbaycan xalq pedaqogikasının qiymətli incisi	280
48.	Pedaqogika tarixi diqqət mərkəzində	289
49.	Pedaqogika tarixinin tədrisini və tədqiqini təkmilləşdirməli	294
50.	Elmi-pedaqoji əlaqələrimiz genişlənir	299
51.	Yenidənqurma və tarixi pedaqoji tədqiqatlar	303
52.	Axtarışlar davam edir	308
53.	Pedaqoji elmlərin güzgüsü (Sovetskaya pedaqogika jurnalı haqqında)	312
54.	Azərbaycan pedaqogikasının ağsaqqalı	317
55.	«Azərbaycan məktəbi» jurnalının baş redaktoru, filologiya elmləri namizədi, əməkdar müəllim Zəhra xanım Əliyeva	319
56.	Uğurlu addımlar	320
57.	Cəfakeş alim	324
58.	Məktəb və pedaqoji fikir	333
59.	Ana dili dərsliyi problemində ilk addım	338
60.	Nəsillərə nümunə	345
61.	Unutsaq unudularıq	351

62.	Böyük dostluq nəğməkarı (T.Q.Şevçenko haqqında).....	357
63.	A.S.Makarenko və Azərbaycan.....	364
64.	K.D.Uşinskinin pedaqoji ideyalarının Azərbaycanda yayılmasına dair.....	373
65.	Görkəmli demokrat – pedaqoq, məşhur metodist və maarifçi (İ.N.Ulyanov haqqında).....	382
66.	A.S.Makarenkonun pedaqoji irsi Azərbaycan məktəbi və pedaqogikasının tükənməz mənbəyidir.....	390
67.	N.K.Krupskaya kiçik yaşlı məktəblilərin tərbiyəsində nümunənin rolu haqqında.....	396
68.	N.K.Krupskaya və Azərbaycan.....	404
69.	Ümumdünya pedaqoji elminin korifeyi.....	414
70.	Pedaqogika tarixi kursundan mühazirələr.....	420
71.	Pedaqogika tarixi kursunun predmeti və vəfzifələri.....	423
72.	İbtidai icma cəmiyyətində tərbiyə.....	428
73.	İbtidai icma quruluşunda tərbiyənin xarakteri.....	429
74.	İbtidai icma quruluşunun dağılması dövründə tərbiyə.....	432
75.	Quldarlıq cəmiyyətində tərbiyə və pedaqoji fikrin yaranması.....	437
76.	Qədim Yunanıstanda pedaqoji nəzəriyyələrin yaranması.....	438
77.	Qədim Romada pedaqoji və metodiki müddəaların hazırlanması.....	444
78.	Feodalizm cəmiyyətində tərbiyə, məktəb və pedaqoji fikir.....	445
79.	Müstəmləkəçi kapitalizmə qədərki dövrdə məktəb və pedaqogika.....	452
80.	Tərbiyənin təbiətə müvafiqlik anlayışı.....	457
81.	Məktəb təliminin təşkili. Sinif-dərs sistemi.....	463
82.	A.S.Makarenko Bakıda.....	467
83.	Uşinski və Azərbaycan pedaqoji fikri.....	469
84.	Rus pedaqogikasının atası.....	472
85.	Müəllimlərin müəllimi.....	475
86.	İ.N.Ulyanov.....	478
87.	Filantropistlərin pedaqoji ideyaları və təcrübələri.....	483

Akademik
Hüseyn Mustafa oğlu Əhmədov

SEÇİLMİŞ PEDAQOJİ ƏSƏRLƏRİ

Otuz ciliddə

II cild

Hümeyir Hüseyn oğlu Əhmədovun
ümumi rəhbərliyi ilə hazırlanmışdır.

İdeya müəllifi:
YAŞAR

Maliyyə dəstəyi:
II Hüseyn Mustafa oğlu Əhmədov

Texniki redaktor:
Ruhiyyə Eyvazova

Qrafik dizayn:
ƏZİZƏ

(təkrar elektron nəşr)
Çapa imzalanmışdır: 20.05.2003
Kağız formatı: 60x84 1/16
Şərti çap vərəqi: 31,25
Tiraj: 500